# QURAN ELMLƏRİ

## *DƏRSLİYİ*

***(orta mərhələ)***

Bakı-2014

AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA
İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN
07 dekabr 2010-cu il Dh-691/H saylı məktubu əsasında
çap olunmuşdur.

Kitabın adı: **QURAN ELMLƏRİ** ***dərsliyi*** *(orta mərhələ)*

Müəllif: **Hüseyn Cavan Araste**

Tərcümə edən: **Elnurə Kərimova,**
**Mətanət Hüseynova,**
**Samir Ağayev**

Redaktor: **Mətanət Hüseynova**

Operator: **Həbib Əliyev**

**QURAN ELMLƏRİ dərsliyi.**
Bakı, "MİRASNƏŞR", 2014, 336 səh.

**Kitabın bütün hüquqları əl-Mustafa adına**
**Beynəlxalq Universitetə məxsusdur.**

ISBN: 978-9952-490-63-3

# MÜNDƏRİCAT


**ÖN SÖZ......................................................................................................7**

**BİRİNCİ HİSSƏ: KÜLLİYYAT..........................................................................11**
**Birinci fəsil:** "Quran elmləri" və bu sahədə yazılan əsərlərə qısa baxış ........................13
Müxtəlif əsrlərdə Quran elmlərinə dair yazılan mühüm əsərlər
və onların müəllifləri.....................................................................................15
**İkinci fəsil:** "Quran"ın adları və vəsfləri ..............................................................19
**Üçüncü fəsil:**"Quran" sözünün mənaları ...............................................................25
**Dördüncü fəsil:** Müsəlmanların səmavi kitabının "Quran" adlanmasının səbəbi ........28
**Beşinci fəsil:** Quranın ərəb dilində olması ............................................................30
**Azad mütaliə:** Quran – müsəlmanların səmavi kitabının xüsusi adı ............................34

**İKİNCİ HİSSƏ QURANIN TARİXİ (1):**
**VƏHY.......................................................................................................37**
**Birinci fəsil:** Müqəddimə ......................................................................................39
**İkinci fəsil:** "Vəhy" Quranda ..................................................................................41
**Üçüncü fəsil:** Peyğəmbərlərə gələn vəhy və onun qisimləri.........................................43
**Dördüncü fəsil:** Müstəqim vəhy və onun əlamətləri ..................................................46
**Beşinci fəsil:** Qeyri-müstəqim vəhy ........................................................................48

**ÜÇÜNCÜ HİSSƏ: QURANIN TARİXİ (2):**
**QURANIN NÜZULU.........................................................................................51**
**Birinci fəsil:** Quranın nüzulu və Be`sət...................................................................53
**İkinci fəsil:** Birdəfəyə nüzul və tədrici nüzul..........................................................59
**Üçüncü fəsil:** Şə`ni-nüzul.......................................................................................64
**Dördüncü fəsil:** Quranda ayə və surə .....................................................................70
**Beşinci fəsil:** Birinci və sonuncu ayə. Birinci və sonuncu surə. ..................................80
**Altıncı fəsil:** "Məkki" və "mədəni" surələr ..............................................................83

**DÖRDÜNCÜ HİSSƏ: QURANIN TARİXİ (3):**
**QURANIN YAZILMASI VƏ YIĞILMASI ..............................................................89**
**Birinci fəsil:** Həzrət Peyğəmbərin (s) dövründə
Qurani-Kərimin yazılması və yığılması ..........................................................................91
**İkinci fəsil:** Həzrət Əli ibn Əbu Talibin (ə) mushəfi ...................................................104
**Üçüncü fəsil:** Birinci xəlifə Əbu Bəkrin dövründə Quranın cəm edilməsi.................107
Müqəddimə ........................................................................................................107
Quranın Həzrət Peyğəmbərin (s) vəfatından sonra
cəm edildiyini qəbul edənlərin dəlilləri ..................................................................108
Yəmamə döyüşü və onun aci nəticələri ................................................................. 111
Zeyd ibn Sabit tərəfindən Quranın cəm edilməsi
("ikinci cəm") hansı üsulda aparıldı?.......................................................................112
Quranın Həzrət Peyğəmbərin (s) vəfatından qabaq
cəm edildiyini qəbul edənlərin dəlilləri ...................................................................114

“Səhifələr”in bir yerə cəm edilməsi, yoxsa Quranın
bir “mushəf”də cəm edilməsi?....118
Səhabələrin mushəfləri....119
Ubəyy ibn Kə`bin mushəfi....121
Ubəyy ibn Kə`bin mushəfinin əsas xüsusiyyətləri....122
Abdullah ibn Məs`udun mushəfi....124
İbn Məs`udun mushəfinin əsas xüsusiyyətləri....125
**Dördüncü fəsil**: Quranın üçüncü xəlifə Osman ibn Əffanın
dövründə cəm edilməsi....128
**Beşinci fəsil**: Quranın yazı xətti....139
Quranda sözlərin hərəkələnməsi....141
Hərflərin nöqtələnməsi....143
Quranın yazı xəttində dəyişikliklər və düzəlişlər
aparmağa icazə verilirmi?....144
Osmani yazı xəttinin nümunələrindən....147
**BEŞİNCİ HİSSƏ:QURANIN TARİXİ (4):**
**QURANIN QİRAƏTLƏRİ....151**
**Birinci fəsil**: Quranın qiraətinin keçdiyi mərhələlər....153
Müxtəlif qiraətlərin yaranmasına səbəb olan amillər....158
**İkinci fəsil:** Qiraətlərin qeyri-mütəvatir olması....163
**Üçüncü fəsil:** Əhrufu-səb`ə....167
Əhli-sünnə qaynaqlarında “əhrufu-səb`ə” hədisi....167
“Əhrufu-səb`ə” hədisi şiə qaynaqlarında....169
“Əhrufu-səb`ə” məzmunlu hədislər şiə alimlərinin baxışında....170
“Əhrufu-səb`ə” məzmunlu hədislər
əhli-sünnə alimlərinin baxışında....171
**Azad mütailə:** Qiraətlər arasındakı fərqlərin qisimləri....173
**Dördüncü fəsil**: Yeddi qiraət....179
Müqəddimə....179
İbn Mücahidin təşəbbüsü....180
İbn Mücahid və yeddi qiraət....180
Yeddi qari....183
**Azad mütaliə**:Yeddi qarinin tərcümeyi-halı....185
**Beşinci fəsil:** Qiraətlərin qəbul edilmə meyarları....192

**ALTINCI HİSSƏ: QURAN TƏHRİF OLUNMAYIB....197**
**Birinci fəsil:** Külliyyat....199
Müqəddimə....199
Şiə məzhəbi Quranın təhrif olunmadığına etiqad bəsləyir....200
**İkinci fəsil**: İslam alimlərinin nəzəri....205
Şeyx Mirzə Nuri və onun “Fəslul-xitab” əsəri....206
**Üçüncü fəsil:** Quranın təhrif olunmadığına dair dəlillər....208
**Dördüncü fəsil**: Quranın təhrif olunduğuna etiqad bəsləyənlərin dəlilləri....218

**YEDDİNCİ HİSSƏ: QURANIN MÖCÜZƏLİYİ**.......................................................**225**
**Birinci fəsil**: Külliyat...................................................................................227
“Ecaz” sözünün lüğəvi mənası ...........................................................................227
“Ecaz” və “möcüzə” sözünün terminoloji mənası...............................................228
Ən yaxşı möcüzə (Möcüzələrin müxtəlifliyinin fəlsəfəsi)......................................228
Quranın digər xüsusiyyətləri..............................................................................229
**İkinci fəsil:** Təhəddi .......................................................................................231
Quranda təhəddi ayələri.....................................................................................231
Təhəddi - “azalmağa doğru”, yoxsa “artmağa doğru”...........................................233
“Sərfə” nəzəriyyəsi ............................................................................................234
Quranın bənzərini yaratmaq cəhdləri..................................................................235
**Üçüncü fəsil:** Quranın möcüzəvi cəhətləri...........................................................238

**SƏKKİZİNCİ HİSSƏ: NASİX VƏ MƏNSUX**.................................................**255**
Müqəddimə .......................................................................................................257
**Azad mütaliə: ..................................................................................................259**
**Birinci fəsil:** “Nasix və mənsux” mövzusu barədə qələmə alınan əsərlər .................259
**İkinci fəsil:** “Nəsx”in lüğəvi və terminoloji mənası...............................................262
“Nəsx”in lüğəvi mənası .....................................................................................262
**Azad mütaliə...................................................................................................263**
**Üçüncü fəsil:** “Nəsx”in şərtləri ..........................................................................267
“Nəsx”in tərifi ...................................................................................................272
**Dördüncü fəsil:** “Nəsx”in mümkünlüyü və baş verdiyi ...........................................273
**Beşinci fəsil** ....................................................................................................276
**Azad mütaliə:**“Nəsx”i inkar edənlərin iradları......................................................276
**Altıncı fəsil**: “Nəsx”in qisimləri.........................................................................279
**Yeddinci fəsil:** Nəsx aşiqləri ..............................................................................282
**Səkkizinci fəsil:** Nasix və mənsux ayələrin araşdırılması......................................285

**DOQQUZUNCU HİSSƏ: MÖHKƏM VƏ MÜTƏŞABİH** ...................................**291**
Müqəddimə.......................................................................................................293
**Birinci fəsil**: Möhkəm və mütəşabih ....................................................................295
“Möhkəm” və “mütəşabih”in izahı.......................................................................295
Möhkəm və mütəşabihin müəyyən edilməsi ........................................................297
**İkinci fəsil:** Quranda mütəşabihlərin olmasının fəlsəfəsi.......................................299
**Üçüncü fəsil:** Mütəşabih ayələrin bəzi nümunələri.................................................303
Mütəşabih ayələrə qısa baxış .............................................................................303
**Dördüncü fəsil:** Tə`vil .......................................................................................310

**ONUNCU HİSSƏ: QURANI-KƏRİM BARƏDƏ**
**YETMİŞ DİQQƏTƏLAYİQ MƏQAM** .......................................................................315
**Azad mütaliə**...................................................................................................316
Müqəddimə.......................................................................................................316
İstifadə olunan ədəbiyyat:...................................................................................331

# ÖN SÖZ

***(ixtisarla)***

Mütəal Allah Qurani-Kərimi belə vəsf edir:

إِنَّ هذَا الْقُرْءَانَ يَهْدِى لِلَّتِى هِىَ أَقْوَمُ ...

***“Həqiqətən bu Quran ən səbatlı, ən doğru yol və ayinə yönəldir...”[1]***

Qurani-Kərim İslam maarifinin ən etibarlı mənbəyi və İslam peyğəmbərinin (s) əbədi möcüzəsidir. Bu kitab təhrifə uğramayan yeganə səmavi kitabdır. Bəşər onun kiçik surəsi kimi bir surə yaratmaqda acizdir.

Qurani-Kərim bir nurdur:

... وَ أَنْزَلْنَا إِلَيْكُمْ نُورًا مُبِينًا.

***“... Biz sizə parlaq bir nur nazil etdik.”[2]***

Qurani-Kərim səadət zamini və hidayət mənbəyidir:

... كِتَابٌ أَنْزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ ...

***“Bu elə bir kitabdır ki, Rəbbin izni ilə insanları zülmətdən nura çıxarasan deyə Biz onu sənə nazil etdik...”[3]***

Qurani-Kərim başdan-başa şəfa və rəhmətdir:

وَ نُنَزِّلُ مِنَ الْقُرْءَانِ مَا هُوَ شِفَاءٌ وَ رَحْمَةٌ لِلْمُؤْمِنِينَ ...

***“Biz Qurandan möminlər üçün şəfa və rəhmət olanı nazil edirik...”[4]***

Qurani-Kərim Allah tərəfindən göndərilən aydın həqiqətdir:

وَ بِالْحَقِّ أَنْزَلْنَاهُ وَ بِالْحَقِّ نَزَلَ ...

***“Biz onu (Quranı) haqq olaraq nazil etdik, o da haqq olaraq nazil oldu...”[5]***

Qurani-Kərimin qorunacağına və təhrifə uğramayacağına açıq şəkildə zəmanət verilib:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَ إِنَّا لَهُ لَحَافِظُونَ.

---

[1] İsra surəsi, ayə: 9.

[2] Nisa surəsi, ayə: 174.

[3] İbrahim surəsi, ayə: 1.

[4] İsra surəsi, ayə: 82.

[5] İsra surəsi, ayə: 105.

***"Şübhəsiz ki, Biz Zikri (Quranı) tədricən nazil etdik və şübhəsiz ki, Biz onun mühafizəçisi olacağıq."*** [1]

Qurani-Kərim əmr və qadağaları bəyan edir, düyünləri açır:

... وَ نَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِكُلِّ شَيْءٍ وَ هُدًى وَ رَحْمَةً وَ بُشْرَى لِلْمُسْلِمِينَ.

***"Biz hər şeyi bəyan edən, müsəlmanlara hidayət, rəhmət və müjdə olan bu Kitabı (Quranı) sənə nazil etdik."*** [2]

Qurani-Kərim elə uca bir həqiqətə malikdir ki, əzəmətli Allah onu **"əzəmətli Quran"** [3] adlandırır, onun **"ağır bir kəlam"** [4] olduğunu Öz Peyğəmbərinə (s) xatırladır.

Qurani-Kərim ən gözəl kəlamdır:

اَللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ ...

***"Allah sözün ən gözəlini nazil etdi..."*** [5]

Qurani-Kərim elə gözəl bir kəlamdır ki, təkrar-təkrar oxumaq onun cəzzablığını azaltmır, maddi insanı mənəvi və əbədi aləmə pərvazlandırır, ona pakizə həyatı göstərir.

Bu müqəddəs əmanətin həyat bəxş edən qanun və göstərişlərinə əməl etmək sayəsində İslam cəmiyyəti çox az bir müddət ərzində dünyanın yarısına hakim ola, dövrün misilsiz və heyrətamiz bəşər mədəniyyətini yarada bildi. Məhz Qurani-Kərim sayəsində İslam mədəniyyəti bəşər mədəniyyəti tarixinin ən əzəmətli və iftixarlı mərhələsi adını qazandı.

O vaxtadək ki, bu şölələnən hidayət məşəli İslam cəmiyyətinin yolunu işıqlandırırdı, izzət, əzəmət, iqtidar, şövkət və bütün ali insani keyfiyyətlər müsəlmanlarda idi. Elə ki, Quran müsəlmanların həyat səhnəsindən yavaş-yavaş çıxarılmağa başladı, onların izzət, əzəmət və iqtidarı da zəvala uğramağa başladı. Heç şübhəsiz, müsəlmanların tənəzzül və geridə qalmalarını onların Quranı kənara qoymalarında axtarmaq lazımdır. Əgər bu müqəddəs kitab, bu böyük və qiymətli xəzinə bizim düşmənlərimizin ixtiyarında olsaydı, ondan ən son həddə faydalanardılar.

Təəssüflər olsun ki, biz müsəlmanların, hətta ali təhsillilərimizin çoxunun Quranla tanışlığı azdır. Müsəlman cəmiyyətlərində Quran özünün layiqli yerini tutmamışdır. Əlbəttə, İran İslam inqilabından sonra müsəlmanların Qurana qayıdış hərəkatı başlandı.

Dünyapərəstlərin hay-küyü, geniş zəhərli təbliğatları nəticəsində dəyərlərin unudulduğu bu təşviş dolu çağdaş dövrdə mənəviyyat boşluğu hər dövrdən daha çox görünməkdədir. Bunun da nəticəsi soyuq və cansız həyatdan yorulub

---

[1] Hicr surəsi, ayə: 9.
[2] Nəhl surəsi, ayə: 89.
[3] Hicr surəsi, ayə: 87.
[4] Muzzəmmil surəsi, ayə: 5.
[5] Zumər surəsi, ayə: 23.

bezməkdir. Bu səbəbdən də, hal-hazırkı dövrdə vəhy təlimlərini, qanunlarını həyatımızın bütün sahələrinə - fərdi, ictimai, siyasi və s. - hakim etmək zərurəti biz müsəlmanlar üçün həmişəkindən daha çox hiss olunur. Necə ki, Həzrət Peyğəmbər (s) buyurmuşdur:

إِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْفِتَنُ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْءَانِ؛ فَإِنَّهُ شَافِعٌ مُشَفَّعٌ وَ مَاحِلٌ مُصَدَّقٌ. وَ مَنْ جَعَلَهُ أَمَامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ وَ مَنْ جَعَلَهُ خَلْفَهُ سَاقَهُ إِلَى النَّارِ وَ هُوَ الدَّلِيلُ يَدُلُّ عَلَى خَيْرِ سَبِيلٍ... وَ لَهُ ظَهْرٌ وَ بَطْنٌ... ظَاهِرُهُ أَنِيقٌ وَ بَاطِنُهُ عَمِيقٌ. لَهُ نُجُومٌ وَ عَلَى نُجُومِهِ نُجُومٌ، لَا تُحْصَى عَجَائِبُهُ وَ لَا تُبْلَى غَرَائِبُهُ، فِيهِ مَصَابِيحُ الْهُدَى وَ مَنَارُ الْحِكَمِ...

***“Fitnələr sizi zülmət gecə tək bürüdüyü zaman Qurana üz tutun. Çünki onun şəfaəti qəbul olunur və bəndələrin əməlləri barədə verdiyi xəbərlər təsdiq edilir. Hər kim Quranı özünə rəhbər etsə, Quran onu Cənnətə yönəldər və hər kim Quranı arxaya atsa, Quran onu Cəhənnəmə tərəf çəkər. O, bir bələdçidir ki, insanı ən yaxşı yollara yönəldər... Quranın zahiri və batini vardır. Onun zahiri cilvəli və gözəl, batini isə dərindir. Onun ulduzları, ulduzlarının da ulduzları vardır. Qəribəlikləri saya gəlmir və köhnəlmir. Onda hidayət və hikmət çıraqları vardır...”***[1]

Bilməlisiniz ki, Qurani-Məcidi düzgün başa düşmək üçün öncədən bir sıra mövzuları bilmək gərəkdir. “Quran elmləri” də məhz bu mövzuların - Quranı başa düşmək və izah etməkdən ötrü gərəkli olan mövzuların – məcmusudur. “Quran elmləri”, yəni Quranla bağlı mövzular İslam tarixinin elə ilk əsrlərindən din alimləri və tədqiqatçılarının diqqət mərkəzində olan mövzular olmuşdur.

“Quran elmləri”nə dair yazılan əsərləri 4 dəstəyə ayırmaq olar:

1) “Quran elmləri”nin hansısa bir mövzusu barədə, məsələn, Quranın qiraəti, möcüzəliyi, təhrifə uğramaması, möhkəm və mütəşabih ayələri, nasix və mənsux ayələri və s. mövzulardan biri barədə bəhs edən əsərlər;

2) “Quran elmləri”nin bir neçə mövzusu barədə bəhs edən əsərlər;

3) “Quran elmləri”nin bütün mövzularından bəhs edən əsərlər, məsələn, Zərkeşinin “əl-Burhan fi Ulumil-Quran” və Siyutinin “əl-İtqan fi Ulumil-Quran” əsərləri;

4) Müfəssirlərin öz təfsir kitablarında “Quran elmləri”nin mövzuları barədə etdiyi bəhslər.[2]

Qarşınızdakı kitab qələmə alınarkən yuxarıdakı üslublardan ikincisi nəzərdə tutulmuşdu. Yəni bu kitabda “Quran elmləri”nin bir sıra mühüm və əsas mövzuları açıqlanmış, mövzuların məntiqi tərtibatına riayət edilməyə səy göstərilmişdir.

---

[1] Usuli-kafi, c.2, s.599; Biharul-ənvar, c.89, s.17, hədis: 16.

[2] Şiə və əhli-sünnənin əlli beş təfsir kitabından “Quran elmləri”nə aid mövzular üç cildli “Ulumil-Quran indəl-mufəssirin” adlı kitabda yığılmışdır. Bu kitab Quran tədqiqatçıları üçün gözəl bir mənbədir.

Digər tərəfdən bu kitab "orta mərhələ" (səthi-mutəvəssit) üçün dərslik məqsədilə hazırlandığına görə səy göstərilmişdir ki, hər bir mövzuda orta həddə riayət edilsin. Beləliklə də, kitab həm həcm, həm də mövzu baxımından ağırlaşmasın və Quran elmləri ilə tanış olmaq istəyənlər öz istəklərinə asanlıqla nail ola bilsinlər.

## *Qarşınızdakı kitab barədə:*

**1-** Qarşınızdakı kitab on hissədə tərtib edilmiş, hər bir hissə bir neçə fəsli əhatə edir.

**2-** Kitabın hissələri aşağıdakı başlıqlar altındadır:

***Külliyyat, Vəhy, Quranın nüzulu, Quranın cəm edilməsi, Quranın qiraətləri, Quranın təhrif olunmaması, Quranın möcüzəliyi, Nasix və mənsux ayələr, Möhkəm və mütəşabih ayələr, Quran barədə yetmiş diqqətəlayiq məqam.***

**3-** Mövzuların məntiqi düzülüşünə diqqət yetirilmişdir.

**4-** Kitabın hər hissəsinin əvvəlində həmin hissədə nəzərdə tutulan hədəflər qeyd olunmuşdur. Bu, tələbələrdə maraq yaratmaqla yanaşı, mövzular barədə ümumi anlayış də yaradır.

**5-** İstifadə olunan əsas mənbələr kitabın hər hissəsinin əvvəlində qeyd olunmuşdur. Bu isə üç məqsəd daşıyır: istinad mənbələrini tanımaq, mütaliə üçün mənbələri tanımaq, hər hissənin sonunda verilən araşdırma üçün sualları cavablandıra bilmək.

**6-** Hər fəslin əsas mətləbləri xülasə şəkildə fəslin axırında qeyd olunmuşdur.

**7-** Kitabın hər hissəsinin axırında fəsillərə aid suallar və araşdırma üçün suallar qeyd olunmuşdur. Hər fəsil tədris olunduqca bu fəsilə aid suallar da soruşulmalıdır.

**8-** Quran ayələrinin tərcüməsində Ustad Məhəmmədməhdi Fuladvəndin tərcüməsindən istifadə edilmişdir.

**9-** Bəzi faydalı mətləblər dərs saatına sığmadığı üçün "Azad mütaliə" başlığı altında verilmişdir.

**10-** "Quran elmləri dərsliyi" adlı bu kitab orta mərhələ üçün nəzərdə tutulmuşdur.

***Vəl-həmdu lilləh.***
***Hüseyn Cavan Araste***
***Şəhrivər, h.ş.1375-ci il.***

# BİRİNCİ HİSSƏ

# KÜLLİYYAT

## *Birinci hissə:* Külliyyat

***Birinci fəsil:*** **"Quran elmləri" və bu sahədə yazılan əsərlərə qısa baxış**

***İkinci fəsil:*** **"Quran"ın adları və vəsfləri**

***Üçüncü fəsil:*** **"Quran" sözünün mənaları**

***Dördüncü fəsil:*** **Müsəlmanların səmavi kitabının "Quran" adlanmasının səbəbi**

***Beşinci fəsil:*** **Quranın ərəb dilində olması**

## *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- "Quran elmləri" termini və bu sahədə yazılan əsərlər ilə tanış olmaq;
- "Quran"ın adları və vəsflərini bilmək;
- "Quran" sözünün mənalarını bilmək;
- Bu səmavi kitabın "Quran" adlanmasının səbəbini bilmək;
- Quranın dili olan ərəb dilinin üstünlükləri ilə tanış olmaq.

## *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**Qurani-Kərim**; İbn Nədimin **"əl-Fihrist"** əsəri; **"əl-Burhan fi Ulumil-Quran"** əsərinin müqəddiməsi; **"ət-Təmhid fi Ulumil-Quran"** əsərinin müqəddiməsi; **"Mucizu Ulumil-Quran"**; **"Mənahilul-irfan"**; **"Ulumi-Quran və fehrest-e mənabe"**; **"əl-Quranil-Kərim və rəvayatul-mədrəsətəyn"**; **"Bəyyinat"** dərgisi, 3-8-ci saylar; **"Seyre-neqareşhaye Ulumi-Quran"** məqaləsi; **"Keyhane-əndişə"** dərgisi, 28-ci sayı, **"Seyre -tarixiye təfsir və Ulumi-Quran"** məqaləsi.

# Birinci fəsil

## “Quran elmləri” və bu sahədə yazılan əsərlərə qısa baxış

Quran elmləri, Qurani-Kərimi başa düşmək üçün öyrənilən bir sıra mövzulardır. Başqa sözlə, ilahi ayələrin mənasını başa düşüb şərh etmək üçün öncədən hər bir təfsirçi və tədqiqatçının bilməsi zəruri olan bir sıra mövzular “Quran elmləri”dir.

Zərqaninin “Quran elmləri”nə verdiyi tərif belədir:

“Quran elmləri – Quranın nüzulu, (ayə və surələrin) tərtibi, cəm edilməsi, kitabəti (yazılması), qiraəti, təfsiri, nasix və mənsux ayələri və bu kimi Qurana aid mövzulardır.”[1]

Göründüyü kimi, “Quran elmləri”nə verilən bu tərif bu sahədə bəhs ediləcək mövzulara müəyyən bir hədd qoymur. Elə bu səbəbdən, bəziləri bu mövzuların sayının əlli, bəziləri səksən, bəziləri dörd yüz, bəziləri daha artıq olduğunu qeyd etmişlər.[2] Əslində, bu fərqin əsas səbəbi Qurana aid mövzularda alimlərin müxtəlif üslublarda bölgülər aparmalarıdır. Məsələn, Bədrəddin Məhəmməd ibn Abdullah Zərkeşinin “əl-Burhan fi Ulumil-Quran” əsərinin mündəricatında qırx yeddi mövzu[3] olduğunu görürük, amma Cəlaləddin Siyutinin “əl-İtqan fi Ulumil-Quran” əsərinin mündəricatında mövzuların sayı səksənə[4] çatır.

Müsəlmanların Qurani-Kərimə “ilahi vəhy və əbədi möcüzə” kimi böyük əhəmiyyət vermələri, onu mənimsəməyə böyük maraq göstərmələri səbəb olmuşdu ki, İslamın zühur etdiyi elə ilk əsrdə Həzrət Peyğəmbərin (s) tanınmış səhabələri, sonralar isə böyük din alimləri Quran təfsirinə və Quranla bağlı mövzulara xüsusi diqqət göstərsinlər.

“Quran elmləri” alimlərinin qeyd etdiyinə görə, Quran təfsirində və Quranla bağlı müxtəlif mövzularda Həzrət Əli ibn Əbu Talib (ə) bütün tanınmış səhabələrdən öndə olmuş, hətta İbn Abbas kimi böyük şəxsiyyət Quran təfsirini ondan öyrənmişdir.[5] Cəlaləddin Siyuti deyir:

“Xəlifələr arasında hamıdan çox Əli ibn Əbu Talib Quranla bağlı mövzuları açıqlamışdır.”[6]

---

[1] Mənahilul-irfan, c.1, səh.27.
[2] Mucizu Ulumil-Quran, səh.18.
[3] əl-Burhan fi Ulumil-Quran, c.1, səh.102.
[4] əl-İtqan fi Ulumil-Quran, c.1, səh.20.
[5] əl-Burhan fi Ulumil-Quran, c.2, s.157.
[6] əl-İtqan fi Ulumil-Quran, c.2, s.87.

Tanınmış səhabələr Abdullah ibn Abbas, Abdullah ibn Məs`ud, Ubəyy ibn Kə`b ibn Qeys və başqaları Quran təfsiri və qiraəti sahəsində öz dövrlərinin böyük alimləri olmuş, çoxları onlardan Quran öyrənmişdir.

Quran təfsirinə və Quranla bağlı müxtəlif mövzulara dair əsərlər hicri-qəməri 2-ci əsrdən etibarən yazılmağa başlandı. Elə bu dövrdən başlayaraq çox sayda alimlər bu mövzularda əsərlər qələmə aldılar.

Biz burada əvvəlcə "Quran elmləri"nə dair yazılan ilk əsərlər və onların müəlliflərinin adını qeyd edəcək, sonra isə müxtəlif əsrlərdə bu sahədə yazılan mühüm əsərləri nəzərdən keçirəcəyik.

## Quran elmləri sahəsində yazılan ilk əsərlər və onların müəllifləri

**1-** Yəhya ibn Yə`mər (vəfat tarixi: h.q. 89-cu il): Qiraət elmi barədə bir əsər qələmə almışdır.[1]

**2-** Həsən Bəsri (vəfat tarixi: h.q. 110-cu il): "**نزول القرءان و عدد ءَاى القرءان**" (Nuzulul-Quran və ədədu-ayil-Quran) əsərinin müəllifidir.

**3-** Abdullah ibn Amir Yəhsəbi (vəfat tarixi: h.q. 118-ci il):

"**اختلاف مصاحف الشام و الحجاز و العراق و المقطوع و الموصول**" (İxtilafu məsahifiş-Şam vəl-Hicaz vəl-İraq vəl-Məqtu vəl-Musul) əsərinin müəllifidir.

**4-** Əta ibn Əbu Muslim Meysərətul-Xorasani (vəfat tarixi: h.q. 135-ci il): "Nasix və mənsux" mövzusunda əsər yazan ilk müəllifdir.

**5-** Məhəmməd ibn Saib Kəlbi (vəfat tarixi: h.q. 146-cı il): "Əhkamul-Quran"[2] mövzusunda əsər yazan ilk alimdir.[3]

**6-** Əban ibn Təğlib (vəfat tarixi: h.q. 141-ci il): Qiraət elmi, "Mə`anil-Quran"[4] və "Ğəribul-Quran"[5] mövzularında əsər yazan ilk müəllifdir.

**7-** Xəlil ibn Əhməd Fərahidi (vəfat tarixi: h.q. 170-ci il): Ərəb hərflərinin nöqtələnməsi onun tərəfindən həyata keçirilmiş və o, yazı xəttindəki yeniliyin müəllifidir.[6]

**8-** Əli ibn Abdullah Sə`di: "Əsbabun-nuzul" (ayələrin nazil olma səbəbləri) mövzusunda əsər yazan ilk alimdir.

**9-** Məhəmməd ibn Cuneyd (vəfat tarixi: h.q. 281-ci il): "Əmsalul-Quran"[7] mövzusunda əsər qələmə alan ilk müəllifdir.

---

[1] ət-Təmhid, c.1, s.7; Məhəmmədəli Məhdəvirad, "Seyr-e neqareşhaye Ulum-e Quran".

[2] Şəriət hökmləri ilə bağlı ayələr, əhkam ayələri.

[3] Məhəmmədəli Məhdəvirad, əvvəlki qaynaq; "ət-Təmhid fi ulumil-Quran" kitabının müqəddiməsi.

[4] Quran ayələrinin fəsahət və bəlağət baxımından araşdırılması.

[5] Quranın çətin anlaşılan söz və ifadələrindən bəhs edən sahə.

[6] "əl-Burhan" kitabının müqəddiməsi, c.1, s.48.

[7] Quranda çəkilən məsəllər, bənzətmələr.

**10-** Məhəmməd ibn Yezid Vasiti (vəfat tarixi: h.q. 306-cı və yaxud 309-cu il): "Quranın möcüzəliyi" mövzusunda "اعجاز قرءان" adlı əsər yazmışdır. Təəssüflər olsun ki, bu əsər bizə gəlib çatmamışdır.[1]

Bəzi quranşünaslar hicri-qəməri 3-cü əsrin alimlərindən olan Əli ibn Mədinini "Əsbabun-nuzul" və Əbu Ubeyd Qasim ibn Səlamı "Nasix və mənsux" mövzusunda əsər yazan ilk alimlər hesab etmişlər.[2]

## Azad mütaliə

### Müxtəlif əsrlərdə Quran elmlərinə dair yazılan mühüm əsərlər və onların müəllifləri

***Hicri 1-ci əsr:***

Yəhya ibn Yə`mər (vəfat tarixi: h.q. 89-cu il) "Qiraət" mövzusunda əsər yazmışdır.

***Hicri 2-ci əsr:***

Həsən Bəsri (vəfat tarixi: h.q. 110-cu il), Abdullah ibn Amir Yəhsəbi (vəfat tarixi: h.q. 118-ci il), Əta ibn Əbu Muslim Meysərətul-Xorasani (vəfat tarixi: h.q. 135-ci il), Əban ibn Təğlib (vəfat tarixi: h.q. 141- ci il), Məhəmməd ibn Saib Kəlbi (vəfat tarixi: h.q. 146-cı il), Hüseyn ibn Vaqidi Mərvəzi (vəfat tarixi: h.q. 151-ci il), Xəlil ibn Əhməd Fərahidi (vəfat tarixi: h.q. 170-ci il).[3]

***Hicri 3-cü əsr:***

Fərra adı ilə tanınan Yəhya ibn Ziyad (vəfat tarixi: h.q. 207-ci il) "معانى القرءان" (Mə`anil-Quran) və bir neçə başqa əsərin müəllifidir;

Məhəmməd ibn Cuneyd (vəfat tarixi: h.q. 281-ci il) "امثال القرءان" (Əmsalul-Quran) əsərinin müəllifidir;

Məhəmməd ibn Məs`ud Əyaşi bir çox əsərlərin, o cümlədən, öz adı ilə tanınan "Əyaşi təfsiri"nin müəllifidir;

Qasim ibn Səlam (vəfat tarixi: h.q. 224-cü il) "الناسخ و المنسوخ" (ən-Nasux vəl-mənsux), "القراءات" (əl-Qira`at), "فضائل القرءان" (Fəzailul-Quran) əsərlərinin müəllifidir.

***Hicri 4-cü əsr:***

Məhəmməd ibn Yezid Vasiti (vəfat tarixi: h.q. 306-cı və ya 309-cu il) "اعجاز قرءان" (İ`cazu-Quran) əsərinin müəllifidir;

---

[1] Dr. Əliəsğər Hələbi, "Aşenayi ba ulume-Quran" (Quran elmləri ilə tanışlıq), s.132.

[2] Mənahilul-irfan, c.1, s.31.

[3] Adları sadalanan bu alimlərin əsərləri yuxarıda qeyd olundu.

Əbu Əli Kufi (vəfat tarixi: h.q. 346-cı il) "**فضائل القرءان**" (Fəzailul-Quran) əsərinin müəllifidir;

İbn Cərir Təbəri (vəfat tarixi: h.q. 310-cu il) təfsir mövzusunda məşhur əsərin müəllifidir;

Əbu Bəkr ibn Qasim Ənbari (vəfat tarixi: h.q. 328-ci il) "**عجائب علوم القرءان**" (Əcaibu Ulumil-Quran) əsərinin müəllifidir;

Seyid Rəzi (vəfat tarixi: h.q. 406-cı il) "**تلخيص البيان فى مجازات القرءان**" (Təlxisul-bəyan fi məcazatil-Quran) əsərinin müəllifidir.

İbn Nədim **"əl-Fihrist"** adlı əsərində onun dövrünədək, yəni hicri-qəməri 4-cü əsrədək Quran elmlərinə dair yazılan bir çox əsərlərin və onların müəlliflərinin adlarını qeyd etmişdir. Bu, Quranla bağlı müxtəlif mövzulara dair saysız əsərlər yazıldığını göstərməkdədir. Biz burada həmin əsərlərin yalnız sayını göstərməklə kifayətlənirik:

- Təfsir mövzusunda təxminən 45 əsərin adı qeyd olunub;
- "Mə`anil-Quran" mövzusunda 20-dən çox əsər;
- "Luğatul-Quran"[1] mövzusunda 6 əsər;
- Qiraətlər mövzusunda 20-dən çox əsər;
- "ən-Nəqtu vəş-şəklu lil-Quran"[2] mövzusunda 6 əsər;
- "Mutəşabihul-Quran" (Quranın mütəşabih ayələri) mövzusunda 10 əsər;
- "Nasixul-Quran və mənsuxihi" (Quranın nasix və mənsux ayələri) mövzusunda 18 əsər.[3]

Hicri-qəməri 5-ci əsrdən başlayaraq Quranla bağlı mövzulara dair daha çox əsərlər yazılmağa başlandı.

Qeyd etmək lazımdır ki, hicri-qəməri ilk yüzilliklərdə "Quran elmləri"nə daxil olan mövzular indiki ilə müqayisədə daha çox idi. Belə ki, həmin yüzilliklərdə "Quran təfsiri" də Quranın tarixi, möcüzəliyi, nasix və mənsux ayələri və s. mövzular kimi "Quran elmləri"nə daxil idi. Amma mövzuların çoxalması tədricən Quran təfsirinin "Quran elmləri"ndən ayrılmasına səbəb oldu.[4]

Zərqani deyir:

"“Quran elmləri" sahəsində əsər qələmə almış alimlər arasında geniş yayılan fikir budur ki, "Quran elmləri" termini hicri-qəməri 7-ci əsrdə meydana gəlib. Lakin mən "Darul-kutubil-Misriyyə"də (Misir kitabxanası) "Hufi" adı ilə tanınan Əli ibn İbrahim ibn Səidin (vəfat tarixi: h.q. 430-cu il) otuz cildlik: **"البرهان فى علوم القرءان" (əl-Burhan fi Ulumil-Quran)** adlı kitabına rast gəldim ki, onun on beş cildi indiyədək qalıb. Buna görə də deyə bilərik ki, bu sahə hicri-qəməri 5-ci əsrdə yaranıb."[5]

---

[1] Quran leksikologiyası.
[2] Hərflərin nöqtələnməsi və sözlərin hərəkələnməsi.
[3] əl-Fihrist, s.52-59.
[4] Əvvəllər "Quran elmləri"ndən sayılan "Təcvid" elmi də, hal-hazırda ayrıca bir sahə sayılır.
[5] "Mənahilul-irfan". c.1, s.35.

Zərqani “Quran elmləri”nin tarixi haqqında bəhs etdikdən sonra belə bir nəticəyə gəlir:

"“Quran elmləri” bir sahə, fənn kimi hicri-qəməri 4-cü əsrin sonlarında İbrahim ibn Səid Hufi tərəfindən yaradıldı, hicri-qəməri 6-cı və 7-ci əsrlərdə isə İbn Cuzi (vəfat tarixi: h.q. 597-ci il), Səxavi (vəfat tarixi: h.q. 641-ci il) və Əbu Şamə (vəfat tarixi: h.q. 665-ci il) tərəfindən inkişaf etdirildi. Hicri-qəməri 8-ci əsrdə Zərkeşi, 9-cu əsrdə isə Kafici və Cəlaləddin Bəlqininin zəhmətləri sayəsində bu sahə təkmilləşdi. 9-cu əsrin sonu və 10-cu əsrin əvvəllərində Siyuti bu sahəni daha da təkmilləşdirdi.”[1]

Quranla bağlı mövzuları əhatə edən ilk əsər hicri-qəməri 8-ci əsrdə Zərkeşinin qələmə aldığı **“əl-Burhan fi Ulumil-Quran”** adlı əsəridir. O vaxtadək Quranla bağlı mövzuları əhatə edən belə bir mükəmməl əsər qələmə alınmamışdı. Belə ki, Siyuti özündən əvvəlki müəllifləri Quran elmlərini (mövzularını) əhatə edən bir əsər qələmə almamaqda qınayarkən, “əl-Burhan fi Ulumil-Quran” əsərini mütaliə etdikdə məmnun qalmış, sonra özü bu sahədə geniş bir əsər yazmaq qərarına gəlmişdir.[2]

Hal-hazırda Cəlaləddin Siyutinin (vəfat tarixi: h.q. 911-ci il) **“əl-İtqan fi Ulumil-Quran”** əsəri “Quran elmləri” sahəsində ən mühüm mənbələrdən biridir. Bu əsəri yazarkən Siyutinin ən mühüm istinad mənbəyi isə “əl-Burhan fi Ulumil-Quran” əsəri olmuşdur.

“əl-İtqan fi Ulumil-Quran” əsərindən sonra “Quran elmləri” sahəsində bir müddət əsərlər yazılmadı və bu sahə özünün durğunluq dövrünü yaşadı. Həmin müddət ərzində yalnız “Quran elmləri”nin bəzi mövzularına dair əsərlər qələmə alındı.

Sevindirici haldır ki, son yüzillikdə bir çox alimlər “Quran elmləri”nin müxtəlif mövzularına dair dəyərli əsərlər qələmə almışlar. O cümlədən:

1- Əllamə Məhəmmədcavad Bəlağinin “**ءَالاء الرحمان**” adlı təfsirinin müqəddiməsində bu mövzulardan bəhs edilir;

2- Məhəmməd Əbdul-Əzim Zərqaninin “**مناهل العرفان فى علوم القرءان**” (Mənahilul-irfan fi Ulumil-Quran) əsəri;

3- Dr. Subhi Salehin “**مباحث فى علوم القرءان**” (Məbahisu fi Ulumil-Quran) əsəri;

4- Əbu Abdullah Zəncaninin “**تاريخ القرءان**” (Tarixul-Quran) əsəri;

5- Dr. Mahmud Ramyarın “**تاريخ قرآن**” (Tarix-e Quran) əsəri;

6- Dr. Seyid Məhəmmədbaqir Huccətinin “**پژوهشی در تاريخ قرآن كريم**” (Pəjuheş-e dər tarix-e Qurani-Kərim[3]) əsəri;

7- Əllamə Təbatəbainin “**قرآن در اسلام**” (Quran dər İslam[4]) əsəri;

---

[1] “Mənahilul-irfan”. c.1, s. 39.

[2] “əl-İtqan”, c. 1, s. 7-16.

[3] Qurani-Kərimin tarixinin araşdırılması.

[4] İslamda Quran.

8- Ayətullah əl-üzma Xoinin “البيان فى تفسير القرءان” (əl-Bəyan fi təfsiril-Quran) əsəri;

9- Məhəmmədhadi Mərifətin “التمهيد فى علوم القرءان” (ət-Təmhid fi Ulumil-Quran) əsəri;

10- Dr. Davud əl-Əttarın “موجز علوم القرءان” (Mucizu Ulumil-Quran) əsəri;

11- Seyid Cəfər Murtəza Amulinin “حقائق هامة حول القرءان الكريم” (Həqaiqun hammətun həuləl-Quranil-Kərim) əsəri.

## *Fəslin əsas mətləbləri:*

**1.** Quran elmləri - Quranın nüzulu, kitabəti, qiraəti, cəm edilməsi, möcüzəliyi, təhrif olunmaması, möhkəm və mütəşabih ayələri və s. Quranla bağlı mövzulardır.

**2.** Quranla bağlı mövzulara dair əsərlər hicri-qəməri birinci əsrin sonlarında yazılmağa başladı.

**3.** Əvvəllər təfsir və təcvid elmləri də “Quran elmləri”nə daxil idi.

**4.** “Quran elmləri” termini hal-hazırkı anlamında hicri-qəməri 5-ci əsrdə yarandı.

**5.** Quranla bağlı mövzuları əhatə edən ilk mükəmməl əsər hicri-qəməri 8-ci əsrdə Zərkeşinin qələmə aldığı dəyərli “əl-Burhan fi Ulumil-Quran” əsəridir.

**6.** “Quran elmləri” sahəsində bəzi mühüm mənbələr bunlardır: “əl-İtqan fi Ulumil-Quran”, “Mənahilul-irfan”, “əl-Bəyan fi təfsiril-Quran”, “ət-Təmhid fi Ulumil-Quran”, “Tarix-e Quran”.[1]

[1] “Tarix-e Quran”, yəni “Quranın tarixi” adlı əsər bir neçə müəllifə mənsubdur ki, onlardan Əbu Abdullah Zəncaninin, Dr. Mahmud Ramyarın, Dr. Seyid Məhəmmədbaqir Huccətinin adlarını çəkmək olar.

# İkinci fəsil

## “Quran”ın adları və vəsfləri

Qurani-Kərimin adlarının sayı barədə müfəssirlər və quranşünaslar arasında fikirayrılığı vardır. Əbul-Futuh Razi öz təfsirində Quran üçün 43 ad[1] sadalamışdır. Zərkeşi “Şeyzələ” adı ilə tanınan Qazi Əbul-Məaliyə istinadən, Quran üçün 55 ad[2] sadalamışdır. Bəziləri Quran üçün hətta 80 ad qeyd etmişlər.[3]

Qeyd etmək lazımdır ki, alimlərin Quran üçün sadaladıqları adların əksəriyyəti Qurani-Kərimin özündə bu səmavi kitabın adı deyil, vəsfi olaraq işlənmişdir. Deməli, bir tərəfdən Qurani-Kərimin adları ilə vəsfləri arasında fərq qoyulmaması, digər tərəfdən də adların seçimində alimlərin özünəməxsus üslubları sözügedən fikirayrılığına səbəb olmuşdur.

Maraqlısı budur ki, bəzi alimlərin fikrincə, Qurani-Kərimin “Quran”dan qeyri adı yoxdur.[4]

Qurana ünvanlanan adları 2 qismə bölmək daha məqsədəuyğundur:

**1- Quranın adları; 2 Quranın vəsfləri.**

***1- Quranın adları:***

Tərəddüd etmədən demək mümkündür ki, Qurani-Kərimin özündə bu səmavi kitab üçün 4 ad işlənmişdir:

***1. Quran[5]: “بَلْ هُوَ قُرْءَانٌ مَجِيدٌ.”***

***2. Kitab [6]: “كِتَابٌ أَنْزَلْنَاهُ إِلَيْكَ...”***

***3. Zikr[7]: “وَهذَا ذِكْرٌ مُبَارَكٌ...”***

***4. Furqan[8]: “تَبَارَكَ الَّذِى نَزَّلَ الْفُرْقَانَ عَلَى عَبْدِهِ...”***

Zərqani “تَنْزِيل” (Tənzil) adını da bu adlara əlavə etmişdir.[9]

---

[1] Rəvzul-cinan və ruhul-cinan fi təfsiril-Quran, c.1, səh.8.

[2] əl-Burhan fi Ulumil-Quran, c.1, s.371-373; əl-İtqan, c.1, s.159.

[3] Dr. Mahmud Ramyar, “Tarix-e Quran”, səh. 31-32.

[4] əl-Quranul-Kərim və rəvayatul-mədrəsətəyn, c.1, s.274.

[5] Buruc surəsi, ayə: 21. Bu ad 55 dəfə “قرءان”, 9 dəfə isə “قرءاناً” kimi işlənmişdir.

[6] Sad surəsi, ayə: 29. Bu ad təxminən yüz dəfə Quranın adı kimi işlənib.

[7] Ənbiya surəsi, ayə: 50, həmçinin Hicr surəsi, ayə: 9. Bu ad Quranda 20 dəfə işlənib.

[8] Furqan surəsi, ayə:1.

[9] Mənahilul-irfan, c.1, s.15.

Yuxarıdakı adlardan üçü, yəni Kitab, Zikr və Furqan digər səmavi kitablar üçün də işlənib[1], təkcə "Quran" adı bu səmavi kitabın xüsusi adı olaraq işlənibdir.

***2- Quranın vəsfləri:***

Qeyd etdik ki, alimlər arasında Quranın adları və vəsflərinin sayı barədə fikirayrılığının səbəbi adlar ilə vəsflər arasında fərq qoyulmaması, habelə, adların seçimində alimlərin özünəməxsus üslubları olmuşdur. Biz burada Qurani-Kərimin özündə Quran, Kitab və Zikr adları üçün qeyd olunan vəsfləri nəzərinizə çatdırırıq:

**1. Məcid[2]: "ق وَ الْقُرْءَانِ الْمَجِيدِ."**

*"Qaf və and olsun şanlı (şəni uca) Qurana!"*

**2. Kərim[3]: "إِنَّهُ لَقُرْءَانٌ كَرِيمٌ."**

*"Həqiqətən bu, qiymətli Qurandır."*

**3. Həkim[4]: "يس. وَ الْقُرْءَانِ الْحَكِيمِ."**

*"Ya-sin. Hikmətli Qurana and olsun!"*

**4. Əzim[5]: "وَ لَقَدْ ءَاتَيْنَاكَ سَبْعًا مِنَ الْمَثَانِى وَ الْقُرْءَانِ الْعَظِيمَ."**

*"Doğrudan da, sənə yeddi ayə (Fatihətul-Quran surəsini) və əzəmətli Quranı əta etdik.*

**5. Əziz[6]: "... وَ إِنَّهُ لَكِتَابٌ عَزِيزٌ. لَا يَأْتِيهِ الْبَاطِلُ..."**

*"... Doğrudan da, bu, izzətli (qiymətli və məğlubedilməz) bir kitabdır. Batil ona yol tapa bilməz..."*

**6. Mübarək[7]: "هذَا ذِكْرٌ مُبَارَكٌ..."**

*"Bu, mübarək bir öyüd-nəsihətdir..."*

**7. Mubin[8]: "الر تِلْكَ ءَايَاتُ الْكِتَابِ وَ قُرْءَانٍ مُبِينٍ."**

*"Əlif-ləm-ra, budur (səmavi) Kitabın və aydınlaşdıran Quranın ayələri."*

**8. Mutəşabih[9]: "اللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُتَشَابِهًا..."**

*"Allah sözün ən gözəlini (ayələri) bir-birinə bənzər olan ... bir kitab (şəklində) nazil etdi."*

---

[1] "İllət-e ələm budən-e Quran", s.52.

[2] Qaf surəsi, ayə: 1, həmçinin Buruc surəsi, ayə: 21.

[3] Vaqiə surəsi, ayə: 77.

[4] Yasin surəsi, ayə: 1-2, həmçinin Yunus surəsi, ayə: 1.

[5] Hicr surəsi,ayə: 87.

[6] Fussilət surəsi, ayə: 41-42.

[7] Ənbiya surəsi, ayə: 50; Sad surəsi, ayə: 29.

[8] Hicr surəsi, ayə: 1.

[9] Zumər surəsi, ayə: 23.

**9. Məsani**[1]**: "...اللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُتَشَابِهًا مَثَانِىَ"**

*"Allah sözün ən gözəlini (ayələri) bir-birinə bənzər olan, vədləri və hədə-qorxuları əhatə edən bir kitab (şəklində) nazil etdi."*

**10. Ərəbi**[2]**: "إِنَّا أَنْزَلْنَاهُ قُرْءَانًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ."**

*"Həqiqətən biz onu ərəbcə bir Quran nazil etdik, bəlkə düşünəsiniz."*

**11. Ğəyrə zi-ivəc**[3]**: "قُرْءَانًا عَرَبِيًّا غَيْرَ ذِى عِوَجٍ لَعَلَّهُمْ يَتَّقُونَ."**

*"Heç bir əyriliyi (dolaşıqlığı) olmayan ərəbcə bir Quran; bəlkə qorxub çəkindilər (təqvalı oldular)."*

**12. Ziz-zikr**[4]**: "ص وَ الْقُرْءَانِ ذِى الذِّكْرِ."**

*"Sad, and olsun öyüd-nəsihətlə dolu Qurana."*

**13. Bəşir**[5]**: "كِتَابٌ فُصِّلَتْ ءَايَاتُهُ قُرْءَانًا عَرَبِيًّا لِقَوْمٍ يَعْلَمُونَ. بَشِيرًا..."**

*"Bir kitabdır ki, onun ayələri müfəssəl və açıq-aydın bəyan edilmişdir, bilən bir qövm üçün ərəb dilində olan Qurandır. Müjdə verəndir..."*

**14. Nəzir**[6]**: "كِتَابٌ فصِّلَتْ ءَايَاتُهُ قُرْءَانًا عَرَبِيًّا لِقَوْمٍ يَعْلَمُونَ. بَشِيرًا وَ نَذِيرًا..."**

*"Bir kitabdır ki, onun ayələri müfəssəl və açıq-aydın bəyan edilmişdir, bilən bir qövm üçün ərəb dilində olan Qurandır. Müjdə verən və xəbərdarlıq edəndir..."*

**15. Qəyyim**[7]**: "اَلْحَمْدُ لِلّهِ الَّذِى أَنْزَلَ عَلَى عَبْدِهِ الْكِتَابَ وَ لَمْ يَجْعَلْ لَهُ عِوَجَا. قَيِّمًا..."**

*"Həmd olsun o Allaha ki, bu kitabı Öz bəndəsinə nazil etdi və onda heç bir əyrilik qoymadı. Doğru və düzgün (bir kitab)..."*

* * *

Burada Qurani-Kərimin daha bir adını qeyd edirik. Bu ad Quranın özündə işlənməsə də, amma bəziləri bu əqidədədirlər ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra müsəlmanlar arasında Quranın ən məşhur və geniş yayılan adı **"mushəf"** olmuşdur. Həzrət Peyğəmbərin (s) sağlığında isə Quranın hamı tərəfindən qəbul edilən müəyyən və geniş yayılan bir adı olmamışdır.[8]

"Bu ad (yəni "mushəf") Qurani-Kərimdə işlənmədiyi bir halda Qurana necə qoyulmuşdur?" - sualına Dr. Ramyar belə cavab verir:

"Qurani-Kərim xəlifə Əbu Bəkrin göstərişi ilə cəm edildikdən (yəni bir kitab şəklində yığıldıqdan, tərtib edildikdən) sonra o, Peyğəmbər (s) səhabələrinə tap-

---

[1] Zumər surəsi, ayə: 23.
[2] Yusuf surəsi, ayə: 2.
[3] Zumər surəsi, ayə: 28.
[4] Sad surəsi, ayə: 1.
[5] Fussilət surəsi, ayə: 3-4.
[6] Fussilət surəsi, ayə: 3-4.
[7] Kəhf surəsi, ayə: 1-2.
[8] Dr. Mahmud Ramyar, " Tarix- e Quran", s.9.

şırdı ki, bu kitaba bir ad qoysunlar. Bəziləri onu "İncil" adlandırmağı təklif etdilər, amma bu ad çoxlarının xoşuna gəlmədi. Bir dəstə onu "Səfər" adlandırmağı təklif etdi: yəhudilərin "beş səfəri" kimi. Bu təklif də qəbul olunmadı. Nəhayət, səhabə Abdullah ibn Məs`ud dedi: "Biz Həbəşistana hicrət etdikdə orada "Mushəf" adlanan bir kitab gördük..." Bu ad qəbul olundu və o zaman Qurani-Kərimə qoyuldu... Xəlifə Osmanın ətraf məntəqələrə göndərdiyi Quran nüsxələri də "mushəf" adlanmışdı... Sonralar həmin nüsxələr "Osmanın mushəfləri" adı ilə tanındı. Səhabələrin öz xüsusi məcmuələrinə də "mushəf" deyilirdi. Məsələn, Ubəyy ibn Kə`bin mushəfi, Məazın mushəfi və s."[1]

Söz yox ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra "mushəf" adı az bir müddət ərzində Qurani-Kərimin geniş yayılan və məşhur adlarından birinə çevrildi, lakin Həzrət Peyğəmbərin (s) sağlığında bu səmavi kitabın müəyyən bir adının olmaması fikri qəbuledilməzdir. Çünki Həzrət Peyğəmbərdən (s), Əli ibn Əbu Talibdən (ə) və digər səhabələrdən nəql olunan hədislərdə "Quran" və "Kitab" adları bu səmavi kitabın adı olaraq çox işlənmişdir. Məsələn, Həzrət Peyğəmbər (s) buyurub:

إِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْفِتَنُ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْءَانِ.

***"Fitnələr sizi zülmət gecə tək bürüdüyü zaman Qurana üz tutun."[2]***

Yaxud buyurub:

فَضْلُ الْقُرْءَانِ عَلَى سَائِرِ الْكَلَامِ كَفَضْلِ اللهِ عَلَى خَلْقِهِ.

***"Quranın başqa kəlamlardan üstünlüyü Allahın məxluqatdan üstünlüyü kimidir."[3]***

Həmçinin Həzrət Peyğəmbər (s) öz vəsiyyətində buyurub:

إِنِّى تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتابَ الله و عِتْرَتِى...

***"Həqiqətən, mən sizin aranızda iki böyük əmanət qoyuram: Allahın kitabı və itrətim..."[4]***

Quranın nazil olduğu dövrdə buyurulan onlarla, bəlkə yüzlərlə hədisdə müsəlmanların səmavi kitabının "Quran" və ya "Kitab" adlanması həmin dövrdə bu adların geniş yayılan adlar olduğunu sübut edir.[5]

Quranın cəm edilməsi və mushəf tərtib edilməsi barədə olan hədislərin əksəriyyətində Zeyd ibn Sabit və başqaları mushəf tərtib edilərkən "Quran" adını işlətmişlər.

---

[1] Dr. Mahmud Ramyar, "Tarix-e Quran", s.11-12.

[2] Usuli-kafi, c.2, s.599; Biharul-ənvar, c.89, s.17; hədis: 16.

[3] Ulumul-Quran indəl-mufəssirin, c.1, s.70.

[4] əl-Burhan fi təfsiril-Quran, c.1, s.9-14.

[5] Biharul-ənvar, c. 89-90, bölüm: Kitabul-Quran.

Axı necə olar bilər ki, 23 il ərzində müsəlmanların səmavi kitabının bir adı olmasın?!

Bu səmavi kitabın "Quran" adı ilə tanındığına dair başqa bir dəlil bu kitabın özündə "Quran" adının "xüsusi bir ad" kimi işlənməsidir. Beşinci fəsildə bu haqda geniş bəhs ediləcəkdir.

Həzrət Peyğəmbərin (s) vəfatından sonra "mushəf" adının geniş yayılmasının başlıca səbəbi Quranın kitabəti (yazılması) və cəm edilməsi (kitab şəklində yığılması) məsələsi olmuşdur. Ərəb dilində "صَحِيفَةٌ" (səhifə) "açıq səth"ə deyilir. Buna görə üzərində yazı yazılmış hər hansı bir səthə də "səhifə" deyilir. "مُصْحَفٌ" (mushəf) isə, iki cild (üz qapağı) arasında yerləşdirilmiş yazılı səhifələr məcmusudur. Deməli, Həzrət Peyğəmbərin (s) vəfatından sonra müsəlmanların mühüm vəzifələrindən biri üzərində Quran yazılmış səhifələri cəm etmək, yaxud Quranın katib səhabələr tərəfindən kitabət edilməsi olduğu üçün "mushəf" adı həmin dövrdə geniş yayıldı.

Elə həmin dövrdə Quran olub-olmamasından asılı olmayaraq, hər bir kitab "mushəf" adlanırdı. Məhəmməd ibn Sirin deyir:

لَمَّا تُوُفِّيَ النَّبِيُّ أَقْسَمَ عَلِيٌّ أَنْ لَا يَرْتَدِيَ بِرِدَاءٍ إِلَّا لِجُمُعَةٍ حَتَّى يَجْمَعَ الْقُرْءَانَ فِي مُصْحَفٍ.

"Peyğəmbər (s) canını tapşırdığı zaman Əliyə and verdi ki, Quranı bir mushəfdə cəm etməyənə (bir kitab şəklində tərtib etməyənə) qədər cümədən (cümə namazından) qeyri vaxtlarda əbasını çiyninə salmasın (yəni evdən çıxmasın və başqa bir iş dalınca getməsin)."

Əbul-Aliyə deyir:

إِنَّهُمْ جَمَعُوا الْقُرْءَانَ فِي مُصْحَفٍ فِي خِلَافَةِ أَبِي بَكْرٍ.

"Onlar Əbu Bəkrin xilafəti dövründə Quranı bir mushəfdə cəm etdilər."

Kuleyni "Usuli-kafi" kitabında İmam Sadiqdən (ə) belə nəql edir:

مَنْ قَرَأَ الْقُرْءَانَ فِي الْمُصْحَفِ مُتِّعَ بِبَصَرِهِ...

"Kim Quranı mushəfdən oxusa, gözləri işıqlanar."

Zeyd ibn Sabitdən nəql olunan məşhur rəvayətdə qeyd edilir:

فَتَتَبَّعْتُ الْقُرْءَانَ أَجْمَعَهُ... فَكَانَتِ الصُّحُفُ عِنْدَ أَبِي بَكْرٍ...

Quranı cəm etməyə başladım... Səhifələr Əbu Bəkrdə idi...

Həmin vərəqlər və səhifələr xəlifə Ömər vəfat etdikdən sonra qızı Həfsədə idi. Osmanın xilafəti dövründə Quran cəm edildiyi vaxt ("vahid mushəf" yaradılarkən) Osman Həfsəyə xəbər göndərib onu əmin etdi ki:

أَنْ أَرْسِلِي إِلَيْنَا بِالصُّحُفِ نَنْسِخُهَا فِي المَصَاحِفِ ثُمَّ نَرُدُّهَا إِلَيْكِ...

"Səhifələri bizə göndər ki, onların üzünü köçürüb sənə geri qaytaraq."

Yuxarıdakı rəvayətlərdə və onlarla başqa rəvayətdə Quranın "mushəf"də cəm edilməsi, yəni bir kitab şəklində yığılması və tərtib edilməsi vurğulanır. Yəni bu rəvayətlərdə "mushəf" sözü öz lüğəvi mənasında işlənmişdir.[1]

### *Fəslin əsas mətləbləri:*

**1.** Qurani-Kərimin adları bunlardır: Quran, Kitab, Zikr, Furqan.

**2.** Həzrət Peyğəmbərin (s) vəfatından sonra "mushəf" adının geniş yayılmasının səbəbi Quranın bir kitab şəklində yığılması olmuşdur.

**3.** Bəziləri Quran üçün səksənə qədər vəsf sadalamışlar. Quranın ən məşhur vəsfləri bunlardır: Məcid, Kərim, Həkim, Əzim, Əziz, Mübarək, Mubin, Ərəbi, Bəşir və Nəzir.

---

[1] Ətraflı məlumat üçün "əl-Quranil-Kərim və rəvayatul mədrəsəteyn" kitabının 1-ci cildi 264-277-ci səh.-lərinə müraciət edin.

# Üçüncü fəsil

## “Quran” sözünün mənaları

“Quran” sözünün mənası barədə 5 nəzər mövcuddur[1] və onları 3 qrupa ayırmaq olar:

**1-** Quran sözü “camid”[2], yəni “qeyri-muştəqq”[3] isimdir. Eləcə də, “ələm-i irticali”dir[4], yəni bu söz əvvəllər ərəb dilində olmayıb və Mütəal Allah Öz peyğəmbərinə nazil etdiyi vəhyi xüsusi olaraq bu adla adlandırıb. Necə ki, “Tövrat” Həzrət Musanın (ə) və “İncil” Həzrət İsanın (ə) kitabının adıdır. ***(Bu, Şafeinin nəzəridir.)***

**2-** Quran “muştəqq” (düzəltmə) isimdir, amma “qeyri-məhmuz”dur (yəni sözün kökündə “həmzə” hərfi yoxdur):

**a)** “Quran” sözü bu ifadədə: “**قَرْنُ الشَّىْءِ بِالشَّىْء**” işlənən **قَرْن** sözündən düzəlib. İfadənin mənası belədir: “Bir şeyi başqa bir şeyə əlavə etmək”.

Bu səmavi kitabın “Quran” adlanmasının səbəbi surələrin, ayələrin və hərflərin bir-birinin kənarında qərar tutması, bir-birinə əlavə olunmasıdır. ***(Bu, Əş`ərinin və bir qrup alimin nəzəridir.)***

**b)** “Quran” **قَرِينَة** (qərinə) sözünün cəmi olan **قَرَائِن** (qərain) sözündən düzəlib.[5]

Çünki Quran ayələri biri-birinin oxşarıdır və bir-birini təsdiqləyir, tamamlayır. ***(Bu, Fərranın nəzəridir.)***

**3-** Quran “muştəqq” (düzəltmə) və “məhmuz” (sözün kökündə “həmzə” hərfi olan) bir isimdir:

**a)** Quran sözü “cəm etmək, yığmaq” mənasını bildirən **قَرْء** sözündən düzəlib. Ərəblər “Mən hovuza su yığdım” – cümləsini belə ifadə edirlər:

**قَرَأْتُ الْمَاءَ فِى الْحَوْضِ.**

Müsəlmanların müqəddəs kitabının Quran adlanmasının səbəbi budur ki, bu kitab özündən əvvəlki səmavi kitabların bütün faydalarını, maarifini özündə cəm etmişdir. ***(Bu, İbn Əsirin, Zucacın və digərlərinin nəzəridir.)***

**b)** Quran sözü **قَرَأَ** (qərə`ə, yəni “qiraət etdi”) sözündən düzəlib, **“رُجْحَان”** (ruchan) və **“غُفْرَان”** (ğufran) sözləri ilə eyni vəzndədir. **“Oxunan”** mənasını bildirən

---

[1] əl-Burhan, c.1, s.373-374; əl-İtqan, c.1, s.162-163.

[2] Sadə isim.

[3] Ərəb dilində “muştəqq isimlər” azərbaycan dilindəki düzəltmə sözlər ilə müqayisə edilə bilər.

[4] Leksik mənası yoxdur.

[5] Qərinə (cəm: qərain) analogiya, oxşayış və bənzəyiş, kontekst mənalarını bildirir.

“Quran” sözü “ismi-məf`ul”un “məsdər” ilə ifadə olunması qismindəndir. Yəni əslində **“oxunan”** mənasını bildirən söz **“مَقْرُوء”** (məqru`) sözüdür, lakin **“oxumaq”** mənasını bildirən **“قُرْءَان”** sözü ilə ifadə olunub. Məsələn, “yazılan” mənasını bildirən “مَكْتُوب” sözünün “yazmaq” mənasını bildirən “كِتَاب” sözü ilə ifadə olunması kimi. ***(Bu, Ləhyaninin və bir qrup alimin nəzəridir.)***

* * *

Yuxarıdakı beş nəzərdən beşincisi daha məqbul nəzərə çarpır. Zərqani dörd nəzəri rədd etdikdən sonra beşinci nəzəri qəbul etmişdir.[1]

Rağib İsfahani deyir:

القرَاءَةُ ضَمُّ الحُرُوفِ وَ الكَلماتِ بعْضُهَا إلَى بعْضٍ فِى التَّرْتِيل...

“Qiraət”in mənası tərtil zamanı (aramla, ağır-ağır oxuyarkən) hərfləri və sözləri bir-birinə birləşdirmək, əlavə etməkdir.[2]

Başqa sözlə, “qiraət” ilahi ayələrin tilavətidir (oxunmasıdır).

Əllamə Təbatəbainin nəzəri budur:

وَ قَوْلُهُ: «إنَّ عَلَيْنَا جَمْعَهُ وَ قُرْءَانَهُ» ... القُرْءَانُ هَاهُنَا مَصْدَرٌ كَالْفُرْقَانِ و الرُّجْحَانِ، و الضَّمِيرَانِ لِلْوَحْيِ، و الْمَعْنى: لَا تَعْجَلْ بِهِ، إذْ عَلَيْنَا أنْ نَجْمَعَ مَا نُوحِيهِ إلَيْكَ بِضَمٍّ بَعْضِ أَجْزَائِهِ إلَى بَعْضٍ وَ قِرَاءَتُهُ عَلَيْكَ.

“Yəni: “إِنَّ عَلَيْنَا جَمْعَهُ وَ قُرْءَانَهُ”[3] cümləsində “قُرْءَان” sözü İslamın səmavi kitabının adı deyildir. Burada “قُرْءَان” (qur`an) sözü “فُرْقَان” (furqan) və “رُجْحَان” (ruchan) sözləri kimi məsdərdir, “oxumaq” mənasını bildirir. “قُرْءَانَهُ” sözündəki “هُ” zəmiri (əvəzliyi) “vəhy”ə qayıdır. Cümlənin mənası belədir: Oxumağa tələsmə, çünki sənə vəhy olunanları cəm etmək və onun hissələrini bir-birinə birləşdirmək, onu sənə qiraət etmək Bizim öhdəmizədir.”[4]

Yuxarıdakı ayədən (Qiyamət surəsi, 17-ci ayə) əldə olunur ki, hətta əgər İbn Əsirin nəzərini, yəni “Quran” sözünün “cəm etmək” mənasını bildirən قَرْء sözündən düzəldiyini qəbul etsək, lakin bu ayədə **“قُرْءَانَهُ”** (qur`anəhu) sözü **“جَمْعَهُ”** (cəm`əhu) sözü ilə yanaşı işləndiyinə (bağlayıcı vasitəsilə bağlandığına) görə “**قُرْءَان**” sözü labüd “qiraət etmək və oxumaq” mənasını bildirəcəkdir. Əks təqdirdə, bu ayədə “cəm etmək” sözünün təkrarlanması əbəs bir iş olub Quranın fəsahətinə xələl gətirər.

Beşinci nəzəri qüvvətləndirən başqa bir dəlil Həzrət Peyğəmbərə (s) nazil olan ilk vəhydə **“إقْرَأ”** əmrinin verilməsidir və heç şübhəsiz, bu söz **“Oxu!”** mənasını bildirir. “Quran” sözü isə ilk dəfə Muzzəmmil surəsinin 4-cü ayəsində işlənib. Muzzəmmil surəsi isə Cabir ibn Zeyd və İbn Abbasdan nəql olunan

---

[1] Mənahilul-irfan, c.1, s.14.
[2] Rağib İsfahani, “Mufrədat”.
[3] Qiyamət surəsi, ayə: 17.
[4] əl-Mizan, c.20, s.109.

məşhur rəvayətə görə nazil olan üçüncü surədir.[1] Sözügedən ayədə belə buyurulur:

... وَ رَتِّلِ الْقُرْءَانَ تَرْتِيلًا.

***"... və Quranı tərtil ilə (aramla, ağır-ağır) oxu!"***

Həmin surənin sonuncu, yəni 20-ci ayəsində hamıya xitabən buyurulur:

... فَاقْرَءُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْءَانِ...

***"... Elə isə, Qurandan sizə müyəssər olanı (bacardığınız qədər) oxuyun..."***

Aydın məsələdir ki, hər iki ayədə **"oxunan Quran"** nəzərdə tutulur.

**Əldə edilən nəticə budur ki, "Quran" sözü üçün ən aydın və ən uyğun məna bu sözün "oxumaq" mənasını bildirən قَرَأَ sözündən düzəlməsidir.**

## *Fəslin əsas mətləbləri:*

"Quran" sözünün mənası barədə olan nəzərlər aşağıdakılardır:

**1.** Quran sözü "camid", yəni "qeyri-muştəqq" bir isimdir. Eləcə də, "ələmi-irticali"dir, yəni bu söz əvvəllər ərəb dilində olmayıb və Mütəal Allah Öz peyğəmbərinə nazil etdiyi vəhyi xüsusi olaraq bu adla adlandırıb. Necə ki, "Tövrat" Həzrət Musanın (ə) və "İncil" Həzrət İsanın (ə) kitabının adıdır. ***(Bu, Şafeinin nəzəridir.)***

**2.** Quran sözü bu ifadədə: "**قَرْنُ الشَّىْءِ بِالشَّىْء**" - işlənən **قَرْن** sözündən düzəlib. İfadənin mənası belədir: "Bir şeyi başqa bir şeyə əlavə etmək".

Bu səmavi kitabın "Quran" adlanmasının səbəbi surələrin, ayələrin və hərflərin bir-birinin kənarında qərar tutması, bir-birinə əlavə olunmasıdır. ***(Bu, Əş`ərinin və bir qrup alimin nəzəridir.)***

**3.** Quran sözü **قَرِينَةٌ** (qərinə) sözünün cəmi olan **قرائن** (qərain) sözündən düzəlib.

Çünki Quran ayələri bir-birinin oxşarıdır və bir-birini təsdiqləyir, tamamlayır. ***(Bu, Fərranın nəzəridir.)***

**4.** Quran sözü "cəm etmək" mənasını bildirən **قَرْء** sözündən düzəlib. Ərəblər "Mən hovuza su yığdım" - fikrini belə ifadə edirlər:

قَرَأْتُ الْماءَ فِى الحَوْضِ.

Müsəlmanların müqəddəs kitabının "Quran" adlanmasının səbəbi budur ki, bu kitab özündən əvvəlki səmavi kitabların bütün faydalarını, maarifini özündə cəm etmişdir. ***(Bu, İbn Əsirin, Zucacın və digərlərinin nəzəridir.)***

**5.** Quran sözü قَرَأَ (qərə`ə, yəni "qiraət etdi") sözündən düzəlib, "رُجْحَان" (ruchan) və "غُفْرَان" (ğufran) sözləri ilə eyni vəzndədir. Burada "Quran" sözünün mənası "oxunan" deməkdir. ***(Bu, Ləhyaninin və bir qrup alimin nəzəridir.)***

Beşinci nəzəri təsdiqləyən bir sıra dəlillər mövcuddur.

---

[1] əl-İtqan fi ulumil-Quran, c. 1 s. 81.

# Dördüncü fəsil

## Müsəlmanların səmavi kitabının “Quran” adlanmasının səbəbi

Bu səmavi kitabın hər bir adının səbəbi, fəlsəfəsi vardır. Biz bu fəsildə təkcə “Quran” adı barədə bəhs edəcəyik. Başqa sözlə, müsəlmanların səmavi kitabının “Quran” adlanmasının səbəbini açıqlayacağıq.

Ötən fəsildə qeyd etdik ki, bəziləri “Quran” sözünün “əlavə etmək” mənasını bildirən قَرْن (qərn) sözündən düzəldiyini bildirirlər. Onlar səmavi kitabın bu adla adlanmasının səbəbini belə izah edirlər: hərflər, ayələr və surələr bir-birinin kənarında qərar tutduğu, bir-birinə əlavə olunduğu üçün Mütəal Allah bu məcmuəni “Quran” adlandırıb.

“Quran” sözünün قَرَائن (qərain) sözündən düzəldiyini bildirənlər isə bu əqidədədirlər ki, bu kitabın ayələri arasında tam uyğunluq və oxşarlıq olduğu, ayələr bir-birini tamamladığı və aydınlaşdırdığı üçün Mütəal Allah Öz kitabını bu adla adlandırmışdır. Ayələrin birində də bu uyğunluq və oxşarlığı Öz kitabının vəsfi kimi bəyan etmişdir:

اللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُتَشَابِهًا...

***“Allah sözün ən gözəlini (ayələri) bir-birinə bənzər olan ... bir kitab (şəklində) nazil etdi.”***[1]

Bu ayədə كتابًا مُتَشابِهًا - **“mütəşabih kitab”** ifadəsi “ayələri bir-birinə oxşar, uyğun olan bir kitab” mənasını bildirir.

“Quran” sözünün “cəm etmək” mənasını bildirən قَرْء (qər`) sözündən düzəldiyini söyləyənlər bu əqidədədirlər ki, bu kitab özündən əvvəlki səmavi kitabların elm və faydalarını, yaxud müxtəlif elmləri, yaxud da əmr və qadağaları, vədləri və təhdidləri... özündə cəm etdiyi üçün “Quran” adlanmışdır.

Nəzərə alsaq ki, ötən fəsildə ilk dörd nəzəriyyə qəbul olunmadı, onda beşinci nəzəriyyəyə əsasən, bu səmavi kitabın “Quran”, yəni “oxunan” adlanmasının səbəbi nədir?

Bilməlisiniz ki, Quranın həqiqəti söz qəlibinə sığmaqdan ucadır. Söz və ifadələr Quranın uca həqiqətini bəyan etməkdə acizdir. Çünki söz və ifadələr maddiyyatı bəyan etməkdən ötrü yaradılmışdır, halbuki, Quran ən dərin mənəvi maarifi ehti-

[1] Zumər surəsi, ayə: 23.

va edir. Bu uca həqiqət bəşərin dərkinə sığa bilsin deyə, uca məqamdan endirilmiş və qiraət məqamına çatdırılmış, “oxunan” olmuşdur.

Böyük mütəfəkkir və müfəssir Əllamə Təbatəbai bu incə mətləbə toxunaraq:

إِنَّا جَعَلْنَاهُ قُرْءَانًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ. وَ إِنَّهُ فِى أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِىٌّ حَكِيمٌ.[1]

ayəsinin təfsirində deyir: “Ayədə sözügedən أُمُّ الْكتَاب (Ummul-kitab) ifadəsində “Lövhi-məhfuz” nəzərdə tutulur. “Lövhi-məhfuz” ona görə “Ummul-kitab” (Ana kitab) adlanır ki, o, bütün səmavi kitabların mənbəyidir. عَلِيٌّ (əliyyun), yəni “uca” vəsfi Quranın uca məqamına işarədir, belə ki, ağıllar bu məqama çatmağa qadir deyildir. Quranın حَكيمٌ (həkim), yəni “hikmətli” olması isə o deməkdir ki, Quran özünün əsl və ilk məqamında surələrə, ayələrə və kəlmələrə ayrılmamışdı. Bu hissələrə ayrılma o zaman baş verdi ki, Quran “ərəbcə Quran” (قُرْءَانًا عَرَبِيًّا) şəklinə salındı.”[2]

Bu nəzəriyyəyə əsasən, Həzrət Peyğəmbərin (s) əbədi möcüzəsinin “Quran”, yəni “oxunan” adlanmasının səbəbi budur ki, qarşımızda kəlmələr şəklində və “oxunan” olan bu həqiqət “Lövhi-məhfuz”da hissələri olmayan, uca məqama malik bir həqiqətdir. Quran, maddi bəşəri hidayət etmək və onu öz zülal maarifindən sirab etməkdən ötrü söz və ayə qəlibinə salınmış, “oxunan” olmuşdur. Amma bu tənəzzül və ərəbcələşmədə elə bir bənzərsiz bədii üsluba malikdir ki, misli və tayı-bərabəri yoxdur. O, bir möcüzədir ki, bəşər onun ayələrinə bənzər hətta bir neçə ayə ərsəyə gətirməkdə acizdir.

## *Fəslin əsas mətləbləri:*

Quran ona görə Quran, yəni “oxunan” adlanıb ki, həmin ad bizdə bu fikri aşılasın:

Quran, Lövhi-məhfuzda uca məqama malik mütləq bir həqiqətdir. Lövhi-məhfuzda söz və ifadə anlayışı yoxdur. Quran bəşəri hidayət etməkdən ötrü bəşərin dərk edə biləcəyi bir qəlibə salınmış, “oxunan” olmuşdur.

[1] Zuxruf surəsi, ayə: 3-4.
[2] əl-Mizan, c.18, s.84.

# Beşinci fəsil

## Quranın ərəb dilində olması

Quran ərəb dilindədir. Bu mətləb Quranda: “**قُرْءَانًا عَرَبِيًّا**”[1], “**لِسَانٌ عَرَبِيٌّ**”[2], “**حُكْمًا عَرَبِيًّا**”[3] kimi ifadələrdə öz əksini tapmış, eyni zamanda ərəb dilinin üstün bir dil olduğuna işarə olunmuşdur.

Quranın ərəb dilində olması məsələsini araşdırmazdan qabaq, Quranın da açıqladığı ümumi bir qaydaya toxunmaq lazımdır.

Bilməlisiniz ki, hər bir qövmə, millətə göndərilən ilahi elçilər həmin qövmün və millətin dilində danışmışdır. **Hər bir qövmə göndərilən peyğəmbərin həmin qövmün dilində danışması ümumi bir qaydadır:**

وَ مَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ...

***“Biz hər bir peyğəmbəri yalnız öz qövmünün dilində göndərdik ki, (həqiqətləri) onlara bəyan etsin...”[4]***

**Bu ümumi qayda səmavi kitablara da aiddir:**

وَ كَذالِكَ أَوْحَيْنا إِلَيْكَ قُرْءَانًا عَرَبِيًّا لِتُنْذِرَ أُمَّ الْقُرَى وَ مَنْ حَوْلَهَا...

***“Və beləcə Biz sənə ərəbcə bir Quran vəhy etdik ki, Ummul-Qura (Məkkə camaatına) və onun ətrafındakılara ... xəbərdarlıq edəsən...”[5]***

Beləliklə, Quranın ərəb dilində olması təbii haldır. Çünki Həzrət Peyğəmbər (s) ərəb dilli bir qövmün arasından peyğəmbərliyə seçilmişdir.

**Bu qeyri-məntiqidir ki, bir peyğəmbər bir qövmü hidayət etmək və maarifləndirmək üçün göndərilsin, amma bu qövmə onların başa düşmədiyi bir dildə kitab gətirsin!**

**Əlbəttə, Həzrət Peyğəmbərin (s) ərəb dilli və Quranın ərəb dilində olması o həzrətin cahanşümul peyğəmbərliyi, bütün əsrlərə və nəsillərə ünvanlanan ümumbəşər çağırışı, habelə, “هُدًى لِلنَّاس” olan kitabının hidayətçiliyi ilə ziddiyyət təşkil etmir.**

Yuxarıdakı ayədə (Şura surəsi, 7-ci ayə) ona görə Məkkə camaatına xəbərdarlıq etmək göstəriş verilmişdir ki, cahanşümul peyğəmbərliyinin ilk mərhələsində

1 Yəni “ərəbcə Quran”: bu ifadə Quranda 7 dəfə işlənib.
2 Yəni “ərəb dili”: bu ifadə Quranda 3 dəfə işlənib.
3 Yəni “ərəbcə hökm”: bu ifadə Quranda 1 dəfə işlənib.
4 İbrahim surəsi, ayə: 4.
5 Şura surəsi, ayə: 7.

Həzrət Peyğəmbərin (s) vəzifəsi öz qohum-əqrabasını və yaşadığı məntəqənin əhalisini düz yola dəvət etmək idi.

Quranın ərəb dilində olması məsələsində bu həqiqəti də nəzərə almaq lazımdır ki, dilçilərin fikrincə, ərəb dili olduqca zəngin bir dildir və elə bu zənginliyinə görə bir çox dillərdən üstün hesab olunur. Nümunə üçün, fellərin altı deyil, on dörd şəxsdə olması, qrammatik cinsin (kişi və qadın cinsi) olması, söz birləşmələrində şəxs və qrammatik cins baxımından uzlaşmalar, söz zənginliyi, düzəltmə sözlərin çoxluğu, dilin özünəməxsus qrammatik qaydaları, fəsahət və bəlağəti ərəb dilinin başqa dillərdən fərqlənməsinə səbəb olmuşdur.

Quranın dili olan ərəb dili barədə bir hədisdə buyurulur:

يُبَيِّنُ الْأَلْسُنَ وَ لا تُبَيِّنُهُ الْأَلْسُنُ.

“Ərəb dili başqa dilləri ifadə edir, başqa dillər isə ərəb dilini ifadə etmir.”[1]

Yəni fəsahətli ərəb dilində olan söz və ifadələr, cümlə quruluşları başqa dillərdə olan hər hansı bir mənanı, fikri fəsahət və bəlağətlə ifadə etməyə imkan yaradır, lakin ərəb dilində olan müəyyən mənaları başqa dillərdə fəsahət və bəlağətlə ifadə etmək mümkün olmur.

İbn Abbasın Həzrət Peyğəmbərdən (s) nəql etdiyi hədisə istinadən, ərəb dili cənnət əhlinin dilidir.[2]

**Şübhəsiz, Mütəal Allah Özünün sonuncu səmavi kitabı üçün - qanunları əbədi olaraq qüvvədə qalacaq bir kitab üçün - ən üstün dili seçmişdir. Heç bir şəkk-şübhəyə yer qalmasın deyə, bu seçimi Özünə aid etmiş, Quranın dilinin də “عَرَبِىٌّ مُبِينٌ” olduğunu vurğulamışdır.** Bu mətləbi bəyan edən bir neçə ayəyə nəzər salaq:

إِنَّا أَنْزَلْنَاهُ قُرْءَانًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ.

***“Biz onu ərəbcə bir Quran nazil etdik ki, bəlkə düşünəsiniz.”[3]***

إِنَّا جَعَلْنَاهُ قُرْءَانًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ.

***“Biz onu ərəbcə bir Quran qərar verdik ki, bəlkə düşünəsiniz.”[4]***

وَ كَذَالِكَ أَنْزَلْنَاهُ حُكْمًا عَرَبِيًّا ...

***“Beləcə onu (Quranı) aydın bir hökm (ərəbcə bir hökm) olaraq nazil etdik.”[5]***

... وَ هذَا لِسَانٌ عَرَبِىٌّ مُبِينٌ.

---

[1] Usuli-kafi, c.2, s.637, bölüm: Quranın fəziləti, hədis: 20.

[2] Məcməul-bəyan, c.5-6, s.316.

أُحِبُّ الْعَرَبَ لِثَلَاثٍ: لِأَنِّى عَرَبٌ، وَ الْقُرْءَانَ عَرَبِىٌّ وَ كَلَامَ أَهْلِ الْجَنَّةِ عَرَبِىٌّ.

[3] Yusuf surəsi, ayə: 2.

[4] Zuxruf surəsi, ayə: 3.

[5] Rə`d surəsi, ayə: 37.

***"Və bu (Quran), aydın ərəb dilindədir."***[1]

... بِلِسَانٍ عَرَبِىٍّ مُبِينٌ...

***"(Quranı) aydın ərəb dilində (nazil etdik)..."***[2]

Göründüyü kimi, Yusuf surəsinin 2-ci və Zuxruf surəsinin 3-cü ayəsində açıqlanır ki, Quranı ərəb kəlmələri qəlibində nazil edən Allahdır. Zuxruf surəsinin 4-cü ayəsində də buyurulur:

وَ إِنَّهُ فِى أُمِّ الْكِتَابِ لَدَيْنا لَعَلِىٌّ حَكِيمٌ.

***"Həqiqətən bu (Quran), Bizim yanımızda "Ummul-kitab"da (Lövhi-məhfuzda) uca məqam və hikmət sahibidir."***[3]

Əllamə Təbatəbai deyir:

"İki cəhət - Quran kəlmələrinin ərəbcə olması və bu ərəbcə kəlmələrin "vəhy" olması - ayələrdəki sirlərin və maarif həqiqətlərinin qorunub saxlanmasında rol oynayır. Əgər "Qüdsi-hədis"də olduğu kimi, yalnız ayələrin məna və məfhumu Peyğəmbərə (s) ilham olunsaydı və Peyğəmbər (s) də onu öz sözləri ilə bəyan etsəydi, yaxud əgər başqa bir dilə tərcümə edilsəydi, ayələrdəki sirlərin bir qismi gizli qalar və bəşər əqlinin dərk etmə imkanlarından kənarda qalardı."[4]

* * *

Böyük ehtimalla, Quranın ərəbcə olmasının səbəbini Mütəal Allah ilk dəfə Məryəm surəsinin 97-ci ayəsində açıqlamışdır:

فَإِنَّمَا يَسَّرْنَاهُ بِلِسَانِكَ لِتُبَشِّرَ بِهِ الْمُتَّقِينَ وَ تُنْذِرَ بِهِ قَوْمًا لُدًّا.

***"Doğrudan da Biz bunu (Quranı) sənin dilinlə asan etdik ki, onunla təqvalılara müjdə verəsən və inadkar camaatı qorxudasan."***

Ayədə sözügedən "asanlaşdırma", Quranın öncəki vəziyyətindən xəbər verir. Belə ki, Quranın bu vəziyyətində ayələri tilavət və dərk etmək bəşər üçün mümkün deyildi, Zuxruf surəsinin 4-cü ayəsində buyurulduğu kimi:

وَ إِنَّهُ فِى أُمِّ الْكِتَابِ لَدَيْنا لَعَلِىٌّ حَكِيمٌ.

* * *

Mübarək Nəhl surəsinin 103-cü ayəsində Quranın Peyğəmbərə (s) bir insan tərəfindən təlim edildiyini iddia edənlərə belə cavab verilir:

وَ لَقَدْ نَعْلَمُ أَنَّهُمْ يَقُولُونَ إِنَّمَا يُعَلِّمُهُ بَشَرٌ لِسانُ الَّذى يُلْحِدُونَ إِلَيهِ أعْجَمِىٌّ وَ هذَا لِسَانٌ عَرَبِىٌّ مُبِينٌ.

---

[1] Nəhl surəsi, ayə: 103.

[2] Şuəra surəsi, ayə: 195; Əhqaf surəsi, ayə: 12; Taha surəsi, ayə: 113; Zumər surəsi, ayə: 28; Fussilət surəsi, ayə: 3.

[3] Ötən fəsildə bu ayənin izahı barədə söhbət açıldı.

[4] "əl-Mizan", c. 11, s.75.

***“Biz yaxşı bilirik ki, onlar deyirlər: “(Quranı) ona mütləq bir insan öyrədir.” Onların nəzərdə tutduqları adamın dili qeyri-ərəbdir (başqa dildir), bu (Quran) isə aydın ərəb dilidir.”***

Böyük ehtimalla, ayədəki **“أَعْجَمِيٌّ”** (ə`cəmiyyun) kəlməsində nəzərdə tutulan məna budur: qeyri-fəsahətli. Rağib İsfahani deyir:

“Ərəb dilində **“اِعْجَام”** sözü “qeyri-müəyyən, anlaşılmaz” mənasını bildirir. Qeyri-ərəbə **“عَجَم”** deyilir və **“عَجَمِيٌّ”** dedikdə qeyri-ərəbə mənsub olan şəxs nəzərdə tutulur. Amma **“أَعْجَم”**, danışığı anlaşılmaz və qeyri-fəsahətli olan şəxsə deyilir: bu şəxs istər ərəb olsun, istərsə də qeyri-ərəb.”[1]

Bu necə ola bilər ki, danışığı fəsahətli olmayan bir şəxs fəsahətli və aydın ərəbcədə olan Quranı Peyğəmbərə (s) təlim etmişdir?!

Başqa bir ehtimala görə, ayədəki **“أَعْجَمِيٌّ”** (ə`cəmiyyun) kəlməsində nəzərdə tutulan məna “qeyri-ərəb” mənasıdır. Yəni Quranı Peyğəmbərə (s) bir qeyri-ərəb təlim etmişdir. Bu ehtimalı bəzi təfsirçilər Fussilət surəsinin 44-cü ayəsi barədə də vermişlər:

وَ لَوْ جَعَلْنَاهُ قُرْءَانًا أَعْجَمِيًّا لَّقَالُوا لَوْ لَا فُصِّلَتْ ءَايَاتُهُ ءَاعْجَمِيٌّ وَ عَرَبِيٌّ ...

***“Əgər bunu (bu kitabı) qeyri-ərəbcə bir Quran etsəydik, mütləq deyərdilər: “Nə üçün onun ayələri aydın bəyan olunmayıb? Qeyri-ərəbcə olan bir kitab ərəb dillilər üçünmü?”***

Bu ehtimala görə ayədən əldə olunur ki, o dövrün ərəblərinin təəssüb və inadkarlığı – belə ki, bu təəssüb və inadkarlıq haqqa boyun əyməyi çətinləşdirirdi – qeyri-ərəbcə olan bir kitabı qəbul etmələrinə əsla yol verməzdi.

* * *

**Deyilənlərdən məlum oldu ki, ərəb dilinin özəlliyini və İslam peyğəmbərinin (s) fəsahətli ərəblər arasından seçildiyini nəzərə alaraq, əgər Quran qeyri-ərəbcə olsaydı, etiraz və irada yer olardı. Quranın ərəbcə olması təbii haldır.**

Amma “Nə üçün İslam peyğəmbəri (s) ərəblər arasından seçilib?”, “Nə üçün sonuncu din Ərəbistan yarımadasında zühur etdi?” və başqa bu kimi sualları cavablandırmaq “Quran elmləri”nin əhatəsindən xaricdir. Bu sualların cavabı “Kəlam” elminin “Nübüvvət” bölməsində araşdırılır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Quranın ərəb dilində olması Quranda da sözükeçən bu ümumi qayda əsasındadır:

وَ مَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا بِلِسَانِ قَوْمِهِ.

[1] Rağib İsfahani, “Mufrədat” kitabı, **“عَجَمَ”** kəlməsi; əl- Mizan, c.2, s.348; Məcməul-bəyan, c.5 və 6, s.595.

**2.** Dilçilər bu fikirdədirlər ki, ərəb dili başqa dillərdən daha zəngin və daha artıq qabiliyyətlərə malikdir.

**3.** Quranın ərəbcə olması həqiqətlərin və maarif sirlərinin ötürülməsində rol oynayır.

**4.** Quranın **"لِسانٌ عَرَبِىٌّ مُبِينٌ"** – **"aydın ərəb dilində"** nazil olması onu digər ərəb ləhcələrindən üstün etmişdir.

## Azad mütaliə

### Quran – müsəlmanların səmavi kitabının xüsusi adı

Qeyd etdik ki, Həzrət Peyğəmbərə (s) nazil olan səmavi kitabın adları içərisində "Quran" adı müsəlmanlar arasında daha məşhur və işləkdir. Bir çox alimlər bu fikirdədirlər ki, "Quran" adı bu səmavi kitabın xüsusi adıdır.[1]

Amma görəsən, "Quran" adı bu səmavi kitabın elə əvvəldən xüsusi adı olmuş və Quran ayələrindən qaynaqlanmışdır, yoxsa sonralar müsəlmanların ürfündə tədricən xüsusi ada çevrilmişdir? Bır sıra dəlillərə əsasən, "Quran" adı elə əvvəldən xüsusi ad kimi işlənmişdir:

**1.** Bir neçə ayədə səmavi kitablardan söz açıldığı zaman "Quran" adı "Tövrat" və "İncil"in kənarında çəkilmişdir:

... وَعْدًا عَلَيْهِ حَقًّا فِى التَّوْرَاةِ وَ الْإِنْجِيلِ وَ الْقُرْءَانِ ...

***"(Bu,) Tövrat, İncil və Quranda (yazılmış) haqq bir vədə olaraq Onun (Mütəal Allahın) öhdəsindədir..."[2]***

**2.** Mütəal Allah "Qaf", "Yasin" və "Sad" surələrində Öz müqəddəs kitabına and içdiyi zaman tərtiblə "Qurani-Məcid", "Qurani-Kərim", "Qurani-Ziz-zikr"ə and içir. Əlbəttə, iki yerdə, yəni "Zuxruf" və "Duxan" surələrində "Kitabi-Mubin"ə and içir.

**3.** İkinci fəsildə bu səmavi kitab üçün qeyd etdiyimiz dörd ad arasında "Quran" adı xüsusi addır, çünki digər üç ad (yəni Kitab, Zikr və Furqan) əvvəlki səmavi kitablar üçün də işlənibdir:

وَ إِذْ ءَاتَيْنَا مُوسَى الْكِتَابَ وَ الْفُرْقَانَ لَعَلَّكُمْ تَهْتَدُونَ.[3]

وَ لَقَدْ ءَاتَيْنَا مُوسَى وَ هَارُونَ الْفُرْقَانَ وَ ضِيَاءً وَ ذِكْرًا لِلْمُتَّقِينَ.[4]

---

[1] Rağib İsfahani, "Mufrədat"; Mənahilul-irfan, c.1, s.21; Nəfəhatur-Rəhman, c.1, s.13-14; Mustafa Xomeyni, "Təfsirul-Quranil-Kərim", c. 1, s. 13-14.

[2] Tövbə surəsi, ayə: 111.

[3] Bəqərə surəsi, ayə: 53.

[4] Ənbiya surəsi, ayə: 48.

**4.** “Quran” adı ilk dəfə olaraq Muzzəmmil surəsində - belə ki, nüzul ardıcıllığına görə bu surə üçüncü surədir - iki dəfə işlənib, hər dəfə də “Quranı oxumaq” əmr olunub. Beləliklə, “Quran” adı vəhyin nazil olduğu elə ilk vaxtlarda xüsusi ad kimi Allah tərəfindən seçilmişdir.

**5.** Baxmayaraq ki, Qurani-Kərimdə “Kitab” adı “Quran” adından daha çox işlənmişdir, amma çox vaxt “Kitab” dedikdə “Tövrat” və “İncil” nəzərdə tutulmuşdur. “Quran” adı isə bu səmavi kitabın digər adları ilə müqayisədə daha çox işlənmişdir.

**6.** Saysız hədislərdə Həzrət Peyğəmbərin (s), İmam Əlinin (ə) və başqa Məsum İmamların (ə) “Quran” adını işlətmələri göstərir ki, bu ad xüsusi və vəhydən qaynaqlanan bir addır.

Deyilənlərdən aydın oldu ki, “Quran” adı Quranın özündə xüsusi ad kimi işlənmiş, bu səbəbdən də, müsəlmanlar arasında bu səmavi kitabın xüsusi adı olaraq işlənməkdədir.

***Birinci hissənin sualları:***

**1.** Quranla bağlı müxtəlif mövzulara dair ilk əsər yazan alimlərdən bir neçəsinin adını deyin.

**2.** Quranın adlarını və məşhur vəsflərini sadalayın.

**3.** Necə oldu ki, Quran “mushəf” adlandı və bu, hansı dövrdə baş verdi? Bu ad özünə hansı mövqeyi qazandı?

**4.** “Quran” sözünün mənalarını açıqlayın. Bu mənalardan hansının daha məqbul olduğunu deyin.

**5.** “Fussilət” surəsinin 44-cü ayəsində işlənən “**أَعْجَمِيٌّ**” kəlməsinin mənası barədə iki ehtimal mövcuddur. Ehtimal verilən bu mənaları açıqlayın.

***Araşdırma üçün suallar:***

**1.** Quranın “Kitab”, “Furqan” və “Məsani” adlarının səbəbini açıqlayın.

**2.** Həzrət Peyğəmbərin (s) beş hədisini bəyan edin ki, o həzrət bu hədislərdə “Quran” adını işlətmişdir.

**3.** Digər səmavi kitablar hansı dillərdə nazil olmuşdur?

**4.** Nəzərə alsaq ki, hər bir millətin dili onun doğma dilidir və mədəniyyətinin ayrılmaz hissəsidir, qeyri-ərəb dilli müsəlman millətlər tərəfindən ərəb dilinin öyrənilməsi və onlar arasında yayılması necə izah oluna bilər?

# İKİNCİ HİSSƏ

# QURANIN TARİXİ (1)

# VƏHY

## İkinci hissə: Vəhy

***Birinci fəsil:* “Vəhy”in tərifi**

***İkinci fəsil:* “Vəhy” Quranda**

***Üçüncü fəsil:* Peyğəmbərlərə gələn vəhy və onun qisimləri**

***Dördüncü fəsil:* Müstəqim vəhy və onun əlamətləri**

***Beşinci fəsil:* Qeyri-müstəqim vəhy**

### *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Yaradılışın çox sirli bir hadisəsi olan “vəhy” hadisəsi barədə məlumat əldə etmək;

- Quranda “vəhy” kəlməsinin işləndiyi yerlər və onun daşıdığı müxtəlif mənalar ilə tanış olmaq;

- Mütəal Allahın öz elçiləri ilə hansı şəkillərdə əlaqə qurduğunu öyrənmək;

- Vəhy qəbul etdiyi zaman Həzrət Peyğəmbərdə (s) yaranan hallar barədə məlumat əldə etmək.

### *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**“əl-Mizan”** təfsiri, c.12, s.292 və c.18, s.72 və c.20, s.342; **Quran dər İslam** (Quran İslamda); **Vəhy ya şuur-e mərmuz** (Vəhy, yoxsa sirli idrak); Quran elmləri və məfhumları barədə araşdırmaların ikinci konfransından çıxışlar və məqalələr toplusu; **Biharul-ənvar**, c.18, “Vəhy” barədə olan bölüm; **əl-İtqan**, c.1, mövzu: 16; **Mənahilul-irfan**, c.1; **ət-Təmhid fi Ulumil-Quran**, c.1; **Tarix-e Quran** (Quranın tarixi), Dr. Mahmud Ramyar; **Piramun-e vəhy və rəhbəri** (Vəhy və rəhbərlik barədə), Ayətullah Cavadi Amuli, s.278-309.

# Birinci fəsil

## Müqəddimə

Nəcm surəsinin 3-4-cü ayələrində buyurulur:

وَ مَا يَنطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى.

***"O (Rəsulallah), (ilahi göstərişləri çatdırarkən) əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (yuxarı aləmdən) ona vəhy olunan vəhydir."***

Quranın tarixinin "vəhy" hadisəsi ilə birbaşa əlaqəsi vardır. Çünki Quran ayələri məhz "vəhy" yolu ilə nazil olmuş, seçilmiş insanın qeyb aləmi ilə əlaqəsi və səmavi ismarıcların qəbulu "vəhy" vasitəsilə həyata keçmişdir. Bu səbəbdən də əksər quranşünaslar Quranın tarixinə dair bəhslərə "vəhy"in araşdırılması ilə başlamışlar.

## "Vəhy"in tərifi

**a) "Vəhy"in lüğəvi (leksik) mənası:**

İbn Mənzur "Lisanul-ərəb"də yazır:

اَلْوَحْىُ اَلْإِشَارَةُ و الْكِتَابَةُ و الرِّسَالَةُ و الْإِلْهَامُ و الْكَلَامُ الْخَفِىُّ وَ كُلُّ مَا أَلْقَيْتَهُ إِلَىٰ غَيْرِكَ. و وَحَىٰ إِلَيْهِ وَ أَوْحَىٰ: كَلَّمَهُ بِكَلَامٍ يُخْفِيهِ مِنْ غَيْرِهِ.

Vəhy - işarə, yazı, ismarıc, ilham, gizli danışıq, bir sözlə, başqasına çatdırılan hər bir məlumatdır.

"وَحَىٰ إِلَيْهِ وَ أَوْحَىٰ" cümləsinin mənası belədir: Onunla məxfi bir şəkildə (sözlərini başqalarından gizlədərək) danışdı.

Rağib İsfahani deyir:

"وحى" (vəhy) sözü "sürətlə baş verən işarə" mənasını bildirir. Buna görə də, sürətlə baş verən hər hansı bir işə "vəhy" deyilir. Bu (sürətlə baş verən işarə), rəmzli və kinayəli söz ilə, yaxud söz işlədilmədən təkcə səs ilə, yaxud müəyyən əzaların işarəsi və hərəkəti ilə, yaxud da yazı ilə ola bilər.[1]

Hicri-qəməri 4-cü əsrin tanınmış lüğətşünası İbn Faris deyir:

"Kök hərfləri **و - ح - ى** ("yə" illə hərfidir) olan **"وحى"** sözü "müəyyən bir məlumatı, bilgini aşkar və ya məxfi şəkildə başqasına təlqin etmək, çatdırmaq" mənasını bildirir. Tərəf müqabilini məlumatlandırmaqdan ötrü hansı şəkildə

[1] "əl-Mufrədat", "vəhy" sözü.

olmasından asılı olmayaraq ona təlqin edilən, çatdırılan müəyyən bir məlumat "vəhy"dir. "Vəhy" sözünün müxtəlif mənalarının kökündə məhz bu məna durur."

İbn Faris açıq-aydın deyir:

كُلُّ مَا أَلْقَيْتَهُ إِلَى غَيْرِكَ حَتَّى عَلِمَهُ فَهُوَ وَحْيٌ كَيْفَ كَانَ.

"Hansı şəkildə olmasından asılı olmayaraq, tərəf müqabilinə təlqin etdiyin, çatdırdığın müəyyən bir məlumat "vəhy"dir."

Bu mənanı İbn Mənzur da qeyd edibdir. Bu tərifə əsasən, "vəhy" sözü müxtəlif yollarla çatdırılan məlumatlara, o cümlədən, işarəyə, səsə, yuxuya, ilhama, vəsvəsəyə, yazıya və s. şamil olur.

Bəzi lüğətşünaslar "məxfi" və "sürətli" sifətlərini "vəhy" sözünün izahında qeyd ediblər. Ərəblər sürətlə baş verən ölümə **"مَوْتٌ وَحِيٌّ"** deyirlər. "Vəhy" sözü yaranarkən bu sifət (sürətli) onun mənasında mövcud olmayıb, ola bilsin ki, ərəblər bu sözü işlədərkən həmin sifəti də onun mənasında nəzərdə tutublar. Bəzi hallarda "sürətli" sifətinin istifadəsi başqa bir sifəti də, yəni "məxfi" sifətini də bu sözün mənasına əlavə etmişdir. Çünki adətən, sürətlə baş verən işarə və təlqin tərəf müqabilindən qeyrisinə məxfi qalır.[1]

Hər halda, "vəhy" sözünün "sürətli və məxfi şəkildə olan təlqinlər" xüsusunda işləndiyi inkar olunmasa da, lakin bu sözün hər zaman bu sifətləri daşıdığı qəbul olunmur. Çünki bir sıra Quran ayələrində işlənən "vəhy" sözü bu iki sifətdən heç birini özündə daşımır.[2]

**b) "Vəhy"in terminoloji mənası:**

Vəhy, Allah elçiləri ilə qeyb aləmi arasında yaranan mənəvi bağlantı, əlaqədir. Peyğəmbərlər səmavi ismarıcları bu bağlantı və əlaqə vasitəsilə alırlar. Onlardan qeyri kimsənin belə bir əlaqəyə ləyaqəti və qüvvəsi yoxdur. Bu barədə üçüncü fəsildə ətraflı danışılacaqdır.

## *Fəslin əsas mətləbləri:*

"Vəhy" sözü leksik mənada müxtəlif yollarla təlqin edilən, çatdırılan məlumatlara, o cümlədən, işarəyə, səsə, ilhama, yuxuya, vəsvəsəyə, yazıya şamil olur.

Bəzi hallarda "vəhy" sözünün mənasında "sürətli" və "məxfi" sifətləri nəzərdə tutulur.

[1] ət-Təmhid, c.1, s.3.

[2] Nümunə üçün Məryəm surəsinin 11-ci ayəsinə baxın.

# İkinci fəsil

## “Vəhy” Quranda

“Vəhy” Qurani-Kərimdə mələklərə, şeytanlara, insana, heyvana və Yerə aid edilmişdir. Əlbəttə, Qurani-Kərimdə bu söz və ondan düzələn sözlər (eyniköklü sözlər) ən çox “peyğəmbərlərə gələn vəhy” mənasında işlənmişdir. Bu barədə sonrakı fəsildə ayrıca bəhs edəcəyik.

“Vəhy” mələklərə, şeytanlara, insana, heyvana və Yerə aid edilərkən müxtəlif mənalar nəzərdə tutulmuşdur. Söz yox ki, bu mənalar “vəhy” sözünün lüğəvi mənasına müvafiqdir. Burada bir neçə nümunəyə nəzər salaq:

**1) Mələklərə ilahi ilham:**

وَ إِذْ يُوحَىٰ رَبُّكَ إِلَى الْمَلَائِكَةِ أَنِّى مَعَكُمْ ...

***“O zaman Rəbbin mələklərə vəhy edirdi ki: “Mən sizinləyəm...””[1]***

**2) İnsana ilahi ilham:**

وَ أَوْحَيْنَا إِلَى أُمِّ مُوسَىٰ أَنْ أَرْضِعِيهِ ...

***“Biz Musanın anasına vəhy etdik: “Onu əmizdir...””[2]***

**3) Camadata (cansızlara) ilahi ilham:**

يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا. بِأَنَّ رَبَّكَ أَوْحَىٰ لَهَا.

***“Həmin gün Yer öz xəbərlərini açıb söyləyər. Ona görə ki, sənin Rəbbin ona vəhy etmişdir.”[3]***

**4) Şeytani vəsvəsə:**

وَ كَذٰلِكَ جَعَلْنَا لِكُلِّ نَبِىٍّ عَدُوًّا شَيَاطِينَ الْإِنْسِ وَ الْجِنِّ يُوحِى بَعْضُهُمْ إِلَىٰ بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا ...

***“Beləcə, hər bir peyğəmbər üçün insan və cin şeytanlardan düşmən qoyduq. Aldatmaq üçün onlar bir-birinə bəzədilmiş sözlər təlqin edirlər (ötürürlər)...”[4]***

... وَ إِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَىٰ أَوْلِيَائِهِمْ لِيُجَادِلُوكُمْ ...

---

[1] Ənfal surəsi, ayə: 12.
[2] Qəsəs surəsi, ayə: 7.
[3] Zəlzələ surəsi, ayə: 4-5.
[4] Ən`am surəsi, ayə: 112.

***“Həqiqətən şeytanlar öz dostlarına sizinlə mübahisə edib çəkişməyi vəsvəsə edirlər.”[1]***

**5) İşarə:**

فَخَرَجَ عَلَىٰ قَوْمِهِ مِنَ الْمِحْرَابِ فَأَوْحَىٰ إِلَيْهِمْ أَنْ سَبِّحُوا بُكْرَةً وَ عشِيًّا.

***“Beləliklə o, mehrabdan öz qövmünün qabağına çıxıb onlara belə işarə etdi: Səhər-axşam Allahı sitayiş edin, şəninə təriflər deyin.”[2]***

**6) Qərizə (instinkt):**

وَ أَوْحَىٰ رَبُّكَ إِلَى النَّحْلِ ...

***“Və Rəbbin bal arısına vəhy etdi (onun təbiətində bu əməlin şövq və qüdrətini qoydu) ki ...”[3]***

Əllamə Təbatəbai deyir:

"“Vəhy” sözünün işləndiyi yerlərə diqqət yetirdikdə bu qənaətə gəlirik ki, başqalarından məxfi qalacaq bir tərzdə mənanın (məqsəd və fikrin) tərəf müqabilinə təlqin edilməsi (çatdırılması, ötürülməsi) “vəhy”dır. Beləliklə, qərizə (instinkt) yolu ilə heyvan şüuruna mənanın təlqin edilməsi, başqa sözlə, ilham edilməsi “vəhy”dir. Həmçinin yuxu (Qəsəs surəsi, 7-ci ayə), vəsvəsə, işarə (Məryəm surəsi, 11-ci ayə) yolu ilə mənanın insan idrakına çatdırılması “vəhy”dir.”[4]

Həzrət Əli ibn Əbu Talibin (ə) buyurduğu bir hədisdə Qurani-Kərimdə sözükeçən vəhy “peyğəmbər vəhyi”, “ilham vəhyi”, “işarə vəhyi”, “təqdirat vəhyi”, “əmr vəhyi”, “kizb vəhyi” (şeytanlar xüsusunda) və “xəbər vəhyi” qisimlərinə ayrılmış, hər qisimə aid ayələr qeyd olunmuşdur.[5]

## *Fəslin əsas mətləbləri:*

**1.** “Vəhy” Qurani-Kərimdə mələklərə, şeytanlara, insana, heyvana və Yerə aid edilmişdir.

**2.** Qurani-Kərimdə işlənən “vəhy” sözündə ilahi ilham, şeytani vəsvəsə, işarə və qərizə kimi mənalar nəzərdə tutulmuşdur.

---

[1] Ən`am surəsi, ayə: 121.

[2] Məryəm surəsi, ayə: 11.

[3] Nəhl surəsi, ayə: 68.

[4] əl-Mizan, c.12, s.292.

[5] Biharul-ənvar, c.18, s.254-255.

# Üçüncü fəsil

## Peyğəmbərlərə gələn vəhy və onun qisimləri

Bu fəsildə peyğəmbərlərə gələn vəhy barədə danışılacaq. Qeyd etdik ki, Qurani-Kərimdə "vəhy" və onunla eyniköklü sözlər ən çox "peyğəmbərlərə gələn vəhy" mənasında işlənmişdir: təxminən yetmiş dəfə. Halbuki, başqa xüsuslarda və mənalarda olduqca az işlənmişdir. Hal-hazırda isə bu söz, demək olar ki, yalnız "peyğəmbərlərə gələn vəhy" mənasında işlənir. Elə buna görə də, Əllamə Təbatəbai deyir: "İslam dininin ədəbi tələb edir ki, biz bu sözü peyğəmbərlərdən qeyrisi xüsusunda işlətməyək."[1]

"Vəhy" nədir?

Vəhy, bəşərin adi düşüncəsinə və ağlı hüdudlarına sığmayan bir hadisə, fenomendir: olduqca sirli bir hadisə. Burada söhbət başqa bir aləm ilə yaranan əlaqə və bağlantıdan gedir. Bu əlaqə və bağlantı vasitəsilə seçilmiş bir insan "hüzuri və şühudi elm"[2] ilə ən ali qeybi ismarıcları alır. Odur ki, "vəhy"in və "vəhy qəbul etmə"nin həqiqət və mahiyyətini yalnız o seçilmiş insan bilir. Ətrafdakılar isə bu hadisənin yalnız əlamətlərini müşahidə edib onu qəbul edir.

"Vəhy"in bu tərifinə diqqət yetirin:

Vəhy, bir növ səmavi (qeyri-maddi) danışıqdır, hiss və ağıl ilə dərk edilmir. Bu, başqa bir idrak və şüurdur ki, bəzən Allahın istəyi ilə bəzi insanlarda yaranır və bu insanlar qeybi göstərişləri – hiss və ağıla gizlin olan göstərişləri - vəhy və ilahi təlim yolu ilə alırlar.[3]

Ağıl fövqündə olan bu hadisə peyğəmbərlər cərgəsini qeyrilərindən ayıran ən yüksək məqamlardan, məziyyətlərdən biridir. Bəşərin peyğəmbər ola bilməsini danan kafirlərə: "Peyğəmbərlər də bəşərdir" – deyə qəti cavab verən Qurani-Kərim, peyğəmbərləri digərlərindən fərqləndirən cəhət ünvanında "onlara vəhy gəldiyini" vurğulayır:

فَقَالَ الْمَلَؤُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ مَا هذَا إِلَّا بَشَرٌ مِثْلُكُمْ يُرِيدُ أَنْ يَتَفَضَّلَ عَلَيْكُمْ وَ لَوْ شَاءَ اللهُ لَأَنْزَلَ مَلَائِكَةً ...

[1] əl-Mizan, c.12, s.292.

[2] Vasitəsiz idrak, intiusiya.

[3] "Quran dər İslam", s. 125.

***“Onun (Nuhun) qövmünün kafir başçıları dedilər: “Bu (kişi) sizin kimi yalnız bir bəşərdir. (Peyğəmbərlik iddiası ilə) sizə böyüklük etmək istəyir. Əgər Allah (peyğəmbər göndərmək) istəsəydi, mələklər göndərərdi...”[1]***

Ağıl fövqündə olan bu hadisəni qəbul etmək onlar üçün çətin olduğundan peyğəmbəri dəli hesab etdilər:

إِنْ هُوَ إِلَّا رَجُلٌ بِهِ جِنَّةٌ فَتَرَبَّصُوا بِهِ حَتَّى حِينٍ.

***“O, dəli olmuş bir kişidir. Buna görə də onun barəsində bir müddət əl saxlayın (bəlkə sağaldı, yaxud öldü).”[2]***

Yaxud bu ayəyə nəzər salaq:

... فَقَالُوا أَبَشَرٌ يَهْدُونَنَا فَكَفَرُوا وَ تَوَلَّوا ...

***“Onlar: “Məgər (özümüzdən olan) bəşərmi bizi doğru yola yönəldəcək?!”- dedilər. Beləliklə, kafir oldular və üz çevirdilər.”[3]***

Qurani-Kərim onların cavabında bildirir ki, peyğəmbərlərin hamısı bəşərdir, onların başqa insanlarla tək bir fərqi ‘‘onlara vəhyin gəlməsi’’dir:

قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِّثْلُكُمْ يُوحَى إِلَيَّ ...

***“De: “Mən də sizin kimi bir bəşərəm, (lakin) mənə vəhy olunur...”[4]***

Nəcm surəsinin 3-4-cü ayələrində heç bir nəfsi istəyin və səhvin ‘‘vəhy’’ə yol tapa bilməməsi tam qətiyyətlə bildirilir:

وَ مَا يَنْطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى.

***“O (Rəsulallah, ilahi göstərişləri çatdırarkən) əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız (yuxarı aləmdən) ona vəhy olunan vəhydir.”***

## Peyğəmbərlərə gələn vəhyin qisimləri

Peyğəmbərlər ilə Allah arasındakı qeybi əlaqə və bağlantı – bu, ‘‘vəhy’’ adlanır - üç şəkildə mümkün olmuşdur:

وَ مَا كَانَ لِبَشَرٍ أَنْ يُكَلِّمَهُ اللهُ إِلَّا وَحْيًا أَوْ مِنْ وَرَاءِ حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا ...

***“Heç bir bəşər üçün müyəssər və mümkün olmaz ki, Allah onunla vəhy ilə, yaxud pərdə arxasından, yaxud da bir elçi göndərməkdən qeyri bir şəkildə danışsın...”[5]***

Yuxarıdakı ayədə bəyan edilir ki, Allahın bəşər ilə danışığı yalnız üç şəkildə mümkündür: onlardan biri vasitəsiz və müstəqim vəhydir, digər ikisi isə vasitəli və qeyri-

[1] Mu`minun surəsi, ayə: 24.
[2] Mu`minun surəsi, ayə: 25.
[3] Təğabun surəsi, ayə: 6.
[4] Kəhf surəsi, ayə: 110; Fussilət surəsi, ayə: 6.
[5] Şura surəsi, ayə: 51.

müstəqim vəhydir. Vasitəli və qeyri-müstəqim vəhy zamanı Mütəal Allah bəşərlə pərdə arxasından və ya elçi vasitəsilə danışır. Bu ikisinin də fərqi ondadır ki, elçinin özü (mələk) vəhyi gətirir, pərdə isə vəhyin gerçəkləşməsi üçün bir vasitə rolunu oynayır.[1]

Başqa sözlə, vəhyin 3 qismi aşağıdakılardan ibarətdir:

1. Arada heç bir vasitə olmadan Allahın bəşərlə danışığı;

2. Pərdə arxasından Allahın bəşərlə danışığı: məsələn, Musa peyğəmbər (ə) Tur dağındakı ağacdan vəhyi eşidirdi;

3. Vəhy mələyinin Allahın kəlamını bəşərə gətirməsi.[2]

Şura surəsinin 52-ci ayəsində İslam peyğəmbərinə (s) gələn vəhyin növü bəyan olunmuşdur:

وَ كَذٰلِكَ أَوْحَيْنَا إِلَيْكَ رُوحًا مِنْ أَمْرِنَا ما كُنْتَ تَدْرِى مَا الْكِتَابُ وَ لَا الْإِيمَانُ ...

***"Sənə də beləcə Öz əmrimizdən olan bir ruh vəhy etdik. Sən (bundan öncə) kitab nədir, iman nədir, bilməzdin..."***

Bu ayədən aydın olur ki, Quran bəşərə "ruh" vasitəsilə vəhy olunmuşdur və ayədə sözükeçən "ruh" Ruhul-əmindir. Şuəra surəsinin 194-cü ayəsində də buyurulur ki: Quranı Ruhul-əmin sənin qəlbinə nazil etdi. Beləliklə, Quranı və ya onun müəyyən hissəsini vəhy mələyi (Cəbrail və ya Ruhul-Əmin) Allah tərəfindən Həzrət Peyğəmbərə (s) gətirmişdir (Allahın bəşərlə danışığının üçüncü qismi).

## *Fəslin əsas mətləbləri:*

**1.** Vəhyin həqiqət və mahiyyəti yalnız peyğəmbərlərə məlumdur, çünki vəhy ancaq onlara gəlir.

Vəhyin tərifində bunu demək mümkündür:

Vəhy, bir növ səmavi (qeyri-maddi) danışıqdır, hiss və ağıl ilə dərk edilmir. Onu dərk etmək başqa bir idrak və şüur tələb ki, Allahın istəyi ilə bu idrak az sayda seçilmiş insanlarda yaranır. Nəticədə, göndərilən qeybi ismarıclar "hüzuri elm" ilə qəbul edilir.

**2.** "Vəhy" sözü Qurani-Kərimdə ən çox - təxminən yetmiş dəfə - "peyğəmbərlərə gələn vəhy" mənasında işlənib.

**3.** Peyğəmbərləri digər insanlardan fərqləndirən ən mühüm cəhət onlara vəhyin gəlməsidir.

**4.** Peyğəmbərlərə gələn vəhy 3 qisimdir:

1) Müstəqim vəhy; 2) Pərdə arxasından vəhy; 3) Vəhy mələyinin, yəni vəhyi daşıyan mələyin göndərilməsi.

**5.** Quran, "müstəqim vəhy" və "vəhy mələyinin göndərilməsi" şəklində nazil olub.

---

[1] əl-Mizan, c.18, s.73.

[2] Quran dər İslam, s.150.

# Dördüncü fəsil

## Müstəqim vəhy və onun əlamətləri

Muzzəmmil surəsinin 5-ci ayəsində buyurulur:

إِنَّا سَنُلْقِى عَلَيْكَ قَوْلًا ثَقِيلًا.

***"Həqiqətən, tezliklə Biz sənə ağır bir kəlam vəhy edəcəyik."***

Ən ağır vəhy, müstəqim vəhy olmuşdur. Bu zaman arada heç bir vasitə olmadan peyğəmbər ilə varlıq mənbəyi arasında birbaşa əlaqə və bağlantı yaranır. Bu hadisənin necə baş verdiyi təsəvvürə sığmasa da, lakin Qurani-Kərimin çox sayda ayələrinə, eləcə də, sünni və şiə qaynaqlarındakı saysız hədislərə əsasən müstəqim vəhyin ən ağır vəhy olduğu danılmazdır.

Burada bir neçə hədisə nəzər salaq:

1. Əminul-İslam Təbərsi "Muzzəmmil" surəsinin 5-ci ayəsinin təfsirində bu hədisi qeyd edib:

Haris ibn Hişam Həzrət Peyğəmbərdən (s) soruşdu: "Vəhy sizə necə nazil olur?" Peyğəmbər (s) buyurdu: "Vəhy bəzən bir zəng səsi kimi gəlir və bu, mənə gələn vəhyin ən ağırıdır. Məni taqətdən salır və yorur, lakin eyni zamanda bütün sözləri (vəhy olunanları) yadda saxlayıram. Bəzən də bir mələk kişi surətində gəlir və onun dedikləri yadımda qalır."[1]

2. Abdullah ibn Ömər deyir:

Həzrət Peyğəmbərdən (s) vəhy zamanı hansı hissləri keçirdiyini, bu vaxt nə baş verdiyini soruşdum. O həzrət buyurdu: "Zəng səsləri eşidirəm və bu zaman tamamilə sakit dayanıram. Mənə vəhy olunanda, sanki canımı bədənimdəm çıxarırlar."[2]

Şeyx Səduq "Tövhid" adlı kitabında Zurarənin bu hədisini qeyd etmişdir:

Zurarə deyir ki, mən İmam Sadiqə (ə) ərz etdim: "Sənə fəda olum, Peyğəmbər (s) qəşş etdiyi vaxt ona vəhymi nazil olurdu?" İmam Sadiq (ə) buyurdu: "Bu, onunla Allah arasında heç bir vasitə olmadan vəhy nazil olduğu zaman olurdu. Bu zaman Allah Öz əzəmət və cəlalı ilə ona təcəlli edirdi."[3]

3. Ümmül-möminin Aişə nəql edir ki, çox soyuq bir gündə Peyğəmbərə (s) vəhy nazil oldu. Vəhy kəsildikdən sonra onun alnından tər axırdı.[4]

---

[1] Məcməul-bəyan, c.1, s.570; Biharul-ənvar, c.18, s.260; Səhih-Buxari, c.1, s.58.

[2] əl-İtqan, c.1, s.141.

[3] Biharul-ənvar, c.18, s.256; əl-Mizan, c.18, s.79.

[4] Biharul-ənvar, c.18, s.261; əl-Mizan, c.18, s.79.

Həzrət Peyğəmbər (s) üçün çox ağır olan müstəqim vəhy zamanı o həzrətdə yaranan hallar, bəzi hədislərdə **"بُرَحاء وَحى"**, yəni "vəhyin hərarətinin şiddəti" deyə ifadə olunub. Burada Dr. Mahmud Ramyarın "Tarix-e Quran" (Quranın tarixi) əsərində qeyd etdiyi hədislərə əsaslanaraq, müstəqim vəhyin əlamətlərindən bəzilərini nəzərinizə çatdırırıq:

1. Zəng səsinin, yaxud iki dəmir parçasının bir-birinə dəydiyi zaman çıxan cingiltili səsin, yaxud da bal arısının vızıltısına bənzər bir səsin eşidilməsi;
2. Bədən hərarətinin artması: bu zaman hərarəti endirmək üçün Peyğəmbəri (s) soyuq su ilə yuyundurub, sonra geyindirirdilər;
3. Peyğəmbərin (s) bədən hərarəti o qədər artırdı ki, soyuq havada belə başından və üzündən tər axırdı;
4. Bəzən üzü qızarır, bəzən isə göyərirdi;
5. Qəşş edirdi;
6. Bəzən möhkəm ağrı çəkirdi;
7. Mübarək vücudu bəzən elə ağırlaşırdı ki, onun süvar olduğu minik də hərəkət edə bilmirdi;
8. Bəzən o həzrətdə başağrısı yaranırdı.[1]

## *Fəslin əsas mətləbləri:*

**1.** Müstəqim vəhy Həzrət Peyğəmbərə (s) nazil olan ən ağır vəhy idi.

**2.** Həzrət Peyğəmbərə (s) müstəqim vəhy nazil olarkən o həzrətdə bu hallar baş verirdi: bəzən vücudu ağırlaşırdı, bəzən möhkəm ağrı çəkirdi, bəzən başı ağrıyırdı, bəzən üzü qızarır və bəzən isə göyərirdi, bədən hərarəti artırdı, bədən hərarəti artdığından soyuq havada belə tərləyirdi, ağır səslər eşidirdi, bəzən qəşş edirdi.

[1] Tarix-e Quran, s.108-109.

# Beşinci fəsil

## Qeyri-müstəqim vəhy

Şuəra surəsinin 192-194-cü ayələrində buyurulur:

وَ إِنَّهُ لَتَنْزِيلُ رَبِّ الْعَالَمِينَ. نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ. عَلَى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنْذِرِينَ.

***"Şübhəsiz ki, bu (Quran), aləmlərin Rəbbinin nazil etdiyidir. Ruhul-Əmin (Cəbrail) onu nazil etdi; Sənin qəlbinə; ondan ötrü ki, qorxudanlardan olasan."***

Əllamə Təbatəbai deyir:

"'"Qəlb" sözü Qurani-Kərimdə işləndikdə sinənin sol tərəfində yerləşən bədən üzvü nəzərdə tutulmur. Burada insan ruhu nəzərdə tutulur ki, idraka malikdir və insanın duyğuları, iradəsi ona bağlıdır. Ayədə: "Sənin qəlbinə nazil etdi" – deyə buyurulması bu həqiqətə işarə edir ki, Peyğəmbərin (s) mübarək ruhu zahiri hisslərin iştirakı olmadan vəhyi qəbul edirmiş."[1]

Başqa sözlə, Həzrət Peyğəmbər (s) vəhyi bütün ruhu ilə alırmış, göz və qulaq kimi bədən üzvlərinin (görmə və eşitmə qabiliyyətlərinin) bu işdə heç bir iştirakı olmurmuş. Əks təqdirdə, ətrafdakı insanlar da Peyğəmbərin (s) gördüklərini görər, eşitdiklərini eşidərdilər.

Qeyri-müstəqim vəhy barədəki hədislərdən əldə olunur ki, bu zaman Peyğəmbər (s) çox çətinlik çəkməzdi. Cəbrail (ə) bəzən insan simasında Peyğəmbərin (s) hüzuruna gələrdi. İmam Sadiq (ə) buyurmuşdur:

"Cəbrail Peyğəmbərin (s) hüzuruna gəldikdə bir qul kimi onun qarşısında əyləşər və icazəsiz içəriyə daxil olmazdı."[2]

Hədisə görə, Cəbrail, Dəhyə ibn Xəlifə Kəlbinin surətində Peyğəmbərə (s) zahir olarmış. Çünki Dəhyə, Mədinədə ən gözəl insan idi.[3]

İlahi vəhyin əmanətdarı və daşıyıcısı olan Cəbrail Quran ayələrini bir dəstə mələyin xüsusi müşayiəti və mühafizəsi ilə nazil edərmiş:

كَلَّا إِنَّهَا تَذْكِرَةٌ. فَمَنْ شَاءَ ذَكَرَهُ. فِى صُحُفٍ مُكَرَّمَةٍ. مَرْفُوعَةٍ مُطَهَّرَةٍ. بِأَيْدى سَفَرَةٍ. كِرَامٍ بَرَرَةٍ.

***"Xeyr (belə yaramaz)! Həqiqətən bu (Quran ayələri) bir xatırlatmadır (öyüdnəsihətdir).***

***Kim istəsə, ondan öyüd alar.***

[1] əl-Mizan, c. 15, s. 317.

[2] Biharul-ənvar, c. 18, s. 256; əl-Mizan, c. 18, s. 79.

[3] ət-Təmhid fi Ulumil-Quran, c. 1, s. 36.

***(Bu Quran) çox möhtərəm, mötəbər səhifələrdə,***
***Qədir-qiyməti uca, pak səhifələrdədir.***
***(O, Lövhi-məhfuzdan) elçi mələklərin əli ilə köçürülür.***
***O mələklər ki, çox möhtərəm və çox mütidirlər.”***[1]

Ehtimal olunur ki, mələklərin bu xüsusi müşayiəti ilahi vəhyin cin və şeytanların təhlükəsindən qorunması üçün imiş. Buna görə də bir dəstə mələk vəhy əmanətdarı Cəbrail ilə birlikdə enirlərmiş.

## *Fəslin əsas mətləbləri:*

**1.** Müstəqim vəhydə olan ağırlıq və gərginlik qeyri-müstəqim vəhydə mövcud olmayıb.

**2.** Şuəra surəsinin 192-194-cü ayələrinə əsasən, Cəbrail Həzrət Peyğəmbərin (s) qəlbinə Quran ayələrini nazil edərkən o həzrət vəhyi bütün ruhu ilə alırmış, göz və qulaq kimi bədən üzvlərinin vəhyin alınmasında heç bir iştirakı yox idi.

**3.** Cəbrail bəzən insan surətində Peyğəmbərin (s) hüzuruna gəlirdi.

***İkinci hissənin sualları:***

**1.** Vəhyin tərifini deyin.

**2.** Biz nə üçün peyğəmbərlərə gələn vəhyin həqiqətini dərk edə bilmərik?

**3.** Qurani-Kərimdə “vəhy” sözü hansı mənalarda işlənib? Bu ayələri qeyd edin.

**4.** Peyğəmbərlərə gələn vəhyin qisimlərini açıqlayan Quran ayəsini söyləyin və onu qısa şəkildə şərh edin.

**5.** Müstəqim vəhyin əlamətlərini sadalayın.

***Araşdırma üçün suallar:***

**1.** Bəzilərinin nəzərinə görə, vəhy hadisəsi peyğəmbərlərin dühasından (yüksək zəka və istedad) qaynaqlanır. Bu nəzər düzgündürmü? Nə üçün?

**2.** “Əql” və “vəhy” bir-birinə uyğundur, yoxsa zidd? Yaxud onların bir-biri ilə əsla əlaqəsi yoxdur? Bu barədə araşdırma aparıb fikrinizi söyləyin.

**3.** Bəziləri “Fussilət” surəsinin 12-ci ayəsinə əsaslanaraq:

... وَ أَوْحَى فِى كُلِّ سَمَاءٍ أَمْرَهَا...

Quranda “vəhy”in “səmaya” da aid edildiyini söyləyirlər. Sizin bu barədə nəzəriniz nədir?

**4.** Bəzi müfəssirlər “Nəcm” surəsinin əvvəlinci bir neçə ayəsinə əsaslanaraq bildirirlər ki, Cəbrail iki dəfə öz simasında Peyğəmbərə (s) nazil olub. Bu söz düzgündürmü?

**5.** Dəhyə ibn Xəlifə Kəlbi kim olub?

---

[1] Əbəsə surəsi, ayə: 11-16.

# ÜÇÜNCÜ HİSSƏ

## QURANIN TARİXİ (2)

# QURANIN NÜZULU

## Üçüncü hissə: Quranın nüzulu

***Birinci fəsil:*** **Quranın nüzulu və Be`sət**

***İkinci fəsil:*** **Birdəfəyə və tədrici nüzul**

***Üçüncü fəsil:*** **Şə`ni-nüzul**

***Dördüncü fəsil:*** **Quranda ayə və surə**

***Beşinci fəsil:*** **Birinci və sonuncu ayə. Birinci və sonuncu surə.**

***Altıncı fəsil:*** **"Məkki" və "mədəni" surələr**

### *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- "Quranın nüzulu" və "Be`sət" arasında olan əlaqə zəminində yaranan mübahisələrin Quranın birdəfəyə və tədrici nüzulu ilə həll olunduğunu bilmək;

- Tədrici nüzulun səbəblərini bilmək;

- Ayələrin şə`ni-nüzulu barədə məlumatlanmaq və bunun əhəmiyyətini bilmək;

- Quranın surə və ayələrə ayrılması barədə, eləcə də, ayələrin, surələrin və kəlmələrin sayı barədə məlumat əldə etmək;

- Nazil olan birinci və sonuncu ayə, birinci və sonuncu surə barədə məlumatlanmaq;

- "Məkki" və "mədəni" surələrin təyin edilməsi meyarları, bu surələrin xüsusiyyətləri və surələrin nazil olma ardıcıllığı barədə məlumatlanmaq.

### *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**Biharul-ənvar**; **əl-İtqan fi Ulumil-Quran**; **ət-Təmhid fi Ulumil-Quran**; **Tarix-e Quran**, Dr. Mahmud Ramyar; **Pəjuheşi dər tarix-e Quran** (Quranın tarixinin araşdırılması), Dr. Seyid Məhəmmədbaqir Huccəti; **Tarixul-Quran**, Abdullah Zəncani; **əl-Mizan**, c.2; **Quran dər İslam** (Quran İslamda); **Ferhəng-e amariye kələmat-e Qurani-Kərim** (Qurani-Kərimin kəlmələrinin sayı barədə lüğət); **Mənahilul-irfan**.

# Birinci fəsil

## Quranın nüzulu və Be`sət

Bəqərə surəsinin 185-ci ayəsində buyurulur:

شَهْرُ رَمَضَانَ الَّذِى أُنْزِلَ فِيهِ الْقُرْءَانُ هُدًى لِلنَّاسِ وَ بَيِّنَاتٍ مِنَ الْهُدَىٰ وَ الْفُرْقَانِ...

***"Ramazan ayı insanlara doğru yolu göstərən, bu yolu möhkəm dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran Quranın nazil olduğu bir aydır..."***

Duxan surəsinin 3-cü ayəsində buyurulur:

إِنَّا أَنْزَلْنَاهُ فِى لَيْلَةٍ مُبَارَكَةٍ...

***"Biz onu (Quranı) mübarək (çox bərəkətli) bir gecədə nazil etdik."***

Qədr surəsinin 1-ci ayəsində də buyurulur:

إِنَّا أَنْزَلْنَاهُ فِى لَيْلَةِ الْقَدْرِ...

***"Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik."***

Bildiyiniz kimi, Həzrət Məhəmmədə (s) qırx yaşında (miladi 610-cu və ya 611-ci ildə) peyğəmbərlik verildi. Məkkə ətrafındakı Həra mağarasında mübarək "Ələq" surəsinin ilk ayələrinin nazil olması ilə o həzrətin peyğəmbərliyi başlandı. Bu barədə müsəlmanlar arasında heç bir fikirayrılığı yoxdur. Amma "be`sət"in (yəni Həzrət Məhəmmədə (s) peyğəmbərliyin verilməsi) hansı tarixdə baş verməsi barədə müsəlmanlar arasında fikirayrılığı vardır. Bu da Quranın nüzul (nazil olma) tarixi barədə fikirayrılığına bais olmuşdur.

Quranın nüzul tarixi və "be`sət"in tarixi barədə aşağıdakı nəzərlər mövcuddur:

1. Rəcəb ayının 27-i;
2. Ramazan ayının 17-i;
3. Ramazan ayının 18-i;
4. Ramazan ayının 24-ü;
5. Rəbiəl-əvvəl ayının 12-i[1];
6. Şaban ayının 15-ci gecəsi[2];
7. Rəbiəl-əvvəl ayının 8-i;
8. Rəbiəl-əvvəl ayının 3-ü[3].

---

[1] Müraciət edin: Biharul-ənvar, c.18, s.190; ət-Təmhid, c.1, s.78.

[2] Pəjuheşi dər tarix-e Quran, s.38.

[3] ət-Təmhid fi Ulumil-Quran, c.1, s.78.

Şiələr Məsum İmamların (ə) hədislərinə əsaslanaraq, be`sətin rəcəb ayının 27-i baş verdiyini qəbul edirlər. Bu barədə mövcud olan çoxsaylı hədislərdən bir neçəsinə nəzər salaq:

1. Şeyx Tusi "Əmali"də İmam Sadiqin (ə) bu hədisini qeyd edib: "Rəcəb ayının 27-i Rəsulallaha (s) peyğəmbərlik verildi. Kim bu gündə oruc tutsa, altmış ay oruc tutan şəxsin savabını əldə edər."[1]

2. İmam Kazim (ə) buyurub: "Mütəal Allah, aləmlərə rəhmət olan Məhəmmədə (s) rəcəb ayının 27-də peyğəmbərlik verdi. Kim bu gündə oruc tutsa, Allah-Təala ona altmış ayın orucunun savabını yazar."[2]

3. İmam Sadiq (ə) buyurub: "Rəcəb ayının 27-ci gününün orucunu tərk etmə, çünki bu gündə Məhəmmədə (s) peyğəmbərlik verilib. Bu günün orucunun savabı altmış ayın orucunun savabına bərabərdir."[3]

Bu məzmunda çox sayda hədislər vardır.[4]

Əhli-sünnə alimləri be`sətin ramazan ayında olduğunu isbat etmək üçün Bəqərə, Duxan və Qədr surələrindəki ayələrə (bu fəslin başlanğıcında qeyd edilən ayələrə) istinad etmişlər. Onlar söyləyirlər ki, Quranda rəcəb ayından və be`sətin bu ayda olduğundan söz açılmayıb. Sözügedən ayələr aydın şəkildə bu mətləbə dəlalət edir ki: Quran ramazan ayında mübarək bir gecə olan Qədr gecəsində nazil olmuşdur. Be`sət də (yəni Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilməsi) Quranın nüzulu ilə eyni zamanda olduğundan, deməli, be`sət ramazan ayında olmuşdur.

Bu nəzərə aşağıdakı iradları bildirmək mümkündür:

1) Bu üç ayədə təkcə Quranın nüzul zamanı bəyan olunub, nüzul məkanına isə heç bir işarə olunmayıb. Yəni bu ayələrdən əldə olunmur ki, ramazan ayındakı nüzul həmin Həra mağarasındakı nüzuldur. (Halbuki, bütün müsəlmanlar bu əqidədədirlər ki, Həzrət Peyğəmbər (s) Həra mağarasında ibadətlə məşğul olarkən Cəbrail Əminullah "Ələq" surəsinin ilk beş ayəsini nazil edib, peyğəmbər seçildiyini ona xəbər verdi.)

2) Bəqərə surəsinin 185-ci ayəsi və Qədr surəsinin 1-ci ayəsinin zahiri Quranın Ramazan ayında və Qədr gecəsində **birdəfəyə nüzuluna** dəlalət edir. Duxan surəsinin 3-cü ayəsi isə Quranın birdəfəyə nüzuluna daha aydın dəlalət edir:

حم. وَ الْكِتَابِ الْمُبِينِ. إِنَّا أَنْزَلْنَاهُ فِى لَيْلَةٍ مُبَارَكَةٍ.

***"Ha-mim. And olsun bu aydın (aydınlıq gətirən) kitaba ki, Biz onu mübarək bir gecədə nazil etdik."***[5]

---

[1] Vəsailuş-şiə, c.7, s.330.

[2] Öncəki qaynaq.

[3] Vasailuş-şiə, c.7, s.357.

[4] Vəsailuş-şiə, c.7, "Müstəhəb oruc" bölümlərinin 15-ci və 19-cu bölümləri, həmçinin c.5, "Məb`əs gecəsi və məb`əs gününün namazının müstəhəbliyi" bölümü.

[5] Duxan surəsi, ayə: 1-3.

Belə ki, 3-cü ayədəki “أَنْزَلْنَاهُ” sözündə olan “هُ” zəmiri (əvəzliyi) 2-ci ayədəki “الْكِتَابِ” sözünə qayıdır və Mütəal Allah bu **kitaba** and içir. Ayə aydın şəkildə dəlalət edir ki, burada sözükeçən **“kitab”,** Quran ayələrinin məcmusu və “ilahi kitab”dır. Halbuki, be`sət zamanı təkcə “Ələq” surəsinin beş ayəsi nazil olmuşdu. Buna görə də deyə bilmərik ki, bu ayələr be`sətə dəlalət edir.

* * *

Dəyərli “ət-Təmhid” kitabının müəllifi Məhəmmədhadi Mərifət bu mübahisəli məsələni başqa bir şəkildə həll etməyə çalışmışdır. Yəni o, be`sətin rəcəb ayının 27-də, Quranın nüzulunun isə ramazan ayında olduğunu aşağıdakı şəkildə izah edir:

Əhli-beytin hədislərinə əsasən, “be`sət” rəcəb ayında olmuşdur. Lakin Quran bir səmavi kitab və əbədi ilahi qanunnamə kimi üç il fasilədən sonra Həzrət Peyğəmbərə (s) nazil olmağa başlamışdır. Bu üç il ərzində Həzrət Peyğəmbər (s) dinə gizli dəvət ilə məşğul olmuşdur və bu barədə saysız hədislər vardır. Be`sətdən üç il keçdikdən sonra “Hicr” surəsinin 94-95-ci ayələri nazil oldu:

فَاصْدَعْ بِمَا تُؤْمَرُ وَ أَعْرِضْ عَنِ الْمُشْرِكِينَ. إِنَّا كَفَيْنَاكَ الْمُسْتَهْزِءِينَ.

***“Elə isə, sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər. Şübhəsiz ki, Biz istehza edənlərin (şərini) səndən uzaqlaşdıracağıq.”***

Bundan sonra Quran davamlı olaraq nazil olmağa başladı.

Digər tərəfdən də bir sıra hədislərdə Quranın 20 il ərzində nazil olduğu qeyd olunub. Beləliklə, nəticə alırıq ki, Quranın nazil olmağa başlanması ilə be`sətin başlanması arasında 3 il fasilə olmuşdur və Quranın nüzulu ramazan ayının Qədr gecəsində olmuşdur.[1]

* * *

“ət-Təmhid”də qeyd olunan bu və digər mətləblərdən aşağıdakı nəticələr əldə olunur:

1) Be`sət ilə Quranın nüzulu arasında heç bir əlaqə yoxdur;

2) Be`sət zamanı nazil olan “Ələq” surəinin ilk ayələri bir müjdə idi və Quranın nüzulu (Quranın nazil olmağa başlanması) hesab olunmurdu;

3) Bir səmavi kitab ünvanında Quranın davamlı nüzulu Həzrət Peyğəmbəin (s) be`sətindən 3 il sonra ramazan ayında olmuşdur;

4) Quranın nazil olma müddəti 20 il olmuşdur və bu mətləb hədislərdə bəyan olunub;

5) Quranın “ramazan ayında nazil olduğu” dedikdə, nüzulun başlanması, yəni Quran ayələrinin həmin aydan etibarən nazil olmağa başlanması nəzərdə tutulur.

---

[1] Müraciət edin: ət-Təmhid fi Ulumil-Quran, c.1, s.81-82.

Çünki müəyyən müddət davam edən mühüm bir tarixi hadisənin "filan vaxt"da baş verdiyi deyildikdə, həmin hadisənin "filan vaxt"dan edtibarən başlandığı nəzərdə tutulur.

Qeyd edək ki, "ət-Təmhid" əsərinin hörmətli müəllifi belə bir nəticəyə 2 qrup hədislərə əsaslanaraq gəlmişdir:

***Birincisi,*** tarixi hədislərdir ki, bu hədislərdə be`sətin ilk 3 ilində Həzrət Peyğəmbərin (s) Məkkədə gizli dəvət ilə məşğul olduğu bildirilir.

***İkincisi,*** Quranın Həzrət Peyğəmbərə (s) 23 il deyil, 20 il ərzində nazil olduğunu bəyan edən hədislərdir.

Lakin "ət-Təmhid"in müəllifinin bu nəzərinə aşağıdakı iradlar bildirilir:

1- Əli ibn İbrahim Qummi, Yəqubi və Məhəmməd ibn İshaqın nəql etdikləri hədislərdə (bu hədislər əvvəlki səhifədə qeyd olundu), həmçinin İmam Sadiqin (ə) buyurduğu hədisdə be`sətin ilk üç ilində Həzrət Peyğəmbərin (s) dinə gizli dəvətlə məşğul olduğu açıqlanır. Lakin bu hədislərin heç birində işarə olunmur ki, bu üç il ərzində Quran ayələri nazil olmamışdır. Başqa sözlə, 3 il dinə gizli dəvətin Quranın nüzulu ilə heç bir ziddiyyəti yoxdur. Heç şübhəsiz, belə də olmuşdur. Bu 3 il ərzində təkcə "Ələq" surəsinin ilk beş ayəsinin nazil olması iddiası təəccübləndiricidir. Çünki bu, nə tarixi faktlara uyğun gəlir, nə də gizli dəvət barədə olan hədislər bunu təsdiqləyir.

2- Qeyd edildi ki, bir səmavi kitab ünvanında Quranın davamlı nüzulu **"Sənə əmr olunanı açıq-aşkar təbliğ et..."** ayəsi nazil olduqdan sonra başlandı. Halbuki, bu ayə mübarək "Hicr" surəsinin ayələrindəndir. "Hicr" surəsi isə "məkki" surələrdəndir və surələrin nüzul ardıcıllığına görə – belə ki, "ət-Təmhid"in müəllifi bu ardıcıllığı İbn Abbasın, Cabir ibn Zeydin və başqalarının hədisinə istinadən nəql etmişdir – bu surə Quranın 54-cü surəsidir.[1]

Əgər "ət-Təmhid"in də düzgün hesab etdiyi bu nüzul ardıcıllığını qəbul ediriksə, onda deməliyik ki, **"Sənə əmr olunanı açıq-aşkar təbliğ et..."** ayəsindən qabaq 53 surə nazil olmuşdur. Bunun özü, gizli dəvət ilə Quranın nüzulu arasında ziddiyyətin olmadığına dəlalət edir.

3- Heç şübhəsiz, be`sətin əvvəlində Quran ayələrinin nazil olmasına hər zamandan daha çox ehtiyac olmuşdur. Bu məsələni "mədəni surələr"lə müqayisədə "məkki surələr"in daha çox olması, habelə, 3 il gizli dəvət ərzində nazil olan surələrin sayının (53 surə) Məkkədə aşkar dəvət zamanı nazil olan surələrin sayı ilə müqayisədə çoxluğu təsdiq edir.

4- Bir çox hədislərdə Quranın 23 il ərzində nazil olduğu qeyd olunubdur.

5- (Ramazan ayından başlayaraq) Quranın 20 il ərzində nazil olduğunu isbat etmək üçün "ət-Təmhid"in müəllifinin "Usulu-kafi" və "Əyaşinin təfsiri"ndən

[1] ət-Təmhid fi Ulumil-Quran, c.1, s.105.

nəql etdiyi hədislər, onun iddiasının əksini isbat edir. Belə ki, bütün bu hədislərdə Quranın ramazan ayındakı nüzulu, onun "Beytul-mə`mur"a nüzulu təfsir edilmişdir. Əlbəttə, "ət-Təmhid"də hədisin yalnız bir hissəsinə istinad edilib, lakin biz burada hədisin tam mətnini qeyd edirik:

Həfs ibn Ğiyas deyir ki, mən İmam Sadiqdən (ə) soruşdum: "Quranda buyurulur ki, **"Ramazan ayı Quranın nazil olduğu aydır"**, halbuki, Quran əvvəldən axıra 20 il ərzində nazil olmuşdur?" İmam (ə) buyurdu:

نَزَلَ الْقُرْءَانُ جُمْلَةً وَاحِدَةً إِلَى الْبَيْتِ الْمَعْمُورِ ثُمَّ نَزَلَ فِى طُولِ عِشْرِينَ سَنَةً.

"Quran birdəfəyə "Beytul-mə`mur"a nazil oldu, sonra 20 il ərzində nazil oldu."[1]

Əyaşinin nəql etdiyi hədisdə də – belə ki, "ət-Təmhid"in müəllifi bu hədisə istinad etmişdir – Quranın "Beytul-mə`mur"a nüzulu qeyd olunub. Bu hədislər, əsasən, Quranın birdəfəyə "Beytul-mə`mur"a nazil olmasını çatdırmaq istəyir, nəinki Quranın ramazan ayında nazil olmağa başlandığını.

6- "ət-Təmhid"in müəllifi bəhsin sonunda öz nəzərini isbat etmək və Quranın "Beytul-məmur"a nüzulunu inkar etməkdən ötrü – qeyd edək ki, Şeyx Səduq Quranın "Beytul-məmur"a nazil olduğunu qəbul edir – Şeyx Mufidin bu sözünə istinad edir:

Səduqun bu mövzuda nəql etdiyi hədis (yuxarıda qeyd olunan hədis) "vahid xəbər"dir və bu, nə elmə, nə də əmələ bais olmur...[2]

Çox maraqlıdır ki, Quranın 20 il ərzində nazil olduğunu isbat etmək lazım gəldikdə bu hədisin ikinci yarısına istinad edilir, lakin Quranın "Beytul-mə`mur"a nazil olduğunu inkar etmək üçün Şeyx Mufidin sözünə istinad edilir və bu vaxt hədis heç bir dəyər və etibarı olmayan"vahid xəbər" olur!

7- Quranın nüzulu barədəki sözügedən üç ayədən bu nəticəni çıxarmaq – yəni ayələrdə Quranın birdəfəyə nüzulu deyil, nüzulun başlanmasının nəzərdə tutulduğunu nəticə çıxarmaq - ayələrin zahirinə ziddir. Qeyd etdiyimiz kimi, hər üç ayə, xüsusilə də, Duxan surəsinin 3-cü ayəsi bütün Quranın nazil olduğuna dəlalət edir.

Bu barədə başqa mətləblər də vardır və növbəti fəsildə bu barədə bəhs olunacaqdır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Be`sət, yəni Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilməsi, rəcəb ayının 27-də "Ələq" surəsinin ilk beş ayəsinin nazil olması ilə baş verdi. Bu mətləb, Məsum İmamların (ə) buyurduqları çoxsaylı hədislərdə açıqlanmışdır.

[1] Usuli-kafi, c.2, s.269; əl-Mizan, c.2, s.29.
[2] ət-Təmhid fi Ulumil-Quran, c.1, s.92.

**2.** Quranın ramazan ayında və Qədr gecəsində nazil olduğunu bəyan edən ayələr (fəslin əvvəlində qeyd olunan üç ayə) bu nüzulun Həra mağarasında baş verdiyinə dəlalət etmir. Buna görə də, be`sətin tarixini müəyyən etmək üçün bu ayələrə istinad edə bilmərik.

**3.** Bir çox hədislərə əsasən, sözügedən ayələr başqa bir nüzula və bu nüzulun be`sətin baş verdiyi məkandan başqa bir məkanda baş verdiyini bəyan edir.

**4.** Sözügedən ayələrin zahirindən Ramazan ayının mübarək gecəsi olan Qədr gecəsində bütün Quranın nazil olduğu nəticə çıxarılır. Bu da həmin ayələrin be`sət və onun tarixi ilə əlaqəsi olmadığını isbat edir.

# İkinci fəsil

## Birdəfəyə nüzul və tədrici nüzul

**A) Quranın birdəfəyə nüzulu**

Quranın ramazan ayında nüzuluna dəlalət edən ayələrin be`sət ilə əlaqəsi olmadığı məlum olduqdan sonra bu sual ortaya çıxır ki, görəsən, Quranın söz açdığı nüzul hansı nüzuldur?

Belə başa düşülür ki, Quranın müxtəlif nüzulları olub. Çünki çoxlu şiə və əhlisünnə hədislərində bu məsələyə toxunulubdur. Cəlaləddin Siyuti deyir:

Quranın Lövhi-məhfuzdan nazil olması barədə üç nəzəriyyə vardır:

***Birinci nəzəriyyə:*** Qədr gecəsində bütün Quran dünya səmasına nazil olmuş, sonra 20 il, yaxud 23 il, yaxud da 25 il ərzində[1] tədricən nazil oilmuşdur.

Səid ibn Cubeyr, İbn Abbasdan nəql etmişdir ki, bütün Quran Qədr gecəsində dünya səmasına ulduzların məkanına nazil olmuş, sonra Mütəal Allah ayələri bir-birinin ardınca Öz elçisinə nazil etmişdir.

Əkrəmə də İbn Abbasdan bu məzmunda bir hədis nəql etmişdir.

İbn Abbasdan nəql olunan başqa bir hədisdə qeyd edilir ki, bütün Quran nazil oldu və dünya səmasında "Beytul-izzə"də qərar tutdu. Sonra camaatın suallarına və əməllərinə cavab olaraq Cəbrail onu Peyğəmbərə (s) nazil etdi.

Bu nəzəriyyə daha düzgün hesab edilir və daha məşhurdur (yəni əksəriyyətin qəbul etdiyi nəzəriyyədir).

***İkinci nəzəriyyə:*** Quran hər ramazan ayının 20-ci, yaxud 23-cü, yaxud da 25-ci gecəsi dünya səmasına nazil olub. Belə ki, hər Qədr gecəsində Mütəal Allah qarşıda gələn il ərzində nazil olacaq ayələri bir yerdə dünya səmasına nazil etmiş, sonra həmin ayələr il ərzində tədricən nazil olmuşdur.

***Üçüncü nəzəriyyə:*** Quranın ramazan ayında nüzulu dedikdə, Quranın nazil olmağa başlanması nəzərdə tutulur. Daha sonra Quran ayələri tədricən hissə-hissə nazil olmuşdur.[2]

Şiə qaynaqlarında olan bir sıra hədislərdə Quranın "Beytul-mə`mur"a nazil olmasından söz açılmış, bu hədislərin bəzisində qeyd edilmişdir ki, "Beytul-mə`mur" dördüncü səmada yerləşir. Amma dördüncü səmanın harada olması və

---

[1] Bu fikirayrılığı be`sətdən sonra Həzrət Peyğəmbərin (s) Məkkədə yaşadığı müddət barədə mövcud olan fikirayrılığından irəli gəlir.

[2] əl-İtqan fi Ulumil-Quran, c.1, s.129-131.

“Beytul-mə`mur”un nə olması bizə məlum deyildir. Bu hədislərdən yalnız bu əldə olunur ki, “dördüncü səma” və “Beytul-mə`mur” adlı bir yer vardır və Quran Qədr gecəsində ora nazil olmuşdur.

Əllamə Təbatəbainin bu barədə başqa bir nəzəriyyəsi vardır. Onun nəzəriyyəsinin xülasəsi belədir:

Quranın ramazan ayının mübarək Qədr gecəsində nüzulu barədə olan ayələrə diqqət yetirdikdə və hər üç ayədə **“تَنْزِيل”** felinin deyil, **“إنْزال”** felinin işləndiyini gördükdə bu qənaətə gəlirik ki, bu ayələrdə Quranın birdəfəyə nüzulu nəzərdə tutulur. (**“إنْزال”** feli “**if`al”** babında, **“تَنْزِيل”** isə “**təf`il”** babındadır. “Təf`il” babı “if`al” babının əksinə olaraq, çoxluğu ifadə edir.) Quranın birdəfəyə nüzulunun səbəbini isə belə izah etmək olar:

Quran bizim bəşəri ağlımıza sığmayan bir həqiqətə malikdir. Hud surəsinin 1-ci ayəsində bu mətləbə işarə edilir, buyurulur:

كِتَابٌ أُحْكِمَتْ ءَايَاتُهُ ثُمَّ فُصِّلَتْ مِنْ لَدُنْ حَكِيمٍ خَبِيرٍ.

***“(Bu,) bir kitabdır ki, onun ayələri möhkəmlənmiş (təsbit edilmiş), sonra hikmət sahibi və (hər şeydən) xəbərdar (Allah) tərəfindən müfəssəl izah edilmişdir.”***

Ayədə “**أُحْكِمَتْ**” sözü, “**فُصِّلَتْ**” sözünün müqabilindədir. Yəni bir mərhələdə Quranın hissələri olmayıb, sonrakı mərhələdə gördüyümüz bu hissələrə, ayələrə ayrılıbdır. “Ə`raf” surəsinin 53-cü və “Yunus” surəsinin 39-cu ayələri də bu mətləbə dəlalət edir. Bu ayələrdən ən aydını isə “Zuxruf” surəsinin 1-4-cü ayələridir:

حم. وَ الْكِتَابِ الْمُبِينِ. إنَّا جَعَلْنَاهُ قُرْءَانًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ. وَ إنَّهُ فِى أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِىٌّ حَكِيمٌ.

***“Ha-mim. And olsun bu açıq-aydın (və aydınlıq gətirən, haqqı batildən ayıran) kitaba. Həqiqətən, Biz onu ərəbcə bir Quran etdik ki, bəlkə düşünəsiniz (onu anlaya biləsiniz). Həqiqətən, bu (Quran), Bizim yanımızda “Ana kitab”da (Lövhi-məhfuzda) uca məqam, hikmət sahibidir.”***

Yuxarıdakı ayələrdə bəyan olunur ki, bu “**açıq-aydın kitab”** (**الْكِتابِ الْمُبِينِ**) “**Ummul-kitab”da** (**فى أُمِّ الْكِتابِ**) ərəb dilində olan kəlmələr deyilmiş, hissələri yox imiş. Bəşərin başa düşə bilməsi üçün ərəb dilində olan kəlmələr qəlibinə salınıb.

Bu və digər ayələr bizə əsas verir ki, deyək: Quranın ramazan ayındakı nüzulu, Quranın həqiqətinin Həzrət Peyğəmbərin (s) mübarək qəlbinə birdəfəyə nüzuludur. Necə ki, Quran, “**فُصِّلَتْ**” mərhələsində iyirmi üç il ərzində Həzrət Peyğəmbərin (s) qəlbinə tədricən nazil olmuşdur.[1]

Əllamə Təbatəbai “Taha” surəsinin 114-cü ayəsini və “Qiyamət” surəsinin 16-17-ci ayələrini Quranın həqiqətinin əvvəlcədən Həzrət Peyğəmbərin (s) qəlbinə nazil olduğuna sübut gətirir:

---

[1] əl-Mizan, c.2, s.16-18; Zəncani, Tarixul-Quran.

... وَ لَا تَعْجَلْ بِالْقرْءَانِ مِنْ قَبْلِ أنْ يُقْضَىٰ إلَيْكَ وَحْيُهُ...

***“Sənə vəhy edilməsi tamamlanmamışdan qabaq Quranı (oxumaqda) tələsmə...”[1]***

لَا تُحَرِّكْ بِهِ لِسَانَكَ لِتَعْجَلَ بِهِ. إنَّ عَلَيْنَا جَمْعَهُ وَ قُرْءَانَهُ.

***“(Quran nazil olan zaman) onu oxumağa tələsərək dilini onunla birgə hərəkət etdirmə! Şübhəsiz, onu cəm etmək və oxumaq Bizim öhdəmizədir.”[2]***

Quranın həqiqəti əvvəlcədən Həzrət Peyğəmbərin (s) qəlbinə nazil olduğuna görə o həzrət nazil olan vəhylə tanış idi. Buna görə də o həzrət, vəhy tamamlanmamış tələsərək Quran ayələrini oxumaqdan çəkindirilib.[3]

* * *

**B) Quranın tədrici nüzulu**

Quran ayələrinin müxtəlif hadisələr və münasibətlərlə əlaqədar tədrici nüzulu (yəni zaman fasilələri ilə nazil olması) tarixi bir fakt olmaqla yanaşı, bir sıra ayələrdə də bu məsələyə toxunulur:

وَ قُرْءَانًا فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَىٰ مُكْثٍ وَ نَزَّلْنَاهُ تَنْزِيلًا.

***“Və bu Quranı Biz sənə hissə-hissə nazil etdik ki, onu insanlara tələsmədən (yavaş-yavaş) oxuyasan və Biz onu tədricən nazil etdik.”[4]***

وَ قَالَ الَّذِينَ كَفَرُوا لَوْ لَا نُزِّلَ عَلَيْهِ الْقُرْءَانُ جُمْلَةً واحِدَةً...

***“Kafir olanlar dedilər: “Nə üçün Quran ona birdəfəyə (bütövlükdə) nazil olmayıb?”[5]***

Yuxarıdakı ayələr Quranın tədrici nüzuluna dəlalət edir, hətta Quranın birdəfəyə nazil olmaması kafirlərin etirazına səbəb olmuşdur.

Beləliklə, Quranın ramazan ayında birdəfəyə və bütövlükdə nazil olduğunu bəyan edən ayələrlə, Quranın tədrici nazil olduğunu bəyan edən ayələr arasında heç bir ziddiyyət yoxdur. Hər dəstə ayə Quranın müəyyən nüzuluna dəlalət edir.

Qarşıya çıxan iqtisadi və ictimai çətinliklərin həll yolları, müharibə və sülhlə bağlı məsələlərin hökmü, bir çox başqa məsələlərin şərhi tədrici nüzul ilə Həzrət Peyğəmbərə (s) çatdırılırmış.

* * *

---

[1] Taha surəsi, ayə: 114.
[2] Qiyamət surəsi, ayə: 16-17.
[3] əl-Mizan, c.2, s.18.
[4] İsra surəsi, ayə: 106.
[5] Furqan surəsi, ayə: 32.

**C) Quranın tədrici nüzulunun səbəbləri**

Nə üçün Quran tədricən nazil olmuşdur? Hətta bu məsələ kafirlərin etirazına səbəb olmuşdur. Bəlkə də bu düşüncə onların etirazına səbəb olmuşdur ki, insanları hidayət etmək məqsədilə göndərilən səmavi kitabın əvvəli və axırı məlum olmalı, vahid bir məcmuə şəklində bəşərə təqdim olunmalı idi. Yəni əqidə, əməl və əxlaq prinsipləri bir məcmuə şəklində göndərilməli idi. Bəs görəsən, ayələrin zaman-zaman və tədricən nazil olmasının fəlsəfəsi nə idi?

Qeyd etmək lazımdır ki, Quranın tədrici nüzulunun bir sıra səbəbləri var idi. Bu səbəblərdən bəzisi aşağıdakılardır:

1) "Furqan" surəsinin 32-ci ayəsində kafirlərin: "Nə üçün Quran birdəfəyə nazil olmayıb?" - etirazına belə cavab verilir:

... كَذلِكَ لِنُثَبِّتَ بِهِ فُؤَادَكَ.

***"(Biz onu) bu şəkildə (tədricən nazil etdik ki,) sənin qəlbinə səbat, qətiyyət verək."[1]***

Müxtəlif hadisələr zamanı, xüsusilə də, böhranlı vəziyyətlərdə, müharibələrdə nazil olan ayələr Həzrət Peyğəmbərin (s) mübarək qəlbinə qüvvət verirdi. Məsələn, azğınların sözləri qarşısında (belə ki, onlar Peyğəmbərə (s) nalayiq nisbətlər verir, onu şair, kahin, məcnun adlandırırdılar) Mütəal Allah Öz elçisinə belə ürək-dirək verir:

فَلَا يَحْزُنْكَ قَوْلُهُمْ، إِنَّا نَعْلَمُ مَا يُسِرُّونَ وَ مَا يُعْلِنُونَ.

***"(Ya Məhəmməd!) Onların sözü səni qəmgin etməsin, həqiqətən Biz onların (qəlblərində) gizlətdikləri və (dildə deyib) aşkar etdikləri hər şeyi bilirik."[2]***

Yaxud onlar Həzrət Peyğəmbəri (s) təkzib etdikdə Mütəal Allah o həzrətə belə təskinlik verir:

وَ لَقَدْ كُذِّبَتْ رُسُلٌ مِنْ قَبْلِكَ فَصَبَرُوا عَلَىٰ مَا كُذِّبُوا وَ أُوذُوا حَتَّىٰ أَتَاهُمْ نَصْرُنَا...

***"Səndən qabaq da peyğəmbərlər təkzibə məruz qalmışdılar. Lakin onlar bu təkziblərə və onlara verilən əziyyətlərə dözdülər, ta ki, Bizim köməyimiz onlara gəlib çatdı."[3]***

Belə ayələrin təkrar nazil olması Həzrət Peyğəmbərə (s), eyni zamanda da müsəlmanlara qüvvət və qətiyyət verirdi.

Heç şübhəsiz, əgər Həzrət Peyğəmbərə (s) səbir və dözümü tövsiyə edən ayələr birdəfəyə və öncədən nazil olmuş olsaydı, sıxıntılı və böhranlı vəziyyətlərdə onların qoyduğu təsir bu dərəcədə olmayacaqdı.

2) İsra surəsinin 106-cı ayəsində buyurulur:

وَ قُرْءَانًا فَرَقْنَاهُ لِتَقْرَأَهُ عَلَى النَّاسِ عَلَىٰ مُكْثٍ وَ نَزَّلْنَاهُ تَنْزِيلًا.

---

[1] Furqan surəsi, ayə: 32.

[2] Yasin surəsi, ayə: 76.

[3] Ən`am surəsi, ayə: 34.

***"Və bu Quranı Biz sənə hissə-hissə nazil etdik ki, onu insanlara tələsmədən (yavaş-yavaş) oxuyasan və Biz onu tədricən nazil etdik."***

Dini maarif - xüsusilə də, insanların vəzifələrini, rəftarlarını tənzimləyən və həyatda insanın səadətini təmin edən fərdi-ictimai qayda-qanunları açıqlayan dini maarif - tədrici şəkildə bəyan edildiyi zaman cəmiyyətdə öz yerini lazımınca tuta bilir. Dini maarifin tədricən nazil olması, açıqlanması seçilən ən düzgün üsuldur. Çünki insanlar hissə-hissə, amma davamlı olaraq nazil olan maarifi öz fərdi və ictimai həyatlarında tətbiq etməklə kamilliyə doğru irəliləyə bilərlər.

3) Quranın tədrici nüzulu onun təhrifə məruz qalmamasına da şərait yaratmışdır. Bu səbəb Quranın tədrici nüzulunun mühüm səbəblərindən biridir.

Quranın tədrici nüzulu səhabələrin Quran ayələrini əzbərləmələrinə şərait yaradırdı. Bir tərəfdən Quranın fəsahət və bəlağəti, digər tərəfdən müsəlmanların öz səmavi kitablarına verdikləri böyük dəyər və əhəmiyyət, ayələrin tədrici nüzulu ilə üst-üstə düşərək ilahi vəhyin təhrifdən qorunmasını təmin etmişdir.

4) Bir çox Quran ayələri Həzrət Peyğəmbərin (s) dövründə baş verən hadisələrlə əlaqədar nazil olmuşdur. Belə ki, müəyyən hadisə ilə eyni zamanda və ya hadisədən sonra bir və ya bir neçə ayə, hətta bütöv bir surə nazil olmuşdur. Ayələrin nazil olmasına səbəb olan bu hadisələr "şə`ni-nüzul", yəni "ayənin nazil olma səbəbi" adlanır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Quran 2 şəkildə nazil olub: birdəfəyə və tədrici. Quranın ramazan ayında nüzulunu bəyan edən ayələr "birdəfəyə nüzul"a dəlalət edir.

**2.** Əhli-sünnə hədislərində qeyd olunur ki, Quran birdəfəyə "Beytul-izzə"yə və dünya səmasına nazil olub. Şiə hədislərində isə qeyd olunur ki, Quran birdəfəyə "Beytul-mə`mur"a və dördüncü səmaya nazil olmuşdur.

**3.** Əllamə Təbatəbai bu əqidədədir ki, bütün Quran Həzrət Peyğəmbərin (s) qəlbinə nazil olmuşdur. Çünki "Taha" surəsinin 114-cü və "Qiyamət" surəsinin 19-cu ayəsinə istinadən, Həzrət Peyğəmbər (s) ona nazil olanlardan xəbərdar idi. Elə buna görə də, o həzrət, vəhy tamamlanmamış Quranı oxumaqdan çəkindirilib.

**4.** Quranın tədrici nüzulunun bir sıra səbəbləri vardır ki, onlardan bəziləri aşağıdakılardır:

- Həzrət Peyğəmbərin (s) və müsəlmanların qəlbinə qüvvət, onlara qətiyyət və səbat bəxş etmək;
- Dini qanunların tədricən çatdırılması;
- Quranın təhrifə məruz qalmaması;
- Quranın əzbərlənməsinə və hökmlərin öyrənilməsinə şərait yaradılması;
- Quran ayələrinin Həzrət Peyğəmbərin (s) dövründə baş verən hadisələrlə əlaqədar nazil olması.

# Üçüncü fəsil

## Şə`ni-nüzul

**A) "Şə`ni-nüzul" nədir?**

Ötən fəsildə qeyd etdik ki, Quran ayələri 23 il ərzində tədricən nazil olmuşdur. Bu fəsildə Quranın tədrici nüzulu ilə əlaqəsi olan mühüm bir mövzu barədə - "şə`ni-nüzul", yəni "ayələrin nazil olma səbəbi" barədə bəhs ediləcəkdir.

Qurani-Kərimin ayələri bir baxımdan 2 dəstəyə bölünür:

1- Xüsusi səbəb olmadan, ümumi məqsəd olan hidayət məqsədilə nazil olan ayələr;

2- Xüsusi səbəbə görə nazil olan ayələr.

Bir çox Quran ayələri və surələri Həzrət Məhəmmədin (s) peyğəmbərliyi dövründə baş verən hadisələrlə əlaqədar, yaxud o həzrətdən soruşulan suallara cavab olaraq nazil olmuşdur. Yəni müəyyən səbəb ortaya çıxmış və müəyyən şərait yaranmışdır ki, bir və ya bir neçə ayə, hətta bütöv bir surə nazil olmuşdur. Bu səbəb və şərait "şə`ni-nüzul", yəni "ayələrin nazil olma səbəbi" adlanır. Nümunə üçün bir neçə ayəyə diqqət yetirin:

***"(Ey Peyğəmbər!) Səndən Zülqərneyn barəsində soruşurlar..."*[1]**

***"Səndən ruh (ruhun həqiqəti) barəsində soruşurlar..."*[2]**

***"Daim səndən Qiyamətin nə vaxt qopacağı barəsində soruşurlar..."*[3]**

Aydın məsələdir ki, ikinci dəstə ayələrin həqiqi şə`ni-nüzulunu bilmək onların mənasını başa düşməkdə mühüm rol oynayır. Elə buna görə də, Quran elmləri alimləri və mühəddislər "şə`ni-nüzul"ların araşdırılmasına ciddi-cəhdlə yanaşmış, bu barədə ayrıca əsərlər qələmə almışlar.

Cəlaləddin Siyuti belə hesab edir ki, bu zəmində yazılan ən qədim əsər Buxarinin ustadı Əli ibn Mədiniyə mənsubdur. Cəlaləddin Siyutinin özü də "Əsbabun-nuzul" adlı əsərin müəllifidir. [4]

* * *

[1] Kəhf surəsi, ayə: 83.

[2] İsra surəsi, ayə: 85.

[3] Naziat surəsi, ayə: 42.

[4] Ətraflı məlumat üçün müraciət edin: "əl-İtqan", c.1, növ: 9; Siyuti, "Əsbabun-nuzul"; Vahidi Nişapuri, "Əsbabun-nuzul" (Bu iki kitab Dr. Məhəmmədcəfər İslami tərəfindən tərcümə olunaraq "Şə`n-e nuzule-ayat" (Ayələrin nazil olma səbəbi) adı ilə nəşr edilmişdir); Dr. Ramyar, "Tarix-e Quran".

**B) Ayələrin şə`ni-nüzulunu bilməyin faydaları**

**1.** Quranda bəyan olunan bir hökmün səbəb və fəlsəfəsini bilmək ayələrin şə`ni-nüzulunu bilməyin faydalarından biridir.

**2.** Bir söz və kəlam müxtəlif şəraitlərdə müxtəlif mənalar verə bilər. Sözü düzgün başa düşmək üçün şəraiti və bir sıra başqa cəhətləri nəzərə almaq lazımdır. Məsələn, kəlamda məqsədin sual və ya təkid, danlaq və ya istehza olduğunu müəyyən etmək üçün kəlamın bəyan tərzini, habelə, digər cəhətləri bilmək şərtdir. Şə`ni-nüzul da Allah kəlamının mənasını başa düşmək üçün zəruri şərtlərdən biridir.

**3.** Bəzən bir ayə və ya hökmün təkcə müəyyən bir fərdə və ya hadisəyə aid olduğu güman edilə bilər, lakin ayənin şə`ni-nüzulunu bəyan etmək bu gümanı aradan qaldırır.[1]

**4.** Ümumiyyətlə, ayələrin şə`ni-nüzulunu bilmədən onları təfsir etmək qeyri-mümkündür. Həqiqətdə bu fayda, yuxarıda sadalanan faydaların xülasəsi və nəticəsidir.

Aşağıdakı ayəyə diqqət yetirin və görün ki, onun mənasını başa düşməkdə şəni-nüzul nə qədər böyük rol oynayır. Bəqərə surəsinin 115-ci ayəsində buyurulur:

وَ لِلهِ الْمَشْرِقُ وَ الْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّوا فَثَمَّ وَجْهُ اللهِ...

***"Məşriq və məğrib Allahındır. Odur ki, hansı tərəfə üz tutsanız, Allaha üz tutmusunuz..."***

Ayənin zahirindən əldə olunur ki, namazda üzü qibləyə dayanmaq - istər səfərdə, istərsə də həzərdə (vətəndə, qaldığı məkanda) - vacib deyildir, insan üzünü hansı tərəfə tutsa, düzgündür. Amma bu, "icma"ya[2] ziddir. Ayənin şəni-nüzuluna baxdıqda aydın olur ki, bu hökm, səfərdə qılınan nafiləyə aiddir.[3]

* * *

**C) "Ləfzin ümumiliyi" (عموميّت لفظ), yoxsa "səbəbin xüsusiliyi" (خصوصيّت سبب)?**

Baxmayaraq ki, bu mövzu usuli-fiqh elmində araşdırılır, amma müfəssirlər də usuli-fiqh alimləri kimi, ayələr üçün xüsusi şə`ni-nüzul bəyan edən hədislər barədə deyirlər:

Mühüm olan, "ümumi məna"ya malik Quran nəssidir (mətnidir). "Ümumi məna"ya malik olan ayə - baxmayaraq ki, xüsusi bir səbəb bu ayənin nazil olmasına bais olmuşdur – təkcə həmin səbəbin aid olduğu fərdlərə şamil olmur, qeyrilərinə də şamil olur.

Siyuti deyir:

---

[1] Dr. Ramyar, "Tarix-e Quran", s.262.

[2] Şəriət hökmlərinin əxz edildiyi mənbələrdən biri.

[3] əl-İtqan, c.1, s.94.

"“Ləfzin ümumiliyi” əsas götürülür. Çünki xüsusi səbəbə görə nazil olan ayələr vardır ki, onların “ümumili”yi barədə alimlər eyni fikirdədirlər. Nümunə olaraq, Sələmə ibn Səxr barədə nazil olmuş “zihar” ayəsini, yaxud Hilal ibn Uməyyə barədə nazil olmuş “li`an” ayəsini göstrəmək olar.”[1]

Ümumiyyətlə, əgər qəbul etsək ki, ayələrin mənası təkcə onların nüzul səbəbinə aiddir, bu halda Qurani-Kərimin əksər ayələri istifadəsiz qalar. Beləliklə də, Qurani-Kərim keçmişə aid olan və gələcək üçün bir sözü, ismarıcı olmayan bir kitab olar. Şübhəsiz ki, heç bir müsəlman bu əqidədə deyildir. Oğurluq, qəzf, li`an, zihar, zirar məscidi barədə olan ayələr və onlarla başqa ayə - belə ki, şə`ni-nüzul hədislərində onların hər birinin nazil olma səbəbi qeyd edilmişdir - ümumi (hər dövrə aid olan) bir hökmü bəyan edir. Məsələn, əgər ayədə oğurluğun cəzası əlin kəsilməsi təyin edilibsə, bu cəza hökmü yalnız sözügedən ayənin nazil olmasına səbəb olan məqam xüsusunda icra edilmir. Əksinə, bu hökm, həmin xüsusi səbəbə oxşar olan bütün məqamlara aid olan ilahi bir hökmdür.

Beləliklə, müəyyən bir şəxs və ya şəxslər barədə nazil olan bir ayə “nüzul səbəbi”ndə (yəni həmin şəxs və ya şəxslərdə) məhdudlaşmır. Nüzul səbəbinin sifət və xüsusiyyətlərinə oxşar olan bütün məqamlara sirayət edir. Hədislərdə bu məsələ “جَرْی” ifadəsi ilə bəyan olunur. Hədislərin birində İmam Baqir (ə) buyurur: “Əgər hansısa bir qövm barədə nazil olan bir ayə həmin qövm aradan getdikdə aradan getsəydi, Qurandan heç nə qalmazdı. Lakin bütün Quran göylər və yer durduqca caridir (qalacaqdır).”[2]

Bir çox Quran ayələrinin bəyan tərzindən də “ləfzin ümumiliyi”nin əsas götürüldüyü aydın olur. Belə ki, ayənin nüzul səbəbini ümumi olan ilahi hökmün bəyanı üçün sadəcə bir bəhanə hesab etmək olar. Nümunə üçün Bəqərə surəsinin 215-ci ayəsinə diqqət yetirin:

يَسْأَلُونَكَ مَاذَا يُنْفِقُونَ قُلْ مَا أَنْفَقْتُمْ مِنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَ الْأَقْرَبِينَ وَ الْيَتَامَىٰ وَ الْمَسَاكِينَ وَ ابْنِ السَّبِيلِ...

***“Səndən (Allah yolunda) nə xərcləmələrini (mallarından nəyi vermələrini, nəyi infaq etmələrini) soruşurlar. De: “Xərcləyəcəyiniz (malınızdan verəcəyiniz) şey valideynlərinizə, qohumlarınıza, yetimlərə, yoxsullara və yolda qalmış müsafirlərə məxsusdur.”...”***

Bu ayədə Allah yolunda nə xərcləmək, nə vermək barədə soruşulur, lakin cavabda Allah yolunda verilən şeylərin kimlərə xərclənilcəyi bəyan olunur.

Bəhsin sonunda bunu da nəzərinizə çatdıraq ki, müfəssirlərin və “şə`ni-nüzul”ları araşdıran alimlərin qeyd etdiklərinə görə, bəzən bir ayənin bir neçə nüzul səbəbi olub, bəzən isə bir səbəbə görə bir neçə ayə nazil olub.[3]

* * *

---

[1] əl-İtqan, c.1, s.97.
[2] “Quran dər İslam” (İslamda Quran), s.71.
[3] Ətraflı məlumat üçün müraciət edin: “Mənahilul-irfan”, c.1, s.116-123; “Mucizu Ulumil-Quran”, s.130-131.

**Ç) Şə`ni-nüzul hədislərinin etibarlılığının meyarı**

Vahidi Nişapuri deyir:

“Şə`ni-nüzul zəminində yalnız ayələrin nüzuluna şahid və vaqif[1] olanların nəqli, həmçinin hadisəni onların dilindən eşidənlərin sözü etibarlı hesab edilir.”[2]

Şə`ni-nüzul hədislərini araşdıran alimlər hamılıqla Vahidi Nişapurinin bu nəzərinə istinad etmişlər. Amma daha çox əhli-sünnə qaynaqlarında nəql olunan və sayı bir neçə minə çatan bu hədislərin böyük qismi qeyri-musnəd və zəifdir[3].

Şə`ni-nüzul hədislərinin digər bir iradı, bu hədislərdə çoxlu fərqli nəqllərin olmasıdır. Elə bu səbəbdən, Cəlaləddin Siyuti və başqaları bu məsələni həll etməyə, bu hədislərin etibarlılığını müdafiə etməyə səy göstərmişlər. Cəlaləddin Siyuti deyir:

Müfəssirlərin çoxu bir ayənin nüzulu barədə bir neçə səbəb qeyd etmişdirlər. Bu halda onların bəyanına, işlətdikləri ifadələrə diqqət yetirmək lazımdır:

a) Əgər bir ayə üçün bir hədisdə “نَزَلَتْ فى كذا” deyilib (yəni “filan hadisə ilə əlaqədar nazil oldu” ifadəsi işlənib) bir məsələ nəql edilirsə, başqa bir hədisdə “نَزَلَتْ فى كذا” deyilib başqa bir məsələ nəql edilirsə, burada (yəni ikinci hədisdə) ayənin şə`ni-nüzulu deyil, təfsiri nəzərdə tutulur. Əgər ayənin mətni hər iki hadisə uyğundursa, bu iki hədis arasında ziddiyyət yoxdur.

b) Əgər bir ayə üçün bir hədisdə bir şə`ni-nüzul nəql edilirsə, lakin başqa bir hədisdə bundan fərqli bir şə`ni-nüzul qəti bir bəyanla nəql edilirsə, ikinci hədis etibarlıdır və birinci hədis “istinbat”[4] hesab edilir.

c) Əgər hədisin birində bir səbəb, başqa bir hədisdə isə başqa bir səbəb nəql edilirsə, bu iki hədisdən sənədi səhih olanı etibarlıdır.

ç) Əgər hər iki hədisin sənədi eyni səviyyədə səhihdirsə, “murəccihat”[5] vasitəsilə - məsələn, ravilərdən birinin hadisəyə şahid olması – onlardan birinə üstünlük verilir.

d) Bəzən mümkündür ki, bir ayə bir-birinə yaxın zamanda baş verən iki və ya daha çox səbəbdən (=hadisədən) sonra nazil olmuşdur. Burada da müxtəlif hədislərin səhih olması mümkündür, belə ki, bu hədislərin hər biri xüsusi bir səbəbi bəyan edir.

e) Əgər səbəblər (=hadisələr) arasında zaman fasiləsi çox olarsa, bu təqdirdə gərək ayənin təkrar nazil olduğunu qəbul edək.[6]

Əllamə Təbatəbai şə`ni-nüzul hədislərini araşdıraraq və təhlil edərək bir sıra dəlillər əsasında onların etibarlılığını şübhə altına salır:

---

[1] Bir iş barədə tam məlumatı olan.

[2] Əsbabun-nuzul, s.12.

[3] Qeyri-musnəd hədis “zəif hədis”lərin bir növüdür. Qeyri-musnəd hədislər, ravilər zəncirinin qırıldığı və Məsuma (ə) yetişmədiyi hədislərdir. (Quran dər İslam, s.173.)

[4] Ravinin öz qənaəti, əldə etdiyi nəticə.

[5] Usuli-fiqh terminidir. İki ziddiyyətli hədisdən birini seçmək üçün təqdim edilən meyarlara “murəccihat” deyilir.

[6] əl-İtqan fi Ulumil-Quran, c.1, s.101-106.

***Birincisi:*** Bu hədislərin çoxunun siyaqından (mətnindən, kontekstindən) görünür ki, ravi hadisə ilə ayənin nüzulu arasındakı əlaqəni eşitmək və yadda saxlamaq yolu ilə əldə etməyib. Əksinə, əvvəlcə hadisəni nəql edir, sonra məna baxımından hadisəyə uyğun gələn ayələri onunla əlaqələndirir. Nəticədə, nəql edilən nüzul səbəbi "müşahidəyə və yaddaşa əsaslanan" nüzul səbəbi deyil, "nəzəri və ictihadi" nüzul səbəbi (ravinin öz qənaəti) olur. Bu hədislərdə rast gəldiyimiz çoxlu fərqli nəqllər sözümüzə sübut ola bilər. Belə ki, bir çox Quran ayələrinin təfsirində bir-birinə zidd olan bir neçə nüzul səbəbi nəql edilir ki, onlar arasındakı ziddiyyəti aradan qaldırmaq olmur. Hətta bəzən İbn Abbas kimi bir şəxsdən bir ayə üçün bir neçə fərqli nüzul səbəbi nəql edilmişdir.

Bu fərqli nüzul səbəblərinin nəql edilməsinin 2 səbəbi ola bilər:

- ya deməliyik ki, bu nüzul səbəbləri "nəqli" deyil, "nəzəri"dir;
- ya da deməliyik ki, bütün hədislər, yaxud onların bir qismi saxtadır.

Bu ehtimallar özünü doğrultduğu təqdirdə, şə`ni-nüzul hədisləri öz etibarlılığını itirir, hətta hədisin sənədinin səhih olması faydasız olur. Çünki məzmuna müdaxilə etmə (saxtalaşdırma) və şəxsi nəzəri nəql etmə ehtimalı qalmaqdadır.

***İkincisi:*** Danılmaz tarixi faktdır ki, Həzrət Peyğəmbərdən (s) sonra İslam tarixinin ilk əsrində xilafət tərəfindən hədislərin yazılmasına ciddi qadağa qoyuldu. Bu qadağa təxminən birinci əsrin sonunadək davam etdi. Bu vəziyyət hədislərin mənasının nəql edilməsi və çatdırılması yolunu zəruri həddən artıq olaraq ravilərin və mühəddislərin üzünə açdı. Hədislərin mənasını nəql edərkən hər dəfə yol verilən cüzi dəyişikliklər üst-üstə yığılır, hətta bəzən mətləbin özü itirdi. Bəzən elə hədislərlə rastlaşırsan ki, eyni bir hadisə barədə söz açsalar da, onlarda heç bir oxşar mətləb yoxdur.[1]

**Bəs görəsən nə etməliyik?** İctihadi və saxta hədislər bir gerçəklik olduğu təqdirdə, nüzul səbəbləri barədə qeyd etdiyimiz faydalar necə olacaqdır?

Düzgün yol budur ki, əgər hədis "mütəvatir"[2] və ya "qət`iyus-sudur" olarsa[3], onun məzmununu qəbul edirik. Əks təqdirdə, bu hədisi müzakirə mövzusu olan ayə ilə tutuşdururuq. Əgər ayənin məzmunu və ayənin ətrafında olan qərinələr (əlamətlər) bu hədis ilə uyğun gələrsə, nüzul səbəbini bəyan edən hədisə etibar edirik. Baxmayaraq ki, bu üsul ilə şə`ni-nüzul hədislərinin çoxu etibarsız olacaqdır, lakin qalan hədislərə etibar etmək olar.[4]

---

[1] Quran dər İslam, s.173-174.

[2] Bir neçə ravilər silsiləsi ilə nəql edilən hədis.

[3] Məsum (ə) tərəfindən deyildiyinə dair əlamətlərin mövcud olduğu hədis.

[4] Quran dər İslam, s.176.

### *Fəslin əsas mətləbləri:*

**1.** Bir çox Quran ayələri hansısa bir hadisə ilə əlaqədar, yaxud camaatın suallarına cavab olaraq nazil olmuşdur. Buna ayənin "şə`ni-nüzul"u və ya "nüzul səbəbi" deyilir.

**2.** Nüzul səbəblərini bilmək Quranda verilən hökmün səbəbini bilməyə və ayələrdə nəzərdə tutulan məqsədləri daha yaxşı başa düşməyə zəmin yaradır.

**3.** Xüsusi bir səbəbə görə nazil olan bir ayənin "ümumi məna"sı həmin "xüsusi səbəb"də məhdudlaşmır.

**4.** Şə`ni-nüzul hədislərində olan fərqli nəqlləri nəzərə alaraq, bir sıra dəlillər bu hədislərə ravilərin şəxsi nəzərinin müdaxiləsini və saxta hədislərin mövcudluğunu təsdiqləyir. Nəticədə, bu hədislərin çoxunun doğru olduğu şübhə doğurur.

# Dördüncü fəsil

## Quranda ayə və surə

Quran 114 surədən, hər surə müəyyən sayda ayədən təşkil olunub. Bu fəsildə "ayə" və "surə" sözünün mənaları, Quran surələrinin adları, surələrin müəyyən bir meyarla qruplaşdırılması, Quran ayələrinin və kəlmələrinin sayı barədə bəhs ediləcəkdir.

**A) "Ayə" sözünün mənası**[1]

"Ayə" sözünün lüğəvi mənası "aydın əlamət və nişanə"dir. İbn Faris deyir:

اَلْاٰيَةُ اَلْعَلَامَةُ.

"Ayə, əlamət deməkdir."[2]

Rağib İsfahani deyir:

اَلْاٰيَةُ هِىَ الْعَلَامَةُ الظَّاهِرَةُ.

"Ayə, açıq-aşkar əlamət deməkdir."[3]

Quranda "ayə" sözü lüğəvi mənada müəyyən baxımlardan müxtəlif mənalarda işlənmişdir. Aşağıdakı nümunələrə diqqət yetirin:

**1- Nişanə və əlamət:**

قَالَ رَبِّ اجْعَلْ لِى ءَايَةً ...

***"Dedi: Ey Rəbbim, mənə bir nişanə göstər!"***[4]

**2- Möcüzə:**

... هذِهِ نَاقَةُ اللهِ لَكُمْ ءَايَةً ...

***"Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir..."***[5]

وَ لَئِنْ أَتَيْتَ الَّذِينَ أُوتُوا الْكِتَابَ بِكُلِّ ءَايَةٍ مَا تَبِعُوا قِبْلَتَكَ ...

***"Sən Kitab-əhli üçün hansı möcüzəni gətirsən də, onlar sənin qiblənə tabe olmayacaqlar..."***[6]

---

[1] Mənahilul-irfan, c.1, s.338-391; Dr. Ramyar, "Tarix-e Quran", s.549.
[2] Məqayisul-luğət.
[3] Mufrədat.
[4] Məryəm surəsi, ayə: 10.
[5] Ə`raf surəsi, ayə: 73.
[6] Bəqərə surəsi, ayə: 145.

**3- Məxluqat:**

فَأَرْسَلْنَا عَلَيْهِمُ الطُّوفَانَ وَ الْجَرَادَ وَ الْقُمَّلَ وَ الضَّفَادِعَ وَ الدَّمَ ءَايات مُفَصَّلَاتٍ ...

***"Beləliklə, Biz (qüdrətimizin) aşkar nişanələri olaraq onlara tufan, çəyirtkə, gənə, qurbağalar və qan göndərdik."[1]***

**4- Hökm:**

مَا نَنْسَخْ مِنْ ءَايَةٍ أَوْ نُنْسِهَا نَأْتِ بِخَيْرٍ مِنْهَا أَوْ مِثْلِها...

***"Biz hər hansı bir ayənin hökmünü ləğv edir və ya unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk."[2]***

**5- Peyğəmbərlər və ilahi övliyalar:**

لَقَدْ كَانَ فِى يُوسُفَ وَ إِخْوَتِهِ ءَايَاتٌ لِلسَّائِلِينَ.

***"Həqiqətən, Yusufdə və onun qardaşlarında (onların əhvalatında) soruşanlar üçün ibrətlər vardır."[3]***

Əllamə Təbatəbai yazır:

Möcüzə, peyğəmbərin dediklərininin haqq olduğunu və bəşərin ona bənzər bir işi yerinə yetirməkdə aciz olduğunu göstərən ilahi nişanədir. Təqva və təqərrüb[4] ilahi hökmlər və vəzifələr sayəsində əldə edildiyindən, bu hökmlər və vəzifələr bir nişanə, əlamətdir. Yaradılmışlar yaradanın varlığından xəbər verdiyinə görə ilahi nişanələrdir. Peyğəmbərlərin və ilahi övliyaların sözləri və əməlləri insanları Allaha doğru yönəltdiyi üçün onlar da ilahi əzəmətin nişanələridir.[5]

"Ayə" sözü terminoloji mənada da Quranda bir neçə yerdə işlənmişdir:

**1- Fussilət surəsi 3-cü ayədə buyurulur:**

كِتَابٌ فُصِّلَتْ ءَايَاتُهُ ...

***"Bu bir kitabdır ki, onun ayələri aydın bəyan edilmişdir..."***

**2- Rə`d surəsi 1-ci ayədə buyurulur:**

المر. تِلْكَ ءَايَاتُ الْكِتَابِ...

***"Əlif-ləm-mim-ra. Bunlar kitabın ayələridir..."***

**3- Yunus surəsi 1-ci ayədə buyurulur:**

الر. تِلْكَ ءَايَاتُ الْكِتَابِ الْحَكِيمِ...

***"Əlif-ləm-ra. Bunlar hikmətli kitabın ayələridir..."***

---

[1] Ə`raf surəsi, ayə: 73.

[2] Bəqərə surəsi, ayə: 106.

[3] Yusuf surəsi, ayə: 7.

[4] Allaha yaxın olma.

[5] əl-Mizan, c.1, s.250.

**4- Ənfal surəsi 2-ci ayədə buyurulur:**

... وَ إِذَا تُلِيَتْ عَلَيْهِمْ ءَايَاتُهُ زَادَتْهُمْ إِيمَانًا...

***"Onun (Quranın) ayələri onlar üçün oxunduqda imanlarını artırar..."***

"Ayə" sözünün terminoloji mənası budur: Surənin tərkibində yerləşən, bir kəlmədən və ya kəlmələrdən ibarət hissədir ki, özündən qabaq və özündən sonrakı hissələrdən ayrılıbdır.

* * *

**B) "Surə" sözünün mənası**

Nur surəsi 1-ci ayədə buyurulur:

سُورَةٌ أَنْزَلْنَاهَا وَ فَرَضْنَاهَا وَ أَنْزَلْنَا فِيهَا ءَايَاتٍ بَيِّنَاتٍ...

***"Bu, nazil və vacib etdiyimiz bir surədir. Biz onda (surədə) açıq-aydın ayələr nazil etdik..."***

**"سُورة"** (surə) sözü lüğətdə həm "məhmuz"[1], həm də "qeyri-məhmuz"[2] söz kimi qeyd edilib:

1) "Məhmuz" söz olduqda **"suyun və ya başqa bir şeyin qabaqdan qalanı, artığı"** mənasını bildirən **"سُؤْر"** sözündən düzəlib. Bu halda **"سُورة"** sözünün cəm forması **"اَسْئَار"** olacaqdır.

2) "Qeyri-məhmuz" söz olduqda bəzən **"divar, qalanın hasarı"** mənasını bildirən "**سُور** " sözündən düzələn söz olur. Necə ki, ərəblər şəhəri əhatəyə alan divara **"سور المدينة"** deyirlər. Rağib İsfahani deyir:

سُورُ الْمَدِينَةِ حَائِطُهَا الْمُشْتَمَلُ عَلَيْهَا و سُورَةُ الْقُرْءَانَ تَشْبِيهًا بِهَا لِكَوْنِهِ مُحَاطًا بِهَا إِحَاطَةَ السُورِ بِالْمَدِينَةِ.

"Qalanın hasarı, onu əhatəyə alan divar deməkdir. Quran surəsi də buna bənzədilir, çünki hasar şəhəri əhatəyə aldığı kimi surə də onu əhatəyə almışdır."[3]

"**سُور** " bu mənada işləndikdə onun cəm forması **"اَسْوَار"** və **"سِيرَان "** olacaq.

3) **"سُورة"** (surə) sözünün birinci lüğəvi mənası (qeyri-məhmuz söz olduqda) **"uca məqam"**dır. İbn Faris deyir:

السين و الواو و الرّاء أَصْلٌ وَاحِدٌ يَدُلُّ عَلَى عُلُوٍّ و إرْتِفَاعٍ.

"Kök hərfləri "sin", "vav" və "ra" hərfləri olan söz "uca məqam" mənasını bildirir."

Nabiğeyi-Zibyani şeirlərinin birində Noman ibn Mənzərə xitabən deyir:

أَلَمْ تَرَ أَنَّ اللهَ أَعْطَاكَ سُورَةً     تَرَى كُلَّ مَلِكٍ دُونَهَا يَتَذَبْذَبُ

---

[1] Kök hərflərindən biri həmzə hərfi olan söz.

[2] Kök hərflərinin heç biri həmzə hərfi olmayan söz.

[3] Mufrədat; əl-İtqan, c.1, s.165.

“Allah sənə elə bir uca məqam bəxş etmişdir ki, şahların səltənəti onun yanında kiçikdir.”

**“سُورة”** sözü “uca məqam” mənasında işləndikdə, onun cəm forması **“سُور”**, **“سُوَر”**, **”سُورات ”**, **”سُوَرات ”** olacaqdır.

**“سُورة”** sözünün yuxarıdakı lüğəvi mənaları onun Quran terminində olan mənasına – “Bismillah”la başlayan xüsusi bir qəlibdə olan hissə - uyğun gəlir. Əgər **“سُورة”** məhmuz söz olan **”سُؤْر ”** sözündən düzəlibsə, bu təqdirdə “surə” Quranın bir hissəsi olduğu üçün belə adlanıb. Lakin əgər qeyri-məhmuz söz olan “**سُور** ” sözündən düzəlibsə, bu təqdirdə Quran surəsi alınmaz bir qala olduğundan belə adlanıb: necə ki, şəhərin qala divarları şəhəri əhatəyə alır, surə də qala divarları kimi ayələri əhatəyə alıb və onları bir-birilə əlaqələndirir.

Üçüncü mənada isə surə Allah kəlamı olduğuna görə “uca məqama” malikdir, yaxud surəni oxumaq qarinin məqamının ucalmasına səbəb olur.

Belə görünür ki, yuxarıdakı üç ehtimaldan üçüncüsü daha düzgündür. Çünki Quranda “**سُورة** ” sözünün cəmi **“سُوَر”** olaraq işlənib.

Qurani-Kərimdə “**سُورة** ” sözü tək formada - əlbəttə, terminoliji mənada - 9 yerdə işlənib.

* * *

**C) Quranın surələrə bölünməsinin fəlsəfəsi və faydaları**

Şübhəsiz ki, Mütəal Allahın bəşərə göndərdiyi sonuncu kitabını belə hissələrə bölməsi hikmətsiz və səbəbsiz deyildir. Çünki Quranda hətta hərflər və kəlmələr belə xüsusi diqqət və zərifliklə seçilmişdir. Quranşünaslar isə Quranın böyüklü-kiçikli müəyyən sayda surələrə - belə ki, ən kiçik surə üç ayədən ibarət “Kövsər” surəsi, ən böyük surə isə 286 ayədən ibarət “Bəqərə” surəsidir - bölünməsinin bir sıra faydalarını sadalamışlar. Biz burada həmin faydalardan bir neçəsini nəzərinizə çatdırır, eyni zamanda xatırladırıq ki, sadalanan faydalar bunlarla məhdudlaşmır.

**1. Quranda müxtəlif mövzuların olması:**

Quranın əksər surələri - hətta bəzi təfsirçilərin fikrincə, Quranın hər bir surəsi - xüsusi bir mövzunu əhatə edir.[1] Yəni müəyyən bir mövzuya aid ayələr bir surədə bir-birinin kənarında yer almışdır. Məsələn, “Yusuf” və “Nəml” surələri ilahi peyğəmbərlərin hekayəti, “Fil” surəsi tarixi bir hadisə barədədir.

**2. Quranın qiraətinin, öyrənilməsinin və əzbərlənməsinin asanlaşması:**

Quranın surələrə bölünməsi ilahi kəlamın öyrənib-öyrədilməsini asanlaşdırmışdır. Quranın bir hissənini (yəni bir surəni) öyrənən və əzbərləyən şəxs, səadət mərhələlərindən birini fəth etmiş şəxs kimi növbəti mərhələləri fəth etməyə can

[1] Təfsir kitablarına müraciət edin. Məsələn, “əl-Mizan” təfsiri, surələrin təfsirinin başlanğıcında.

atır. Bu, Quranın əzbərlənməsində daha aydın müşahidə edilir. Quranın kiçik və böyük surələrə bölünməsi onun əzbərlənməsini asanlaşdırmışdır.

**3. Quranın təhrifdən qorunması:**

Deyə bilərik ki, Quranın "surə" adlanan hissələrə bölünməsi bu səmavi kitabın möcüzəvi cəhətlərindən biridir. Quranın hissələrə bölünməsi onun əzbərlənməsini - xüsusilə də, nüzulun əvvəllərində həcmcə kiçik və ahəngdar olan məkki surələrinin əzbərlənməsini – asanlaşdırmış, hər bir müsəlmana bu surələrin ən azı bir neçəsini yadda saxlamağa, əzbərləməyə şərait yaratmışdı. Əlbəttə, bütün Quranı əzbər bilən hafizlərin də sayı – Quran hafizləri barədə gələcək fəsillərdə ətraflı danışılcaqdır - az deyildi. Bu da Quranın təhrifdən qorunmasını təmin etmişdir.

**4. Hətta ən kiçik surənin oxşarını gətirməkdə bəşərin acizliyi:**

Bildiyiniz kimi, Quran surələrində ayələrin sayı fərqlidir. Digər tərəfdən də məlum olduğu kimi, Mütəal Allah bu kəlamın ilahi kəlam olduğuna şəkk-şübhə ilə yanaşanları və etiraz mövqeyindən çıxış edənləri mübarizəyə çağırmışdır: "Əgər bacarırsınızsa, siz də onun surələri kimi bir surə gətirin!"

Surələrin kiçikli-böyüklü olması və həcmcə müxtəlifliyi isə bu həqiqətə işarə edir ki, surənin kiçikliyi və ya böyüklüyü ilahi kəlamın möcüzəliyi üçün şərt deyil. Surə kiçik olsa belə, yenə də əzəmət və möcüzəliyin zirvəsindədir.

* * *

**Ç) Surələrin qruplaşdırılması**

Quranşünaslar Quran surələrini bir baxımdan 4 qismə ayırmış və onlara xüsusi adlar vermişlər:

**1.** **اَلسَّبْعُ الطُّوَل** (əs-Səb`ut-tuvəl)[1]: Bunlar Quranın 7 böyük surəsidir. Əksər alimlərin fikrincə, həmin surələr bunlardır: Bəqərə, Ali-İmran, Nisa, Maidə, Ən`am, Ə`raf. Lakin yeddinci surə barədə fikirayrılığı vardır. Səid ibn Cubeyrin hədisinə istinadən, yeddinci böyük surə "Yunus" surəsidir, lakin bəziləri "Kəhf" surəsinin yeddinci böyük surə olduğunu qəbul edirlər.[2]

**2.** **اَلْمَئُون** (əl-Məun): Bu surələr "Tuvəl", yəni uzun surələrə nisbətən kiçikdir və ayələrinin sayı yüzdən çoxdur: Tövbə, Nəhl, Hud, Yusuf, Kəhf, İsra, Ənbiya, Taha, Mu`minun, Şuəra və Saffat.

**3.** **اَلْمَثَانى** (əl-Məsani): Bu surələrin ayələrinin sayı yüzdən azdır və təxminən iyirmi surədir. Onların "əl-Məsani" adlanmasının səbəbi, "əl-Məun" surələrdən sonra gəlmələridir. "**ثَنْى**" sözü "yönəlmə, birləşmə" mənasını bildirir. "Məsani" sözü üçün başqa mənalar da qeyd olunub.

---

[1] "**طوَل**" (tuvəl), "**طولى**" sözünün cəm formasıdır, necə ki, "**كبَر**" (kubər), "**كبرى**" sözünün cəm formasıdır.

[2] əl-İtqan, c.1, s.199, növ: 18.

**4. اَلْمُفَصَّل** (əl-Mufəssəl): Kiçik surələr “mufəssəl” adlanıb. Çünki bu surələr kiçikdir və bir-birindən “Bismillah”la ayrılır (“فَصْل” - “ayrılma” deməkdir). Yaxud bu surələrdə ayələrin fasilələri nisbətən çoxdur. “Nas” surəsinin “mufəssəl” surələrin sonuncusu olduğu barədə fikir birliyi olsa da, lakin hansı surənin birinci “mufəssəl” surə olduğu barədə fikirayrılığı vardır. Siyuti bu barədə 12 nəzəri qeyd etmişdir ki, “ət-Təmhid” əsərinin müəllifi onlar arasından “ər-Rəhman” surəsininin birinci “mufəssəl” surə olduğunu qəbul etmişdir. “Mənahilul-irfan” və “Mucizu Ulumil-Quran” əsərlərində isə “Hucurat” surəsinin birinci “mufəssəl” surə olduğu qeyd edilib.[1]

Hədislərin birində Həzrət Peyğəmbər (s) belə buyurub:

أُعْطِيتُ مَكَانَ التَّوْرَاةِ السَّبْعَ الطُّوَلِ، وَ أُعْطِيتُ مَكَانَ الزَّبُورِ المَئِينَ، وَ أُعْطِيتُ مَكَانَ الإنْجِيلِ المَثَانِى، وَ فُضِّلْتُ بِالْمُفَصَّل.

“Mənə Tövratın əvəzinə Quranın yeddi böyük surəsi, Zəburun əvəzinə “məun” surələri və İncilin əvəzinə “məsani” surələri verilmişdir. “Mufəssəl” surələr vasitəsilə mən başqalarından üstün oldum.”[2]

Quran surələrini başqa bir meyar əsasında da qruplaşdırıblar. Məsələn, “Mumtəhinat” surələri, “Musəbbihat” surələri, “Həvamim” surələri (“ha-mim”lə başlayan surələr) və “Əzaim” surələri (vacib səcdəsi olan surələr: Səcdə, Fussilət, Nəcm və Ələq surələri).

Surələrin qruplaşdırılması barədə kitabın dördüncü hissəsində “Səhabələrin mushəflərinin xüsusiyyətləri” başlığı altında da söz açacağıq.

* * *

## D) Quran surələrinin, ayələrinin və kəlmələrinin sayı

### *1- Surələrin və ayələrin sayı:*

Quranda 114 surə olduğu hamılıqla qəbul edilir. Amma Quranın ayələrinin sayı barədə fikirayrılığı vardır. Lakin bu fikirayrılığı heç də ayələrin azaldılması və ya çoxaldılması mənasında başa düşülməməlidir. Bu fikirayrılığı, surələrdə ayələrin sayının hesablanma üsulundan qaynaqlanır.

Bəzi quranşünasların nəzərinə görə bu fikirayrılığının səbəbi budur: Əvvəlcə Həzrət Peyğəmbər (s) hər ayənin başlanğıcında (hər ayə başlananda) bir qədər dayanardı. Məlum olduqdan sonra (ayənin başlanğıcı məlum olduqdan sonra) isə bir ayəni digər ayəyə birləşdirib qiraət edərdi. Bu səbəbdən də, bəziləri ayənin tamamlanmadığını güman edirdilər. Bu məsələ, ayələrin sayı barədə müsəlmanlar arasında fikirayrılığının yaranmasına səbəb olmuşdur.[3]

---

[1] Müraciət edin: “əl-İtqan”, c.1, s.200, növ: 18; “ət-Təmhid”, c.1, s.251; “Mənahilul-irfan”, c.1, s.352; “Mucizu Ulumil-Quran”, s.180.

[2] əl-İtqan, c.1, s.180, növ: 17.

[3] əl-İtqan, c.1, s.21, növ: 19; Mucizu Ulumil-Quran, s.181.

Bu fikirayrılığının başqa bir səbəbini, ayələrin sayılmasında Quran qarilərinin fərqli üsulları hesab etmək olar. Baxmayaraq ki, Quran alimləri ayələrin müəyyən edilməsinin (ayənin başlanğıcı və sonunun müəyyən edilməsinin) "toqifi" olduğunu qəbul edirlər, amma hər halda "muqəttə`ə hərflərin" müstəqil bir ayə kimi sayılıb-sayılmaması, yaxud iki ayəyə bölünməsi mümkün olan ayələrin bir ayə, yoxsa iki ayə kimi sayılıb-sayılmaması Quran ayələrinin sayı barədə müxtəlif nəzərlərin ortaya çıxmasına səbəb olmuşdur.

Bir daha qeyd edirik ki, sözügedən fikirayrılığı yalnız və yalnız ayələrin sayılması üsullarından irəli gəlmişdir, Quranın mətni barədə isə heç bir fikirayrılığı və fərqli nəzərlər yoxdur.

İslam məmləkətinin mərkəzi şəhərlərində hər bir məşhur qarinin Quran ayələrinin sayı ilə bağlı nəzəri olmuş və onun açıqladığı ədəd həmin şəhərin adına yazılmışdır. Məsələn, "Məkkə ədədi" dedikdə, məkkəlilərin, yaxud Məkkənin bir və ya bir neçə məşhur qarisinin nəzərinə görə Quranın ayələrinin sayı nəzərdə tutulur.

Quran ayələrinin sayının 6236 olduğunu qəbul edənlər "Kufə ədədi"ni daha düzgün hesab ediblər. Bu ədəd, Həmzə ibn Həbib Zəyyat, Əbul-Həsən Kəsai və Xələf ibn Hişama mənsubdur. Həmzə demişdir: Bu ədədi İbn Əbu Leyla, Əbu Əbdur-Rəhman Suləmidən və o da Əli ibn Əbu Talibdən (ə) nəql etmişdir.[1]

***2- Quranın kəlmələrinin sayı:***

Quranın kəlmələrinin sayı barədə də müfəssirlər və lüğət yazanlar arasında fikirayrılığı vardır. Bu fikirayrılığı, ayələrin sayılmasında olduğu kimi, kəlmələrin sayılma üsuluna qayıdır. Təfsirçilər, Quran tədqiqatçıları və Quran kəlmələrinin lüğətini yazanların açıqladığı ədədləri müqayisə etdikdə, bu ədədlər arasındakı fərqin 8000 söz ətrafında dəyişdiyini görürük.

Belə hesab edirik ki, Dr. Mahmud Ruhaninin tərtib etdiyi "Qurani-Kərimin surə, ayə və kəlmələrinin sayı"[2] adlı lüğət bu fikirayrılıqlarına son qoyar. Çünki bu lüğətdə Qurani-Kərimin kəlmə və ifadələri iki müxtəlif üsulla hesablanmış və nəticələr müqayisə edilmiş, əldə edilən nəticələr üstə-üstə düşmüşdür. Bu üsullar aşağıdakılardır:

**1) Müstəqim hesablama** (kəlmələrin bir-bir sayılması):

Bu üsulda Quran kəlmələri hər surədə ayəbəayə müxtəlif cədvəllərdə sayılmışdır. Nəticədə, Quran kəlmələrinin ümumi sayı 77807 kəlmə olmuşdur.

**2) Qeyri-müstəqim hesablama** (muştəqq və qeyri-muştəqq[3] kəlmələrin ayrı-ayrılıqda sayılması və cəmlənməsi):

---

[1] əl-İtqan, c.1, s.211.

[2] المعجم الاحصائى لِلْقرءَان الكريم

[3] Ərəb qrammatikasında kök hərflərdən ibarət söz "qeyri-muştəqq", bu sözdən düzələn sözlər "muştəqq" adlanır.

Bu hesablama iki mərhələdə aparılmışdır:

**1-** Muştəqq kəlmələrin saylması: bu mərhələdə Quranın muştəqq kəlmələri hər surədə ayəbəayə sayılmış və sözün birinci kök hərfi etibarilə əlifba sırası ilə sıralanmışdır.

**2-** Qeyri-muştəqq kəlmələrin sayılması: bu mərhələdə qeyri-muştəqq kəlmələr muştəqq kəlmələr kimi sayılmış, sonra qeyri-muştəqq kəlmələrin sayı muştəqq kəlmələrin sayına əlavə edilərək Quran kəlmələrinin ümumi sayı çıxarılmışdır.

Əldə edilən nəticə isə belə idi:

**Surələrin sayı - 114**

**Ayələrin sayı - 6236**

**Kəlmələrin sayı - 77807**

Adı çəkilən lüğətdə ayə və kəlmələrin hesablanması zamanı əsas götürülən meyarlar və şərtlər qeyd edilərkən vurğulanmışdır ki, “Bismillah” ayəsi digər Quran lüğətləri ilə həmahənglik məqsədilə yalnız “Həmd” surəsində hesablanıb.

* * *

**E) Quran surələrinin adları**

Qurani-Kərimin əksər surələrinin bir adı vardır. Bir qisim surələrin isə iki və ya daha artıq adı vardır. Nümunə üçün iki, üç və daha artıq adları olan surələri aşağıda qeyd edirik:

***İki adı olan surələr:***

**Şura:** Ha-mim-ayn-sin-qaf;

**Casiyə:** əş-Şəri`ə;

**Muhəmməd**: Qital;

**ər-Rəhman**: Ərusul–Quran.

***Üç adı olan surələr:***

**Maidə:** əl-Uqud, əl-Munqizə;

**Ğafir:** ət–Tul, əl-Mu`min.

***Bir neçə adı olan surələr:***

**Tövbə:** Bəraət, əl-Fazihə, əl-Hafirə. (Cəlaləddin Siyuti bu surənin 10-dan çox adını qeyd etmişdir.[1])

Mübarək “Həmd” surəsi üçün iyirmidən çox ad sadalamışlar:

əl-Həmd, Fatihətul-Kitab, Ummul-Kitab, Ummul-Quran, Fatihətul-Quran, əl-Quranil-Əzim, əs-Səb`ul-məsani, əl-Vafiyə, əl-Kənz, əl-Kafiyə, əl-Əsas, ən-Nur, əş-Şukr, əl-Həmdul-ula, əl-Həmdul-qusra, ər-Raqiyə, əş-Şəfa, əş-Şafiyə, əs-Səlat, əd-Dua, əs-Sual, əl-Munacat, ət-Təfviz.[2]

---

[1] əl-İtqan, c.1, s.172-173.

[2] Müraciət edin: “əl-İtqan”, c.1, s.167-171; “Pəjuheşi dər tarix-e Quran”, s.100; “əl-Burhan”, c.1, s.367.

Quran surələri müxtəlif cəhətlər, meyarlar əsasında adlandırılıb:

1. Surədə bəhs edilən mövzu: məsələn, Nisa, Həcc, Tövhid, Ənbiya, Əhzab, Mu`minun, Munafiqun, Kafirun surələri.

2. Surədə hekayəti danışılan peyğəmbərlər və ya şəxslərin adı: məsələn, Nuh, Hud, İbrahim, Yunus, Yusuf, Süleyman, Məhəmməd, Loğman, Məryəm, Ali-İmran, Mu`min və Kəhf surələri.

3. Surənin əvvəlində (birinci ayəsində) olan "muqəttə`ə hərflər": məsələn, Qaf, Sad, Yasin və Taha surələri.

4. Surədə müəyyən xüsusiyyətindən danışılan heyvanların adı: məsələn, Bəqərə, Nəhl, Nəml və Ənkəbut surələri.

5. Surənin mühüm mövzusu: məsələn, Cümə, Fəth, Vaqiə, Hədid və Mutəffifin surələri.

6. Surədə and içilən ilk söz: məsələn, Fəcr, Şəms, Zuha, Tin və Adiyat surələri.

Ümumiyyətlə, surələrin adlandırılmasında əsas meyar həmin surədə bəhs olunan mühüm mövzu olmuşdur.

* * *

**Ə) Surələrin adlandırılması "toqifi"dir, yoxsa "ictihadi"?**

Bir qrup alimlərin əqidəsinə görə, surələrin adlandırılması "toqifi"dir. Yəni yalnız Həzrət Peyğəmbər (s) surəyə ad verə bilərdi və başqalarının buna icazəsi yox idi.

Cəlaləddin Siyuti deyir:

"Bir çox surələr bu surələrdə hekayəti danışılan peyğəmbərlərin və ya müxtəlif qövmlərin adları ilə adlandırılıb. Amma Quranda "Musa" və ya "Adəm" adlı surə yoxdur, halbuki, Musa peyğəmbərin (ə) adı Quranda dəfələrlə çəkilmiş və onun hekayəti geniş bəyan edilmişdir. Hətta bəziləri deyiblər ki, Quran elə Həzrət Musa (ə) haqqındadır! Həzrət Adəmin (ə) hekayətindən də bir neçə surədə söz açılıb. Bu onu göstərir ki, surələrin adlandırılması toqifi olmuşdur. Əks təqdirdə, daha düzgün olardı ki, müsəlmanlar "Taha", "Qəsəs" və "Ə`raf" surələrindən birini – belə ki, bu surələrdə Həzrət Musanın (s) əhvalatı geniş bəyan olunur – o peyğəmbərin adı ilə adlandırsınlar."[1]

Zərkeşi də "əl-Burhan" əsərində surələrin adlandırılmasının toqifi olduğunu qeyd edib.[2]

Lakin Əllamə Təbatəbai bu əqidədədir ki, surələrin adlandırılma meyarları bu işin toqifi olduğunu rədd edir. Bu adların çoxu Həzrət Peyğəmbərin (s) dövründə çox işləndiyi üçün surələrin adı kimi tanınmış və heç bir "şəri toqifi" yoxdur.[3]

---

[1] əl-İtqan, c.1, s.178.

[2] əl-Burhan, c.1, s.368-369.

[3] Quran dər İslam, s.219.

### *Fəslin əsas mətləbləri:*

**1.** “Ayə” sözünün lüğəvi mənası “əlamət, nişanə”dir. Bu söz Quranda “möcüzə”, “hökm”, “ibrət”, “məxluqat”, “peyğəmbərlər və ilahi övliyalar” və s. mənalarda işlənib.

**2.** “Ayə” sözü Quran terminində bu mənanı daşıyır: “Surənin tərkibində yerləşən, bir kəlmədən və ya kəlmələrdən ibarət hissədir ki, özündən qabaq və özündən sonrakı hissələrdən ayrılıbdır”.

**3.** “Surə” sözünün lüğəvi mənası “uca məqam”dır. “Bismillah”la başlayan (Tövbə surəsindən başqa) Quran ayələri məcmusuna “surə” deyilir. Bu məcmu ondan ötrü “surə” adlanıb ki, Allah kəlamıdır və yüksək məqama malikdir. Yaxud surəni tilavət etmək, qariyə ucalıq və əzəmət bəxş edir.

**4.** Quranın surələrə bölünməsinin bəzi səbəbləri bunlardır: 1- Quranda müxtəlif mövzuların olması; 2- Quranı öyrənməyin və əzbərləməyin asanlaşdırılması; 3- Quranın təhrifdən qorunması; 4- Quranın möcüzəliyini göstərmək.

**5.** Quranın əksər surələrinin bir adı vardır. Bir qisim surələrin isə iki və ya daha artıq adı vardır. Baxmayaraq ki, Quranın bir çox surələrinin adı Həzrət Peyğəmbərin (s) zamanında geniş yayılmışdır, lakin surələrin adlandırılması toqifi deyildir.

**6.** Quran surələri bir baxımdan dörd qismə ayrılır: “Əs-səb`ut-tuvəl”, “əl-Məun”, “əl-Məsani” və “əl-Mufəssəl”.

**7.** “**المعجم الاحصائى لِلْقرْءان الكريم**” kitabının təqdim etdiyi rəqəmlər belədir:

**Quranın surələrinin sayı – 114**

**Quranın ayələrinin sayı – 6236**

**Quranın kəlmələrinin sayı - 77807**

# Beşinci fəsil

## Birinci və sonuncu ayə.
## Birinci və sonuncu surə.

**A) Nazil olan birinci ayə və birinci surə**

Nazil olan birinci ayə və birinci surəni müəyyən etmək Quran ayələrinin nüzul ardıcıllığını, eləcə də, müəyyən bir mövzuya aid olan ayələrin zaman baxımından hansının əvvəl və hansının sonra nazil olduğunu araşdıran tədqiqatçılar üçün olduqca əhəmiyyətlidir. Demək olar ki, bütün Quran alimləri Quranın nüzulu zəminində bu məsələni böyük diqqətlə araşdırmışlar. Qeyd olunan faydaları ilə yanaşı, ümumiyyətlə, Qurana aid bütün mövzular tam aydınlığı ilə açıqlanmalı, ortada heç bir qaranlıq məqam qalmamalıdır. Bu səbəbdən, hətta Quranla bağlı ən cüzi məsələlər belə böyük diqqətlə araşdırılmışdır.

Nazil olan birinci ayə və birinci surəyə gəlincə, Quran tədqiqatçıları bu qənaətdədirlər ki, nazil olan birinci surə "Ələq" surədir. Bu surənin ilk beş ayəsi Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilərkən nazil oldu. Hədislər də bunu təsdiq edir. İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur:

أَوَّلُ مَا نُزِّلَ عَلَى رَسُولِ اللهِ: بِسم الله الرحمن الرحيم. إقْرَأْ بِاسْمِ رَبِّكَ...

"Rəsulallaha (s) nazil olan ilk vəhy: "Rəhman və Rəhim Allahın adı ilə. Oxu, Rəbbinin adı ilə..." idi".[1]

Buxari və Müslim öz "Səhih"lərində Ümmül-möminin Aişənin nəql etdiyi bu hədisi qeyd ediblər ki: Həzrət Peyğəmbərə (s) "Ələq" surəsinin ilk ayələri vəhy oldu və bu hadisədən sonra o həzrət Xanım Xədicənin (s.ə) evinə gəldi. O həzrət peyğəmbər seçildiyinə şəkk etdi və Vərəqət ibn Nofəlin yanına getdi...

Təssüflər olsun ki, bu qeyri-mötəbər hədisi Quran elmləri alimlərinin bir çoxu, o cümlədən, Cəlaləddin Siyuti "əl-İtqan" və Zərqani "Mənahilul-irfan" əsərində qeyd etmişlər. Hətta təəccüblüdür ki, "ət-Təmhid" əsərinin müəllifi "vəhy" mövzusunda müxtəlif məsələlərə aydınlıq gətirərkən, məzmunu Aişənin nəql etdiyi hədisə oxşar bir hədisi nəql edib Vərəqət ibn Nofəlin hekayətini qəti surətdə rədd etmişdir, lakin "Ələq" surəsinin nazil olan birinci surə olduğunu sübut etmək istədikdə, iki yerdə həmin hədisə istinad etmişdir![2] Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilərkən "Ələq" surəsinin lik beş ayəsinin nazil olması o qədər aydın tarixi bir faktdır ki, belə bir saxta hədisə istinad etməyə ehtiyac qalmır.

---

[1] ət-Təmhid, c.1, s.124; əl-Mizan, c.20, s.378.

[2] Müraciət edin: ət-Təmhid, c.1, s. 56 və 124.

Bəziləri isə “Fatihətul-Kitab” surəsinin nazil olan birinci surə olduğunu deyirlər.[1] Zəməxşəri “Kəşşaf” adlı əsərində bu nəzəri İbn Abbas və Mücahiddən nəql edərək deyir: “Əksər müfəssirlərin nəzərinə görə, nazil olan birinci surə “Fatihətul-Kitab” surəsidir.”[2]

Amma Zəməxşərinin bu sözü doğru deyil, çünki:

***birincisi,*** bu nəzər əksəriyyətin nəzəri deyildir, onu qəbul edənlərin sayı azdır;

***ikincisi,*** Quran elmləri alimləri qeyd etmişlər ki, “Həmd” surəsi tam nazil olan (yeddi ayəsi bir yerdə nazil olan) ilk surədir. Amma ayələrinin nüzulu baxımından “Ələq” surəsinin ilk beş ayəsi ondan qabaq nazil olmuşdu.[3]

Cabir ibn Zeydin hədisinə əsasən, “Fatihətul-Kitab” surəsi nazil olan beşinci surədir, yəni nüzul ardıcıllığına görə ilk sıralarda qərar tutur.

Tarixi mənbələrdə qeyd edilib ki, Həzrət Məhəmməd (s) be`sətin əvvəllərində namaz qılmış, Həzrət Əli (ə) və Xanım Xədicə (s.ə) o həzrətə iqtida etmişlər. Digər tərəfdən hədislərdə belə qeyd edilib:

لَا صَلَاةَ إِلَّا بِفَاتِحَةِ الْكِتَابِ.

Yəni “Fatihətul-Kitab”sız (bu surə oxunmadan) namaz olmaz.

Deməli, Fatihə surəsi be`sətin əvvəllərində tam nazil olan Quran surələrindəndir.

* * *

**B) Nazil olan sonuncu ayə və sonuncu surə**

Nazil olan sonuncu ayə barədə çoxlu fərqli nəzərlər mövcuddur. Zərqani “Mənahilul-irfan” əsərində bu barədə 10 nəzəri qeyd edib və biz bu nəzərlərdən bir neçəsini aşağıda qeyd edirik:

**1. Bəqərə surəsinin 281-ci ayəsi** (İbn Abbasın və Əbi Hatəmin nəqlinə istinadən);

**2. Bəqərə surəsinin 278-ci ayəsi** (İbn Abbas və İbn Ömərin nəqlinə istinadən);

**3. Bəqərə surəsinin 282-ci ayəsi.**

Cəlaləddin Siyuti deyir:

“Bu üç ayənin nazil olan sonuncu ayə olduğunu bəyan edən hədislər arasında heç bir ziddiyyət yoxdur. Çünki bu ayələr bir yerdə nazil olub. Necə ki, mushəfdə də ardıcıl qeyd edilib və onların hekayəti də (bəhs etdikləri mövzu) eynidir. Ravilərdən hər biri bu ayələrdən bəzisini nazil olan sonuncu ayə hesab etmişlər ki, bu da öz yerində düzgündür.”[4]

Zərqani “Mənahilul-irfan”da Bəqərə surəsinin 281-ci ayəsini nazil olan sonuncu ayə hesab edir. O yazır: “İbn Abbasın hədisində qeyd olunur ki, bu ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər (s) cəmi doqquz gecə yaşadı.”

---

[1] Müraciət edin: “Səhih-Buxari”, c.1, bölüm: “Kəyfə kanə bəd`ul-vəhy”; “əl-İtqan”, c.1, s.76; “Mənahilul-irfan”, c.1, s.93.

[2] Kəşşaf, c.4, s.270.

[3] Dr. Ramyar, “Tarix-e Quran”, s.592.

4 əl-İtqan, c.1, s.87.

**4. Maidə surəsinin 3-cü ayəsi (Əl-yəumə əkməltu ləkum dinəkum...)**

Tanınmış tarixçi Yəqubi yazır: "Bu ayə nazil olan sonuncu ayədir. Ğədir-Xumda Əli ibn Əbu Talib (ə) xəlifə və canişin təyin edildiyi gün nazil olmuşdur."

"ət-Təmhid" əsərinin müəllifi Yəqubinin nəzərinə üstünlük verir, çünki bu ayədə dinin kamil olduğu və tamamlandığı elan edilir ki, bu da öz növbəsində vəhyin sona yetdiyini çatdırır.

Bəqərə surəsinin 278, 281 və 282-ci ayələri və Maidə surəsinin 3-cü ayəsinin nazil olan sonuncu ayə olması xüsusunda ortaq qənaət budur ki, Bəqərə surəsinin ayələri nazil olan sonuncu əhkam ayələri və Maidə surəsinin 3-cü ayəsi nazil olan sonuncu vəhydir.[1]

* * *

Nazil olan sonuncu surə barədə isə 3 nəzər mövcuddur:

1- Maidə surəsi; 2- Bəraət surəsi; 3- Nəsr surəsi.

Hədislərin birində İmam Sadiq (ə) buyurur:

أوَّلُ مَا نَزَلَ عَلَى رَسُولِ اللهِ، بِسْمْ اللهِ الرَّحْمنِ الرَّحِيم، اقرأ بِاسْمِ رَبِّكَ، وَ ءَاخَرُ مَا نَزَلَ عَلَيْه، إِذَا جَاءَ نَصْرُ اللهِ وَ الْفَتْحُ.

"Rəsulallaha (s) nazil olan ilk vəhy: "Rəhman və Rəhim Allahın adı ilə. Oxu, yaradan Rəbbinin adı ilə..." idi. Ona nazil olan sonuncu vəhy isə: "Allahın köməyi və zəfər (Məkkənin fəthi və digər zəfərlər) gəldiyi zaman..." idi."[2]

Çoxları bu əqidədədir ki, "Maidə" və "Tövbə" surələri bütövlükdə və bütün ayələri bir yerdə nazil olan sonuncu surələr deyildir. "Tövbə" surəsi ilk ayələri etibarilə nazil olan sonuncu surə hesab edilir.

Tam nazil olan, yəni bütün ayələri bir yerdə nazil olan sonuncu surə "Nəsr" surəsidir.

İbn Abbas deyib: "**"İz̄ā cāə nəṣrullāh..."** surəsi tam nazil olan sonuncu surədir.

Nəql olunur ki, "Nəsr" surəsi nazil olduqda, Həzrət Peyğəmbər (s) onu səhabələrinə oxudu və səhabələr sevindilər. Lakin Həzrət Peyğəmbərin (s) əmisi Abbas bu surəni eşitdikdə ağladı. Həzrət Peyğəmbər (s) ondan ağlamağının səbəbini soruşduqda, o belə cavab verdi: "Belə güman edirəm ki, bu surə sizin vəfatınızın yaxınlaşdığını xəbər verir."[3]

## *Fəslin əsas mətləbləri:*

**1.** "Ələq" surəsinin ilk beş ayəsi nazil olan birinci ayələrdir.

**2.** "Fatihətul-Kitab" surəsi tam nazil olan birinci surə, "Nəsr" surəsi isə tam nazil olan sonuncu surədir.

---

[1] ət-Təmhid, c.1, s.128-129.

[2] əl-Mizan, c.20, s.378.

[3] Müraciət edin: Mənahilul-irfan, c.1, s.100; ət-Təmhid, c.1, s.129; Məcməul-bəyan, c.10, s.844; əl-Mizan, c.20, s.378.

# Altıncı fəsil

## “Məkki” və “mədəni” surələr

**A) Bu bölgünün faydası**

Qurani-Kərimin surələri 2 qismə bölünür: məkki surələr və mədəni surələr. Bu bölgü bir sıra faydalarına görə əhəmiyyət daşıyır. Bu faydalardan bir neçəsini nəzərinizə çatdırırıq:

1. Quranda gələn ilahi qanunların, hökmlərin nüzul ardıcıllığını bilmək;

2. Ayə və surələrin nüzul ardıcıllığını bilməklə “mutləq və muqəyyəd”, “muxtəss və umum”, “nasix və mənsux” hökmləri tanımaq;

3. Quranın daha bir möcüzəvi cəhəti və təhrif olunmaması səbəbi ilə tanışlıq: Bu izahla ki, “mədəni” surələrin əksinə olaraq, “məkki” surələrin əksəriyyəti kiçik surələr olub ayələri qısa və qafiyəlidir. Bu xüsusiyyət Quranın nüzulunun əvvəllərində bir tərəfdən “təhəddi” zəminində Quranın möcüzəliyini nümayiş etdirmiş, digər tərəfdən ilahi vəhyin öyrənilməsini və əzbərlənməsini asanlaşdırdığı üçün onun təhrifdən amanda qalmasını təmin etmişdir.

Bu və digər faydalarına görə bir çox Quran alimləri təkidlə bildirmişlər ki, “məkki” və “mədəni” surələri tanımadan Quran ayələrini başa düşüb təfsir etmək qeyri-mümkündür.

* * *

**B) Bu bölgünün meyarı**

Ayə və surələr 3 meyar əsasında “məkki” və ya “mədəni” təyin edilmişdir:

1- Zaman meyarı; 2- Məkan meyarı; 3- Xitab (müraciət) meyarı.

**1- Zaman meyarı:** Bu meyarda Həzrət Peyğəmbərin (s) hicrəti əsas götürülür. Belə ki, hicrətdən əvvəl, yaxud hicrət əsnasında – yəni Həzrət Peyğəmbər (s) Mədinəyə çatmamış - nazil olan ayə və surələr “məkki”, hicrətdən sonra nazil olan ayə və surələr isə – hətta Məkkədə nazil olsa belə – “mədəni” hesab edilir.

**2- Məkan meyarı:** Bu meyarda ayə və surənin nazil olduğu məkan onun “məkki” və ya “mədəni” olmasını təyin edir. Məkkədə və onun ətrafında nazil olan ayə və surələr “məkki”, Mədinə və onun ətrafında nazil olan ayə və surələr isə “mədəni” hesab edilir. Bu meyara əsasən, nə Məkkədə, və nə də Mədinədə nazil olmayan ayə və surələr, “məkki” və “mədəni” hesab edilmir.

**3- Xitab meyarı:** Məkkə əhalisinə xitab, yəni **“يَا أَيُّهَا النَّاس”** xitabı olan ayə və surələr “məkki”, Mədinə əhalisinə xitab, yəni **”يَا أَيُّهَا الَّذِين ءَامَنُوا ”** xitabı olan ayə və surələr isə “mədəni”dir. (Bu, İbn Məs`udun nəzəridir.)

Əksər təfsirçilər birinci meyar əsasında ayə və surələri “məkki” və “mədəni”yə ayırmışlar.[1]

* * *

**C) “Məkki” və “mədəni” surələrin xüsusiyyətləri**

Cə`bəri demişdir:

“Surənin “məkki” və ya “mədəni” olduğunu təyin etmək üçün 2 üsul mövcuddur: səma`i və qiyasi. Səma`i üsul odur ki, surənin Məkkədə və ya Mədinədə nazil olduğu bizə nəql olunsun. Qiyasi üsul odur ki, təkcə **“Yə̃ əyyuhənnə̃s”** xitabı və ya **“kəllə̃”** ifadəsi işlənən, yaxud “muqəttə`ə hərflər” ilə başlanan (Bəqərə və Ali-İmran surələri istisna olmaqla), yaxud Həzrət Adəm (ə) və İblisin əhvalatı danışılan (Bəqərə surəsindən başqa), yaxud keçmiş peyğəmbərlərin və ümmətlərin hekayətləri nəql olunan surələr “məkki”, vacibatlar və cəza ölçüləri bəyan edilən surələr isə “mədəni”dir.”[2]

Ümumiyyətlə, Quran ayələri və surələrinin məzmununa diqqət yetirmək və onları bir-birilə müqayisə etməklə, “məkki” və “mədəni” ayə və surələr üçün müəyyən xüsusiyyətlər sadalamaq olar. Bu xüsusiyyətlər istisna hallar qəbul etsə də, lakin ayə və surələrin “məkki” və ya “mədəni” olduğunu təyin etmək üçün yaxşı bələdçidir.

***“Məkki” surələrdə əksər hallarda mövcud olan xüsusiyyətlər bunlardır:***

1. Dinin əqidə əsaslarına dəvət: məsələn, Allaha və Qiyamət gününə iman gətirməyə dəvət, sorğu-sual və haqq-hesab səhnələrinin, cənnətliklər və cəhənnəmliklərin təsviri;

2. Surələrin kiçik, ayələrin qısa və qafiyəli olması, müraciətlərin icazı (lakonikliyi);

3. Müşriklərin inanclarına qarşı mübarizə;

4. Allaha, Qiyamət gününə, Qurana və bu kimi müqəddəs inanc yerlərinə daha çox and içilməsi: “məkki” surələrdə otuza yaxın and vardır, halbuki, “mədəni” surələrdə yalnız iki yerdə and içilir:

“Nisa” surəsinin 65-ci ayəsi:

فَلَا وَ رَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّى يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُ...

“Təğabun” surəsinin 7-ci ayəsi:

... قُلْ بَلَى وَ رَبِّى لَتُبْعَثُنَّ ثُمَّ لَتُنَبَّؤُنَّ بِمَا عَمِلْتُمْ...

---

[1] əl-İtqan, c.1, s.26.

[2] əl-İtqan, c.1, s.53-54.

5. Keçmiş peyğəmbərlərin və ümmətlərin, Həzrət Adəm (ə) və İblisin hekayətlərindən daha çox danışılması;

6. "Yã əyyuhənnãs" xitabının "Yã əyyuhəlləzĩnə ãmənũ" xitabından daha çox işlənməsi:[1]

Bu barədə bəzi quranşünaslar deyib: "Ümumiyyətlə, hər hansı surədə "Yã əyyuhənnãs" xitabı işlənibsə, bu surə "məkki"dir. Lakin belə deyil, çünki "Bəqərə" surəsinin "mədəni" surə olmasına baxmayaraq, onun 21-ci və 168- ci ayələrində "Yã əyyuhənnãs" xitabı mövcuddur. Həmçinin "mədəni" surə olan "Nisa" surəsinin 1-ci ayəsində "Yã əyyuhənnãs" xitabı vardır.

İbn Hisar demişdir: ""Həcc" surəsinin "məkki" surələrdən olduğu hamılıqla qəbul edilir, halbuki, bu surənin 77-ci ayəsində "Yã əyyuhəlləzĩnə ãmənũ" xitabı mövcuddur."[2]

7. Məkki ayə və surələr kəskin bəyana malikdir.

8. İnsanların dini və əxlaqi dəyərlərə, o cümlədən, sevgiyə, ixlasa, başqalarına ehtirama, qonşuya əl tutmağa, valideynə yaxşılığa və s. dəvət olunması, qarşı tərəfdən isə çirkin əməllərdən və rəzilliklərdən, o cümlədən, qətl törətmək və qan tökməkdən, yetimin malını yeməkdən və s. çəkindirilməsi.

Qeyd edək ki, "Bəqərə" və "Ali-İmran" surələri istisna olmaqla, "muqəttə`ə hərflər" ilə başlayan bütün surələr "məkki"dir.

***"Mədəni" surələrdə əksər hallarda mövcud olan xüsusiyyətlər bunlardır:***

1. Surələrin və surələrdəki ayələrin uzun olması;
2. Kitab-əhlinə etiraz;
3. Münafiqlərə etiraz;
4. Cihad və onun hökmləri barədə olan ayələrin çoxluğu;
5. Vacib əməllərin, hüquqların, cəza ölçülərinin, irs məsələlərinin, siyasi-iqtisadi qanunların, müqavilə qaydalarının və s. bəyanı;
6. Dini maarifin dəlil-sübutlarla açıqlanması.[3]

* * *

**Ç) "Məkki" və "mədəni" surələrin nüzul ardıcıllığı ilə mündəricatı**

Bu fəslin sonunda "məkki" və "mədəni" surələrin nüzul ardıcıllığını nəzərinizə çatdıracağıq.

Qeyd edək ki, Cəlaləddin Siyuti və başqaları surələrin nüzul ardıcıllığını açıqlayarkən, İbn Abbas və Cabir ibn Zeydin hədisinə istinad etsələr də, lakin bəzi tədqiqatçılar başqa fikirdədirlər:

---

[1] Mucizu Ulumil-Quran, s.143.
[2] əl-İtqan, c.1, s.52-53.
[3] Mucizu Ulumil-Quran, s.144.

Bu hədislərə heç bir vəchlə istinad edilə bilməz. Çünki məlum deyil, İbn Abbas bu ardıcıllığı Həzrət Peyğəmbərin (s) özündən eşitmiş və əxz etmişdir, yaxud başqalarından – onların da kim olduqları məlum deyildir -. Yaxud da ola bilsin ki, bu onun şəxsi nəzəridir və bu təqdirdə də bu nəzər onun özü üçün höccətdir (başqaları ona istinad edə bilməz). Tarixi mənbələrə görə, İbn Abbas kiçik yaşlarında olarkən Həzrət Peyğəmbər (s) dünyasını dəyişmişdir və aydın məsələdir ki, bütün bu surələrin nazil olmasına şahid olmamışdır. Deməli, əgər surələrin ardıcıllığı barədə onun nəql etdikləri şəxsi nəzəri olmasa belə, onu başqalarından eşitmiş və bu da sənədi olmayan bir hədisdir ki, ona istinad edilə bilməz (hoccət deyildir). Beləliklə də, Quran surələrinin nüzul ardıcıllığını, onların "məkki" və ya "mədəni" olmasını təyin etmək üçün yeganə yol onların məzmununa diqqət yetirib, hicrətdən əvvəlki və sonrakı şərait və vəziyyətlə tutuşdurmaqdır. Belə ki, "İnsan", "Adiyat" və "Mutəffifin" surələrinin məzmunu onların "mədəni" surələr olmasına dəlalət edir, halbuki, bu hədislərdə onların "məkki" surələr olduğu qeyd edilir.[1]

Siyuti İbn Abbasın "məkki" və "mədəni" surələrin ardıcıllığı barədə olan hədisini "əl-İtqan" kitabında (c.1, s.31-32) qeyd etmişdir. Bu hədisdə "Fatihətul-Kitab" surəsi qeyd edilməmişdir. Amma Cabir ibn Zeydin hədisində ("əl-İtqan", c.1, s.81) "Fatihətul-Kitab" surəsi "məkki" surələrin nüzul ardıcıllığında beşinci yerdə qərar tutmuşdur. Bu hədislərə əsasən, "məkki" surələrin sayı 86, "mədəni" surələrin sayı isə 28-dir.

Əlbəttə, Qurani-Kərimin bəzi surələrinin "məkki", yoxsa "mədəni" olması barədə fikirayrılığı vardır. İxtisara riayət etmək üçün burada bu mövzuya toxunmuruq.

Biz surələrin nüzul ardıcıllığını "ət-Təmhid" əsərinə istinadən qeyd etmişik. Bu ardıcıllıqda hər bir surənin ilk ayələrinin nüzulu meyar götürülür. Belə ki, əgər bir surənin bir neçə ayəsi nazil olmuş və sonra digər bir surənin ayələri nazil olmağa başlamışdırsa, daha sonra əvvəlki surənin ayələri nazil olaraq surə tamamlanmışdırsa, burada nüzul ardıcıllığına görə birinci surə ikinci surədən əvvəl gəlir.

* * *

***Məkki surələrin nüzul ardıcıllığı:***

1- əl-Ələq; 2- əl-Qələm; 3- əl-Muzzəmmil; 4- əl-Muddəssir; 5- əl-Fatihə; 6- əl-Məsəd; 7- ət-Təkvir; 8- əl-Ə`la; 9- əl-Ləyl; 10- əl-Fəcr; 11- əz-Zuha; 12- əl-İnşirah; 13- əl-Əsr; 14- əl-Adiyat; 15- əl-Kövsər; 16- ət-Təkasur; 17- əl-Ma`un; 18- əl-Kafirun; 19- əl-Fil; 20- əl-Fələq; 21- ən-Nas; 22- ət-Tövhid; 23- ən-Nəcm; 24- Əbəsə; 25- əl-Qədr; 26- əş-Şəms; 27- əl-Buruc; 28- ət-Tin; 29- Qureyş; 30- əl-Qari`ə; 31- əl-Qiyamət; 32- əl-Huməzə; 33- əl-Mursəlat; 34- Qaf; 35- əl-Bələd; 36- ət-Tariq; 37- əl-Qəmər; 38- Sad; 39- əl-Ə`raf; 40- əl-Cinn; 41- Yasin; 42-

[1] Quran dər İslam, c.186-187.

əl-Furqan; 43- Fatir; 44- Məryəm; 45- Taha; 46- əl-Vaqi`ə; 47- əş-Şu`əra; 48- ən-Nəml; 49- əl-Qəsəs; 50- əl-İsra; 51- Yunus; 52- Hud; 53- Yusuf; 54- əl-Hicr; 55- əl-Ən`am; 56- əs-Saffat; 57- Loqman; 58- Səba; 59- əz-Zumər; 60- Ğafir; 61- Fussilət; 62- əş-Şura; 63- əz-Zuxruf; 64- əd-Duxan; 65- əl-Casiyə; 66- əl-Əhqaf; 67- əz-Zariyat; 68- əl-Ğaşiyə; 69- əl-Kəhf; 70- ən-Nəhl; 71- Nuh; 72- İbrahim; 73- əl-Ənbiya; 74- əl-Mu`minun; 75- əs-Səcdə; 76- ət-Tur; 77- əl-Mulk; 78- əl-Haqqə; 79- əl-Məaric; 80- ən-Nəbə; 81- ən-Nazi`at; 82- əl-İnfitar; 83- əl-İnşiqaq; 84- ər-Rum; 85- əl-Ənkəbut; 86- əl-Mutəffifin.

## *Mədəni surələrin nüzul ardıcıllığı:*

87- əl-Bəqərə; 88- əl-Ənfal; 89- Ali-İmran; 90- əl-Əhzab; 91- əl-Mumtəhinə; 92- ən-Nisa; 93- əl-Zilzal; 94- əl-Hədid; 95- Muhəmməd; 96- ər-Rə`d; 97- ər-Rəhman; 98- əl-İnsan; 99- ət-Təlaq; 100- əl-Bəyyinə; 101- əl-Həşr; 102- ən-Nəsr; 103- ən-Nur; 104- əl-Həcc; 105- əl-Munafiqun; 106- əl-Mucadilə; 107- əl-Hucurat; 108- ət-Təhrim; 109- əl-Cumu`ə; 110- ət-Təğabun; 111- əs-Səff; 112- əl-Fəth; 113- əl-Maidə; 114- Bəraət.

* * *

### D) Müstəsna ayələr

Görəsən "məkki" surələrdə "mədəni" ayələr və "mədəni" surələrdə "məkki" ayələr vardırmı?

Çoxları bu suala müsbət vacab vermişlər. Cəlaləddin Siyuti öz əsərində müfəssəl bir açıqlama ilə "məkki" və "mədəni" surələrdə olan müstəsna ayələri qeyd etmişdir. Məsələn, o demişdir: ""Mədəni" surə olan "Bəqərə" surəsində iki ayə - 109-cu və 272-ci ayələr müstəsnadır."[1]

"ət-Təmhid" əsərinin müəllifi müxtəlif müəlliflərin öz əsərlərində qeyd etdikləri "müstəsna ayələr"i qeyd etmiş, lakin özü istər "məkki", istərsə də "mədəni" surələrdə müstəsna ayələrin olduğunu qəbul etməmişdir.[2]

## *Fəslin əsas mətləbləri:*

**1.** Qurani-Kərimin ayə və surələri 2 qismə bölünür: məkki və mədəni.

**2.** Hicrətdən əvvəl nazil olan ayə və surələr "məkki", hicrətdən sonra nazil olan ayə və surələr isə "mədəni"dir.

**3.** "Məkki" surələrin əsas xüsusiyyətləri bunlardır: dinin əqidə əsaslarına və əxlaqi dəyərlərə dəvət; Qiyamət səhnəsinin, Cənnət və Cəhənnəmin təsviri;

[1] əl-İtqan, c.1, s.43-52.
[2] ət-Təmhid fi Ulumil-Quran, c.1, s.137-203.

müşriklərin inanclarına qarşı mübarizə; andların çoxluğu; keçmiş peyğəmbərlərin hekayətlərindən daha çox danışılması; surələrin kiçik olması; ayələrin qısa və qafiyəli olması.

**4.** "Mədəni" surələrin əsas xüsusiyyətləri bunlardır: Kitab-əhlinin yanlış inanclarına etiraz; münafiqlərə etiraz; cihada dəvət və onun hökmləri; vacibatların, cəza ölçülərinin, irs məsələlərinin, siyasi-iqtisadi qanunların izahı; ayə və surələrin uzun olması.

**5.** Quranda 86 surə "məkki", 28 surə "mədəni"dir.

***Üçüncü hissənin sualları:***

**1.** Hansı səbəbə görə Qurani-Kərimin iki növ nüzulu (birdəfəyə və tədrici) vardır?

**2.** "ət-Təmhid"in müəllifinin Quranın nüzulu barədə olan nəzəriyyəsini deyin və iradları bəyan edin.

**3.** Şə\`ni-nüzul, yəni ayənin nazil olma səbəbi nə deməkdir? Şə\`ni-nüzul hədisləri nə dərəcədə etibarlıdır (səhihdir)?

**4.** "Ayə" və "surə"nin tərifini deyin.

**5.** Nə üçün Quran müxtəlif surələrə bölünmüşdür?

**6.** "Səb\`ut-tuvəl" (7 uzun surə) və "məun" surələr hansılardır?

**7.** Quranın surə, ayə və kəlmələrinin sayını deyin.

***Araşdırma üçün suallar:***

**1.** Digər səmavi kitabların, məsələn Tövrat və İncilin də iki növ nüzulu olmuşdurmu? İzah edin.[1]

**2.** Sə\`ni-nüzulu olan üç Quran ayəsini bəyan edin.

**3.** Xüsusi bir mövzunu əhatə edən bir neçə Quran surəsinin adını çəkin.

**4.** Şərab ayələrinin şə\`ni-nüzulunu və onların nüzul ardıcıllığını araşdırın.

**5.** Nə üçün "məkki" ayə və surələrin həcmi "mədəni" ayə və surələrdən çoxdur?

[1] "əl-İtqan", c. 1, növ: 16.

# DÖRDÜNCÜ HİSSƏ

## QURANIN TARİXİ (3)

# QURANIN YAZILMASI VƏ YIĞILMASI

## Dördüncü hissə: Quranın yazılması və yığılması

*Birinci fəsil:* **Həzrət Peyğəmbərin (s) dövründə Qurani-Kərimin yazılması və yığılması**
*İkinci fəsil:* **Həzrət Əli ibn Əbu Talibin (ə) mushəfi**
*Üçüncü fəsil:* **Quranın birinci xəlifə Əbu Bəkrin dövründə cəm edilməsi**
*Dördüncü fəsil:* **Quranın üçüncü xəlifə Osman ibn Əffanın dövründə cəm edilməsi**
*Beşinci fəsil:* **Quranın yazı xətti**

### *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Həzrət Peyğəmbərin (s) dövründə Qurani-Kərimin kitabəti, vəhy katibləri və vəhyin hansı əşyalar üzərində yazılması barədə məlumatlanmaq;
- Həzrət Əli ibn Əbu Talibin (ə) cəm etdiyi mushəfin xüsusiyyətləri ilə tanış olmaq;
- Quranın tarixi zəminində Həzrət Peyğəmbərin (s) vəfatından sonra yaranan ən mübahisəli mövzulardan birinin araşdırılması;
- Quranın Həzrət Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyi ilə mavafiq olanların və bu məsələyə müxalif olanların dəlillərini bilmək;
- Tarix və hədis mənbələrində Qurani-Kərimin yazılması və yığılması işinin araşdırılması;
- Bəzi tanınmış səhabələrin mushəfləri ilə tanışlıq;
- Üçüncü xəlifə Osmanın Qurani-Kərimin ikinci dəfə cəm edilməsi və "vahid mushəf"in yaradılmasına dair göstərişi, bu işin səbəbləri, vahid mushəfin yaradılması işi üçün təşkil edilən heyətin üzvləri, Osmanın mushəflərinin sayı və bu mushəflərin taleləri barədə məlumatlanmaq;
- Bir sıra suallara, məsələn, "Surələrdə ayələrin ardıcıllığı və ya mushəfdə surələrin ardıcıllığı "toqifi", yoxsa "ictihadi"?" kimi suallara verilən cavabları bilmək, həmçinin Quranın xilafət tərəfindən cəm edilməsinə Əhli-beytin (ə) münasibətini bilmək;
- Quran kəlmələrinin hərəkələnməsi və hərflərin nöqtələnməsi işinin ilk dəfə həyata keçirilməsini araşdırmaq;
- Quranın yazı xəttinin keçdiyi mərhələlər ilə tanışlıq.

### *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**Biharul-ənvar,** c.89; **əl-Mizan,** c.12, s.118-132; **Quran dər İslam**; **əl-Bəyan fi təfsiril-Quran**; **Həqaiqun hammətun həvləl-Quranil-Kərim**; **Səhih-Buxari**; **əl-İtqan**, növ:18; **əl-Burhan**, növ: 13; **ət-Təmhid fi Ulumil-Quran**, c.1; **Mənahilul-irfan**, c.1; **Tarixul-Quran**, Əbu Abdullah Zəncani; **Tarix-e Quran**, Dr. Mahmud Ramyar və Dr. Seyid Məhəmmədbaqir Huccəti.

# Birinci fəsil

## Həzrət Peyğəmbərin (s) dövründə Qurani-Kərimin yazılması və yığılması

Quranın kitabəti (yazılması) və cəm edilməsi (yığılması), Quran elmlərinin mühüm mövzularından biridir.

Tarix şahidlik edir ki, ilahi vəhy camaat tərəfindən vəsfə sığmayacaq bir şövq və istəklə qarşılandı. Müsəlmanlar ciddi-cəhdlə Quranı əzbərləmiş və yazmışdırlar.

## Quranın əzbərlənmə mərhələsi

İlk əvvəl, Həzrət Peyğəmbər (s) və onun səhabələri Quranı əzbərləyir, yaddaşlarına həkk edirdlər. Güclü yaddaş ərəb xalqına verilən bir Allah neməti idi. Bir çox məhrumiyyətlərinə baxmayaraq, ərəblər güclü hafizə və yaddaşda dövrün dahiləri idilər. Onlar uzun qəsidələri asanlıqla əzbərləyir, şeir divanlarını yadda saxlaya bilirdilər. Cahiliyyət dövrünün ərəbi bəzən bircə dəfə eşitdiyini həmişəlik yadda saxlayırdı.

Quran, fərqli bir məzmunu - qəlbin dərinliklərinə nüfuz edən ən gözəl kəlam və xəbəri - fərqli bir üslubda bu camaata təqdim etdi. Məkkədə nazil olan ilk ayə və surələr demək olar ki, qafiyələnirdi. Ayə və surələrin ürəkoxşayan ahəngi onları qeyri-ixtiyari özünə cəlb edirdi.

Həzrət Rəsulallah (s) öz səhabələrini ayə və surələri əzbərləməyə təşviq edirdi. İslamın zühur etdiyi dövrdə Məkkə şəhərində çox az sayda adam yazı yazmağı bacarırdı, həmçinin yazı vasitələri də az tapılırdı. Elə bu səbəbdən, müsəlman ərəblər öz güclü yaddaşlarını ən müqəddəs yolda sərf edib, Quranın nurani ayələrini yaddaşlarına yazırdılar.

## Quranın kitabət (yazılma) mərhələsi

Həzrət Peyğəmbər (s) həyatda ikən Qurani-Kərimin yazılmasının zəruriliyi olduqca aydın idi. Çünki Quranın təkcə əzbərlənməsi və yaddaşda saxlanması, onun qorunub qalacağına zəmanət verə bilməzdi.

Quranın nazil olduğu dövrdə Məkkədə oxuyub yaza bilənlərin sayı çox az idi. Deyilənlərə görə, o dövrdə Məkkədə cəmi on yeddi nəfər savadlı və yazı yazmağı bacaran şəxs var idi. Lakin Qurana verdiyi böyük əhəmiyyətə görə Həzrət

Peyğəmbər (s) yazı yazmağı bacaranları vəhyi yazmaq işinə cəlb etdi. Beləliklə, hər zaman Quran ayələri nazil olduqda, Həzrət Peyğəmbər (s) onları çağırtdırıb vəhyi diqqətlə yazmağı onlara göstəriş verirdi. Vəhyi yazanlar "vəhy katibləri" adlanırdılar.

## *Vəhy katibləri*

Vəhy katiblərinin sayı barədə fikirayrılığı vardır. Hafiz ibn Əsakir (vəfat tarixi: h.q. 571-ci il) "Dəməşqin tarixi" adlı əsərində 23 nəfərin adını, Əbu Şamə isə bu əsərin təlxisində 25 nəfərin adını çəkmişdir. Şibr Əmləsi (v.t: h.q. 1087-ci il) qırx nəfərin adını qeyd etmiş, halbuki, ondan əvvəl yaşayan Hafiz Əraqi (v.t: h.q. 806-ci il) 42 nəfərin adını nəzmə çəkmişdir. Burhan Hələbi "Şəfa" əsərinə yazdığı haşiyədə 43 nəfərin adını sadalamış, Müctəhid Zəncani də bu ədədi nəql etmişdir.

Qərbli şərqşünas fransalı Blaşr deyir: "Vəhy katiblərinin sayı qırx nəfərə çatırdı."

Hədis və tarix mənbələrinə istinadən, katiblərin adını aşağıdakı ardıcıllıqla - səhabələrin İslam dinini qəbul etmə tarixlərini nəzərə alaraq - qeyd edirik:

## *Məkkə dövrünün katibləri:*

Xüləfayi-raşidin (Əbu Bəkr ibn Qəhafə, Ömər ibn Xəttab, Osman ibn Əffan və Əli ibn Əbu Talib), Şurəhbil ibn Həsənə (v.t. 18 h.q.), Abdullah ibn Sə`d ibn Əbi Sərh (v.t: h.q. 37-ci il), Xalid ibn Səid ibn As ibn Uməyyə, Təlhə, Zubeyr (v.t: h.q. 36-cı il), Sə`d ibn Əbi Vəqqas (v.t: h.q. 55-ci il), Amir ibn Fuheyrə (v.t: h.q. 4-cü il), Əla ibn Həzrəmi (v.t: h.q. 21-ci il), Muəyqib ibn Əbi Fatimə (v.t: h.q. 40-cı il), Ərqəm ibn Əbil-Ərqəm (v.t: h.q. 11-ci il), Hatib ibn Əmr, Hatib ibn Əbi Bəltə`ə (v.t: h.q. 30-cu il), Mus`əb ibn Umeyr, Abdullah ibn Cəhş, Cəhm ibn Qeys, Salim Mövla Əbi Huzeyfə (v.t: h.q. 12-ci il).

## *Mədinə dövrünün katibləri:*

İlk əvvəl daha çox Ubəyy ibn Kə`b katiblik edirdi. Sonra Bədr döyüşünün əsirlərindən yazı xəttini mükəmməl öyrənən Zeyd ibn Sabit daha çox Həzrət Peyğəmbərin (s) kənarında olur, katiblik edirdi. Sonralar katiblər sırasına aşağıdakı şəxslər də daxil oldu:

Abdullah ibn Rəvahə (v.t: h.q. 8-ci il), Sabit ibn Qeys (v.t: h.q. 12-ci il), Hənzələ ibn Rəbi (v.t: h.q. 45-ci il), Huzeyfə ibn Yəman (v.t: h.q. 36-cı il), Əla ibn Uqbə, Cuheym ibn Səlt, Abdullah ibn Zeyd (v.t: h.q. 63-cü il), Məhəmməd ibn Muslim (v.t: h.q. 43-cü il), Hənzələ ibn Əbi Amir (v.t: h.q. 3-cü il), Abdullah ibn Abdullah ibn Ubəyy ibn Səlul, Əbu Zeyd Qeys ibn Səkən, Uqbə ibn Amir (v.t: h.q. 58-ci

il), Məaz ibn Cəbəl, Əbu Əyyub Ənsari (v.t: h.q. 52-ci il), Muğeyrə ibn Şu`bə (v.t: h.q. 50-ci il), Əbu Sufyan və onun iki oğlu Yezid və Muaviyə, Abdullah ibn Ərqəm (v.t: h.q. 44-cü il), Huvəytib ibn Əbdul-Uzza (v.t: h.q. 54-cü il). Hicrətin 8-ci ilindən bu sıraya qoşulan 3 nəfərin də adını qeyd etmişlər ki, beləliklə, 43 nəfər vəhyin yazılması işində iştirak etmişlər.[1]

Əbu Abdullah Zəncani 43 nəfər vəhy katibinin adını çəkdikdən sonra deyir:

Hamıdan çox vəhyi yazan və hamıdan çox Həzrət Peyğəmbərin (s) kənarında olan səhabə Zeyd ibn Sabit və Əli ibn Əbu Talib idi.[2]

Demək olar ki, təxminən bütün müəlliflər Əli ibn Əbu Talibin (ə) ilk vəhy katiblərindən olduğunu və davamlı olaraq vəhy yazdığını vurğulamışlar.[3]

Qeyd etmək lazımdır ki, vəhy katiblərindən başqa Həzrət Peyğəmbər (s) üçün müqavilələri, sülhnamələri, məktubları yazan katiblər də olmuşdur. Bu fərdlərin adının vəhy katibləri sırasında qeyd edildiyi uzaq ehtimal deyildir. Yə`qubi öz tarixində yazır:

Həzrət Peyğəmbərin (s) yanında vəhyi, məktubları, müqavilələri yazan katiblər olmuşdur. Bu katiblər: Əli ibn Əbu Talib (ə), Osman ibn Əffan, Əmr ibn As ibn Uməyyə, Muaviyə ibn Əbu Sufyan, Şurəhbil ibn Həsənə, Abdullah ibn Sə`d ibn Əbi Sərh, Muğeyrə ibn Şu`bə, Məaz ibn Cəbəl, Zeyd ibn Sabit, Hənzələ ibn Rəbi, Ubəyy ibn Kə`b, Cuheym ibn Səlt, Həsin ibn Numeyrdir.[4]

Qeyd olunub ki, Muaviyə ibn Əbu Sufyan məktubları və müqavilələri yazarmış.[5]

İbn Şəhr Aşub "Mənaqib" adlı əsərində vəhy katibləri barədə yazır:

Əli ibn Əbu Talib (ə) daha çox vəhyi yazardı və vəhydən qeyri mətnləri də yazmışdır. Ubəyy ibn Kə`b və Zeyd ibn Sabit vəhyi yazardılar. Zeyd ibn Ərqəm və Abdullah ibn Ərqəm şahlara göndərilən məktubları yazardı. Əla ibn Uqbə və Abdullah ibn Ərqəm qəbalatı yazardılar. Zubeyr ibn Əvam və Cuheym ibn Səlt sədəqatı (bəxşişlər???) yazardı. Osman ibn Əffan, Xalid və Əban (Səid ibn Asın iki oğlu), Muğeyrə ibn Şu`bə, Həsin ibn Numeyr, Əla ibn Həzrəmi, Şurəhbil ibn Həsənə, Hənzələ ibn Rəbi Əsədi və Abdullah ibn Sə`d ibn Əbi Sərh – belə ki, kitabətdə xəyanət etdiyi üçün Rəsulullah (s) onu lənətlədi və o, mürtəd oldu – Peyğəmbər (s) üçün katiblik edirdilər.[6]

İbn Əbil-Hədid yazır:

Quran tarixinin tədqiqatçıları bu qənaətdədirlər ki, vəhyi Əli ibn Əbu Talib (ə), Zeyd ibn Sabit və Zeyd ibn Ərqəm yazmışdır. Hənzələ ibn Rəbi və Muaviyə

---

1 Dr. Ramyar, "Tarix-e Quran", səh.262-264.
2 Əbu Abdullah Zəncani, "Tarixul-Quran", səh. 42.
3 Dr. Ramyar, "Tarix-e Quran", s.266.
4 Yə`qubinin tarixi, c.2, s.80.
5 Dr. Ramyar, "Tarix-e Quran", s. 267.
6 Mədxəlut-təfsir, s.240.

ibn Əbu Sufyan Həzrət Peyğəmbər (s) üçün şahlara, qəbilə başçılarına göndərilən məktubları və s. yazmışlar.[1]

Beləliklə, məlum olur ki, vəhy katibləri sırasında adı çəkilən səhabələrdən yalnız bir neçəsi barədə fikirbirliyi vardır. Vəhy katibləri sırasında adları çəkilən şəxslərin əksəriyyəti, əslində, qeyri-vəhyi yazmışlar.

Rafei, vəhyi kimlərin yazdığı barədə fikirayrılığının olduğunu qeyd etdikdən sonra yazır:

Beş nəfərin - Əli ibn Əbu Talib (ə), Məaz ibn Cəbəl, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit və Abdullah ibn Məs`udun vəhy katibi olduqları barədə fikirbirliyi vardır.[2]

## Yazı vasitələri

Quranın nazil olduğu dövrdə yazı vasitələri olduqca sadə idi. Müsəlmanlar üzərində yazı yazmaq mümkün olan hər bir vasitədən istifadə edirdilər. Quranın yazılması və yığılması barədə olan hədislərin çoxunda bu yazı vasitələrinin adları qeyd olunmuşdur. Belə ki, quranşünasların hamısı aşağıdakı yazı vasitələrindən istifadə edildiyini qəbul edirlər:

**1. عُسُب** (usub) – "عَسِيب" sözünün cəm formasıdır: xurma ağacının budağına deyilir və budağın yarpaqlarını qırıb enli yerində yazı yazırdılar.

**2. لِخاف** (lixaf) – "لَخفة" sözünün cəm formasıdır: xırda daşlara və nazik daş lövhələrə deyilir.

**3. رِقاع** (riqa) – "رَقعة" sözünün cəm formasıdır: kağızdan, ağacdan və ya nazik dəridən olan vərəqlərə deyilir.

**4. اَديم** (ədim) – "اَدَم" və ya "اُدْم" sözünün cəm formasıdır: aşılanmış heyvan dərisinə deyilir.

**5. اَكْتاف** (əktaf) - "كَتِف" sözünün cəm formasıdır: dəvənin və ya qoyunun sümüyünə deyilir.

**6. اقْتاب** (əqtab) - "قُتُب" sözünün cəm formasıdır: oturmaq üçün dəvənin belinə qoyulan taxta parçasına deyilir.

**7. اضْلاع** (əzla) – "ضِلْع" sözünün cəm formasıdır: heyvanın qabırğasının üstü hamar sümüklərinə deyilir.

**8. حَرير** (hərir) – ipək parça deməkdir**.**

**9. قَراطيس** (qəratis) – "قِرْطَاس" sözünün cəm formasıdır: kağız deməkdir.

**10. شِظاظ** (şizaz) – bir taxta növüdür.[3]

Dr. Ramyar yazır:

---

[1] Mədxəlut-təfsir, s.241.

[2] İ`cazul-Quran, s.32.

[3] Biharul-ənvar, c.89, s.40.

Ərəblər kağızı qədimdən tanıyırdılar. O zamanlar kağız Hindistanda hazırlanır və oradan Yəmənə gətirilirdi. Yay və qış ticarət karvanları vasitəsilə də Yəməndən Şama, oradan da Romaya aparılırdı. Ərəbistan o dövrdə cənub və şimal arasında ticarət vasitəçisi idi.[1]

## Quran ayələrinin yazılması

**A) Ayələrin "nüzul ardıcıllığı" ilə yazılması:**

Qeyd etdik ki, Quran ayələri nazil olduqda, Həzrət Peyğəmbər (s) vəhy katiblərini çağırtdırıb vəhyi diqqətlə yazmağı onlara göstəriş verirdi.

Vəhy katibləri "Bismillə̃hir raḥmə̃nir raḥĩm" ilə başlanan hər surənin ayələrini "nüzul ardıcıllığı" ilə Həzrət Peyğəmbərin (s) göstərişi əsasında yazırdılar. Ayələri nüzul ardıcıllığı ilə yazmaq onlara tapşırıq verilmişdi. Həqiqətdə, nazil olan ayələr Həzrət Peyğəmbərin (s) nəzarəti altında müəyyən ardıcıllıqla yerləşdirilirdi və vəhy katiblərinin heç biri öz şəxsi nəzəri ilə bu işə müdaxilə edə bilməzdi.

Nazil olan ayələr bir-birinin ardınca sıralanaraq bir "Quran surəsi"ni əmələ gətirirdi. Quranın: "Əgər bacarırsınızsa, bu surələrə oxşar bir neçə surə və hətta bir surə gətirin!" – deyə mübarizəyə çağırışında da, elə bu "surə"lər nəzərdə tutulurdu.

"Bismillə̃hir raḥmə̃nir raḥĩm" ayəsi nazil olduqda, Həzrət Peyğəmbər (s) və nazil olan ayələri "nüzul ardıcıllığı" ilə yazan vəhy katibləri başa düşürdülər ki, əvvəlki surə tamamlanmış və yeni surə nazil olmağa başlamışdır. Hədislərin birində İmam Sadiq (ə) buyurur:

كَانَ يُعْرَفُ اِنْقِضَاءُ سُورَةٍ بِنُزُولِ بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ اِبْتِدَاءً لِأُخْرَى.

"Bir surənin tamamlanması, sonrakı surənin başlanğıcında "Bismillə̃hir raḥmə̃nir raḥĩm"in nazil olması ilə məlum olurdu."[2]

İbn Abbas deyib:

""Bismillə̃hir raḥmə̃nir raḥĩm" nazil olduqda, Həzrət Peyğəmbər (s) başa düşürdü ki, əvvəlki surə tamamlanmış və yeni surə nazil olmağa başlamışdır."[3]

Beləliklə, Quran ayələri "təbii ardıcıllığı", yəni "nüzul ardıcıllığı" ilə surələrdə yer alırdı: "məkki" ayələr "məkki" surələrdə və "mədəni" ayələr "mədəni" surələrdə qərar tuturdu. Əlbəttə, bəzən ayələri hissə-hissə nazil olan bir surənin tamamlanması bir müddət çəkirdi.

[1] Tarix-e Quran, s.277.

[2] ət-Təmhid, c.1, s. 212.

[3] Əvvəlki qaynaq, həmçinin "əl-Mizan", c.12, s. 127-128.

* * *

**B) Bəzi ayələrin Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "nüzul ardıcıllığı"na riayət edilmədən yazılması[1]:**

Tarixi mənbələrə istinadən, bəzən bir və ya bir neçə ayə nazil olurdu və Həzrət Peyğəmbər (s) vəhy katiblərinə göstəriş verirdi ki, həmin ayə və ya ayələri öncədən nazil olmuş və tamamlanmış bir surənin tərkibində xüsusi yerdə yerləşdirsinlər. Ayə və ya ayələrin bu qaydada yerləşdirilməsi, yalnız və yalnız Həzrət Peyğəmbərin (s) göstərişi ilə həyata keçə bilərdi. Şübhəsiz ki, bu işdə bir hikmət və məsləhət var idi.

İbn Abbas deyir:

Bir müddət Həzrət Peyğəmbərə (s) bir neçə surə nazil olurdu. Bəzən o həzrətə müəyyən ayələr nazil olurdu və o həzrət səhabələri çağırtdırıb onlara buyururdu: "Bu ayələri filan xüsusiyyəti olan surədə yerləşdirin."[2]

Başqa bir hədisdə İbn Abbas deyir ki, nazil olan sonuncu ayə bu idi:

وَ اتَّقُوا يَوْمًا تُرْجَعُونَ فِيهِ إِلَى اللهِ ...

Cəbrail Əminullah Həzrət Peyğəmbərə (s) xəbər gətirdi ki, bu ayəni "Bəqərə" surəsinin 280-ci ayəsi qərar versin.[3]

Əlbəttə, qeyd etmək lazımdır ki, Quran ayələri çox az halda bu qaydada yerləşdirilmişdir, nazil olan ayələr əsasən "nüzul adrıcıllığı" ilə sıralanmışdır.

Burada bu ayələrdən daha bir nümunəni nəzərinizə çatdırırıq:

Osman ibn Əbil-As deyir: Mən Həzrət Peyğəmbərin (s) yanında əyləşmişdim və bu vaxt Cəbrail ona nazil oldu. Həzrət Peyğəmbər (s) belə buyurdu: "Cəbrail mənə əmr etdi ki, bu ayəni:

إِنَّ اللهَ يَأْمُرُ بالْعَدْلِ وَ الْإِحْسَانِ وَ إِيتَاءِ ذِى الْقُرْبَىٰ...

Nəhl surəsinin bu yerində yerləşdirim."

Həmin ayə[4] "Nəhl" surəsində "istişhad"[5] və "əhd"[6] ayələrinin arasında yerləşdirildi.[7]

* * *

---

[1] Qarşınızdakı kitabın birinci hissəsində "Quranın adları və vəsfləri" başlığı altında olan ikinci fəsildə qeyd etdik ki, Quranın vəsflərindən biri "mutəşabih"dir. Yəni Quran elə bir kitabdır ki, onun ayələri bir-birinə bənzər, bir-birinə uyğundur. Quranın bu vəsfi, onun ayələrinin "nüzul ardıcıllığı" ilə deyil, başqa bir qaydada yazılması və yerləşdirilməsinə aydınlıq gətirə bilər.

[2] əl-Burhan, c.1, s. 334; əl-İtqan, c.1, s.190, növ: 18.

[3] Məcməul-bəyan, c.2, s.394.

[4] Yəni "Nəhl" surəsinin 90-cı ayəsi.

[5] Şahid gətirmə.

[6] Bağlanılan əhd-peyman, verilən söz.

[7] əl-Mizan, c.12, s.127; əl-İtqan, c.1, s.190.

**C) Ayələrin səhabələrin şəxsi nəzəri ilə "nüzul ardıcıllığı"na riayət edilmədən yazılması:**

Qurani-Kərimin bəzi surələrində ayələrin ardıcıllığı "nüzul ardıcıllığı" ilə deyildir və bu ardıcıllığın da Həzrət Peyğəmbərin (s) göstərişi əsasında olduğuna dair əldə heç bir sənəd-sübut yoxdur.

Əllamə Məclisi "Biharul-ənvar"da "Mumtəhinə" surəsinin belə surələrdən olduğunu qeyd edir. Bu surənin ilk 9 ayəsi hicrətin 8-ci ilində Hatib ibn Əbi Bəltə`ənin barəsində nazil olub.[1] Bu ayələrin ardınca gələn iki ayə (10-11-ci ayələr) Hudeybiyyə sülhündən sonra hicrətin 6-cı ilində müşriklərin əlindən fərar edən Səbi`ə Əsləmiyyə və ya Kulsum binti Uqbə adlı bir qadın barəsində nazil olub.[2] Bu surənin 12-ci ayəsi isə hicrətin 9-cu ilində qadınların Həzrət Peyğəmbərlə (s) beyəti barəsində nazil olub. Surənin sonuncu ayəsi isə məzmun baxımından surənin ilk ayələrinə uyğun gəlir.[3]

## Surələrdə ayələrin ardıcıllığı "toqifi"dir, yoxsa "ictihadi"?

Quran ayələrinin yazılma qaydası barədə yuxarıda qeyd olunan mətləblərdən sonra, iki mühüm sual cavablandırılmalıdır:

**1- Bütün surələrdə ayələrin ardıcıllığı "toqifi"dir, yəni Həzrət Peyğəmbərin (s) göstərişi əsasındadır? Yoxsa "ictihadi"dir, yəni bu işə katiblərin də nəzərinin müdaxiləsi olmuşdur?**

**2- Quran surələrinin ardıcıllığı "toqifi"dir, yoxsa "ictihadi"dir?[4]**

---

[1] Hatib ibn Əbi Bəltə`ə İslam dinini qəbul edib Mədinəyə mühacirət etdi, lakin zövcəsi Məkkədə qaldı. Bu ərəfədə Qüreyş Həzrət Peyğəmbərin (s) onlara qarşı müharibəyə qalxacağından qorxurdular. Onlar Hatibin zövcəsinə müraciət etdilər ki, Hatibə yazdığı məktubunda ondan bu barədə soruşsun. Hatib zövcəsinə yazdığı cavab məktubunda bildirdi ki, Peyğəmbər (s) müharibəyə hazırlaşır. Hatib məktubu Səfiyyə adlı bir qadına verdi və bu qadın məktubu saçları arasında gizlədib Məkkəyə yola düşdü. Cəbrail nazil olub Peyğəmbəri (s) məsələdən xəbərdar etdi. Həzrət Peyğəmbər (s) Əli ibn Əbu Talibi (ə) və Zubeyr ibn Əvamı o qadını təftiş üçün yolladı. Onlar qadını yaxaladıqda Əli (ə) ona dedi: "Məktub haradadır?" Qadın deyilənləri dandı. Onlar qadının əşyalarında axtarış apardılar, lakin məktubu tapmadılar. Zubeyr dedi: "Biz heç nə tapmadıq." Əli (ə) dedi: "And olsun Allaha, Peyğəmbər (s) bizə yalan deməz." Sonra o, üzünü qadına tutub dedi: "And olsun Allaha, ya məktubu verirsən, ya da ki, başını Peyğəmbərə (s) aparacağam." Qadın bu sözlərdən sonra məktubu verdi. Peyğəmbər (s) Hatibə dedi: "Tutduğun bu iş nədir?" Hatib and içib bildirdi ki, o münafiqlik etməyib, sadəcə Qüreyş onun zövcəsi ilə mülayim davrandığına görə onlara bir yaxşılıq etmək istəyib. Bu vaxt Mütəal Allah həmin ayələri Peyğəmbərə (s) nazil etdi. ("əl-Mizan", c.29, s.235.)

[2] Səbi`ə Əsləmiyyə İslam dinini qəbul edən mühacir bir qadın idi. O, kafir ərinin əlindən Mədinəyə Həzrət Peyğəmbərin (s) yanına qaçır. Əri onun arxasınca Mədinəyə Peyğəmbərin (s) yanına gəlir. Bu vaxtlar artıq Peyğəmbərlə (s) Məkkə müşrikləri arasında Hudeybiyyə sülhü bağlanmışdı. Sülhnamənin şərtlərinə görə, Məkkədən Peyğəmbərə (s) pənah gətirən hər bir şəxs geri qaytarılmalı idi. Bu vaxt həmin iki ayə nazil oldu.

[3] Biharul-ənvar, c.89, s.67-70; ət-Təmhid, c.1, s.214.

[4] Bu sual kitabın bu hissəsinin dördüncü fəslində cavablandırılacaq.

Yuxarıda **“Quran ayələrinin yazılması”** başlığı altında qeyd edilən **“A”** və **“B”** bəndlərindən əldə edilir ki, surələrdə ayələrin ardıcıllığı “toqifi”dir, yəni Həzrət Peyğəmbərin (s) göstərişi əsasındadır. Lakin **“C”** bəndi əvvəlki iki bəndin əksini sübut edir.

Görəsən, “Mumtəhinə” surəsi kimi surələrdə ayələrin mövcud ardıcıllığı necə izah oluna bilər?

Görəsən, bütün surələrdə ayələrin ardıcıllığı “toqifi”dirmi? Yaxud, əksər surələrdə ayələrin ardıcıllığı “toqifi”, az sayda surələrdə isə “ictihadi”dir? Yaxud da surələrin bir qismində ayələrin ardıcıllığı “toqifi”, digər bir qismində “ictihadi”dir?

Bu sualları cavablandırmaq ona görə əhəmiyyətlidir ki, Quranın yazılma və yığılma qaydası barədə təsəvvürün yaranmasında böyük rol oynayır.

Təfsirçilərin və Quran tədqiqatçılarının əksəriyyəti Quranın (bütün surələrdə ayələrin ardıcıllığının) “toqifi” olduğunu təsdiqləyiblər.

Cəlaləddin Siyuti deyir: “İcma və saysız “nusus” ayələrin ardıcıllığının “toqifi” olduğuna dəlalət edir və bu məsələdə heç bir şübhə yoxdur.”[1]

O, bu zəmində bir neçə hədisə[2] istinad edərək deyir:

Ayələrin ardıcıllığının “toqifi” olduğuna icmalən dəlalət edən nususdan biri, Həzrət Peyğəmbərin (s) müxtəlif zamanlarda və məkanlarda müxtəlif Quran surələrini qiraət etdiyini bəyan edən hədislərdir. Məsələn, “Səhih-Buxari”də qeyd olunub ki, Həzrət Peyğəmbər (s) məğrib namazında “Ə`raf” surəsini qiraət edərdi. Yaxud **“هَلْ أتىٰ عَلَى الْإنْسانِ...”**[3] və **“الم تَنْزِيل”**[4] surələrini cümə günü sübh namazında qiraət edərdi...[5]

Qazi Əbu Bəkr Baqilani “İntisar” adlı əsərində yazır: “Ayələrin ardıcıllığı vacib bir göstəriş idi. Cəbrail deyirdi: “Filan ayəni filan yerdə yerləşdir.”

Qazi Əbu Bəkr Baqilani həmçinin bu əqidədədir ki, ümmət hər surədə ayələrin ardıcıllığını və yerini Həzrət Peyğəmbərin (s) buyurduğu qaydada qeydə alıbdır, necə ki, qiraətləri o həzrətdən təlim almışdır.

Məkki və başqaları deyir: “Surələrdə ayələrin ardıcıllığı Həzrət Peyğəmbərin (s) göstərişi ilə olmuşdur və o həzrət “Bəraət” surəsində “Bismillə̃hir raḥmə̃nir raḥim”in yazılmasını göstəriş vermədiyi üçün bu surə “Bismillah”sız yazıldı.”[6]

İbn Həssar bu əqidədədir ki, ayələrin yerləşdirilməsi yalnız və yalnız vəhy ilə həyata keçmişdir. Həzrət Peyğəmbər (s) şəxsən buyururdu ki, filan ayəni filan surədə yerləşdirin. Mütəvatir hədislərdə Həzrət Peyğəmbərin (s) bu mövcud ardıcıllıqla tilavət etdiyi bəyan edildiyindən, bu məsələ barədə yəqinlik yaranmışdır.[7]

---

[1] əl-İtqan, c.1, s.189, növ: 18.

[2] Bu hədislərdən ikisi “Quranın yazılma qaydası” başlığı altında yer alan “B” bəndində qeyd olunub.

[3] İnsan surəsi.

[4] Səcdə surəsi.

[5] əl-İtqan, c.1, s.191-192.

[6] əl-İtqan, c.1, s.193.

[7] əl-İtqan, c.1, s.194.

Beyhəqi də İbn Həssarla eyni əqidədədir.[1]

Zərkeşi bu zəmində başqa bir dəlil gətirir:

Səhabələr Quranı Peyğəmbərdən (s) eşitdikləri kimi yazdılar: heç bir ayənin yerini dəyişmədən, ayəni öz yerindən qabağa və sonraya keçirmədən. Səhabələrin Quranı cəm etmələri başqa bir iş idi, Qurana yeni bir tərtibat vermək deyildi. Çünki Quran "Lövhi-məhfuz"da hal-hazırkı mushəflərdə mövcud olan tərtibatla yazılmışdı. Allah bir mərhələdə onu bütövlükdə dünya səmasına nazil etdi. (Quranın ramazan ayında və Qədr gecəsində nazil olduğunu bəyan edən ayələri nəzərə alaraq.) Sonra hissə-hissə və tədricən Peyğəmbərə (s) nazil edildi.[2]

Zərkeşi, Əbul-Huseyn ibn Farisdən (Əhməd ibn Faris ibn Zəkəriyya) nəql edir ki, surələrdə ayələrin ardıcıllığı və sıralanması "toqifi"dir və bu iş Həzrət Peyğəmbərin (s) nəzarəti altında olmuşdur.[3]

**Amma görəsən bu, həqiqətən də belədirmi? Görəsən Quranın bütün surələrində bütün ayələrin ardıcıllığı "toqifi"dirmi?**

Əgər belədirsə, onda bütün "məkki" ayələr "məkki" surələrdə və bütün "mədəni" ayələr "mədəni" surələrdə yerləşməlidir. Halbuki, bu nəzərin iddiaçıları olan Siyuti, Zərkeşi və başqaları öz əsərlərində "müstəsna ayələr"dən (yəni "məkki" ayələrin "mədəni" surələrdə, yaxud əksinə, "mədəni" ayələrin "məkki" surələrdə yerləşdiyindən) geniş bəhs etmiş, "müstəsna ayələrin" nümunələrini sadalamışlar. Əgər deyilsə ki, bəzən Həzrət Peyğəmbərin (s) özü bu ardıcıllığı pozmuşdur və bunun özü də "toqifi" deməkdir, cavab budur: əvvəldə qeyd etdiyimiz kimi, tarix və hədis qaynaqlarına istinadən, Həzrət Peyğəmbərin (s) belə göstərişi – yəni yeni nazil olan ayənin öncədən nazil olmuş və nüzulu tamamlanmış bir surənin tərkibində yerləşdirilməsinə dair verdiyi göstəriş - yalnız bir neçə nümunəyə şamil olur. Bütün surələrdə bütün ayələrin ardıcılığının "toqifi" olduğunu söyləyənlərin əksəriyyəti, bu nümunələrə istinad etmişlər. Onlar bütün ayələr üçün Osman ibn Əbil-Asın və ya İbn Abbasın nəql etdikləri bir hədis əsasında "ümumi hökm" çıxarmışlar, halbuki, Osman ibn Əbil-Asın və ya İbn Abbasın hədisi yalnız "bir ayə"nin yerinin təyin edilməsi barədədir.

Bütün ayələrin ardıcıllığının "toqifi" olduğuna dair Cəlaləddin Siyutinin gətirdiyi dəlil də tam deyildir. O, bu məsələyə Həzrət Peyğəmbərin (s) müxtəlif zaman və məkanlarda müxtəlif Quran surələrini qiraət etdiyini dəlil gətirir, halbuki:

***birincisi:*** Bu, bütün surələrə şamil olmur;

***ikincisi:*** Burada surənin qiraətindən deyil, surədə ayələrin ardıcıllığından və yığılmasından söz gedir. Quran həm Həzrət Peyğəmbər (s) həyatda ikən, həm də o

[1] əl-İtqan, c.1, s.195.

[2] əl-Burhan, c.1, s.331.

[3] Əvvəlki qaynaq.

həzrətin vəfatından sonra cəm edilmiş, yığılmışdır. Odur ki, Həzrət Peyğəmbərin (s) qiraəti, surələrdə (eyni bir surədə) ayələrin yerinin başqaları tərəfindən dəyişdirilmədiyini, öz yerindən qabağa və sonraya keçirilmədiyini inkar etmir.

Zərkeşinin gətirdiyi dəlil də təəccüblüdür. Çünki şiə və sünni qaynaqlarında Quranın "Lövhi-məhfuz"dan dördüncü səmaya və ya dünya səmasına nazil edildiyini bəyan edən hədislər, Quranın "Lövhi-məhfuz"da hal-hazırkı mushəflərdə mövcud olan tərtibatla yazıldığına əsla dəlalət etmir. Bu hədislər, əsas etibarilə, "kitab" (mushəf) anlayışından daha yüksək bir mənanı bəyan etməkdədir.

Həqiqət budur ki, (hal-hazırkı mushəflərdə) bütün surələrdə bütün ayələrin ardıcıllığının "toqifi" olduğunu, yəni Həzrət Peyğəmbərin (s) göstəriş verdiyi və yazdırdığı kimi olduğunu söyləyən nəzəriyyəni müdafiə etmək olmur. (Buna görə də, ya əksər surələrdə, ya da surələrin bir qismində ayələrin ardıcıllığının Həzrət Peyğəmbərin (s) göstərişi əsasında olduğu, qalan surələrdə isə səhabələrin öz şəxsi nəzərləri ilə bu işə müdaxilə etdikləri qəbul ediləcəkdir.)

"ət-Təmhid" əsərinin müəllifi bu əqidədədir ki, Qurani-Kərimin az sayda surələrində ayələrin sıralanması "nüzul ardıcıllığı" ilə deyildir və bu ardıcıllığın da Həzrət Peyğəmbərin (s) göstərişi ilə olduğuna dair əldə heç bir dəlil-sübut yoxdur. Odur ki, bu surələrdə ayələrin ardıcıllığının "toqifi" olmadığına hökm vermək məcburiyyətində qalırıq.[1]

Əllamə Təbatəbai **əksər surələrdə** ayələrin ardıcıllığının "toqifi" olduğunu qəbul etsə də, lakin o, bu əqidədədir ki, sayı elə də az olmayan **bir sıra surələrdə bəzi ayələrin ardıcıllığı** səhabələrin nəzəri əsasındadır. Əllamə Təbatəbainin nəzərincə, pərakəndə nazil olan bəzi ayələrin mövcud mushəfdə hal-hazırkı yerdə qərar tutması səhabələrin müdaxiləsindən kənarda qalmayıb və bu məsələ "Quranın birinci dəfə cəm edilməsi" (birinci xəlifənin dövründə) barədə olan hədislərin zahirindən (mətnindən) əldə olunur.

Əllamə Təbatəbai surələrdə ayələrin sıralanması barədə şiə və sünni qaynaqlarında olan hədislərə istinad edərək – bu hədislərdə nəql edilir ki, nazil olan ayələri müsəlmanlar "nüzul ardıcıllığı" ilə  yazırdılar və "Bismillə̃h" nazil olduqda başa düşürdülər ki, surə tamamlanmış və yenisi nazil olmağa başlamışdır – bu nəticəyə gəlir: Bu hədislər aydın şəkildə açıqlayır ki, Quran ayələri Həzrət Peyğəmbərin (s) nəzarəti altında "nüzul ardıcıllığı" ilə yazılmışdı: "məkki" ayələr "məkki" surələrdə və "mədəni" ayələr "mədəni" surələrdə qərar tutmuşdu. Əgər biz hal-hazırda ayələrin öz yerində qərar tutmadığını (ayələrin yerinin dəyişdirildiyini) müşahidə ediriksə, bu, səhabələrin öz şəxsi nəzərləri ilə müdaxilələrinə aiddir. Şə`ni-nüzul barədə olan saysız hədislər dəlalət edir ki, hal-hazırda "mədəni" surələrdə yerləşən çoxlu ayələr Məkkədə nazil olmuş və ya Həzrət Peyğəmbərin

---

[1] ət-Təmhid, c.1, s.214.

(s) ömrünün sonlarında nazil olan ayələr hicrətin əvvəllərində nazil olan surələrdə qərar tutmuşdur.[1]

Beləliklə, Əllamə Təbatəbai bu əqidədədir ki, Qurani-Kərim Həzrət Peyğəmbərin (s) vəfatından sonra cəm edilərkən (bir kitab şəklində yığılarkən) bir sıra surələrdə bəzi ayələrin yeri dəyişdirilmişdir, yəni "toqifi" deyildir. Lakin Həzrət Peyğəmbər (s) həyatda olarkən şəxsən özü Quranın kitabət işinə nəzarət etmiş və heç şübhəsiz, belə bir hal baş verməmişdir, yəni ayələrin ardıcıllığı "toqifi" olmuşdur.

## Quran hafizləri və Quranı cəm edənlər

Bu fəslin əvvəlində qeyd etdik ki, Həzrət Peyğəmbər (s) və səhabələr Quranın əzbərlənməsinə və yazılmasına böyük əhəmiyyət vermişlər.

**A) Quran hafizləri:**

Səhabələr arasında Quran hafizləri çox idi. Ühüd döyüşündə, Bi`r-məunə faciəsində[2] və Yəmamə hadisəsində öldürülən Quran hafizlərinin sayı bu sözün doğruluğuna şahidlik edir. Hicrətin 4-cü ilində səfər ayında Bi`r-məunə faciəsi baş verdi və bu faciədə qırx, yaxud yetmiş səhabə şəhid edildi. Həzrət Peyğəmbərin (s) vəfatından bir il keçmişdi ki, Yəmamə hadisəsi[3] baş verdi və bu hadisədə 1000, yaxud 1200 nəfər müsəlman öldürüldü. Öldürülənlərin arasında ən azı yetmiş nəfər səhabə və Quran hafizi var idi.[4]

Dr. Ramyar mühacir və ənsardan, eləcə də, Həzrət Peyğəmbərin (s) zövcələrindən olan Quran hafizlərinin adlarını sadaladıqdan sonra deyir:

Beləliklə, Peyğəmbərin (s) dövründə 37 nəfər Quran hafizinin adı bizə məlumdur. Amma heç şübhəsiz, onlardan qeyri saysız qarilər olmuşdur ki, qiraətləri bizə gəlib çatmamış və unudulmuşdur.[5]

Quran hafizlərinin adlarını sadalamaq və onlar haqqında məlumat vermək bu müxtəsərə sığmadığından onlardan yalnız ən məşhurlarının adlarını çəkirik:

Əli ibn Əbu Talib (ə), Abdullah ibn Məs`ud, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit, Osman ibn Əffan, Məaz ibn Cəbəl, Əbud-Dərda, Əbu Əyyub, Sə`d ibn Ubeyd və Əbu Zeyd.

---

[1] əl-Mizan, c.12, s.127-128.

[2] Ühüd döyüşündən dörd ay sonra Həzrət Peyğəmbər (s) ənsardan olan qırx, başqa bir hədisə görə isə yetmiş nəfər seçilmiş Quran qarisini Bəni-Amir qəbiləsinin başçısının xahişi ilə Quranı təlim etmək üçün onların yanına yolladı. Bu dəstəyə Mənzər ibn Əmr başçılıq edirdi və o, İslam dini zühur etməmişdən öncə yazı yazmağı bacarırdı. Mədinədən Məkkəyə gedən yolun üstündəki dağda yerləşən "Bi`r-məunə" adlı su quyusunun başında kafirlər həmin qari dəstəsinə qəfildən hücum çəkib onların hamısını qətlə yetirdilər. Bu faciədən hədsiz təsirlənən Həzrət Peyğəmbər (s) bir ay sübh namazının qunutunda qatillərin bir-bir adlarını çəkib onlara nifrin yağdırdı. (Dr. Mahmud Ramyar, "Tarix-e Quran", s.230.)

[3] Bu hissənin üçüncü fəslində Yəmamə hadisəsi barədə məlumat veriləcək.

[4] Dr. Mahmud Ramyar, "Tarix-e Quran", s.253; əl-Burhan, c.1, s.336.

[5] Dr. Mahmud Ramyar, "Tarix-e Quran", s.255.

**B) Quranı cəm edənlər:**

Qeyd etdik ki, Həzrət Peyğəmbər (s) üçün vəhyi yazan xüsusi vəhy katibləri var idi. Amma bununla yanaşı, bir çox səhabələr özləri üçün də Quran ayələrini və surələrini yazırdılar.

Qitadə, Ənəs ibn Malikdən soruşur:

مَنْ جَمَعَ الْقُرْءَانَ عَلَى عَهْدِ رَسُولِ اللهِ؟

Rəsulallahın (s) dövründə Quranı kim cəm etdi?

أَرْبَعَةٌ كُلُّهُمْ مِنَ الْاَنْصَارِ: أُبَىّ بن كَعْب، مَعَاذ بن جَبَل، زِيْد بن ثَابِت و أَبو زِيْد.

Onlar dörd nəfər idi və dördü də ənsardan idi: Ubəyy ibn Kə`b, Məaz ibn Cəbəl, Zeyd ibn Sabit və Əbu Zeyd.[1]

Başqa bir hədisdə nəql edilir ki, Həzrət Peyğəmbər (s) vəfat etdikdə yalnız dörd nəfər Quranı cəm etmişdi: Əbud-Dərda, Məaz ibn Cəbəl, Zeyd ibn Sabit və Əbu Zeyd. [2]

Əbu Abdullah Zəncani deyir:

Həzrət Peyğəmbərin (s) sağlığında bəzi səhabələr bütün Quranı cəm etmişdilər. Bəzi səhabələr isə Quranın bir hissəsini cəm etmiş, Peyğəmbərin (s) vəfatından sonra onlar da öz nüsxələrini tamamlamışdılar. Məhəmməd ibn İshaq "əl-Fihrist" adlı əsərində Həzrət Peyğəmbərin (s) dövründə Quranı cəm edənlərin adlarını açıqlayır: Əli ibn Əbu Talib (ə), Sə`d ibn Ubeyd ibn Nu`man ibn Əmr ibn Zeyd, Əbud-Dərda (Uveymir ibn Zeyd), Məaz ibn Cəbəl, Əbu Zeyd ibn Sabit ibn Zeyd ibn Nu`man, Ubəyy ibn Kə`b ibn Qeys, Ubeyd ibn Muaviyə və Zeyd ibn Sabit.[3]

Bəzi tədqiqatçılar bildirmişlər ki, bu hədislərdə işlənən "**جَمَعَ**" (cəm etmək) kəlməsi "**حَفَظَ**" (hifz etmək, əzbərləmək) mənasını bildirir, çünki Quran hafizlərinə "**جُمّاع**" da deyilirdi. Lakin əgər belə bir adlandırma mövcud olubsa da, qeyd edilən bu hədislər xüsusunda doğru deyildir. Çünki qeyd etdiyimiz kimi, Quran qariləri və hafizləri bu hədisdə adları çəkilənlərdən qat-qat çox olmuşdur. Hətta çoxları bu əqidədədir ki, Quranı yazanların sayı hədislərdə qeyd edilən rəqəmdən daha çox olmuşdur. Çünki saysız hədislərdə müsəlmanlar Quranı mushəfdən oxumağa həvəsləndirilir ki, bu da öz növbəsində Həzrət Peyğəmbərin (s) dövründə çoxsayda Quran əlyazmalarının mövcud olduğunu göstərir.[4]

Hakim Nişapuri "Mustədrək"də qeyd edir ki, Quran üç dəfə cəm edilmişdir və Quranın birinci dəfə cəm edilməsi Həzrət Peyğəmbərin (s) dövrünə təsadüf edir.[5]

---

[1] Səhih-Buxari , c.9, s.47; əl-Burhan, c.1, s.334.

[2] Biharul-ənvar, c.89, s.77.

[3] Tarixul-Quran, fəsil: 8, s.46.

[4] Həqaiqun hammətun həuləl-Quranil-Kərim, s.99-100.

[5] əl-Burhan, c.1, s.331; əl-İtqan, c.1, s.181.

Əlbəttə, əldə heç bir sənəd-sübut yoxdur ki, Həzrət Peyğəmbərin (s) dövründə Quranı cəm edənlər surələri də ardıcıllıqla sıralamışlar. Məlum olan budur ki, Həzrət Peyğəmbərin (s) dövründə Quran yazılmış və o həzrətin şəxsən özü bu işə çox ciddi yanaşmışdır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Tarix şahidlik edir ki, Quranın nazil olduğu elə ilk illərdən müsəlmanlar böyük şövq və ciddiyyətlə Quranı əzbərləmiş və yazmışdırlar.

**2.** Bəzi quranşünaslar vəhy katiblərinin sıralarında hətta qırx beş nəfərin adını qeyd etmişlər, lakin bütün tədqiqatçılar tərəfindən qəbul olunan vəhy katibləri bunlardır: Əli ibn Əbu Talib (ə), Məaz ibn Cəbəl, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit və Abdullah ibn Məs`ud.

**3.** Tarix və hədis qaynaqlarında üzərində Quran ayələri yazılan vasitələrin adları qeyd olunub. Həmin yazı vasitələri bunlardır: usub, lixaf, riqa, ədim, əktaf, əqtab, əzla, hərir, qəratis və şizaz.

**4.** Vəhy katibləri Quran ayələrini Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "nüzul ardıcıllığı" ilə yazırdılar. "Bismillə̃h" nazil olduqda surənin tamamlandığı və yeni surənin nazil olmağa başladığı məlum olurdu.

**5.** Bəzən nazil olan bir və ya bir neçə ayə Həzrət Peyğəmbərin (s) göstərişi və ya Cəbrailin gətirdiyi əmr ilə əvvəlki surələrin tərkibində yerləşdirilirdi.

**6.** Surələrdə Quran ayələrinin ardıcıllığı və sıralanması "toqifi"dir. Əlbəttə, bəzi surələrdə bəzi ayələrin ardıcıllığı səhabələrin nəzəri əsasındadır.

**7.** Səhabələrin çoxu Quran hafizi idi, o cümlədən: Əli ibn Əbu Talib (ə), Abdullah ibn Məs`ud, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit, Osman ibn Əffan, Məaz ibn Cəbəl, Əbud-Dərda, Əbu Əyyub, Sə`d ibn Ubeyd, Əbu Zeyd.

**8.** Bəzi səhabələr Həzrət Peyğəmbərin (s) dövründə özləri üçün Quranı kitabət və cəm etmişlər.

# İkinci fəsil

## Həzrət Əli ibn Əbu Talibin (ə) mushəfi

"Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranın cəm edilməsi" mövzusuna Həzrət Əli ibn Əbu Talibin (s) cəm etdiyi mushəfdən danışmaqla başlamaq istərdik.

Həzrət Peyğəmbərə (s) ilk iman gətirənlərdən biri olan, ümumiyyətlə, hər sahədə öncül olan Əli ibn Əbu Talib (ə) vəhy nazil olmağa başlayandan davamlı olaraq Həzrət Peyğəmbər (s) üçün vəhyi kitabət etmiş, o həzrətin xüsusi vəhy katiblərindən olmuşdur. Həzrət Peyğəmbər (s) ömrünün son günlərində ona Quranı cəm etməyi tapşırdı.

Həzrət Peyğəmbərin (s) hörmətli səhabələrindən olan İbn Məs`ud deyib: "Mən Quranın qiraətini Əli ibn Əbu Talib (ə) kimi bilən bir kəs görmədim."[1]

Əbu Bəkr Həzrəmi İmam Sadiqdən (ə) hədis edir ki, Həzrət Peyğəmbər (s) Əliyə (ə) buyurdu:

يَا عَلِيُّ، اَلْقُرْءَانُ خَلْفَ فِرَاشِى فِى الْمُصْحَفِ و الْقَرَاطِيسِ، فَخُذُوهُ و اجْمَعُوهُ وَ لَا تُضَيِّعُوهُ كَمَا ضَيَّعَتِ الْيَهُودُ التَّوْرَاةَ.

"Ey Əli, Quran mənim yatağımın kənarında səhifələrdə, ipək parça və kağız üzərindədir. Quranı cəm edin və yəhudilər Tövratı məhv etdikləri kimi siz də onu məhv etməyin!"[2]

Beləliklə, Həzrət Əli ibn Əbu Talib (ə) Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranı cəm etməyi özünün ən mühüm vəzifəsi hesab edib bu işi yerinə yetirdi.

Qəti nəss və Həzrət Peyğəmbərin (s) təsdiqi ilə Qurani-Məcidi hamıdan yaxşı bilən Əli ibn Əbu Talib (ə) Peyğəmbərin (s) vəfatından sonra evinə çəkilib Qurani-Məcidi nazil olduğu ardıcıllıqla bir mushəfdə cəm etdi. Bu işi altı ay müddətində yerinə yetirdi və yazdığı mushəfi bir dəvənin belinə yükləyib məscidə gətirərək camaata təqdim etdi.[3]

"Qiyamət" surəsinin 16-17-ci ayələrinin:

لَا تُحَرِّكْ بِهِ لِسَانَكَ لِتَعْجَلَ بِهِ. إِنَّ عَلَيْنَا جَمْعَهُ وَ قُرْءَانَهُ.

təfsirində İbn Abbasdan nəql olunur ki, Əli ibn Əbu Talib (ə) Peyğəmbərin (s) vəfatından sonra Quranı altı ay müddətində cəm etdi.[4]

---

[1] Biharul-ənvar, c.89, s. 53.
[2] Biharul-ənvar, c. 89, s. 48; Zəncani, Tarixul-Quran, s. 44.
[3] Quran dər İslam, s.191.
[4] Biharul-ənvar, c. 89, s. 51.

İbn Sirin deyir:

Əli (ə) belə buyurdu: "Peyğəmbər (s) vəfat etdikdən sonra and içdim ki, Quranı cəm etməyənə qədər cümə namazından qeyri vaxtlarda əbamı çiynimə salmayım."[1]

Əbu Rafenin nəql etdiyi hədislərdə qeyd edilir:

Peyğəmbər (s) Əliyə (ə) Quranı cəm etməyi vəsiyyət etdikdən sonra o, Quranı bir örtüyə büküb evinə apardı. Peyğəmbər (s) vəfat etdikdən sonra evində oturub Quranı Allah nazil etdiyi kimi yığdı. Əli (ə) bu işə bələd idi.[2]

Məhəmməd ibn Sirin Əkrəmədən belə nəql edir ki, camaat Əbu Bəkrə beyət etdikdən sonra Əli ibn Əbu Talib (ə) evində oturdu. Əbu Bəkrə xəbər çatdırdılar ki, Əlinin sənə beyət etməyə ikrahı vardır. Əbu Bəkr onu çağırtdırıb dedi: "Mənə beyət etməkdən boyun qaçırmısan?" Əli (ə) dedi: "Xeyr, and olsun Allaha. Gördüm ki, Allahın kitabına əlavələr edilir. Odur ki, Quranı cəm etməyənə qədər namazdan qeyri vaxtlarda əbamı çiynimə salmayacağıma söz verdim." Əbu Bəkr dedi: "Necə də yaxşı bir işdir!"

Məhəmməd ibn Sirin deyir: Mən Əkrəmədən soruşdum ki, başqaları Quranı nazil olduğu ardıcıllıqla yığdılar? O dedi: "Əgər cin və ins bir yerə toplaşıb Quranı Əlinin (ə) yığdığı kimi yığmaq istəsələr, bacarmazlar."[3]

## Həzrət Əlinin (ə) mushəfinin üstünlükləri

Həzrət Əlinin (ə) mushəfinin həm ondan əvvəl mövcud olan, həm də ondan sonra ortaya çıxan mushəflər ilə müqayisədə bir sıra üstünlükləri və özəllikləri olmuşdur. Bu üstünlüklərdən bəziləri aşağıdakılardan ibarətdir:

**1.** Surələr nazil olduğu ardıcıllıqla yığılmışdı:

Siyuti "əl-İtqan"da bu barədə deyir: "Birinci surə "İqrə`", sonra "Muddəssir", sonra "Nun", sonra "Muzzəmmil", sonra "Təbbət yəda", "Təkvir" və ... ardıcıllıqla yığılmışdı."

Şeyx Mufid də "Məsailun sərviyyə" adlı əsərində qeyd edir ki, Əli ibn Əbu Talib (ə) Quranı nazil olduğu ardıcıllıqla yığmışdı; "məkki" surələr "mədəni" surələrdən və "mənsux" ayələr "nasix" ayələrdən qabaq yerləşirdi. Bir sözlə, hər şey öz yerində yerləşdirilmişdi.[4]

**2.** Əli ibn Əbu Talibin (ə) mushəfinin qiraəti eynilə Peyğəmbərin (s) qiraəti kimi idi;

**3.** Bu mushəfdə şə`ni-nuzul, ayələrin nazil olduğu məkan, ayələrin nazil olmasına səbəb olan hadisələr və şəxslər qeyd olunmuşdu;

**4.** Bu mushəfdə ayələrin ümumi tərəfləri açıqlanmışdı ki, bir ayə təkcə xüsusi bir zamana, məkana və ya şəxsə aid edilməsin.[5]

---

[1] əl-İtqan, c.1, s.183.

[2] Biharul-ənvar, c. 89, s.52.

[3] əl-İtqan, c.1, s.183; Zəncani, Tarixul-Quran, s.48; Biharul-ənvar, c.89, s.74.

[4] Biharul-ənvar, c.89, s.74.

[5] ət-Təmhid, c.1, s.228-229.

## Əli ibn Əbu Talibin (s) mushəfinin taleyi

Şiə hədis qaynaqlarında qeyd olunur:

Əli ibn Əbu Talib (ə) cəm etdiyi mushəfi məscidə gətirib oradakı camaata təqdim etdi. Üzünü onlara tutub buyurdu: "Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda elə bir əmanət qoyub gedirəm ki, əgər ondan yapışsanız, heç vaxt azmazsınız: Allahın kitabı və mənim Əhli-beytim." Sonra Əli (ə) camaata buyurdu: "Bu, Allahın kitabıdır və mən də Peyğəmbərin (s) Əhli-beyti." Bu vaxt bir nəfər ayağa qalxıb dedi: "Sənin əlindəki Qurandan bizim də əlimizdə var. Bizim sənin kitabına və Əhlibeytə ehtiyacımız yoxdur." Həzrət Əli (ə) höccəti tamamlayıb (sözünü deyib və bəhanə yeri qoymayıb) cəm etdiyi mushəfi götürdü və geri döndü.[1]

Bəzi alimlər bu əqidədədirlər ki, Həzrət Əlinin (ə) cəm etdiyi mushəf irs kimi bir Məsum İmamdan (ə) digərinə çatmışdır.

Hədislərin birində qeyd edilib ki, Təlhə Həzrət Əlidən (ə) cəm etdiyi mushəfi özündən sonra kimə verəcəyi barədə soruşur. Həzrət Əli (ə) cavab verir: "Mushəfimi Peyğəmbərin (s) buyurduğu şəxsə - övladım Həsənə verəcəyəm. O, məndən sonra mənim canişinimdir. Sonra Həsən onu o biri övladım Hüseynə verəcək. Ondan sonra da həmin mushəf Hüseynin övladlarına isr çatacaq və bir-birinin ardınca onların əlində olacaqdır..."[2]

Bir çox tədqiqatçıların nəzərincə, bəzi muzeylərdə və kitabxanalarda Əli ibn Əbu Talibin (ə) mushəfi və ya mushəfin nüsxəsi kimi tanıtdırılan Quranlar, tarixi faktlara istinadən, o həzrətə mənsub ola bilməz.[3]

### *Fəslin əsas mətləbləri:*

**1.** Şiə və sünni qaynaqlarında olan hədislərə istinadən, Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranı ilk cəm edən şəxs Əli ibn Əbu Talib (ə) olmuşdur. O, bu işi Həzrət Peyğəmbərin (s) vəsiyyəti və göstərişi ilə yerinə yetirmişdir.

**2.** Əli ibn Əbu Talibin (s) cəm etdiyi mushəfin bir sıra özəllikləri və üstünlükləri olmuşdur. O cümlədən: surələr nazil olduğu ardıcıllıqla yığılımış, ayələrin şəninüzulu və nazil olduğu məkan qeyd edilmiş, ayələrin ümumi tərəfləri açıqlanmışdır.

**3.** Bu mushəf irs olaraq bir Məsum İmamdan (ə) digərinə çatmışdır.

---

[1] Biharul-ənvar, c.89, s.40-52.

[2] Biharul-ənvar, c.89, s.42.

[3] Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.413-418.

# Üçüncü fəsil

## Birinci xəlifə Əbu Bəkrin dövründə Quranın cəm edilməsi

## Müqəddimə

Bu fəslin mövzusu Quran tarixinin mübahisəli mövzularından biri olub quranşünasları 2 dəstəyə ayırmışdır:

Bir dəstə Quranın Həzrət Peyğəmbərin (s) dövründə – hal-hazırkı mushəflərdə mövcud olan tərtibat və ardıcıllıqla – cəm edildiyini qəbul edir, digər bir dəstə isə Quranın rəsmi olaraq Həzrət Peyğəmbərin (s) vəfatından sonra birinci xəlifə Əbu Bəkrin dövründə mushəfdə (بَيْنَ الدَّفَّتَيْن) cəm edildiyini qəbul edir.

Bu mövzunu araşdırmazdan öncə mühüm bir məsələyə diqqət yetirmək lazımdır. Deyəsən, bir çox alimlər arasında kəskin mübahisələrə səbəb də elə bu məsələyə diqqətsizlik olmuşdur. Əslində, yuxarıda adı keçən 2 dəstəni qarşı-qarşıya qoyan əsas səbəb, mübahisə mövzusuna lazımi diqqətin yetirilməməsidir. Əgər mübahisə mövzusu tam aydınlaşarsa, bu 2 dəstə arasındakı sərt qarşıdurmalar da səngiyər.

Məsələ bundan ibarətdir ki, tarixi mətnlərdə və hədislərdə **“cəm” (جَمْع)** sözü (və bu sözlə eyniköklü sözlər) həmişə eyni bir mənada işlənməmişdir. Burada **“cəm” (جَمْع)** sözünün müxtəlif manalarına nəzər salaq:

**1. “جَمْع قُرْءَان” - “Quranı əzbərləmək”** mənasında işlənib: İslamın erkən çağlarında Quran hafizlərini **“جُمّاع قُرْءَان”** adlandırırdılar, çünki onlar Quranı öz hafizələrində, yaddaşlarında cəm edirdilər. Zərqani “Quranın kitabəti və hifzi” (Quranın yazılması və əzbərlənməsi) barədə incə bir ifadə işlətmişdir: “Kitabət” Quranı *sətirlərdə* cəm etmək, “hifz” isə Quranı *sinələrdə* cəm etməkdir.[1]

İbn Nədim **“الجُمّاعُ لِلْقُرْءَانِ عَلَى عَهْدِ النَّبى”** başlığı altında bir dəstə səhabənin adını sadalamışdır ki, Əli ibn Əbu Talibin (ə) adını birinci çəkmişdir.[2]

**2. “جَمْع قُرْءَان” - “Quranın kitabəti”** mənasında işlənib: Yəni hər surənin ayələri ardıcıllıqla yazılmış, lakin surələr müəyyən bir ardıcıllıqla sıralanmamışdır. **“Cəm”** sözünün bu mənasına görə, bütün Quran (Həzrət Peyğəmbərin (s) dövründə) cəm edilmiş, lakin mushəfdə cəm edilməmişdi (bir kitab şəklində yığılmamışdı).

[1] Mənahilul-irfan, c.1, s.239.

[2] Seyid Məhəmmədbaqir Huccəti, “Tarix-e Quran”, s.219.

**3. "جَمْع قُرْءَان" - "Qurani-Kərimin mushəfdə cəm edilməsi"** mənasında işlənib: Yəni hər surənin ayələri nüzul ardıcıllığı ilə, surələr də müəyyən ardıcıllıqla yığılmış və Quran bir kitab şəklində tərtib edilmişdir.

**4. "جَمْع قُرْءَان" - "Bütün qiraətləri cəm etmək və Quranı vahid qiraətdə tərtib etmək"** mənasında işlənib (**جَمْعُ النّاس على قراءةٍ واحِدَةٍ**).

Birinci fəsildə məlum oldu ki, **"cəm"** sözünün birinci və ikinci mənaları (yəni Quranın əzbərlənməsi və kitabəti) Həzrət Peyğəmbərin (s) dövründə gerçəkləşmişdir və bu barədə heç bir şəkk-şübhə yoxdur. Dördüncü fəsildə də aydınlaşacaq ki, **"cəm"** sözünün dördüncü mənası üçüncü xəlifə Osmanın dövründə gerçəkləşmişdir və bu barədə bütün alimlər eyni fikirdədirlər. Mübahisə **"cəm"** sözünün üçüncü mənası üzərindədir, yəni Quranın mushəfdə cəm edilməsi, yəni bir kitab şəklində yığılması hansı dövrə təsadüf edir?

Bəzi tədqiqatçılar elə güman etmişlər ki, Qurani-Kərimin Həzrət Peyğəmbərin (s) vəfatından sonra bir kitab şəklində yığıldığını söyləyənlər, o həzrətin dövründə Quranın kitabət edildiyini qəbul etmirlər. Əslində isə, belə deyildir. Çünki qeyd etdiyimiz kimi, Həzrət Peyğəmbərin (s) dövründə Quran ayələri kitabət edilmiş və hər surənin ayələri nüzul ardıcıllığı ilə yazılmışdır, kimsə də bu məsələni inkar etmir. Mübahisə bu məsələ üzərindədir ki, Quran hal-hazırkı tərtibatla - surələrin sıralanması etibarilə - Həzrət Peyğəmbərin (s) dövründə cəm edilmiş və bir kitab şəklində tərtib edilmişdir, yoxsa bu iş Həzrət Peyğəmbərin (s) vəfatından sonra görülmüşdür?

İndi ki, mübahisə mövzusu aydın oldu, gəlin hər iki dəstənin öz müddəalarına gətirdiyi dəlilləri araşdıraq. Lakin ilk öncə **"birinci cəm", "ikinci cəm"** və **"üçüncü cəm"** terminləri ilə tanış olmağı lazımlı hesab edirik. **"Birinci cəm"** dedikdə Quranın Həzrət Peyğəmbərin (s) vəfatından qabaq cəm edilməsi, **"ikinci cəm"** dedikdə Quranın Həzrət Peyğəmbərin (s) vəfatından sonra birinci xəlifə Əbu Bəkrin dövründə cəm edilməsi və **"üçüncü cəm"** dedikdə isə üçüncü xəlifə Osman ibn Əffanın xəlifəliyi dövründə vahid mushəfin yaradılması nəzərdə tutulur.

## Quranın Həzrət Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyini qəbul edənlərin dəlilləri

**1. Hədis qaynaqlarında, xüsusilə də böyük əksəriyyəti əhli-sünnə qaynaqlarında olan saysız hədislər:**

Bu dəstənin fikrincə, Quranın cəm edilməsi məsələsi tarixi bir hadisə olduğundan, həqiqəti tarixi mənbələrdə araşdırıb axtarmaq lazımdır. Tarixi faktlar göstərir ki, Quran Həzrət Peyğəmbərin (s) vəfatından sonra mushəfdə cəm edilmişdir. Bu faktlardan bir neçəsinə nəzər salaq:

a) Vəhy katiblərindən olan Zeyd ibn Sabit deyib:

قُبِضَ النَّبِيُّ وَ لَمْ يَكُنِ الْقُرْءَانُ جُمِعَ فِى شَىْءٍ.

"Həzrət Peyğəmbər (s) vəfat etdi, bir halda ki, Quran bir mushəfdə cəm edilməmişdi."

b) Xəttabi deyir: "Bütün Quran Həzrət Peyğəmbərin (s) dövründə yazılmışdı, lakin surələr müəyyən bir ardıcıllıqla bir yerə cəm edilməmişdi (yığılmamışdı)."[1]

c) Beyhəqi isə deyir:

Biz Zeyd ibn Sabitdən nəql etdik ki, Quran ayələri Həzrət Peyğəmbərin (s) dövründə kitabət edilmişdi. Həmçinin Zeyd ibn Sabitdən nəql etdik ki, Quran birinci xəlifə Əbu Bəkrin dövründə mushəfdə cəm edilmiş və "mushəflərin nüsxəsinin çıxarılması" (üzünün köçürülməsi) üçüncü xəlifə Osmanın dövründə olmuşdur. Onların cəm etdikləri və ya nüsxəsini çıxartdıqları Quran, camaatın sinəsində (hafizəsində) yer aldığından onlara məlum idi. Bu iki işin (yəni birinci xəlifənin dövründə Quranın mushəfdə cəm edilməsi və üçüncü xəlifənin dövründə Quranın nüsxələrinin çıxarılması) bütün mərhələləri səhabələrlə və Əli ibn Əbu Tariblə (ə) məşvərət aparılaraq həyata keçirilmişdir.[2]

ç) Qazi Əbu Bəkr Baqilani "əl-İntisar" adlı əsərində qeyd edir ki, Əbu Bəkrin xilafəti dövründə Quranın cəm edilməsi, Quranın "bir mushəfdə cəm edilməsi" olmuşdur.[3]

d) Əbu Abdullah Haris ibn Əsəd Məhasibi "Fəhmus-sunən" adlı əsərində yazır:

"Quranın kitabəti yeni bir iş deyildi. Quranın yazılmasını Həzrət Peyğəmbər (s) əmr verərdi. Lakin "riqa", "əktaf" və "usub" üzərində yazılan Quran, pərakəndə idi. Həzrət Peyğəmbərin (s) evində olan bu kitabələr Əbu Bəkrin göstərişi ilə başqa bir məkana köçürüldü və bir şəxs onları bir yerə cəm edərək iplə bağladı ki, ondan heç nə itməsin."[4]

**2. Quran ayələri tədricən nazil olduğuna görə və Quranın nüzulu Həzrət Peyğəmbərin (s) ömrünün son günlərinə qədər davam etdiyinə görə Quran mushəfdə cəm edilməmişdir. Çünki hər zaman ayə və surələrin nazil olması gözlənilirdi, buna görə də Həzrət Peyğəmbər (s) özü surələri ardıcıllıqla yığmamış, Quranı bir mushəfdə cəm etməmişdi.**

Əllamə Məhəmmədcavad Bəlaği öz təfsirində yazır:

"Həzrət Peyğəmbər (s) həyatda ikən vəhyin nüzulu davam etdiyinə görə Quran bir mushəfdə cəm edilmədi. Söz yox ki, nazil olan bütün ayələr müsəlmanların sinələrində və onların əlyazmalarında yer almışdı... Həzrət Peyğəmbər (s) dünya

[1] "əl-İtqan", c. 1, s. 181; "əl-Mizan", c. 12, s. 120.
[2] əl-Burhan, c.1, s.329.
[3] əl-İntisar, s.330; əl-İtqan, c.1, s.189.
[4] əl-Burhan, c.1, s.332; əl-İtqan, c.1, s.185; Mənahilul-irfan, c.1, s.250.

ilə vidalaşdıqdan və vəhyin nüzulu sona çatdıqdan sonra – belə ki, artıq vəhy nüzulu gözlənilmirdi – müsəlmanlar qərara aldılar ki, Quranı bir mushəfdə yığsınlar. Beləliklə, Quran ayələrini minlərlə Quran hafizinin nəzarəti altında və Peyğəmbərə (s) mənsub olan əlyazmalara, habelə, vəhy katiblərinin və digər müsəlmanların ixtiyarında olan əlyazmalara istinadən – belə ki, bu kitabələrdə bir neçə ayə, yaxud bir silsilə ayələr və ya surələr yazılmışdı - Quranı cəm etdilər. Bəli, bu "cəm edilmə"də Quran, nüzul ardıcıllığı ilə cəm edilmədi və mənsux ayələr nasix ayələrdən qabaq yerləşdirilmədi."[1]

Bu dəlili çoxları öz əsərlərində qeyd etmişlər.[2]

**3. Həm şiə, həm də əhli-sünnə qaynaqlarında saysız hədislər mövcuddur ki, Əli ibn Əbu Talib (ə) Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranı cəm etmişdir. Əgər Quran Həzrət Peyğəmbərin (s) sağlığında hal-hazırkı tərtibatla cəm edilmişdisə, onda nə üçün Əli ibn Əbu Talib (ə) o həzrətin vəfatından sonra belə bir addım atmışdır? Nə üçün Həzrət Peyğəmbər (s) Əli ibn Əbu Talibə (ə) tapşırmışdır ki, onun vəfatından sonra Quranı cəm etsin?**

Əllamə Məhəmmədcavad Bəlaği öz təfsirində yazır:

"Hamıya məlumdur ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra Quranı nüzul ardıcıllığı ilə cəm etməkdən ötrü Əli ibn Əbu Talib (ə) yalnız namaz üçün əbasını çiyninə saldı."[3]

Əllamə Təbatəbai qeyd edir ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra Həzrət Əlinin (ə) Quranı cəm etməsi, şiə hədislərində məlum məsələ və danılmaz bir həqiqətdir.[4]

**4. Quranın Həzrət Peyğəmbərin (s) dövründə cəm edilmədiyini sübuta yetirən dəlillərdən biri də budur ki, əgər <u>hal-hazırkı mushəf</u> Həzrət Peyğəmbərin (s) dövründə və o həzrətin nəzarəti altında cəm edilibsə, onda bu mushəflə Əli ibn Əbu Talibin (ə) mushəfi arasındakı fərqləri qəbul etməliyik.** Çünki Quranın Həzrət Peyğəmbərin (s) dövründə cəm edildiyini iddia edənlər deyirlər ki, mushəf hal-hazırkı tərtibatla cəm edilmişdir. Bəs nə üçün Həzrət Əli (ə) Quranı nüzul ardıcıllığı ilə cəm etdi? Buna inanmaq mümkündürmü ki, Həzrət Peyğəmbərin (s) dövründə Quran cəm edildi, lakin Həzrət Əli (ə) öz üslubunu Peyğəmbərin (s) üslubundan daha düzgün hesab edib Quranı nüzul ardıcıllığı ilə cəm etdi?!

Həzrət Peyğəmbərin (s) vəfatından sonra Əli ibn Əbu Talibdən (ə) savayı bir çox möhtərəm səhabələr də özləri üçün mushəf cəm etdilər. Bu mushəflərdə - bir qədər irəlidə bu barədə məlumat veriləcək – surələrin ardıcıllığı baxımından

---

[1] Alaur-Rəhman, c.1, s.18.

[2] əl-Burhan, c. 1, s.329; Mənahilul-irfan, c.1, s.247; ət-Təmhid, c.1, s.287.

[3] Alaur-Rəhman, c.1, s.18; Biharul-ənvar, c.89, s.40-dan etibarən.

[4] əl-Mizan, c.12, s.128.

fərqlər var idi. Bu tarixi gerçəklik Quranın Həzrət Peyğəmbərin (s) dövründə cəm edilmədiyinə başqa bir dəlildir.

Əllamə Təbatəbai bu barədə tam qətiyyətlə bildirir: "Heç şübhəsiz, Quran Həzrət Peyğəmbərin (s) vəfatından sonra mushəfdə cəm edilmişdir."[1]

**Burada mühüm bir sualı cavablandırmaq lazımdır və o da bundan ibarətdir ki, nə üçün birinci xəlifə Əbu Bəkr Quranı cəm etmək barədə fərman verdi?**

## Yəmamə döyüşü və onun aci nəticələri

Həzrət Peyğəmbərin (s) vəfatından bir il və neçə ay keçmişdi ki, Yəmamə döyüşü baş verdi və bu döyüşdə ən azı yetmiş nəfər Quran qarisi öldürüldü. Bu hadisə xilafəti narahat etdi. Düşündülər ki, əgər müsəlmanlar üçün başqa bir döyüş qarşıya çıxarsa və qalan qairilər də öldürülərsə, "Quranı daşıyanlar"ın, yəni qarilərin dünyadan köçməsi ilə Quran da aradan gedər. Bu səbəbdən də Quran ayələrini və surələrini bir mushəfdə cəm etmək fikrinə düşdülər.[2]

Yəmamə döyüşü Əbu Bəkrin xilafəti dövründə baş verən böyük hadisələrdən biri olmuşdur. Hicrətin 9-cu ilində Yəmamə vilayətindən bir dəstə ilə Həzrət Peyğəmbərin (s) görüşünə gələn Museyləmə Kəzzab, geri döndükdə mürtəd oldu və yazdığı məktubunda peyğəmbərlikdə şərik olduğunu iddia etdi. Həzrət Peyğəmbər (s) ona "kəzzab" (yalançı) ləqəbini verdi. Hicrətin 12-ci ili rəbiul-əvvəl ayında Əbu Bəkr – belə ki, onun xilafətinin ikinci ili idi - Xalid ibn Vəlidin sərkərdəliyi ilə 4500 nəfərlik bir qoşunu Museyləmə Kəzzabla döyüşə yolladı. Müsəlmanlar qeyri-bərabər döyüşdə qırx min nəfərlə qarşı-qarşıya dayandılar və ağır döyüş apardılar. Bu döyüşdə Museyləmə öldürüldü və müsəlmanlar qələbə çaldılar. Lakin bu qələbə 1700 nəfərə yaxın müsəlmanın şəhid olması ilə əldə edildi ki, onlardan 700 nəfər, yaxud 450 nəfər, yaxud da ən azı 70 nəfər səhabə və Quran hafizi, qarisi idi.[3]

Belə bir hadisənin təkrarlanmasından nigaran olan Ömər ibn Xəttab xəlifə Əbu Bəkrə Quranı bir mushəfdə cəm etməyi təklif etdi. Xəlifə Əbu Bəkr bu təklifi qəbul edib bu işin icrasını Zeyd ibn Sabitə tapşırdı.

Bu hadisəni bəyan edən ən məşhur rəvayət Zeyd ibn Sabitin rəvayətidir və Buxari onu öz "Səhih"ində qeyd etmiş, bütün Quran tədqiqatçıları bu mövzuda həmin rəvayətə istinad etmişlər. Zeyd ibn Sabit deyir:

---

[1] əl-Mizan, c.12, s.120.

[2] "Quran dər İslam", s.191.

[3] Dr. Ramyar, "Tarix-e Quran", s.299-301.

Yəmamə döyüşündən sonra Əbu Bəkr məni yanına çağırtdırdı. Mən Əbu Bəkrin yanına getdikdə Ömər onun yanında idi. Əbu Bəkr mənə dedi: "Ömər mənim yanıma gəlib dedi ki, Yəmamə döyüşündə xeyli sayda Quran qariləri və hafizləri öldürüldü. Əgər başqa bir döyüşdə bu qədər itki versək, çox güman ki, "Quranı daşıyanlar"ı itirməklə Quranı da itirmiş olacağıq. Məsləhət budur ki, Quranın cəm edilməsinə göstəriş verəsən." Mən isə Ömərə dedim: "Axı Peyğəmbərin (s) görmədiyi bir işi necə görə bilərəm?" O mənə dedi: "And olsun Allaha ki, bu yaxşı bir işdir." Bu söhbətdən sonra Ömər mənə dəfələrlə müraciət etdi və nəhayət, Allah bu işdə mənə şərhi-sədr verdi (mənim ürəyimi genişləndirdi), mən də bu məsələdə Ömərlə həmfikir oldum.

Hədisin davamında Zeyd ibn Sabit deyir:

Bunları danışdıqdan sonra Əbu Bəkr mənə dedi: "Sən cavan, ağıllı və etibarlı bir kişisən. Sən Peyğəmbər (s) üçün vəhyi yazmısan, elə isə, Quranı cəm et!" Zeyd deyir: "And olsun Allaha, əgər mənə dağı yerindən qoparmağı tapşırsaydılar, bu işdən çətin olmazdı." Mən onlara dedim: "Axı siz Peyğəmbərin (s) görmədiyi bir işi necə görə bilərsiniz?" Əbu Bəkr cavabında dedi: "And olsun Allaha, məsləhət budur." Əbu Bəkr mənə bu işi yerinə yetirməyi dəfələrlə təkid etdi, nəhayət, Allah-Təala Əbu Bəkrə və Ömərə verdiyi şərhi-sədri mənə də əta etdi. Beləliklə, mən araşdırmalara başladım və xurma budaqları, nazik daş lövhələr üzərində yazılan, habelə, müsəlmanların sinələrində qorunub saxlanan Quranı cəm etdim...[1]

## Zeyd ibn Sabit tərəfindən Quranın cəm edilməsi ("ikinci cəm") hansı üsulda aparıldı?

Xilafətin göstərişi ilə Zeyd ibn Sabitin rəhbərliyi altında qari səhabələrdən ibarət heyət Quran ayələrini və surələrini Həzrət Peyğəmbərin (s) evindən götürülən və vəhy katiblərinin dəsti-xətti ilə yazılan, yaxud qari səhabələrin əlində olan daş lövhələr, səhifələr və sümüklərdən cəm edib bir mushəfdə yığdılar, sonra həmin mushəfin nüsxələrini ətraf məntəqələrə göndərdilər.[2]

Yəqubinin nəqlinə istinadən, bu işdə Zeyd ibn Sabitə kömək üçün xəlifə Əbu Bəkrin nəzarəti altında ənsardan 25 nəfərlik bir heyət təşkil edildi. Onlara tapşırıldı ki, Quranı yazıb fəsahətli şəxs kimi tanınan Səid ibn Asa təqdim etsinlər.[3]

Hişam ibn Urvə atasından nəql edir: Xəlifə Əbu Bəkr Ömərə və Zeydə göstəriş verdi ki, məsciddə əyləşib yalnız o ayələri yazsınlar ki, bu ayələri nəql edən şəxs öz sözünə iki nəfəri şahid gətirir.[4]

---

[1] Səhih-Buxari, c. 6, bölüm: Cəm`ul-Quran, s. 580-581; əl-Burhan, c.1, s.326; əl-İtqan, c.1, s.182; Mənahilul-irfan, c.1, s.251; əl-Mizan, c.12, s.119; əl-Bəyan, s.258.

[2] Quran dər İslam, s.192.

[3] əl-Mizan, c.12, s.118.

[4] əl-İtqan, c.1, s.184; Mənahilul-irfan, c.1, s.252.

Bəziləri yuxarıdakı hədisə və oxşar məzmunlu hədislərə əsaslanaraq, Əbu Bəkrin dövründə Quranın cəm edilmə üsuluna irad bildirmişlər. İrad budur ki, Əbu Bəkrin təşkil etdiyi heyət Quranı ibtidai və sadə üsul ilə cəm etmişdir: onlar bir ayənin və hətta bütöv bir surənin yazılması üçün iki adil şəxsin şahidliyini qəbul edibmişlər. Halbuki, Quran iki adil şəxsin şahidliyi ilə deyil, qəti dəlil və təvatur ilə sabit olmalıdır. İrad bildirənlərin fikrincə, belə bir üsul Quranın təhrifinə zəmin yaradar, çünki lazımi zəmanətlər nəzərə alınmamış və lazımi diqqət göstərilməmişdir, nəticədə də, belə üsul ilə cəm edilən mushəf adətən etibarlı sayılmır.[1]

Lakin bildiyiniz kimi, həmin dövrdə Quran hafizləri çox idi və Zeyd ibn Sabitin özü Quran hafizlərindən idi. O dövrdə Quran, Əllamə Bəlağinin sözü ilə desək, minlərlə Quran hafizinin nəzarəti altında cəm edilmişdi. Buna görə də, sözügedən hədislərdə "iki şahid" dedikdə, nəyin nəzərdə tutulduğunu araşdırmaq lazımdır.

İbn Hicr deyir:

Belə başa düşülür ki, bu iki şahid təqdim edilən müəyyən Quran əlyazmasının Həzrət Peyğəmbərin (s) hüzurunda yazıldığına şahidlik etməli idilər. Yaxud şahidlik etməli idilər ki, Quran bu əlyazmada olduğu kimi nazil olmuşdur.

Əbu Şamə deyir:

"İki şahid"in şahidlik etməsini tələb etməkdə onların (heyət üzlərinin) məqsədi bu idi ki, yalnız Həzrət Peyğəmbərin (s) hüzurunda yazılanı əldə edib onu yazsınlar, öz hafizələrinə söykənməsinlər.  Buna görə də Zeyd ibn Sabit - baxmayaraq ki, onun özü Quran hafizi idi – "Tövbə" surəsinin axırıncı ayəsi barədə belə deyib: "Bu ayəni yalnız Əbu Xuzeymə Ənsaridə tapdım." Burada Zeyd bu ayəni yazılı şəkildə Əbu Xuzeymə Ənsaridə gördüyünü demək istəmişdir, yoxsa ki, Zeydin özü və çox sayda səhabələr bu ayəni əzbər bilirdilər.[2]

Xəlifə Əbu Bəkr tərəfindən Quranı cəm etmək barədə Zeyd ibn Sabitə verilən təklifi bəyan edən hədisin axırında belə qeyd edilir:

... Quranla bağlı araşdırmalara başladım və xurma budaqları, nazik daş lövhələr üzərində yazılan, həmçinin hafizələrdə qorunub saxlanan Quranı cəm etdim. "Tövbə" surəsinin axırıncı ayəsini - **"Ləqəd cããkum rəsũlun min ənfusukum 'əzĩzun 'ələyhi mã 'ənittum..." -** yalnız Əbu Xuzeymə Ənsaridə tapdım...[3]

İbn Şəhab, Zeyd ibn Sabitin oğlu Xaricəyə istinadən nəql edir ki, Zeyd ibn Sabit "Əhzab" surəsinin bir ayəsi üçün də yuxarıdakı əhvalata oxşar bir əhvalatı nəql etmişdir:

"Mushəfin üzünü köçürdüyüm zaman "Əhzab" surəsinin bir ayəsini - belə ki, həmin ayəni Peyğəmbərin (s) qiraət etdiyini özüm də eşitmişdim - yalnız

---

[1] əl-Bəyan, s.257.

[2] əl-İtqan, c.1, s.184; Mənahilul-irfan, c.1, s.252.

[3] Səhih-Buxari, c.6, s.581.

Xuzeymə Ənsaridə tapdım. Ayə belə idi: **"Minəl-mu'mininə ricə̃lun sədəqũ mə̃ 'ãhədullãhə 'ələyh..."** Peyğəmbər (s) Xuzeymənin şahidliyini iki nəfərin şahidliyinə bərabər bildiyi üçün, ayəni həmin surədə qərar verdik.[1]

Yuxarıdakı hədisdən məlum olur ki:

1) Həmin ayə yazılı surətdə yalnız Xuzeymədə imiş. Çünki Zeyd ibn Sabit etiraf edir ki, həmin ayəni Peyğəmbər (s) qiraət edərkən eşidibmiş. Buradan məlum olur ki, sözügedən iki şahid təqdim edilən hansısa bir Quran əlyazmasının Peyğəmbərin (s) hüzurunda yazıldığına şahidlik etməli imiş.

2) İki şahid dedikdə, əlyazmanı təqdim edən şəxsdən əlavə olaraq iki nəfər nəzərdə tutulmayıbmış. Şahidlərdən biri həmin şəxsin özü, digəri isə onun dediklərini təsdiqləyən bir şəxs olubmuş. Xuzeymənin şahidliyi, ikinci bir şahidin olmadığı surətdə ondan ötrü qəbul olunur ki, Peyğəmbər (s) onun şahidliyini iki nəfərin şahidliyinə bərabər bilmişdir.

***Qeyd:***

"Səhih-Buxari"yə istinadən nəql edilən bu hədislərdə "Əbu Xuzeymə" adı ilə təqdim edilən səhabənin düzgün adı Xuzeymə ibn Sabit Ənsaridir. Çünki Peyğəmbər (s) Xuzeymə ibn Sabit Ənsarinin şahidliyini iki nəfərin şahidliyinə bərabər bilmişdir.[2]

***Nəticə:***

Beləliklə, tarixi faktlara və eləcə də bir sıra Quran tədqiqtçılarının rəyinə əsasən, Qurani-Kərim xəlifə Əbu Bəkrin dövründə Zeyd ibn Sabitin rəhbərliyi altında qari səhabələrdən ibarət bir heyət tərəfindən cəm edilmişdir.

## Quranın Həzrət Peyğəmbərin (s) vəfatından qabaq cəm edildiyini qəbul edənlərin dəlilləri

Quranın Peyğəmbərin (s) vəfatından qabaq cəm edildiyini qəbul edənlər bir sıra əqli və nəqli dəlillərə əsaslanırlar. Burada həmin dəlilləri müxtəsər şəkildə qeyd edirik:

**1. Quranın Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyi barədə olan hədislər arasında - qeyd edək ki, bu hədislərin əksəriyyəti əhli-sünnə qaynaqlarındadır – ziddiyyətlər vardır.**

Ayətullah Xoi "əl-Bəyan" əsərində Quranın cəm edilməsi barədə olan 22 ən mühüm hədisi müfəssəl araşdırıraraq bu hədislər arasında ziddiyyətli məqamlara toxunmuş, nəticədə bir-birinə zidd olduqları üçün onların hamısını qeyri-mötəbər hesab etmişdir.[3]

---

[1] Səhih-Buxari, c.6, s.581; əl-Burhan, c.1, s.328; əl-İtqan, c.1, s.187; Biharul-ənvar, c.89, s.77.

[2] Haşiyeye əl-Burhan, c.1, s.328; ət-Təmhid, c.1, s.301.

[3] "əl-Bəyan", s.240-249.

***Cavab:*** Əlbəttə, bu hədislər arasında müəyyən ziddiyyətlərin, uyğunsuzluqların olması inkar edilmir. Əllamə Məhəmmədcavad Bəlaği də öz əsərində[1] bu hədislər arasındakı ziddiyyətlərə toxunur, lakin buna baxmayaraq Quranın Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyini tam qətiyyətlə qəbul edir.

Əllamə Təbatəbai həmin hədislərdən bir neçəsini qeyd etdikdən sonra belə bir nəticəyə gəlir:

"Bu hədisləri araşdırdıqdan sonra azad düşüncəyə söykənərək bu qənaətə gəlirik ki, "vahid xəbər" və "qeyri-mutəvatir" olmalarına baxmayaraq onlarda "qəti qərinələr" (danılmaz nişanə və əlamətlər) mövcuddur..."[2]

Əslində, bu hədislər arasındakı ziddiyyətləri, uyğunsuzluqları asanlıqla həll etmək və ziddiyyətli məqamlara aydınlıq gətirmək, ümumi bir nəticəyə gəlmək mümkündür.[3]

Mərhum Dr. Ramyarın nəzəri isə belədir:

"Ümumiyyətlə, hədis işində belə ziddiyyətlər və uyğunsuzluqlar mövcuddur. Elə isə, hədisdən necə istifadə edilməlidir? Hansı bir fiqh və ya kəlam mövzusu ətrafında mübahisələr və müxtəlif fikirlər yoxdur? Əgər hər bir mətləbi öz yerində düzgün yerləşdirsək, əgər pərakəndə olan hissələrin hər birini öz yerinə qoysaq, əsaslı və faydalı bir bünövrəmiz olar. Bu hədislər məcmusunda heç bir hədislə uyğunlaşmayan və tək qalan hədisi kənara qoymaq, çox sayda hədislər arasından həqiqətləri üzə çıxarmaq və əldə etmək lazımdır."[4]

**2. Quranın Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyi barədə çox sayda hədis mövcud olsa da, bu səmavi kitabın Peyğəmbərin (s) vəfatından qabaq cəm edildiyi barədə də hədislər mövcuddur və bunun özü ziddiyyətli bir məqamdır.**

Şi`bi deyir: "Ənsardan olan altı səhabə Peyğəmbərin (s) dövründə Quranı cəm etmişdilər: Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit, Məaz ibn Cəbəl, Əbud-Dərda, Sə`d ibn Ubeyd və Əbu Zeyd."

Qitadə, Ənəs ibn Malikdən Peyğəmbərin (s) dövründə Quranı cəm edənlər barəsində soruşduqda Ənəs belə cavab verir: "Onlar dörd nəfər olub və hamısı ənsardan idi: Ubəyy ibn Kə`b, Məaz ibn Cəbəl, Zeyd ibn Sabit və Əbu Zeyd."[5]

***Cavab:*** Bu məzmunlu hədislər təkcə ayələrin və surələrin kitabətinə dəlalət edir, nəinki bu səhabələr Peyğəmbərin (s) dövründə "mushəf" tərtib etmiş və Quran surələrini hal-hazırkı ardıcıllıqla sıralamışlar.

---

[1] "Alaur-Rəhman", c.1, s.19.
[2] "əl-Mizan", c.12, s.124.
[3] "ət-Təmhid", c.1, s.285.
[4] "Tarix-e Quran", s. 327-328.
[5] "əl-Bəyan", s.269; "Səhih-Buxari", c.6, s.586.

**3. Mütəvatir hədislərdən sayılan "Səqəleyn" hədisində Peyğəmbər (s) belə vəsiyyət edir:**

إنّي تارِكٌ فيكُمُ الثَّقَلَيْن كِتاب الله وَ عِتْرَتي...

**"Həqiqətən mən sizin aranızda iki qiymətli şey qoyub gedirəm: Allahın kitabı və itrətim..."**

**Bu hədisə istinadən, Quran Peyğəmbərin (s) dövründə cəm edilmişdi, çünki pərakəndə vərəqlərə "kitab" deyilmir, "suhuf" (صُحُف) deyilir.**[1]

***Cavab:*** Bəli, "kitab", bir məcmuəyə deyilir. Lakin burada bu məna nəzərdə tutulmur. Necə ki, bir sıra məkki ayələrdə Quran barədə "kitab" sözü işlənsə də, bu məna nəzərdə tutulmur. Çünki belə ayələrdən sonra çox sayda ayə və surələr nazil olubdur. Deməli, burada "kitab" dedikdə, kamil məcmuə nəzərdə tutulmamışdır. Nümunə üçün "Hicr" və "Nəml" surələrinin birinci ayəsinə nəzər salın.

**4. Əql hökm edir ki, Quran Peyğəmbərin (s) vəfatından qabaq cəm edilmişdir.** Heç mümkündürmü ki, Quranın təlimi və kitabətinə bu qədər əhəmiyyət verən Peyğəmbər (s), həyatda ikən onu cəm etməsin və dinin əsas istinad mənbəyi olan Quran pərakəndə qalsın?! [2]

***Cavab:*** Şübhəsiz, Peyğəmbər (s) Quranın təlimi və kitabətinə, habelə, surələrdə ayələrin yerləşdirilməsi və sıralanmasına böyük əhəmiyyət vermişdir. Peyğəmbərin (s) dövründə Quranın yazılması, habelə, surələrdə ayələrin Peyğəmbərin (s) nəzarəti altında yerləşdirilməsi danılmaz faktdır. Lakin Quran surələrinin sıralanması, əvvəldə qeyd olunan səbəblərə görə, Peyğəmbərin (s) vəfatından sonraya təsadüf edir. Bu isə Quranın toxunulmazlığına heç bir xələl gətirmir.

**5. Bir sıra hədislərdə qeyd olunub ki, səhabələr Quranı Peyğəmbərin (s) hüzurunda və qarşısında qiraət etmişlər.**

**6. Bir sıra hədislərdə qeyd olunub ki, səhabələr Peyğəmbərin (s) dövründə Quranı xətm etməyə böyük əhəmiyyət vermişlər.**

**7. Tarixi faktlara əsasən, Peyğəmbərin (s) vəfatından qabaq kamil və ya naqis mushəflər mövcud olmuşdur.** Məsələn, Peyğəmbərdən (s) belə nəql olunur:

مَنْ قَرَأَ الْقُرْآنَ فِى الْمُصْحَفِ كَانَ لَهُ أَلْفَا حَسَنَةٍ وَ مَنْ قَرَأَهُ فِى غَيْرِ المُصْحَفِ - فَأظُنُّهُ قالَ - كَأَلْفِ حَسَنَةٍ.

"Hər kim Quranı mushəfdən oxusa, onun iki min savabı, hər kim əzbərdən oxusa – güman edirəm ki, buyurdu – min savabı olar."

Yaxud Ümmül-möminin Aişədən belə nəql olunub:

النَّظَرُ فِى الْمُصْحَفِ عِبَادَةٌ.

[1] "əl-Bəyan", s.270; Dr. Ramyar, "Tarix-e Quran", s.285.
[2] Dr. Ramyar, "Tarix-e Quran", s.288.

“Mushəfə baxmaq ibadətdir.”[1]

***Cavab:*** Quranı Peyğəmbərin (s) hüzurunda oxumaq və ya Quranı xətm etmək onun “mushəf”də cəm edildiyinə və kitab şəklində yığıldığına dəlalət etmir.

Amma Quranı “mushəf”dən oxumağın savabı barədə olan hədislərdə “mushəf” sözünün işlənməsi, bu sözün indiki terminoloji mənasında olduğunu isbat etmir. Bu hədislərdə Quranı əlyazmadan oxumaq təkid edilir və hamıya Quranı mushəfdən oxumaq tövsiyə edilir. Halbuki, əgər fərz etsək, Peyğəmbərin (s) vəfatından qabaq azsayda səhabənin özünəməxsus mushəfi olmuşdur, heç şübhəsiz, camaatın çoxu belə mushəflərdən məhrum olmuşdur. Deməli, bu hədislərdə “mushəf” dedikdə, böyük ehtimalla, bir məcmuə deyil, Quran əlyazmaları nəzərdə tutulur.

Başqa bir ehtimala görə isə, bir neçə surədən ibarət məcmuələr o zamanlar “mushəf” adlanmışdır.

**8. Peyğəmbərin (s) dövründə “Həmd” surəsi “Fatihətul-Kitab” adlanmışdır.** Nəzərə alsaq ki, bu surə nazil olan birinci surə deyildir, onda bu qənaətə gəlmək olar ki, Quran elə Peyğəmbərin (s) dövründə bir kitab şəklində tərtib edilmiş və bu məcmuədə birinci surə olan “Həmd” surəsi “Fatihətul-Kitab” adlanmışdır.[2]

***Cavab:*** Doğrudur ki, “Həmd” surəsi nazil olan birinci surə deyildir, lakin kitabın ikinci hissəsində qeyd etdik ki, tədqiqatçılar “Həmd” surəsinin bütövlükdə nazil olan birinci surə olduğunu yekdilliklə qəbul etmişlər. Bu səbəbdən də, həmin surənin digər adı “Fatihətul-Kitab”dır.

**9. Hədislərin birində Peyğəmbər (s) buyurub:**

أُعْطِيتُ مَكَانَ التَّوْرَاة السَّبْعَ الطُّوَل، وَ أُعْطِيتُ مَكَانَ الزَّبُور المَئِينَ، وَ أُعْطِيتُ مَكَانَ الإنْجِيلِ المَثَانِى، وَ فُضِّلْتُ بِالْمُفَصَّل.

“Tövratın müqabilində mənə “yeddi böyük surə” verildi, Zəburun müqabilində mənə “məun” surələr verildi, İncilin müabilində mənə “məsani” surələr verildi və mən “mufəssəl” surələr ilə üstün edildim.”

Həzrət Peyğəmbərin (s) Quran surələrini bu şəkildə qruplaşdırması hal-hazırkı mushəfdə surələrin ardıcıllığına uyğundur. Deməli, Quran surələrinin sıralanması, başqa sözlə desək, Quranın bir kitab şəklində tərtib edilməsi Peyğəmbərin (s) vəfatından əvvəlki dövrə təsadüf edir.

***Cavab:*** Bəli, Peyğəmbərin (s) vəfatından qabaq Quran surələri bu şəkildə qruplaşdırılmışdır və bu məsələyə bir sıra hədislərdə rast gəlmək olar.[3] Lakin Peyğəmbərin (s) dövründə surələrin hal-hazırkı ardıcıllıqla sıralandığı bu

[1] “Həqaiqun hammətun həuləl-Quranil-Kərim”, s. 83-86.
[2] “Nümunə” təfsiri, c. 1, s. 8-9.
[3] “Quran dər İslam”, s. 191.

hədislərdən əldə edilmir. Bu hədislər sadəcə kiçikliyinə və böyüklüyünə görə surələrin qruplaşdırıldığını sübut edir.

Bundan əlavə, Peyğəmbərin (s) vəfatından sonra Həzrət Əlinin (ə) "surələrin nüzul ardıcıllığı" meyarı ilə tərtib etdiyi mushəf, Quranın Peyğəmbərin (s) vəfatından sonra bir kitab şəklində tərtib edildiyinə yetərli bir sübutdur.

**10. Hakim Nişapuri "Mustədrək" adlı kitabında Zeyd ibn Sabitdən belə nəql edir:**

كُنَّا عِنْدَ رَسُولِ اللهِ نُؤَلِّفُ الْقُرْءَانَ مِنَ الرِّقَاعِ.

"Biz Peyğəmbərin (s) yanında Quranı vərəqlərdən bir yerə yığdıq."[1]

Zeyd ibn Sabit vəhy katiblərindən idi və o, bu hədisdə aydın şəkildə bildirir ki, Quranı Peyğəmbərin (s) yanında (bir dəstə səhabə ilə) bir mushəfdə yığmışlar.

***Cavab:*** Saysız hədislərdə, o cümlədən, Zeyd ibn Sabitin özünün nəql etdiyi hədisdə - bu hədisdə açıqlanır ki, Quranı cəm etmək birinci xəlifə Əbu Bəkr tərəfindən Zeyd ibn Sabitə təklif edildi - o vaxtadək Quranın "mushəf"də cəm edilmədiyi, yəni bir kitab şəklində tərtib edilmədiyi dəfələrlə vurğulanmışdır. Deməli, yuxarıdakı hədisdə "Quranı bir yerə yığdıq" ifadəsində, tədrici şəkildə nazil olan Quran ayələrinin yazılması və aid olduğu surələrə əlavə edilməsi nəzərdə tutulmuşdur.

Əllamə Təbatəbai deyir:

"Ola bilsin ki, sözügedən hədisdə "bir yerə yığdıq" dedikdə, bir-birinə oxşar surələrin, məsələn, "tuvəl", "məun" və s. bu kimi surələrin bir yerə yığılması nəzərdə tutulmuşdur. Yoxsa ki, Quranın bir mushəfdə cəm edilməsi yalnız Peyğəmbərin (s) vəfatından sonraya təsadüf edir."[2]

## "Səhifələr"in bir yerə cəm edilməsi, yoxsa Quranın bir "mushəf"də cəm edilməsi?

Bəziləri elə təsəvvür etmişlər ki, Quranın cəm edilməsi zəminində birinci xəlifə Əbu Bəkrin dövründə görülən iş, üzərində Quran ayələri və surələri yazılan səhifələrin, vərəqlərin bir yerə yığılması olmuşdur. O səhifələr və vərəqlər ki, Peyğəmbərin (s) dövründə iki üz qapağı arasında yerləşdirilməmiş və bir kitab şəklində deyildi. Bu təsəvvür "Quranın Zeyd ibn Sabit tərəfindən cəm edilməsi" barədə olan bəzi hədislərdə "mushəf" (مُصْحَف) sözünün yerinə "suhuf" (صُحُف) sözünün işlənməsindən qaynaqlanmışdır. Lakin qeyd etmək lazımdır ki, saysız hədislərdə Zeyd ibn Sabitin "mushəf" cəm etdiyi vurğulanır. Bu hədislərdə fərqli

[1] "əl-Burhan", c.1, s.331; " əl-İtqan", c.1, s.181; "əl-Mizan", c.12, s.120.

[2] "əl-Mizan", c.12, s.120.

ifadənin işlənməsi bu həqiqətə dəlalət edir ki, işlənmə yerinin tələbinə görə bəzən "suhuf" sözü "mushəf" və "mushəf" sözü "suhuf" mənasında işlənmişdir.

Bu fəslin əvvəlində Quranın Zeyd ibn Sabit tərəfindən mushəfdə cəm edilməsi barədə bir neçə hədisi qeyd etdik. Beyhəqi və Haris ibn Əsəd Məhasibi Zeyd ibn Sabitin gördüyü işi "Quranın mushəfdə cəm edilməsi" olaraq qəbul edirlər. Əbu Bəkr Baqilani "İntisar" adlı əsərində üçüncü xəlifə Osmanın xilafəti dövründə "Quranın cəm edilməsi" məsələsi barədə belə qeyd edir: "Osman ibn Əffanın məqsədi xəlifə Əbu Bəkrin gördüyü işi görmək, yəni "Quranı mushəfdə cəm etmək" deyildi, onun məqsədi..."[1]

Əli ibn Əbu Talibdən (ə) belə nəql olunur:

أَعْظَمُ النَّاس أَجْرًا فِى الْمَصَاحِفِ أَبُو بَكْر ...[٢]

Zeyd ibn Sabitin oğlu Xaricədən nəql etdiyimiz hədisdə də "mushəf"in üzünün köçürülməsindən söz gedirdi.[3]

Əllamə Məhəmmədcavad Bəlaği də Zeyd ibn Sabitin işini "səhifələrin cəm edilməsi" deyil, "Quranın mushəfdə cəm edilməsi" bilmişdir.[4]

## Səhabələrin mushəfləri

Əvvəlki fəsillərdə Quranın birinci xəlifə Əbu Bəkrin təşəbbüsü ilə Zeyd ibn Sabit tərəfindən cəm edilməsi, həmçinin Əli ibn Əbu Talibin (ə) cəm etdiyi mushəf barədə bəhs etdik. Peyğəmbərin (s) vəfatından sonra Osman ibn Əffanın xilafəti dövrünədək olan bu müddət ərzində bir çox səhabələr də Quran mushəfləri cəm etmişdilər. Bu səhabələrin mushəfləri İslam məmləkətinin müxtəlif əyalətlərində yayılmış və tanınmışdı.

İbn Əsir nəql edir ki, hicri-qəməri 30-cu ilə kimi İslam məmləkətinin dörd tərəfində bu dörd mushəf geniş yayılmışdı: Dəməşqdə Ubəyy ibn Kə`bin mushəfi, Kufədə İbn Məs`udun mushəfi, Bəsrədə Əbu Musa Əş`ərinin mushəfi, Humsdə Miqdadın mushəfi.[5]

Beləliklə, şamlılar Ubəyy ibn Kə`bin mushəfi əsasında, kufəlilər Abdullah ibn Məs`udun mushəfi əsasında, bəsrəlilər Əbu Musa Əş`ərinin mushəfi əsasında... Quranı qiraət edirdilər. Qiraətlərdə ixtilaf yarandığı zaman hər məntəqənin əhalisi orada tanınmış səhabənin mushəfinə müraciət edirdi. Biz burada yalnız

---

1 "əl-Burhan", c.1, s.330; "əl-İtqan", c.1, s.189.
2 "əl-Burhan", c.1, s.333; "əl-İtqan", c.1, s.183; "Mənahilul-irfan", c.1, s.253.
3 Səhih-Buxari, c.6, s.581.
4 "Alaur-Rəhman", c.1, s.18.
5 Dr. Ramyar, "Tarix-e Quran", s.337.

Ubəyy ibn Kə`bin[1] və Abdullah ibn Məs`udun[2] mushəflərinin özəlliklərindən danışacağıq.

---

1 **Ubəyy ibn Kə`b:**
Ubəyy ibn Kə`b ibn Qeys ibn Ubeyd ibn Zeyd ənsarın Bəni-Nəccar tayfasındandır. O, Peyğəmbərin (s) səhabəsi və vəhy katibi olmuşdur. Quranın qiraəti, cəm edilməsi və təlimində, həmçinin təfsir və fiqhdə böyük ustadlardan sayılırdı. Bəzi rəvayətlərdə qeyd olunur ki, Peyğəmbər (s) onu "Əbul-Munzər" künyəsi ilə çağırarmış. Həmçinin rəvayət olunur ki, Peyğəmbər (s) ona "Seyyidul-ənsar" ləqəbini vermiş və o, həyatda ikən müsəlmanlar onu "Seyyidul-muslimin" çağırmışlar. Ərəblər arasında oxuyub yazanların sayının az olduğu cahiliyyət dövründə (İslam zühur etməmişdən qabaq) Ubəyy ibn Kə`b yazmağı bacaranlardan biri idi. İslam zühur etdikdə o, "ikinci əqəbə"də ənsardan olan yetmiş nəfərdən biri olmuş və Peyğəmbərlə (s) beyət bağlamışdı. O, Bədr, Uhud, Xəndək və başqa döyüşlərdə Peyğəmbərin (s) kənarında olmuşdur. O, vəhy katibliyindən əlavə, Peyğəmbərin (s) yazarı da olmuşdur. Şiə mənbələrinə istinadən, Peyğəmbər (s) vəfat etdikdən sonra Ubəyy ibn Kə`b Peyğəmbərin (s) canişinliyi mövzusunda etiraza qalxan on iki nəfərdən biri olmuşdur.
**Ubəyy ibn Kə`b və Quran elmləri:**
O, bütün Quranı Peyğəmbərə (s) qiraət etmişdir. Məşhur bir hədisə istinadən, Peyğəmbər (s) Quranı dörd nəfərdən təlim almağı tövsiyə etmişdir ki, onlardan biri də Ubəyy ibn Kə`bdir. Başqa bir hədisdə qeyd olunur ki, Ubəyy ibn Kə`b ümmət arasında qiraəti hamıdan yaxşı bilən bir şəxsdir. Bəzi qədim rəvayətlərdən əldə olunur ki, Ubəyy ibn Kə`bin qiraətinin geniş yayılması "Osmani mushəfin" yazılmasından qabaqkı dövrə təsadür edir və onun qiraəti o dövrlərdə geniş yayılan qiraətlərdən biri idi. "Osmani mushəf" yazıldıqdan sonra – belə ki, Ubəyy ibn Kə`b həmin heyətin üzvlərindən biri idi – onun qiraəti yenə də diqqət mərkəzndə qaldı və gələcək nəsillərə ötürülərək sonrakı yüzilliklərdə "mötəbər qiraətlər" hesab edilən qiraətlərin əsas mənbələrindən biri oldu. "Yeddi qiraət" arasında Nafe və İbn Kəsirin "hicazi qiraəti", eləcə də, "hicazi qiraət"dən müəyyən qədər qaynaqlanan Əbu Əmr ibn Əlanın "bəsri qiraəti" əsas etibarilə Ubəyy ibn Kə`bin qiraəti əsasındadır. "Kufi qiraəti"ndə Asimin və Kəsainin qiraəti üzərində Ubəyy ibn Kə`bin qiraətinin böyük təsiri olmuşdur. İmam Sadiq (ə) hədislərin birində buyurur ki, Ubəyy ibn Kə`bin qiraəti Əhli-beyt (ə) tərəfindən təsdiqlənmişdir.
Osmanın xilafəti dövründə "Osmani mushəf" yazılıb yığılarkən Ubəyy ibn Kə`b və Zeyd ibn Sabit on iki nəfərlik heyətin nüfuzlu üzvləri olmuşlar. Qədimi bir tarixi mənbədə qeyd edilir ki, bir dəstə iraqlı Ubəyy ibn Kə`bin oğlu Məhəmmədin yanına gəlimiş və ondan atasının mushəfini istəmişlər. Məhəmməd belə bir mushəfin olduğunu inkar etməmiş və demişdir ki, bu mushəfi Osman ondan almışdır. Hicri birinci əsrin ikinci yarısında Məhəmməd ibn Kə`b Qurəzi Ubəyyin mushəfindən birnüsxəni görmüşdür ki, Osmani mushəflə bu mushəf arasında elə də böyük fərqlər yox imiş. Hakim Nişaburi "Mustədrək"də yazır ki, camaat Osmana qarşı üsyana qalxdığı vaxt Ubəyy həyatda imiş və Osman qətlə yetirilməmişdən qabaq o, dünyasını dəyişdi. (Böyük İslam ensiklopediyası, c.6, s.463-465. )

2 **Abdullah ibn Məs`ud:**
Abdullah ibn Məs`ud ibn Ğafil ibn Həbib "Huzeyl" qəbiləsindəndir. Anasının adı "Ummi-Əbd" idi və buna görə də ona "İbn Ummi-Əbd" künyəsi verilmişdi. Əbu Nəim İsfahaninin rəvayətinə görə, iman gətirən altıncı şəxs idi. Hörmətli bir səhabə idi. Peyğəmbərin (s) xadimi, sirdaşı və daim o həzrətin kənarında idi. O, iki dəfə hicrət etmişdir: bir dəfə Həbəşəyə və bir dəfə Mədinəyə. Peyğəmbərin (s) iştirak etdiyi bütün döyüşlərdə iştirak etmişdir. Quran hafizi və fəqih səhabələrdən idi. Günlərin birində Ömər ona baxıb dedi: "Elmlə dolu xəzinədir." Peyğəmbər (s) vəfat etdikdən sonra Kufənin beytul-malının məsulu təyin edildi və Osmanın xilafəti dövründə Mədinəyə gəldi. O, Əbazərin kəfn-dəfn mərasimində iştirak etmişdir. Onun Əmmar, Salman, Əbazər, Miqdad və Ubəyy ibn Kə`bin sırasında Əhli-beytin (ə) imamətini tanıtdıranlardan olduğunu demişlər. Deyilənlərə görə, o, yetmiş surəni Peyğəmbərdən (s) eşidərək öyrənmişdir. Onun iffətli, fəzilətli, imanlı bir kişi olduğuna, Peyğəmbərin (s) onu mədh etdiyinə şəkk yoxdur. Hicri 32-ci ildə vəfat etdi və Bəqi məzarlığında dəfn edildi. Osmani mushəf cəm edilərkən Abdullah ibn Məs`ud və Osman arasında qarşıdurma yarandı və dördüncü fəsildə bu məsələyə toxunacağıq. ("əl-Kuniyyə vəl-əlqab", c.1, s.216 və 470; "Ə`lam", Zərəkli, c.4, s.137; Dr. Ramyar, "Tarix-e Quran", s.354.)

## Ubəyy ibn Kə`bin mushəfi

Cəlaləddin Siyuti “əl-İtqan”da İbn Əştənin “Məsahif” kitabındakı Əbu Cəfər Kufinin rəvayətinə istinadən Ubəyy ibn Kə`bə mənsub mushəfdə surələrin mündəricatını qeyd etmişdir. Bu mündəricatda birinci “Həmd” surəsi, sonra “tuvəl” surələr, yəni Bəqərə, Nisa, Ali-İmran, Ən`am, Ə`raf, Maidə və Yunus surələri yerləşir. Sonuncu surə isə “Nas” surəsidir.[1]

İbn Nədim “əl-Fihrist” əsərində Ubəyy ibn Kə`bə mənsub mushəfdə surələrin ardıcıllığını Fəzl ibn Şazanın rəvayətinə istinadən qeyd etmişdir. Fəzl ibn Şazan isə bu rəvayəti etibarlı bir ravidən nəql etmişdir ki, bu ravi Ubəyy ibn Kə`bə mənsub mushəfi “Qəryətul-ənsar” adlı kiçik bir kənddə Məhəmməd ibn Əbdulməlik Ənsari adlı bir şəxsdə görmüşdür. Ubəyy ibn Kə`bə mənsub mushəfin nüsxələrindən birinin hicri-qəməri 3-cü əsrin ortalarına qədər qalması isə maraqlı faktdır.[2]

Əbu Abdullah Zəncani də Ubəyy ibn Kə`bin mushəfində surələrin ardıcıllığını İbn Nədimin “əl-Fihrist” əsərinə istinadən qeyd etmişdir.[3]

Bu iki mənbədə (“əl-Fihrist” və “əl-İtqan” əsərlərində) qeyd olunan mündəricatı (Ubəyy ibn Kə`bə mənsub mushəfdə surələrin mündəricatını) müqayisə etdikdə görürük ki, 24-cü surəyə qədər, yəni “Mu`minun” surəsinə qədər heç bir fərq mövcud deyil. Lakin “Mu`minun” surəsindən sonra müəyyən fərqlər nəzərə çarpır.

Dr. Ramyar bu iki mənbədəki fərqləri araşdıraraq deyir:

“İbn Nədimin “əl-Fihrist” əsərində 12 surə qeydə alınmamışdır və həmin surələr bunlardır: Ənkəbut, Loğman, Duxan, Zariyat, Tur, Qəmər, Təhrim, Sə`əl, Sail, Muzzəmmil, Muddəssir, Bələd, Əsr.

Lakin “əl-İtqan” əsərində 7 surə qeydə alınmamışdır və bu surələrdən heç biri “əl-Fihrist” əsərində qeydə alınmayan surələrlə üst-üstə düşmür: İbrahim, Furqan, Səcdə, Məlaikə, Zuxruf, İnsan və Buruc.”[4]

“ət-Təmhid” əsərinin müəllifi bu iki mənbədəki mündəricatı bir-birinin vasitəsilə tamamlamış, nəticədə 116 surənin adını açıqlamışdır.[5] Bu işin isə heç bir “nəqli” və “əqli” (elmi) əsası yoxdur.

Qeyd etmək lazımdır ki, İbn Nədimin “əl-Fihrist” və Siyutinin “əl-İtqan” əsərlərində “خَلْع” və “حَفْد” adlı iki surə Ubəyy ibn Kə`bin mushəfində surələrin sırasında qeyd edilmişdir. Bu iki surə “əl-Fihrist” əsərində 90-cı və 92-ci surələrdir.

[1] “əl-İtqan”, c.1, s.201-202.
[2] “əl-Fihrist”, s.29-30.
[3] “Tarixul-Quran”, s.141-144.
[4] “Tarix-e Quran”, s.345-347.
[5] “ət-Təmhid”, c.1, s.325-331.

## Ubəyy ibn Kə`bin mushəfinin əsas xüsusiyyətləri

**1.** "Tuvəl" surələrin ardıcıllığında "Yunus" surəsi "Ənfal" surəsindən qabaq gəlir.

**2.** Onun mushəfində birinci surə "Həmd" surəsi və sonuncu iki surə "Muəvvəzəteyn"dir ("Nas" və "Fələq" surələri). Bu cəhətdən onun mushəfi ilə hal-hazırkı mushəf arasında fərq yoxdur.

**3.** Ubəyy ibn Kə`bin mushəfində iki dua mövcuddur ki, onları da "surə" hesab etmişlər. Bu surələr "خَلْع" və "حَفْد" adlanmışdır.

**"خَلْع" surəsi belədir:**

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ. اَللَّهُمَّ إِنَّا نَسْتَعِينُكَ وَ نَسْتَغْفِرُكَ. وَ نُثْنِى عَلَيْكَ وَ لَا نَكْفُرُكَ. وَ نَخْلَعُ وَ نَتْرُكُ مَنْ يَفْجُرُكَ.

"Bağışlayan və mehriban Allahın adı ilə. Ey Allahım, yalnız Səndən köməklik və bağışlanma diləyirik. Sənə şükür edirik və Sənə qarşı küfr etmirik. (Biz) günah edənlərdən uzaqlaşır və onları tərk edirik."

**"حَفْد" surəsi isə belədir:**

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ. اَللَّهُمَّ إِيَّاكَ نَعْبُدُ. وَ لَكَ نُصَلِّى وَ نَسْجُدُ. وَ إِلَيْكَ نَسْعَىٰ وَ نَحْفِدُ. نَخْشَىٰ عَذَابَكَ. وَ نَرْجُوا رَحْمَتَكَ. إِنَّ عَذَابَكَ بِالْكُفَّارِ مُلْحَقٌ.

"Bağışlayan və mehriban Allahın adı ilə. Ey Allahım, yalnız Sənə ibadət edirik. Yalnız Sənə namaz qılır və səcdə edirik. Yalnız Sənə doğru addım atır və tələsirik. Əzabından qorxuruq. Rəhmətinə ümidvarıq. Sənin əzabın mütləq kafirləri bürüyəcək."

Bu hesabla, Ubəyy ibn Kə`bin mushəfində 116 surə olur. Cəlaləddin Siyuti deyir:

"Ubəyy ibn Kə`bin mushəfində surələrin sayı 115-dir, çünki o, "Fil" və "Qureyş" surələrini bir surə hesab etmişdir. Səxavi "Cəmalul-qurra" əsərində İmam Sadiqdən (ə) və Əbu Nuhəykdən bu iki surənin birləşdirildiyi barədə hədis nəql etmişdir."[1]

Bəli, Siyutinin dedikləri doğrudur. Çünki Məsum İmamlar (ə) bu iki surəni namazda birgə oxumağın lazımlı olduğunu buyurmuşlar. Necə ki, "Zuha" və "İnşirah" surələri barədə də eyni hökmü vermişlər.[2] Lakin bu, Ubəyy ibn Kə`bin mushəfində 115 surə olduğunu deməyə əsas vermir. Çünki əgər bu iddianı qəbul etsək, onda qəbul etməliyik ki, Məsum İmamlar (ə) Quranda 112 surənin olduğuna etiqad edirlər. Siyutinin bu səhvi, mushəfdə surələrin yazılması ilə onların namazda oxunması arasında fərq qoymamasından irəli gəlmişdir. Surələrin sayı barədə əhli-sünnə və şiə arasında heç bir fikirayrılığı yoxdur. Mübahisəli məsələ, yalnız

[1] "əl-İtqan", c.1, s.207.
[2] "Məcməul-bəyan", c.10. s.695.

"Fil" və "Qureyş", "Zuha" və "İnşirah" surələrinin namazda birgə oxunmasının vacibliyindən ibarətdir. Bəzi tədqiqatçılar da Siyutiyə istinad edərək eyni səhvə yol vermiş və Ubəyy ibn Kə`bin mushəfində 115 surə olduğunu söyləmişlər.[1]

"ət-Təmhid" əsərində qeyd edilmişdir ki, Ubəyy ibn Kə`bin mushəfində "Fil" və "Qureyş" surələri arasında "Bismillah" yazılmamışdır. Bu mətləb isə nə "əl-Fihrist", nə də ki, "əl-İtqan" əsərində qeyd edilməmişdir. Əlbəttə, şeyx Təbərsi "Məcməul-bəyan" əsərində istinad etdiyi mənbəni göstərmədən bu mətləbi qeyd etmişdir. Bu səhv bais olmuşdur ki, "ət-Təmhid"də surələrin mündəricatında "Fil" və "Qureyş" surələri bir-birinin ardınca 106-cı və 107-ci surələr olaraq yerləşdirilmişdir. Halbuki, "əl-Fihrist" və "əl-İtqan" əsərlərində bu iki surə arasında başqa surələr vardır.[2]

Surələrin sayı barədə olan fikirayrılığından əlavə, Ubəyy ibn Kə`bin mushəfində "خَلْع" və "حَفْد" adlı surələrin olmasının səbəbi də mübahisəli məsələdir. Quran tədqiqatçılarının əksəriyyəti bu qənaətdədir ki, bunlar qunutda oxunan dualar idi. Məhəmməd ibn Nəsr Mərvəzi "Səlat" adlı kitabında Ubəyy ibn Kə`bdən nəql edir ki, o, namazların qunutunda bu iki duanı oxuyarmış və həmin duaları öz mushəfində də yazıbmış.[3]

Həmçinin rəvayət olunur ki, Peyğəmbər (s) bu duaları qunutda oxuyarmış. Ubəyy ibn Kə`b də bu duaları unutmamaqdan ötrü onları öz mushəfində qeyd edibmiş. Lakin sonralar bəziləri elə güman ediblər ki, bu iki dua onun mushəfinin tərkib hissəsidir.[4]

**4.** Ubəyy ibn Kə`bin mushəfində ləhcədən irəli gələn fərqli qiraətlər nəzərə çarpır. Məsələn, o, Ali-İmran surəsi 120-ci ayədə: "**لا يَضُرُّكُم كَيْدُهُمْ**" ifadəsindəki "**يَضُرُّكُم**" felini Hicaz ləhcəzinə uyğun olaraq idğamsız, yəni "**يَضْرُرْكُمْ**" oxuyurmuş. Yaxud "**بُعْثِرَ**" felini "**بُحْثِر**", "**إنّا اعْطَيْناكَ**" felini "**إنّا انْطَيْناكَ**" qiraət edirmiş.[5]

**5.** Ubəyy ibn Kə`b bəzən ayələrdə eyni mənalı (sinonim) sözlər işlədirdi. Məsələn:

وَ لا الضّالِّين ـ غَيْرِ الضّالِّين

مَشَوْا فِيهِ ـ مَضَوْا فِيه٦

مَنْ بَعَثَنا مِنْ مَرْقَدِنا ـ منْ هَبَّنا٧

---

1 Dr. Ramyar, "Tarix-e Quran", s.347; "ət-Təmhid", c.1, s.323.
2 "ət-Təmhid", c.1, s.331.
3 "əl-İtqan", c.1, s.206.
4 Dr. Ramyar, "Tarix-e Quran", s.350.
5 Dr. Ramyar, "Tarix-e Quran", s. 348.
6 Bəqərə surəsi, ayə: 20.
7 Yasin surəsi, ayə: 52.

## Abdullah ibn Məs`udun mushəfi

İbn Nədim "əl-Fihrist" və Siyuti "əl-İtqan" əsərində Abdullah ibn Məs`uda mənsub mushəfdə surələrin mündəricatını qeyd etmişdirlər.[1] Siyuti öz əsərində İbn Məs`uda mənsub mushəfdə surələrin mündəricatını "tuvəl", "məun", "məsani", "həvamim", "mumtəhinat" və "mufəssəl" surələrə qruplaşdırılmış şəkildə qeyd etmişdir. Bu iki mənbəni ("əl-Fihrist" və "əl-İtqan" əsərlərini) müqayisə etdikdə, "tuvəl" və "məun" surələr qrupunda surələrin ardıcıllığı - kiçik fərqləri nəzərə almasaq – demək olar ki, eynidir:

**"Tuvəl" surələr:** Bəqərə, Nisa, Ali-İmran, Ə`raf, Ən`am, Maidə və Yunus.

**"Məun" surələr:** Bəraət, Nəhl, Hud, Yusuf, Kəhf, Bəni-İsrail, Ənbiya, Taha, Mu`minun, Şuəra, Saffat.

**"Məsani" surələr:** Əhzab, Həcc, Qəsəs, Ta-sin ən-Nəml, Nur, Ənfal, Məryəm, Ənkəbut, Rum, Yasin, Furqan, Hicr, Rə`d, Səba, Məlaikə, İbrahim, Sad, Əlləzīnə kəfərū (Qital), Loqman, Zumər.

**"Həvamim" surələr:** Ha-mim əl-Mu`min (Ğafir), Zuxruf, Ha-mim Səcdə (Fussilət), Ha-mim ayn-sin-qaf (Şura), Əhqaf, Casiyə, Duxan.[2]

**"Mumtəhinat" surələr:** İnnə̃ fətəhnə̃ ləkə (Fəth), Həşr, Səcdə, Təlaq, Nun vəl-Qələm, Hucurat, Təbarək (Mulk), Təğabun, İzə̃ cə̃əkəl-munə̃fiqun (Munafiqun), Cumuə, Səff, Qul ũhiyə (Cinn), İnnə̃ ərsəlnə̃ (Nuh), Mucadilə, Mumtəhinə və Yə̃ əyyuhən-nəbiyyu limə tuhərrimu (Təhrim).

**"Mufəssəl" surələr:** Abdullah ibn Məs`udun mushəfində "mufəssəl" surələr "ər-Rəhman" surəsi ilə başlayıb iki surə - "Qul huvəllah" və "İnşirah" surələri ilə bitir.

"əl-İtqan"da qeydə alınmayan surələr bunlardır: Fatihə, Qaf, Hədid, Haqqə, Fələq, Nas.

"əl-Fihrist"də qeydə alınmayan surələr bunlardır: Fatihə, Hicr, Kəhf, Taha, Nəml, Şura, Zəlzələ, Fələq, Nas.

İbn Nədim deyir:

"Mən saysız mushəflər gördüm ki, bu mushəfləri yazanlar onun İbn Məs`uda mənsub olduğunu söyləyirdilər. Lakin bu qədər mushəf arasında bir-birinə oxşar iki mushəf görə bilmədim. Onların əksəriyyəti vərəqlərdə idi və üzərində çoxlu düzəlişlər aparılmışdı. İki yüz il tarixi olan bir mushəf gördüm ki, həmin mushəfdə "Fatihətul-Kitab" surəsi də mövcud idi. Mən öz müşahidələrimi qeyd etmək fikrindən daşınaraq Quran və hədis sahəsində tanınmış şəxsiyyətlərdən olan Fəzl ibn Şazanın nəzərini nəql etdim."[3]

[1] "əl-Fihrist", s.29; "əl-İtqan", c.1, s. 202-203.

[2] İbn Nədimin "əl-Fihrist" əsərində "Şura" surəsi qələmdən düşmüşdür.

[3] "əl-Fihrist", s.29.

## İbn Məs`udun mushəfinin əsas xüsusiyyətləri

**1.** Hər iki mənbəyə istinadən ("əl-İtqan" və "əl-Fihrist") Abdullah ibn Məs`udun mushəfində "Ənfal" surəsi iyirminci surə olub "məsani" surələr qrupunda yerləşmişdir. Halbuki, bu surə Ubəyy ibn Kə`bin mushəfində "Tövbə" surəsindən qabaq yerləşmiş və "məun" surələrin birincisidir.

**2.** İbn Məs`udun mushəfində surələr həcmcə böyükdən kiçiyə doğru – "həvamim" surələr istisna olmaqla – sıralanmışdır.

**3.** İbn Məs`udun mushəfində "Fatihətul-Kitab" və "muəvvəzəteyn" surələri qeyd olunmayıb. İbn Sirin belə deyir: "Abdullah ibn Məs`ud "Fatihətul-Kitab" və "muəvvəzəteyn" surələrini öz mushəfində yazmırdı."[1] Onun "Fatihətul-Kitab" surəsini öz mushəfində yazmamasının səbəbi heç də onu bir surə kimi qəbul etməməsi deyildi. Ümumiyyətlə, Quranın yazılmasında məqsəd, surələrin unudulmaması və qorunub saxlanması olmuşdur və "Fatihətul-Kitab" surəsini müsəlmanlar hər namazda oxuduqlarından onun unudulması barədə heç bir nigarançılıq yox idi. "Fələq" və "Nas" surələri barədə İbn Məs`udun əqidəsi bu idi ki, bu iki surə sehr və ya bədnəzəri dəf etmək üçün bir hirzdir (mühafizə edən, qoruyan zikrlər). Hədislərin birində yazılır ki, Peyğəmbər (s) yəhudilərin sehr-cadusundan qorunmaq üçün bu iki surəyə pənah aparmışdı.[2]

**4.** "Əqna" əsərinin müəllifi qeyd edir ki, İbn Məs`udun mushəfində "Bəraət" surəsinin əvvəlində "Bismillah" var idi.[3]

**5.** İbn Məs`udun mushəfində bir sözü eynimənalı sözlə əvəz etmək icazəli hesab olunurdu. Oun ibn Abdullah deyir:

"İbn Məs`ud bir kişiyə Quran təlim edirdi. O, Duxan surəsinin 43-44-cü ayələrini tilavət etdi:

إِنَّ شَجَرَتِ الزَّقُّوم. طعامُ الأَثِيم.

"Bəli, zəqqum ağacı, günahkarların yeməyi."

O kişi dedi:

طَعامُ الْيَتِيم.

İbn Məs`ud ayəni yenidən tilavət etdi. Lakin həmin kişi "**الأثِيم**" sözünü tələffüz edə bilmədi. Abdullah ibn Məs`ud ondan soruşdu: "**طعامُ الْفاجِر** deyə bilərsənmi?" O kişi: "Bəli" - deyə cavab verdi. İbn Məs`ud dedi: "Elə isə bu cür oxu!"[4]

İbn Quteybə nəql edir ki, İbn Məs`ud "Qariə" surəsinin 5-ci ayəsini belə oxuyurdu:

وَ تَكُونُ الجِبالُ كالْعِهْنِ المَنْفُوش ـ وَ تَكُونُ الْجِبالُ كَالْصَوْفِ الْمَنْفُوش

---

[1] "əl-Fihrist", s.29.
[2] "ət-Təmhid", c.1, s.314.
[3] "əl-İtqan", c.1, s.204.
[4] "əl-İtqan", c.1, s.149.

Çünki “عِهْنِ” sözü ilə “صَوْفِ” sözü eyni mənanı bildirir və sözün mənası “yun” deməkdir.

**6.** Onun mushəfində bəzi hallarda sözlərin yeri dəyişdirilib, qabağa və ya geriyə atılıb. Məsələn:[1]

كذلكَ يطبعُ اللهُ علىٰ كُلِّ قَلْبِ مُتَكَبِّرٍ جَبّارٍ ـ كذلكَ يطبعُ اللهُ علىٰ قَلْبِ كُلِّ مُتَكَبِّرٍ جَبّارٍ

**7.** Onun mushəfində təfsir yönlü əlavələr mövcud idi. Məsələn, o, “Hud” surəsinin 71-ci ayəsində “وَ هُوَ قاعد” ifadəsini “وَ امرأته قائمة” ifadəsinə əlavə etmişdir.[2]

**8.** Əksər hallarda İbn Məs`uda nisbət verilən fərqli qiraətlər, sözləri öz ləhcəsində qiraət etməsi ilə əlaqədar idi. Məsələn, bəzən o, “حاء” hərfini “عين” tələffüz edirdi və “حتّى” sözünü “عتّىٰ” kimi qiraət edirdi. Yaxud aşağıdakı sözləri belə tələffüz edirdi:

عميق ـ مَعِيق

كافور ـ قافور

بَقَر ـ باقر

Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`ud kimi iki tanınmış səhabənin mushəflərinin əsas xüsusiyyətləri bunlardan ibarət idi. Surələrin qruplaşdırılması baxımından digər səhabələrin mushəfləri də demək olar ki, bir-birinə oxşardır.

Lakin bəzi səhabələrin mushəfində surələr nüzul ardıcıllığı ilə sıralanmışdı. Müfəssir Şəhristani öz təfsirinin müqəddiməsində Əli ibn Əbu Talibin (ə) yetirməsi olan İbn Abbasın mushəfinin belə xüsusiyyətə malik olduğunu qeyd edir.

Şəhristani İmam Sadiqə (ə) mənsub mushəfin də həmin şəkildə tərtib edildiyini qeyd edir: İqrə, Nun, Muzzəmmil, Muddəssir, Təbbət, Kuvvirət, Ə`la, Ləyl, Fəcr, Zuha, Ələm nəşrəh, Əsr, Adiyat, Kövsər, Təkasur...Tövbə və Maidə.[3]

## *Fəslin əsas mətləbləri:*

**1.** Quran xüsusunda “cəm” (جَمْع) sözü (və eyniköklü sözlər) dörd mənada işlənibdir: Quranı əzbərləmək, Peyğəmbərin (s) dövründə ayələrin surələrdə yazılması, Peyğəmbərin (s) vəfatından sonra Quranın bir kitab şəklində tərtib edilməsi və yığılması, qiraətlərin cəm edilməsi (vahid mushəfin yaradılması).

**2.** Quran alimləri arasındakı fikirayrılığı Quranın Peyğəmbərin (s) vəfatından əvvəl, yoxsa sonra “mushəfdə cəm edilməsi” (bir kitab şəklində tərtib edilməsi) barədədir.

**3.** Saysız dəlillər və tarixi faktlara əsasən, Qurani-Kərim Peyğəmbərin (s) vəfatından sonra birinci xəlifə Əbu Bəkrin dövründə Zeyd ibn Sabit tərəfindən “mushəfdə cəm edilmişdir”.

---

[1] “əl-İtqan”, c.1, s.148.

[2] Dr. Ramyar, “Tarix-e Quran”, s.362.

[3] Zəncani, “Tarixul-Quran”, s.77-79.

**4.** Qurani-Kərim Peyğəmbərin (s) dövründə kitab şəklində tərtib edilməmişdi, çünki:

a) Şiə və sünni qaynaqlarında olan saysız hədislərdə qeyd edilir ki, Peyğəmbər (s) Əli ibn Əbu Talibə (ə) onun vəfatından sonra Quranı cəm etməyi vəsiyyət etmişdir. Əli (ə) də onun bu vəsiyyətinə əməl etmişdir.

b) Bildiyiniz kimi, Peyğəmbərin (s) ömrünün son günlərinə qədər ona vəhy nazil olmuşdur. Ayələrin tədrici nazil olması, Quranın Peyğəmbərin (s) dövründə kitab şəklində tərtib edilməsinə icazə vermirdi.

c) Hədislərə istinadən, Əli ibn Əbu Talib (ə) Peyğəmbərin vəfatından sonra Quranı mushəfdə cəm etdi və onun mushəfində surələr nüzul ardıcıllığı ilə yerləşdirilmişdi. Əgər qəbul etsək ki, Peyğəmbər (s) həyatda ikən hal-hazırda mövcud olan mushəfi tərtib etmişdir, bu o deməkdir ki, Əli ibn Əbu Talib (ə) Peyğəmbərin (s) vəfatından sonra onun mushəfini qəbul etməyib özü bir mushəf cəm etmişdir. Bu isə qəbul edilə biləcək bir iddia deyildir!

d) Bir çox səhabələr mushəf cəm etmişlər və onların mushəfləri arasında fərqli cəhətlər çoxdur. Bu isə, Peyğəmbərin (s) dövründə vahid bir mushəfin olmadığını göstərir.

**5.** Birinci xəlifə Əbu Bəkrin dövründə Quranın kitab şəklində tərtib edilməsinə səbəb, Yəmamə döyüşü oldu. Bu döyüşdə ən azı 70 Quran hafizi öldürüldü.

**6.** Peyğəmbərin (s) dövründə Quranın mushəfdə cəm edildiyini qəbul edənlərin ortaya qoyduqları dəlillərin heç biri qaneedici deyildir.

**7.** Uca məqamlı səhabələr olan Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`ud Quran hafizlərindən və qarilərindən, həmçinin "vəhy katibləri"ndən olmuşlar. Onlar Quranın təlimi və təfsiri, hədis və fiqh sahəsində böyük ustadlar idilər. Hər zaman Peyğəmbərin (s) kənarında olmuş və Əhli-beytə (ə) vəfalı şəxslər olmuşlar. Onların mushəfləri müsəlmanlar arasında xüsusi mövqeyə malik idi.

**8.** Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`udun mushəflərinin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Ümumilikdə demək olar ki, onların hər ikisi surələri belə qruplaşdırmışlar: tuvəl, məun, məsani, həvamim, mumtəhinat, mufəssəlat.

# Dördüncü fəsil

## Quranın üçüncü xəlifə Osman ibn Əffanın dövründə cəm edilməsi

**A) Vahid mushəfin yaradılmasına səbəb olan hadisə**

Ötən fəsildə aydın oldu ki, Peyğəmbərin (s) vəfatından sonra Qurani-Kərim birinci xəlifənin göstərişi ilə Zeyd ibn Sabitin başçılığı altında yaradılan bir heyət tərəfindən mushəfdə cəm edildi. Həmçinin qeyd etdik ki, bu işə hamıdan öncə Peyğəmbərin (s) vəsiyyəti ilə Əli ibn Əbu Talib (ə) başlamış və Qurani-Kərimi bir mushəfdə cəm edərək müsəlmanlara təqdim etmişdi. Bir çox tanınmış və nüfuz sahibi olan səhabələr öz üslublarında mushəf cəm etmiş və həmin mushəflər müsəlmanlar arasında yayılmışdı. Beləliklə, İslam məmləkətinin müxtəlif məntəqələrində ayrı-ayrı səhabələrin mushəfləri qiraət olunurdu. Hicri-qəməri ikinci və üçüncü onilliklərində İslam torpaqlarının genişlənməsi, İslam dininə iman gətirənlərin sayının günü-gündən artması və müsəlmanların öz səmavi kitabına olan böyük sevgi və diqqəti səbəb oldu ki, oxuyub-yazmağı bacaran şəxslər öz imkanları daxilində hər məntəqədə tanınmış mushəflərin üzünü köçürüb yaysınlar. Baxmayaraq ki, ilk əvvəl Kufədə Abdullah ibn Məs`udun, Şamda Ubəyy ibn Kə`bin və Bəsrədə Əbu Musa Əş`ərinin mushəfləri qiraət edilirdi, lakin zaman ötdükcə həmin şəhərlərdə Quranın oxunması və əzbərlənməsinə artan böyük tələbat saysız Quran nüsxələrinin yayılmasına səbəb oldu.

Həmin dövrdə yazı xətti olduqca ibtidai və naqis idi, belə ki, hafizəyə arxalanmadan Quranı mushəfdən oxumaq qeyri-mümkün bir iş kimi görünürdü. Növbəti fəsildə qeyd edəcəyik ki, ərəblərin yazı xəttində nöqtə, hərəkə və işarələr yox idi. Xəlifə Əbu Bəkrin dövründə Quranın mushəfdə cəm edilməsi bu səmavi kitabın qorunub saxlanması istiqamətində atılan mühüm bir addım hesab olunsa da, amma müsəlmanlar arasında fərqli qiraətlərin yaranmasının qarşısını ala bilmədi. Zaman ötdükcə, qiraətlər arasındakı fərqlər də çoxalırdı.

Tarixi mənbələrdə Quran qiraəti zəminində müsəlmanlar arasında yaranan qarşıdurmalardan söz açılır və deyilənlərə görə, elə bu qarşıdurmalara son qoymaq üçün bəziləri çıxış yolu axtarmağa başladılar.

Buxari "Səhih"də Ənəs ibn Malikdən aşağıdakı rəvayəti nəql etmişdir ki, Quran tədqiqatçıları bu mövzuda həmin rəvayətə istinad edirlər:

Ənəs ibn Malik deyir: "Huzeyfə[1] erməni və azərbaycan ilə müharibə aparan Şam və İraq qoşunlarında idi. Həmin müharibədə o, Quranın qiraəti zəminində müsəlman qoşununda qarşıdurmaların şahidi olur və bu onu hədsiz qorxuya salır. O, Mədinəyə geri döndükdə, xəlifə Osmanın yanına gedib deyir: "Ey əmirəl-möminin, İslam ümməti arasında yəhudilər və məsihilər kimi öz dini kitabları barədə qarşıdurma yaranmamışdan öncə onları xilas et!..."[2]

Başqa bir rəvayətə əsasən, Huzeyfə müharibədən geri döndükdə Səid ibn Ası Azərbaycanda görür və ona deyir: "Bu müharibədə müsəlman döyüşçülər arasında elə bir səhnənin şahidi oldum ki, əgər bu barədə ölçü götürülməsə, Quran barədə müsəlmanlar arasında ixtilaf və fikirayrılığı yaranacaq. Nəticədə isə, Qurana əməl olunmayacaq." Səid ondan soruşur: "Axı nə üçün?" O belə cavab verir: "Hums vilayətindən olanlar Quranın qiraətini Miqdaddan öyrəndiklərini səbəb gətirərək öz qiraətlərini digərlərindən üstün və düzgün hesab edirdilər. Dəməşqlilər də öz qiraətlərini üstün hesab edirdilər. Kufəlilər də həmin iddiada idilər və deyirdilər ki, onlar Quranı İbn Məs`udun qiraətinə uyğun qiraət edirlər və buna görə də onların qiraəti düzgündür. Bəsrəlilər də öz növbəsində Əbu Musa Əş`ərinin qiraətini daha üstün hesab edir və onun mushəfini "Ləbabul-qulub" adlandırırdılar."

Huzeyfə və Səid ibn As[3] Kufəyə yetişdikdə, Huzeyfə camaat arasında bu məsələni qaldırır. Kufədə olan səhabələrin və tabeinlərin çoxu onunla həmfikir olur, lakin İbn Məs`udun tərəfdarları – belə ki, onlar Kufədə İbn Məs`udun qiraəti ilə Quranı oxuyurdular - onlara qarşı çıxır. Huzeyfə Mədinəyə geri dönüb, xəlifə Osmanın yanına gedir və müharibə səfərində gördüklərini böyük narahatçılıqla ona danışaraq deyir: "Mən sizə xəbərdarlıq edirəm, İslam ümmətini xilas edin!"[4]

İş o yerə çatmışdı ki, hətta İslam məmləkətinin mərkəzi olan Mədinədə Quran müəllimləri öz şagirdlərinə Quranı fərqli qiraətlərdə təlim edirdilər.

Ənəs ibn Malik deyir: "Osmanın xilafəti dövründə iş o yerə çatdı ki, Quranın qiraətinə görə müəllimlərlə müəllimlər və şagirdlərlə şagirdlər davaya qalxdılar. Bu xəbər Osmana çatdı və o, camaata belə müraciət etdi: "Siz Mədinə camaatı bizim yanımızda olduğunuz bir halda bir-birinizlə davaya qalxır, bir-birinizin qiraətini təkzib edirsinizsə, onda bizdən uzaqda olanlar sizdən də artıq bir-biri ilə

[1] Huzeyfə ibn Yəman ilk müsəlmanlardan idi. O, Peyğəmbərin (s) sadiq ardıcıllarından olub "Peyğəmbərin (s) sirdaşı" ləqəbini qazanmışdı. Xəlifə Ömərin dövründə Mədainin valisi olmuşdur. Onun başçılıq etdiyi qoşun hicri 22-ci ildə Nəhavənd əyalətini fəth etmişdir. Həmin ildə o, Azərbaycanla sülh müqaviləsi imzalamış və bir neçə ildən sonra həmin müqavilə icra olunmuşdu. Xəlifə Osmanın dövründə o, Azərbaycanın valisi olmuşdur. Həzrət Əli (ə) xilafətə gəldikdə, onunla beyət etmişdir. O, Mədaində Salman Farsinin kənarında dəfn edilmişdir. (Dr. Ramyar, "Tarix-e Quran", s.412.)

[2] "Səhih-Buxari", fəsil: "Fəzailul-Quran", c. 6, s. 581; "əl-Burhan", c.1, s.330; "əl-İtqan", c.1, s.187; "əl-Mizan", c.12, s.122.

[3] Hicri 30-cu ildə xəlifə Osman ibn Əffan Vəlid ibn Uqbəni Kufənin valiliyindən kənarlaşdırıb Səid ibn Ası onun yerinə təyin etdi. ("əl-Kamilu fit-tarix", c.3, s.105.)

[4] "əl-Kamilu fit-tarix", c.3, s.111-112.

mübahisələr aparır və səhvlərə yol verirlər. Ey Peyğəmbər (s) ardıcılları, bir yerə toplaşıb camaat üçün vahid bir mushəf (imam mushəf) yazın..."[1]

**B) Vahid mushəf yaradılması üçün təşkil edilən heyət**

Vahid qiraətin yaranması üçün "vahid mushəf"in yaradılması təklifi Huzeyfə tərəfindən verildi. Qeyd etdiyimiz kimi, o, Mədinəyə gəlməmişdən öncə öz fikrini Kufədə olan Peyğəmbər (s) səhabələrinə açıqladı və İbn Məs`uddan başqa hamı onun fikrini dəstəklədi. Xəlifə Osman da bu işin zəruriliyini başa düşürdü. Lakin bu, asan bir iş deyildi. Çünki bu işi həyata keçirməkdən ötrü İslam məmləkətinin hər bir tərəfində müsəlmanlar arasında mövcud olan bütün mushəflər, hətta tanınmış səhabələrin mushəfləri də yığışdırılmalı idi. Bu səbəbdən, xəlifə Osman səhabələri məşvərət üçün bir yerə topladı və onlar bu işin çətinliyinə rəğmən onun həyata keçirilməsini zəruri hesab etdilər.

Nəhayət, müsəlmanların xəlifəsi Osman ibn Əffan qəti qərar verdi. Elə birinci mərhələdə Həfsənin (Ömər ibn Xəttabın qızı və Peyğəmbərin (s) zövcəsi) yanına adam göndərdi və üzünü köçürməkdən ötrü birinci xəlifənin cəm etdiyi mushəfi ondan əmanət kimi istədi (çünki həmin mushəf birinci xəlifə vəfat etdikdən sonra ikinci xəlifənin ixtiyarına keçmiş və o da vəfat etdikdə həmin mushəfi öz qızına vermişdi). Onu əmin etdi ki, iş tamamlandıqdan sonra onu geri qaytaracaqdır.[2]

Bunun üçün xəlifə Osman dörd nəfərdən ibarət bir heyət yaratdı. Heyət üzvləri bu şəxslər idi: Zeyd ibn Sabit, Abdullah ibn Zubeyr, Səid ibn As və Əbdurrəhman ibn Haris.[3] Xəlifə Osman onlara göstəriş verdi ki, əgər qiraətdə Zeyd ibn Sabitlə

---

[1] "əl-İtqan", c. 1, s. 187-188; "əl-Mizan", c. 12, s. 122.

[2] "əl-Burhan", c. 1, s. 330; "əl-İtqan", c. 1, s. 187; "Səhih-Buxari", c. 6, s. 581; "əl-Kamilu fit-tarix", c. 3, s. 112.

[3] Dr. Ramyar, "Tarix-e Quran", s. 417-419.

Heyət üzvlərinin hamısı üçüncü xəlifənin yaxın qohumları idilər.

**Zeyd ibn Sabit:** O, ənsardan və Xəzrəc qəbiləsindən idi. Bu heyətdə təkcə o, Qüreyşdən deyildi. Onun on bir yaşı olanda Peyğəmbər (s) Mədinəyə hicrət etmişdi. Xəlifələr ona böyük etibar bəsləmişlər. O, Peyğəmbərin (s) vəhy katiblərindən olmuşdur. "Bəni-Saidə səqifəsi" hadisəsində mühacirlərin xeyrinə çıxış edən cavan ənsar idi. Xəlifə Ömərin dövründə o, qazi və müfti mənsəbinə seçildi və xəlifə şəhərdən kənarda olduğu günlərdə onun yerinə əyləşərdi. Xəlifə Osmanın dövründə o, beytül-malın məsulu təyin edildi. O, xəlifə Osmana vəfadar qalıb Həzrət Əliyə (ə) beyət etmədi.

**Səid ibn As:** O, hicri 1-ci ildə dünyaya göz açmışdır. Onun atası Bədr döyüşündə Həzrət Əli (ə) tərəfindən qətlə yetirilmişdi. Yetim qaldığı üçün Osman ibn Əffanın himayəsində böyümüşdü. Günlərin birində Ömər ibn Xəttab ona dedi: "Sənin atanı mən öldürməmişəm, Əli ibn Əbu Talib öldürüb." O, belə cavab vermişdi: "Sən öldürsəydin də, sən haqq idin və o, batil." Ömər ibn Xəttab onun bu cavabından məmnun qalmış və sonralar Süfyan ibn Üveyfin qızını ona ərə vermişdi. Daha sonra o, Əbdurrəhman ibn Harisin də qızını zövcəliyə almışdı. Hicri 30-cu ildə xəlifə Osman onu Kufənin valisi təyin etdi. ("əl-Kamilu fit-tarix", c. 3, s. 107.) Səid, Müaviyənin dövründə Mədinədən üç mil uzaqlıqda yerləşən sarayında vəfat etdi.

**Abdullah ibn Zubeyr:** O, Mədinədə dünyaya göz açan ilk mühacir övladı idi. Çirkin və tünd xasiyyətli bir şəxs idi. Xalası Aişə onu çox istəyirdi.

**Əbdurrəhman ibn Haris:** Səidlə həmyaşıd idi. Atası hicri 18-ci ildə Şamda vəfat etdi və Ömər ibn Xəttab onun anasını zövcəliyə aldı. On səkkiz yaşından etibarən o, Ömər ibn Xəttabın evində böyümüş və bunu özünə iftixar hesab edirdi.

onlar arasında fikirayrılığı yaransa, Quranı öz ləhcələrində yazsınlar, çünki Quran Qüreyş ləhcəsində nazil olmuşdur.[1]

Bəzi mənbələrdə qeyd edilir ki, adı çəkilən dörd nəfər "vahid mushəf" yaradılması üçün təşkil olunan heyətin ilk üzvləri idilər və sonra bu heyətə daha bir neçə nəfər daxil edildi.

Məhəmməd ibn Sirin qeyd edir ki, Osman ibn Əffan "vahid mushəf" yaradılması işinə on iki nəfəri təyin etdi və onlar bir neçə mushəf yazdılar. Tarixi mənbələrdə həmin on iki nəfərin adı dəqiq qeyd edilməsə də, rəvayətləri araşdırdıqda bu nəticə əldə olunur: Zeyd ibn Sabit, Səid ibn As, Abdullah ibn Zubeyr, Əbdurrəhman ibn Haris (bu şəxslər heyətin ilk dörd üzvü idi), Ubəyy ibn Kə`b, Malik ibn Əbi Amir, Kəsir ibn Əfləh, Ənəs ibn Malik, Abdullah ibn Abbas və Abdullah ibn Əmr.[2]

**C) Heyətin apardığı işin mərhələləri**

Vahid mushəfin yaradılması üçün heyət hicri 25-ci ildə təşkil edildi.[3] İbn Hicr deyir:

"Vahid qiraətin yaradılması hicri 25-ci ildə baş verdi. Bizim müasirlərimizdən bəziləri bu məsələni lazımınca araşdırmamış və heç bir dəlil göstərmədən bu hadisənin hicri 30-cu ildə baş verdiyini güman etmişlər."[4]

Vahid mushəfin yaradılması üçün görülən birinci iş xəlifə Osmanın göstərişi ilə vüsətli İslam məmləkində mövcud olan bütün Quran mushəflərinin və əlyazmalarının toplanması oldu. Üçüncü xəlifə hətta Ömər ibn Xəttabın qızı Həfsədə olan mushəfi də ondan istədi. Həmin mushəf xəlifə Əbu Bəkrin dövründə cəm edilən mushəf idi ki, Əbu Bəkrdən sonra ikinci xəlifəyə çatmış və o da onu öz qızına vermişdi. Həfsə həmin mushəfi vermək istəmirdi və elə buna görə də xəlifə Osman ibn Əffan onu geri qaytaracağına and içdi. Mənbələrdə qeyd olunur ki, həmin mushəf "vahid mushəf"in yaradılması üçün təşkil olunan heyətin istinad etdiyi mənbələrdən biri olmuşdur.

---

Maraqlısı budur ki, Zeyd ibn Sabitdən başqa üç heyət üzvü Qüreyşdən və xəlifə Osmanın yeznələri idi. Osman xəlifə olduğu dövrdə qızı Məryəmi Əbdurrəhmana ərə verdi. Ümmü-Əmri də Səidə ərə vermişdi. Osman ibn Haris vəfat edtikdən sonra Abdullah ibn Zubeyr onun sabiq zövcəsi və Osmanın qızı olan Aişəni aldı.

Şübhəsiz ki, bu seçim bəzilərinin etirazına səbəb olacaqdı. Tarixi mənbələrə istinadən, xəlifə Osmanın qarşıya qoyduğu məqsəd hamı tərəfindən, hətta Əli (ə) tərəfindən müsbət qiymətləndirilmişdi. Lakin Abdullah ibn Məs`ud kimi bəzi şəxsiyyətlərin Osmana qarşı çıxamalarının səbəbi heyət üzvlərinin seçilmə meyarına görə idi. Abdullah ibn Məs`ud bunu açıqcasına bildirib demişdi: "Quranın cəm edilməsi işində məni kənarda qoyurlar, bir halda ki, mən Peyğəmbərin (s) şəxsən özündən 70 surəni təlim almışam. Həmin vaxtlarda Zeyd ibn Sabit uşaqlarla oynayırdı." (Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.446.)

[1] "əl-Burhan", c.1, s.330; "əl-İtqan", c.1, s.187; "Səhih-Buxari", c.6, s.581; "əl-Kamilu fit-tarix", c.3, s.112.

[2] "əl-İtqan", c.1, s.188; Dr. Ramyar, "Tarix-e Quran", s.420; "ət-Təmhid fi Ulumil-Quran", c.1, s.339.

[3] Dr. Ramyar, "Tarix-e Quran", s.433-435; "ət-Təmhid", c.1, s.333-335.

[4] "əl-İtqan", c.1, s.187.

İşin bu mərhələsində müsəlmanlardan yığılan mushəflər Mədiəyə göndərildi və üçüncü xəlifənin göstərişi ilə ya yandırıldı, ya da isti suya atıldı.[1] Bu səbəbdən Osman "Hərraqul-məsahif" adlandırıldı və baxmayaraq ki, çoxları onu "vahid mushəf"in yaradılması işində dəstəkləmişdilər, amma Quran əlyazmalarının yandırılmasına göstəriş verdiyi üçün onu məzəmmət etdilər.

Heyətin istinad etdiyi mushəflərdən biri də Ubəyy ibn Kə`bin mushəfi idi. Ubəyy sonradan heyətə daxil edilən 8 nəfərdən biri idi. Hətta bəziləri bu fikirdədirlər ki, 12 nəfərlik heyətə o başçılıq edirdi. Əbul-Aliyə deyir: "Onlar Quranı Ubəyyin mushəfindən cəm etdilər. Ubəyy diktə edir və bir qrup onun dediklərini yazırdı."[2]

Baxmayaraq ki, xəlifə Əbu Bəkrin və Ubəyy ibn Kə`bin cəm etdiyi mushəflər əsas istinad mənbəyi idi, lakin heyət digər Quran mushəflərini də araşdırırdı. Əbu Qulabə Ənəs ibn Malikdən belə nəql edir: "Hansısa bir ayə barəsində fikirayrılığı yarandığı zaman heyət bu qərara gəlirdi ki, bu ayəni Peyğəmbər (s) kimə təlim edibdirsə, hətta Mədinədən üç fərsəx uzaqlıqda yaşasa belə, onu çağırtdırsınlar. Həmin şəxsdən soruşurdular: "Peyğəmbər (s) filan ayəni sənə necə təlim etmişdir?" Heyət həmin şəxsin dediklərini mushəfdə boş qoyduqları yerdə yazırdılar."[3]

Başqa bir rəvayətdə Məhəmməd ibn Sirin, Kəsir ibn Əfləhdən belə nəql edir: "Heyət üzvləri arasında hansısa bir ayə barədə fikirayrılığı yarandığı zaman həmin ayəni yazmır, yerini boş qoyub keçirdilər." İbn Sirin deyir: "Zənnimcə, onlar ondan ötrü ayəni yazmırdılar ki, bu ayəni Peyğəmbərin (s) yanında tilavət edən ən axırıncı şəxsi tapıb onun dedikləri əsasında ayəni qeydə alsınlar."[4]

Bütün Quran mushəfləri yığıldıqdan və Quran bir qiraətlə yazıldıqdan sonra növbəti mərhələdə qiraətin eyni olduğuna əmin olmaqdan ötrü yazılan Quran nüsxələri tutuşdurularaq qiraət edildi.[5] Qeyd etdiyimiz kimi, həmin dövrdə yazı xətti çox ibtidai idi və hərflərin nöqtələri yox idi. Sözün ortasında "əlif" hərfi yazılmırdı, sözlərdə "hərəkə" qoyulmurdu. Bu səbəbdən də, vahid mushəfin yaradılması istiqamətində görülən işlər o qədər də uğurlu nəticələr vermədi. Sonralar yenidən Quranın müxtəlif qiraətləri ortaya çıxdı.

Heyətin apardığı işin sonuncu mərhələsində yazılan mushəflər İslam məmləkətinin ən mühüm və böyük şəhərlərinə göndərildi. Quranı camaata qiraət etsin deyə, üçüncü xəlifə tərəfindən təyin edilən bir qari də mushəflə birlikdə həmin şəhərlərə göndərildi. Müsəlmanlar bundan sonra göndərilən mushəfin qiraətinə uyğun Quranı qiraət etməli idilər.[6]

---

1 "Səhih-Buxari", c.6, s.581; "əl-Burhan", c.1, s.330; "əl-İtqan", c.1. s.187; "Quran dər İslam", s.193.
2 "ət-Təmhid", c.1, s.347.
3 "əl-İtqan", c.1, s.187-188; "əl-Mizan", c.12, s.122.
4 Əvvəlki qaynaq.
5 "ət-Təmhid", c.1, s.346.
6 "Səhih-Buxari", c.6, s.581.

**Ç) Osmani mushəflərin sayı**

Bu barədə müxtəlif nəzərlər mövcuddur. Əbu Əmr Dani "əl-Muqniə" adlı əsərində yazır: "Alimlərin əksəriyyəti bi fikirdədirlər ki, Osmanın mushəflərinin sayı dörd nüsxə idi və onların hər biri bu şəhərlərə göndərildi: Kufə, Bəsrə və Şam. Mushəflərdən biri isə Mədinədə saxlandı. Bəziləri isə mushəflərin sayının yeddi olduğunu deyir və adı çəkilən şəhərlərdən əlavə, Məkkə, Yəmən və Bəhreynə də Quran nüsxələrinin göndərildiyini qeyd edirlər. Lakin birinci nəzər daha düzgündür və əksər Quran alimlərinin nəzəri budur."[1]

Siyuti deyir: "Əksəriyyətin nəzərincə, Osmani mushəflər beş nüsxə olmuşdur. İbn Əbu Davud, Əbu Hatəm Sicistanidən belə nəql edir: "Yeddi mushəf yazıldı və Məkkə, Şam, Yəmən, Bəhreyn, Bəsrə və Kufəyə göndərildi. Bir nüsxə isə Mədinədə saxlandı."[2]

Yəqubi öz tarix əsərində Osmanın mushəflərinin sayının doqquz nüsxə olduğunu qeyd edir və adı çəkilən şəhərlərdən əlavə Misirə və Əlcəzairəyə də Quran nüsxələrinin göndərildiyini bildirir.[3]

Dr. Ramyar müxtəlif nəzərləri araşdırdıqdan sonra bu nəticəyə gəlir: "Xəlifə Osmanın dövründə ən mühüm və strateji şəhərlər Məkkə, Mədinə, Şam, Kufə və Bəsrə idi. Osmanın mushəfləri həmin şəhərlərə göndərildi. Sonralar əsas qiraətlər olan on qiraət də həmin şəhərlərə mənsub idi: Mədinədə Nafe və Əbu Cəfərin qiraəti, Məkkədə İbn Kəsirin qiraəti, Bəsrədə Əbu Əmr ibn Əlanın və Yəqubun qiraəti, Şamda İbn Amirin qiraəti, Kufədə Asimin, Həmzənin, Kəsainin və Xələfin qiraəti. Deməli, Osmanın ətraf məntəqələrə göndərdiyi, eləcə də, Mədinədə saxladığı mushəflərin ümumi sayı beş nüsxə idi."[4]

Bütün bu deyilənlərdən əldə olunur ki, Osmanın mushəfləri İslam məmləkətinin o dövrdə mərkəzi şəhərlərinə göndərildi. Vahid qiraətin yaranması hədəfini təmin etməkdən ötrü mushəflə birlikdə bir qari də ezam olundu. Belə ki, həmin şəhərlərdə hamı xəlifənin ezam etdiyi qarinin qiraəti əsasında Quranı qiraət və mübahisəli məqamlarda ona müraciət etməli idi. Həmçinin, yalnız həmin məntəqəyə göndərilən mushəfin üzünü köçürə bilərdilər. Mushəflərlə birlikdə ezam olunan qarilər bunlar idi: Abdullah ibn Saib (Məkkə mushəfi), Muğeyrə ibn Şəhab (Şam), Əbu Əbdurrahman Suləmi (Kufə), Amir ibn Əbdülqeys (Bəsrə) və "imam mushəf" sayılan Mədinə mushəfinin qarisi Zeyd ibn Sabit.[5]

Əgər ətraf məntəqələrə göndərilən mushəflər arasında ixtilaflı bir məqam ortaya çıxsaydı, Mədinədəki "imam mushəfə" müraciət olunurdu. Digər mushəflər də

---

[1] "əl-Burhan", c.1, s.334; "Quran dər İslam", s.193.
[2] "əl-İtqan", c.1, s.189.
[3] "Mucəzu Ulumil-Quran", s.165; "əl-Mizan", c.12, s.122.
[4] "Tarix-e Quran", s.459-464.
[5] "ət-Təmhid", c.1, s.350.

öz məntəqlərində "imam mushəf" hesab olunurdu, çünki bu mushəflər orada digər Quran nüsxələrinin istinad mənbəyi idi.

**D) Osmani mushəflərin əsas xüsusiyyətləri**

1. Osmani mushəflərdə surələr, səhabələrin mushəflərindəki ardıcıllıqla tərtib edildi. Yəni "tuvəl", "məun", "məsani", "mumtəhinat" və "mufəssəlat" surələr qrupu şəklində qruplaşdırıldı. Bu mushəflərdə surələrin ardıcıllığında nəzərə çarpan fərqli cəhət "Ənfal" və "Tövbə" surələrinin bir surə hesab edilməsi və yanaşı yazılaraq "Səb`u tuvəl" surələr (yeddi böyük surə) sırasında yerləşdirilməsi idi. Əvvəlki mushəflərin heç birində belə bir iş görülməmişdi.

İbn Abbas deyir: "Mən Osmandan soruşdum: "Axı siz nə üçün "məsani" surələrdən olan "Ənfal" surəsini "məun" surələrdən olan "Bəraət" surəsi ilə yanaşı yazdırıb ("Ənfal" surəsi və ardınca "Bəraət" surəsi), onlar arasında "Bismillah" yazdırmadınız və bunu "Səb`u tuvəl" surələr sırasında yerləşdirdiniz?" Osman belə cavab verdi: "Quran surələri tədrici olaraq Peyğəmbərə (s) nazil olurdu. Vəhy nazil olduqca Peyğəmbər (s) vəhy katiblərindən bəzilərini çağıtdırıb onlara buyurardı: "Bu ayələri filan xüsusiyyətləri olan surədə yerləşdirin!" "Ənfal" surəsi hicrətin əvvəllərində Mədinədə nazil olan surələrdən idi. "Bəraət" surəsi isə Mədinədə sonuncu nazil olan surədir. Amma bu iki surənin hekayəti bir-birinə oxşardır. Peyğəmbər (s) vəfat etdi və "Bəraət" surəsinin "Ənfal" surəsinin bir hissəsi olduğunu bizə açıqlamadı. Odur ki, mən də bu iki surəni yanaşı və ardıcıl yazdırıb aralarında "Bismillah" yazdırmadım."""[1]

Bu rəvayərin doğruluğu şübhə doğurur, çünki bu rəvayətdən belə əldə olunur ki, xəlifə Osman öz şəxsi rəyi ilə "Bəraət" surəsinin əvvəlində "Bismillah"ı yazdırmamışdır, bu gümanla ki, "Ənfal və Bəraət" surələrinin hekayəti oxşar olduğu üçün onlar bir surəni təşkil edir.

Lakin İbn Abbas Əli ibn Əbu Talibdən (ə) "Bəraət" surəsinin əvvəlində "Bismillah"ın yazılmaması səbəbini soruşduqda o həzrət belə cavab vermişdir: ""Bismillə̃hir raḥmə̃nir raḥi͠m" aman və rəhmət deməkdir. "Bəraət" surəsi isə qılınc çəkilməsinə əmr edir və orada aman yoxdur."[2]

2. Osmani mushəflərdə yazı xətti ibtidai idi. Belə ki, hərflərin nöqtələri yox idi. Sözlərdə hərəkələr və işarələr mövcud deyildi. Elə bu səbəbdən də, sonralar fərqli qiraətlər yenidən ortaya çıxdı.

**E) Osmani mushəflərin aqibəti**

Görəsən Osmani mushəflərdən bir əsər-əlamət qalıbdırmı?

Aparılan geniş tədqiqatlara, həmçinin Quranın tarixi zəminində şərqşünasların apardıqları araşdırmalara istinadən demək mümkündür ki, bəzi məscidlərdə, ki-

---

[1] "əl-Burhan", c.1, s.329; "əl-İtqan", c.1, s.190.

[2] "əl-Burhan", c.1, s.360.

tabxanalarda və muzeylərdə bir çox Quran əlyazmalarını "Osmani mushəf" hesab etmişlər, lakin Osmani mushəflərin hal-hazırkı dövrə qədər gəlib çatdığını qətiyyətlə söyləmək qeyri-mümkündür. Bəzi tarixi mənbələrdən əldə olunur ki, Osmani mushəflərdən bəzisi hicri 6-cı və 7-ci ərədək gəlib çatmışdır.

İbn Cubeyr (vəfat tarixi: hicri 614-cü il) Dəməşqin cami məscidində bir mushəf xəzinəsini görmüşdür ki, Şama göndərilən Osmani mushəf də orada imiş. Hər gün namazdan sonra bu xəzinə açılar və mushəfləri ziyarət etmək üçün orada izdiham yaranardı. Deyəsən, həmin mushəfi yaxından görən Yaqut Həməvi demişdir ki, orada belə deyirdilər: "Bu mushəfi Osman öz dəst-xətti ilə yazmışdır."[1]

Elə həmin illərdə İbn Kəsir də bu mushəfi görmüş və daha ətraflı məlumat vermişdir:

"Osmani mushəflərdən biri hal-hazırda Şamda cami məscidinin şərq sütunu yaxınlığında yerləşir. Bu mushəf əvvəl Təbəriyyə şəhərində imiş və təxminən hicri 518-ci ildə Dəməşqə gətirilib. Mən onu yaxından gördüm. Bu dəyərli kitab olduqca böyük və qalın idi. Zənnimcə dəvə dərisindən olan səhifələrdə gözəl xətlə yazılmışdı."[2]

Təəssüflər olsun ki, bu mushəflər zamanın keşməkeşli hadisələrində məhv olub aradan getmişdir.

**Ə) Surələrin ardıcıllığı "toqifi" idimi?**

Bu sual təkcə xəlifə Osmanın dövründə cəm edilən mushəf üçün deyil, həm də birinci xəlifə Əbu Bəkrin dövründə cəm edilən mushəf üçün yarana bilər. Qeyd etdik ki, "vahid mushəf" yaradılarkən səhabələrin, eləcə də, birinci xəlifənin dövründə cəm edilən mushəflərə istinad olunmuş və surələr həmin mushəflərdəki ardıcıllıqla yerləşdirilmişdir. Amma görəsən, istər birinci və istərsə də üçüncü xəlifənin dövründə surələrin ardıcıllığı və sıralanması toqifi idimi? Yəni surələrin belə sıralanmasını Peyğəmbər (s) göstəriş vermişdirmi? Yoxsa toqifi deyil, ictihadi idi (yəni şəxsi rəy əsasında idi)?

Bu sualın cavabı əvvəlki fəsillərdə aydınlaşdı. Lakin bəziləri surələrin ardıcıllığının toqifi olduğunu qəbul edirlər. Əbu Cəfər Nəhhas deyir: "Hal-hazırkı mushəfdə surələrin ardıcıllığı Peyğəmbərin (s) buyurduğu kimidir."

Vasilə ibn Əsqə Peyğəmbərdən (s) belə nəql edir:

أُعْطِيتُ مَكَانَ التَّوْرَاة السَّبْعَ الطُّوَل، وَ أُعْطِيتُ مَكَانَ الزَّبُور المَئِينَ، وَ أُعْطِيتُ مَكَان الإِنْجِيلِ المَثَانِى، وَ فُضِّلْتُ بِالْمُفَصَّل.

"Tövratın müqabilində mənə "yeddi böyük surə" verildi, Zəburun müqabilində mənə "məun" surələr verildi, İncilin müabilində mənə "məsani" surələr verildi və mən "mufəssəl" surələr ilə üstün edildim."

[1] Dr. Ramyar, "Tarix-e Quran", s.468-469.
[2] Əvvəlki qaynaq.

Bu hədis surələrin ardıcıllığının Peyğəmbərin (s) dövründən götürüldüyünə dəlalət edir.[1]

Bir çoxları, o cümlədən, Əbu Məhəmməd ibn Ətiyyə, Beyhəqi və Kermani də bu fikirdədirlər. İbn Ətiyyənin nəzərincə, Peyğəmbərin (s) dövründə Quran surələrinin əksəriyyətinin ardıcıllığı məlum idi və qalan az bir qisminin sıralanması ümmətə həvala olunmuşdur.[2]

Lakin sübutlar və faktlar bu nəzəri rədd edir. Siyuti deyir: "Alimlərin əksəriyyəti Quran surələrinin ardıcıllığının ictihadi olduğunu qəbul edirlər."[3]

Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`udun mushəflərini, həmçinin Osmani mushəfləri araşdırdıqda görürük ki, bu mushəflərdə surələrin tərtibi bir-birilə fərqlənir. Əgər surələrin tərtibi toqifi olsaydı, belə fərqlilik mövcud olmazdı. Əbu Abdullah Zəncani də deyir: "Ayələrin tərtibindən fərqli olaraq surələrin tərtibi ictihadi olmuşdur."[4]

Əllamə Təbatəbai "əl-Mizan" təfsirində yazır: "Xəlifə Əbu Bəkrin və Osmanın dövründə cəm edilən mushəflərdə surələrin ardıcıllığı birmənalı olaraq ictihadi olmuşdur. Buna dəlil olaraq, xəlifə Osmanın "Ənfal" və "Bəraət" surələrini "Ə`raf" və "Yunus" surələri arasında yerləşdirməsini göstərmək olar. Başqa bir dəlil isə səhabələrin mushəfləri ilə xəlifə Əbu Bəkrin və Osmanın dövründə cəm edilən mushəflərdə surələrin ardıcıllığı arasında fərqlərin mövcud olmasıdır."[5]

**F) Məsum İmamların (ə) "ikinci cəm" və "üçüncü cəm" barədə nəzərləri**

Təbii ki, şiə məzhəbinin ardıcılları olaraq Məsum İmamların (ə) xəlifə Əbu Bəkr və Osmanın dövründə cəm edilən mushəflər barədə nəzərini bilmək bizim üçün çox önəmlidir. Bu həqiqəti tarixi mənbələrə müraciət etməklə üzə çıxarmaq mümkündür.

Baxmayaraq ki, Əli ibn Əbu Talib (ə) onlardan qabaq Qurani-Məcidi nüzul ardıcıllığı ilə cəm edərək müsəlmanlara təqdim etmiş və onun mushəfi qəbul olunmamışdı, həmçinin nə "birinci cəm" (Əbu Bəkrin dövründə Quranın cəm edilməsi), nə də "ikinci cəm"də (Osmanın dövründə Quranın cəm edilməsi)[6] o, heyətə daxil edilməmişdi, lakin cəm edilən mushəfləri qəbul etmiş və ömrünün axırınadək, hətta öz xilafəti dövründə belə, onların əleyhinə bir söz söyləməmişdi. Bu böyük şəxsiyyətin övladları və canişinləri olan digər Məsum İmamlar (ə) Qurani-Məcidin etibarını kölgə altına salan bir söz əsla söyləməmiş, daim özləri

[1] "əl-Burhan", c.1, s.356; "əl-İtqan", c.1, s.197.
[2] "əl-Burhan", c.1, s.355; "əl-İtqan", c.1, s.196.
[3] "əl-İtqan", c.1, s.194.
[4] "Tarixul-Quran", s.79.
[5] "əl-Mizan", c.12, s.126.
[6] Əllamə Təbatəbai Quranın Həzrət Peyğəmbərin (s) dövründə cəm edildiyini qəbul etmədiyi üçün "birinci cəm" terminində Quranın Əbu Bəkrin dövründə cəm edilməsini, "ikinci cəm" terminində isə Quranın Osmanın dövründə cəm edilməsini nəzərdə tutmuşdur.

ona istinad etmiş və öz ardıcıllarına camaatın qiraəti kimi qiraət etməyi göstəriş vermişlər. Tam əminliklə demək olar ki, Əli ibn Əbu Talibin (ə) xilafət tərəfindən cəm edilən mushəfə etiraz bildirməməsinin səbəbi, o həzrətin Quran təfsiri barədəki baxışı olmuşdur: Quran ayələri bir-birini təfsir edir, bu təfsir üslubunda məkki və mədəni ayələrin və surələrin nüzul ardıcıllığı ilə qeyd edilməməsi məzmuna və hədəfə heç bir xələl gətirmir. Hansısa bir ayənin təfsirində bütün ayələr nəzərə alınmalıdır...[1]

Rəvayətlərin birində nəql olunur ki, xəlifə Osmanın dövründə vahid mushəf yaradıldıqdan sonra Təlhə Əli ibn Əbu Talibə (ə) təklif edir ki, Peyğəmbərin (s) vəfatından sonra tərtib etdiyi mushəfi camaata təqdim etsin. O, Təlhəyə heç bir cavab vermir. Təlhə israrla deyir ki: "O mushəfi camaata təqdim etməyəcəksən?". Əli ibn Əbu Talib (ə) isə ona belə cavab verir: "Ey Təlhə, bilərəkdən sənə heç bir cavab demədim. Mənə de görüm, Əbu Bəkrin və Osmanın cəm etdiyi Quranda əlavə nə isə var, yoxsa elə Quranın özüdür?" Təlhə deyir: "Onlarda heç bir əlavə yoxdur, başdan-ayağa Quranın özüdür." O həzrət buyurur: "Əgər həmin mushəfin ehtiva etdiyini əxz etsəniz, oddan xilas olar və cənnətə daxil olarsınız. Çünki bu Quranda bizim dəlilimiz və haqqımız, bizə itaətin vacibliyi bəyan olunubdur."[2]

Əhli-sünnə qaynaqlarında Suveyd ibn Ğəfələdən nəql olunur: "Əli (ə) buyurdu: "Osman barədə yalnız yaxşı sözlər deyin! And olsun Allaha, o, müsfəhlərin işlərini bizim hüzurumuzda yerinə yetirmişdir." Daha sonra buyurdu: "Qiraət barəsində bu nə söz-söhbətdir? Eşitmişəm bir-birinizə deyirsiniz ki, mənim qiraətim səninkindən üstündür. Bu, küfrə yaxındır." Biz ərz etdik: "Bu barədə sizin fikriniz nədir?" Buyurdu: "Fikrim budur ki, bütün müsəlmanlar bir mushəfdən qiraət etsinlər və arada heç bir fikirayrılığı olmasın." Dedik: "Gözəl fikirdir."[3]

Haris Məhasibi deyir ki, Əli (ə) belə buyurdu: "Əgər mən xəlifə olsaydım, mushəflər barəsində eynilə Osmanın etdiyini edərdim."[4]

Yenə də Haris Məhasibi "Fəhmus-sunən" adlı əsərində qeyd edir ki, Əli ibn Əbu Talib (ə) belə buyurdu:

رَحِمَ اللهُ أبُو بَكْرَ هُوَ أوَّلُ مَنْ جَمَعَ بَيْنَ اللَّوْحَيْنِ.

"Allah Əbu Bəkrə rəhmət etsin! O, (Quranı) iki lövhə arasında (iki üz qapağı arasında) cəm edən ilk kəs idi."[5]

Bu rəvayət "əl-İtqan" və "Mənahilul-irfan"da belə qeyd edilmişdir: "هُوَ أوَّلُ مَنْ جَمَعَ كِتَابَ الله". Yəni: "O, Allahın kitabını cəm edən ilk kəs idi."[6]

[1] "Quran dər İslam", s.195-196.
[2] "Biharul-ənvar", c.89. s.42.
[3] "əl-Mizan", c.12, s.123; "əl-İtqan" c.1, s.188.
[4] "əl-İtqan", c.1, s.189.
[5] "əl-Burhan", c.1, s.333.
[6] "əl-İtqan", c.1, s.183; "Mənahilul-irfan", c.1, s.253.

## *Fəslin əsas mətləbləri:*

**1.** Qurani-Kərim birinci xəlifə Əbu Bəkrin göstərişi ilə cəm edildikdən təxminən on üç il sonra Quran yenidən cəm edildi. Quranın yenidən cəm edilməsinə səbəb, müsəlmanlar arasında fərqli qiraətlərin ortaya çıxması idi.

**2.** Huzeyfə ibn Yəman vahid qiraətin yaradılması təklifini üçüncü xəlifəyə verdi. Peyğəmbər (s) səhabələri ilə məşvərət keçirildi və İbn Məs`uddan başqa hamı bu təklifi qəbul etdi.

**3.** Abdullah ibn Məs`ud “Osmani mushəflər”in cəm edilməsi üçün təşkil edilən heyətin üzvlərinin seçimində Osmanla razılaşmırdı.

**4.** Vahid mushəfin yaradılması üçün təşkil edilən heyətin ilk üzvləri bu şəxslər idi: Zeyd ibn Sabit Ənsari, Abdullah ibn Zubeyr, Səid ibn As və Əbdurrəhman ibn Haris. Bu şəxslərin xəlifə ilə səmimi münasibəti və yaxın qohumluq əlaqəsi var idi.

**5.** Vahid mushəfin yaradılması işinin mərhələləri bundan ibarət oldu:

a) İslam məmləkətinin bütün mərkəzi şəhərlərindən mushəflərin yığışdırılması və yandırılması;

b) Əbu Bəkrin mushəfinə - bu mushəf Ömərin qızı Həfsədə idi – və Ubəyy ibn Kə`bin mushəfinə istinadən, həmçinin Peyğəmbərin (s) səhabələrə təlim etdiyi qiraətə istinadən Quranın yazılması;

c) Mushəflərin qiraətinin eyni olduğuna və düzgün yazıldığına əmin olmaq üçün yazılan mushəfləri tutuşdurmaq;

ç) Yazılan mushəflərin o dövrdə İslam məmləkətinin mühüm və mərkəzi şəhərlərinə göndərilməsi və müsəlmanlardan Quranı bu qiraətlə qiraət etmələrini tələb etmək.

**6.** Böyük ehtimalla, Osmani mushəflər beş mushəf olmuşdur. Şam, Kufə, Bəsrə və Məkkə şəhərlərinin hər birinə bir mushəf göndərilmiş, bir mushəf də xilafətin mərkəzi olan Mədinədə saxlanmışdı.

**7.** Osmani mushəflərlə birlikdə bir qari də həmin şəhərlərə ezam edildi. Bu qarilər Muğeyrə ibn Şəhab, Əbu Əbdurrəhman Suləmi, Amir ibn Əbdul-Qeys, Abdullah ibn Saib və Zeyd ibn Sabit idi.

**8.** Osmani mushəflərdə surələrin qruplaşdırılması əvvəlki mushəflərdə olduğu kimi idi. Bu mushəflərdə sözlərin hərəkəsi, hərflərin nöqtəsi və heç bir işarə yox idi. Hal-hazırda bu müshəflərdən bir əsər qalmamışdır.

**9.** Quranın tarixi və onun cəm edilməsi araşdırıldıqda məlum olur ki, surələrin ardıcıllığı toqifi deyildir.

**10.** Quranın xəlifələr tərəfindən cəm edilməsinə Məsum İmamların (ə) münasibəti müsbət idi və onlar bu işə qarşı, yaxud cəm edilən mushəflərə qarşı heç bir etiraz bildirməmişlər.

# Beşinci fəsil

## Quranın yazı xətti

### A) Quranın yazı xətti

Bəlkə də bu hissənin birinci fəslində Quranın kitabəti və vəhy katibləri barədə bəhs edərkən Quranın yazı xətti barədə də məlumat verməyimiz münasib olardı. Lakin Quranın yazı xəttindən söz açarkən “Osmani yazı xətti”, eləcə də, “vahid mushəf” yaradıldıqdan sonra Quranın yazı xəttində aparılan dəyişikliklər və tətbiq edilən yeniliklər – yəni sözlərin hərəkələnməsi və hərflərin nöqtələnməsi – barədə məlumat verməyin lazımlı olduğunu nəzərə alaraq, bu mövzunu “Quranın cəm edilməsi” barədə olan bəhslərdən sonra yerləşdirdik.

Ümumiyyətlə, yazı xəttinin yaranması və təkmilləşməsi ayrıca bir tarixi mövzudur. Müasir tədqiqatçıların fikrincə, ən qədim və ilk yazı xətti misirlilərin yaratdığı “mixi xətti” olmuşdur. Sonralar finikiyalılar hal-hazırda dünya yazı xətlərinin mənşəyi sayılan yazı xəttini icad etdilər. Yazı xətləri silsiləsində finikiliyalıların yazı xəttindən şaxələnən “arami” xətti üçüncü yerdə durur. Deyilənlərə görə, yəhudilərin istifadə etdikləri “ibrani” yazı xətti “arami” yazı xəttindən yaranmışdır. Əslində, demək olar ki, “ibrani” yazı xətti “arami” yazı xəttinin yeni formasıdır. “Aramı” yazı xəttindən bir çox yazı xətləri, o cümlədən, “nəbti” yazı xətti şaxələnmişdir ki, bu xətt də öz növbəsində “nəsx” və “kufi” xətlərinin mənşəyi hesab olunur.[1]

Lakin şərqşünaslar “siryani” xəttini “nəbti” xəttinin kənarında qərar verir və bu fikirdədirlər ki, yazı xətti Ərəbistan yarımadasına iki şəkildə daxil olmuşdur: “siryani” xətti və “nəbti” xətti.




[1] Seyid Məhəmmədbaqir Huccəti, “Tarix-e Quran”, s.161-162.

Şərqşünasların fikrincə ərəb yazı xətti 2 qismə ayrılır: “siryani” yazı xəttindən qaynaqlanan “kufi” yazı xətti və “nəbti” yazı xəttindən qaynaqlanan “hicazi” və ya “nəsx” yazı xətti.

“Kufi” yazı xətti “istərəncili” yazı xəttinin bir şaxəsidir. Kufə şəhəri salındıqdan və bu yazı xətti orada təkmilləşdikdən sonra “kufi xətti” adı ilə tanındı. Müsəlmanlar bu yazı xəttindən adətən Quranı yazmaq üçün istifadə edirdilər. Sonralar isə mehrabların və məscid qapılarının yuxarısında, şəhərin mühüm tikililərinin üzərində həkk olunan kətibələrin yazılmasında, həcmi böyük mushəflərdə surələrin adının yazılmasında istifadə etdilər.[1]

Baxmayaraq ki, ilk əvvəl “kufi” yazı xətti “nəsx” yazı xəttindən daha məşhur idi və geniş yayılmışdı, lakin tədricən “kufi” yazı xətti öz yerini “nəsx” yazı xəttinə verdi və müsəlmanlar artıq Quranı bu xətlə yazmağa başladılar. Beləcə, bu xətt getdikcə təkmilləşdirilib gözəlləşdirildi. Hicri dördüncü əsrin sonları və beşinci əsrin əvvələrinədək Quran “kufi” yazı xətti ilə yazılırdı. Sonralar isə Quran “nəsx” yazı xətti və ondan şaxələnən müxtəlif xətlərlə yazılmağa başladı. Bəlkə də bu xətt, “kufi” yazı xəttini aradan qaldırdığı üçün “nəsx” adlandırılmışdır.[2]

**B) Quranda sözlərin hərəkələnməsi (erab) və hərflərin nöqtələnməsi (ecam)**

Quranın yazılması və yığılması barədə olan bəhslərdə qeyd etdik ki, Quranın yazı xəttində heç bir işarə yox idi. Bunun səbəbi isə, “kufi” və “nəsx” yazı xətlərinin mənşəyi sayılan “siryani” və “nəbti” yazı xətlərində işarələrin olmaması idi. Bu da Quranın müxtəlif qiraətlərinin ortaya çıxmasına səbəb oldu. Məsələn, “تتلوا” sözü belə oxuna bilərdi: “يَتْلُوا”, “تَتْلُوا”, “نَبْلُوا”.

İlk əvvəl ərəblər güclü hafizələrinə söykənərək – baxmayaraq ki, yazı xəttində heç bir işarə yox idi - Quranı düzgün qiraət edirdilər. Lakin İslam məmləkətinin əraziləri İran və Roma imperiyaları daxilinə qədər genişləndikdən və qeyri-ərəblər İslam dininə iman gətirdikdən sonra ərəb dili ilə digər dillərin qarşılıqlı təsiri nəticəsində ərəb dili öz fəsahət və orijinallığını itirdi. Belə ki, qeyri-ərəblərlə qaynayıb qarışan ərəblər artıq danışıqda və yazıda səhvlərə yol verirdilər. Bu səbəbdən də “Osmani yazı xətti”[3] ilə yazılan Quranın qiraətində səhvlərə yol verildi.

Ümumiyyətlə, ərəb dilində sözlərin hərəkələrinin və “erabı”nın dəyişməsi ilə məna dəyişir. Odur ki, sözlərin düzgün qiraəti çox böyük əhəmiyyət daşıyır.

---

[1] Əvvəlki qaynaq, həmçinin Zəncaninin “Tarixul-Quran” əsəri, s.53-60.

[2] Seyid Məhəmmədbaqir Huccəti, “Tarix-e Quran”, s.212.

[3] Xəlifə Osmanın dövründə heyət tərəfindən yazılan mushəflərin yazı xətti “Osmani yazı xətti” adlanır. Bu yazı xəttində də heç bir işarə mövcud deyildi və eyni zamanda bir çox hallarda sözün yazılışı onun oxunuşunu ifadə etmirdi. Bu yazı xətti Peyğəmbərin (s) səhabələrinin yazı xətti olduğu üçün müsəlmanlar onu təbərrük olaraq qoruyub saxlamışlar.

## Quranda sözlərin hərəkələnməsi

Bu işi ilk dəfə Əbul-Əsvəd Duəlinin[1] həyata keçirdiyi qeyd edilir. Bu barədə ən qədim rəvayət Əbul-Təyyib Luğəvinin rəvayətidir. Həmin rəvayətdə deyilir ki, Ziyad öz övladlarının ləhcə problemi ilə əlaqədar Əbul-Əsvəddən köməklik istədi. O da hərfləri nöqtələməyi qərara aldı.

Mədaininin Əbul-Fərəc İsfahanidən nəql etdiyi rəvayət daha yığcam və aydındır. Həmin rəvayətdə deyilir ki, "Ziyad" Əbul-Əsvəd Duəliyə Quran mushəflərində "erab" işini aparmağı tapşırdı. O da həmin işi yerinə yetirdi və "nəhv" elmi sahəsində müəyyən qaydalar yazdı.

İbn Əsakir isə əhvalatı Müaviyəyə bağlayır. Belə ki, günlərin birində Müaviyə Ziyadı oğlu Ubeydullahın ləhcəsinə görə danlayır. Buna görə də Ziyad Əbul-Əsvədi hiylə ilə bu işə vadar edir.[2]

Ziyad ibn Suməyyə Bəsrə və onun ətraf məntəqələrinin valisi idi (hicri 50-53-cü illər). Ətbi deyir: "Əməvi xəlifəsi Müaviyə Ziyada məktub yazıb ondan oğlu Ubeydullahı Şama göndərməsini istəyir. Ubeydullah Müaviyənin görüşünə gedir. Müaviyə onunla söhbət etdikdə, onun ərəb sözlərini düzgün tələffüz etmədiyini sezir. Müaviyə onu atasının yanına geri göndərir və Ziyada yazdığı məktubda oğlunun təhsilinə səhlənkarlıq göstərdiyinə görə onu danlayır. Buna görə də Ziyad oğluna təhsil vermək fikrinə düşür. Əbul-Əsvədi yanına çağıtdırıb ərəb dilinin başqa dillərin təsiri altına düşüb dəyişdiyini onunla müzakirə edir. Sonra ona təklif edir ki, Quranda sözləri hərəkələsin. Əbul-Əsvəd bu işdən boyun qaçırır. Lakin Ziyad öz fikrindən dönmür və bir kişiyə tapşırır ki, Əbul-Əsvədin yolu üstündə otursun və o, keçdiyi vaxt bu ayəni:

---

[1] Məşhur şair və tabein (Peyğəmbərin (s) səhabəsini görən şəxsə deyilir) Əbul-Əsvəd Duəli İmam Əlinin (ə) səhabəsi və "nəhv" elminin banisi kimi tanınır. Onun ən məşhur adı və soyu Zalim ibn Əmr ibn Sufyandır. Zalim adından başqa onu Osman və Əmr deyə də çağırırdılar. O, "Bəni-Kənanənin Muzər tayfası"ndandır. İslamın şərqə doğru fəthlərindən sonra Muzər tayfası İraqda, xüsusilə də, Bəsrə şəhərində məskunlaşdı. Bu tarixi fakt isə, Ömərin xilafəti dövründə Əbul-Əsvədin Bəsrəyə köçməsi barədə olan rəvayəti təsdiqləyir. Əmirəl-möminin Əlinin (ə) xilafəti dövründə kiçik bir dönəmdə Əbul-Əsvəd müəyyən hadisələrdə iştirak etmişdir. Əmirəl-möminin Əliyə (ə) olan sədaqəti və vəfadarlığı, Cəməl döyüşündə iştirak etməsi, İmam Əlinin (ə) və İmam Hüseynin (ə) mədhində söylədiyi şeir və ya mərsiyyə səbəb olmuşdur ki, o, Əli (ə) aşiqlərindən biri kimi tanınsın. Əbul-Əsvədin adı "nəhv" elminin (ərəb dilçiliyi) yaranma tarixi ilə sıx bağlıdır. Bu barədə tarixi mənbələrdə saysız rəvayətlər vardır. İbn Səlam (v.t.: h.q. 231-ci il) "Təbəqat" adlı əsərində yazır: "Ərəb dilçiliyi elminin təməlini qoyan və onun qanunlarını yazan şəxs Əbul-Əsvəd Duəli olmuşdur." İbn Səlamın dövrünədək kimsə Əbul-Əsvədin nəhv elminin banisi olduğuna işarə etməmişdi. Hicri dördüncü yüzilliyin ikinci yrısından etibarən Əbul-Təyyib Luğəvi, Əbul-Fərəc İsfahani və Sirafinin rəvayətləri nəticəsində qəfildən saysız və bəzən də ziddiyyətli rəvayətlər ərəb ədəbiyyatı kitablarında və "Təbəqat"larda görünməyə başladı. Bu rəvayətlərdə nəhv elminin banisi kimi bir neçə şəxsin adı çəkilirdi: İmam Əli (ə), Əbul-Əsvəd, Nəsr ibn Asim, Yəhya ibn Yə`mər, İbn Hurmuz. Əbul-Əsvədin ölüm tarixi barədə də onun həyatının başqa hadisələri kimi müxtəlif rəvayətlər qeyd edilmişdir. Mənbələrin çoxunda onun ölüm tarixi h.q. 69-cu il qeyd edilmişdir. Bəziləri isə onun Həccacın hakimiyyəti və Ömər ibn Əbdul-Əzinin xilafəti dövrünədək yaşadığını qeyd etmişlər. (Böyük İslam ensiklopediyası, c.5, s.179-188.)

[2] "Böyük İslam ensiklopediyası", c.5, s.189.

أَنَّ اللهَ بَرِیءٌ مِّنَ الْمُشْرِکِینَ وَ رَسُولُهُ...[1]

aşağıdakı şəkildə ucadan oxusun:

أَنَّ اللهَ بَرِیءٌ مِّنَ الْمُشْرِکِینَ وَ رَسُولِهِ...[2]

Bu, Əbul-Əsvədi çox narahat edir və həmin kişiyə deyir: "Mütəal Allah Öz Peyğəmbərindən (s) uzaq olduğunu buyurmaqdan ucadır." Elə oradan birbaşa Ziyadın yanına gedir və ona deyir: "Mən sənin təklifini qəbul edirəm. Quran sözlərini hərəkələməyi (erab) qərara aldım. Buna görə mənim yanıma bir katib göndər." Ziyad da onun yanına bir neçə katib göndərir. Əbul-Əsvəd onların arasından Əbdul-Qeysdən olan bir katibi seçib ona deyir: "Mushəfi götür və qaradan qeyri bir rəng seç. Əgər hərfi tələffüz etdiyim vaxt dodaqlarımı açsam, həmin hərfin üstündə bir nöqtə qoy (fəthə). Əgər hərfi tələffüz etdiyim vaxt dodaqlarımı aşağı endirsəm, həmin hərfin altında bir nöqtə qoy (kəsrə). Amma əgər hərfi tələffüz etdiyim vaxt dodaqlarımı yığsam, hərfin ortasında bir nöqtə qoy (zəmmə)." Deyəsən, Əbul-Əsvəd "sükun" işarəsini iki nöqtə ilə göstərmişdir.

Beləliklə, Əbul-Əsvəd Quranı asta-asta oxudu və katib də onun dediyi qaydada nöqtələri qoydu. Camaat bu üsulu bəyəndi və onun üsulunu təqlid etdi.[3]

Bu və ya digər rəvayətlərdən aydın olur ki, ilk əvvəl hərəkələr nöqtə ilə göstərilmişdir. Hətta bu işi Yəhya ibn Yə`mərə mənsub edən tədqiqatçılar da Quranın hərəkələnməsini "تَنْقِيط" və ya "نَقْطُ الْمَصَاحِف" ifadəsi ilə qeyd etmişlər.[4]

Əbu Əmr Dani deyir: "تَنْقِيط" Quranda iki şəkildə aparılmışdır:

1. "نَقْطُ الْإِعْجَام": oxşar qrafikası olan hərflərin nöqtələnməsi;

2. "نَقْطُ الإِعْرَاب" və ya "نَقْطُ الْحَرَكَات": müxtəlif hərəkələri ayırd etməkdən ötrü hərflərin nöqtələnməsi, məsələn, hərfin üstündə "fəthə" nöqtəsi, hərfin altında "kəsrə" nöqtəsi, hərfin qarşısında "zəmm" nöqtəsinin qoyulması.[5]

Bəzi hərflərin oxşarlığı və ya qısa saitlərin qeyd edilməməsi baxımından ərəb yazı xəttində yaranan çətinliklər, "siryani" yazı xəttində də var idi. Məsələn, "و" hərfinə oxşar hərf həm "د", həm də "ر" oxunurdu. Amma sonralar bu hərfin üstündə bir nöqtə qoymaqla "ر" hərfini, altında isə bir nöqtə qoymaqla "د" hərfini göstərdilər və bu hərflərin qarışıq düşməsinin qarşısını aldılar. Həmçinin qısa saitləri göstərməkdən ötrü "nöqtələmək" üsulundan istifad etdilər. Lakin bu üsul tezliklə tərk edildi. Uzaq ehtimal deyil ki, şair və alim Əbul-Əsvəd siryanilərin əsərlərindən məlumat əldə etmişdir.[6]

---

[1] "Allah və Onun Peyğəmbəri müşriklərdən uzaqdırlar (onlarla heç bir əhd-peymanları yoxdur)." Tövbə surəsi, ayə: 3.

[2] "Allah müşriklərdən və Peyğəmbərindən uzaqdır." Allaha pənah aprırıq!

[3] Dr. Ramyar, "Tarix-e Quran" s.534; Zəncani "Tarixul-Quran", s.171-173; "əl-Muhkəm fi nəqtil-məsahif", s.3-4.

[4] Sicistani, "Kitabul-məsahif", s.158.

[5] "əl-Muhkəm fi nəqtil-məsahif", s.26.

[6] "Böyük İslam ensiklopediyası", c.5, s.189.

## Hərflərin nöqtələnməsi

Ərəb dilində "عُجْمَة" (ucmə) sözü "aydın olmayan, anlaşılmayan" mənasını bildirir. Buna görə də ərəblər qeyri-fəsih danışığa "أَعْجَم" deyirlər. "İf`al" babının mənalarından biri "səlb" olduğu üçün "إِعْجَام" sözü "aydın olmayan və anlaşılmayan bir mənanı aydınlaşdırmaq" mənasını bildirir. Nöqtəli hərfləri ondan ötrü "مُعْجَمَة" adlandırmışlar ki, bir-birinə oxşar hərflər (məsələn, "ث - ت – ب" və ya "د ذ -" və ya "ض - ص") nöqtə vasitəsilə ayırd edilir və aydın olur. "مُعْجَمَة" hərflərin müqabilində nöqtəsiz hərflər "مُهْمَلَة" adlanır.

Əbul-Əsvəd Duəli yazı xəttindən qaynaqlanan çətinliklərdən birini aradan qaldırdı və sözləri hərəkələyərək Quranın düzgün qiraətini müəyyən qədər təmin etdi. Lakin oxşar yazılışı olan hərflərin oxunuşunda hələ də çətinlik yaranırdı. Hətta demək olar ki, Quran sözlərinin səhv tələffüzü "erab"dan daha çox, oxşar yazılışı olan hərflərin səhv salınmasından irəli gəlirdi. Başqa sözlə desək, sözlərinin hərəkəsi qoyulmayan bir mətni oxumaq, oxşar hərflərinin nöqtələri qoyulmayan bir mətni oxumaqdan qat-qat asandır.

Baxmayaraq ki, bəzi tədqiqatçılar ərəb yazı xəttinin mənşəyi sayılan "siryani" və "nəbti" yazı xətlərində oxşar hərflərin nöqtələr ilə ayırd edildiyini və hərflərin nöqtələndiyini inkar edirlər, lakin hərflərin nöqtələnməsinin daha qədim tarixə malik olduğunu danmaq qeyri-mümkündür. Bir qrup tədqiqatçı bəzi sübutlara əsaslanaraq demişlər: "Ərəb yazı xəttində oxşar hərflərin nöqtələnməsi İslamdan əvvəllərə qayıdır. Lakin bu üsul tədricən kənara qoyulmuşdu."[1]

Heç mümkündürmü ki, qədim sivilizasiyaya və yazı xəttinə sahib olan bir millət oxşar yazılışı olan hərfləri bir-birindən ayırd etmək üçün bir həll yolu fikirləşməsin?!

Quran elmləri tədqiqatçıları qeyd edirlər ki, Əbdul-Məlikin xilafəti dövründə İraqın əmiri olan Yusuf Səqəfi katiblərə göstəriş verir ki, oxşar hərfləri ayırd etməkdən ötrü nişanələr təyin etsinlər. Əbul-Əsvəd Duəlinin şagirdləri olan Xorasanın qazisi Yəhya ibn Yə`mər Ədvani (vəfat tarixi: hicri 129-cu il) və Nəsr ibn Asim Leysi (vəfat tarixi: hicri 89-cu il) öz ustadlarının işini davam etdirərək oxşar hərflərin nöqtələnməsi işinə başladılar. Müəyyən faktlara görə, Yəhya ibn Yə`mər bu işə başlamış, Nəsr ibn Asim onun işini davam etdirmişdir.[2]

Quranın hərəkələnməsi Əbul-Əsvəd Duəli tərəfindən "nöqtələmə" ilə həyata keçirilsə də, sonralar Xəlil ibn Əhməd Fərahidi (vəfat tarixi: hicri 175-ci il) fəthə, kəsrə, zəmmə və tənvinləri uyğun hərflərin kiçik ölçüdə yazılışı ilə əvəz etdi. Xəlil ibn Əhməd Fərahidi "نَقْط" (nöqtələmə) mövzusunda əsər qələmə alan ilk alimdir.[3]

---

[1] Zəncani, "Tarixul-Quran", s.174; Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.473.

[2] Zəncani, "Tarixul-Quran" s. 175; Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.469; Dr. Ramyar, "Tarix-e Quran", s.535.

[3] əl-Muhkəm fi nəqtil-məsahif", s.9.

“Erab” və “ecam” məqsədilə qoyulan nöqtələr səhv düşməsin deyə, “erab” nöqtələri qırmızı rənglə, “ecam” nöqtələri isə başqa bir rənglə yazılırdı. Əbu Abdullah Zəncani deyir: “Əndəlüsdə mushəflərin yazılmasında dörd rəngdən istifadə olunurdu: hərflər qara rənglə yazılır, “erab” nöqtələri qırmızı rənglə qeyd olunur, həmzələr sarı rənglə göstərilir, “vəsl əlifi” yaşıl rənglə müəyyən edilirdi.”[1]

Əbul-Əsvəd, Yəhya ibn Yə`mər, Nəsr ibn Asim və Xəlil ibn Əhməddən sonra da Quranın yazı xəttində müəyyən islahatlar aparıldı. Lakin “Osmani yazı xətti”nə çox müdaxilə etməməkdən ötrü – çünki bu xətti müqəddəs hesab edirdilər və onda “bidət” (yenilik) etməkdən ehtiyatlanırdılar - bu islahatlar çox ehtiyatlı şəkildə aparıldı. Ümumiyyətlə, Qurani-Kərimdə işarələrin qoyulması aşağıdakı üç mərhələni keçmişdir:

1. Hər növ “ecam” və “erab”a qarşı çıxılmışdır;
2. “Ecam” və “erab” işlərinin aparılmasına icazə verilmişdir;
3. Bu sahədə islahatlar və təkmilləşdirmə işləri aparılmışdır.[2]

Maraqlısı budur ki, “Quranın erab və ecamı”nı zəruri hesab edənlər və bu işə qarşı çıxanlar eyni hədəfi, məqsədi güdürdülər: bu səmavi kitaba verdikləri böyük əhəmiyyətə görə onu hər növ dəyişiklikdən qorumaq. Bəziləri bu barədə həddən artıq ehtiyat göstərdiklərinə görə hətta hicri beşinci əsrin əvvəllərinədək Quranı nöqtə və işarələrdən xali olan mushəflərdən qiraət edirdilər.[3]

## Quranın yazı xəttində dəyişikliklər və düzəlişlər aparmağa icazə verilirmi?

Hal-hazırda dünyanın müxtəlif dillərinin yazı xəttinin özünəməxsus qaydaları vardır. Bu qaydalara riayət etmək fikri düzgün ifadə edib başa düşmək, həmçinin səhvlərə yol verməmək üçün böyük əhəmiyyət daşıyır. Ərəb dili də istisna təşkil etmir və bu dilin yazı xəttinin müəyyən qaydaları vardır. Lakin Quranın yazı xətti “Osmani yazı xətti” olduğundan hal-hazırda ərəb dilinin yazı xətti üçün qəbul edilən qaydalara tam uyğun gəlmir. Nida, sual və s. işarələrin qoyulmamasından əlavə, sözlərin yazılışında da uyğunsuzluqlar mövcuddur. Məsələn, bir sıra sözlər fərqli surətlərdə yazılmışdır:

أَصْحَابُ لْئَيْكَةِ[4] ـ أَصْحَابُ الْأَيْكَةِ[5]
فَقَالَ الضُّعَفٰؤُا[6] ـ لَيْسَ عَلَى الضُّعَفَاءِ[7]

---

[1] “Tarixul-Quran”, s.177.
[2] “əl-Muhkəm fi nəqtil-məsahif”, s.10-17; Sicistani, “əl-Məsahif”, s.158-161.
[3] Seyid Məhəmmədbaqir Huccəti, “Tarix-e Quran”, s.480.
[4] Şuəra surəsi, ayə: 176; Sad surəsi, ayə: 13.
[5] Hicr surəsi, ayə: 78; Qaf surəsi, ayə: 14.
[6] İbrahim surəsi, ayə: 21.
[7] Tövbə surəsi, ayə: 91.

فَلَا يَسْتَئْخِرُونَ سَاعَةً١ - لَا يَسْتَأْخِرُونَ سَاعَةً[2]

يَمْحُ اللهُ الْبَاطِلَ[3] - يَمْحُوا اللهُ مَا يَشَاءُ[4]

قَالَ يَبْنَؤُمَّ[5] - قَالَ ابْنَ أُمَّ[6]

"ət-Təmhid" əsərinin müəllifinin fikrincə, Osmani mushəflərdə yetmış minə yaxın yazı səhvinə (orfoqrafik səhvə) yol verilmişdir.[7]

Burada belə bir sual ortaya çıxır ki, görəsən, Osmani yazı xətti ilə yazılan və çoxlarının etirafına görə, saysız yazı səhvlərinə yol verilən Quranı müasir ərəb yazı xəttinin qaydaları əsasında islah etmək mümkündürmü? Bu sual əvvəlki əsrlərdə də çoxlarını düşündürmüş, lakin cavab mənfi olmuşdur. Zuheyli deyir: "Alimlər icması, o cümlədən İmam Malik və Əhməd bu əqidədədirlər ki, Quran, "imam mushəf" olan Osmani mushəfin yazı xətti ilə yazılmalıdır və orada mövcud olan səhvlərə baxmayaraq buna qarşı çıxmaq haramdır. Çünki bu yazı xətti müxtəlif qiraətlərə dəlalət edir."

Lakin başqaları, o cümlədən, Qazi Əbu Bəkr Baqilani, İzzətdin Əbdussəlam və İbn Xəldun Quranın müasir dövrdə yazı xətti üçün qəbul edilən qaydalara müvafiq yazılmasını icazəli hesab edirlər. Çünki Quranın hökmən "Osmani yazı xətti" ilə yazılmasına dair heç bir nəss mövcud deyil.

"əl-Əzhər" universitetinin "dini fətva komitəsi" və bu komitənin üzvü olmayan bir çox müasir tədqiqatçı alimlər Osmani mushəfin yazı xəttinin qorunub saxlanması qənaətindədirlər. Çünki:

1. Bu, Quranın mətni xüsusunda – həm Quranın sözləri, həm də yazılışı xüsusunda – ehtiyata riayət etməkdir;

2. Keçmiş əsrlərdə Quran hansı qaydada yazılıbsa, həmin qayda qorunub saxlanır, belə ki, tanınmış din alimlərinin mushəfin yazı xəttini dəyişdirdikləri barədə rəvayət bizə gəlib çatmamışdır;

3. Məqbul və qeyri-məqbul qiarəti yalnız bu yazı xəttindən tanımaq mümkündür;

4. Əgər buna icazə verilsə, istehsan babı açılar və Quran təhrifə məruz qalar.[8]

Beyhəqi "Şuəbul-iman" əsərində yazır: "Yaxşı olar ki, mushəf yazmaq istəyən hər bir kəs Osmani mushəfin yazı xətti ilə yazsın. Çünki onlar bizdən elm və sədaqət baxımından üstün olmuş, bizdən daha əmanətdar idilər."[9]

---

[1] Yunus surəsi, ayə: 49.
2 Ə`raf surəsi, ayə: 34.
[3] Şura surəsi, ayə: 24.
[4] Rə`d surəsi, ayə: 39.
[5] Taha surəsi, ayə: 94.
[6] Ə`raf surəsi, ayə: 150.
[7] "ət-Təmhid" c. 1, s. 335.
[8] "Ulumul Quran indəl-muffəssirin" c. 1, s. 416.
[9] "əl-Burhan", c.2, s.14.

Ustad Həsənzadə Amuli deyir: "Quranı keçmişdən təvatur həddində bizə gəlib çatan yazı xəttindən qeyri bir xətlə yazmaq heç kimə icazə verilmir. Beləcə, Quran olduğu kimi qorunub saxlanılar və təhrifə məruz qalmaz."

Bu böyük alim sözlərinin davamında birbaşa hökm verir: "Quranın yazı xəttini dəyişdirmək birmənalı haramdır. Çünki Quranın yazı xətti "Dinin nişanələri"ndəndir  və onu qorumaq vacibdir. Beləcə, Quran hər növ müdaxilə və təhrifdən qorunar və insanlar Qiyamətədək xatircəmliklə ona istinad edə bilərlər."[1]

Bəziləri Osmani yazı xəttinin qorunub saxlanması barədə başqa bir dəlil gətirirlər: "Osmani yazı xətti müsəlmanların mədəni irsidir və bu irsi qorumaq lazımdır."[2]

Deyilən bütün bu dəlilləri aşağıdakı bəndlərdə xülasələşdirmək olar:

1. Osmani yazı xətti qorunub saxlanmalıdır, çünki bu yazı xətti müxtəlif qiraətləri özündə ehtifa edir (İmam Malik və Hənbəl).

2. Quranın mətni xüsusunda – həm Quranın sözləri və həm də kitabəti xüsusunda – ehtiyata riayət etmək olduğu üçün Osmani yazı xəttinin qorunub saxlanması vacibdir;

3. Qədim alimlərdən heç biri Quranın yazı xəttinin dəyişdirliməsinə dair fətva verməmişlər.

4. Mövcud yazı xəttində mötəbər qiraətləri qeyri-mötəbər qiraətlərdən ayırd etmək imkanı vardır.

5. Quranın yazı xəttinin dəyişdirliməsinə icazə verildiyi təqdirdə onun təhrifə məruz qalması təhlükəsi yarana bilər.

6. Osmani mushəflərin katibləri elm, sədaqət və əmanətdarlıq baxımından bizdən qat-qat üstün olmuşlar, odur ki, biz onların davamçıları olmalıyıq.

7. Quranın yazı xətti "Dinin nişanələri"ndən sayılır. "Dinin nişanələri"ni qoruyub saxlamaq vacib olduğu üçün bu yazı xətti də toxunulmaz qalmalıdır.

8. Quranın yazı xətti müsəlmanların mədəni irsidir və biz mədəni irsimizi qorumalıyıq.

Lakin yuxarıda qeyd edilən dəlillərin əksəriyyəti qaneedici deyildir və yalnız 5, 7 və 8-ci bəndlərdəki dəlilləri müəyyən qədər yaxşı dəlillər hesab etmək olar. Quranın təhrifi məsələsinə gəlincə, hal-hazırda bu birmənalı olaraq qeyri-mümkündür. Əgər keçmişdə Quranı təhrifdən və düşmənlərin müdaxiləsindən qorumaq üçün onun yazı xətti qorunub saxlanırdısa, - əlbəttə, belə də olmalı idi - lakin hal-hazırda müsəlmanların ixtiyarında olan imkanları nəzərə almaqla bu nigarançılıq əbəsdir. Yer üzünün əhalisinin 1⁄5-ni təşkil edən müsəlmanlar kütləvi informasiya vasitələrindən, müasir səs və görüntü texnikalarından istifadə edərək Quranı müsair yazı xəttinin qaydalarına uyğun yazmaqla yanaşı, Quranın qiraətini olduğu kimi qoruyub saxlamaq imkanına malikdirlər. Yer üzünün hər bir məntəqəsində

[1] "Həşt risaleyi-ərəbi", s.261-262.
[2] "Dirasatun Quraniyyə", s.147.

saysız audio və video Quran kasetləri mövcuddur, həmçinin müasir avadanlıqlarla təchiz olunan nəşriyyat və çapxanalarda Quran çox böyük diqqətlə nəşr edilir.

Lakin Osmani yazı xəttinin "dinin nişanələri"ndən, eləcə də, mədəni irs hesab edilməsi üzərində bir qədər düşünmək lazımdır və əlbəttə, əgər bu məsələlər isbat olunarsa, nəticə məlumdur. Bunu da qeyd etmək lazımdır ki, bir sıra müasir tədqiqatçılar Osmani yazı xəttinin qorunub saxlanmasını vacib hesab edən alimlərin fikri ilə razılaşmır və öz fikirlərini belə əsaslandırırlar: "Əslində, Osmani yazı xəttinin hökmən qorunub saxlanmasını qəbul etmək elmi metodla uyğunlaşmır və həmçinin qədimdəkilərin layiq olduqları məqamı həddindən artıq şişirtmək, onları qeyri-məntiqi şəkildə müqəddəsləşdirmək deməkdir."[1]

## Osmani yazı xəttinin nümunələrindən

1. Bir sıra sözlərdə **"ا"** hərfinin yazılmaması, o cümlədən:

بِسْمِ اللهِ الرَّحْمٰنِ الرَّحِيمِ، الرَّحْمٰن، ذٰلِكَ، ذٰلِكُمْ، أولٰئِكَ، لٰكِنْ ...

2. Qeyri-ərəb adlarda **"ا"** hərfinin yazılmaması, o cümlədən:

إبْرٰهِيم، إسْمٰعِيل، إسْحٰق، هٰرُون، سُلَيْمٰن ...

3. Nida olmayan yerlərdə **"ياء"** hərfinin yazılmaması və "kəsrə" ilə kifayətlənmək, o cümlədən, "Bəqərə" surəsində olan bu kəlmələrə diqqət yetirin:

وَ إِيَّاىَ فَارْهَبُونِ[2]، وَ إِيَّاىَ فَاتَّقُونِ[3]، وَ لَا تَكْفُرُونِ[4]، أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ[5]، وَ اتَّقُونِ يٰأُوْلِى الْأَلْبَابِ[6].

4. Bəzi sözlərdə **"م"** hərfindən sonra **"ا"** hərfinin əlavə edilməsi, o cümlədən:

مِائَة، مِائَتَيْن.

5. İki kəlmədə **xəfifə "ن"** hərfinin **"ا"** kimi yazılması:

وَ لَيَكُونًا مِّنَ الصَّاغِرِينَ[7]، لَنَسْفَعًا بِالنَّاصِيَةِ[8].

## *Fəslin əsas mətləbləri:*

**1.** Şərqşünaslar bu qənaətdədirlər ki, ərəb yazı xətti 2 qisimdir:

1) "Kufi" xətti: bu xəttin mənşəyi "istərəncili" yazı xətti ilə tanınan "siryani" xəttidir;

---

[1] Dr. Məhəmmədhüseyn Əli əs-Səğir, "Dirasatun Quraniyyə", s.147.
[2] Bəqərə surəsi, ayə: 40.
[3] Bəqərə surəsi, ayə: 41.
[4] Bəqərə surəsi, ayə: 152.
[5] Bəqərə surəsi, ayə: 186.
[6] Bəqərə surəsi, ayə: 197.
[7] Yusuf surəsi, ayə: 32.
[8] Ələq surəsi, ayə: 15.

2) “Hicazi” və ya “nəsx” xətti: bu xəttin mənşəyi “nəbti” xəttidir.

**2.** Müsəlmanlar Qurani-Kərimi hicri dördüncü əsrin sonlarınadək “kufi” xətti ilə yazırdılar. Sonra isə Qurani-Kərim “nəsx” xətti ilə yazıldı.

**3.** “Vahid mushəf”in yaradılmasından çox keçməmişdi ki, ərəblərlə qeyri-ərəblər arasında əlaqələrin genişlənməsi nəticəsində ərəb dili müəyyən təsirlərə məruz qaldı və buna görə də mushəflərdə işarələrin qoyulması zərurəti yarandı.

**4.** Quranın hərəkələnməsi “nöqtələmə” ilə həyata keçirildi və bu işi ilk olaraq Əli ibn Əbu Talibin (ə) şagirdi Əbul-Əsvəd Duəli yerinə yetirdi. Bu işi yerinə yetirməsinin səbəbi barədə isə müxtəlif rəvayətlər vardır.

**5.** Əbul-Əsvəd Duəli sözlərin hərəkələrini bu qaydada göstərmişdir: hərfin üstündə qoyulan bir nöqtə “fəthə” idi, hərfin altında qoyulan bir nöqtə “kəsrə” idi, hərfin ortasında qoyulan bir nöqtə “zəmmə” idi, iki nöqtə “sükun” işarəsi idi.

**6.** “إِعْجَام” sözü “aydın olmayan və anlaşılmayan bir mənanı aydınlaşdırmaq” mənasını bildirir. Quranın yazı xətti terminində isə “hərflərin nöqtələnməsi” mənasını bildirir. Çünki oxşar yazılışı olan hərflər nöqtələr vasitəsilə bir-birindən ayırd edilir (hansı hərf olduğu aydınlaşır).

**7.** Əbdul-Məlikin xilafəti dövründə İraqın valisi Həccac ibn Yusuf Səqəfinin təklifi ilə Yəhya ibn Yə`mər və Nəsr ibn Asim oxşar yazılışı olan hərflərin nöqtələnməsi işini yerinə yetirdilər.

**8.** Əbul-Əsvəd Duəli sözlərin hərəkələnməsini işini “nöqtələmə” ilə həyata keçirmişdisə, hicri ikinci əsrdə Xəlil ibn Əhməd Fərahidi hərəkələri bildirən nöqtələri hərflərin kiçik formasında olan işarələrlə əvəz etdi.

**9.** Osmani yazı xətti ilə yazılan hal-hazırkı mushəfdə yazı səhvləri (orfoqrafik səhvlər) vardır və hətta bəziləri bu səhvlərin sayının təxminən yeddi min olduğunu qeyd etmişlər.

**10.** Əgər Quranın yazı xəttinin “dinin nişanələri”ndən biri olduğu və ya mədəni irs olduğu qəbul edilərsə, bu yazı xəttini qoruyub saxlamaq zəruri olacaqdır.

***Dördüncü hissənin sualları:***

**1.** Vəhy katiblərinin adlarını çəkin və Peyğəmbərin (s) dövründə yazı vasitələri nə idi?

**2.** Vəhy katibləri Quran ayələrini surələrin tərkibində hansı şəkildə yazırdılar?

**3.** Bəzi ayələrin ardıcıllığının toqifi olmadığı barədə Əllamə Təbatəbainin nəzərini açıqlayın.

**4.** Nə üçün Əli (ə) Quranı mushəfdə cəm etdi və onun mushəfinin əsas xüsusiyyətləri hansılar idi?

**5.** “Quranın cəm edilməsi” termini hansı mənaları bildirir və bu mənalardan hansının ətrafında müsəlmanlar arasında fikirayrılığı vardır?

**6.** Quranın Peyğəmbərin (s) vəfatından sonra cəm edildiyinə dair üç dəlil gətirin.

**7.** Zeyd ibn Sabit Quranı hansı üslubda cəm etmişdir?

**8.** Quranın Peyğəmbərin (s) dövründə cəm edildiyini qəbul edənlərin gətirdikləri dəlillərdən beşini açıqlayın və onları qısaca cavablandırın.

**9.** Zeyd ibn Sabit "suhuf" cəm etmişdir, yoxsa "mushəf"? İddianızı necə əsaslandıra bilərsiniz?

**10.** Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`uda mənsub mushəflərin əsas xüsusiyyətlərini yazın.

**11.** Ümumiyyətlə, Quran surələri necə qruplaşdırmışdır?

**12.** Vahid qiraəti təmin etməkdən ötrü "vahid mushəf"in yaradılmasını kim təklif etdi? Bu təklifin yaranmasına hansı hadisə səbəb oldu? Bu iş hansı xəlifənin dövründə və neçənci ildə həyata keçirildi?

**13.** Vahid mushəfin yaradılması üçün təşkil edilən heyətin üzvləri kimlər idi?

**14.** Vahid mushəfin yaradılmasına qarşı çıxan səhabə kim idi? O, nə üçün etiraz mövqeyi tutdu?

**15.** Vahid mushəfin yaradılması işi hansı mərhələləri keçdi?

**16.** Osmani mushəflərin sayı neçə idi və bu mushəflər hansı məntəqələrə göndərildi?

**17.** Surələrin ardıcıllığı toqifidirmi? Nə üçün?

**18.** Quranın xəlifələr tərəfindən cəm edilməsi işinə qarşı Məsum İmamlar (ə) hansı mövqeni tutmuşlar?

**19.** Quranın "erab" və "ecam"ı nə deməkdir? İlk dəfə bu işi kimlər yerinə yetirmişdir?

***Araşdırma üçün suallar:***

**1.** "əl-Bəyan" əsərinin müəllifi Quranın cəm edilməsi barədə olan rəvayətləri necə dəyərləndirmişdir? (Müraciət edin: "əl-Bəyan", "ət-Təmhid", c.1, s.285.)

**2.** Vahid mushəfin yaradılmasının tarixi barədə araşdırma aparın.

**3.** Tarixi mənbələrdə Osmani mushəflərin sayı və taleyi barədə araşdırma aparın. (Müraciət edin: "Tarix-e Quran", Dr. Ramyar və Dr. Huccəti.)

**4.** Vahid mushəfin yaradılmasından sonra Quranın "erab" və "ecam"ı üç mərhələni - qadağan edilmə, icazə verilmə və təşviq edilmə mərhələlərini – geridə qoymuşdur. Bu məsələni izah edin.

**5.** "əl-Muqni" və bu kimi əsərlərə müraciət edərək Qurana xas olan yazı xətti nümunələrindən bir neçəsini qeyd edin.

# BEŞİNCİ HİSSƏ

## QURANIN TARİXİ (4)

# QURANIN QİRAƏTLƏRİ

## **Beşinci hissə:** Quranın qiraətləri

***Birinci fəsil:* Quranın qiraətinin keçdiyi mərhələlər**

***İkinci fəsil:* Qiraətlərin qeyri-mütəvatir olması**

***Üçüncü fəsil:* Əhrufu-səb`ə**

***Dördüncü fəsil:* Yeddi qiraət**

***Beşinci fəsil:* Qiraətlərin qəbul edilmə meyarları**

### *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Hicri dördüncü əsrə qədər Quranın qiraətinin keçdiyi mərhələlərə qısa baxış;
- Vahid mushəf yaradıldıqdan sonra müxtəlif qiraətlərin ortaya çıxması və bunun səbəbləri;
- Qiraətlərin mütəvatir olması barədə söylənilən fikir və bu fikirə bildirilən iradlar;
- "Əhrufu-səb`ə" məzmunlu hədislər barədə aparılan araşdırma və bu hədisin mənası;
- Qiraətlər barədə qələmə alınan əsərlər və qiraətlərin yeddi qiraətdə inhisarlaşdırılması;
- Yeddi qari və onların raviləri ilə tanışlıq;
- Qiraətin düzgün olma meyarı və bu barədə alimlərin nəzərləri;
- Digər qiraətlər arasında Asimin qiraətinin özünəməxsus cəhətləri.

### *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**əl-Bəyan fi təfsiril-Quran**; **əl-İtqan**, növ: 22-27; **əl-Burhan**, növ: 11, 22, 23; **Mənahilul-irfan**, altıncı və on birinci mövzu; **Həqaiqun hammətun həvləl-Quranil-Kərim,** fəsil: 3; **ət-Təmhid fi Ulumil-Quran**, c.2; **Ulumil-Quran indəl-mufəssirin; Məbahisun fi Ulumil-Quran; Kitabul-Məsahif; Kitabu əs-Səb`ətu fil-qiraat; əl-Huccətu lil-qurrais-səb`əti; Hirzul-əmani və vəchut-təhani (Şatibiyyə); əl-Kəşfu ən vucuhil-qiraatis-səb`i; ən-Nəşru fil-qiraatil-əşr; ət-Təysiru fil-qiraatis-səb`i; əl-Hiccətu fil-qiraatis-səb`i; əl-Muhtəsib; Tarix-e qiraat-e Qurani-Kərim.**

# Birinci fəsil

## Quranın qiraətinin keçdiyi mərhələlər

Quranın qiraəti müxtəlif mərhələləri keçmişdir:

***Birinci mərhələ:*** Bu mərhələdə Həzrət Peyğəmbər (s) Quranı öz səhabələrinə qiraət etmişdir. Beləliklə, bir dəstə səhabə Quranın qiraətini birbaşa və arada heç bir vasitə olmadan Həzrət Peyğəmbərdən (s) təlim almışdır. Bu səhabələrdən Əli ibn Əbu Talib (ə), Osman ibn Əffan, Ubəyy ibn Kə`b, Abdullah ibn Məs`ud, Zeyd ibn Sabit, Məaz ibn Cəbəl və başqalarının adını çəkmək olar. "Qarilər mərtəbələri"ndə bu səhabə qarilər "birinci mərtəbə"də qərar tutur. Belə ki, onlar Peyğəmbərdən (s) öyrəndikləri Quranı o həzrətə təqdim etmiş, o həzrətin hüzurunda qiraət etmişlər. Zəhəbi "Mərifətul-qurra" əsərində "birinici mərtəbə"də qərar tutan qarilərin siyahısını aşağıdakı şəkildə qeyd etmişdir:

1. Osman ibn Əffan
2. Əli ibn Əbu Talib
3. Ubəyy ibn Kə`b
4. Abdullah ibn Məs`ud
5. Zeyd ibn Sabit
6. Əbu Musa Əş`əri
7. Əbud-Dərda[1]

***İkinci mərhələ:*** Quranı Peyğəmbərdən (s) təlim alan "birinci mərtəbə"nin səhabə qariləri Quranı və onun qiraətini təlim etmək vəzifəsini daşıyırdılar. Peyğəmbərin (s) vəfatından sonra bəzi səhabələr Quranın qiraəti sahəsində xeyli məşhurlaşdılar. Belə ki, onların qiraətləri və mushəfləri müsəlmanlar arasında geniş yayıldı və tanındı. Kitabın üçüncü hissəsində bəzi səhabələrin, o cümlədən, Ubəyy ibn Kə`bin və Abdullah ibn Məs`udun mushəflərinin əsas xüsusiyyətləri barədə söhbət açdıq.

Bu mərhələdə - yəni Quranın qiraətinin bəzi səhabələr tərəfindən təlim edilməsi mərhələsində - diqqəti çəkən əsas cəhət, hər bir bölgənin tanınan və böyük nüfuz sahibi olan səhabələrinin qiraətinin həmin bölgədə geniş yayılması idi. Odur ki, qiraətlər şəxslərin adı ilə tanınırdı, məsələn: İbn Məs`udun qiraəti, Ubəyy ibn Kə`bin qiraəti, Məazın qiraəti, Əbu Musanın qiraəti və b. Beləliklə, bu mərhələnin əsas cəhəti qiraətlərin şəxslərə mənsub edilməsi idi və həmin cəhət bu mərhələni növbəti mərhələdən ayıran əsas cəhət hesab oluna bilər. Qarilər mərtəbələrində

[1] "Mərifətul-qurrail-kibar", s.24-42.

“ikinci mərtəbə”də qərar tutan qarilər, öz qiraətlərini “birinci mərtəbə”də qərar tutan qarilərə təqdim edən qarilər idi.[1]

***Üçüncü mərhələ:*** Kitabın dördüncü hissəsinin dördüncü fəslində qeyd etdik ki, fəthlər nəticəsində İslam dini müxtəlif məntəqələrə nüfuz etdi. İslam dinini qəbul edən müxtəlif qövmlər, millətlər arasında bu səmavi dinin müqəddəs kitabının öyrənib öyrədilməsi tədricən fərqli qiraətlərin ortaya çıxmasına bais oldu. Bir tərəfdən mushəflərin üzünün köçürülməsi ilə saysız Quran nüsxələrinin ortaya çıxması, digər tərəfdən hər bir şəhərdə səhabələrdən birinin qiraətinin geniş yayılması, eləcə də, ermənilərlə müharibə zamanı müsəlman ordusunda İraq və Şam qoşunlarının döyüşçüləri arasında Quranın qiraəti zəminində yaranan mübahisələri və çəkişmələri müşahidə edən Huzeyfə ibn Yəman dövrün xəlifəsinə vahid qiraətin yaradılması təklifini verir. Xəlifə Osman da bu məqsədlə bir neçə nəfərdən ibarət heyət təşkil edir, İslam məmləkətinin bütün bölgələrində yayılan mushəfləri cəm edir və vahid mushəf yaradaraq onları həmin dövrün mühüm və mərkəzi şəhərlərinə yollayır. Xəlifə Osman bölgələrə göndərilən hər mushəflə birlikdə bir qari də ezam edir. Həmin qarilər aşağıdakılardan ibarətdir:

1. Məkkəyə ezam edilən Abdullah ibn Saib Məxzumi (vəfat tarixi: təxminən hicri 70-ci il).
2. Kufəyə ezam edilən Əbu Əbdurrəhman Suləmi (vəfat tarixi: hicri 47-ci il).
3. Bəsrəyə ezam edilən Amir ibn Əbd Qeys (vəfat tarixi: hicri 55-ci il).
4. Şama ezam edilən Muğeyrə ibn Şəhab.

Mədinədə saxlanılan mushəfin qarisi isə Zeyd ibn Sabit idi.

Bu dövrdən etibarən Quranın qiraətinin üçüncü mərhələsinin başlandığını demək olar. Bu mərhələdə qiraətlər artıq şəxslərin deyil, şəhərlərin adı ilə hallanırdı.[2] Bu mərhələdə qiraətlər arasında ortaya çıxan fərqli məqamlar artıq həmin şəhərə mənsub edilirdi.

Bunu da qeyd etməliyik ki, baxmayaraq xəlifə Osmanın məqsədi müsəlmanlar arasında yayılan fərqli qiraətləri ortadan qaldırmaq və vahid qiraət yaratmaq idi, lakin o, heyət üzvlərinə belə bir tapşırıq vermişdi: “Sözlər və ifadələr elə bir şəkildə yazılsın ki, müxtəlif qiraətləri qəbul etmək imkanına malik olsun. Belə bir işi görmək mümkün olmayan hallarda isə fərqli qiraətlərdən biri mushəflərin birində öz əksini tapsın və beləcə, mötəbər qiraətlər mushəflər arasında paylansın.”[3] “Vahid mushəf” hicrətin üçüncü onilliyində, daha dəqiq desək, hicri 25-ci ildə yaradıldı.

***Dördüncü mərhələ:*** Vahid mushəfin yaradılmasından çox keçməmişdi ki, müxtəlif bölgələrə göndərilən mushəflər arasında yenidən fərqli qiraətlər orta-

[1] “Mərifətul-qurrail-kibar”, s.43-61.
[2] Sicistani, “Kitabul-məsahif”, s.39.
[3] “əl-İtqan”, c.1, s.157; “ən-Nəşru fil-qiraatil-əşr”, c.1, s.7.

ya çıxdı. Hicri birinci əsrin ikinci yarısında artıq “birinci mərtəbə”də qərar tutan qarilərin çoxu (yəni Quranı birbaşa və bilavasitə Peyğəmbərdən (s) təlim alan səhabə qarilər), mushəfə sahib olan, yaxud birinci və üçüncü xəlifənin dövründə Quranın cəm edilməsi işlərində yaxından iştirak edən qarilərin çoxu dünyasını dəyişdi. Beləliklə, Quran hafizlərinin və qarilərinin yeni nəsli onları əvəz etdi.

Belə hesab edirik ki, “birinci mərtəbə”də qərar tutan qarilərin vəfat tarixinə nəzər salmaq Quranın qiraətinin dördüncü mərhələsində mövcud vəziyyətin aydınlaşması baxımından faydalı olar:

Əbu Bəkr (vəfat tarixi: hicri 12-ci il), Ömər ibn Xəttab (v. t.: hicri 23-cü il), Ubəyy ibn Kə`b (v. t.: hicri 29-cu və ya 33-cü il), Abdullah ibn Məs`ud (v. t.: hicri 32-ci il), Əbud-Dərda (v. t.: hicri 32-ci il), Məaz ibn Cəbəl (v. t.: hicri 33-cü il), Huzeyfə ibn Yəman (v. t.: hicri 35-ci il), Osman ibn Əffan (v. t.: hicri 35-ci il), Əli ibn Əbu Talib (v. t.: hicri 40-cı il), Əbu Musa Əş`əri (v. t.: hicri 44-cü il), Zeyd ibn Sabit (v. t.: hicri 45-ci il), Əbu Əbdurrəhman Suləmi (v. t.: hicri 47-ci il), İbn Abbas (v. t.: hicri 68-ci il).

Osmani mushəflərin kitabətində lazımi diqqətin göstərilməsinə baxmayaraq, həmin mushəflər bir sıra xüsusiyyətlərə malik idi ki, bunun nəticəsində fərqli qiraətlər ortaya çıxdı. Fərqli qiraətlərin ortaya çıxmasında bir sıra amillərin də rolu olmuşdur ki, tezliklə bu barədə söhbət açılacaqdır. Tez bir zamanda İslam məmləkətinin mərkəzi şəhərlərində Osmani mushəfə sahib qari dəstələri əmələ gəldi ki, onlar Quranın qiraətini səhabələrdən və səhabələr də öz növbəsində Peyğəmbərdən (s) öyrənmişdilər.

İbn Cəzri və Dr. Əbdul-Hadi əl-Fəzli Quranın qiraətinin bu mərhələsində (dördüncü mərhələ) həmin mərkəzi şəhərlərdə tanınmış qarilərin adlarını sadalamışlar və biz də burada onların adlarını qeyd edirik:

**Mədinə qariləri:**

Məaz ibn Haris (vəfat tarixi: hicri 36-cı il), Səid ibn Musəyyib (v. t.: hicri 94-cü il), Urvə ibn Zubeyr (v. t.: hicri 95-ci il), Ömər ibn Əbdul-Əziz (v. t.: hicri 101-ci il), Əta ibnYəsar (v. t.: hicri 103-cü il).

**Məkkə qariləri:**

Ubeyd ibn Umeyrat (v. t.: hicri 74-cü il), Mucahid ibn Cəbər (v. t.: hicri 103-cü il).

**Kufə qariləri:**

Əmr ibn Şurəhbil (v. t.: hicri 60-cı ildən sonraya təsadüf edir), Əlqəmə ibn Qeys (v. t.: hicri 62-ci il), Məsruq ibn Əcdə (v. t.: hicri 63-cü il), Əbu Əbdurrəhman Abdullah ibn Həbib Suləmi (v. t.: hicri 74-cü il), Zərr ibn Hubeyş (v. t.: hicri 82-ci il), Səid ibn Cubeyr (v. t.: hicri 95-ci il), İbrahim ibn Yəzid Nəxəi (v. t.: hicri 62-ci il).

**Bəsrə qariləri:**

Amir ibn Əbd Qeys (v. t.: təxminən hicri 55-ci il), Əbul-Aliyə Rəfi ibn Mehran Riyahi (v. t.: hicri 90-cı il), Yəhya ibn Yə`mər Ədvani (v. t.: hicri 90-cı il), Nəsr ibn Asim Leysi (v. t.: təxminən hicri 100-cü ildən öncə).

**Şam qariləri:**

Muğeyrə ibn Əbi Şəhab Məxzumi (v. t.: hicri 70-ci ildən sonra), Xəlid ibn Sə`d.[1]

***Beşinci mərhələ:*** Hicri ikinci əsrin başlanğıcında Quranın qiraətinin yeni bir mərhələsi başlanır. "Qarilər yeddiliyi"nə daxil olan qarilərin vəfatı da elə hicri ikinci əsrə təsadüf edir. "Yeddiliyə" əlavə olunan və "qarilər onluğu" və "qarilər on dördlüyü" arasında üçüncü hicri əsrin əvvələrinədək yalnız üç nəfər həyatda qalmışdı. Həmin qarilər bunlar idi:

Yəhya İbn Mübarək Yəzidi (v. t.: hicri 220-ci il), Yəqub Həzrəmi (v. t.: hicri 205-ci il), Xələf (v. t.: 229-cu il).

Bu dövrün qarilərinin sonrakı əsrlərdə tanınan qarilərin qiraətləri üzərində qoyduqları mühüm təsiri nəzərə alaraq əminliklə demək olar ki, hicri ikinci əsr qiraət elminin çiçəkləndiyi bir dövr olmuşdur. Quran qiraətinin müxtəlif cərəyanları və firqələri həmin əsrdə meydana gəlmiş, böyük qiraət ustadları yetişmişdi. Belə ki, gələcək nəsillər ən yaxşı qiraət və qarini tanımaqdan ötrü hicri ikinci əsrə müraciət etməli olmuşlar. İndi isə hicri ikinci əsrdə beş mərkəzi şəhərdə tanınmış qarilərin adlarını qeyd edirik:

**Mədinə qariləri:**

Əbu Cəfər Yezid ibn Qə`qa "qarilər onluğu"na daxil idi (v. t.: hicri 130-cu il), Şeybə ibn Nəssah (v. t.: hicri 130-cu il), Nafi ibn Əbi Nəim "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 169-cu il).

**Məkkə qariləri:**

Abdullah ibn Kəsir "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 103-cü il), Həmid ibn Qeys Ə`rəc (v. t.: hicri 130-cu il), Məhəmməd ibn Muhəysin "qarilər on dördlüyü"nə daxil idi (v. t.: hicri 123-cü il).

**Kufə qariləri:**

Yəhya ibn Vəsab (v. t.: hicri 103-cü il), Asim ibn Əbin-Nucud "qarilər yeddiliyi"nə daxil idi" (v. t.: hicri 127-ci il), Suleyman Ə`məş "qarilər on dördlüyü"nə daxil idi (v. t.: hicri 148-ci il), Həmzə ibn Həbib Zəyyat "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 123-cü il), Kəsai "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 189-cu il).

---

[1] "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.8; "Tarix-e qiraat-e Qurani-Kərim", Dr. Seyid Məhəmmədbaqir Huccətinin tərcüməsi, s.36-38.

**Bəsrə qariləri:**

Abdullah ibn Əbi İshaq (v. t.: hicri 129-cu il), Əbu Əmr ibn Əla "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 154-cü il), Həsən Bəsri "qarilər on dördlüyü"nə daxil idi (v. t.: hicri 110-cu il), Asim Cəhdəri (v. t.: hicri 128-ci il), Qitadə ibn Də`amə (v. t.: hicri 117-ci il).

**Şam qariləri:**

Abdullah ibn Amir "qarilər yeddiliyi"nə daxil idi (v. t.: hicri 118-ci il), Ətiyyə ibn Qeys Kəlabi (v. t.: hicri 121-ci il), Yəhya ibn Haris Zimari (v. t.: hicri 145-ci il).[1]

Hicri birinci əsrin sonlarında və ikinci əsrdə bir qrup qiraət ustadları qiraət elminin meydana gəlməsində mühüm rol oynadılar.[2]

Beləliklə, qiraət elminin hicri ikinci əsrdə meydana gəlməsini, eləcə də, Bəsrə və Kufə şəhərlərinin bu elmin mərkəzi hesab olunmasını söyləmək olar.

***Altıncı mərhələ:*** Quran elmləri tədqiqatçılarının əksəriyyəti bu qənaətdədirlər ki, Quranın qiraəti zəminində yazılan ilk əsər Əbu Ubeyd Qasim ibn Səlama (v. t.: hicri 224-cü il) mənsubdur.[3]

Seyid Həsən Sədr "Təsisuş-şiə" əsərində yazır: "Əslində, Əban ibn Təğlibi (v. t.: hicri 141-ci il) Quranın qiraəti zəminində ilk əsər yazan alim bilməliyik."[4]

Qasim ibn Səlamdan sonra Hatəm Sicistani (v. t.: hicri 255-ci il), Əbu Cəfər Təbəri (v. t.: hicri 310-cu il) və İsmayıl ibn Qazi "Qiraətlər" zəminində əsərlər yazmışlar.[5]

Hicri üçüncü əsrin böyük ədəbiyyatçısı və alimlərindən sayılan Mubərrid adı ilə tanınan Əbul-Abbas Məhəmməd ibn Yəzid Bəsri (v. t.: hicri 286-cı il) Quran mövzusunda beş əsərin, o cümlədən, "İhticacul-qiraat" əsərinin müəllifidir.[6]

Beləliklə, hicri ikinci əsrdə məşhur qarilərin meydana gəlməsi ilə təməli qoyulan "qiraət elmi" sahəsində hicri üçüncü əsrdə əsərlər yazılmağa başladı. Quran tədqiqatçıları bu fikirdədirlər ki, üçüncü əsrdə Quranın qiraətləri zəminində əsərlərin yazılmasına səbəb, müxtəlif və saysız qiraətlərin ortaya çıxması və yayılması olmuşdur. Mushəflərin üzünün kütləvi şəkildə köçürülməsi, sayı gündən-günə artan qarilərin bəzən nəzər sahibi olmaları, həmçinin müxtəlif qiraətlərin yaranmasına səbəb olan bir çox amillər Əbu Ubeyd Qasim ibn Səlam və başqalarının qiraət elminin qaydalarını bir yerə toplayıb yazmalarına səbəb oldu.

***Yeddinci mərhələ:*** Hicri dördüncü əsrdə Quranın qiraətinin başqa bir mərhələsi başlandı. Hicri üçüncü əsrin sonlarında Qurani-Kərimin o qədər fərqli qiraətləri

[1] "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.8-9; "Mənahilul-irfan", c.1, s.415-416.
[2] Əvvəlki qaynaq.
[3] "Mənahilul-irfan", c.1, s.416; "Mərifətul-qurrail-kibar", s.172.
[4] "Tarix-e qiraat-e Qurani-Kərim", s.40.
[5] "Mənahilul-irfan", c.1, s.416.
[6] "Bəyyinat", s.97.

ortaya çıxdı ki, öz ustad və ya ustadlarından Quran qiraətini təlim alan şagird, bir qədər sonra özü də bəzi Quran ayələri barədə rəy və nəzər sahibi olurdu. Bu vəziyyət bir neçə müddət davam etdi və elə bu səbəbdən də dördüncü əsrin başlanğıcında Quranın qiraəti zəminində inqilab baş verdi. İbn Mücahid böyük qətiyyətlə Quranın qiraətində "ictihad qapısı"nı (rəy və nəzər sahibi olmaq) həmişəlik olaraq bağladı. O, hicri ikinci əsrin tanınmış qarilərindən yeddisinin qiraətini seçərək "əs-Səb`ə" əsərini qələmə aldı və etiraz mövqeyindən çıxış edən müasirlərini artıq qəbul olunmuş qərar qarşısında üz-üzə qoydu. Beləliklə, bu mərhələdə Quranın qiraətinin "yeddi qiraət"də inhisarlaşdırılması baş verdi.

Yuxarıda qeyd olunanlar hicri dördüncü əsrə qədər Quranın qiraətinin keçdiyi mərhələlərin müxtəsər izahı idi. Bəzi Quran tədqiqatçıları isə öz əsərlərində Quranın qiraətinin keçdiyi mərhələləri deyil, "qarilər məryəbələri" barədə bəhs etmişlər. Zəhəbi (v. t.: hicri 748-ci il) "Mərifətul-qurrail-kibar" adlı əsərində hicri səkkizinci əsrədək on səkkiz mərtəbədə qərar tutan 734 qarinin adını və tərcümeyi-halını qeyd etmişdir.[1]

## Müxtəlif qiraətlərin yaranmasına səbəb olan amillər

Bir qədər əvvəl Quranın qiraətinin keçdiyi mərhələləri izah etdik. İndi isə müxtəlif qiraətlərin yaranmasına səbəb olan amilləri araşdıracağıq. Bu sual çoxlarını maraqlandıra bilər ki, xəlifə Osmanın dövründə Quranın vahid qiraətlə oxunmasını təmin etmək məqsədilə vahid mushəf yaradıldıqdan sonra nə üçün yenidən müxtəlif qiraətlər ortaya çıxdı? Bu sualı cavablandırmaqdan ötrü bu vəziyyətin yaranmasına səbəb olan bir neçə amili nəzərdən keçirək:

**1. Osmani mushəflərdə "erab" və "ecam"ın olmaması:**

Vahid mushəf yaradıldıqdan sonra yenidən müxtəlif qiraətlərin yaranmasının başlıca amillərindən biri Osmani yazı xəttinin bir sıra xüsusiyyətləri idi, o cümlədən, sözlərdə hərəkələrin və hərflərdə nöqtələrin olmaması. Qərb şərqşünası Qoldziher bu fikirdədir ki, ərəb yazı xəttində oxşar yazılışı olan hərflər müxtəlif şəkillərdə səslənə bilirdi və hərflərin ayırd edilməsindən ötrü onların üstündə və ya altında müxtəlif sayda nöqtələr qoyuldu. Lakin bu, kifayət etmədi və "hərəkə"lər müəyyən sözün hansı cümlə üzvü olduğuna dəlalət etdiyinə görə onları düzgün qiraət etməmək müxtəlif qiraətlərin yaranmasına səbəb oldu.

Osmani mushəflərdə "erab" və "ecam"ın mövcud olmamasının iki səbəbi açıqlanmışdır: 1. Həmin dövrdə yazı xətti ibtidai idi.[2] 2. Xəlifə Osman yazılan mushəflərdə

[1] "Mənahilul-irfan", c.1, s.412-416; "ət-Təmhid", c.2, s.177-224.
[2] "Tarix-e qiraat-e Qurani-Kərim", s.125-126.

nöqtə və hərəkələrin qoyulmamasını göstəriş vermişdi və bu ondan ötrü idi ki, Quranın yeddi surətdə oxunması mümkün olsun.[1] Beləcə, Osmani mushəflərin yazı xətti elə bir şəkildə idi ki, yaddaşa arxalanmadan mushəfi üzündən oxumaq qeyri-mümkün nəzərə çarpırdı. Qurani-Kərimdə sözlərin çoxunu müxtəlif şəkillərdə qiraət etmək olurdu. Bu amildən qaynaqlanan müxtəlif qiraətlərdən bir neçəsinə nəzər salaq:

***Hərflərdə nöqtələrin olmamasından qaynaqlanan fərqli qiraətlər:***

1- Kəsai belə qiraət etmişdir: "**إِنْ جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَثَبَّتُوا**". Halbuki, başqaları belə qiraət etmişlər: "**فَتَبَيَّنُوا**".[2]

2- İbn Amir və kufəlilər belə qiraət etmişlər: "**نُنْشِزُهَا**". Başqaları isə belə qiraət etmişlər: "**نُنْشِرُهَا**" .[3]

3- İbn Amir və Həfs belə qiraət etmişlər: "**يُكَفِّرُ عَنْكُمْ**". Başqaları isə belə qiraət etmişlər: "**نُكَفِّرُ**".[4]

4- Asimdən başqa Kufə qariləri belə qiraət etmişlər: "**لَنُثَوِّيَنَّهُمْ**". Başqaları isə belə qiraət etmişlər: "**لَنُبَوِّئَنَّهُمْ**".[5]

5- İbn Suməyqə belə qiraət etmişdir: "**فَالْيَوْمَ نُنَحِّيكَ بِبَدَنِكَ**". Başqaları isə belə qiraət etmişlər: "**نُنَجِّيكَ**".[6]

***Sözlərdə hərəkələrin olmamasından qaynaqlanan fərqli qiraətlər:***

1- Həmzə və Kəsai belə qiraət etmişlər: " **اِعْلَمْ أَنَّ اللهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ**". Başqaları isə belə qiraət etmişlər: "**أَعْلَمُ**".[7]

2- Nafe belə qiraət etmişdir: "**وَ لَا تَسْأَلْ عَنْ أَصْحَابِ الْجَحِيمِ**". Başqaları isə belə qiraət etmişlər: "**لَا تُسْأَلُ**".[8]

**2. Sözün ortasında "əlif" hərfinin yazılmaması:**

Bu amil də bir çox məqamlarda müxtəlif qiraətlərin ortaya çıxmasına bais olmuşdur.

1- Bu ayənin: "**مَالِك يَوْمِ الدِّينِ**" – qiraətində bəziləri "**مَالِك**" və bəziləri "**مَلِك**" qiraət etmişlər.[9]

---

[1] Üçüncü fəsildə bu barədə söhbət açılacaqdır.
[2] Hucurat surəsi, ayə: 6.
[3] Bəqərə surəsi, ayə: 259.
[4] Bəqərə surəsi, ayə: 271.
[5] Ənkəbut surəsi, ayə: 58.
[6] Yunus surəsi, ayə: 92.
[7] Bəqərə surəsi, ayə: 259.
[8] Bəqərə surəsi, ayə: 119.
[9] Müraciət edin: "Mu`cəmul-qiraatil-Quraniyyə", c.1, s.7.

2- “غِشٰوَةٌ” sözü[1] bu şəkillərdə qiraət edilmişdir:

غُشَاوَةٌ، غَشَاوَةٌ، غِشَاوَةٌ، غَشْوَةٌ، غَشْوَةً

Hətta bundan başqa şəkillərdə də qiraət edilmişdir.[2]

3- “يَخْدَعُونَ” sözü[3] bu şəkillərdə qiraət edilmişdir:

يُخَادِعُونَ، يُخَادَعُونَ، يَخْدَعُونَ، يُخَدَّعُونَ

Hətta bundan başqa şəkillərdə də qiraət edilmişdir.[4]

4- “قِصَاص” sözü[5] “قَصَص” şəklində qiraət edilmişdir.[6]

5- “مِسْكِين” sözü[7] “مَسَاكِين” şəklində qiraət edilmişdir.[8]

Bu qəbildən onlarla başqa nümunə vardır ki, maraqlananlar “Mu`cəmul-qiraat” kitabına müraciət edə bilərlər.

**3. Müxtəlif ləhcələr:**

Qurani-Kərim ərəb ləhcələri arasında ən üstün və fəsahətli ləhcə sayılan Qureyş ləhcəsi ilə nazil olmuşdur. Lakin Quran qariləri müxtəlif ləhcələrə sahib olduqlarından çox güman ki, müəyyən sözləri öz ləhcələrində qiraət etmiş və nəticədə müxtəlif qiraətlər ortaya çıxmışdır.

1- “نَعْبُدُ” sözü[9] bəzi ərəb ləhcələrində “نِعْبُدُ” tələffüz edilir.

2- “نَسْتَعِين” sözü[10] bəzi ərəb ləhcələrində “نِسْتَعِين” tələffüz edilir.

3- Bəzən müxtəlif ləhcələr sözün bir hərfinin qabağa və ya geriyə keçirilməsinə bais olurdu, məsələn, Bəni-Təmim “صَاعِقَه” və “صَوَاعِق” sözlərini “صَاقِعَه” və “صَوَاقِع” tələffüz edirdi.[11]

4- Huzeyl qəbiləsi kəsrəli “و” hərfini dəyişib kəsrəli “ا” edirdi, məsələn, “وِعَاء” sözünü “إِعَاء” tələffüz edirdi.[12]

5- “İzhar və idğam”, “işmam”, “mədd və qəsr”, “imalə” və s. bu kimi qaydalardan qaynaqlanan fərqli qiraətlərin səbəbi də əksər hallarda müxtəlif ləhcələrin

---

[1] Bəqərə surəsi, ayə: 7.
[2] “Mu`cəmul-qiraatil-Quraniyyə”, c.1, s.22-24.
[3] Bəqərə surəsi, ayə: 9.
[4] “Mu`cəmul-qiraatil-Quraniyyə”, c.1, s.25.
[5] Bəqərə surəsi, ayə: 179.
[6] “Mu`cəmul-qiraatil-Quraniyyə”, c.1, s.140.
[7] Bəqərə surəsi, ayə: 184.
[8] “Mu`cəmul-qiraatil-Quraniyyə”, c.1, s.142.
[9] Həmd surəsi, ayə: 5.
[10] Həmd surəsi, ayə: 5.
[11] “ət-Təmhid”, c.2, s.22.
[12] “ət-Təmhid”, c.2, s.25.

təsiri və hər ləhcənin hərfləri müxtəlif şəkildə tələffüz etməsi idi. Məsələn, İbn Muhəysin "Muminun" surəsinin 15-ci ayəsində **"لَمَيِّتُون"** sözünü **"لَمَائِتُون"** qiraət etmişdir.[1]

**4. Qarilərin şəxsi rəy və nəzərləri:**

Müxtəlif qiraətlərin yaranmasının mühüm amillərindən biri də qarilərin ictihadı, yəni öz şəxsi rəy və nəzərlərini tətbiq etmələri olmuşdur. Quranın qiraətinin düzgün olma şərti "سِمَاع" (eşitmək) və "نَقْل" (nəql etmək) olduğu bir halda, bəzən bu zəruri şərtə riayət olunmurdu. Vahid mushəf yaradıldıqdan və həmin mushəflərlə birlikdə Quran qariləri müxtəlif şəhərlərə ezam edildikdən sonra bəzən elə olurdu ki, hansısa bir şəhərdə "erab" və "ecam"ı olmayan Osmani mushəfin qiraətində həmin qari müəyyən yerlərdə tərəddüd edirdi. Belə məqamlarda o, ehtimal verdiyi ən uyğun variantı seçərək həmin sözü qiraət edir və öz gümanına əməl edirdi, hətta öz rəyinə sübut da gətirirdi. Bir çox əsərlər, o cümlədən, "əl-Huccətu lil-qurrais-səb`ə" və ya "əl-Kəşfu ən vucuhil-qiraatis-səb`ə" əsərləri elə bu məqsədlə qələmə alınmış, qarilərin müxtəlif qiraətlərini bir sıra qrammatik qaydalarla əsaslandırmışlar.[2]

Müxtəlif qiraətlərin yaranmasına səbəb olan bu amillərdən başqa digər amillər də mövcuddur. Qiraətlər mövzusunda yazılan kitablarda bəzi qarilərin qiraətinə rast gəlinir ki, həmin qiraətlər nadirdir (şazz) və məşhur qiraətlərə ziddir. Əlbəttə, ilk baxışda zehndə bu sual yarana bilər: "Axı necə ola bilər ki, hansısa bir qari əksər hallarda digər qarilərin qiraətindən fərqli qiraət etmişdir?" Lakin təəssüf hissi ilə etiraf etmək lazımdır ki, hicri ikinci və üçüncü əsrlərdə Quranın qiraətinin bazarı rövnəq tapdığı bir dövrdə bir dəstə qari böyük şöhrət qazandı. Şan-şöhrət düşkünü olan bəzi qarilər də, dırnaqarası nadir qiraətlər yaratmaqla məşhurlaşmaq istədilər. Onlar Quranı başqalarının oxumadığı bir tərzdə oxumağa səy göstərdilər və əlbəttə ki, qiraətlərini müxtəlif qrammatik qaydalarla əsaslandırmağa çalışdılar. Baxmayaraq ki, Quran tədqiqatçılarının nəzərincə belə nadir qiraətlər qeyri-məqbuldur, lakin bütün qiraətlərə xüsusi ehtiram gözü ilə baxanlar belə qiraətləri qoruyub saxlamağa səy göstərmişlər. Osman ibn Cunəyy "əl-Muhtəsəb fi-təbyini-vucuhi-şəvazzil-qiraat" adlı əsərini bu məqsədlə qələmə almışdır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Quranın qiraətinin keçdiyi mərhələlər aşağıdakılardan ibarətdir:

***Birinci mərhələ:*** Peyğəmbər (s) Quranın qiraətini bəzi səhabələrinə təlim etmiş və onlar da qiraəti Peyğəmbərə (s) təqdim etmişlər, yəni o həzrətin hüzurunda Quranı qiraət etmişlər. Bu səhabələrdən ən məşhurları bunlardır: Əli ibn Əbu Ta-

[1] Geniş məlumat əldə etmək üçün müraciət edin: "ət-Təmhid", c.2, s.27-30.

[2] "ət-Təmhid", c.2, s.30-34.

lib (ə), Osman ibn Əffan, Ubəyy ibn Kə`b, Abdullah ibn Məs`ud, Zeyd ibn Sabit, Əbu Musa Əş`əri, Əbud-Dərda.

***İkinci mərhələ:*** "Birinci mərtəbə"də qərar tutan səhabə qarilər Quranın qiraətini başqa səhabələrə təlim etmişlər. "Birinci mərtəbə"də qərar tutan səhabə qarilərin qiraətinin və mushəfinin geniş yayılması, qiraətlərin şəxslərə mənsub edilməsi.

***Üçüncü mərhələ:*** Xəlifə Osman tərəfindən vahid qiraətin yaradılması və mərkəzi şəhərlərə "vahid mushəf"in nüsxələrinin göndərilməsi və qiraətlərin şəhərlərə mənsub edilməsi.

***Dördüncü mərhələ:*** Hicri birinci əsrin ikinci yarısından etibarən yenidən fərqli qiraətlərin ortaya çıxması və müxtəlif şəhərlərdə, o cümlədən, Mədinə, Məkkə, Kufə, Bəsrə və Şamda Quran hafizlərinin və qarilərinin yeni nəslinin meydana gəlməsi.

***Beşinci mərhələ:*** Hicri ikinci əsrdə böyük qarilərin və qiraət ustadlarının yetişməsi, belə ki, "yeddi qari" də bu qarilərin arasındadır.

***Altıncı mərhələ:*** Hicri üçüncü əsrdə qiraətlərin qeyd edilərək əsərlər qələmə alınması. Bu müəlliflərdən Əbu Ubeyd Qasim ibn Səlam, Əbu Hatəm Sicistani, Əbu Cəfər Təbərinin adını çəkmək olar.

***Yeddinci mərhələ:*** İbn Mucahid tərəfindən qiraətlərin yeddi qiraətdə inhisarlaşdırılması və bu iş hicri dördüncü əsrin əvvəllərində həyata keçirildi. Bundan sonra "yeddi qiraət" mövzusunda əsərlər qələmə alındı.

**2.** Fərqli və müxtəlif qiraətlərin ortaya çıxmasının bəzi səbəbləri bunlardır: mushəflərdə sözlərin hərəkəsinin və hərflərin nöqtəsinin olmaması, sözlərin ortasında "əlif" hərfinin qoyulmaması, müxtəlif ərəb ləhcələri, qarilərin şəxsi rəy və nəzərləri.

# İkinci fəsil

## Qiraətlərin qeyri-mütəvatir olması

Qurani-Kərimin (mətninin) mütəvatir olmasını bütün müsəlmanlar qəbul edirlər. Ümumiyyətlə, dini maarif və şəriət qanunlarının ən mühüm mənbəyi sayılan Qurani-Kərimin höcciyyəti onun "mütəvatir" və "qət`iyyus-sudur" olmasından qeyri bir yolla təsbit olmur. Ayətullah Xoi deyir: "Hansı firqə və məzhəbə mənsub olmasından asılı olmayaraq bütün müsəlmanlar eyni əqidədədirlər ki, Qurani-Kərimin təsbiti yalnız "mütəvatir olma" yolu ilə mümkündür. Şiə və sünni alimlərinin əksəriyyəti Quranın mütəvatir olmasına bu dəlilli gətirirlər ki, Qurani-Kərim dinin əsas mənbəyi və ilahi möcüzə olduğu üçün onun ayələrini nəql etməkdə maraq və məqsəd çox olmuşdur. Bu isə Quranın "mütəvatir xəbər" olması ilə nəticələnmişdir. Bu səbəbdən də "vahid xəbər" yolu ilə nəql edilən hər hansı bir mətn, şübhəsiz ki, Quran olmayacaqdır."[1]

Qurani-Kərimin mətninin mütəvatir olması məlum məsələdir. Amma görəsən Quranın qiraətləri də mütəvatirdirmi? Müxtəlif qiraətlərin ortaya çıxması tarixini və buna səbəb olan amilləri araşdırdıqda bu sualın cavabı tam aydın olur. Şiə məhzəbinin etiqadına görə, Quran bir qiraətlə nazil olmuşdur. İmam Baqirin (ə) belə buyurduğu nəql edilir:

إِنَّ الْقُرْءَانَ وَاحِدٌ نَزَلَ مِنْ عِنْدِ وَاحِدٍ وَ لٰكِنَّ الْإِخْتِلَافَ يَجِيءُ مِنْ قِبَلِ الرُّوَاةِ.

"Quran bir olan Allah tərəfindən bir qiraətdə nazil olmuşdur. Lakin müxtəlif qiraətlər Quran ravilərindən qaynaqlanır."[2]

Təbərsinin qeyd etdiyinə görə, şiə hədis qaynaqlarında Quranın bir qiraətdə nazil olduğuna dəlalət edən saysız hədislər mövcuddur.[3]

Əhli-sünnə alimlərindən olan Zərkeşi isə belə deyir: "Quran və qiraət iki ayrıca həqiqətdir. Quran "bəyan" və "möcüzə" üçün Peyğəmbərə (s) nazil olan vəhydir. Lakin qiraətlər, həmin vəhyin sözlərindəki hərflərin kitabətində və ya keyfiyyətində ortaya çıxan fərqli nəzərlərdir."[4]

Qiraətlərin qeyri-mütəvatir olmasının məlum məsələ olduğuna baxmayaraq, iki amil qiraətlərin mütavatir hesab edilməsinə səbəb olmuşdur:

---

[1] "əl-Bəyan", s.123-124.
[2] "Usuli-kafi", fəsil: Fəzlul-Quran, bölüm: ən-Nəvadir.
[3] "Məcməul-bəyan", c.1, s.79.
[4] "əl-Burhan", c.1, s.465.

1. Birinci amil Zərkeşinin vurğuladığı məsələdir, yəni Quran və qiraətin iki ayrıca həqiqət olduğuna baxmayaraq, bəziləri Quran ilə qiraətləri qarışdırmışlar. Onlar "Quran"ın mütəvatir olması barədəki nəzərlərini "qiraətlər"ə də aid etmişlər. Halbuki, "Quran nəssi" ilə bu nəssin "qiraəti" fərqli məsələlərdir.

2. İkinci amil, qiraətlər ilə "احْرُف سَبْعَة" (əhrufu-səb`ə) hədisini qarışdırmaqdan ibarətdir. Bəziləri yeddi qarinin qiraətlərini "əhrufu səb`ə" hesab etmişlər. Belə ki, əhli-sünnə hədislərinə əsasən, Quran "yeddi hərf"də nazil olmuşdur. Halbuki, bu ikisi arasında heç bir əlaqə mövcud deyil. Bir qədər irəlidə aydınlaşdıracağıq ki, yeddi qari və onlara mənsub qiaətlərin məşhurlaşması hicri dördüncü əsrdə İbn Mücahidin təşəbbüsü ilə gerçəkləşmişdir. Bir halda ki, çoxlarının fikrincə, həmin dövrdə bu yeddi qaridən daha üstün qarilər var imiş. Bu yeddi qarinin qiraətlərində də nadir qiraətlərə rast gəlinir və bu məsələni qiraət ustadları qeyd etmişlər. Dr. Subhi Saleh qiraətləri yeddi qiraətdə inhisarlaşdırdığına görə İbn Mücahidi qınayarkən belə yazır: "Yeddi sayı çoxlarını yanlışlığa salmış və onlar elə guman etmişlər ki, bu qiraətlər Peyğəmbər (s) hədisində sözükeçən "əhrufu səb`ə"dir."[1]

Qiraətlərin qeyri-mütəvatir olması barədə saysız dəlillər mövcuddur və aşağıda bu dəlillərin bir neçəsini nəzərinizə çatdırırıq:

1. Ravilərin tərcümeyi-halını, habelə, qarilərin Quranın qiraətlərini başqalarından əxz etdikləri yolları araşdırdıqda qiraətlərin mütəvatir olmadığı üzə çıxır.

2. Qarilərin öz qiraətlərinin düzgünlüyünə dair dəlil-sübut gətirmələri qiraətin "nəql" və "sima" yolu ilə olmadığını, əksinə, qiraətlərin qarilərin ictihadına, yəni şəxsi rəy və nəzərlərinə söykəndiyini göstərir. Bu isə, qiraətlərin qeyri-mütəvatir olmasına bir dəlildir. Çünki əgər qiraətlər mütəvatir olsaydı, dəlil-sübut gətirməyə və qiraətlərdə ictihad etməyə ehtiyac qalmazdı.

3. Bəzən müxtəlif qiraətlərdən qaynaqlanan fərqli və hətta bir-birinə zidd mənaların ortaya çıxması qiraətlərin qeyri-mütəvatir olmasına bir sübutdur. Çünki bu, qeyri-mümkündür Peyğəmbər (s) Quranı elə bir surətdə qiraət etsin ki, bu qiraətdən fərqli və bir-birinə zidd mənalar başa düşülsün. Halbuki, Qurani-Kərimdə buyurulur:

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْءَانَ وَ لَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا.

"Məgər onlar Quran (onun maarifi) barəsində düşünmürlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olmuş olsaydı, şübhəsiz, onda çoxlu ziddiyyət tapardılar."[2]

4. Əgər qiraətlər mütəvatir olsaydı, kimin səlahiyyəti çatardı ki, bu qiraətlərdən bəzilərini inkar etsin?! Lakin biz görürük ki, bir çox böyük qiraət ustadları hətta "yeddi qari"nin qiraətlərini inkar edirlər. Məsələn, Təbəri İbn Amirin qiraətini inkar edir, digər qarilərin də qiraətlərinə iradlar bildirir. Yaxud bu sahədə nəzər

[1] "Məbahisun fi Ulumil-Quran", s.249.

[2] Nisa surəsi, ayə: 82.

sahibi olan bəzi ailmlər Həmzənin, bəziləri Əbu Əmrin və bəziləri də İbn Kəsirin qiraətlərinə iradlar bildirirlər.[1]

5. Qiraətlərin "mütəvatir", "məşhur", "ahad", "şazz" və s. qisimlərə bölünməsinin özü qiraətlərin qeyri-mütəvatir olmasına bir sübutdur. Bəziləri yeddi məşhur qiraətin mütəvatir qiraətlər olduğunu sübuta yetirməyə cəhd göstərsələr də, lakin İbn Cəzri – belə ki, Siyuti bu məsələdə onun nəzərini əsaslı bir nəzər hesab edir – belə deyir: "Əgər bir qiraət ərəb dilinin qaydalarına və Osmani mushəflərdən birinin qiraətinə müvafiqdirsə, habelə, "sənədi düzgün"dürsə, bu qiraət düzgün qiraətdir və onu inkar etmək olmaz. Bu qiraət "əhrufu səb`ə"dən sayılır və camaat onu qəbul etməlidir. İndi bu qiraət istər yeddi qarinin, istər on qarinin, isrəsə də qiraəti qəbul olunmayan başqa qarilərin qiraətlərindən olmuş olsun..."[2]

Baxmayaraq ki, İbn Cəzrinin "qiraətin düzgünlüyü" üçün qeyd etdiyi şərtlər və meyarlar barədə geniş danışmaq mümkündür – biz bu barədə beşinci fəsildə söhbət açacağıq – amma onun sözlərinə diqqət yetirdikdə aydın olur ki, o, yuxarıda sözükeçən şərtlərə və meyarlara müvafiq olan qiraəti düzgün qiraət hesab edir, bu qiraətin mütəvatir olduğunu bildirmir. İbn Cəzri təkidlə bildirir ki, Əbu Əmr Dani, Əbu Muhəmməd Məkki ibn Əbu Talib və Əbu Şamə bu məsələdə onunla eyni fikirdədirlər və onun müasirlərindən olan alimlərin heç biri bu məsələdə ona etiraz etməmişlər.[3]

Əbu Şamə "Murşidul-vəciz" əsərində yazır: "Bu doğru deyil ki, "yeddi qari"yə mənsub qiraətlər diqqətlə araşdırılmasın və bu qiraətlər düzgün hesab edilərək onlar barəsində: "Quran məhz bu surətdə nazil olmuşdur" - deyilsin..."[4]

Zərqani isə bildirir: "Bəziləri yeddi qiraət xüsusunda ifrata varmış və demişlər: "Hər kim guman etsə ki, yeddi qiraətin mütəvatir olmasına lüzum yoxdur, küfür demişdir. Çünki bu, Quranın qeyri-mütəvatir olmasına gətirib çıxarır." Bu fikir Əndəlusun müftisi ustad Əbu Səid Fərəc ibn Lubbə mənsub edilmişdir. Lakin onun əsaslandığı dəlil qəbul olunmur. Çünki qiraətlərin qeyri-mütəvatir olmasını qəbul etmək Quranın qeyri-mütəvatir olmasını qəbul etməyə gətirib çıxarmır. Quran bu qiraətlərdən qeyri qiraətlərdə mütəvatir ola bilər, yaxud bütün qarilərin qəbul etdiyi qiraətlərdə mütəvatir ola bilər, yaxud da bir dəstənin – belə ki, bu dəstənin yalan ətrafında ittifaqı mümkün deyildir və istər bu fərdlər qari olsunlar, istərsə də qari olmasınlar - qiraətində mütəvatir ola bilər. Bu halda "yeddi qiraət" arasında qiraətlərin fərqli olduğu məqamlarda bir qiraətin rəvayətində "hər mərtəbə"də yalan ətrafında ittifaq etmədiklərindən xatircəm olduğumuz bir dəstə olmazsa, qiraətlər qeyri-mütəvatirdir."[5]

---

[1] "əl-Bəyan", s.152.

[2] "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.9; "əl-İtqan", c.1, s.236.

[3] Əvvəlki qaynaq.

[4] Əvvəlki qaynaq.

[5] "Mənahilul- irfan", c.1, s.435-436.

Cəlaləddin Siyuti İbn Cəzrinin nəzərini qeyd etdikdən sonra özü bu qənaətə gəlir ki, qiraətlər altı dəstəyə bölünür: mütəvatir, məşhur, ahad, şazz, mövzu, mudərrəc.[1]

Əlbəttə, təəccüblüdür ki, Siyuti əksər qiraətləri mütəvatir hesab edir.

Biz qiraətlərin qeyri-mütəvatir olması zəminində yuxarıda deyilənlərlə kifayətlənir və geniş məlumat əldə etmək istəyənlərə Ayətullah Xoinin "əl-Bəyan" əsərinə müraciət etməyi tövsiyə edirik. [2]

## *Fəslin əsas mətləbləri:*

**1.** Quran nəssinin (mətninin) mütəvatir olmasını bütün müsəlmanlar qəbul edirlər.

**2.** Quran və Quranın qiraəti iki ayrıca həqiqətdir.

**3.** Başlıca olaraq iki amil qiraətlərin mütavatir hesab edilməsinə səbəb olmuşdur: 1- Quran nəssinin mütəvatir olması ilə qiraətlərin mütəvatir olmasının qarışdırılması; 2- "Əhrufu-səb`ə" ilə "yeddi qiraət"in qarışdırılması.

**4.** Qiraətlərin ravilərinin tərcümeyi-halı, hər bir qarinin öz qiraətinin düzgün olmasına dair dəlil-sübut gətirməsi, qarilərin bir-birinin qiraətini inkar etmələri, müxtəlif qiraətlərdən qaynaqlanan fəqrli və bir-birinə zidd mənaların mövcud olması, İbn Cəzri kimi qiraət ustadlarının "düzgün qiraət" üçün bir sıra qaydalar və şərtlər müəyyən etmələri qiraətlərin qeyri-mütəvatir olmasına aydın dəlillərdir.

1 "əl-İtqan", c.1, s.241-243.
2 "əl-Bəyan", s.151-168.

# Üçüncü fəsil

## Əhrufu-səb`ə

### Əhli-sünnə qaynaqlarında “əhrufu-səb`ə” hədisi

Əhli-sünnə hədis qaynaqlarının əksəriyyətində Peyğəmbərdən (s) bu məzmunda hədislər nəql olunur: “Quran “yeddi hərf”də nazil olmuşdur.” Əhli-sünnə bu hədisi mütəvatir hədislərdən hesab edir və demək olar ki, bütün əhli-sünnə alimləri belə bir hədisin olduğunu təsdiqləyirlər. Lakin “əhrufu-səb`ə”nin (“yeddi hərf”) mənası barədə müxtəlif fikirlər söylənilmişdir. Məsələn, Məkki ibn Əbu Talibin “əl-Əbanə ən məanil-qiraat” adlı əsərinin böyük hissəsini “əhrufu-səb`ə” hədisinin şərhi təşkil edir. Bəzi müasir əhli-sünnə alimləri də “əhrufu-səb`ə” hədisi barədə geniş şərhlər vermişlər. Məsələn, Dr. Həsən Ziyaəddin İtr “əl-Əhrufus-səb`ətu və mənzilətul-qiraati minha” adlı əsərini bu məzmunlu hədislərə və onlar barədə söylənilən fikirlərə həsr etmişdir.[1]

Burada əhli-sünnə qaynaqlarında olan “əhrufu-səb`ə” hədisinə diqqət yetirək:

1. İbn Abbas nəql edir ki, Peyğəmbər (s) buyurdu:

أَقْرَأَنِى جِبْرِئِيلَ عَلَىٰ حَرْفٍ فَرَاجَعْتُهُ فَلَمْ أَزَلْ أَسْتَزِيدُهُ فَيَزِيدَنِى حَتَّى انْتَهَىٰ إِلَىٰ سَبْعَةِ أَحْرُفٍ.

“Cəbrayıl Quranı mənə bir hərfdə (qiraətdə) qiraət etdi. Sonra mən ona müraciət etdim və ondan daha çox hərf istədim, o da bir neçə hərfdə qiraət etdi və beləcə, yeddi hərf oldu.”

2. Ubəyy ibn Kə`b deyir: “Mən məsciddə idim. Bu zaman içəriyə bir kişi daxil oldu və namaz qılmağa başladı. Mən onun qiraətini inkar etdim. Sonra başqa bir kişi məscidə daxil oldu və o, namazı birinci kişinin qiraətindən fərqli şəkildə qiraət etdi. Biz üçümüz Peyğəmbərin (s) yanına getdik və mən əhvalatı o həzərətə açıqladım. Peyğəmbər (s) o iki nəfərə qiraət etməyi göstəriş verdi və dinlədikdən sonra onların hər ikisinin qiraətini təsdiq etdi. Bu vaxt məndə bir tərəddüd yarandı. Məni belə görən Peyğəmbər (s) sinəmə vurub buyurdu: “Mənə Quranı bir hərfdə qiraət etmək göstəriş verildi. Mən isə ümmətimə asan olsun deyə, onu qaytardım. Yenidən Quran mənə göndərildi və göstəriş verildi ki, onu iki hərfdə qiraət edim. Mən onu yenidən qaytardım. Sonra üçüncü dəfə Quran mənə göndərildi və onu yeddi hərfdə oxumağa icazə verildi...””

[1] Bu mövzuda böyük şiə alimlərindən olan Ayətullah Xoi “əl-Bəyan” əsərində (s.170-193) və Ayətullah Mərifət “ət-Təmhid” əsərində (c.2, s.93-116) geniş bəhs etmişlər.

3. Bir kişi Ömərin yanında Quranı qiraət etdi və Ömər ona acıqlandı. O kişi dedi: “Mən bunu Peyğəmbərə (s) qiraət etmişəm və o məndən səhv tutmayıb.” Onlar məsələnin həlli üçün Peyğəmbərin (s) yanına getdilər. Həmin kişi üzünü Peyğəmbərə (s) tutub dedi: “Ey Rəsulallah (s), filan ayənin qiraətini siz mənə təlim etməmisinizmi?” Peyğəmbər (s) buyurdu: “Bəli.” Bu vaxt Ömərin ürəyində şəkk-şübhə yarandı və bu, Peyğəmbərə (s) gizli qalmadı. O, Ömərin sinəsinə vurub üç dəfə buyurdu: “Şeytanı özündən uzaqlaşdır. Rəhmət ayəsi əzab ayəsinə və əzab ayəsini rəhmət ayəsinə çevirilməyənədək Quranın hamısı birdir.”

4. Zərr ibn Hubeyş Ubəyy ibn Kə`bdən nəql edir ki, Peyğəmbər (s) Cəbraillə görüşdükdə buyurdu: “Mən dərs oxumamış bir ümmətə göndərilmişəm və onların arasında uşaq, yaşlı qadın və yaşlı kişi vardır.” Cəbrail dedi: “Onlara göstəriş ver ki, Quranı yeddi hərfdə qiraət etsinlər.”

5. Əbu Hureyrə nəql edir ki, Peyğəmbər (s) buyurdu: “Həqiqətən, bu Quran yeddi hərfdə nazil olubdur. Qiraət edin və bilin ki, sizə heç bir qorxu yoxdur. Lakin rəhmət ayəsini əzaba və əzab ayəsini rəhmətə çevirməyin.”

6. Əbu Hureyrə başqa bir hədisdə Peyğəmbərdən (s) belə nəql edir: “Quran yeddi hərfdə nazil olubdur. Əlim, Həkim, Ğəfur, Rəhim (yəni bunları bir-biri ilə əvəz etməyin eybi yoxdur!)”

7. Əbu Qulabə deyir: “Deyilənə görə Peyğəmbər (s) belə buyurdu: “Quran yeddi hərfdə nazil olubdur: əmr, nəhy, tərğib, tərhib, cədəl, qəsəs və məsəl.””

8. İbn Məs`ud Peyğəmbərdən (s) nəql edir: “Birinci kitab bir bölümdə və bir hərfdə nazil olmuşdur. Lakin Quran yeddi bölümdə və yeddi hərfdə nazil olubdur: zəcr, əmr, halal, haram, möhkəm, mütəşabih və əmsal...”

9. Əbu Cuheym Ənsari deyir: “Quranın bir ayəsi barədə iki nəfər arasında fikirayrılığı yarandı və onlar Peyğəmbərin (s) yanına getdilər. Peyğəmbər (s) onlara buyurdu: “Quran yeddi hərfdə nazil olmuşdur və bu barədə mübahisə etməyin, çünki Quran barədə mübahisə etmək küfrdür.””

10. Əmr ibn Dinar Peyğəmbərdən (s) belə nəql edir: “Quran yeddi hərfdə nazil olmuşdur və onların hamısı şəfa verən və kifayət edəndir.”[1]

Qeyd olunan bu hədislər əhli-sünnə hədis və təfsir qaynaqlarında mövcud olan hədislərdən nümunələrdir. İbn Cəzri bu hədisi Peyğəmbərdən (s) nəql edən 20 səhabənin adını qeyd etmişdir.[2]

Bu hədislərdə sözükeçən “əhrufu-səb`ə” ifadəsinin mənasını araşdırmazdan öncə bu mövzu ilə əlaqədar şiə qaynaqlarına nəzər salaq.

[1] “əl-Bəyan”, s.171-176; “ət-Təmhid”, c.2, s.93-97; “Ulumul-Quran indəl-mufəssirin”, c.2, s.127-207.
[2] “Həqaiqun hammətun həvləl-Quranil-Kərim”, s.177-178.

## “Əhrufu-səb`ə” hədisi şiə qaynaqlarında

Şeyx Tusi deyir: “Bizim alimlərin nəzəri budur ki, Quran bir hərfdə və bir Peyğəmbərə (s) nazil olmuşdur. Lakin fəqihlərimiz Quranı geniş yayılan qiraətlərdə qiraət etməyə icazə vermişlər. Hər kəs Quranı bu qiraətlər arasında istədiyi qiraət ilə oxuya bilər.”[1]

Əminul-İslam Təbərsi deyir: “Şiə hədis qaynaqlarında Quranın bir hərfdə nazil olduğuna dair çoxlu hədislər vardır. Əhli-sünnənin Peyğəmbərdən (s) nəql etdiyi: “Quran yeddi hərfdə nazil olmuşdur və onların hamısı şəfa verən və kifayət edəndir” - məzmunlu hədislərin şərhi barədə fikirayrılıqları vardır...”[2]

Feyz Kaşani yazır: “Əhli-sünnə Peyğəmbərdən (s) nəql edir ki, Quran yeddi hərfdə nazil olmuşdur. Bəziləri bu hədisin mütəvatir olduğunu iddia edirlər. Lakin onlar “əhrufu-səb`ə”nin mənası barədə təxminən qırx fikir söyləmişlər. Əhli-sünnə qaynaqlarında nəql olunur ki, Peyğbəmbər (s) buyurub: “Quran yeddi hərfdə nazil olmuşdur: əmr, zəcr, halal, haram, möhkəm, mütəşabih və əmsal.” Hədisin məzmunundan belə başa düşülür ki, “əhruf” sözü “qisim, növ” mənasını bildirir. Əli ibn Əbu Talibdən (ə) nəql edilən bir hədis bu mənanı təsdiq edir: “Mütəal Allah Quranı yeddi qisimdə nazil etmişdir. Onun hər qismi şəfa verəndir. Həmin qisimlər bunlardır: əmr, zəcr, tərğib, tərhib, cədəl, məsəl və qəsəs.”

Şiə ravilərinə gəlincə, Şeyx Səduq “əl-Xisal” kitabında qeyd edir ki, İsa ibn Abdullah Haşimi öz atalarından belə nəql edir: Peyğəmbər (s) buyurdu: “Allah tərəfindən gələn kəs mənə dedi: “Allah əmr edir ki, Quranı bir hərfdə qiraət et!” Mən dedim: “İlahi, mənim ümmətimə asanlıq ver.” Allahın məmuru mənə dedi: “Allah sənə əmr edir ki, Quranı yeddi hərfdə oxu!””

Həmmad ibn İsa İmam Sadiqdən (ə) soruşur: “Sizin hədisləriniz müxtəlifdir.” İmam Sadiq (ə) buyurur: “Quran yeddi hərfdə nazil olmuşdur və imamın ən azı yeddi surətdə fətva verməyə haqqı var.””

Feyz Kaşani bu mövzu ilə əlaqədar hədisləri nəql etdikdən sonra “Usuli-kafi” hədis kitabına istinadən İmam Baqir (ə) və İmam Sadiqdən (ə) Quranın yeddi hərfdə nazil olduğunu inkar edən iki hədis qeyd etmişdir.

Zurarə İmam Baqirdən (ə) nəql edir: “Quran birdir və bir olan Allah tərəfindən nazil olmuşdur. Lakin (qiraətlərdə olan) fikirayrılıqları ravilər tərəfindən ortaya çıxmışdır.”

Fuzeyl ibn Yəsar İmam Sadiqə (ə) ərz edir: “Camaat deyir ki, Quran yeddi hərfdə nazil olmuşdur.” İmam (ə) buyurur: “Allahın düşmənləri yalan deyirlər. Quran bir hərfdə və bir olan Allah tərəfindən nazil olmuşdur.”[3]

---

[1] “Ulumul-Quran indəl-mufəssirin”, c.2, s.209 (“ət-Tibyan”, c.1, s.7-yə istinadən).

[2] “Ulumul-Quran indəl-mufəssirin”, c.2, s.210 (“Məcməul-bəyan”, c.1, s.79-80-ə istinadən).

[3] “Ulumul-Quran indəl-mufəssirin”, c.2. s.211-213 (“Safi təfsiri”, c.1, s.59-61-ə istinadən).

## “Əhrufu-səb`ə” məzmunlu hədislər şiə alimlərinin baxışında

Ayətullah Xoi “əl-Bəyan” adlı əsərində “əhrufu-səb`ə” məzmunlu hədislərdən on bir ən mühüm hədisi seçib qeyd etdikdən sonra bu nəticəyə gəlir ki, bu hədislər Zurarənin İmam Baqirdən (ə) və Fuzeyl ibn Yəsarın İmam Sadiqdən (ə) nəql etdikləri hədislərə ziddir və buna görə də qəbul oluna bilməz: “Peyğəmbərdən (s) sonra dini işlərdə müraciət yeri yalnız və yalnız Allahın kitabı və Əhli-beytdir. Buna görə də Əhli-beytin kəlamı ilə zidd olan hədislər etibarlı sayılmır və artıq həmin hədislərin sənədini araşdırmağa lüzum yoxdur. Çünki hədisin məzmunu qəbul olunmadığı zaman artıq həmin hədis öz etbarını və höcciyyətini itirir. Bundan əlavə, “əhrufu-səb`ə” məzmunlu hədislər arasında saysız ziddiyyətlər mövcuddur. Onların bəzilərində sual ilə cavab arasında uyğunluq yoxdur...”[1]

“ət-Təmhid” əsərinin müəllifi, Feyz Kaşaninin təfsirinə istinadən dörd hədisi nəql etdikdən sonra deyir: “Əhli-beytdən nəql edilən bu hədislərin sənədləri etibarlı deyil.”[2]

Əllamə Məhəmmədcavad Bəlaği deyir: “Əhrufu-səb`ə” hədislərinə istinad etmək qeyri-məntiqidir, çünki:

1. Siyuti “əl-İtqan” əsərində “16-cı növ 2-ci məsələ”də deyir: “Bu fikirayrılıqları həmin hədislərin qeyri-aydın olmasından, məzmun və ifadələri baxımından dəyişkənliyindən irəli gəlir.”

2. Əhli-sünnə qaynaqlarında “əhrufu-səb`ə” məzmunlu hədislərin bir çoxunda Quranın təsnifatından söz açılır. Məsələn, İbn Məs`ud Peyğəmbərdən (s) belə nəql edir: “Quran yeddi bölümdə və yeddi hərfdə nazil olubdur: zəcr, əmr, halal, haram, möhkəm, mütəşabih və əmsal...”

Əbi Qulabə isə Peyğəmbərdən (s) belə nəql edir: “Quran yeddi hərfdə nazil olubdur: əmr, zəcr, tərğib, tərhib, cədəl, qəsəs və məsəl.”

Həmçinin, İbn Abbas Peyğəmbərdən (s) nəql edir: “Quran dörd hərfdə nazil olubdur: halal, haram...”

İmam Əli (ə) buyurub: “Quran on hərfdə nazil olubdur: bəşir, nəzir, nasix, mənsux, moizə, məsəl, hikəm, mütəşabih, halal və haram.”

3. Əhli-sünnə qaynaqlarındakı “əhrufu-səb`ə” məzmunlu hədislər arasında – belə ki, bu hədislərin sənədi onların öz nəzərində etibarlı sayılır – xurafat aşılayan hədislər görünür. Məsələn, hədislərin birində Peyğəmbər (s) buyurur ki: “Mən Quranın hərflərinin artmasını istədim və beləliklə, yeddi hərf oldu. Cəbrail dedi: “Bu hərflərin hamısı şəfa verən və kifayət edəndir, bir şərtlə ki, əzab ayəsi rəhmətə və rəhmət ayəsi əzaba çevrilməsin.” Yaxud başqa bir hədisdə belə bir ifadə işlənib: “Sanki deyirsən:

---

[1] “əl-Bəyan”, s.177.
[2] “ət-Təmhid”, c.2, s.94.

تَعَالْ – أَقْبِلْ – هَلُمَّ – اِذْهَبْ – اِسْرَعْ - اِعْجَلْ

(Yəni bunları bir-birilə əvəz etməyin heç bir maneəsi yoxdur.)”

4. Əhli-sünnə qaynaqlarındakı bəzi hədislərdə Quranın bir qiraətdə oxunmasını göstərən və yeddi qiraəti inkar edən bir sıra hədislər mövcuddur...

5. Şiə qaynaqlarında İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql edilən hədislər Quranın yeddi hərfdə nazil olduğunu təkzib edir.[1]

Əllamə Təbatəbai deyir: "“Əhrufu-səb`ə” məzmunlu hədislərin şərhi barədə böyük fikirayrılıqları vardır, belə ki, bu barədə qırxa yaxın fikir söylənilibdir. Lakin işi asanlaşdıran budur ki, bu hədislərin özündə “əhrufu-səb`ə”nin mənası açıqlanmışdır. Bəzi hədislərdə “əhrufu-səb`ə” belə açıqlanır: əmr, zəcr, tərğib, tərhib, cədəl, qəsəs və məsəl. Bəzi hədislərdə isə belə qeyd olunur: zəcr, əmr, halal, haram, möhkəm, mütəşabih və əmsal. Odur ki, “yeddi hərf” ifadəsini “xitabın qisimləri və bəyanın növləri” kimi mənalandırmaq lazımdır.”[2]

## “Əhrufu-səb`ə” məzmunlu hədislər əhli-sünnə alimlərinin baxışında

Cəlaləddin Siyuti deyir: “Bu hədisin şərhində qırxa yaxın fikir mövcuddur:

1. Bu hədisin mənası məlum deyildir.

2. Burada “yeddi” dedikdə, konkret yeddi sayı nəzərdə tutulmur, qiraətin asanlaşdırılması nəzərdə tutulur. Ümumiyyətlə, yeddi sayı çoxluğu bildirir. Əyaz və onun davamçıları bu nəzəri qəbul edirlər.

3. Burada “yeddi qiraət” nəzərdə tutulur. Lakin bu fikrə irad bildirilir ki, Quranda çoz az sayda sözlər istisna olmaqla, Quranı yeddi qiraətdə oxumaq qeyri-mümkündür.

4. Burada “yeddi” dedikdə, yeddi və daha artıq sayda qiraət oluna bilən sözlər nəzərdə tutulur.

5. Burada Quranın qiraətləri arasında olan fərqlərin qisimləri nəzərdə tutulur, belə ki, bu fərqlər yeddi qisimdən çox deyildir...”[3]

Quran elmləri tədqiqatçıları “əhrufu-səb`ə” məzmunlu hədislərin şərhində ərəb ləhcələrinə də toxunmuşlar. Əhli-sünnə alimlərinin əksəriyyəti bu qənaətdədirlər ki, Quranın yeddi ləhcədə nazil olduğunu bəyan edən şərh “əhrufu-səb`ə” məzmunlu hədislər üçün qeyd edilən ən uyğun şərhdir. Çünki bu hədislərdə vurğulanır ki, Peyğəmbər (s) öz ümməti üçün asanlıq istədi və Allah da hər bir qəbiləyə Quranı öz ləhcəsində qiraət etməyi icazə verdi.

---

[1] “Ulumul-Quran indəl-mufəssirin”, c.2, s.219-220 (“Alaur-Rəhman”, c.1, s.30-32-ə istinadən).

[2] “əl-Mizan”, c.3, s.74-75.

[3] “əl-İtqan”, c.1, növ: 16, məsələ: 3.

İbn Quteybə deyir: “Mütəal Allahın lütfü idi ki, Öz Peyğəmbərinə (s) göstəriş verdi: Hər qəbiləyə Quranı onların öz ləhcəsində qiraət et! Məsələn, Huzeyl qəbiləsi “حَتَّى حِين” ifadəsini[1] “عَتَّى حِين” kimi tələffüz edirlər. Bəni-Əsəd qəbiləsi “تَعْلَمُونَ، تَعْلَمُ، تَسَوَّدُ وُجُوه” fellərindəki indiki zamanı bildirən “ت” hərfini, “kəsrə” ilə tələffüz edirlər. Qureyş ləhcəsində “təxfifi-həmzə” bir qaydadırsa, Bəni-Təmim qəbiləsində “izhari-həmzə” bir qaydadır. Əgər əmr verilsəydi ki, hər bir qəbilə öz ləhcəsini kənara qoyub – bir halda ki, onlar arasında uşaqlar, cavanlar və yaşlılar var idi – yalnız bir ləhcə ilə Quranı qiraət etsinlər, bu vaxt böyük çətinliklə üzləşərdilər. Mütəal Allah böyük rəhməti və lütfü sayəsində onlara dində asanlıq yaratdığı kimi, Quranın qiraətində də asanlıq yaratdı.”

Hədislərin birində İbn Abbas nəql edir ki, Peyğəmbər (s) camaata Quranı bir ləhcədə qiraət edirdi. Bu onlara çətin gəlirdi. Cəbrail nazil olub dedi: “Ey Məhəmməd, hər bir qəbiləyə öz ləhcəsində Quranın qiraətini təlim et!”

Əbu Şamə deyir: “Doğrusu da elə budur, çünki Quranı qeyri-qureyş ləhcəsində qiraət etmək icazəsi ərəblərin işini asanlaşdırdı. Quranın qiraətinin təkcə bir qəbilə üçün asan olması düzgün olmazdı. Beləcə, heç kim bacarığından artıq yüklənmir. İnsanın adət etdiyi ləhcəni kənara qoyub sözləri fərqli şəkildə tələffüz etməsi çətinlik törətmirmi?!”[2]

Cəlaləddin Siyuti “əhrufu-səb`ə” ifadəsinin şərhində söylənilən müxtəlif fikirləri sadalayarkən onuncu bənddə qeyd edir: ““Yeddi hərf”, “yeddi ləhcə” deməkdir. Əbu Ubeyd, Sə`ləb, Zuhri, İbn Ətiyyə, Beyhəqi və başqaları bu fikrin tərəfdarlarıdır.”

Amma bu ləhcələrin hansı qəbilənin ləhcələri olması barədə fikirayrılığı vardır. Əbu Hatəm Sicistani deyir: “Quran Qureyş, Huzeyl, Təmim, Əzd, Rəbiə, Həvazin və Sə`d ibn Bəkr qəbilələrinin ləhcələrində nazil olmuşdur.”

Əbu Şamə öz böyüklərindən nəql edir ki, Quran əvvəlcə ərəb dilinin fəsahətli ləhcəsi olan Qureyş və onun şaxələrinin ləhcəsində nazil olmuşdur. Sonra ərəblərə icazə verildi ki, hər kəs adət etdiyi ləhcə ilə Quranı qiraət etsin.

Amma Siyuti İbn Quteybənin nəqlinə istinadən deyir: “Quran təkcə Qureyş ləhcəsində nazil olmuşdur. Bunu: “وَ مَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا بِلِسَانِ قَوْمِهِ” ayəsi də təsdiq edir. Bu məsələni (Quranın yeddi ləhcədə nazil olduğunu) yalnız o təqdirdə qəbul etmək olar ki, həmin yeddi ləhcənin Qureyş ləhcəsinin şaxələrindən olduğunu qəbul edək.”[3]

Siyuti Ömərdən nəql edilən hədisə istinad edərək – həmin hədisdə Ömər Quranın “Muzər” ləhcəsində nazil olduğunu deyib – Quranın “Muzər” ləhcəsində

[1] Muminun surəsi, ayə: 54.
[2] “ət-Təmhid”, c.2, s.99-100.
[3] “əl-İtqan”, c.1, növ: 16, məsələ: 3.

nazil olduğunu qeyd etdikdən sonra bildirir: İbn Əbdul-Birrdən nəql olunur ki, "Muzər" yeddi tayfaya ayrılır: Huzeyl, Kənanə, Qeys, Zəbbə, Təyyim ər-Rubab, Əsəd ibn Xuzeymə və Qureyş.[1]

Bu barədə başqa bir fikir də söylənilibdir:

"Əhrufu-səb`ə"nin mənaları arasında ən uyğunu – belə ki, əksər əhli-sünnə alimləri, habelə, "Qamus" əsərinin müəllifi və bir çox müasir alimlər, o cümlədən, Dr. Əbdul-Həlim Nəccar, Mustafa Sadiq Rafei və başqaları həmin mənanı digər mənalardan üstün hesab etmişlər – budur ki, Quran yeddi ərəb ləhcəsində nazil olmuşdur. Çünki ərəb yarımadasında yayılan ləhcələr yeddi əsas ləhcəyə qayıdır: Qureyş, Huzeyl, Səqif, Həvazin, Kənanə, Təmim və Yəmən.[2]

Bura qədər "əhrufu-səb`ə"nin mənası barədə söylənilən müxtəlif fikirləri qeyd etdik. Lakin bunu da qeyd etmək lazımdır ki, ərəb ləhcələrinin dəqiq sayını, hansı ləhcənin daha üstün ləhcə olduğunu sübut edən dəlil yoxdur. Bir sözlə, "əhrufu-səb`ə"nin mənası barədə mövcud olan bu qədər fikirayrılığı bu hədisə istinad etmək zəminində tərəddüd doğurur.

## Azad mütailə

### Qiraətlər arasındakı fərqlərin qisimləri

Bu sual çoxlarını düşündürə bilər ki, görəsən qiraətlər arasındakı fərqlər hansı şəkildədir? Görəsən bu fərqləri qruplaşdırmaq mümkündürmü? Ətraflı araşdırmalar bu suala müsbət cavab verməyi mümkün etmişdir. Baxmayaraq ki, Quranın qiraətləri arasındakı fərqlərin böyük hissəsi müxtəlif ləhcələrdən irəli gəlmişdir, lakin başqa səbəblər də bu məsələdə rol oynamışdır. Xüsusilə də, hansısa bir sözün qabağa və ya geriyə keçirilməsi, söz (bitişik əvəzliklərin) və ya önqoşmaların çoxaldılıb-azaldılması, erabların müxtəlif surətlərdə oxunması – gördüyünüz kimi, bunların heç birinin ləhcə ilə bağlılığı yoxdur – müxtəlif və fərqli qiraətlərin ortaya çıxmasına səbəb olmuşdur.

Bəzi tədqiqatçı alimlər Quranın qiraətləri arasındakı fərqləri "əhrufu-səb`ə" hədisi əsasında yeddi qisimdə qruplaşdırmağa səy göstərmişlər. Hətta onlardan bəziləri sözügedən hədisi "ləhcələr arasındakı fərqlər" deyil, "qiraətlər arasındakı yeddi qisim fərq" kimi mənalandırmışlar.[3]

Qiraətlər arasındakı fərqlərin qisimlərini qeyd etməmişdən öncə aşağıdakı iki məqama toxunmağı məqsədəuyğun hesab edirik:

[1] Əvvəlki qaynaq.

[2] Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Qurani-Kərim", s.257-258.

[3] "əl-İtqan", c.1, növ: 16, məsələ: 3.

1. Qiraətlər arasındakı fərqləri yeddi qisimdə qruplaşdırmaq istəyən bəzi tədqiqatçılar bir növ özlərini məhdudiyyətlə qarşı-qarşıya qoymuşlar. Çünki onlar bəzən müxtəlif qisim fərqləri bir qisimdə qruplaşdırmağa məcbur qalmışlar. Məlum məsələdir ki, “əhrufu-səb`ə” hədisinə verdikləri böyük əhəmiyyət onları bu işi görməyə vadar etmişdir.

2. Qiraətlər arasında mövcud fərqlərin müxtəlif qisimlərdə qruplaşdırılması bu bölgünün şəxsi rəy və fikir əsasında olduğunu göstərir.

**A) Qiraətlər arasındakı fərqlərin qisimləri İbn Quteybənin nəzərində:**

**1.** Sözün qrafik şəkli və mənası dəyişmədən **hərəkələr arasındakı fərqlər,** məsələn:

“هُنَّ أَطْهَرُ لَكُمْ”[1] cümləsindəki “أَطْهَرُ” sözünün (erabı rəfdir), “أَطْهَرَ” (nəsb) oxunması.

Yaxud “وَ يَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ”[2] cümləsindəki “بِالْبُخْلِ” sözünün, “بِالْبِخِلِ” (“ب” və “خ” hərflərinin “kəsrə” ilə) oxunması.

**2.** Sözün qrafik şəkli dəyişmədən, lakin sözün mənası dəyişərək **hərəkələr arasındakı fərqlər**, məsələn:

“رَبَّنَا بَاعِدْ بَيْنَ أَسْفَارِنَا”[3] cümləsindəki “بَاعِدْ” felinin (əmr formasındadır) “بَاعَدَ” (keçmiş zaman formasında) oxunması. Yaxud “وَ ادَّكَرَ بَعْدَ أُمَّةٍ”[4] cümləsindəki “أُمَّةٍ” sözünün, “أَمَةٍ”[5] kimi oxunması.

**3.** Sözün qrafik şəkli və mənası dəyişmədən **hərflər arasındakı fərqlər**, məsələn:

“وَ انْظُرْ إِلَى الْعِظَامِ كَيْفَ نُنْشِزُهَا”[6] cümləsindəki “نُنْشِزُهَا” sözünün, “نُنْشِرُهَا” oxunması.

**4.** Sözün mənası dəyişmədən, lakin qrafik şəkli dəyişərək **kəlmələr arasındakı fərqlər**, məsələn:

“إِنْ كَانَتْ إِلَّا صَيْحَةً وَاحِدَةً”[7] cümləsindəki “صَيْحَةً وَاحِدَةً” kəlməsinin, “زَيْقَةً وَاحِدَةً” oxunması.

Yaxud “كَالْعِهْنِ الْمَنْفُوش”[8] ifadəsinin, “كَالصَّوْفِ الْمَنْفُوش” oxunması.

**5.** Sözün həm qrafik şəkli və həm də mənası dəyişərək **kəlmələr arasındakı fərqlər**, məsələn:

“طَلْحٍ مَنْضُود”[9] kəlməsinin “طَلْعٍ مَنْضُود” oxunması.

**6. Sözlərin qabağa və ya geriyə keçirilməsi** baxımından fərqlər, məsələn:

“وَ جَاءَتْ سَكْرَةُ الْمَوْتِ بِالْحَقِّ”[10] cümləsinin, “وَ جَاءَتْ سَكْرَةُ الْحَقِّ بِالْمَوْتِ” oxunması.

---

[1] Hud surəsi, ayə: 78.

[2] Nisa surəsi, ayə: 37.

[3] Səba surəsi, ayə: 19.

[4] Yusuf surəsi, ayə: 45.

[5] “أُمَّةٍ” sözü “müddət, zaman” mənasını, “أَمَةٍ” sözü isə “unutqanlıq” mənasını bildirir.

[6] Bəqərə surəsi, ayə: 259.

[7] Yasin surəsi, ayə: 29.

[8] Qariə surəsi, ayə: 5.

[9] Vaqiə surəsi, ayə: 29.

[10] Qaf surəsi, ayə: 19.

**7. Söz və ya önqoşmaların çoxaldılması və ya azaldılması** baxımından fərqlər, məsələn:

“وَ مَا عَمِلَتْهُ أَيْدِيهِمْ”[1] cümləsində “عَمِلَتْهُ” sözündəki “هُ” əvəzliyinin ixtisar edilərək “عَمِلَتْ” oxunması.

Yaxud “تَجْرِى تَحْتَهَا الْأَنْهَارُ”[2] cümləsində “مِنْ” önqoşmasının artırılaraq: “تَجْرِى مِنْ تَحْتِهَا الْأَنْهَارُ” oxunması.[3]

**B) Qiraətlər arasındakı fərqlərin qisimləri İbn Cəzrinin nəzərində:**

İbn Cəzri deyir:

Mən səhih, şazz, zəif, munkir və bütün başqa qiraətləri araşdırdım və bu qənaətə gəldim ki, onlar arasındakı fərqləri yeddi qismə ayırmaq olar:

**1.** Sözün qrafik şəkli və mənası dəyişmədən **hərəkələr arasındakı fərqlər,** məsələn: “بِالْبُخْلِ” sözü dörd şəkildə oxunmuşdur.

**2.** Sözün qrafik şəkli dəyişmədən, lakin sözün mənası dəyişərək **hərəkələr arasındakı fərqlər**, məsələn:

“فَتَلَقَّىٰ ءَادَمُ مِنْ رَبِّهِ كَلِمَاتٍ”[4] cümləsində “ءَادَمُ” sözü “mənsub” və “كَلِمَاتٍ” sözü “mərfu” oxunmuşdur:

“فَتَلَقَّىٰ ءَادَمَ مِنْ رَبِّهِ كَلِمَاتٌ”.

Yaxud “وَ ادَّكَرَ بَعْدَ أُمَّةٍ”[5] cümləsindəki “أُمَّةٍ” sözünün, “أَمَةٍ” kimi oxunmuşdur.

**3.** Sözün qrafik şəkli dəyişmədən, lakin sözün mənası dəyişərək **hərflər arasındakı fərqlər**, məsələn:

“تَبْلُوا” sözünün “تَتْلُوا” oxunması (“تَبْلُوا”[6] və “تَتْلُوا”[7] sözlərinin qrafik şəkli eynidir, lakin “ب” və “ت” hərfləri nöqtələr ilə ayırd edilmişdir).

Yaxud “نُنَجِّيكَ” sözünün “نُنَحِّيكَ” oxunması (“نُنَجِّيكَ”[8] və “نُنَحِّيكَ” sözlərinin qrafik şəkli eynidir, lakin “ج” və “ح” hərfləri nöqtə ilə ayırd edilmişdir).

**4.** Sözün mənası dəyişmədən, lakin qrafik şəkli dəyişərək **hərflər arasındakı fərqlər**, məsələn:

“الصراط”[9] və “السراط” sözləri, yaxud “بَصْطة”[10] və “بَسْطَةً”[11] sözləri kimi.

**5.** Sözün həm qrafik şəkli və həm də mənası dəyişərək **hərflər arasındakı fərqlər**, məsələn:

---

[1] Yasin surəsi, ayə: 35.
[2] Bəraət surəsi, ayə: 100.
[3] “ən-Nəşru fil-qiraatil-əşr”, c.1, s.27-28; “ət-Təmhid”, c.2, s.106-108.
[4] Bəqərə surəsi, ayə: 37.
[5] Yusuf surəsi, ayə: 45.
[6] Yunus surəsi, ayə: 30.
[7] Yunus surəsi, ayə: 61.
[8] Yunus surəsi, ayə: 92.
[9] Fatihə surəsi, ayə: 6.
[10] Ə`raf surəsi, ayə: 69.
[11] Bəqərə surəsi, ayə: 247.

“أَشَدَّ مِنْكُمْ”[1] və “أَشَدَّ مِنْهُمْ”[2] ifadələri kimi, yaxud “فَاسْعَوْا إِلَىٰ ذِكْرِ اللهِ” cümləsindəki “فَاسْعَوْا” sözünün “فَامْضَوْا” kimi oxunması.

**6. Sözlərin qabağa və ya geriyə keçirilməsi** baxımından fərqlər, məsələn: “وَ جَاءَتْ سَكْرَةُ الْمَوْتِ بِالْحَقِّ”[3] cümləsinin, “وَ جَاءَتْ سَكْرَةُ الْحَقِّ بِالْمَوْتِ” oxunması.

**7. Söz və ya önqoşmaların çoxaldılması və ya azaldılması** baxımından fərqlər.

Qiraətlər arasındakı fərqlər bu yeddi qisim fərqdən ibarətdir. Amma “izhar”, idğam”, “rum”, “işmam”, “təfxim və tərqiq”, “mədd və qəsr”, “imalə”, “fəth”, “təhqiq”, “təshil”, “ibdal”, “nəql” kimi qaydalarda söz və məna dəyişmir. Hərflərin tələffüzündə mövcud olan bu sifətlər və xüsusiyyətlər, sözü “eyni bir söz” olmaqdan xaric etmir və əgər fərz etsək ki, xaric edir, bu təqdirdə birinci qismə daxil olacaqdır.[4]

**C) Qiraətlər arasındakı fərqlərin qisimləri Əbulfəzl Razinin (İbn Şazan, vəfat tarixi: hicri 290-cı il) nəzərində:**

**1.** İsimlər xüsusunda ismin tək, ikilik və cəmdə olması, yaxud kişi və qadın cinsində olması, yaxud mübaliğə formasında olması və s. baxımlardan olan fərqlər.

**2.** Fellər xüsusunda felin keçmiş və indiki zamanda olması, əmr formasında olması, failin müzəkkər, müənnəs, mutəkəllim və muxatəb olması baxımından olan fərqlər.

**3.** Erablar baxımından olan fərqlər.

**4.** Söz və ya önqoşmaların çoxaldılması və ya azaldılması baxımından olan fərqlər.

**5.** Sözlərin qabağa və ya geriyə keçirilməsi baxımından olan fərqlər.

**6.** Hərflərin və ya sözlərin dəyişdirilməsi baxımından olan fərqlər: “الصراط” və “السراط”.

**7.** “Luğat” baxımından olan fərqlər, məsələn, “fəth və imalə”, “tərqiq və təfxim”, “təhqiq və təshil”, “idğam və izhar” və s.

**Ç) Qiraətlər arasındakı fərqlərin qisimləri Subhi Salehin nəzərində:**

**1.** Erablar baxımından olan fərqlər: istər məna olduğu kimi qalsın, istərsə də dəyişsin.

**2.** Hərflər arasındakı fərqlər: istər sözün qrafik şəkli dəyişmədən məna dəyişsin, istərsə də məna dəyişmədən sözün qrafik şəkli dəyişsin, məsələn: “الصراط” və “السراط” sözləri.

**3.** İsimlərin tək, ikilik və cəmdə olması, yaxud kişi və qadın cinsində olması baxımından fərqlər.

---

[1] Tövbə surəsi, ayə: 69.
[2] Rum surəsi, ayə: 9.
[3] Qaf surəsi, ayə: 19.
[4] “ən-Nəşru fil-qiraatil-əşr”, c.1, s.26-27; “əl-İtqan”, c.1, növ: 16, məsələ: 3; “ət-Təmhid”, c.2, s.110-111; “Mənahilul-irfan”, c.1, s.159-160.

**4.** Sözün mənası dəyişmədən kəlmələr arasındakı fərqlər, məsələn:
“كَالْعِهْنِ الْمَنْفُوش”[1] ifadəsinin, “كَالصَّوْفِ الْمَنْفُوش” oxunması.

**5.** Sözlərin qabağa və ya geriyə keçirilməsi baxımından olan fərqlər.

**6.** Söz və ya önqoşmaların çoxaldılması və ya azaldılması baxımından olan cüzi fərqlər: belə ki, ərəb dilində bəzi hallarda “cərr” və “ətf” önqoşmalarını ixtisar edilir, bəzi hallarda isə qiraət edilir.

**7.** “Fəht”, “imalə”, “tərqiq”, “təfxim” və s. baxımlardan ləhcələr arasında olan fərqlər.[2]

Zərqani “Mənahilul-irfan” əsərində İbn Şazanın nəzərini (bölgüsünü) digərlərinin nəzərindən üstün hesab etmişdir.[3]

Subhi Saleh “yeddinci qism”i qeyd etdikdən sonra belə yazır: “Həqiqət budur ki, yeddinci qisim daha böyük əhəmiyyət daşıyır. Çünki Quranın “yeddi hərf”də nazil olmasında mövcud olan böyük hikmət və fəlsəfə bu qisimdə üzə çıxır. Müxtəlif qəbilələrdən olan müsəlman ümməti üçün işin asanlaşdırılması məhz bu qisimdə məna kəsb edir.”

Subhi Saleh Siyutinin və başqa əhli-sünnə alimlərinin “əhrufu səb`ə” hədisinə verdikləri şərhi və bu hədisi Quranın yeddi ləhcədə nazil olması kimi mənalandırmalarını qəbul etmir. O, təkid edir ki, Quran yalnız Qureyş ləhcəsində nazil olmuşdur. O, yazır: “Quran, ərəb ləhcələri arasında ən üstün olan bir ləhcədə nazil olmuşdur və başqa qəbilələrin ləhcələrinə riayət olunduğuna dair – belə ki, bəzi alimlər zəhmətə qatlaşaraq bu məsələni sübut etməyə çalışırlar – bir dəlil mövcud deyildir. Başqa qəbilələr də etiraf edirlər ki, Qureyş ləhcəsi söz zənginliyi, fikri gözəl və dəqiq ifadə etməkdən ötrü lazım olan söz və ifadə ehtiyatı, üslub baxımından digər ərəb ləhcələrindən üstündür. Ərəblər özləri kitabət və şeir üçün bu ləhcəni seçirlər. Hətta Qureyş qəbiləsindən olmayan bir şair şeir deyərkən öz ləhcəsində deyil, Qureyş ləhcəsində söz deməyə üstünlük verir... Deməli, “yeddi hərf” dedikdə, başqa ləhcələr deyil, Qureyş ləhcəsinin yeddi şaxəsi nəzərdə tutulur.”

Subhi Saleh özündən əvvəlki alimlərin nəzərinə irad bildirir, yazır: “Zərqani “Mənahilul-irfan” əsərində Əbulfəzl Razinin nəzərini İbn Quteybə, İbn Cəzri və Qazi Əbu Bəkr ibn Təyyibin nəzərindən üstün hesab etmişdir. Lakin Əbulfəzl Razi “hərflər arasındakı fərqlər”ə toxunmadığı üçün biz onun nəzərini seçmədik. Digər üç alim isə ləhcələr arasındakı fərqlərə işarə etmədiklərinə görə (baxmayaraq ki, onlardan bəziləri bunu öz nəzərlərində tutmuşlar) onların nəzərini qəbul etməmək üçün yetərlidir.”[4]

Hicri üçüncü əsrdə yaşamış İbn Şazan kimi alimin qiraətlər arasındakı fərqləri yeddi qismdə qruplaşdırması elə də təəccüblü deyildir. Amma görəsən Zərqani və

---

[1] Qariə surəsi, ayə: 5.

[2] “ən-Nəşru fil-qiraatil-əşr”, c.1, s.27; “Mənahilul-irfan”, c.1, s.155; “Məbahisun fi Ulumil-Quran”, s.116.

[3] Mənahilul-irfan, s.1, s.157.

[4] Məbahisun fi Ulumil-Quran, s.109-116.

Subhi Saleh kimi mütəfəkkir alimlərin özlərini məhdudiyyətlə qarşı-qarşıya qoymaları və qiraətlər arsındakı fərqləri yeddi qisimdə qruplaşdırmalarının səbəbi nədir? Halbuki, onlar yaxşı bilirlər ki, qiraətlər arasındakı fərqlər ən azı 10-dan çox qisimdə qruplaşdırılmışdır. Bəli, onlar da Quranın "yeddi hərf"də nazil olduğunu bəyan edən hədislərin mütəvatir olduğunu qəbul edənlər kimi – Siyutinin qeyd etdiyinə görə, iyirmidən çox səhabə bu hədisi Peyğəmbərdən (s) nəql etmişdir – "yeddi" sayına təəssüb göstərmişlər.

## *Fəslin əsas mətləbləri:*

**1.** Əhli-sünnə qaynaqlarında Quranın "yeddi hərf"də nazil olduğuna dair müxtəlif hədislər mövcuddur.

**2.** Şiə alimləri Əhli-beyt İmamlarının (ə) hədislərinə istinad edərək Quranın bir "hərf"də və bir qiraətdə nazil olduğunu bildirirlər. İmam Baqir (ə) və İmam Sadiqdən (ə) nəql edilən hədislər Quranın "yeddi qiraət"də nazil olduğunu inkar edir.

**3.** Quranın "yeddi hərf"də nazil olduğunu bəyan edən hədislər şiə qaynaqlarında olan bəzi hədislərdə "Quranın bəyan və xitablarının təsnifatı və növləri" kimi şərh edilmişdir, o cümlədən: əmr, zəcr, tərğib, tərhib, cədəl, məsəl, qəsəs.

**4.** "Əhrufu-səb`ə" hədisləri mötəbər hədislər deyildir, çünki Əhli-beyt İmamları (ə) onları inkar edirlər. Bu hədislər arasında çoxlu ziddiyyətlər vardır. "Əhrufu-səb`ə" ifadəsinin şərhi və mənası barədə Zərkeşi "əl-Burhan" əsərində 53 məna və Siyuti "əl-İtqan" əsərində 35 məna qeyd etmişdir. Bundan əlavə, əhli-sünnə hədis qaynaqlarında olan bəzi hədislərdə Quranın bir qiraətdə nazil olduğu qeyd edilir.

**5.** Baxmayaraq ki, əhli-sünnə alimlərinin əksəriyyəti "əhrufu-səb`ə" ifadəsində "luğat və ləhcələr"in nəzərdə tutulduğunu bildirmişlər, lakin ləhcələrin sayında və onların hansı luğat və ləhcə olduğunda o qədər fikirayrılığı vardır ki, bu, sözügedən hədisə istinad etmək zəminində tərəddüd doğurur.

**6.** Bəzilərinin nəzərinə görə, qiraətlər arasındakı fərqləri yeddi qisimdə qruplaşdırmaq olar.

**7.** Bu mövzuda nəzər sahibi olan dörd alim - İbn Şazan, İbn Quteybə, İbn Cəzri və Subhi Saleh – arasında İbn Şazan və Subhi Saleh "qiraətlərin ümumi qaydaları" (أُصُول قراءات) zəminində müxtəlif ləhcələr arasında olan fərqləri, qiraətlər arasında olan fərqlərin bir qismi hesab etmişlər.

**8.** Qiraətlər arasındakı fərqlər ümumi bir bölgüdə belə yeddi qisimdən çoxdur. Amma "əhrufu-səb`ə" hədisinin vurğunları sanki bu fərqləri yeddi qisimdə qruplaşdırmaq məcburiyyətində qalmışlar.

**9.** Qiraət elminin terminində Quranın bütün kəlmələrinin qiraətində ümumi qaydaları bəyan edən qaydalara "أُصُول قراءات" və müyyən məqamlarda qiraətlər arasındakı fərqlərə "فرش الحروف" deyilir.

# Dördüncü fəsil

## Yeddi qiraət

### Müqəddimə

Birinci fəsildə hicri-qəməri 3-cü əsrə qədər Quranın qiraətinin keçdiyi mərhələləri müxtəsər şəkildə nəzərdən keçirdik və qeyd etdik ki, hicri-qəməri 2-ci əsrdə qiraət sahəsində ustad qarilərin meydana gəlməsi ilə bu sahə özünün çiçəklənmə dövrünü yaşadı. Müxtəlif qiraətlərin yayılması bais oldu ki, elə ikinici əsrin sonlarında qiraətlərin qaydaları, eləcə də, qiraətlər arasındakı fərqlər barədə əsərlər qələmə alınsın. Hicri üçüncü əsr boyunca bu sahədə müxtəlif əsərlər yazıldı. Amma zaman keçdikcə qiraətlər arasındakı fərqlər hədsiz çoxaldı. Birinci fəsildə qiraətlər arasında yaranan fərqlərin bir sıra səbəblərini açıqladıq. Lakin bunu da nəzərdən qaçırmaq olmaz ki, şagirdlik dövrünü bitirib, Quran qiraətində ustad səviyyəsinə yüksələn bəzi qarilər özlərini rəy və nəzər sahibi qələmə verməkdən ötrü yeni qiraətlər ortaya çıxarırdılar.

Üçüncü əsrdə fərqli qiraətlər olduqca çoxaldı. Bu dövrdə bəzi ustadlar qiraətləri qeydə alıb əsər qələmə aldılar. İlk dəfə Əbu Ubeyd Qasim ibn Səlam (vəfat tarixi: hicri 224-cü il) müxtəlif qiraətləri bir kitabda topladı və qarilərin sayını 25 nəfər qeyd etdi. Ondan sonra Antakya sakini Əhməd ibn Cubeyr ibn Məhəmməd Kufi (vəfat tarixi: hicri 258-ci il) öz kitabında beş qiraəti qeydə aldı və hər şəhərdən bir qarini tanıtdırdı. Üçüncü şəxs Qazi İsmayıl ibn İshaq Maliki (vəfat tarixi: hicri 281-ci il) idi və o, öz kitabında 20 nəfərin qiraətini, o cümlədən, "yeddi qarinin" qiraətini qeydə aldı. Dördüncü şəxs Cərir Təbəri (vəfat tarixi: hicri 310-cu il) idi və o, "Cami" adlı kitabında 20-dən çox qiraəti qeydə aldı. Beşinci şəxs Əbu Bəkr Məhəmməd ibn Əhməd ibn Ömər Dacuni (vəfat tarixi: hicri 314-cü il) idi və o, qiraətlər barədə kitab qələmə almışdır.[1]

Qiraətlər arasında olan bu qədər fərqlər camaatı nigaran vəziyyətdə qoymuşdu və onlar bu məsələnin öz həllini tapması intizarında idilər. Nəhayət, hicri dördüncü əsrdə Quran qiraətləri sahəsində inqilab baş verdi.

[1] "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.34; "Quran və fehrest-e mənabe", s.259-260.

## İbn Mücahidin təşəbbüsü

İbn Mücahid adı ilə tanınan Bağdadın böyük qarisi Əbu Bəkr Əhməd ibn Musa ibn Abbas (h.q. 245-324-cü il) "yeddi qiraət"i rəsmiləşdirən ilk şəxs oldu. Qiraət elmində İbn Mücahidin ustadı Əbuz-Zə`ra Əbdurrəhman ibn Əbdus olmuşdur və İbn Mücahid dəfələrlə Quranı onun yanında Nafe, Əbu Əmr, Həmzə və Kəsainin qiraətində xətm etmişdir. O, öz müasirləri Məhəmməd ibn Cərir Təbəri (v. t.: hicri 310-cu il), İbn Əbu Davud Sicistani (v. t.: hicri 316-cı il), Əbu Bəkr Dacuni (v. t. hicri 324-cü il) və hətta Əbu Bəkr Nəqqaşdan (v. t.:hicri 351-ci il) faydalanmaqdan çəkinməmişdir. İbn Mücahid Bağdadın qiraət heyətlərində yüksək dərəcələrə yetişdi və dövrünün qarilərindən yüksəkdə dayandı. Kufənin tanınmış nəhv ustadı Sə`ləb bu əqidədədir ki, hicri-qəməri 286-cı ildə Allahın kitabında İbn Mücahiddən biliklisi olmamışdır. İbn Mücahidin şöhrəti onun ətrafına çoxlu tələbələr topladı və deyilənlərə görə, heç bir qiraət ustadının onun qədər tələbəsi olmamışdır. İbn Mücahidin bir tərəfdən yüksək elmi səviyyəsi, digər tərəfdən hökumət başçıları ilə əlaqəsi cəmiyyətdə onun nüfuzlu şəxs kimi tanınmasına zəmin yaratdı. O, İbn Miqsəm və İbn Şənbuzu hicri 322-ci ildə qiraət məsələləri xüsusunda mühakiməyə çəkdi və onları tövbə etməyə məcbur etdi.[1]

## İbn Mücahid və yeddi qiraət

Hicri üçüncü əsrdə qələmə alınan əsərlərə nəzər saldıqda görürük ki, sözügedən "yeddi qiraət", digər qiraətlərin kənarında yer almış, onlara xüsusi bir önəm və üstünlük verilməmişdir. İbn Mücahiddən qabaq qiraətlər zəminində əsər qələmə alan ustadlar, o cümlədən, Əbu Ubeyd Qasim ibn Səlam, Əbu Hatəm Sicistani, İsmail ibn İshaq Qazi və Məhəmməd ibn Cərir Təbəri öz əsərlərində geniş yayılan iyirmidən çox qiraəti qeydə almışlar. Əslində, qiraətlərin beşiyi sayılan beş şəhərdən – Mədinə, Məkkə, Kufə, Bəsrə və Dəməşqdən bir nümayəndə seçməyi qərara alan ilk müəllif Əhməd ibn Cubeyr Əntaki (v. t: hicri 258-ci il) olmuşdur və o, öz əsərində beş qarinin qiraətini qeydə almışdır.

Əntakinin bu işini İbn Mücahid tərəfindən qiraətlərin "yeddi qiraət"də inhisarlaşdırılması işinə müqəddimə hesab etmək olar. İbn Mücahid qarilərin seçimində Kufə qarilərinə xüsusi önəm verdi və Kufədən bir qari deyil, üç qari seçdi.[2]

İbn Mücahid hər bir şəhərdən o qarini seçdi ki, həmin şəhərin camaatı onun qiraətinin daha üstün qiraət olduğunu yekdilliklə qəbul edirdi. Lakin Kufə

[1] "Böyük İslam ensiklopediyası", c.4, s.582.
[2] "Böyük İslam ensiklopediyası", c.4, s.583.

barəsində bu meyardan kənara çıxdı və baxmayaraq ki, onun özü Kufə şəhərində Həmzənin qiraətinin tanınmış və qəbul edilən bir qiraət olduğunu təsdiqləyirdi, lakin Asim və Kəsainin qiraətini də Həmzənin qiraəti kənarında qərar verdi. İbn Mücahidin İbn Şənbuza – belə ki, İbn Şənbuz mushəfin qiraətinə zidd olan qiraəti izacəli hesab edirdi – və İbn Miqsəmə – belə ki, İbn Miqsəm ərəb dilinin qaydaları baxımından düzgün olan qiraəti icazəli hesab edirdi, hətta qiraətin rəvayətinin sənədi zəif olsa belə – qarşı çıxması onu göstərir ki, İbn Mücahid mushəfə zidd olma və qiraətin rəvayətinin sənədinin zəif olma amillərini qiraətin "şazz qiraət" olma amililərindən hesab etmişdir. O, "əs-Səb`ə" adlı əsərində ərəb dilinin qaydalarına zidd olma amilini də qiraətin "şazz qiraət" olma amillərindən üçüncüsü kimi dəfələrlə vurğulamışdır.[1]

"əs-Səb`ə" əsərini mütaliə etdikdə bu qənaətə gəlirsən ki, İbn Mücahid qiraətləri sadəcə nəql edən və gələcək nəsilə ötürən bir alim olmamışdır. O, yeri gəldikdə rəvayətlərin sənədi və eləcə də, ərəb dilinin qaydaları baxımından qiraətləri araşdırmış, öz iradlarını bildirmişdir.

Heç şübhəsiz, İbn Mücahidin mənsəbi və nüfuzu "yeddi qiraət"in qarilər arasında təsbitləşməsinə səbəb olan əsas amillər idi. Belə ki, hicri dördüncü əsrin birinci yarısında sözügedən "yeddi qiraət" barədə bir neçə əsər qələmə alındı.[2]

Söz yox ki, qiraətlər barədə ictihad qapısının bağlanması istiqamətində İbn Mücahidin atdığı addım onun müasirləri olan bir dəstə alimin etirazına səbəb oldu. Amma İbn Mücahidin bu işdə əldə etdiyi uğurun səbəbi kimi, "yeddi qiraət"in seçimində onun məharət və zirəngliyini qeyd etmək olar. "Yeddi" sayı, Osmani mushəflərin sayı (bir rəvayətə görə) ilə üst-üstə düşürdü. Bundan daha mühüm isə, "əhrufu-səb`ə" məzmunlu hədislərə uyğun gəlirdi. Odur ki, bu seçim böyük əksəriyyət tərəfindən qəbul edildi. İbn Cubeyr İbn Mücahiddən qabaq Quranın qiraətləri barəsində "Səmaniyyə" adlı əsər qələmə almışdı[3], lakin bu əsər çox tez bir zamanda unudularaq istifadəsiz qaldı.

---

[1] İbn Mücahid Bağdadda qarilərin rəisi mənsəbinə keçdikdən sonra o, iki tanınmış qariyə qarşı etiraz mövqeyində qərar tutdu. İbn Mücahidin tələbi ilə Bağdadın qarilərindən və nəhv alimlərindən olan "İbn Miqsəm" adı ilə tanınan Məhəmməd ibn Həsən ibn Yəqub (v.t: hicri 354-cü il) və "İbn Şənbuz" adı ilə tanınan Məhəmməd ibn Əhməd ibn Əyyub üçün ayrı-ayrılıqda vəzir İbn Muqlənin iştirakı ilə məhkəmə quruldu. Bir halda ki, İbn Mücahid, İbn Miqsəm və İbn Şənbuzun hər üçün İbn Şazanın (Əbulfəzl Razi) qiraət məktəbinin şagirdləri idilər. Bu mühakimənin səbəbi barədə belə qeyd etmişlər ki, İbn Miqsəm ərəb dili qaydalarına müvafiq olan hər bir qiraəti – baxmayaraq ki, bu qiraət rəvayətə və ya Osmani mushəflərin xəttinə ziddir – qəbul edirmiş. İbn Şənbuz isə mushəfə zidd qiraəti icazəli hesab edir və Ubəyy ibn Kə`b və Abdullah ibn Məs`uddun qiraətindən bildikləri əsasında qiraət edirdi. İbn Muqlə hicri 323-cü ildə qazilərin, fəqihlərin və qarilərin iştirakı ilə - belə ki, qarilərin başında İbn Mücahid dayanırdı – o iki qarini mühakiməyə çəkdi. İbn Şənbuz ona nisbət verilənləri etiraf etdi və buna görə vəzirin göstərişi ilə ona şallaq vuruldu, həbs edildi və tövbə etməyə vadar edildi. İbn Miqsəm də onun üçün qurulan məhkəmədə öz səhvini etiraf etdi... ("əl-Məbahisu fi Ulumil-Quran, s.251-252; "əs-Səb`ə" əsərinin müqəddiməsi, s.18; "ət-Təmhid", c.2, s.232. )

[2] "Böyük İslam ensiklopediyası", c.4, s.583.

[3] "əl-Əbanə ən məanil-qiraat", s.90.

İbn Cəzri deyir: "Kifayət qədər məlumatı olmayanlar deyirlər ki, düzgün qiraətlər yalnız bu yeddi qarinin qiraətləridir və Peyğəmbərin (s) qeyd etdiyi "əhrufu-səb`ə" bu qarilərin qiraətlərindən ibarətdir. Hətta məlumatsız olan bir çox şəxslər belə güman etmişlər ki, düzgün qiraətlər "Şatibiyyə" və "Təysir"də[1] mövcud olan qiraətlərdir və bu qiraətlər Peyğəmbərin (s) həmin məşhur hədisində işarə etdiyi qiraətlərdir. Hətta bəziləri bu iki kitabda yer almayan qiraətləri "şazz qiraət" hesab etmişlər. Onlar yeddi qaridən qeyri qarilərin qiraətlərini "şazz qiraət" hesab etmişlər. Halbuki, bu kitabda qeyd edilməyən və yeddi qaridən də nəql edilməyən qiraətlər var idi ki, onların qiraətindən daha düzgün idi. Camaatı yanlışlığa salan məsələ bu idi ki, onlar əvvəlcədən "əhrufu-səb`ə" hədisini eşitmişdilər və sonra "yeddi qiraət" məsələsini eşitdilər. Bu vaxt elə güman etdilər ki, bu qiraətlər elə "əhrufu-səb`ə"dir. Bu səbəbdəndir ki, İbn Mücahiddən sonra yaşayan alimlər onun Quran qiraətlərini məhz "yeddi qiraət"də inhisarlaşdırdığından narazı qalmış, bildirmişlər: Nə üçün İbn Mücahid az və ya çox sayı seçməmişdir? Nə üçün bu işdə olan məqsədini aydınlaşdırmamışdır ki, məlumatsız insanlar səhv gümanlara düşməsinlər?"

Əhməd ibn Əmmar Məhdəvi deyir:

Məmləkət əhalisinin "yeddi qiraət"lə kifayətlənməsi bəzi qədim alimlərin seçiminə görə idi. Lakin camaat bunu vacib bir əməl hesab etdi və buna qarşı çıxmağı böyük günah bilib belə şəxsləri təkfir etdi (kafir adlandırdı). Halbuki, bu yeddi qaridən daha məşhur qarilər var idi. Qiraətləri "yeddi qiraət"də inhisarlaşdıran alim elə bir iş gördü ki, bu işi görməsəydi daha yaxşı olardı və o, camaatı yanlışlığa saldı...[2]

Müasir alimlər arasında da İbn Mücahidə belə iradlar bildirənlər vardır. O cümlədən, Subhi Saleh deyir:

Belə bir gümanın yaranmasına (yəni "əhrufu-səb`ən"nin bu "yeddi qiraət" olması barədə yaranan güman) görə ən çox İbn Mücahid adı ilə tanınan böyük qari Əhməd ibn Musa ibn Abbas məzəmmət olunmalıdır. Belə ki, o, hicri dördüncü əsrin əvvəllərində Məkkə, Mədinə, Kufə, Bəsrə və Şamın məşhur qarilərinin qiraətləri arasından yeddi qiraəti seçdi. Əlbəttə, onun bu seçimi təsadüfi idi, çünki məşhur qarilər arasında bu yeddi qaridən daha yüksək dərəcədə olan qarilər var idi.[3]

Hər halda, camaat istər-istəməz tez bir zamanda "əhrufu-səb`ə" hədisi ilə "yeddi qiraət"i əlaqələndirdilər və bu, sözügedən qiraətlərə elə bir müqəddəslik bəxş etdi ki, sonralar qiraətlər aləmində İbn Mücahidin adı dillərə düşdü. Hicri dördüncü əsrin ikinci yarısında İbn Mücahidin şagirdləri və müasirləri onun işini təbliğ

---

[1] Əbu Əmr Daninin (v.t: hicri 444-cü il) qələmə aldığı "ət-Təysir" əsəri "yeddi qiraət" zəminində qələmə alınmış ən yaxşı əsərlərdən biridir. Bu əsəri "Şatibi" adı ilə tanınan Qasim ibn Firruh (v.t: 590-cı il) "Hirzul-əmani və vəchut-təhani" adlı əsərində 1173 beytdə nəzmə çəkmişdir. "Şatibiyyə" əsəri "yeddi qiraət" zəminində qələmə alınan asərlər arasında elə bir şöhrət qazandı ki, bu əsərə qırxa yaxın şərh yazıldı.

[2] "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.36.

[3] Məbahisun fi Ulumil-Quran, s.247.

etmək və təsbitləşdirməklə məşğul oldular. Böyük nəhv alimi Əbu Əli Farsi (v.t: 377-ci il) İbn Mücahidin "əl-Qiraatis-səb`ə" adlı əsərinə "əl-Huccətu fil-qiraatis-səb`ə" adlı şərh yazdı. Əbu Əli Farsidən sonra İbn Mücahidin şagirdlərindən olan İbn Xaləvəhy (v.t: 370-ci il) Əbu Əli ilə rəqabət aparıb eyni adlı əsər qələmə aldı. "Yeddi qiraət"i bəyan etmək və əsaslandırmaq istiqamətində başlanan yarış hicri beşinci əsrdə də davam etdi. Əbu Məhəmməd Məkki ibn Əbu Talib (hicri 355-437-ci illər) hicri-qəməri 424-cü ildə "əl-Kəşfu ən vucuhil-qiraatis-səb`ə" adlı əsərini yazdı. Bu əsər Əbu Əli Farsinin "əl-Huccə" əsəri əsasında yazılmışdır. Məkki özü qeyd edir ki, o, "əl-Kəşf" əsərindən qabaq hicri-qəməri 391-ci ildə "yeddi qiraət" barəsində kiçik həcmli bir kitab yazmışdır.[1]

Əbu Əmr Dani (v.t: 444-cü il) "yeddi qiraət" barəsində ən yaxşı əsər hesab olunan "ət-Təysir" əsərini qələmə almışdır və Şatibi də onu nəzmə çəkmişdir (Şatibiyyə). "Şatibiyyə" əsəri "ət-Təysir"dən də çox şöhrət qazandı. Bütün bu əsərlər "yeddi qiraət"i dəlil-sübutla əsaslandırmaq məqsədilə qələmə alınmışdır.

Tədricən bəziləri, o cümlədən, Əbul-Fəth Osman ibn Cunəyy (v.t: 392-ci il) "şazz qiraət"ləri əsaslandırmaqdan ötrü əsər qələmə almağı qarşıya məqsəd qoydular. İbn Cunəyyin qələmə aldığı "əl-Muhtəsəb fi təvcihil-qiraatiş-şazz" adlı əsəri – belə ki, bəziləri bu əsəri "şazz qiraətlər" barəsində yazılan ən yaxşı əsər hesab edirlər – bu məqsədi izləyirdi.

## Yeddi qari

Qeyd edildi ki, İbn Mücahid Mədinə, Məkkə, Bəsrə və Şam şəhərlərinin hər birindən bir qari, Kufədən isə üç qari seçdi. Seçilən bu qarilər hicri ikinci əsrin qarilərindən idilər. Hicri ikinci əsrdə bu yeddi qari arasında axırıncı dünyasını dəyişən şəxs Kəsai idi və o, hicri-qəməri 189-cu ildə vəfat etmişdir. Beləliklə, onların qiraətlərini şagirdləri (vasitə ilə və ya vasitə olmadan) nəql edirdilər.

İbn Mücahidin bu işdə əsas meyarlarından biri də bu oldu ki, o, bu qarilərin şagirdləri və raviləri arasından yalnız iki ravini seçdi və öz kitabında bu iki ravinin öz ustadının qiraətindən olan rəvayətini qeyd etdi. Bu isə bais oldu ki, digər şagirdlərin rəvayəti tədricən unudulsun. İbn Mücahiddən sonra bu yeddi qarinin sırasına üç başqa qarini daxil edən və qarilərin sayını 10-a çatdıran kəslər, yaxud bu on qarinin sırasına daha dörd qarini daxil edib qarilərin sayını 14-ə çatdıran kəslər də İbn Mücahid kimi hər qari üçün iki ravi qeyd etməklə kifayətləndilər.

Biz iki cədvəldə yeddi qari və on qari və onların ravilərinin adlarını qeyd edir, sonra onların tərcümeyi-halını qısaca nəzərinizə çatdıracağıq.

[1] "əl-Əbanə ən məanil-qiraat" əsərinin müqəddiməsi, s.18; "əl-Kəşfu ən vucuhil-qiraat", s.3.

# Yeddi qari və onların raviləri

| Say | Qarilərin adı | Doğum və vəfat tarixi | Qiraət imamlığı | Birinci ravi | Doğum və vəfat tarixi | İkinci ravi | Doğum və vəfat tarixi | Qeydlər |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | İbn Amir | 21-118 | Şam | Hişam ibn Əmmar | 153-245 | İbn Zəkəvan | 173-242 | Hər iki ravi vasitə ilə qiraəti nəql etmişlər. |
| 2 | İbn Kəsir | 25-120 | Məkkə | Bəzzi | 170-250 | Qunbul | 195-291 | Hər iki ravi vasitə ilə qiraəti nəql etmişlər. |
| 3 | Asim | 76-127 və ya 128 | Kufə | Həfs | 90-180 | Şu`bə | 95-193 | Hər iki ravi vasitəsiz qiraəti nəql etmişlər. |
| 4 | Əbu Əmr | 68-154 | Bəsrə | əd-Dəvri | 246 (vəfat tarixi) | əs-Susi | 261 (vəfat tarixi) | Hər iki ravi vasitə ilə qiraəti nəql etmişlər. |
| 5 | Həmzə | 80-156 | Kufə | Xələf ibn Hişam | 229 (vəfat tarixi) | Xəllad ibn Xalid | 220 (vəfat tarixi) | Hər iki ravi vasitə ilə qiraəti nəql etmişlər. |
| 6 | Nafi | 70-169 | Mədinə | Qalun | 220 (vəfat tarixi) | Vərş | 197 (vəfat tarixi) | Hər iki ravi vasitəsiz qiraəti nəql etmişlər. |
| 7 | Kəsai | 189 (vəfat tarixi) | Kufə | Leys ibn Xalid | 240 (vəfat tarixi) | əd-Dəvri | 246 (vəfat tarixi) | Hər iki ravi vasitəsiz qiraəti nəql etmişlər. |

# On qari və onların raviləri

| Say | Qarilərin adı | Vəfat tarixi | Qiraət imamlığı | Birinci ravi | Vəfat tarixi | İkinci ravi | Vəfat tarixi |
|---|---|---|---|---|---|---|---|
| 8 | Yezid ibn Qə`qa | 130 | Bağdad | İbn Vərdan | 160 | İbn Cəmmaz | 170 |
| 9 | Yəqub ibn İshaq | 205 | Bəsrə | Rəvh ibn Əbdul-Mumin | 234 | Ruvəys | 238 |
| 10 | Xələf ibn Hişam | 229 | Mədinə | İshaq ibn İbrahim | 286 | İdris ibn Əbdul-Kərim | 292 |

## Azad mütaliə

### Yeddi qarinin tərcümeyi-halı

**1. İbn Amir:** Əbu İmran Abdullah ibn Amir ibn Yəzid Yəhsubi "Şam" qarisi olub "yeddi qari"dən biridir. Onun soyu Yəmən qəbilələrindən olan "Yəhsub" qəbiləsinə çatır və qeyd edilmişdir ki, "yeddi qari" arasında təkcə o və Əbu Əmr ibn Əla ərəb soyundandır. Mənbələrə istinadən, İbn Amir qiraəti Muğeyrə ibn Əbi Şəhab Məxzumidən və Muğeyrə də Osmandan təlim almışdır. Şam ləhcəsinin İbn Amirin qiraətində nə qədər təsir qoyduğu barədə əminliklə bəhs etmək olmur, lakin bəzi kəlmə və ifadələrin qiraətində, o cümlədən, "يَا اَبَتَ" kəlməsində "ت" hərfinin "fəthəli" oxunmasında, yaxud "vəsl" zamanı "لٰكِنَّا" sözündə "əlif" hərfinin saxlanılmasında (yəni tələffüz edilməsi) Şam ləhcəsinin təsiri olduğunu da inkar etmək olmur. "Təf`il" babının "sulasi mucərrəd"ə, felin "məlum" formasının "məchul" formasına, indiki zamanı bildirən "ت" hərfinin "ي" hərfinə tərcih verilməsi İbn Amirin qiraətinin səciyyəvi xüsusiyyətidir və demək olar ki, istisna hallar olduqca azdır. Odur ki, bir qayda üzrə qiraət etmək etibarilə İbn Amirin qiraəti "qaydalı qiraət" hesab edilir və onun bəzi tərəfdarları bu cəhəti özlərinə bir iftixar hesab etmişlər. İbn Amirin ən mühüm şagirdi – belə ki, o, İbn Amirin qiraətini gələcək nəslə ötürən əsas şəxs olmuşdur – Yəhya ibn Haris Zimaridir. İbn Amirin qiraətinin hər iki məşhur ravisi Hişam ibn Əmmar və İbn Zəkəvan, İbn Amirin qiraətini "bir vasitə ilə" Yəhyadan təlim almışlar. İbn Amirin qiraəti dördüncü əsrin birinci yarısında təkcə bütün Şamda deyil, ərəb yarımadasında da geniş yayılmışdı və Misirdə də az-çox istifadə edilirdi.[1]

**2. İbn Kəsir:** Əbu Mə`bəd Abdullah ibn Kəsir Dari "Məkkə" qarisi olub "yeddi qari"dən biridir. Məkkə camaatı ətir satana "dari" və ya "darani" deyirdilər. İbn Kəsir də bir müddət bu işlə məşğul olduğuna görə "Dari" ləqəbi ilə tanınırdı. İbn Kəsir Məkkədə dünyaya gəlmiş və Məkkədə də vəfat etmişdir. O, qiraəti "ərz" yolu ilə (ustadın yanında qiraət etmək və ustada təqdim etmək) səhabə Abdullah ibn Saib, Mücahid və Dərbasdan (İbn Abbasın mövlası) təlim almışdır. İbn Kəsir bəzi ayələrin qiraətində Məkkə mushəfinə – belə ki, Məkkə mushəfi ilə digər mushəflər arasında müəyyən fərqlər var idi – tebe idi. İbn Kəsirin qiraətinə hakim bəzi qaydalar, o cümlədən, həmzənin təxfifi və təshili (etidal həddində), imalədən çəkinmək, eynul-felin kəsrəli oxunması (يَحْسِبُ) Məkkə ləhcəsinin təsirinin əlamətidir. Böyük ehtimalla, digər xüsusiyyətlər də, o cümlədən, mutəqaribeyn idğamında "dəl" və

[1] Böyük İslam ensiklopediyası, c.4, s.175-176.

“zəl” hərflərinin izharı, kinayəni bildirən “ha” hərfinin “zəmmə” və “kəsrə”nin işbası ilə vəsl edilməsi, hərfi-cərdən sonra “mim” hərfinin zəmməli oxunması və işba edilməsi ilə “هُمْ” zəmirinin vəsl edilməsi, işarə əvəzliklərinin xüsusi şəkildə oxunması, “تَنْزِيل” sözünün yerinə “إِنْزَال” sözünün seçilməsi İbn Kəsirin Məkkə ləhcəsindən qaynaqlanır. “Nəhv” elmində söylənilən müxtəlif nəzərləri (yəni ərəb dilinin qrammatik qaydaları barəsində söylənilən müxtəlif nəzərləri) rəvayətlərə hakim etməkdə ehtiyatlı davranması onun qiraətinin qəbul edilməsində mühüm amillərdən biri olmuşdur. Belə ki, o, hətta həyatda olduğu dövrdə Məkkədəki rəqiblərindən üstün tutulurdu və İbn Mücahid “yeddi qiraət”i toplamağı qərara aldığı dövrdə də İbn Kəsirin qiraətini Məkkə qiraətinin tək nümayəndəsi olaraq seçdi. Şatibi hətta onun qiratini “yeddi qiraət”in əşrəfi hesab etmişdir.

İbn Kəsirin şagirdləri arasında Şibl ibn İbad və Məruf ibn Mişkan onun qiraətini gələcək nəsillərə ötürən əsas qarilər olmuşlar. Bizə gəlib çatan bütün məlumatlar onların Bəzzidən və Bəzzinin də Əkrəmə ibn Süleymandan olan müstəqim rəvayəti ilə nəql olunmuşdur. Elə bu səbəbdən də, İbn Xuzeymə ehtimal vermişdir ki, Bəzzi və ya Əkrəmə İsmail və İbn Kəsir arasındakı vasitəni qırmışlar. Halbuki, Bəzzinin rəvayətini nəzərə almasaq, Şafeinin və Qunbulun rəvayətində vasitə qorunmuşdur.

İbn Kəsirin qiraətini iki ravi – “Qunbul” adı ilə tanınan Məhəmməd ibn Əbdurrəhman (v.t: 291-ci il) və Əhməd ibn Məhəmməd Bəzzi (v.t: 250-ci il) təlim və təbliğ etmişlər. İbn Kəsirin qiraətinin Bəsrə qiraəti üzərində də nəzərə çarpacaq dərəcədə təsiri olmuşdur. Çünki Bəsrə qarisi və “yeddi qari”dən biri olan Əbu Əmr ibn Əla qiraəti İbn Kəsirdən təlim almışdır. İbn Kəsirin Əbu Əmr ibn Əla üzərində qoyduğu təsir, qiraətlər arasındakı fərqlərdə onların eyni fikirdə olmalarından görünməkdədir.[1]

**3. Asim:** Əbu Bəkr Asim ibn Əbin-Nucud əl-Əsədi (hicri 90-127-ci il) “yeddi qari” arasında ən məşhur qarilərdəndir. O, qiraətin qətiliyində və kəlamın fəsahətində bir nişanə idi. O, ədib, nəhv alimi və ustadı Əbu Əbdurrəhman Suləmidən sonra Kufə qarilərinin imamı idi. Əbdul-Cəlil Razi onu Kufədə şiələrin qiraət imamı hesab etmiş, demişdir: “Hərəmeyn (Məkkə və Mədinə) və İraqeyn (Kufə və Bəsrə) qarilərinin əksəriyyəti Əhli-beyt (ə) şiələrindən və Əhli-beytin (ə) imamətini qəbul edənlərdən olmuşlar.”[2]

Xansari “Rəvzətul-cənnat” əsərində yazır: “O, çox zahid və təqvalı bir qari idi. Onun nəzəri qiraətdə ən düzgün nəzər hesab edilirdi.”[3]

Qiraətlərin gələcək nəsillərə ötürülməsində digər şəhərlərin qariləri ilə müqayisədə Kufə şəhərinin qarilərinin daha böyük payı olmuşdur. “Yeddi qari”ni

[1] Böyük İslam ensiklopediyası, c.4, s.509-510.
[2] Seyid Məhəmmədbaqir Hüccəti, “Tarix-e Quran”, s.321; “ət-Təmhid”, c.2, s.194.
[3] Seyid Məhəmmədbaqir Hüccəti, “Tarix-e Quran”, s.321.

seçərkən İbn Mücahidin Kufədən üç qari seçməsi bu şəhərin hərbi, siyasi və elmi mövqeyini aydın şəkildə göstərməkdədir. Kufədən seçilən üç qari arasında da Asim digərlərindən üstün hesab edilmişdir. Asimin qiraəti müəyyən xüsusiyyətlərə malikdir və bu da hal-hazırda onun qiraətinin müsəlmanlar arasında Quranın rəsmi qiraəti kimi tanınmasına və yayılmasına bais olmuşdur. Asimin qiraətinin ən əsas xüsusiyyəti onun qiraəti ilə ən böyük və tanınmış qiraət ustadlarının qiraəti arasında olan möhkəm bağdır.

Asim qiraəti "ərz" yolu ilə Əbu Əbdurrəhman Suləmidən təlim almışdır. Əbu Əbdurrəhman Suləminin elmi mövqeyi Quranın qiraətini Əli ibn Əbu Talibdən (ə) Kufə qarilərinə, o cümlədən, Asim ibn Əbin-Nucuda ötürməsi ilə səciyyələnir. Qiraətin ali səthlərinin öyrənilməsində Əbu Əbdurrəhman Suləminin qiraət ustadı olaraq səhabələr arasıda yalnız Əli ibn Əbu Talibin (ə) adı çəkilmişdir. Onun qiraət ustadları olaraq daha çox üç səhabənin – Əli ibn Əbu Talibin (ə), Osmanın və Zeyd ibn Sabitin adı çəkilir. Bu üç ustad arasında da daha çox Əli ibn Əbu Talib (ə) üzərində dayanılır. Hətta deyilir ki, o, Quranın bir hərfinin qiraətində belə o həzrətin qiraətindən kənara çıxmamışdır. Rəvayətlərin birində qeyd edilir ki, o, Əlini (ə) qiraətdə tək bilirmiş. Əbu Əbdurrəhman Suləminin Kufənin müxtəlif qiraətləri, o cümlədən, "yeddi qiraət"dən olan üç qiraət üzərində böyük təsiri olmuşdur. Belə ki, Asimin qiraəti vasitəsiz, Həmzə və Kəsainin qiraəti ilə vasitə ilə Əbu Əbdurrəhman Suləmidən təsir almışdır.[1] Bu qiraət sənədi qızıl su il yazılası bir sənəddir və belə sənəd digər qiraətlərdə mövcud deyildir. Əli ibn Əbu Talib (ə) Əbu Əbdurrəhman Suləmiyə o qədər etimad göstərmişdir ki, onu öz övladları Həsən (ə) və Hüseynə (ə) müəllim tutmuşdur.[2]

Burada Asimin qiraət imamlarının silsiləsinə nəzər salaq:

Asim → Əbu Əbdurrəhman Suləmi → Əli ibn Əbu Talib (ə) → Həzrət Peyğəmbər (s)

Asimin qiraəti iki ravi vasitəsilə - Su`bə (Əbu Bəkr ibn Əyaş) və Həfs ibn Süleyman vasitəsilə təlim və təbliğ olunmuş, gələcək nəsillərə ötürülmüşdür. Bəziləri Əbu Əbdurrəhmandan əlavə Zərr ibn Hubeyşi də Asimin qiraət ustadı hesab etmişlər:

Asim → Zərr ibn Hubeyş → Abdullah ibn Məs`ud → Həzrət Peyğəmbər (s)

Asimin qiraətinin iki ravisindən biri Əbu Bəkr Əyaş demişdir: "Asim mənə dedi: "Əbu Əbdurrəhmandan başqa kimsə mənə Qurandan bir hərf belə qiraət etməmişdir və o da Quranı Əlinin (ə) yanında oxuyub ona təqdim etmişdir. Mən Əbu Əbdurrəhmanın yanından geri qayıtdıqda, Quranı Zərrin yanında oxuyub ona təqdim edirdim.""[3]

---

[1] Böyük İslam ensiklopediyası, c.5, s.678-679.

[2] Mənahilul-irfan, c.1, s.458.

[3] "əl-Bəyan", s.130; "ət-Təmhid", c.2, s.245.

Yuxarıdakı rəvayətdən əldə olunur ki, Asimin Əbu Əbdurrəhmana olan etimadı Zərr ibn Hubeyşə olan etimadından daha çox imiş.

Baxmayaraq ki, Həfs ibn Süleyman (Asimin qiraətinin iki ravisindən biri) barədə ziddiyyətli sözlər çox deyilmişdir, lakin Quran elmləri tədqiqatçıları Həfsin rəvayətini Şu`bənin rəvayətinə üstünlük vermişlər. Onlar qeyd etmişlər ki, Həfs Asimin zövcəsinin övladı imiş və Asimin evində tərbiyə almışdır. Öz ustadından Quranı öyrənən bir uşaq kimi o da Asimin yanında şagirdlik etmişdir. Odur ki, Həfsin rəvayəti Şu`bənin rəvayətindən daha dəqiq və etibarlıdır.[1]

**4. Əbu Əmr:** Zəbban ibn Əla ibn Amir ibn Əryan (hicri 68-154-cü il) "yeddi qari"dən biridir. Qeyd edilmişdir ki, qarilər arasında təkcə Əbu Əmr və İbn Amir ərəb soyundandırlar. Əbu Əmr Bəsrə, Kufə, Məkkə və Mədinədə bir çox qiraət ustadlarından dərs almışdır. Müxtəlif qiraət ustadlarından dərs alması onun müvəffəqiyyətində böyük rol oynamışdır və qarilərin, ravilərin tərcümeyi-halını qələmə alan bəzi tədqiqatçılar bunu (müxtəlif ustadlardan dərs almanı) müsbət bir hal kimi dəyərləndirmişlər. İbn Cəzri qeyd edir ki, "yeddi qari"dən heç biri bu qədər qiraət ustadından dərs almamışdır. Əbu Əmrin dərs aldığı tanınmış qiraət ustadlarından Məkkə qariləri olan Mucahid ibn Cəbər, Səid ibn Cubeyr, Əkrəmə ibn Xalid, Əta ibn Əbi Riyah, İbn Kəsir, İbn Muhəysin və Həmid ibn Qeysin, Mədinə qariləri olan Əbu Cəfər Yezid ibn Qə`qa və Şeybə ibn Nəssahın, Bəsrə qariləri olan Həsən Bəsri və Yəhya ibn Yə`mərin adını çəkmək olar. Əbu Əmr tez bir zamanda Bəsrə qarilərinin hörmətini qazandı və qarilərin rəisi kimi tanındı. O dövrün tanınmış şairi Fərəzdəq, Əbu Əmr ilə görüşdükdə onun elminin heyranı olmuş və bir şeirdə onu mədh etmişdir. Əbu Əmr öz qiraətində mümkün qədər kəlmənin "təshil" və "təxfif"inə riayət etmiş və qiraəti çətinləşdirməkdən çəkinmişdir. Əbu Əmrin qiraətinin daha bir bariz xüsusiyyəti "mutəqaribeyn idğamı"na önəm verməsidir. Məsələn, "د" hərfinin "ص" hərfində idğamı: "مَقْعَدِ صِّدْقٍ". Yaxud "ك" hərfinin "ق" hərfində idğamı: "رَبُّك قَّدِيرًا".

Əbu Əmrin qiraəti ilə "yeddi qari"dən olan digər qarilərin qiraətini müqayisə etdikdə, onunla ustadı İbn Kəsir Məkkinin qiraəti arasında böyük oxşarlığın olduğu görünür.

Əbu Əmrin şagirdləri arasında Əbu Məhəmməd Yəhya ibn Mubarək Yəzidi – belə ki, Əbu Məhəmməd "on dörd qari"dən biridir – onun qiraətini gələcək nəsilə ötürən əsas şəxs olmuşdur. Əbu Əmrin qiraətinin iki əsas ravisi – Həfs ibn Əmr Duri və Əbu Şueyb Saleh ibn Ziyad Susi – Yəzidinin şagirdlərindən olmuşlar.

Əbu Əmrin qiraəti Bəsrədən əlavə - belə ki, onun qiraəti Bəsrədə əsas qiraət idi – hicri üçüncü və dördüncü əsrlərdə Bağdadda və digər elm şəhərlərində diqqət mərkəzində olan qiraətlərdən olmuşdur.[2]

---

[1] Mənahilul-irfan, c.1, s.459.

[2] Böyük İslam ensiklopediyası, c.6, s.64-66.

**5. Həmzə:** Əbul-Həsən Həmzə ibn Həbib ibn Əmmarə ibn İsmail Kufi Təmimi (hicri 80-156-cı illər) "yeddi qari"dən biridir. O, Kufə qarilərinin "dördüncü mərtəbə"sində qərar tutmuş və böyük fəqihlərdən biri olmuşdur. Qiraəti "ərz" yolu Suleyman Ə`məş və Həmran ibn Ə`yəndən təlim almışdır. "ət-Təysir vəl-mustənir" kitabında qeyd edilir ki, o, Quranı İmam Sadiqə (ə) oxumuşdur.[1] Şeyx Tusi də Həmzəni İmam Sadiqin (ə) səhabəsi kimi tanıtdırmışdır. İbn Nədim, Həmzənin "əl-Qiraət" kitabının adını çəkdikdən sonra qeyd edir ki, Həmzə İmam Sadiqin (ə) səhabəsi olmuşdur.[2] Abdullah İcli deyir: "Əbu Hənifə Həmzəyə dedi: "Sən iki işdə bizdən üstünsən və bu iki işdə bizim səninlə mübahisə etməyə səlahiyyətimiz çatmaz: biri Quranda və digəri fərizə və ehkamda."" Sufyan Suri deyir: "Quranda və ehkamda Həmzə hamıdan üstün idi."

Baxmayaraq ki, azlıq təşkil edən bəzi fərdlər ondan irad tutmağa çalışmışlar, amma Quranın qiraətində onun yüksək məqamını görməzdən gəlmək mümkün deyildir. Əbu Abdullah Zəncani onun barəsində deyir: "O, imam və huccət, etibarlı və bəsirətli şəxs, fərizələri və ehkamı bilən, ərəb dili alimi, hədis hafizi, zahid, xüşu əhli, qane və bənzərsiz idi."[3]

Quranın qiraətində Həmzənin ustadlarının silsiləsi belə qeyd edilmişdir:

Həmzə ibn Həbib → Əbu Məhəmməd Suleyman ibn Mehran Ə`məş → Yəhya ibn Vəsab → Zərr ibn Hubeyş → Əli ibn Əbu Talib (ə) → Həzrət Peyğəmbər (s)

Həmzə ibn Həbib → Əbu Məhəmməd Suleyman ibn Mehran Ə`məş → Yəhya ibn Vəsab → Zərr ibn Hubeyş → Osman Əffan → Həzrət Peyğəmbər (s)

Həmzə ibn Həbib → Əbu Məhəmməd Suleyman ibn Mehran Ə`məş → Yəhya ibn Vəsab → Zərr ibn Hubeyş → İbn Məs`ud → Həzrət Peyğəmbər (s)

Həmzənin əsas şagirdi Suləym ibn Hənəfi Kufidir (v.t: 188-ci il) və Həmzənin qiraətini o, digərlərinə ötürmüşdür. Həmzənin qiraətinin iki əsas ravisi – Xələf ibn Hişam (v.t: 229-cu il) və Əbu İsa Xəllad ibn Xalid (v.t: 220-ci il) onun qiraətini vasitə ilə Suləym ibn İsa Hənəfi Kufidən təlim almışlar.

**6. Nafe:** Kunyəsi "Əbu Ruveym" olan Nafe ibn Əbdurrəhman ibn Əbi Nəim Mədəni (h.q. 70-169-cu il) İsfahan şəhərində dünyaya gəlmişdir. O, qiraəti Əbu Cəfər Qaridən və tabeindən olan yeddi qaridən təlim almışdır.

Şiə "rical" kitablarında Nafenin adı qeyd edilməmişdir. Lakin İbn Mücahid "yeddi qiraət"i toplayarkən birinci onun qiraətindən başlamışdır. Bir çox tədqiqatçılar müxtəlif ifadələrlə onun qiraətini tərifləmiş və etibarlı bir qiraət olaraq tanıtdırmışlar. Bir dəstə tədqiqatçı isə Nafenin etibarlı bir ravi olmadığını qeyd etmişlər. Mədinədə qiraət imamlığı ona gedib çatır.[4]

---

1 "əl-Bəyan", s.136.

2 Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.328.

3 Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.329-330.

4 Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.313-314.

Nafenin raviləri və şagirdləri arasında onun qiraətini gələcək nəsillərə ötürən iki ən məşhur ravi "Qalun" adı ilə tanınan Əbu Musa İsa ibn Mina (v.t: 220-ci il) və "Vərş" adı ilə tanınan Osman ibn Səid Misridir (v.t: 197-ci il). Bu iki ravi vasitəsiz olaraq qiraəti öz ustadlarından nəql etmişlər.

**7. Kəsai:** Əbul-Həsən Əli ibn Həmzə Kəsai qiraət imamlarından və "yeddi qari"dən biridir. Bu məşhur qari və nəhv ustadı çox vaxt "kisa", yəni kilim geyinərmiş. Onun soykökü İrandandır və İraq camaatından olmuşdur. Həmzə ibn Zəyyatdan sonra o, Kufənin Quran qarilərinin rəisi olmuşdur. İmam Əhməd Hənbəl ondan rəvayət edərək demişdir: "Mən Əli ibn Həmzə kimi doğru danışan bir şəxs görməmişəm." Şafei isə demişdir: "Nəhv elmində alimliyə yüksələn bir kəs Kəsainin qabından çörək yemişdir." Kəsai ilk əvvəl Həmzənin qiraətini camaata təlim edirmiş, lakin bir müddətdən sonra özü üçün bir qiraət seçmiş və Harunun xilafəti dövründə onu camaata təlim etmişdir.[1]

İbn Nədim yazır: "Kəsainin qiraəti hansı yerdə Həmzənin qiraəti ilə fərqlidirsə, İbn Əbi Leylinin qiraətinə uyğundur və İbn Əbi Leyli də öz növbəsində Quranı Əliyə (ə) oxumuşdur."

Seyid Həsən Sədr Kəsainin qiraətinin rəvayətlərinin aşağıdan yuxarıya doğru silsiləsində altıncı imamdan birinci imama qədər imamların adını çəkmiş, yazmışdır: "Kəsai Quranı Həmzəyə və Həmzə İmam Sadiqə (ə), İmam Sadiq (ə) atası İmam Baqirə (ə), o da atası İmam Səccada (ə), o da atası İmam Hüseynə (ə), o da atası Əmirəl-mömininə (ə) qiraət etmişdir."

Şiə mənbələrində olan bir çox sənədlərə istinadən, Kəsai qəbul edilmiş bir şəxsiyyətdir. Qarilərin əksəriyyəti Kəsainin qiraətini nəql etmişlər və onların arasında iki ravi – Leys ibn Xalid Mərvəzi (v.t: 240-cı il) və Həfs ibn Ömər Duri (v.t: 246-cı il) daha məşhurdur. Onlar Kəsainin qiraətini vasitəsiz nəql etmişlər.[2]

## "Yeddi qari" barədə bir neçə diqqətəlayiq məqam:

**1.** "Yeddi qari" arasında təkcə Əbu Əmr və İbn Amir ərəb olmuşlar.[3]

**2.** Bu qarilərin hamısı hicri ikinci əsrdə yaşamışlar.

**3.** Hicri üçüncü əsr boyunca Bəsrə camaatı Əbu Əmrin və Yəqub ibn İshaqın, Kufə camaatı Həmzənin və Asimin qiraəti ilə Quranı qiraət edirlərmiş. Hicri dördüncü əsrin əvvəllərində İbn Mücahid Kəsaini Kufə qarilərindən qərar verib Yəqubun adını ixtisara saldı.[4]

---

[1] Dehxudanın lüğəti, c.11.

[2] Seyid Məhəmmədbaqir Huccəti, "Tarix-e Quran", s.235-241.

[3] "əl-Huccətu fil-qiraatis-səb`ə", s.61; "əl-Burhan", növ: 22.

[4] "əl-İtqan", c.1.

**4.** Quranın qiraətində Kufə şəhərinin qarilərinin daha çox payı olmuşdur. İbn Məs`uddan sonra Ubəyy ibn Kə`bin qiraəti Kufə qiraətləri üzərində böyük təsir qoydu.

**5.** Kufəni hər üç qarisi (Asim, Həmzə və Kəsai) şiə alimlərindən və Əhli-beyt (ə) dostlarından olmuşlar. Hal-hazırda müsəlmanlar arasında yayılan və Quranın rəsmi qiraəti olan "Həfsin rəvayəti ilə Asimin qiraəti" Quranın qiraəti zəminində şiənin mövqeyini aydın şəkildə göstərməkdədir.

## *Fəslin əsas mətləbləri:*

**1.** Hicri üçüncü əsrdə Əbu Ubeyd Qasim ibn Səlam (v.t: 224-cü il), Əhməd ibn Cubeyr (v.t: 258-ci il), İsmail ibn İshaq Maliki (v.t:281-ci il), Məhəmməd ibn Əhməd ibn Ömər Dacuni (v.t: 314-cü il) və başqaları qiraətləri bir kitabda qeydə aldılar.

**2.** Dördüncü əsrin əvvəllərində Bağdadın böyük qarisi İbn Mücahid qiraətdə ictihad qapısını bağladı və o, bu addımı atan ilk şəxs idi. İbn Mücahid beş şəhərdən – Mədinə, Məkkə, Kufə, Bəsrə və Şamdan yeddi qiraəti seçib "əs-Səb`ə" adlı kitabında qeydə aldı.

**3.** İbn Mücahidin zirənglik göstərərək Osmani mushəflərin sayına və "əhrufu-səb`ə" hədisinə uyğun olaraq məhz yeddi qiraət seçməsi, onun bu seçiminə xüsusi bir müqəddəslik bəxş etdi. Belə ki, camaat digər qiraətləri kənara qoyub bu qiraətlərə üz tutdu.

**4.** Baxmayaraq ki, İbn Mücahidin bəzi müasirləri ona etiraz mövqeyindən çıxış etdilər, amma ondan sonra bir çox alimlər onun bu addımının tərəfdarları ünvanında "yeddi qiraət" barəsində bir sıra əsərlər qələmə aldılar.

**5.** "Yeddi qari" bunlardır: İbn Amir, İbn Kəsir, Asim, Əbu Əmr, Həmzə, Nafe, Kəsai.

**6.** Asim, Həmzə və Kəsai Kufə qiraətinin imamları olub şiə inancında idilər.

**7.** Hal-hazırda müsəlmanlar arasında yayılan qiraət Həfsin Asimdən nəql etdiyi qiraətdir. Bu isə Quranın qiraətində şiənin mövqeyini aydın şəkildə göstərməkdədir.

# Beşinci fəsil

## Qiraətlərin qəbul edilmə meyarları

Bildiyiniz kimi, (istər "yeddi qari", istərsə də başqa) qarilərin qiraətləri arasında elə qiraətlər vardır ki, qəbul edilməmişdir. Baxmayaraq ki, bəzi qarilər tanınmış elmi şəxsiyyətlər olmuşlar, amma onların qiraətləri mütləq şəkildə qəbul edilməmişdir. Burada belə bir sual ortaya çıxır ki, görəsən bir qiraəti dəyərləndirmək üçün hansısa bir meyar və ya meyarlar vardırmı? Belə ki, bu meyarla üst-üstə düşən qiraət qəbul edilsin, əks təqdirdə isə inkar edilsin.

Quran tədqiqatçıları hamılıqla bu suala müsbət cavab vermiş və müəyyən meyarlar tanıtdırmışlar. Biz burada Dr. Əbdul-Hadi Fəzlinin "Tarix-e qiraat-e Quran" əsərinə istinadən, Quran tədqiqatçılarının tanıtdırdıqları meyarları nəzərinizə çatdırırıq.

Ən qədim meyar İbn Mücahidin meyarıdır və ondan sonra bir sıra alimlər, o cümlədən, İbn Xələvəyh, Məkki ibn Əbu Talib, Kəraşi və İbn Cəzri bir sıra meyarlar qeyd etmişlər.

**a) İbn Mücahidin (v.t: 324-cü il) meyarı:**

1- Qari elə şəxsiyyətlərdən olmalıdır ki, onun qiraəti yaşadığı bölgənin camaatı tərəfindən hamılıqla qəbul edilir;

2- Qarinin yaşadığı bölgənin camaatının onun qiraəti barəsində nəzəri, qiraətdə və ərəb dili qaydalarında qarinin dərin elminə dayanmalıdır.

**b) İbn Xələvəyhin (v.t: 370-ci il) meyarı:**

1- Qiraət, Osmani mushəfin yazı xəttinə müvafiq olmalıdır;

2- Ərəb dilinin qaydalarına müvafiq olmalıdır;

3- Nəsildən-nəsilə ötürülən və etibarlı sənədi olan rəvayət olmalıdır.

**c) Məkki ibn Əbu Talibin (v.t: 437-ci il) meyarı:**

1- Qiraət, ərəb dili qaydaları baxımından qüvvətli nəzərə və tərcih edilən qaydaya müvafiq olmalıdır;

2- Osmani mushəfin yazı xəttinə müvafiq olmalıdır;

3- Qarinin yaşadığı bölgənin camaatı onun qiraətini qəbul edərək Quranı onun qiraəti ilə oxumuş olsunlar.[1]

[1] "əl-Əbanə ən məanil-qiraat" kitabında Məkki ibn Əbu Talibdən qeyd edilən meyarlar, bu əsərdə qeyd edilən meyarlardan fərqlidir.

**ç) Kəraşinin (v.t: 680-cı il) meyarı:**

1- Qiraətin sənədi düzgün olmalıdır;

2- Ərəb dili qaydalarına müvafiq olmalıdır;

3- Osmani mushəfin yazı xəttinə müvafiq olmalıdır.

**d) İbn Cəzrinin (v.t: 833-cü il) meyarı:**

1- Qiraətin sənədi düzgün olmalıdır;

2- Ərəb dili qaydalarına "ümumilikdə" müvafiq olmalıdır (hətta ən zəif nəzərə müvafiq olsa belə);

3- Osmani mushəfin xəttinə müvafiq olmalıdır, hətta əgər fərzi və ehtimali olsa belə.[1]

İbn Cəzri bu üç meyarı və şərti qeyd etdikdən sonra yazır:

"Bu üç şərtə malik olan qiraət səhih və düzgün qiraətdir, onu rədd və inkar etmək caiz deyildir (buna icazə verilmir). Belə bir qiraət "əhrufu-səb`ə"dəndir, hansı ki, Quran həmin qiraətlə nazil olmuşdur. Camaata da bu qiraəti qəbul etmək vacibdir, indi bu qiraət istər "yeddi qari"nin, istər "on qari"nin, istərsə də "on dörd" qarinin qiraəti olmuş olsun. Bu üç şərtdən birinə xələl gəldikdə, qiraət "şazz", "zəif" və ya "batil" hesab olunur, indi bu qiraət istər "yeddi qari"nin qiraəti olmuş olsun, istərsə də onlardan da üstün qarilərin qiraətləri olmuş olsun."

İbn Cəzri sözünün davamında yazır:

"Keçmiş və müasir tədqiqatçı alimlər də sadalanan bu meyarları və şərtləri qəbul etmişlər. İmam Əbu Əmr Osman ibn Səid Dani bu meyarları təsdiqləmiş, İmam Əbu Məhəmməd Məkki ibn Əbu Talib dəfələrlə bu meyarlara toxunmuşdur. Başqa qiraət imamları da, o cümlədən, Əhməd ibn Əmmar Məhdəvi və Əbu Şamə də bu mətləbi doğru hesab etmişləş və keçmiş alimlərdən heç biri sözükeçən bu üç meyara etiraz bildirməmişlər."[2]

İbn Cəzrinin səhih qiraət üçün qeyd etdiyi meyarlar və şərtlər ondan əvvəlki alimlərin qeyd etdikləri meyarlarla müqayisədə vüsətli dairəni əhatə edir. Bu səbəbdən əhli-sünnə alimlərinin əksəriyyəti onun nəzərini qəbul etdilər. Siyuti "əl-İtqan" əsərində yazır: "Bu mövzuda ən üstün nəzər qarilərin imamı və bizim ustadların ustadı Əbul-Xeyir ibn Cəzrinindir..."[3]

Zərqani "Mənahilul-irfan" və Subhi Saleh "Məbahisun fi Ulumil-Quran" əsərində[4] İbn Cəzrinin nəzərini qəbul etdiklərini yazmışlar.

İbn Cəzrinin səhih qiraət üçün qeyd etdiyi meyarlar və şərtlərə diqqət yetirdikdə əldə edirik ki, o, Osmani mushəflərdən birinin xəttinə müvafiq olan qiraəti – hətta

1 "Tarix-e qiraat-e Qurani-Kərim", s.143-144.
2 "ən-Nəşru fil-qiraatil-əşr", c.1, s.9.
3 "əl-İtqan", c.1, s.236.
4 "əl-İtqan", c.1, s.255.

əgər fərzi və ehtimali olsa belə - və eləcə də, ərəb dilinin qaydalarına müvafiq olan qiraəti – hətta əgər bu zəmində söylənilən müxtəlif nəzərlərdən birinə müvafiq olsa belə - bir qiraətin səhihliyi üçün yetərli hesab edir.

Zərqani deyir:

“Qiraətin Osmani mushəflərdən birinin xəttinə müvafiq olması dedikdə bu nəzərdə tutulur ki, qiraət ən azı bu mushəflərdən birində sabit olmuş olsun. Məsələn, İbn Amirin qiraətində “قَالُوا اتَّخَذَ اللهُ وَلَدًا”[1] ayəsində “و” hərfe-istinafiyyənin oxunmaması, həmçinin onun qiraətində “بِالزُّبُرِ وَ بِالْكِتَابِ الْمُنِيرِ”[2] hər iki ismin əvvəlinə “ب” önqoşmasının artıtılması. Bunlar Şam mushəfində sabit idi.

Yaxud İbn Kəsirin qiraətində Bəqərə surəsinin axırlarında yerləşən “جَنَّةٌ مِنْ نَخِيلٍ وَ أَعْنَابٍ تَجْرِى مِنْ تَحْتِهَا الْأَنْهَارُ” ayəsində[3] “مِنْ” önqoşmasının artırılması, belə ki, bu, Məkkə mushəfində mövcud idi.

İbn Cəzrinin işlətdiyi “وَ لَوْ تَقْدِيرًا” (*hətta əgər fərzi və ehtimali olsa belə*) ifadədə bu məna nəzərdə tutulur ki, qiraət əgər mushəfin xəttinə müvafiqdirsə, bu müvafiqlik sərih olmasa belə, yenə də iradı yoxdur. Məsələn, “مَالِكِ يَوْمِ الدِّينِ” ayəsində olduğu kimi. Bu ayədəki “مَالِكِ” sözü Osmani mushəflərin hamısında “əlif” hərfi qoyulmadan yazılmışdır. Odur ki, “əlif” hərfinin ixtisara salınaraq bu sözün qiraət edilməsi mushəf ilə “təhqiqi müvafiqət”dir, halbuki, bu sözün “əlif” hərfi ilə qiraəti mushəf ilə “təqdiri müvafiqət”dir.”[4]

İbn Cəzri ikinci meyar – qiraət ərəb dili qaydalarına “ümumilikdə” müvafiq olmalıdır – barəsində belə izah verir: “Burada biz bunu nəzərdə tuturuq ki, ərəb dilinin qaydalarına müvafiq olan qiraət, hətta əgər bu zəmində söylənilən müxtəlif nəzərlərdən birinə müvafiq olsa belə, səhih qiraətdir. İndi bu qiraət istər “əfsəh” olsun, istərsə də “fəsih” olsun, yaxud istər bu qayda hamılıqla qəbul edilən bir qayda olsun, istərsə də barəsində fikirayrılığı olan bir qayda olsun. Əgər qiraət geniş yayılan bir qiraətdirsə və qiraət imamları onu səhih sənədlə qəbul ediblərsə, ərəb dili qaydalarında olan belə fikirayrılıqları qiraətə heç bir zərər yetirmir.”[5]

İbn Cəzrinin bu izahları istər-istəməz “şazz” və “zəif” qiraətləri də öz əhatəsinə alır. Çünki Osmani mushəfin xəttinin xüsusiyyətlərini və ərəb dili qaydalarında müxtəlif nəzərləri nəzərə alaraq, deyə bilərik ki, “zəif” qiraətlərin çoxunu hansısa bir surətdə Osmani mushəfin xəttinə və ərəb dili qaydalarından hansısa birinə müvafiq bilmək olar. Belə olduğu təqdirdə, bu üç meyar və şərt öz funksiyasını itirəcək və səhih qiraəti qeyri-səhih qiraətdən ayırd etmək üçün bir meyar və ölçü ola bilməyəcəkdir.

---

[1] Bəqərə surəsi, ayə: 116.
[2] Fatir surəsi, ayə: 25.
[3] Bəqərə surəsi, ayə: 266.
[4] “Mənahilul-irfan”, c.1, s.418-419.
[5] “ən-Nəşru fil-qiraatil-əşr”, c.1, s.10.

“ət-Təmhid” əsərinin müəllifi İbn Cəzrinin bu meyarlarına bir sıra iradlar bildirmişdir. Sonra isə bir qiraətin qəbul edilməsi üçün üç başqa meyar qeyd etmişdir. “ət-Təmhid” əsərinin müəllifinin nəzərinə görə bir qiraətin səhih olma meyarı bunlardır:

1- Qiraət, kəlmənin “maddə”si (məna), “surət”i (vəzn) və “yer”i (cümlə tərkibindəki yeri) baxımından müsəlmanlar arasında geniş yayılan səbtə (yazılan mushəfə) müvafiq olmalıdır, necə ki, bu, keçmiş və indiki müsəlmanlar arasında şərt hesab edilmişdir.

2- Qiraət, ərəb dilinin “əfsəh” (ən fəsahətli) qaydalarına müvafiq olmalıdır.

3- Qiraət, “qəti dəlil” ilə ziddiyyət təşkil etməməlidir: dəlil istər əqli dəlil olsun, istər mütəvatir sünnə olsun, istər sənədi səhih və qiraət imamlarının qəbul etdiyi rəvayət olsun.[1]

Əslində, bir qiraətin qəbul edilməsi üçün ən əsas meyar onun camaatın qiraəti (قراءت ناس) ilə - nəsildən-nəsilə ötürülən və elmi irs olan qiraətlə - həmahəng olmasıdır. Yuxarıdakı meyarlar və şərtlər də bu əsas meyarın gerçəkləşməsinə zəmin yaradır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Əhli-sünnə alimlərinin hamısı səhih qiraətlərin qeyri-səhih qiraətlərdən ayırd edilməsi üçün üç meyar qeyd etmişlər.

**2.** İbn Cəzrinin nəzərində səhih qiraətin üç meyarı bunlardır: 1- Qiraətin sənədi düzgün olmalıdır; 2- Ərəb dili qaydalarına “ümumilikdə” müvafiq olmalıdır (hətta ən zəif nəzərə müvafiq olsa belə); 3- Osmani mushəfin xəttinə müvafiq olmalıdır, hətta əgər fərzi və ehtimali olsa belə.

**3.** İbn Cəzrinin qeyd etdiyi bu meyarlar bir çox “şazz” və “zəif” qiraətləri də öz əhatəsinə alır. Belə olduğu təqdirdə, bu meyarlar öz funksiyasını itirir və səhih qiraəti qeyri-səhih qiraətdən ayırd etmək üçün meyar və ölçü hesab edilməyəcəkdir.

**4.** “ət-Təmhid” əsərinin müəllifi səhih qiraət üçün bu üç meyarı qeyd etmişdir: 1- Qiraət, müsəlmanlar arasında geniş yayılan səbtə (yazılan mushəfə) müvafiq olmalıdır; 2- Qiraət, ərəb dilinin “əfsəh” (ən fəsahətli) qaydalarına müvafiq olmalıdır; 3- Qiraət, “qəti dəlil” ilə ziddiyyət təşkil etməməlidir: dəlil istər əqli dəlil olsun, istər mütəvatir sünnə olsun, istər sənədi səhih və qiraət imamlarının qəbul etdiyi rəvayət olsun.

Əslində, bir qiraətin qəbul edilməsi üçün ən əsas meyar onun camaatın qiraəti (قراءت ناس) ilə - nəsildən-nəsilə ötürülən və elmi irs olan qiraətlə - həmahəng

[1] “ət-Təmhid”, c.2, s.122-154.

olmasıdır. Yuxarıdakı meyarlar və şərtlər də bu əsas meyarın gerçəkləşməsinə zəmin yaradır.

***Beşinci hissənin sualları:***

**1.** Quranın qiraətinin keçdiyi mərhələlərdən üçünü qısa şəkildə izah edin.

**2.** Nə üçün Quranın qiraətinin beşinci mərhələsi sonrakı dövrlərin qiraətləri üzərində həlledici təsir qoymuşdur?

**3.** Fərqli qiraətlərin ortaya çıxmasının amillərini qeyd edin. Hər bir amil üçün nümunə göstərin.

**4.** Qiraətlərin qeyri-mütəvatir olmasının dəlillərini açıqlayın.

**5.** Şiələrin nəzərində "əhrufu-səb`ə" hədisləri nə dərəcədə etibarlı hesab edilir?

**6.** "Əhrufu-səb`ə" hədisləri üçün qeyd edilən mənalardan dördünü açıqlayın. Bu mənalardan hansı daha böyük ehtimalla doğru hesab edilə bilər?

**7.** Qiraətlər arasındakı fərqlərin qisimləri barədə olan nəzərlərdən birini qeyd və təhlil edin.

**8.** Hicri üçüncü ildə qiraətləri bir yerə toplayanlar kimlər olmuşdur?

**9.** Qiraətlərin inhisarlaşdırlması təklifini kim irəli sürdü və bu təklifdə məqsəd nə idi? Hansı amil onun bu işdə uğur qazanmasına səbəb oldu?

**10.** Yeddi qarinin adını çəkin və Asimin qiraəti barədə izah verin.

***Araşdırma üçün suallar:***

**1.** Hicri ikinci əsrin qarilərinin mövqeyi və onların qiraətlər üzərində qoyduqları təsir barədə araşdırma aparın.

**2.** Hicri dördüncü əsrdə qiraətlərin bir yerə yığılması barədə araşdırma aparın.

**3.** Nə üçün Quranın qiraətləri zəminində başqaları ilə müqayisədə şiələr daha yüksək və əhəmiyyətli mövqeyə sahibdirlər?

**4.** Quranın qiraətləri barədə qələmə alınan əsərlərin mündəricatını tərtib edin və bu əsərləri onların qələmə alındığı tarix etibarilə sıralayın.

**5.** Səhih qiraət üçün bir sıra meyarlar qeyd olunmuşdur. Bu barədə sizin nəzəriniz nədir?

# ALTINCI HİSSƏ

# QURAN TƏHRİF OLUNMAYIB

## Altıncı hissə: Quran təhrif olunmayıb

***Birinci fəsil:*** **Külliyyat**

***İkinci fəsil:*** **İslam alimlərinin nəzəri**

***Üçüncü fəsil:*** **Quranın təhrif olunmadığına dair dəlillər**

***Dördüncü fəsil:*** **Quranın təhrif olunduğuna etiqad bəsləyənlərin dəlilləri**

### *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Təhrif mövzusunun Quranın tarixinə aid mövzular arasında tutduğu yer barədə məlumatlanmaq;
- Təhrifin müxtəlif qisimləri ilə tanışlıq;
- Təhrif barədə şiə və sünni alimlərinin nəzəri ilə tanış olmaq;
- Quranın təhrif olunmadığına dair dəlilləri öyrənmək;
- Təhrifə etiqad bəsləyənlərin dəlilləri ilə tanış olmaq.

### *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**əl-Bəyan fi təfsiril-Quran,** Ayətullah Xoi; **əl-Mizan fi təfsiril-Quran, c. 12,** Əllamə Təbatəbai; **Həqaiqun hammətun həvləl-Quranil-Kərim,** Seyid Cəfər Murtəza; **Siyanətul-Quran minət-təhrif,** Məhəmmədhadi Mərifət; **Quranpəjuhi,** Bəhauddin Xurrəmşahi; **Mədxəlut-təfsir,** Ayətullah Fazil; **Ukzubətu təhrifil-Quran,** Rəsul Cəfəriyan.

# Birinci fəsil

## Külliyyat

## Müqəddimə

“Quranın tarixi” barədə olan mövzulardan biri də bu səmavi kitabın təhrifə məruz qalmaması mövzusudur. Qurandan əvvəlki səmavi kitablar təhrifə, yəni dəyişikliyə az-çox məruz qalmış, bu da onların ehtiva etdiyi maarifə etimad və etiqadı sarsıtmışdır.

Sonuncu ilahi din olan İslam dini, üstün və mükəmməl bir din olub insanın həm maddi, həm də mənəvi tərəqqisi və təkamülünü təmin edən qanunları özündə ehtiva edir. Bu qanunların ən əsas və əbədi mənbəyi isə Qurani-Kərimdir.

Qurandan əvvəlki səmavi kitabların təhrifə məruz qalması bu kitabların mənsub olduqları ilahi dinlərin əsaslarına xələl gətirsə də, lakin səmavi kitabların yenilənməsi, yəni Allah tərəfindən növbəti bir kitabın, şəriətin göndərilməsi əvvəlki səmavi kitabda baş vermiş təhrifi və bu təhrifdən qaynaqlanan xəsarətləri demək olar ki, aradan qaldıra bilmişdir. Amma görəsən, sonuncu səmavi kitab olan Qurani-Kərim özünün enişli-yoxuşlu tarixində bu problemlə üzləşmişdirmi və təhrif əli ona da uzanmışdırmı? Yoxsa heç bir “azaltma” və ya “artırma” təhrifinə uğramadan zaman körpüsünü salamatlıqla ötüb keçmiş, bu baxımdan öz iftixarlarına daha bir iftixar da əlavə etmişdir?

Qeyd etmək lazımdır ki, Qurani-Kərim özünü əvvəlki səmavi kitabların **“muhəymin”i,** yəni “qoruyan”ı (onların hakimi və şahidi) olaraq tanıtdırır:

وَ أَنْزَلْنَا إِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقًا لِمَا بَيْنَ يَدَيْهِ مِنَ الْكِتَابِ وَ مُهَيْمِنًا عَلَيْهِ.

**“Biz Kitabı (Quranı) sənə haqq olaraq, özündən əvvəlki (səmavi) kitabları təsdiq edən və onları qoruyan kimi nazil etdik.”[1]**

Qurani-Kərim isə yalnız “ilahi bir möcüzə” və “təhrif olunmamış səmavi bir kitab” olduğu təqdirdə “muhəymin” ola bilər.

İlahi bir vəhynamə olmaqla yanaşı, İslam peyğəmbərinin (s) “əbədi möcüzəsi” olması Qurani-Kərimi digər səmavi kitablardan üstün etmiş, müsəlmanların həyatında onun əhəmiyyət və müqəddəsliyini bir neçə qat artırmışdır. Amma görəsən, Qurani-Kərimin “etibarlı mənbə və istinad yeri” olduğunu qəbul etmək üçün onun “möcüzə” olduğunu isbat etmək kifayət edirmi, yoxsa bunun üçün başqa bir məsələni - Qurani-Kərimin təhrifə uğramadığını da isbat etməyə ehtiyac vardır?

[1] Maidə surəsi, ayə: 48.

Əgər Quranın təhrifə uğramadığına etiqad olmasa, bu vaxt onun möcüzə olduğunu isbat etməyin nə faydası vardır? Əgər Quranın təhrifə uğramadığına etiqad olmasa, bu vaxt onu mötəbər, müqəddəs və dəyərli hesab etmək mümkündürmü? Bu vaxt onu yenə də "muhəymin" adlandırmaq olarmı?

Odur ki, biz Quran barədə iki etiqada sahib olmalıyıq:

**1- Quranın möcüzə olduğu** (bu mövzu kitabın növbəti hissəsində araşdırılacaq);

**2- Quranın təhrif olunmadığı** (bu mövzu kitabın bu hissəsində araşdırılır).

Quranın təhrifə uğramadığını onun ilahi bir möcüzə olduğundan qabaq araşdırmağımızın səbəbi, bu mövzunun "Quranın tarixi"[1] ilə əlaqədar olmasıdır. Təhrif mövzusu, ondan ötrü tarixi bir mövzudur ki, bu hadisə yalnız İslam tarixinin müəyyən bir dönəmində baş verə bilərdi:

1- Həzrət Peyğəmbərin (s) vəfatından sonra xəlifə Osmanın dövründə mushəflərin yığışdırılması və beş, yaxud yeddi mushəfin yaradılmasınadək (hicrətin otuzuncu ilinə qədər);

2- Bu dövrdən (hicrətin otuzuncu ilindən) etibarən hicrətin dördüncü əsrinin əvvəllərində İbn Mücahid tərəfindən qiraətlərin "yeddi qiraət"də inhisarlaşdırılmasınadək.

Hicri dördüncü əsrdən sonra Quranın təhrifə uğradığını kimsə iddia etməmişdir və hal-hazırda da belə bir iddia mövcud deyildir.

## Şiə məzhəbi Quranın təhrif olunmadığına etiqad bəsləyir

Məlum oldu ku, Quranın müqəddəsliyi və etibarı zəminində onun təhrifə uğramadığına etiqad bəsləmək olduqca əhəmiyyətlidir.

Qeyd etməliyik ki, bu mövzunun şiə alimləri tərəfindən araşdırılması xüsusi əhəmiyyətə malikdir. Çünki Quranın təhrif olunmadığına möhkəm əqidəsi olan və hal-hazırda yer üzündə Quranın nurani hökmlərinin bayraqdarı, İslamın fədakar müdafiəçiləri olan şiələrə[2] iftira atılır ki, şiələr Quranın təhrifə uğradığına etiqad bəsləyirlər! Bu iftiralar uzaq keçmişdən indiyədək o qədər geniş təbliğ olunmaqdadır ki, bəzi əhli-sünnə nümayəndələri bu inancı şiənin danılmaz inancı kimi qəbul etmişlər. Bəzi qərəzli qruplaşmaların şiələrə bu əsassız iftiraları atmaqda məqsədi, digər məzhəbdən olan müsəlmanlarda şiələrə qarşı nifrət hissi oyatmaq və İslam ümmətinin vəhdətini çətinliklə üzləşdirməkdir.

---

[1] Çünki əvvəlki beş hissədə "Quranın tarixi" barədə olan mövzular araşdırılmışdır.

[2] Nümunə olaraq, İmam Xomeyninin (r.ə) "Şeytan ayələri" kitabının müəllifi Salman Rüşdi barədə tarixi fətvasını qeyd etmək olar.

## *Təhrifin mənası*

Əzhəri deyir:

حَرفَ عن الشئ حَرْفًا وَ انْحَرفَ و تَحَرَّفَ و اِحْرَوْرَفَ

Bunların hamısı "bir şeydən uzaqlaşmaq, kənara çıxmaq" mənasını bildirir.[1] **"حَرْفُ الشَّيْءِ"** ifadəsi "bir şeyin tərəfi" mənasını bildirir.[2]

Rağib İsfahaninin "Mufrədat" adlı izahlı lüğətində qeyd etdiyinə əsasən, bir şeyi təhrif etmək, onu "əyri, qıyacı, çəpəki etmək" deməkdir. Məsələn, "təhrifu qələm" (تَحْرِيفُ قَلَم) dedikdə, "qələmin ucunu çəpəki yontmaq" nəzərdə tutulur. "Qələmun muhərrəfun" (قَلَمٌ مُحَرَّفٌ) dedikdə isə, ucu çəpəki yontulmuş qələm nəzərdə tutulur.[3]

Kəlamı təhrif etmək, onu iki ehtimaldan birində qərar verməkdir, hansı ki, kəlam üçün iki məna ehtimal verilirdi. Başqa sözlə desək, kəlamı təhrif etmək, kəlamı elə bir şəkildə mənalandırmaqdır ki, əslində, bu kəlamda bu məna nəzərdə tutulmamışdır. Məsələn, aşağıdakı Quran ayəsində məhz bu məna nəzərdə tutulur:

مِنَ الَّذِينَ هَادُوا يُحَرِّفُونَ الْكَلِمَ عَنْ مَوَاضِعِهِ...

"Yəhudilərin bir qismi (Tövratın) kəlmələri(ni) öz yerindən təhrif edirlər..."[4]

Daha aydın desək, bu kimi məqamlarda təhrif, kəlamın mənasını dəyişmək və kəlamı həqiqi mənasında deyil, başqa bir mənada mənalandırmaqdır. Bu izahla, hər kim Quranı qeyri-həqiqi mənada mənalandırarsa, onu təhrif etmişdir. Necə ki, bəzi yəhudilər Tövrat xüsusunda belə etmişlər.

Yuxarıdakı ifadənin oxşarı (يُحَرِّفُونَ الْكَلِمَ) Quranda dörd dəfə işlənmiş, hamısında da bir dəstə yəhudinin özlərinin səmavi kitabını məna baxımından təhrif etdiklərinə işarə edilir. Bir ayədə bu ifadə işlənir:

يُحَرِّفُونَ الْكَلِمَ مِنْ بَعْدِ مَوَاضِعِهِ[5]

Nəhayət, onların Tövrata qarşı rəftarı belə təsvir olunur:

وَ قَدْ كَانَ فَرِيقٌ مِنْهُمْ يَسْمَعُونَ كَلامَ اللهِ ثُمَّ يُحَرِّفُونَهُ مِنْ بَعْدِ مَا عَقَلُوهُ وَ هُمْ يَعْلَمُونَ.

"Onların (yəhudilərin) bir dəstəsi Allahın kəlamını eşidir, lakin (Allahın kəlamı) barəsində düşünüb başa düşdükdən sonra bilərəkdən onu təhrif edirdilər."[6]

---

1 İbn Mənzur, "Lisanul-ərəb".

2 Müraciət edin: əvvəlki qaynaq; həmçinin, "Qamus-e Quran"; "Mufrədat".

3 "Quranpəjuhi", s.86.

4 Nisa surəsi, ayə: 46.

5 Maidə surəsi, ayə: 41.

6 Bəqərə surəsi, ayə: 75.

## *“Təhrif”in terminoloji mənası*

Qeyd etdik ki, “təhrif” sözünün lüğəvi (leksik) mənası, “sözün mənasına müdaxilə etmək”, yəni sözün mənasını dəyişməkdir. “Təhrif”in terminoloji mənasında isə “Quranın sözlərinə müdaxilə etmək” nəzərdə tutulur. Başqa sözlə desək, terminoloji təhrif “ləfz təhrifi”, lüğəvi təhrif isə “məna təhrifi”dir.

Buna əsasən demək olar ki, Quranda “təhrif” sözü ancaq lüğəvi mənada işlənibdir. “Quranın təhrif olunmadığı” mövzusunda isə söhbət “ləfz təhrifi”ndən, yəni terminoloji təhrifdən gedir.

## *“Təhrif”in qisimləri:*

**1- Məna təhrifi;**
**2- Ləfz təhrifi.**

## *“Ləfz təhrifi”nin qisimləri:*

**1- Azaltma *(təhrifun bin-nəqisə)*;**
**2- Artırma *(təhrifun biz-ziyadə)*;**
**3- Ardıcıllığı pozma.**

**1- Quranın məna təhrifi:**

Baxmayaraq ki, Qurani-Kərimdə “təhrif” sözü bu mənada (yəni Quranın mənasının təhrif edilməsi mənasında) işlənməmişdir, lakin “Ali-İmran” surəsinin 7-ci ayəsində “mütəşabih ayələr” barədə belə buyurulur:

فَأَمَّا الَّذِينَ فِى قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَ ابْتِغَاءَ تَأْوِيلِهِ...

“Amma qəlblərində (haqdan) dönüklük olan kəslər fitnəkarlıq və təvil etmək (düzgün olmayan məna vermək) məqsədilə bu kitabın mütəşabihinə tabe olarlar...”

Bu ayə aydın şəkildə bildirir ki, bəzi fitnəkarlar mütəşabih ayələri öz yanlış yozumları üçün dəstavüz (istinad yeri) edirlər.

Təəssüflər olsun ki, Quranın “məna təhrifi”nə məruz qaldığı əsla inkar olunmur. Çünki “təfsir be-rəy”, yəni Quranı şəxsi rəy, nəzər əsasında təfsir etmək “məna təhrifi”dir və İslam tarixi boyu belə faktlara saysız rast gəlinir. “Quranın təfsiri” tarixində bir sıra kəlami cərəyanlar, firqələr meydana gəldi ki, onların meydana gəlməsinin başlıca səbəbi elə Quran ayələrini düzgün mənalandırmamaq, təfsir etməmək olmuşdur. Bu firqələrdən Mufəvvəzə, Mucəssəmə və başqalarını göstərmək olar.

Hədislərdə də Quranın məna təhrifinə məruz qaldığı bəyan edildikdən sonra bu işi görənlər kəskin şəkildə məzəmmət olunur. Hədislərin birində İmam Baqir (ə) buyurur:

وَ كانَ مِنْ نَبْذِهِمِ الْكِتابَ أنْ أقامُوا حُرُوفَهُ وَ حَرَّفوا حُدُودَهُ، فَهُمْ يَرْوَوْنَهُ وَ لا يَرْعَوْنَهُ، والْجُهّالُ يُعْجِبُهُمْ حِفْظُهُمْ لِلرَّوايَةِ وَ الْعُلَماءُ يَحزُنُهُمْ تَرْكُهُمْ لِلرِّعايَةِ.

"Kitabı arxaya atmalarının nişanəsi bu idi ki, onlar Kitabın hərflərini qoruyub saxladılar, amma onun hüdudlarını (mənasını) təhrif etdilər. Onlar Kitabı nəql etdikləri bir halda ona riayət etmirlər. Cahillər heyrətdədirlər ki, onlar Quranın mətnini necə də hifz edirlər. Alimlər isə buna görə kədər içindədirlər ki, onlar Kitaba riayət etmirlər..."[1]

**2- Quranın ləfz təhrifi:**

**a)** Heç bir müsəlman **"təhrifun biz-ziyadə"**ni, yəni Qurana kəlmə və ya ayələrin artırıldığını qəbul etməmişdir. Bu növ təhrif şiə və əhli-sünnə tərəfindən inkar olunur.

Bu təhrifin baş vermədiyinə dair əqli dəlil də mövcuddur. Əqli dəlil bundan ibarətdir: Quranın əzbərlənməsi və məclis qurularaq qiraət edilməsinə müsəlmanların verdikləri böyük əhəmiyyət elə bir vəziyyət yaratmışdı ki, nazil olmuş Quran ayələri hamıya tanış və məlum idi. Odur ki, əgər hansısa bir cümlə və ya cümlələr Quran ayəsi ünvanında qələmə verilsəydi, bu, hamıya aydın olar və hamılıqla inkar edilərdi. Bundan əlavə, Quranın nurani ayələri elə bir misilsiz fəsahət və gözəlliyə malikdir ki, əgər hansısa bir ayə ən bəlağətli bir xətibin xütbəsində yer alsaydı, qaranlıqda işıq saçan çıraq kimi görünürdü. Belə olduğu təqdirdə, fərz etmək olarmı ki, Quranda **"təhrifun biz-ziyadə"** baş vermişdir? Ona cümlə və ya cümlələr artırılmış və kimsə də bunu sezməmişdir?

Əlbəttə, Qurana hərflərin artırılması və ya bəzi hərəkələrin dəyişdirilməsi ehtimalını kimsə inkar etmir, əksinə, bunu isbat etmək də mümkündür. Lakin bu, Quranın toxunulmazlığına xələl gətirmir.

Amma Qurana söz və ya sözlərin artırılmasına gəlincə, baxmayaraq ki, "vahid mushəf"in yaradılmasından qabaq (Osman ibn Əffanın xəlifəliyi dövründə) bu məqam, səhabələrin mushəflərində mövcud idi. Hətta bəzi alimlər, o cümlədən, Əbu Davud Sicistani səhabələrin mushəfləri arasındakı fərqli məqamları "əl-Məsahif" adlı əsərində qeyd etmişdir. Lakin "vahid mushəf" yaradıldıqdan və Quran, müsəlmanlar arasında tanınmış olduğu şəkildə yığıldıqdan sonra bu məsələ də ortaya çıxmamışdır.[2]

**b) Təhrifun bin-nəqisə**, yəni Qurandan hansısa bir sözün, cümlənin, ayənin və ya surənin çıxarılması təhrif mövzusunun əsas bəhsidir. Baxmayaraq ki, bəzi əhlisünnə təriqətləri və həmçinin, şiə təriqətlərindən sayılan "Əxbarilər" Quranda bu növ təhrifin baş verdiyini qəbul edirlər, amma Cəfəri şiə məzhəbi təhrifin bu növünü də qəti surətdə rədd edir. Bu məsələ növbəti fəsillərdə geniş şəkildə araşdırılır.

[1] "əl-Bəyan fi təfsiril-Quran", s.227.
[2] "əl-Bəyan fi təfsiril-Quran", s.199.

**c)** Əgər surələrin və ayələrin yerinin dəyişdirilməsi təhrifin bir növü hesab edilərsə, onda deməliyik ki, bu növ təhrif Qurani-Məciddə baş vermişdir. Çünki Quran surələrinin hal-hazırkı ardıcıllığı, surələrin nazil olduğu ardıcıllıq ilə deyil və bu məsələni kimsə inkar etmir. Hətta surələrdə bəzi ayələrin tərtibi xüsusunda bəzi alimlər bu əqidədədirlər ki, çox nadir hallarda ayələrin yerləşdirilməsi səhabələr tərəfindən həyata keçirilmişdir. (Müraciət edin: bu kitabın "Quranın yazılması və yığılması" adlı dördüncü hissəsinə.)

Aydın məsələdir ki, surələrin yerinin dəyişdirilməsi Quranın etibarına xələl gətirmir.

Nəticə budur ki, "ləfz təhrifi" qismində təkcə "təhrifun bin-nəqisə" mübahisəli məsələdir və bu növ təhrifin baş verib-vermədiyi araşdırılacaqdır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Qurani-Kərimin müqəddəsliyini (toxunulmazlığını) və etibarlı istinad yeri olduğunu isbat etmək etmək üçün bu iki etiqad isbat olunmalı və birgə qəbul olunmalıdır: 1- Quranın möcüzə olduğu; 2- Quranın təhrifə uğramadığı.

**2.** Quranın əvvəlki səmavi kitabların "muhəymin"i ola bilməsi üçün onun təhrifə uğramaması əsas şərtdir.

**3.** Təhrif mövzusu "Quranın tarixi" barədə olan mövzudur, çünki bu hadisə yalnız İslam tarixinin müəyyən bir dönəmində baş verə bilərdi: 1- Həzrət Peyğəmbərin (s) vəfatından sonra xəlifə Osmanın dövründə vahid mushəf yaradılanadək olan dönəmdə (hicri otuzuncu ilə qədər); 2- Bu dövrdən (hicri otuzuncu ildən) etibarən hicri dördüncü əsrin əvvəllərində qiraətlərin İbn Mücahid tərəfindən yeddi qiraətdə inhisarlaşdırıldığı vaxta qədər olan dönəmdə.

**4.** Kəlamı təhrif etmək onun mənasını dəyişdirmək, onu düzgün olmayan mənada mənalandırmaqdır.

**5.** "يُحَرِّفُونَ الْكَلِمَ" ifadəsi Quranda dörd dəfə işlənmiş və hamısında da "təhrif" sözünün lüğəvi mənası (yəni "mənanı dəyişdirmək") nəzərdə tutulmuşdur.

**6.** "Təhrif"in terminoloji mənasında "ləfz təhrifi", yəni Qurani-Kərimin sözlərinin və ayələrinin azaldılması və ya artırılması nəzərdə tutulur. Quranın təhrifə uğramadığı mövzusunda "ləfz təhrifi"nin baş verib-vermədiyi araşdırılır.

**7.** Ləfz təhrifin qisimləri aşağıdakılardır:

1- Azaltma (təhrifun bin-nəqisə);

2- Artırma (təhrifun biz-ziyadə);

3- Ardıcıllığı pozma.

**8.** Quranda "məna təhrifi"nin və "ardıcıllığı pozma" təhrifinin baş verdiyi hamılıqla qəbul olunur. Necə ki, "təhrifun biz-ziyadə"nin baş vermədiyi hamılıqla qəbul olunur. Mübahisəli məsələ təkcə "təhrifun bin-nəqisə"dir.

# İkinci fəsil

## İslam alimlərinin nəzəri

Müsəlmanlar arasında dinin bəzi inancları və əməli göstərişləri barədə fikirayrılığı olsa da, lakin Quranın təhrif olunmadığı məsələsində demək olar ki, bütün müsəlmanlar eyni əqidədədirlər. Baxmayaraq ki, şiə "əxbarilər"indən bir dəstəsi və bir qrup əhli-sünnə alimi yetərli və ətraflı araşdırma aparmadan bir sıra hədislərin zahirinə aldanıb Quranda "təhrifun bin-nəqisə"nin baş verdiyinə inanmışlar, lakin şiə və sünni alimləri arasında məşhur və məqbul olan budur ki, "təhrifun bin-nəqisə" də Quranda baş verməmişdir. Yəni bizim əlimizdə olan bu Quran, Həzrət Məhəmməd peyğəmbərə (s) nazil olan Quranın hamısıdır və ondan heç nə azalmamışdır. Keçmiş və müasir böyük şiə alimlərinin nəzərlərinə müraciət etmək bu həqiqətə şahidlik edir.

Şeyx Mufiddən sonra şiə məzhəbinin böyük fəqihi, müfəssiri, mütəkəllimi, ədibi və şairi "Seyid Mürtəza və Ələmul-huda" adı ilə tanınan Əbul-Qasım Əli ibn Hüseyn Musəvi (vəfat tarixi: h.q. 436-cı il) deyir:

"Quranın mətninin düzgünlüyü barədə olan məlumat dəqiq və aydındır, böyük şəhərlər və hadisələr, ərəbin məşhur kitabları barədə olan məlumatlarımız kimi. (Yəni əldə olan sənədlərlə həmin şəhərlərin mövcud olduğunu, həmin hadisələrin baş verdiyini, həmin kitabların yazıldığını əminliklə söyləyə bildiyimiz kimi, Quranın da olduğu kimi və heç bir təhrifə uğramadan bizə gəlib çatdığını söyləyə bilərik.) Çünki Qurani-Kərimin nəql edilməsi və əzbərlənməsi üçün o qədər böyük məqsədlər olmuşdur ki, sadalanan bu məqamlar heç bu qədər əhəmiyyət daşımamışdır. Axı Quran nüvübbət (peyğəmbərlik) üçün bir möcüzə, habelə, dini elmlərin və şəri hökmlərin əxz olunduğu mənbə idi. İslam alimləri onu qorumaqda böyük səy göstərmiş, hətta Quranın erabı, qiraəti, hərfləri və ayələri barədə olan fikirayrılıqlarını da öyrənmişlər. Belə olduğu təqdirdə, heç mümkündürmü ki, onda dəyişiklik və ya azaltma baş vermiş olsun?..."[1]

Ustad Məhəmmədhadi Mərifət öz əsərində iyirmidən çox böyük şiə aliminin Quranın təhrif olunmadığına dair nəzərini qeyd etmişdir. Bu alimlərdən bir neçəsinin adını çəkirik:

1. Şeyxul-muhəddisin Əbu Cəfər Məhəmməd ibn Əli ibn əl-Huseyn əs-Səduq (v.t.: 381 h.q.);

2- Əmidut-taifə Məhəmməd ibn Məhəmməd ibn Numan əl-Mufid (v.t.: 413 h.q.);

3. əş-Şərif əl-Murtəza Əli ibn əl-Huseyn Ələmul-huda (v.t.: 436 h.q.);

[1] "Mədxəlut-təfsir", s.187.

4. Şeyxut-taifə Əbu Cəfər Məhəmməd ibn əl-Həsən ət-Tusi (v.t.: 460 h.q.);
5. Əminul-İslam Fəzl ibn əl-Həsən ət-Təbərsi (v.t.: 548 h.q.);
6. Əllamə Hilli (v.t.: 726 h.q.);
7. Muhəqqiq Ərdəbili (v.t.: 993 h.q.);
8. Şeyx Cəfər Kaşiful-ğita (v.t.: 1228 h.q.);
9. əl-İmam əs-Seyid Şərəfuddin əl-Amuli (v.t.: 1381 h.q.);
10. Əllamə Əmini.

Həmin kitabda müasir dövrün böyük alimləri olan Əllamə Təbatəbainin, Ayətullah Xoinin və İmam Xomeyninin qəti nəzərləri də qeyd edilmişdir.[1]

Böyük şiə mühəddisləri[2] hamılıqla – ilk böyük mühəddis Şeyx Səduqdan, Şeyx Hürr Amuli və Molla Möhsin Feyz Kaşaniyə qədər - Quranın təhrifə uğraması ehtimalını inkar etmişlər. Əlbəttə, təhrif düşüncəsi "Quranın zahirinin höcciyyətinin inkar edilməsi" məqsədilə səthi düşüncəli və tez inanan əxbarilərin bir dəstəsi tərəfindən ortaya atılmışdır. Bu dəstənin bayraqdarı və təhrif düşüncəsini ortaya atan Seyid Nemətullah Cəzayiri (h.q. 1050-1112-ci illər) bəzi qəribə və şazz (nadir) hədislərə əsaslanmışdır. Onun "əl-Ənvarun-Numaniyyə" adlı kitabı xurafat və qəribə hədis və hekayətlərlə doludur. Belə ki, bu hədislərin heç biri şiə qaynaqlarında mövcud deyildir. Bu kitab təhrif düşüncəsinin əsas mənbəyi olmuş və Mirzə Nuri də "Fəslul-xitab" adlı kitabında ona əsaslanmışdır.[3]

## Şeyx Mirzə Nuri və onun "Fəslul-xitab" əsəri

Mərhum Şeyx Mirzə Hüseyn Nuri (h.q.1254-1320) böyük şiə alimi və mühəddisidir. O, bir çox əsərlərin, o cümlədən, "Fəslul-xitab fi təhrifi Kitabi-Rəbbil-ərbab" əsərinin müəllifidir. Bu əsər h.q.1292-ci ildə Nəcəf şəhərində qələmə alınmış və h.q.1298-ci ildə çap olunmuşdur.[4] Bu kitab nəşr edildikdən sonra böyük şiə alimlərinin əksəriyyəti onun nəzərinə qarşı çıxır və bu nəzərin yanlışlığını ortaya qoyan əsərlər yazır. Hacı Nuri öz kitabını müdafiə etmək və Şeyx Mahmud Tehraninin "Kəşful-irtiyab ən təhrifil-Kitab" əsərinə cavab vermək məqsədilə fars dilində ayrıca bir kitab yazır və orada belə qeyd edir: "Mən razı deyiləm ki, kimsə bu kitabı mütaliə etmədən "Fəslul-xitab" əsərini oxusun."[5]

Hacı Nurinin şagirdi olmuş Əllamə Şeyx Ağabozorg Tehrani deyir: "Ustadımız Hacı Nuri ömrünün axırlarında deyirdi: "Mən kitabıma ad qoymaqda səhvə yol vermişəm. Yaxşı olardı ki, kitabın adını "Fəslul-xitab fi ***ədəmi*** təhrifil-Kitab" qoyaydım. Çünki mən orada isbat edirəm ki, dünyada yayılan hazırkı Qurani-

[1] "Siyanətul-Quran minət-təhrif", s.59-78.
[2] Hədis raviləri. *Müt.*
[3] "Siyanətul-Quran minət-təhrif", s.111-113.
[4] "Mustədrəkul-vəsail", c.1, s.50.
[5] Ağabozorg Tehrani, "əz-Zəriə", c.16, s.231.

Şərif bütun surələri, ayələri və cümlələri ilə ilahi vəhydir. Yığıldığı vaxtdan bu günə kimi onda heç bir dəyişiklik, artırma və azaltma olmamışdır... Mən kitabın bir çox yerlərində öz əqidəmi aydın şəkildə söyləməkdə səhlənkarlıq etmişəm, hətta qəflət üzündən əqidəmə zidd danışmışam."[1]

Həqiqət budur ki, "Fəslul-xitab" kitabına heç bir vəchlə bəraət qazandırmaq, onu müdafiə etmək mümkün deyildir. Bacarıqlı mühəddis (hədis ravisi) olan Hacı Nuri təhlilçi bir tədqiqatçı olmadığı üçün zahirdə "Kitab"ın (Quran) təhrifinə dəlalət edən saysız hədislər və rəvayətlərə aldanmış, onları təhlil etmək və araşdırmaqda – istər "sihhəti-sudur", istərsə də "kəlamın dəlaləti və mənası" baxımından araşdırmaqda – qəflət etmişdir. Quranın təhrifi zəminində onun qeyd etdiyi on iki dəlilin heç biri təhrifin isbatı üçün yetərli deyildir.

Burada bu sualı veririk ki, görəsən, bir və ya bir neçə fərdin şəxsi əqidəsini, nəzərini bir məzhəbə nisbət vermək, onun adına yazmaq olarmı?! Halbuki, həmin məzhəbin böyük alimləri, müfəssirləri və tədqiqatçılarının əksəriyyəti qədimdən indiyədək bu əqidəyə qarşı çıxmışlar?!

Bu cür zəif, əsassız nəzərləri dəstavüz edib şiənin Quranın müqəddəsliyinə və uca məqamına olan əqidəsi qarşısında gözlərini və qulaqlarını bağlayanlar, görəsən, zəhərli təbliğatları ilə hansı məqsədi güdürlər?[2]

Bu gün Quran islami vəhdətin mehvəri və İslamın qanunnaməsi kimi, öz bələdçilik rolunu o vaxt ifa edə bilər ki, onun sənədinin etibarlılığında heç bir şübhə olmasın. Əhli-beyt (ə) məzhəbini zəiflətmək, gözdən salmaq məqsədilə Quranın müqəddəsliyinə xələl gətirən belə yalanları yayanlar bilərəkdən və ya bilməyərəkdən Quranın məqamını kiçildirlər.

## *Fəslin əsas mətləbləri:*

**1.** Böyük şiə mühəddisləri hamılıqla – Şeyx Səduqdan, Molla Möhsin Feyz Kaşaniyə qədər - Quranın təhrifə uğradığına dair hər bir ehtimalı inkar etmişlər.

**2.** Quranın təhrif olunmadığına dair şiə və sünni alimlərinin böyük əksəriyyətinin qəti nəzəri müqabilində şiə əxbarilərindən və əhli-sünnədən bir dəstənin Quranın təhrif olunduğuna dair nəzəri etina olunacaq bir həddə deyildir.

**3.** Hicri dördüncü əsrdən indiyədək Quranın təhrif olunmadığına dair böyük şiə alimlərinin nəzərinə rəğmən, Seyid Nemətullah Cəzayirinin "əl-Ənvarun-Numaniyyə" və Mirza Nurinin "Fəslul-xitab fi təhrifi Kitabi-rəbbil-ərbab" əsəri təhrif mövzusu tarixində dönüş nöqtəsi sayılır. Belə ki, bu iki əsərə istinad edilərək şiələrə olmazın töhməti vuruldu.

---

[1] "Mustədrəkul-vəsail", c.1, s.50; "əz-Zəriə", c.16, s.232.

[2] Bu yazıçılardan biri Ehsan İlahi Zəhirdir. O, "əş-Şiə vəl-Quran" kitabını Hacı Nurinin "Fəslul-xitab" kitabına əsasən yazmış, orada heç bir töhmət və təhqirdən yan keçməmişdir. Bu kitabın dördüncü bölümü belə adlanır:

الفُ حديث شيعيّ في إثبات التحريف في القرآن! من كتاب فصل الخطاب لمحدّثٍ شيعيّ النورى الطّبرسي

"Şiə mühəddisi Nuri Təbərsinin "Fəslul-xitab" kitabında Quranın təhrifini isbat edən min hədis".

# Üçüncü fəsil

## Quranın təhrif olunmadığına dair dəlillər

Quranın təhrif olunmadığına dair bir çox dəlillər vardır. Burada həmin dəlillərdən bir neçəsini araşdıracağıq:

**1 - Quran ayələri:**

"Biz onu qoruyarıq" ayəsi:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَ إِنَّا لَهُ لَحَافِظُونَ.

**"Şübhəsiz ki, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz ki, Biz onu qoruyarıq."[1]**

"Batil ona yol tapa bilməz" ayəsi:

... وَ إِنَّهُ لَكِتَابٌ عَزِيزٌ. لا يَأْتِيهِ الْبَاطِلُ مِنْ بَيْنِ يَدَيْهِ وَ لا مِنْ خَلْفِهِ...

**"Həqiqətən o (Quran), "əziz" (möhkəm, yenilməz) bir Kitabdır. Nə öndən, nə də arxadan batil ona yol tapa bilməz."[2]**

Yuxarıdakı iki ayədə Quranın təhrif olunmadığı aydın şəkildə və təkidlə buyurulur.

Belə ki, birinci ayədə ("Hicr" surəsinin ayəsində) bir-birinin ardınca "təkid amilləri" qərar tutur: ayə "ismi cümlə" formasındadır, cümlədə "innə" (إنّ)[3] ədatı, "zəmiri- munfəsil"[4] olan "nəhnu" (نحن)[5] və "lam-e təkid" (لَ) işlənir.

"Fussilət" surəsinin ayəsində də Quranın təhrif olunmadığı qəti surətdə bəyan edilir.

"Fussilət" surəsinin 41-ci ayəsində işlənən "**عَزِيز**" (əziz) sözünün kökü, "möhkəmlik" mənasını bildirən **"عِزَّت"** (izzət) sözüdür. Ərəb dilində, kənar amilin təsiri altına düşməyən şeyə "**عَزِيز**" (əziz) deyilir.

Ayədə buyurulur ki: "Quran əzizdir." Yəni Quran, kənar amilin təsiri altına düşməyən möhkəm və nüfuzedilməz bir kitabdır. Sonrakı ayədə ("Fussilət" surəsinin 42-ci ayəsi) bu həqiqət izah edilir: "Nə öndən, nə də arxadan batil ona yol tapa bilməz." Yəni batil Qurana əsla yol tapa bilməz və batil müqabilində Quran bir müdafiə xüsusiyyətinə malikdir. Belə ki, onun ayə və cümlələri o qədər möhkəmdir ki, batil ona nüfuz edə bilmir.

---

[1] Hicr surəsi, ayə: 9.

[2] Fussilət surəsi, ayə: 41-42.

[3] Həqiqətən.

[4] Ayrı işlənən şəxs əvəzliyi.

[5] Biz.

Quranda baş verən hansısa dəyişiklik – istər artırma, istərsə də azaltma – "qeyri-Quran"dır. **"Qeyri-Quran" isə "batil"dir.**

Deməli, "batil"in Qurana yol tapmaması, "təhrif"in Qurana yol tapmamasıdır. Qeyd edək ki, bu ayə həm "təhrifun biz-ziyadə"ni, həm də "təhrifun bin-nəqisə"ni rədd edir.

Əlbəttə, irad tuta bilərlər ki, Quranın təhrif olunmadığını isbat etmək üçün bu iki ayəyə o təqdirdə əsaslanmaq olar ki, bunların özü Quran ayələri olmuş olsun. Amma haradan məlumdur ki, bu iki ayənin özü təhrif olunmuş ayələrdən deyildir?

Bu iradın cavabında deməliyik:

***Birincisi:*** Quranın təhrif olunduğunu iddia edənlər "təhrifun biz-ziyadə"ni qəbul etmirlər. Deməli, "təhrifun biz-ziyadə"nin baş vermədiyi hamılıqla qəbul olunur.

***İkincisi:*** "Təhəddi" ayələrindən aydın olur ki, bizim əlimizdə olan Quran "Allah tərəfindən nazil olan Quran"dır. Çünki onun bənzərini ortaya qoymaq qeyri-mümkündür. Əlbəttə, "təhəddi ayələri" ilə Quranda azaltmanın olmadığını sübut etmək olmasa da, lakin artırmanın olmadığını sübut etmək olar. Beləliklə də, sözügedən iki ayənin təhrif olunmuş ayələrdən olması ehtimalı aradan qalxır. Daha sonra bu iki ayəyə əsasən, Quranda "azaltma təhrifi"nin də olmadığı isbat olunur.

**2 - Hədislər:**

**a)** Sünni və şiə qaynaqlarında nəql olunan mütavatir "Səqəleyn" hədisinə istinad etmək olar.[1] Söz və ifadələri cüzi fərqlə nəql olunan bu hədisdə 3 mətləb bəyan olunur:

1) Həzrət Peyğəmbər (s) buyurur: "Mən sizin aranızda iki böyük əmanət qoyuram: Allahın kitabı və itrətim (Əhli-beytim).

إِنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتَابَ اللهِ وَ عِتْرَتِي

2) Nə vaxtadək ki, bu ikisindən yapışmısınız (onlara müraciət, istinad edəcəksiniz), azmayacaqsınız.

مَا إِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا

3) Cənnət hovuzu başında mənimlə görüşənədək onlar bir-birindən ayrılmayacaqlar."

وَ إِنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ

Bu hədis Quranın təhrif olunmadığına dair qəti bir sübutdur. Hədisdə aydın şəkildə bildirilir ki, **Quran Qiyamətədək təhrifdən qorunacaqdır. Əks təqdirdə (yəni əgər Quran təhrif olunarsa), nə Qurandan yapışmaq olar, nə**

[1] Əlavə məlumat üçün müraciət edin: "əl-Ğədir"; "Ulumul-Quran indəl-mufəssirin", c. 1, s. 187-206.

**də ki itrətdən (Əhli-beyt).** Çünki itrət, Qurandan ayrı “müstəqil höccət” kimi tanınmır. Əgər itrət olsa, amma Quran olmasa, bu, itrətin Qurandan ayrılması deməkdir. Halbuki, Səqəleyn hədisi bu ikisinin heç vaxt bir-birindən ayrılmayacağını deyir.

Deməli, Səqəleyn hədisinə istinadən, Quran və itrətin “müstəqil höccət” olduğuna etiqad bəsləmək – bəzi böyük alimlər tərəfindən qəbul olunsa da[1] – yanlış və qəbuledilməzdir.

“Kitab” və “sünnə” müəyyən cəhətlərdən bir-birinə bağlı, bir-birinə ehtiyaclıdır. Buna görə də əgər bu ikisindən biri təhrif olunaraq aradan gedərsə, digəri də aradan gedər. **Belə ki, “Siqlun-əkbər” (böyük əmanət) olan Quran, hüdudlarının və mənalarının açıqlanmasında “hədis”ə ehtiyaclıdır, baxmayaraq ki, Quranın höcciyyəti zatidir. “Siqlun-əsğər” (kiçik əmanət) olan hədislər isə özünün etibar və sənədiyyətində Qurana ehtiyaclıdır.**[2]

Həqiqətdə Quran və itrət (Əhli-beyt) yeganələşmiş vahid bir höccətdir. Onlar bir-birini tamamlayırlar. Bu səbəbdən də, onların birindən yapışıb digərini kənara qoymaq qeyri-məntiqidir.

Əgər Quran və hədis iki müstəqil höccət kimi tanıtdırılsaydı, bu vaxt onlardan biri olmadığı təqdirdə digərindən yapışmaq, ona istinad etmək olardı. Halbuki, Həzrət Peyğəmbər (s) buyurub: “Nə qədər ki, bu ikisindən yapışmısınız, azmayacaqsınız. Cənnət hovuzu başında mənimlə görüşənədək onlar bir-birindən ayrılmayacaqlar.”

**b)** Hədis qaynaqlarımızdakı bir sıra hədislərdə Məsum İmamlar (ə) dövrün hadisə və fitnələrində Qurana müraciət etməyi bizə tapşırır[3], Quranı etibarlı, əmin bir sığınacaq kimi tanıtdırırlar.

İndi əgər bir kitabın özü dövranın fitnələrindən amanda qalmayıbsa, görəsən o, başqalarını fitnələrə düçar olmaqdan qoruya bilərmi?

**c)** Quranın təhrif olunmadığına dair başqa bir dəlil Məsum İmamların (ə) buyurduqları bu məzmunda olan hədislərdir: “Sizə çatan hədislərimizi Quranla tutuşdurun. Əgər Allahın kitabına uyğun gələrsə, onu götürün (qəbul edin), əks təqdirdə, onu kənara atın (inkar edin).”[4]

مَا وَافَقَ كِتابَ اللهِ فَخُذُوهُ، وَ ما خالَفَ كِتابَ اللهِ فَرُدُّوهُ.

Həmçinin buyurmuşlar: “Allahın kitabına uyğun gəlməyən hər bir söz və hədis batildir.”[5]

وَ كُلُّ حَدِيثٍ لا يُوافِقُ كِتابَ اللهِ فَهُوَ زُخْرُفٌ.

---

1 “əl-Bəyan”, s.212.

2 Bu barədə bir qədər sonra “üçüncü dəlil”də geniş izah verilir.

3 “Usuli-kafi”, c.4, s.398, bölüm: “Fəzlul-Quran”.

4 “Vəsailuş-şiə”, c.18, bölüm: 9, hədis: 19, 29, 35.

5 Əvvəlki qaynaq, hədis: 12 və 14.

ما لَمْ يُوافِقْ مِنَ الْحَدِيثِ القرءَانَ فَهُوَ زُخْرُفٌ.

Hədislərdə yuxarıdakı ifadələrə oxşar başqa ifadələr də mövcuddur. Belə hədislər saysızdır.

Bu hədislərdən daha birini qeyd edirik. Həzrət Peyğəmbər (s) buyurub:

إنَّ عَلَىٰ كُلِّ حَقٍّ حَقِيقَةً وَ عَلىٰ كُلِّ صَوابٍ نُورًا، فَما وَافَقَ كِتابَ اللهِ فَخُذُوهُ وَ ما خالَفَ كِتابَ اللهِ فَدَعُوهُ.

"Hər haqqın həqiqəti və hər düzgünün nuru vardır. Elə isə, Allahın kitabına uyğun gələnləri götürün, ona zidd olanları kənara atın."[1]

Bu hədisə oxşar bir hədis "Biharul-ənvar"ın 2-ci cildi, səh. 227-də Əli ibn Əbu Talibdən (ə) nəql olunmuşdur.

Bu hədislərdən məlum olur ki, əsas və haqq olan, Qurani-Kərimdir. Heç kim Quranın oxşarını yarada bilməz, lakin Həzrət Peyğəmbərin (s) və Məsum İmamların (ə) sözlərinin oxşarını söyləyə bilərlər. Buna görə də haqqı batildən ayırd etmək üçün mizan, Qurani-Kərimdir. Beləliklə, əgər Quranın təhrif olunduğundan hər hansı bir şəkildə söz açan hədislər izah edilə bilməzsə, yuxarıdakı məzmunlu hədislərə istinadən batil və saxtadır, onların heç bir dəyər və etibarı yoxdur.

**3 - Əqli dəlillər:**

Qurani-Kərim bəşəri hidayət etmək, yəni bəşərə doğru yolu tanıtdırıb onu bu yola yönəltmək üçün nazil olan bir kitabdır. Mütəal Allah Quran ayələrində də vurğulayır ki, hidayət üçün insanın bu kitaba müraciət etməsi labüddür. Belə olduğu təqdirdə, əqlin tələbinə görə dini maarif və İslamın qanunnaməsi bir kitab şəklində hər zaman bəşərin ixtiyarında olmalıdır.

Deməli, bu, ağılasığmaz bir haldır ki, Allah bəşəri hidayət etmək üçün onun ixtiyarında bir kitab qoyur, amma sonra onu nəzarətsiz buraxır və bu vaxt kimlərsə istədiklərini bu kitabdan ixtisara salır, yaxud istədiklərini ona əlavə edirlər. Başqa sözlə, bu, ilahi məqsədin təmin olunmamasıdır. Çünki əgər Qiyamətədək **"bütün insanları hidayət etmək və onları ilahi əzabla qorxudub pis əməllərdən çəkindirmək" (هُدًى لِلنّاسِ وَ نَذِيرًا لِلْعَالَمِين)** üçün nəzərdə tutulan bir kitabda təhrif baş verərsə, bu kitab öz etibarını itirər və onun nazil edilməsində olan məqsəd təmin olunmaz.

Deyilə bilər ki, səmavi kitab vasitəsilə insanların hidayəti, Tövrat və İncilə də aid olmuşdur. Eyni zamanda, bu gün hətta yəhudi və xristian alimlərinin özləri də qəbul edirlər ki, bu iki kitab təhrif olunmuşdur. Buna əsasən, Quranın dəyəri barədə bütün bu deyilənlərlə yanaşı, təhrif ehtimalı bu kitabda da mövcuddur.

***Cavab:*** Biz qəbul edirik ki, əvvəlki səmavi kitabların hamısı hidayət (düz yola yönəltmə), nuraniyyət (düz yolu işıqlandırma) və haqq maarifin bəyanı baxımın-

[1] Əvvəlki qaynaq, hədis: 10.

dan Quranla müştərəkdir və bu kitablar arasındakı fərq "firuiddin"də (dinin əməli göstərişlərində), həmçinin maarifin kamal dərəcələrində olmuşdur. **Amma Qurana xas olan cəhət onun "xatəmiyyət"i (sonuncu olması) və "muhəymin" (qoruyan, mühafiz) olmasıdır.** Quran sonuncu səmavi kitab və ilahi höccət olaraq həm Tövratı və İncili təsdiq edəndir, həm də bütün səmavi kitabların müştərək sahib olduğu maarifin qoruyanı, mühafizidir. İndi əgər Quran da digər səmavi kitablar kimi təhrif olunarsa və dəyişikliyə məruz qalarsa, bu, dini maarifin əsaslarının əldən getməsi deməkdir. Bu vaxt vəhy üçün heç bir etibarlılıq qalmayacaqdır.

Digər tərəfdən Quranın höcciyyətinin və etibarının aradan getməsi ilə sünnənin və hədislərin də höcciyyəti, etibarı aradan gedəcəkdir. Çünki Məsumların (ə) kəlamının höcciyyəti Quranın höcciyyətinə söykənir. Belə ki, bizim əqidəmizcə, Məsumların (ə) kəlamının etibar və höcciyyətinin dəlili mütəvatir "Səqəleyn" hədisi kimi hədislərdir. Məsum İmamlar (ə) "kiçik əmanət"dirlər (siqle-əsğər) və onlara sarılmaq hidayət və azğınlıqdan qurtuluş səbəbi hesab olunmuşdur.

Əgər sual olunsa ki, nəyə əsasən Peyğəmbərin (s) kəlamı bizim üçün höccətdir, cavabında deməliyik: Çünki Allahın kitabı olan Quran Peyğəmbərin (s) kəlamını höccət qərar vermiş, Kitabı təlim və bəyan etmək iftixarını ona vermiş[1], onun göstərişlərinə itaət etməyi vacib hesab etmişdir.[2]

Buradan məlum olur ki, Məsumların (ə) kəlamının höcciyyəti Peyğəmbərin (s) kəlamının höcciyyətindən, Peyğəmbərin (s) kəlamının höcciyyəti isə "höccəti biz-zat" olan Qurandan qaynaqlanır.

**4 – Tarixi təhlil:**

Quranın təhrif olunmadığına dair başqa bir dəlil Quranın müsəlmanlar arasında mövqeyinin tarixi təhlilidir. Tarix şahidlik edir ki, müsəlmanlar Quranın nazil olduğu ilk çağlardan indiyədək onun əzbərlənməsi və qiraətinə xüsusi əhəmiyyət vermişlər.

Ayələrin nüzulundan sonra – belə ki, ayələr tədricən nazil olurdu - az bir müddət ərzində ilk müsəlmanlar vəsfəsığmaz bir şövqlə Quran ayələrini əzbərləməyə, öyrənib öyrətməyə başladılar. Quranı yazmaq üçün xüsusi katiblər var idi. Quran qariləri ən uca ictimai mövqeyə malik idilər. Birinci və ikinci xəlifənin dövründə İslami fəthlərin çoxalması və başqa xalqların İslama və Qurana iman gətirməsi ilə Avropanın mərkəzindən tutmuş Hind yarımadasınadək bütün şəhərlərdə və evlərdə Quran tilavət olunurdu. O dövrün İslam məmləkətinin şəhərlərinin hər birində onlarla qari və hafiz var idi, habelə, dayanmadan Quranın üzü köçürülür, nüsxələri artırılırdı. Baxmayaraq ki, Quran nüsxlərinin o dövrün ibtidai yazı xətti

---

[1] Bəqərə surəsi, ayə: 129 və 151; Ali-İmran surəsi, ayə: 164.

[2] Həşr surəsi, ayə: 7; Ali-İmran surəsi, ayə: 32 və 132; Muhəmməd surəsi, ayə: 33.

ilə yazılması fərqli qiraətlərin ortaya çıxmasına səbəb olmuşdu, lakin bu, Quranın mətninə heç bir xələl gətirmirdi.

Belə olduğu təqdirdə heç mümkündürmü ki, yaddaşlara həkk olan və saysız nüsxələri olan belə bir kitaba hansısa şəxs və ya şəxslər nəyisə əlavə etsinlər, yaxud ondan nəyisə azaltsınlar, başqaları isə bu xəyanətə şahid olub əsla etiraz etməsinlər?! Fərz edək ki, xalq kütləsindən belə bir təvəqqemiz yoxdur. Bəs görəsən, sağlam məntiq bunu qəbul edərmi ki, İslam xilafəti, o cümlədən, Əli ibn Əbu Talib (ə) öz xəlifəliyi dövründə ilahi kitabın təhrifə uğradığına şahid olsun, amma heç bir addım atmasın? Halbuki, o həzrət "füruiddin"in məsələlərinə necə bir həssaslıqla yanaşırdı. Məsələn, o, müsəlmanların beytul-malının (büdcə) israfı və ədalətsiz şəkildə bölünməsi barədə buyurur:

وَ اللهِ لَوْ وَجَدْتُهُ قَدْ تُزُوِّجَ بِهِ النِّساءُ و مُلِكَ بِهِ الْإماءُ لَرَدَدْتُهُ. فإنّ فِى الْعَدْلِ سِعَةٌ و مَنْ ضاقَ عَلَيْهِ الْعَدْلُ فَالْجَوْرُ عَلَيْهِ أَضْيَق.

"Allaha and olsun, əgər Osmanın verdiyi hədiyyə və bəxşişlər ilə hətta qadınlarla evlənmiş və kənizlər almış olsalar belə, onu alıb sahiblərinə qaytaracağam. Çünki ədalətdə camaat üçün vüsət vardır. Kim ədalətdən sıxılarsa, zülm onu daha çox sıxıntıya salar."[1]

Bu, Əlinin (ə) müsəlmanların malına qarşı münasibətidir. İndi görün, Qurana və ona uzanan xəyanət əlinə qarşı münasibəti necə olardı! Həzrət Əli (ə) özünü Quranın mühafizəçisi bilmiş, saysız kəlamlarında Quranı vəsf və təfsir etmiş, onun dəyərindən söz açmışdır. Başqa İmamlar (ə) da Qurana qarşı belə münasibət bəsləmiş, əməl və söz ilə Quranın təhrifin olunmadığını isbat etmişlər.

**5 – Quranın bir sıra özünəməxsus cəhətləri onun təhrifdən amanda qalmasına zəmin yaratmışdır:**

Quranın bir sıra özünəməxsus cəhətləri onun təhrifdən amanda qalmasına zəmin yaratmışdır. "Məkki" və "mədəni" surələr arasında olan müəyyən fərqlər, ayələrin nüzulunun tədrici olması, Quranın öz ismarıclarını və göstərişləri çatdırmaqda seçdiyi üslub bu cəhətlərdəndir. İndi bu məqamlara qısaca işarə edək:

a) "Mədəni" surələrdən qabaq nazil olan "məkki" surələr, əsasən, həcmcə kiçik surələr olub qısa və qafiyəli ayələrə malikdir.[2] Bu cəhət surə və ayələrin öyrənilməsini və əzbərlənməsini olduqca asan etmişdi. Xüsusilə, o dövrdə Məkkədə müsəlmanların sayı az olmuş və onlar arasında da savadlı şəxslərin sayı barmaq sayı qədər olmuşdur. Məkki surələrin bu keyfiyyətlə nazil olması onların yaddaşlara həkk olunmasına və əsla silinməməsinə zəmin yaratmışdır.

---

[1] "Nəhcul-bəlağə", xütbə: 15.

[2] Qurani-Məcidin 29-cu və 30-cu cüzlərinə diqqət edin.

b) Qurani-Məcidin tədricən nazil olması müsəlmanlara imkan yaradırdı ki, onlar ayələri asanlıqla öyrənə, əzbərləyə və qiraət edə bilsinlər. Şübhəsiz ki, əgər Quran ayələri birdəfəyə nazil olsaydı, onları dərk etmək, əzbərləmək və qorumaq o şəraitdə müsəlmanlar üçün çox çətin və hətta qeyri-mümkün bir iş olardı.

c) Səmavi kitabların ehtiva etdiyi ismarıclar, göstərişlər və çağırışların məzmunu hər zaman zalımların və qüdrəttələblərin mənafelərinə zidd olmuşdur. Buna görə də onlardan bir dəstəsi səmavi kitabların həqiqətlərini gizlətməyə və onları təhrif etməyə cəhd göstərmişlər. Səmavi kitablar silsiləsinin sonuncu halqası olan Quran öz ismarıclarını və göstərişlərini çatdırmaqda elə bir üslub seçmişdir ki, həqiqətləri gizlətmək və təhrif etmək imkanını qərəzli insanların, düşmənlərin və münafiqlərin əlindən almış, bu əbədi kitabı onların xəyanətindən qorumuşdur.

**Quran öz mətləblərini ümumi şəkildə bəyan etmiş, onların izahını və təfsirini sünnəyə həvalə etmişdir.** Məsələn, Qurani-Məciddə vəhyin nazil olduğu dövrün layiqli insanları və Allah övliyaları təriflənərkən, mədh edilərkən onların adı açıqlanmamışdır. Eləcə də, hansısa bir şəxs və ya bir hadisə məzəmmət edilərkən və lənətlənərkən ad çəkilməmişdir. Bu, Quranın üslubudur. Təkcə Əbu Ləhəb və onun zövcəsinin lənətlənməsi istisna təşkil edir. Əlbəttə, bunun da öz hikməti, fəlsəfəsi vardır. Çünki Əbu Ləhəb və onun zövcəsinin İslama qarşı qatı ədavəti hamıya məlum idi və Əbu Ləhəbin Qureyş qəbiləsinə mənsub olub Peyğəmbər (s) ilə qohumluğu səbəb olmuşdur ki, bu cəhətdən Quran hansısa bir təhlükə ilə üzləşməsin.[1]

Başqa bir yerdə də Rəsulallahın (s) oğulluğu Zeydin (Zeyd ibn Harisənin) adı çəkilir ki, bu əhvalatın da kiminsə tərifi və ya məzəmməti ilə əlaqəsi yoxdur.[2]

Burada Quranın mədh və ya məzəmmət etdiyi, eyni zamanda adını açıqlamadığı şəxslər barədə nazil olan ayələrdən bir neçəsini qeyd edirik:

**1. Təthir ayəsi:** Bu ayədə kimlərin nəzərdə tutulduğunu sünnə açıqlayır. (Əhzab surəsi, 33-cü ayə: “Allah siz əhli-beytdən bütün çirkinlikləri təmizləmək, sizi pak etmək istəyir”.)

**2. Mübahilə ayəsi:** Bu ayədə Həzrət Əlinin (ə), Xanım Fatimə-Zəhranın (s.ə), İmam Həsənin (ə) və İmam Hüseynin (ə) adı qeyd olunmamışdır. (Ali-İmran surəsi, 61-ci ayə.)

**3. Ləylətul-firaş ayəsi:** Saysız şiə və sünni hədislərinə istinadən, bu ayə Həzrət Peyğəmbərin (s) hicrət etdiyi gecə Əli ibn Əbi Talibin (ə) barəsində nazil olmuşdur. (Bəqərə surəsi, 207-ci ayə.)

**4. Mübarək Kövsər surəsi:** Bəzi hədislərə istinadən, bu surə Xanım Fatimə-Zəhra (s.ə) barəsində nazil olmuşdur. Bu surədə Peyğəmbərə (s) təhqiramiz sözlər deyənlərin adı, yəni As ibn Vailin, yaxud Uməyyə ibn Xələfin adı qeyd olunmamışdır.

---

[1] Müraciət edin: “Keyhan-e əndişə” dərgisinin 27-ci sayı, Ustad Seyid Murtəza Əskərinin məqaləsi.

[2] Əhzab surəsi, ayə: 37.

**5. "Əgər bir fasiq sizə bir xəbər gətirsə..." ayəsi:** Osmanın süd qardaşı Vəlid barədə nazil olmuşdur. (Hucurat surəsi, 6-cı ayə.)

**6. Munafiqun surəsi:** Bu surə münafiqlərin başçısı Abdullah ibn Ubəyy barədə nazil olmuşdur, lakin burada onun adı çəkilməmişdir.

Yuxarıda qeyd olunanlar Qurandan yalnız bir neçə nümunədir. Əgər Quran bir dəstəni açıq-aşkar mədh edib digər bir dəstəni açıq-aşkar məzəmmət etsəydi, sizcə mədh olunanların müxalifləri və məzəmmət olunanların özləri Quranın başına hansı bəlaları gətirərdilər? Xüsusilə də, Quranın "lənətlənmiş şəcərə"[1] adlandırdığı Bəni-Uməyyə tayfası sonralar xilafəti ələ keçirdilər.

Bunu da qeyd edək ki, ayələrdə insanların ad və ləqəblərinin açıqlanmaması müsəlmanları çaşqınlıqda qoymadı. Çünki Quran bu məsələnin həlli yolunu göstərmişdi. Səhih bir hədisdə Əbu Bəsirdən belə nəql olunur: "Mən bu ayədə:

يٰأَيُّهَا الَّذِينَ ءَامَنُوا أَطِيعُوا اللهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُوْلِى الْأَمْرِ مِنْكُمْ

"Ey iman gətirənlər, Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin"[2] ayəsində "əmr sahiblərin"in kimlər olduğunu İmam Sadiqdən (s) soruşdum. İmam (ə) buyurdu: "Bu ayə Əli ibn Əbu Talib (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) barədə nazil olmuşdur." Dedim: "Camaat deyir ki, nə üçün Əlinin (ə) və Əhli-beytin adı Allahın kitabında gəlməmişdir?" İmam (ə) buyurdu: "Onlara de ki, namaz əmri Peyğəmbərə (s) nazil oldu, amma Allah-Təala rəkətlərin sayını açıqlamadı. Çünki bunu Peyğəmbər (s) camaata açıqlamalı idi. Həmçinin zəkat əmri Peyğəmbərə (s) nazil oldu, amma Allah açıqlamadı ki, hər qırx misqal gümüşdən bir misqal zəkat verilməlidir. Həcc əmri Peyğəmbərə (s) nazil oldu, amma Allah buyurmadı ki, yeddi dəfə təvaf etmək lazımdır. Çünki bu ayələrin təfsir və bəyanı Peyğəmbərin (s) öhdəsindədir."

Daha sonra İmam Sadiq (ə) buyurdu: "**أُوْلِى الْأَمْرِ**" (əmr sahibləri) ayəsi Əli ibn Əbu Talib (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) barədə nazil olub. Rəsulullah (s) Qədir-Xum günü buyurdu:

مَنْ كُنْتُ مَوْلاهُ فَهَذَا عَلِىٌّ مَوْلاهُ

"Mən kimin mövlası və başçısıyamsa, bu Əli onun mövlası və başçısıdır."[3]

Bu və digər hədislərdən tam aydın olur ki, dini maarifi bəyan etmək Həzrət Peyğəmbərin (s) və o həzrətdən sonra İmamların (ə) öhdəsinədir. Qurani-Kərimin özü dəfələrlə bunu Peyğəmbərin (s) imtiyazlarından biri hesab etmişdir. Ayələrin birində Peyğəmbər (s) Quranın müfəssiri kimi tanıtdırılır, buyurulur:

وَأَنْزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ

---

[1] İsra surəsi, ayə: 60.
[2] Nisa surəsi, ayə: 59.
[3] "əl-Vafi", c.2, bölüm: 30, s.63 ("əl-Bəyan", s.251-ə istinadən).

“Sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara onlara nazil olanı açıqlayasan və bəlkə düşündülər.”[1]

Digər bir ayədə isə hamını Rəsulullahın (s) əmr və qadağalarına itaət etməyə çağırır:

وَ مَا ءاتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَ مَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا.

“Rəsulallah sizə nə verirsə (hökmləri, malları), götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin.”[2]

Buna əsasən, Quranda ayələrin şəni-nüzulunun (nazilolma səbəbi) qeyd olunmaması nigarançılığa əsas vermir. Quranda pak insanların və pak Əhli-beytin (ə) adının açıqlamamasının öz səbəbləri var idi, amma Mütəal Allah elə Quranda Peyğəmbəri (s) “Kitab”ın müfəssiri və müəllimi tanıtdırmaqla, Quranın həqiqətlərinə çatdıran yolu insanlara tanıtdırmışdır. Bununla da, Quran təhrif təhlükəsindən amanda qalmaqla yanaşı, onun həqiqətləri də gizli və örtülü qalmamışdır.

**6 - Gündəlik namazlarda “Həmd” surəsindən sonra tam bir surənin oxunmasının vacibliyi:**

Məsum İmamların (ə) göstərişinə əsasən, gündəlik beş namazın birinci və ikinci rəkətlərində “Həmd” surəsindən sonra tam bir “Surə”ni oxumaq vacibdir. Bu isə, “imamiyyə”nin Qurandan heç nəyin azalmadığına olan etiqadından xəbər verir. Başqa sözlə, İmamların (ə) bu göstərişi Quranın təhrif olunmadığına (“azaltma” təhrifinə uğramadığına) bir dəlildir.[3]

**7 - Məsum İmamların (ə) Quran ayələrinə istinad etmələri:**

Bir çox hədislərdə Məsum İmamların (ə) müxtəlif mövzularda Qurani-Kərimin ayələrinə, hətta barəsində təhrif iddiası olan ayələrə istinad etdiklərini görürük. Eyni zamanda görürük ki, bu hədislərdə istinad edilən ayələr, hal-hazırda əlimizdə olan mushəfdə qeyd edilən ayələrlə eynidir. Bu isə, bəzi ayələr barəsində olan təhrif iddiasının boş iddialar və əsassız sözlər olduğunu göstərir.

**8 - Quranın “mütəvatir” olması:**

Quranın qiraətlərinə aid bəhslərdə aydınlaşdı ki, müxtəlif qiraətlər mütəvatir olmasalar da, Quranın mətni, heç şübhəsiz, mütəvatirdir. Yəni nəsildən-nəsilə “təvatür”lə nəql olunmuş, ötürülmüşdür. Bu məsələ də, öz növbəsində təhrifi qəti şəkildə rədd edir.[4]

---

[1] Nəhl surəsi, ayə: 44.
[2] Həşr surəsi, ayə: 7.
[3] “Quranpəjuhi”, səh.116; “əl-Bəyan” və “ət-Təhqiq”ə istinadən.
[4] “Siyanətul-Qurani minət-təhrif”, s.37.

## *Fəslin əsas mətləbləri:*

Quranın təhrif olunmadığına dair dəlillər bunlardır:

1- Quranın iki ayəsi: "Biz onu qoruyarıq" ayəsi (Hicr surəsi, 9-cu ayə) və "Batil ona yol tapa bilməz" ayəsi (Fussilət surəsi, 41-ci ayə).

2- Quranla Əhli-beytin bir-birindən ayrılmayacağını bəyan edən mütəvatir "Səqəleyn" hədisi: Hədisdə aydın şəkildə bildirilir ki, Quran Qiyamətədək təhrifdən qorunacaqdır. Əks təqdirdə (yəni əgər Quran təhrif olunarsa), nə Qurandan yapışmaq olar, nə də ki itrətdən (Əhli-beyt).

3- Dövrün hadisə və fitnələrində Qurana müraciət etməyi bəyan edən hədislər: Əgər bir kitabın özü dövranın fitnələrindən amanda qalmayıbsa, görəsən o, başqalarını fitnələrdən qoruya bilərmi?

4- Hədisi Quranla tutuşdurmağı bəyan edən hədislər.

5- Əqli dəlil: "هُدًى لِلنَّاس" olan Quranın İslamın qanunnaməsi və dinin əsas istinad mənbəyi olaraq təhrifdən amanda qalması zəruri məsələdir. Əgər Quran təhrif olunarsa, artıq "هُدًى لِلنَّاس" olmayacaqdır və bu isə "ilahi məqsədin gerçəkləşməməsi" ilə nəticələnər.

6- Quranın müsəlmanlar arasında mövqeyinin tarixi təhlili Quranın təhrif olunmadığına dair başqa bir dəlildir. Tarix şahidlik edir ki, müsəlmanlar Quranın nazil olduğu ilk çağlardan indiyədək onun əzbərlənməsi və qiraətinə xüsusi əhəmiyyət vermişlər. İslam tarixi boyunca yüksək elmi dərəcəli qarilərin və hafizlərin yetişməsi, eləcə də, Məsum İmamların (ə) Quranın toxunulmazlığına və təhrif olunmadığına dair bəyanları bu səmavi kitabın təhrifdən amanda qaldığını sübuta yetirir.

7- Quranın bir sıra özünəməxsus cəhətləri onun təhrifdən amanda qalmasına zəmin yaratmışdır. "Məkki" və "mədəni" surələr arasında olan müəyyən fərqlər, ayələrin nüzulunun tədrici olması, Quranın öz ismarıclarını və göstərişləri çatdırmaqda seçdiyi üslub bu cəhətlərdəndir.

8- Gündəlik namazlarda "Həmd" surəsindən sonra tam bir surənin oxunmasının vacibliyi.

9- Məsum İmamların (ə) müxtəlif mövzularda Qurani-Kərimin ayələrinə, hətta barəsində təhrif iddiası olan ayələrə istinad etmələri.

10- Quranın mətninin mütəvatir olması.

# Dördüncü fəsil

## Quranın təhrif olunduğuna etiqad bəsləyənlərin dəlilləri

Bir qədər əvvəldə (müqəddimədə) qeyd etdik ki, İslam alimləri və Quranşünasları – istər şiə, istərsə də sünni alimləri – Quranın təhrifə uğramadığını təkidlə bildirmişlər. Lakin təəssüflər olsun ki, bəzi şiə mühəddisləri (raviləri), eləcə də bəzi əhli-sünnə alimləri bir sıra hədislərin zahirinə baxıb, onları "sənəd" və "dəlalət" baxımından araşdırmadan və təhlil etmədən tələsik hökm çıxarmışlar. Bir qədər əvvəldə mərhum Mirza Nuri və onun "Fəslul-xitab" kitabı barəsində söz açdıq. Baxmayaraq ki, o, bu kitabı yazdıqdan və onun xoşagəlməz nəticələrini gördükdən sonra öz peşmançılığını bildirmişdi, lakin bu kitabın nəşrindən bir əsr ötməsinə baxmayaraq, hələ də təhrifə etiqad damğası və ittihamı İslam ümməti arasında təfriqə salmaq istəyən qərəzlilər tərəfindən şiəyə vurulmaqdadır. Maraqlısı budur ki, "Fəslul-xitab" kitabında Mühəddis Nurinin Quranın təhrifinə dair qeyd etdiyi on iki dəlildən yalnız ikisi şiə mənbələrindən götürülmüşdür, digər dəlillər isə əhli-sünnə mənbələrindəndir. Daha maraqlısı isə budur ki, "Quranın tilavətində nəsxin baş verdiyi" məsələsinə əhli-sünnə arasında etiqad bəsləyənlərin sayı çoxdur.[1] Şiəni təhrifə etiqad bəsləməkdə ittiham edənlər sanki unutmuşlar ki, "tilavətin nəsxi"nə dair əhli-sünnə mənbələrində nəql olunan hədislərin səhih olduğunu qəbul etmək, əslində, Quranın təhrifə uğradığını qəbul etmək deməkdir.

Quranın təhrif olunduğuna etiqad bəsləyənlərin dəlillərini qeyd etməzdən öncə bir tədqiqatçı alimin şiə və əhli-sünnə mənbələrində təhrif barədə olan hədislər arasında apardığı müqayisəni nəzərinizə çatdırmağı məqsədəuyğun hesab edirik. Bu əsnada qeyd etməliyik ki, hansısa bir hədis kitabında təhrif barədə hədislərin qeyd edilməsi bu kitabın müəllifinin həmin hədislərə etiqad bəslədiyinə dəlil deyildir. Lakin şiə bu baxımdan qərəzli və insafdan kənar mühakimələrə məruz qalmışdır.

Əhli-sünnənin məşhur hədis, tarix və fiqh mənbələrində təhrif barədə olan hədislərə rast gəlinir. Əlbəttə, bu hədislərə, əsasən, hədis kitablarında, o cümlədən, altı "Səhih"də, xüsusilə də "Səhih-Buxari" və "Səhih-Müslim"də rast gəlmək olar.[2] Əhli-sünnə və şiə qaynaqlarında təhrif barədə olan hədisləri araşdırdıqda aşağıdakı nəticələr əldə edilir:

---

[1] Müraciət edin: Qarşınızdakı kitabın səkkizinci hissəsi.

[2] Seyid Cəfər Mürtəza, "Həqaiqun hammətun həvləl-Quranil-Kərim", s.17.

***Birincisi:*** Şiə qaynaqlarında təhrif barədə nəql edilən hədislər əhli-sünnə qaynaqlarında təhrif barədə nəql edilən hədislərdən qat-qat azdır;

***İkincisi:*** Şiə qaynaqlarında olan hədislərin əksəriyyəti sərih şəkildə (birbaşa və aydın şəkildə) təhrifə dəlalət etmir və onların bir təfsir, təvil və yozum olduğunu söyləmək mümkündür. Halbuki, əhli-sünnə qaynaqlarında təhrif barədə olan hədislərin çoxu təhrifə sərih şəkildə dəlalət edir.

***Üçüncüsü:*** Əhli-sünnə qaynaqlarında təhrif barədə nəql edilən hədislərin sənədlərini araşdırdıqda görürük ki, bu hədislərin raviləri əhli-sünnə alimlərinin nəzərində etibarlı ravilər hesab olunur. Çünki bu hədislərin əksəriyyəti onların "Səhih"lərində nəql edilmişdir. Halbuki, şiə kitablarında təhrif barədə olan hədislərin əksəriyyəti "sənədi zəif" və "etibarsız" hədislərdir.[1]

Təhrif barədə olan hədislərin sayı, dəlaləti və sənədinin etibarlılığı baxımından əhli-sünnə və şiə mənbələrində olan bu fərqlər bir çox qaranlıq məqamlara aydınlıq gətirir, Ehsan İlahi Zəhir kimi qərəzlilərin niyyət və məqsədini üzə çıxararaq ittiham meydanını onlara dar edir, İslam vəhdətini istəməyənlərin məkrli planlarını ifşa edir. Burada bir daha xatırladırıq ki, "əhli-sünnə qaynaqlarında təhrif barədə hədislər nəql edilmişdir" deməkdə bizim məqsədimiz, əhli-sünnə alimlərinin, xüsusilə də tədqiqatçı alimlərin bu hədislərin məzmununa etiqad bəslədiklərini söyləmək deyildir. Biz bunu demək istəyirik ki, bəzi məlumatsız oxucular bilsinlər, təhrif barədə şiə qaynaqlarında hədislər nəql edildiyi kimi, əhli-sünnə qaynaqlarında da nəql edilmişdir. Əlbəttə, Quranın təhrif olunmadığına dair yetərli və qəti dəlillər, həmçinin təhrifə etiqad bəsləyənlərin dəlillərinin əsassız olduğunu göstərən cavablar bu zəmində heç bir şübhə yeri qoymur.

## Təhrifə etiqad bəsləyənlərin on iki dəlili:

Mərhum Mirza Nuri öz kitabının birinci bölümündə Quranın təhrif olunduğuna dair bir neçə dəlil qeyd etmişdir ki, aşağıda onları qısa şəkildə nəzərinizə çatdırırıq:

1- Bəzi hədislərdə buyurulur ki, keçmiş ümmətlərdə baş vermiş hadisələr İslam ümmətində də baş verəcəkdir. Bu hadisələrdən biri də keçmiş ümmətlərin səmavi kitablarının təhrif olunmasıdır. Deməli, İslam ümmətinin də səmavi kitabı təhrif olunacaqdır.

2- İslamın zühur etdiyi ilk əsrdə Quranın yazılması və yığılması üsulu adətən bu kitabın təhrif və müdaxilələrə məruz qalmasına zəmin yaratmışdır.

3- Əhli-sünnənin "tilavətin nəsxi" barədə qeyd etdikləri, Quranda "azaltma təhrifi"nin baş verməsi deməkdir. [2]

4- Əli ibn Əbu Talibin (ə) cəm etdiyi mushəf mövcud mushəfdən fərqlidir və onun mushəfində mövcud mushəfdən əlavə mətləblər olmuşdur.

---

[1] Geniş məlumat üçün müraciət edin: Əvvəlki qaynaq, s.32.

[2] Əlbəttə, Hacı Mirza Nuri bu əqidəni yanlış hesab edib rədd etmişdir.

5- Etibarlı mushəf sayılan Abdullah ibn Məs`udun mushəfində mövcud mushəfdən fərqli mətləblər olmuşdur.

6- Mövcud mushəfdə Ubəyy ibn Kə`bin mushəfində olan mətləblərin hamısı - belə ki, onun da mushəfi etibarlı sayılırdı – qeyd olunmamışdır.

7- Xəlifə Osman ibn Əffan Quranı cəm edərkən bəzi kəlmə və ayələri nəzərə almamışdır.

8- Əhli-sünnə Quranda "azaltma təhrifi"nin baş verdiyinə sərih şəkildə dəlalət edən çoxlu hədislər nəql etmişlər.

9- Mütəal Allah əvvəlki səmavi kitablarda Öz xəlifələrinin ad və xüsusiyyətlərini açıqlamışdır. Əvvəlki kitabların "muhəymin"i olan Quranda da, heç şübhəsiz, Allah belə etmişdir.

10- Quran bir qiraətdə nazil olduğu halda onun hərflərinin və sözlərinin müxtəlif şəkillərdə qiraət edildiyi məlum məsələlərdəndir.

11- Çoxlu hədislər Quranda "azaltma təhrifi"nin baş verdiyinə sərih şəkildə dəlalət edir.

12- Bəzi ayələrin təhrif olduğu barədə hədislər mövcuddur.

## İndi yuxarıdakı dəlilləri qısaca cavablandıraq:

***Birinci dəlilə cavab:*** Deyilir ki, yəhudi və məsihi ümmətlərində baş vermiş hadisələrin İslam ümmətində də baş verəcəyinə dair şiə və əhli-sünnə qaynaqlarında mütəvatir hədislər vardır. Bu hədislərin məzmunu dəlalət edir ki, Həzrət Rəsulallah (s) buyurmuşdur: "Keçmiş ümmətlərdə baş vermiş hadisələr bu ümmətdə də baş verəcəkdir". Keçmiş ümmətlərin səmavi kitabları təhrifə uğradığı üçün, deməli, Quran da təhrifə uğrayacaqdır. Əgər bunu qəbul etməsək, bu hədislərin mənası səhih olmayacaqdır, halbuki, Həzrət Rəsullah (s) buyurubdur:

كُلُّ مَا كَانَ فِى الْأُمَمِ السَّالِفَةِ، فَإِنَّهُ يَكُونُ فِى هذِهِ الْأُمَّةِ مِثْلُهُ، حَذْوَ النَّعْلِ بِالنَّعْلِ وَ الْقُذَّةِ بِالْقُذَّةِ.

"Keçmiş ümmətlərdə baş vermiş hadisələr heç bir əskikliyi olmadan bu ümmətdə də baş verəcəkdir".[1]

Baxmayaraq ki, bu hədislərin zahiri "ümumiliyi" çatdırır, lakin belə deyildir ki, bütün hadisələrə şamil olur. Çünki bir çox hadisələr, məsələn, üçallahlılıq, buzova pərəstiş və Samirinin əhvalatı, Fironun suda qərq olması, İsa peyğəmbərin (ə) səmaya meracı, "artırma təhrifi" və s. hadisələr İslam ümmətində baş verməmişdir. Deməli, hədislərdə bütün hadisələr deyil, bir sıra hadisələr nəzərdə tutulmuşdur. Buna görə də "Şübhəsiz ki, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz ki, Biz onu qoruyarıq" ayəsinə istinad edərək, Quranın təhrifə uğrmadığını istisna edə bilərik.

Əgər kimsə bu hədislərin istisna qəbul etmədiyini iddia edərsə, onda Quranda "artırma təhrifi"ni də qəbul etməlidir. Çünki Bəni-İsrail özlərinin kitabında həm

[1] Ayətullah Xoi, "əl-Bəyan", s.240.

“artırma təhrifi”, həm də “azaltma təhrifi” etmişlər. Halbuki, Quran barəsində kimsə “artırma təhrifi”ni qəbul etmir.

***Digər dəlilə cavab:*** Deyilir ki, Əli ibn Əbu Talibin (ə) cəm etdiyi mushəf mövcud mushəfdən fərqli imiş. O, Həzrət Peyğəmbərin (s) vəfatından sonra evində oturaraq şəxsən Quranı cəm etmişdir. Cəm etdiyi Quranı məscidə gətirərək orada toplaşan camaata təqdim etmiş, lakin onlar o həzrətin cəm etdiyi mushəfi qəbul etməmişlər. Bəzi hədislərdə qeyd olunur ki, İmam Əlinin (ə) mushəfində hal-hazırkı mushəfdə mövcud olmayan mətləblər var idi və bu, Quranın təhrifindən qeyri bir anlama gəlmir.

Bu dəlilin cavabı bu kitabın əvvəlki hissələrində Quranın tarixi barədə etdiyimiz bəhslərdən və Əli ibn Əbu Talibin (ə) mushəfi barəsində qeyd etdiyimiz məlumatlardan tamamilə aydındır. Heç şübhəsiz, Əli ibn Əbu Talibin (ə) mushəfi var idi və o həzrətin mushəfi o dövrdə mövcud mushəflərdən fərqli idi. Lakin bu fərqlərin Quran ayələri xüsusunda olması, yəni o həzrətin mushəfində olan ayələrin mövcud mushəfdə olmaması əsassız iddiadır. Əli ibn Əbu Talibin (ə) mushəfinin xüsusi üstünlükləri var idi. O cümlədən, ayələrin şəni-nüzulu (nazilolma səbəbi) yazılmışdı, ayələr təfsir və şərh edilmişdi, nasix və mənsux ayələr və onların şərhi qeyd edilmişdi, ayə və surələr “nüzul ardıcıllığı” ilə yazılmışdı və s. başqa cəhətlərə malik idi. Söz yox ki, bu cəhətlər Quran ayələrinin daha asan və düzgün başa düşülməsinə şərait yaradardı. Əgər həmin mushəf indi bizim əlimizdə olsaydı, heç şübhəsiz, Quranı dərk etməkdə və ona istinad etməkdə müsəlmanlar üçün etibarlı bir xəzinə olardı. Lakin hal-hazırkı Quranın bu üstünlüklərə malik olmaması, ondan nəyinsə azaldığı və təhrifə uğradığı anlamında deyildir. Çünki Əli ibn Əbu Talib (ə) öz xəlifəliyi dövründə Quranın təhrif olunduğu barədə bir söz deməmişdir.

Ayətullah Xoi təhrifə dəlalət etdiyi iddia edilən hədislər barədə deyir: [1]

Bu hədislər təhrifin baş verdiyinə dəlalət etmir. Onların çoxunun sənədi zəifdir. Çünki bu hədislərin bir qismi Əhməd ibn Məhəmməd Səyarinin kitabından götürülmüşdür, halbuki, rical elminin alimləri onun əqidə azğınlığında olduğunu hamılıqla qəbul etmişlər. Yaxud bu hədislərin bir qismi Əli ibn Əhməd Kufidən nəql olunmuşdur ki, yenə də rical elminin alimləri onun yalançı və azğın bir fərd olduğunu bildirmişlər. Əlbəttə, bu hədislər sayca o qədərdir ki, onlardan bəzilərinin Məsumlar (ə) tərəfindən söylənildiyinə yəqinlik yaranır. Odur ki, həmin hədislər araşdırılmalı və onlarda nəzərdə tutulan məqsəd aydınlaşmalıdır.

Ayətullah Xoinin nəzərinə görə həmin hədislər dörd qrupdur və biz burada onların iki qrupunu qeyd edirik:

1) Bir qrup hədislərdə “təhrif” sözü işlənmişdir, məsələn, hədislərin birində İmam Sadiq (ə) buyurur:

أَصْحَابُ الْعَرَبِيَّةِ يُحَرِّفُونَ كَلَامَ اللهِ عَزَّ وَ جَلَّ عَنْ مَوَاضِعِهِ.

[1] Öncəki qaynaq, s.226-233.

“Ərəblər izzətli və cəlalətli Allahın kəlamını öz yerindən təhrif etdilər”.

Bu dəstə hədislərin zahirini, qiraətlər arasındakı fərqlər kimi mənalandırmaq olar, nəinki Qurandan nə isə çıxarılmış, başqa sözlə, “azaltma təhrifi” baş vermişdir.

Yaxud Əbuzər nəql edir ki, Həzrət Rəsulallah (ə) Qiyamətdə bir dəstənin belə deyəcəyini buyurdu:

أَمَّا الْأَكْبَرُ فَحَرَّفْنَاهُ وَ نَبَذْنَاهُ وَرَاءَ ظُهُورِنَا، وَ أَمَّا الْأَصْغَرُ فَعَادَيْنَاهُ وَ أَبْغَضْنَاهُ وَ ظَلَمْنَاهُ.

“Siqli-əkbəri (Quranı) təhrif etdik və kənara atdıq. Siqli-əsğərə (itrəti) düşmən kəsildik və ürəyimizdə onlara kin bəslədik, onlara zülm etdik.”

Bu kimi hədislərdə də “təhrif” sözü “azaltma təhrifi” mənasında deyildir. Burada “məna təhrifi” və “təfsir be-rəy” (şəxsi rəy əsasında təfsir) nəzərdə tutulur. Bu mətləbə İmam Baqirin (ə) buyurduğu hədisi (bu hədisi bir qədər əvvəldə qeyd etdik) sübut gətirə bilərik:

وَ كانَ مِنْ نَبْذِهِمِ الْكِتابَ أنْ أقامُوا حُرُوفَهُ وَ حَرَّفوا حُدُودَهُ ...

““Allahın kitabını kənara atmaları”nın nişanəsi bu idi ki, onlar Quranın hərflərini (kəlmələrini) qoruyub saxladılar, lakin onun hüdudlarını (mənasını) təhrif etdilər.”

2) Bir qrup hədisdə qeyd olunur ki, Quranın bəzi ayələrində İmamların (ə) adı olmuş və onların düşmənləri bu ayələri təhrif etmişlər.

Halbuki, bu kimi hədislər ayələrin şəni-nüzulunu bəyan edir. Məsələn, əgər bu hədislərdə “نَزَلَتْ فِى عَلِيٍّ” ifadəsi işlənibsə , bu o demək deyildir ki, “عَلِى” (Əli) kəlməsi ayənin sözü imiş və ayədən çıxarılıbdır.

Dəyərli “əl-Bəyan” kitabının müəllifi deyir:

Əmirəl-möminin Əlinin (ə) adının Quranda gəlmədiyinə dair sübutlardan biri “Ğədir-xum” hədisidir. Bu hədisdə sərih şəkildə buyurulur ki, Həzrət Peyğəmbər (s) Əli ibn Əbu Talibi (ə) Allahın əmri ilə imam (ümmətə başçı) təyin etdi və Allah Öz Peyğəmbərinə vəd verdi ki, onu camaatdan qoruyacaqdır. Əgər Əlinin (ə) adı Quranda gəlsəydi, artıq onun Peyğəmbər (s) tərəfindən imam təyin edilməsinə və müsəlmanların toplantısına ehtiyac olmazdı, habelə, Həzrət Peyğəmbər (s) bu məsələni çatdırmaqda camaatdan çəkinməzdi. Xüsusilə də, “Ğədir-xum” hədisini Peyğəmbər (s) vida həccində və ömrünün axır günlərində buyurmuşdur. Halbuki, Quran ayələri demək olar ki, bu hadisədən əvvəl nazil olmuş və müsəlmanlar arasında yayılmışdı.

Əbu Bəsirin nəql etdiyi səhih hədisi də sübut gətirə bilərik və biz bu hədisi əvvəldə qeyd etdik. Bu hədisin axırında İmam Sadiq (ə) buyurub:

نَزَلَتْ أَطِيعُوا اللهَ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِى الْأَمْرِ مِنْكُمْ وَ نَزَلَتْ فِى عَلِيٍّ وَ الْحَسَنَ وَ الْحُسَيْنَ فَقَالَ رَسُولُ اللهِ: مَنْ كُنْتُ مَوْلَاهُ فَهذَا عَلِيٌّ مَوْلَاهُ.

““**أُولِى الْأَمْرِ**” (əmr sahibləri) ayəsi Əli ibn Əbu Talib (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) barədə nazil olub. Rəsulullah (s) buyurdu: “Mən kimin mövlası və başçısıyamsa, bu Əli onun mövlası və başçısıdır.”

Bu cümlələrin mənası Quranın təfsiridir. Çünki hədisin əvvəlində Əbu Bəsir İmam Sadiqdən (ə) soruşur ki, camaat deyir: "Nə üçün Əlinin (ə) və Əhli-Beytin adı Quranda gəlməmişdir?" İmam (ə) cavabında buyurur: "Namaz qılmaq hökmü Quranda gəlmiş, lakin namazın rəkətlərinin sayı açıqlanmamışdır. Zəkat vermək hökmü Quranda gəlmiş, amma onun nisab həddi açıqlanmamışdır. Həcc yerinə yetirmək hökmü Quranda gəlmiş, amma təvafların sayı qeyd edilməmişdir. Bütün bunları Quranın müfəssiri olan Həzrət Peyğəmbər (s) bəyan etmişdir". Sonra İmam Sadiq (ə) "Allaha, Rəsulallaha və əmr sahiblərinə itaət edin" ayəsini izah edir və şübhə yeri qalmır ki, "نَزَلَتْ فِى عَلِيٍّ" ifadəsində sözügedən ayənin şəni-nüzulu nəzərdə tutulmuşdur.

Bu hədis İmamların (ə) adının Quranda gəldiyini və sonradan Qurandan çıxarıldığını bəyan edən bütün rəvayətlərə cavab ola bilər.

Qeyd edilən digər dəlillərin cavabı, məsələn, xəlifə Osmanın dövründə Quranın cəm edilmə üsulunun təhrifə zəmin yaratması, Abdullah ibn Məs`ud və Ubəyy ibn Kə`bin mushəfində bəzi mətləblərin mövcud olması, qiraətlər arasında fərqlərin olması kimi məsələlərin cavabı tam aydındır. Əvvəldə Quranın cəm edilməsi, səhabələrin mushəflərinin müəyyən cəhətləri, qiraətlər arasında fərqlərin ortaya çıxması səbəbləri barəsində etdiyimiz bəhslərə yenidən nəzər salmaqla bu cavabları əldə etmiş olarıq. Bu məsələlərlə Quranın təhrifi arasında heç bir əlaqə yoxdur.

## *Fəslin əsas mətləbləri:*

**1.** Mühəddis Nurinin Quranın təhrifə uğradığına dair qeyd etdiyi on iki dəlildən yalnız ikisi şiə mənbələrindən götürülübdür.

**2.** Şiə və əhli-sünnə qaynaqlarında Quranın təhrifi barədə olan hədisləri müqayisə etdikdə görürük ki, əhli-sünnə qaynaqlarında bu hədislərin sayı qat-qat çoxdur, təhrifə sərih şəkildə dəlalət edirlər və sənədləri əhli-sünnə alimlərinin nəzərində etibarlı hesab olunur.

**3.** İslamın səmavi kitabının təhrifə uğramaması bu ümmətin əvvəlki ümmətlərdən fərqli cəhətlərindən biridir.

**4.** Əli ibn Əbu Talibin (ə) mushəfində mövcud olan əlavə mətləblər ayələrin şəni-nüzulu, təfsiri, nasix və mənsux ayələr və başqa mətləblərdir .

**5.** Təhrif barədə olan rəvayətlərin əksəriyyəti Əhməd ibn Məhəmməd Səyaridən və Əli ibn Əhməd Kufidən nəql olunmuşdur ki, onların hər ikisi azğın və yalançı fərdlər olmuşlar.

**6.** Bəzi hədislərdə mövcud olan şahidlərə əsasən, "təhrif" ifadəsində "məna təhrifi" nəzərdə tutulur. Bu mətləb bir çox hədislərdə sərih şəkildə bəyan edilmişdir.

**7.** İmamların (ə) adının Quranda gəldiyini, yaxud filan ayənin İmam Əli (ə) barəsində nazil olduğunu bəyan edən hədislərin hamısı şəni-nüzula dəlalət edir, nəinki İmamların (ə) adı həqiqətən Quran ayələrində gəlmişdir.

**8.** Quran və hədis dəlillərinə, habelə, əqli, tarixi və qeyri-tarixi dəlillərə əsasən deyə bilərik ki, Quranın təhrif olunduğunu isbat etmək üçün xəlifə Osmanın dövründə Quranın cəm edilmə üsuluna, yaxud qiraətlər arasında fərqlərin mövcud olduğuna, yaxud Abdullah ibn Məs`ud və Ubəyy ibn Kə`b kimi səhabələrin mushəflərində bəzi mətləblərin olub-olmadığına əsaslanmaq tamamilə yanlışdır.

***Altıncı hissənin sualları:***

**1.** Təhrifin lüğəvi və terminoloji mənasını izah edin.

**2.** Təhrifin qisimlərini bəyan edin. Quranda hansı növ təhrifin baş verdiyi iddia olunur?

**3.** Hansı dəlilə əsasən deyə bilərik ki, Quranda məna təhrifi baş vermişdir?

**4.** Quranda təhrifin baş verdiyini rədd edən şiə alimlərindən on alimin adını çəkin.

**5.** On birinci əsrdə təhrif iddiasını ortaya atan kim olub və ondan sonra kim bu məsələni irəli sürüb?

**6.** Hansı Quran ayələri təhrifi rədd edir? İzah edin.

**7.** Quranın təhrif olunmadığını isbat etmək üçün "Səqəleyn" hədisinə necə əsaslanmaq olar?

**8.** Quranın təhrifə uğramadığına dair əqli dəlili bəyan edin.

**9.** İzah edin ki, Quranın bir sıra cəhətləri bu səmavi kitabın təhrifdən amanda qalmasına necə zəmin yaratmışdır?

**10.** Şiə və əhli-sünnə qaynaqlarında təhrif barədə olan hədislərin müqayisəsindən əldə edilən nəticələr hansılardır?

**11.** Quranın təhrifə uğradığını isbat etmək üçün "əvvəlki ümmətlərdə baş verən hadisələrin İslam ümmətində də baş verəcəyini" bəyan edən hədislərə əsaslananlara hansı cavab verilir?

**12.** Zahiri təhrifə dəlalət edən hədislər necə mənalandırılır?

**13.** Həzrət Əlinin (ə) mushəfi ilə mövcud mushəf arasındakı fərqlər Quranın təhrifinə dəlalət edirmi? Nə üçün?

**14.** Bəzi səhabələrin mushəflərində bəzi mətləblərin olub-olmaması təhrifə dəlalət edirmi? Nə üçün?

***Araşdırma üçün suallar:***

**1.** Məna təhrifinin baş verdiyini bəyan edən beş hədisi qeyd edin.

**2.** Quranın tarixi zəminində araşdırma aparan qərbli şərqşünasların təhrif barədə olan hədislər xüsusunda nəzəri nədir?

**3.** Son əsrdə şiələrə atılan iftira barədə, yəni şiələrin Quranın təhrif olunduğuna etiqad bəslədiklərinə dair hansı kitablar nəşr edilmişdir?

**4.** Qarşınızdakı kitabda Quranın təhrif olunmadığına dair qeyd edilən dəlillərdən əlavə dəlillər qeyd edə bilərsinizmi?

# YEDDİNCİ HİSSƏ

# QURANIN MÖCÜZƏLİYİ

**Yeddinci hissə:** Quranın möcüzəliyi

***Birinci fəsil:*** **Külliyyat**

***İkinci fəsil:*** **Təhəddi**

***Üçüncü fəsil:*** **Quranın möcüzəvi cəhətləri**

## *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Peyğəmbərlərin möcüzələrinin müxtəlifliyinin fəlsəfəsini öyrənmək;
- Təhəddi ayələri ilə və bu ayələrdən əldə edilən nəticələrlə tanış olmaq;
- Təhəddi ayələrinin "artmağa doğru", yoxsa "azalmağa doğru" olduğunu öyrənmək;
- Quranın bir sıra möcüzəvi cəhətlərini araşdırmaq.

## *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**əl-Mizan fi təfsiril-Quran, c. 1; ət-Təmhid fi Ulumil-Quran, c.4 və c.5; Ulumul-Quran indəl-mufəssirin, c.2; əl-Bəyan fi təfsiril-Quran, Mu`tərəkul-əqran fi i`cazil-Quran; Mədxəlut-təfsir.**

# Birinci fəsil

## Külliyat

## Müqəddimə

“Möcüzənin fəlsəfəsi” mövzusu “Kəlam” elminin “Peyğəmbər tanıma” bölməsinin mövzularındandır və “Quran elmləri”nə aid mövzu deyildir. Odur ki, “Möcüzəyə nə ehtiyac var və nə üçün peyğəmbərlər möcüzə göstərmişlər” sualına cavab “Quran elmləri” mövzularından xaricdir. Burada təkcə bu məqama toxunuruq ki, həqiqi peyğəmbərləri yalançı iddiaçılardan ayırmağın yollarından biri də “möcüzə” olmuşdur.

## “Ecaz” sözünün lüğəvi mənası

Lüğətdə “ecaz” (اعجاز) sözü üçün 3 məna qeyd olunub:

“Bir şeyin əldən çıxması, bir şeyi əldən vermək”, bir kəsi “aciz görmək” və ya “aciz qoymaq”.

“Qamus”da yazılıb:

أَعْجَزَهُ الشَّيْءُ: فَاتَهُ و فُلَانًا: وَجَدَهُ عَاجِزًا و صَيَّرَهُ عَاجِزًا.

Yəni: O şey onun əlindən çıxdı. O şəxsi aciz gördü və ya aciz qoydu.

أَعْجَزَ فِى الْكَلَام: اَدَّىٰ مَعَانِيهِ بِأَبْلَغِ الْأَسَالِيب.

Yəni: Mətləbi (fikri) ən aydın və anlaşılan şəkildə bəyan etdi.

Rağib İsfahani “Mufrədat”da qeyd edir:

“عَجْز” sözünün lüğəvi mənası “bir şeyin digər bir şeyin ardınca və ondan sonra gəlməsi, ortaya çıması” deməkdir. Lakin ürfdə (camaat arasında) “müəyyən bir işi yerinə yetirməyə qadir olmamaq” mənasında işlənir.

Rağib İsfahani demək istəmişdir ki, “عَجْز” sözünün lüğəvi mənası (birinci mənası) “تَأَخُّر”, yəni “bir şeyin digər bir şeyin ardınca gəlməsi, ortaya çıxması” deməkdir. Lakin gücsüz və zəif insanlar adətən başqalarından geri qaldıqları, onlardan arxada olduqları üçün “عَجْز” sözü “ضَعْف” (zəif, güzsüz) sözü ilə eynimənalı söz kimi işlənmişdir.

## "Ecaz" və "möcüzə" sözünün terminoloji mənası

Turəyhi "ecaz" və "möcüzə" sözü üçün bu tərifi qeyd etmişdir:

المُعْجِزُ الأَمْرُ الخَارِقُ لِلْعَادَةِ، المُطَابِقُ لِلدَّعْوِى، المَقْرُونُ بِالتَّحَدِّى.

"Möcüzə xariqül-adə (qeyri-adi və bəşər qüdrətinin fövqündə olan) bir iş olub, nübüvvət (peyğəmbərlik) iddiası ilə uyğun və təhəddi ilə yanaşıdır".[1]

Ayətullah Xoi "ecaz" və "möcüzə"nin tərifində qeyd edir:

"Möcüzə, Allah elçisi olduqlarını söyləyən ilahi peyğəmbərlərin göstərdikləri bir işdir. Belə ki, bu iş təbii qanunların fövqündə olur və başqaları onu təkrarlamaqda acizdir. Möcüzə adlanan iş, ilahi peyğəmbərlərin sözünün doğruluğunu göstərən şahiddir".[2]

## Ən yaxşı möcüzə

*(Möcüzələrin müxtəlifliyinin fəlsəfəsi)*

Ən yaxşı möcüzə öz dövrünün geniş yayılan elm və sənətinə oxşar olan möcüzədir. Çünki hər sənətin ustadı öz işinin incəliklərini bildiyi üçün dövrün peyğəmbərinin göstərdiyi möcüzələri daha yaxşı dərk və təsdiq edəcəkdir.

Bu səbəbdən də ilahi hikmətin tələbi ilə hər bir peyğəmbər öz dövrünün geniş yayılan və əhəmiyyətli hesab edilən elm və sənətinə oxşar möcüzə ilə gəlmişdir.

Musa peyğəmbərin (ə) dövründə sehrbazlıq və cadugərlik geniş yayıldığı üçün Allah-Təala ona "əsa" və "nur saçan əl" möcüzələrini vermişdi. Sehrbazlar sehr ilə möcüzənin fərqini görüb Musanın (ə) qarşısında dayana bilməyəcəklərini yaxşı başa düşdülər. Elə buna görə də Musanın (ə) möcüzəsini gördükdən sonra ona iman gətirən ilk şəxslər sehrbazlar oldular. Hətta Firon öz məğlubiyyətini ört-basdır etməkdən ötrü sehrbazlara: "Musa sehrbazlıqda sizin ustadınızdır"[3] – dedikdə, adi camaat bu hiyləyə aldansa da, lakin sehrbazlar möcüzənin həqiqətini başa düşdükləri üçün bu sözə aldanmadılar.

Yunanıstanda və onun müstəmləkəsi olan Fələstin, Suriya kimi məntəqələrdə tibb elminin inkişaf etdiyi və həkimlərin möcüzəvi müalicələr təqdim etdikləri bir dövrdə İsa peyğəmbər (ə) Allah elçisi olaraq anadangəlmə korların görmə qabiliyyətini onlara bəxş edir, əlacsız xəstəlikləri müalicə edir, hətta ölüləri diriltdir.

İslam dininin zühur etdiyi dövrdə ərəblər arasında ədəbiyyat və şeir özünün inkişaf zirvəsində idi. Söz ustadları olan xətiblər və ədiblər "söz allahı" adlanırdı, onların gözəl şeirlərini dinləməkdən ötrü xüsusi bazarlar qurulurdu. Hətta yeddi ən gözəl

---

[1] Məcməul-Bəhrəyn, "عَجْز" sözü.

[2] əl-Bəyan, s.33.

[3] Taha surəsi, ayə: 71; Şuəra surəsi, ayə: 49.

qəsidə qızıl su ilə yazılıb Kəbə evindən asılmışdı. İslam peyğəmbəri (s) öz möcüzəsi ilə bu söz allahlarını heyrətdə qoydu. Bəli, onun ən böyük möcüzəsi bir "kitab" idi.

"Usuli-kafi" kitabında qeyd edilən bir hədisdə Musa peyğəmbərin (ə), İsa peyğəmbərin (ə), Həzrət Məhəmmədin (s) müxtəlif möcüzələrə sahib olmalarının fəlsəfəsi barədə verilən sualın cavabında İmam Rza (ə) buyurur: "Bu müxtəliflik hər peyğəmbərin öz dövründə geniş yayılan elm və sənətə qalib gələ bilməsi üçün idi."[1]

## Quranın digər xüsusiyyətləri

Ərəbistan yarımadasında böyük əhəmiyyət verilən sənətə - söz sənətinə - oxşarlıqdan əlavə, bu səmavi kitabın İslam peyğəmbərindən (s) əvvəlki peyğəmbərlərin möcüzələri ilə müqayisədə bir sıra özünəməxsus üstünlükləri vardır, o cümlədən:

1. Maarifləndirmə: Əvvəlki peyğəmbərlərin göstərdikləri möcüzələr, məsələn, əlacsız xəstələrin şəfa tapması və ölülərin dirilməsi, Firon və onun qoşununun suda qərq olması və başqa möcüzələr bu peyğəmbərlərin həqqaniyyətinin (haqq olmalarının) isbatı üçün idi. Bu möcüzələr maarifləndirmə xüsusiyyətini daşımırdı. Lakin Qurani-Kərim insanların düşüncələrini və ruhlarını ülvi maariflə qidalandıran, bəşəri kamilləşdirən bir mənbədir.

2. Əbədilik: Quran yeganə əbədi möcüzədir. Quran elə bir möcüzədir ki, bu möcüzəyə sahib peyğəmbərin onun kənarında olmasına lüzum yoxdur, bu möcüzə hər zaman öz həqqaniyyətini nümayiş etdirməkdədir.

3. Hamının müşahidə edə biləcəyi bir möcüzə: İlahi peyğəmbərlərin möcüzələrini təkcə həmin dövrün camaatı, özü də məhdud bir dəstə müşahidə edə bilmişlər. Lakin Quran hamının müşahidə edə biləcəyi möcüzədir. Başqa sözlə, digər möcüzələrin malik olduğu zaman və məkan məhdudiyyəti Quran xüsusunda mövcud deyildir. Hər bir kəs hər bir zamanda bu möcuzəni görə bilər.

Rağib "Ecazul-Quran" kitabında yazır:

"Peyğəmbərlərin göstərdikləri möcüzələr iki cür olmuşdur: hissi və əqli. Hissi möcüzə müşahidə edilən möcüzədir, məsələn, Salehin dəvəsi, Nuhun tufanı, Musanın əsası. Hissi möcüzələri hamı – istər adi insanlar, istərsə də seçilmiş insanlar - müşahidə edə bilərlər. Lakin həqiqi möcüzə ilə sehri (və ya bu kimi başqa işləri) bu işin alimlərindən qeyriləri səhv sala bilər, onları bir-birindən ayırd edə bilməzlər.

Əqli möcüzəni isə geniş və dəqiq düşüncəyə malik insanlar başa düşə bilərlər. Bəni-İsrail qövmü düşüncəsi səthi olan bir qövm olduğu üçün onlara göndərdiyi peyğəmbərlərin möcüzələrini Allah-Təala hissi möcüzə qərar vermişdir. İslam ümmətinin əksər möcüzələri isə əqli möcüzələrdir." [2]

1 Mustafa Xomeyni, Təfsirul-Quranil-Kərim, c.4, s.94.
2 Ulumul-Quran indəl-mufəssirin,c.2, s.401

## *Fəslin əsas mətləbləri:*

**1.** Həqiqi peyğəmbərləri yalançı iddiaçılardan ayırd etməyin yollarından biri möcüzədir.

**2.** “Ecaz” sözü “bir şeyin əldən çıxması, bir şeyi əldən vermək”, bir kəsi “aciz görmək” və ya “aciz qoymaq” mənalarını bildirir, baxmayaraq ki, “عَجْز” sözünün lüğəvi mənası (birinci mənası) “تَأَخُّر”, yəni “bir şeyin digər bir şeyin ardınca gəlməsi, ortaya çıxması” deməkdir.

**3.** Möcüzənin terminoloji mənası bundan ibarətdir:

Möcüzə xariqül-adə (qeyri-adi və bəşər qüdrətinin fövqündə olan) bir iş olub, nübüvvət (peyğəmbərlik) iddiası ilə uyğun və təhəddi ilə yanaşıdır.

**4.** Ən yaxşı möcüzə, dövrün ən geniş yayılan elm və sənətinə oxşar işdir.

**5.** Möcüzələrin müxtəlifliyinin səbəbi - məsələn, Musa peyğəmbərin (ə) əsası və nur saçan əli, İsa peyğəmbərin (ə) ölüləri diriltməsi, Həzrət Məhəmmədin (s) Quranı - öz dövrlərinin elm və sənətinə uyğun olmasıdır.

**6.** Qurani-Kərimin “fəsahət və bəlağət” xüsusiyyətindən əlavə, əvvəlki peyğəmbərlərin möcüzələrindən olan üstünlükləri bunlardır: maarifləndirmə, əbədilik, hamının müşahidə edə biləcəyi möcüzə.

# İkinci fəsil

## Təhəddi

Qurani-Kərim Həzrət Peyğəmbərin (s) "nübüvvət sənədi" və ümmətin "hidayət mənbəyi"dir. Bu səmavi kitab elə bir dönəmdə və dünyanın elə bir məntəqəsində nazil oldu ki, ərəblər arasında söz sənəti özünün zirvəsinə çatmış, Hicaz məntəqəsi ədiblərin, şairlərin, xətiblərin və söz allahlarının diyarı kimi ad çıxarmışdı. İlk başlanğıcda Quranı inkar edənlər onu əfsanə sandılar və elə düşündülər ki, əgər istəsələr, onun bənzərini yarada bilərlər.[1]

Belə bir dönəmdə və məntəqədə Həzrət Peyğəmbər (s) "təhəddi"yə çağırdı, yəni Quranın bənzərini yarada biləcəklərini iddia edənləri mübarizə meydanına və Quranın qarşısına çıxmağa çağırdı.

Təhəddiyə çağırış çox ciddi bir şəkildə oldu. Ərəbin ən böyük imtiyazı və iftixarı olan söz sənətini hədəfə aldığına görə də təhrikedici oldu. Çünki Quranın qarşısına çıxmamaq və ya mübarizə meydanında məğlub olmaq heysiyyət və mövqeyi itirməkdən başqa bir şey ilə nəticələnməyəcəkdi. Maraqlısı budur ki, təkcə Ərəbistan yarımadasının camaatı təhəddiyə dəvət olunmurdu, əksinə, mübarizə meydanına çağırışın ilk mesajı belə idi: Əgər Quran bənzərini ərsəyə gətirməkdən ötrü aləmdəkilərin hamısı bir yerə yığışsalar, bunu etməkdə aciz qalarlar.[2]

## Quranda təhəddi ayələri

Quranda təhəddi ayələri iki qisimdir:

1) Ümumi təhəddi;

2) Xüsusi təhəddi.

Xüsusi təhəddi barədə olan ayələr üçüncü fəsildə araşdırılacaqdır. Burada isə ümumi təhəddi barədə olan ayələrini nəzərinizə çatdırırıq.[3] Bu ayələr nüzul ardıcıllığı ilə belədir:

**1) İsra surəsinin 88-ci ayəsi:**

قُلْ لَئِنِ اجْتَمَعَتِ الْإِنْسُ وَ الْجِنُّ عَلَىٰ أَنْ يَأْتُوا بِمِثْلِ هٰذَا الْقُرْءَانِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَ لَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا.

---

[1] Ənfal surəsi, ayə: 31; Muddəssir surəsi, ayə: 25; Ən`am surəsi, ayə: 91.

[2] İsra surəsi, ayə: 88.

[3] Əlbəttə bilməlisiniz ki, burada qeyd edəcəyimiz ayələr "bəlağət baxımından təhəddi" (yəni "xüsusi təhəddi") başlığı altında da qeyd olunacaqdır.

“De: “Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın bənzərini gətirmək üçün bir yerə toplaşsalar, hətta bir-birlərinə arxa və kömək olsalar belə, onun bənzərini gətirə bilməzlər.’””

**2) Yunus surəsinin 38-ci ayəsi:**

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُوا بِسُورَةٍ مِثْلِهِ وَ ادْعُوا مَنِ اسْتَطَعْتُمْ مِنْ دُونِ اللهِ إِنْ كُنْتُمْ صَادِقِينَ.

“Yoxsa onlar: “Bunu özündən uydurmuşdur” – deyirlər. De: “Əgər doğru deyirsinzsə, ona bənzər bir surə gətirin və Allahdan başqa bacardığınız hər kəsi köməyə çağırın.’””

**3) Hud surəsinin 13-cü ayəsi:**

أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُوا بِعَشْرِ سُوَرٍ مِثْلِهِ مُفْتَرَيَاتٍ وَ ادْعُوا مَنِ اسْتَطَعْتُمْ مِنْ دُونِ اللهِ إِنْ كُنْتُمْ صَادِقِينَ.

“Yoxsa onlar: “Bunu özündən uydurmuşdur” - deyirlər. De: “Əgər doğru deyirsinizsə, onun kimi on uydurma surə gətirin və Allahdan başqa bacardığınız hər kəsi köməyə çağırın.’””

**4) Tur surəsinin 33-34-cü ayələri:**

أَمْ يَقُولُونَ تَقَوَّلَهُ بَلْ لَا يُؤْمِنُونَ. فَلْيَأْتُوا بِحَدِيثٍ مِثْلِهِ إِنْ كَانُوا صَادِقِينَ.

“Yoxsa onlar: “Bunu özündən uydurub” – deyirlər. (Xeyir!) Əksinə, onlar (həqiqəti bilə-bilə) iman gətirmirlər.
Əgər doğru deyirlərsə, onun kimi bir kəlam gətirsinlər.”

**5) Bəqərə surəsinin 23-24-cü ayələri:**

وَ إِنْ كُنْتُمْ فِي رَيْبٍ مِمَّا نَزَّلْنَا عَلَىٰ عَبْدِنَا فَأْتُوا بِسُورَةٍ مِنْ مِثْلِهِ وَ ادْعُوا شُهَدَاءَكُمْ مِنْ دُونِ اللهِ إِنْ كُنْتُمْ صَادِقِينَ. فَإِنْ لَمْ تَفْعَلُوا وَ لَنْ تَفْعَلُوا فَاتَّقُوا النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَ الْحِجَارَةُ أُعِدَّتْ لِلْكَافِرِينَ.

“Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, onda əgər doğru danışırsınızsa, ona bənzər bir surə gətirin və Allahdan başqa şahidlərinizi (köməyə) çağırın.
Əgər etməsəniz – heç vaxt edə bilməyəcəksiniz də - onda, kafirlər üçün hazırlanmış və yanacağı insanlar və daşlar olan oddan çəkinin.”

## Təhəddi ayələri barədə bir neçə diqqətəlayiq məqam:

1. Yuxarıda qeyd edilən təhəddi ayələrindən birincisində mübarizəyə çağırış bütün insanlara və cinlərə, yəni aləmdəkilərə ünvanlanmışdır. Buradan aydın olur ki, Quranın möcüzəviliyi təkcə onun “fəsahətli və bəlağətli ərəb dilində olması”nda xülasələşmir, onun başqa möcüzəvi cəhətləri də vardır. Yoxsa qeyri-ərəbləri ərəb dilində olan bir kitabın qarşısına çıxmağa dəvət etmək yersiz olardı.

2. Yuxarıda qeyd edilən təhəddi ayələrinin ilk üçü ardıcıl nazil olan surələrdə, yəni nüzul ardıcıllığı ilə 50-ci, 51-ci və 52-ci surələrdə yerləşmişdir.

3. Yuxarıda qeyd edilən 2-ci və 3-cü ayələrdə təhəddi - kəmiyyət istisna olmaqla – eyni şəkildədir.

4. Yuxarıda qeyd edilən ayələrin ilk dördü "məkki" surələrdə, axırıncı ayə isə birinci nazil olan "mədəni" surədə yerləşir. Bu onu göstərir ki, təhəddi, ən çox Məkkədə olmuşdur. Məkkədə müsəlmanların sayının az, kafirlərin isə qüdrətli olduqlarını nəzərə alaraq, heç şübhəsiz, təkrar-təkrar və ciddi şəkildə təhəddiyə çağırış müsəlmanlarda özünəgüvən, müşrik və kafirlərdə isə sarsıntı yaratmaqda təsirli olmuşdur.

5. Məkki surələrdə yerləşən "təhəddi" ayələrinin tonu ilə mədəni surədə yerləşən təhəddi ayəsinin tonu arasındakı fərq aydın şəkildə görünməkdədir:

Fərqlərdən biri budur ki, Quranın qarşısına çıxmaqda onların aciz olduqları ayədə işlənən **"وَ لَنْ تَفْعَلُوا" (heç vaxt edə bilməyəcəksiniz də)** ifadəsi ilə açıq-aşkar elan edilir.

Digər bir fərq isə "Bəqərə" surəsində yerləşən təhəddi ayəsinin axırında təhdidamiz cümlənin olmasıdır. Halbuki, digər təhəddi ayələrində təhdid yoxdur. Üstəlik, bu təhdid Quranı inkar edənlərə deyil, ona şəkk-şübhə edənlərə yönəlmişdir. Çünki ayənin əvvəlində: "Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa" cümləsi bu incə məqama işarə edir ki, hətta Quranın haqq olduğu barədə şəkk-şübhə belə etməyin. Başqa sözlə, bu ayə inkar və iftira bir yana, hətta Quranın vəhy olmasına tərəddüdlə yanaşmağı rəva bilmir və bu barədə xəbərdarlıq edir.

6. Təhəddi ayələrinin birincisi təhəddinin "vüsət"i, axırıncısı isə "şiddət"i baxımından diqqəti çəkir.

## Təhəddi - "azalmağa doğru", yoxsa "artmağa doğru"

Bəzi təfsirçilər və Quran tədqiqatçıları bu əqidədədirlər ki, Quranda təhəddi "azalmağa doğru" üç mərhələdə bəyan edilmişdir:

***Birinci mərhələ:*** Qurana bənzər bir kitab gətirmək (İsra surəsi, 88-ci ayə);

***İkinci mərhələ:*** Qurana bənzər on surə gətirmək (Hud surəsi, 13-cü ayə);

***Üçüncü mərhələ:*** Qurana bənzər bir surə gətirmək (Yunus surəsi, 38-ci ayə və Bəqərə surəsi, 23-ci ayə).

Beləliklə, Qurani-Kərim təhəddinin şərtlərini getdikcə azaltmışdır. Hətta Quranın kiçik bir surəsi kimi surə gətirmələrinə razı olmuşdur.

Amma görəsən, təhəddinin "azalmağa doğru" olmasını qəbul etmək mümkündürmü?

Belə görünür ki, təhəddi ayələrinin nüzul ardıcıllığını nəzərə alaraq – bu ayələrin nüzul ardıcıllığını bir qədər əvvəldə qeyd etdik – bu nəzəri qəbul etmək və düzgün hesab etmək mümkün deyildir. Çünki bu ayələrdə (ilk üç ayədə) əvvəlcə Qurana bənzər bir kitab, sonra Quran surəsinə bənzər bir surə, daha sonra Qurana bənzər on surə gətirmək təklif edilir. Belə olduğu təqdirdə bu nəzəri düzgün hesab etmək olmaz.

Yuxarıdakı nəzərin müqabilində təhəddi ayələrinin "artmağa doğru" nəzəri dayanır. Çünki "İsra" surəsinin 88-ci ayəsində "bu Qurana bənzər" ifadəsi işlənmişdir və bu, Quranın bir ayəsinə də şamil olur. Heç şübhəsiz, "bu Qurana bənzər" ifadəsində bütün Quran nəzərdə tutula bilməzdi. Belə ki, "İsra" surəsi nüzul ardıcıllığına görə 50-ci surədir, yəni hələ Quranın hamısı nazil olmamışdı. "Yunus" surəsində Qurana bənzər bir surənin, "Hud" surəsində isə on surənin gətirilməsi təklif edilir. Beləliklə, təhəddinin üç mərhələsi aşağıdakı şəkildə olacaqdır:

***Birinci mərhələ:*** Quranın bənzərini gətirmək və bu, bir ayəyə də şamil olur (İsra surəsi);

***İkinci mərhələ:*** Qurana bənzər bir surə gətirmək (Yunus surəsi);

***Üçüncü mərhələ:*** Qurana bənzər on surə gətirmək (Hud surəsi).

Bu iki nəzəri müqayisə etdikdə, surələrin nüzul ardıcıllığına görə ikinci nəzərin düzgün nəzərə çarpmasına baxmayaraq, lakin yenə də qəti fikir söyləmək mümkün deyildir. Çünki bu üç ayədən sonra "Tur" surəsinin 34-cü ayəsində "Quranın bənzərini" gətirmək, daha sonra "Bəqərə" surəsinin 23-cü ayəsində "Qurana bənzər bir surə" gətirmək təklif edilmişdir. Odur ki, söylənilən nəzərlərə fənn üsrə mütəxəssislərin irəli sürdükləri nəzərlər olaraq baxılır.

## "Sərfə" nəzəriyyəsi

Biz təhəddi ayələri ilə tanış olduq. Quranın qarşısına çıxmaqda bəşərin aciz qalması və ona təslim olması Quranın möcüzəliyini sübuta yetirdi. Amma: "Nə üçün bəşər Quranın bənzərini gətirə bilmədi?" - sualının cavabında bəzi şiə və sünni alimləri "sərfə" nəzəriyyəsini[1] qeyd etmiş, bunu Quranın möcüzəvi cəhətlərindən biri hesab etmişlər. Bu nəzəriyyəyə görə, Allah bəşəri Quranın qarşısına çıxmaq fikrindən döndərmişdir.

Qeyd etmək lazımdır ki, bu nəzəriyyənin izahı zəminində fikirayrılığı vardır. Bəzi alimlər qeyd etmişlər ki, Allah Quranın bənzərini ərsəyə gətirmək, yaratmaq qüdrətini bəşərdən almışdır. Yəni əgər onlar Quranın bənzərini yaratmağa qalxsalar da, bu işi görə bilməyəcəklər.

---

[1] Müraciət edin: Ulumil-Quran indəl-mufəssirin, c.2, s.430-445. "Sərfə" nəzəriyyəsinə aid fikirlər barədə Ustad Məhəmmədhadi Mərifət geniş bəhs etmişdir (ət-Təmhid, c.4, s.137-190).

Bəzi alimlər isə bu qənaətdədirlər ki, Allah, ümumiyyətlə, Quranın qarşısına çıxmaq və onun bənzərini yaratmağa qalxmaq qüdrətini bəşərdən almışdır. Yəni bəzilərində Quranın bənzərini ərsəyə gətirmək, yaratmaq qüdrəti olsa da, onlardan Quranın qarşısına çıxmaq qüdrəti alındığına görə bu işi görə bilməmişlər.

Seyid Murtəza qeyd edir ki, Allah Quranın bənzərini ərsəyə gətirə bilmək üçün lazım olan elmi bəşərdən almışdır.[1] Əgər soruşsaq ki: "Quranın möcüzəliyi "sərfə" nəzəriyyəsi ilə necə izah oluna bilər?", onlar bu sualın cavabında deyirlər:

Fərz edək ki, insanlar Quranın bənzərini ərsəyə gətirməyə, yaratmağa qadirdirlər və nəzərə alaq ki, Quranın qarşısına çıxmağa da dəvət olunublar. Belə olduğu təqdirdə, bu işi həyata keçirmək üçün lazımi şərtlər mövcud idi. Lakin eyni halda görürük ki, onlar bu işi yerunə yetirməyə qalxmamışlar. Bu hal təəccüb doğurur.[2] Ondan ötrü təəccüb doğurur ki, onların həm Quranın qarşısına çıxmaq qüdrəti var idi, həm də təhəddi ayələri onları bu işə təhrik etmişdi. Digər tərəfdən də onlar da öz mövqelərini və şan-şöhrətlərini ciddi təhlükədə görüb çarə yolu axtarırdılar (Quranın qarşısına çıxmaq üçün məntiqi səbəbləri var idi). Lakin onlar Quranın qarşısına çıxmadılar. Bu isə, Allahın onları bu fikirdən döndərməsindən (yəni onlardan bu qüdrəti almasından) başqa bir mənanı ifadə etmir.

Bu nəzəriyyənin nöqsanı aydın şəkildə görünməkdədir. Çünki bu nəzəriyyəyə görə Quranın möcüzəliyi onun özündə, o cümlədən, bənzərsiz fəsahətində deyildir. Burada "sərfe-himəm", yəni insanların bu fikirdən döndərilməsi bir möcüzə olur. Yəni Mütəal Allah Qurani-Kərimə bənzər bir kitabı ərsəyə gətrimək istəyənləri bu fikirdən döndərmişdir. Bu nəzəriyyənin nöqsanı budur ki, Quranın möcüzəvi məzmunu və üslubu onun bir möcüzə olması üçün yetərli hesab edilmir.[3] Şiə alimləri arasında Seyid Murtəza və Şeyx Mufid bu nəzəriyyənin tərəfdarıdırlar.

## Quranın bənzərini yaratmaq cəhdləri

"Sərfə" nəzəriyyəsinin əsassız olduğu təkcə nəzəri baxımdan deyil (yuxarıda bu barədə bəhs etdik), əməli baxımdan da sübuta yetmişdir. Çünki tarix səhifələrində Quranın bənzərini yaratmaq cəhdləri qeydə alınmışdır. Söz yox ki, bu cəhdlər bizim üçün ibrət dərsləridir. Deməli, təhəddiyə çağırışa cavab verilmiş və Quranın bənzərini ərsəyə gətirməyə cəhd edilmişdir. Lakin uğursuzluq və rüsvayçılıqdan başqa bir nəticəsi olmamışdır. Burada bu cəhdlərdən üç nümunəni sizin nəzərizinə çatdırırıq:

Peyğəmbərlik iddiası edən Museyləmə Kəzzab "Fil" surəsinin müqabilində bu cümlələri söyləmişdir:

[1] Ulumil-Quran indəl-mufəssirin, c.2, s.455.

[2] Öncəki qaynaq, s.431.

[3] Müraiət edin: Bəhauddin Xürrəmşahi, Quranın tərcüməsi, s.662.

اَلْفِيلُ مَا الْفِيلُ. وَ مَا أدْرَاكَ مَا الْفِيلُ. لَهُ ذَنْبٌ وَبِيلٌ وَ خُرْطُومٌ طَوِيلٌ...[1]

Bir məsihi yazar "Həmd" surəsinin müqabilində bu surənin özündən istifadə edərək bu cümləları söyləmişdir:

اَلْحَمْدُ لِلرَّحْمَانِ. رَبُّ الْأَكْوَانِ. اَلْمَلِكُ الدَّيَّانِ. لَكَ الْعِبَادَةُ وَ بِكَ الْمُسْتَعَانُ. اِهْدِنَا صِرَاطَ الْإِيمَانِ.[2]

Həmin yazar "Kövsər" surəsinin müqabilində isə bu cümlələri söyləmişdir:

إنَّا اَعْطَيْنَاكَ الْجَوَاهِرَ. فَصَلِّ لِرَبِّكَ وَجَاهِرَ. وَ لَا تَعْتَمِدْ قَوْلَ سَاحِرَ.

Bu yazar quruluş və üslub baxımından Quran ayələrini tam şəkildə təqlid edərək özünü Quranın bənzərini yaradan bir fərd kimi qələmə vermək istəmişdir. Bu uydurmaları da Museyləmə Kəzzabdan oğurlamışdır. Museyləmə Kəzzab "Kövsər" surəsinin müqabilində bu cümlələri söyləmişdir:

إنَّا اَعْطَيْنَاكَ الْجَمَاهِرَ. فَصَلِّ لِرَبِّكَ وَهَاجِرَ. وَ إنَّ مَبْغَضَكَ رَجُلٌ كَافِرٌ.[3]

Tarixi mənbələrdə belə nümunələrə rast gəlinir.[4]

## ***Fəslin əsas mətləbləri:***

**1.** Təhəddi, Quranın qarşısına çıxmağa və onun bənzərini yaratmağa çağırışdır. Mütəal Allah ilahi vəhyi inkar edənlərə təklif etmişdir ki, əgər iddaları doğrudursa, Quranın bənzərini ərsəyə gətirsinlər.

**2.** Quranda təhəddi ayələri iki qisimdir: 1) Ümumi təhəddi; 2) Xüsusi təhəddi.

**3.** Quranda ümumi təhəddi barədə beş ayə vardır. Bu ayələr nüzul ardıcıllığına görə bu surələrdə yerləşir: İsra, Yunus, Hud, Tur, Bəqərə. İlk üç surə ardıcıl olaraq nazil olan əllinci, əlli birinci və əlli ikinci surələrdir.

**4.** Təhəddi ayələrindən birincisində mübarizəyə çağırış bütün insanlara və cinlərə, yəni aləmdəkilərə ünvanlanmışdır.

**5.** Təhəddi ayələrinin ilk dördü "məkki" surələrdə, axırıncı ayə isə birinci nazil olan "mədəni" surədə yerləşir.

**6.** Məkki surələrdə yerləşən təhəddi ayələrinin tonu mədəni surə olan "Bəqərə" surəsində yerləşən təhəddi ayəsinin tonundan fərqlənir.

**7.** Təhəddi ayələrinin birincisi təhəddinin "vüsət"i, axırıncısı isə "şiddət"i baxımından diqqəti çəkir.

**8.** Bəzi təfsirçilər və Quran tədqiqatçıları bu əqidədədirlər ki, Quranda təhəddi "azalmağa doğru" üç mərhələdə bəyan edilmişdir:

***Birinci mərhələ:*** Qurana bənzər bir kitab gətirmək (İsra surəsi, 88-ci ayə);

---

[1] "əl-Mizan", c.1, s.68.

[2] Müraciət edin: "əl-Bəyan", s.94.

[3] Müraciət edin: "əl-Bəyan", s.94-99.

[4] Müraciət edin: "Numunə" təfsiri, c.1, s.134-135.

***İkinci mərhələ:*** Qurana bənzər on surə gətirmək (Hud surəsi, 13-cü ayə);

***Üçüncü mərhələ:*** Qurana bənzər bir surə gətirmək (Yunus surəsi, 38-ci ayə və Bəqərə surəsi, 23-ci ayə).

**9.** Təhəddi ayələrinin yerləşdiyi surələrin nüzul ardıcıllığını, eləcə də, "İsra" surəsinin 88-ci ayəsində "bu Qurana bənzər" ifadəsinin işləndiyini nəzərə alaraq, təhəddinin "artmağa doğru" olduğu nəzəri daha düzgün nəzərə çarpır, yəni:

***Birinci mərhələ:*** Quranın bənzərini gətirmək və bu, bir ayəyə də şamil olur (İsra surəsi);

***İkinci mərhələ:*** Qurana bənzər bir surə gətirmək (Yunus surəsi);

***Üçüncü mərhələ:*** Qurana bənzər on surə gətirmək (Hud surəsi).

**10.** "Tur" və "Bəqərə" surələrində də təhəddi ayələrinin gəldiyini nəzərə alaraq demək olar ki, Quranda təhəddinin müəyyən mərhələləri olmamışdır. Yuxarıda qeyd edilən nəzərlər isə fənn üzrə mütəxəssislərin nəzərləri hesab edilir.

**11.** "Sərfə" nəzəriyyəsinə görə Quranın möcüzəliyi onun özündə, o cümlədən, bənzərsiz fəsahətində deyildir. Burada "sərfe-himəm", yəni insanların bu fikirdən döndərilməsi bir möcüzə olur. Yəni Mütəal Allah Qurani-Kərimə bənzər bir kitabı ərsəyə gətrimək istəyənləri bu fikirdən döndərmişdir. Bu nəzəriyyənin nöqsanı budur ki, Quranın möcüzəvi məzmunu və üslubu onun bir möcüzə olması üçün yetərli hesab edilmir.

**12.** Tarix səhifələrində Quranın bənzərini yaratmaq cəhdləri qeydə alınmışdır ki, bu cəhdlərin uğursuzluq və rüsvayçılıqdan başqa bir nəticəsi olmamış, eyni halda Qurana izzət və əzəmət gətirmişdir.

# Üçüncü fəsil

## Quranın möcüzəvi cəhətləri

Quran müxtəlif cəhətlərdən möcüzədir, onun möcüzəliyi fəsahət və bəlağətdə xülasələşmir. Quranın bəzi möcüzəvi cəhətləri Quranın özündə bəyan olunmuş, onlar xüsusunda “təhəddi”[1] mövcuddur. Bəzi möcüzəvi cəhətləri xüsusunda isə “xüsusi təhəddi” mövcud deyildir və bu cəhətlər “ümumi təhəddi” barədə olan ayələrə daxildir. Bu fəsildə Quranın möcüzəvi cəhətləri – istər bu cəhətlər xüsusunda “təhəddi” mövcud, istərsə də mövcud olmasın – araşdırılacaqdır. Məlum məsələdir ki, heç kim Quranın bütün möcüzəvi cəhətlərini araşdırdığını iddia edə bilməz, çünki Quranın çox sirləri və qəribəlikləri hələ də bizə gizli qalmışdır.

Bu kiçik müqəddimədən sonra Quranın möcüzəvi cəhətlərinə nəzər salaq:

**1) Həzrət Peyğəmbərin (s) şəxsiyyəti:**

Quranın möcüzəvi cəhətlərindən biri Quranı gətirən şəxsin təhsil almayan, savadı olmayan bir şəxs olmasıdır. Bu mətləb Quranda da vurğulanmışdır. Hamı bilirdi ki, Həzrət Peyğəmbər (s) heç bir alimdən və müəllimdən dərs almamışdı, peyğəmbərliyə seçilməmişdən qabaq ömrünün üçdə iki hissəsini yaşamış və bu müddətdə o həzrətdən kimsə bir şeir və ya hekayət eşitməmişdi.[2] Lakin gözlənilmədən belə bir şəxs elə bir kitab gətirir ki, dövrün böyük alim və ədibləri onun qarşısında aciz və heyran qalırlar.

Quran bu mətləbi özünün möcüzəvi cəhətlərindən biri hesab edir, buyurur:

قُلْ لَوْ شَاءَ اللهُ مَا تَلَوْتُهُ عَلَيْكُمْ وَ لَا أَدْرَاكُمْ بِهِ فَقَدْ لَبِثْتُ فِيكُمْ عُمُرًا مِنْ قَبْلِهِ أَفَلَا تَعْقِلُونَ.

“De: “Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım və O da sizi ondan xəbərdar etməzdi. Çünki şübhəsiz, ondan qabaq (Quran nazil olmamışdan qabaq) mən sizin aranızda (qırx illik) bir ömür keçirmişəm. Belə isə, heç düşünmürsünüz?””[3]

Həzrət Peyğəmbər (s) barədə: “Rumlulardan bir nəfər onun müəllimi olmuşdur” – deyənlərin qarşısında Qurani-Kərim buyurur:

وَ لَقَدْ نَعْلَمُ أَنَّهُمْ يَقُولُونَ إِنَّمَا يُعَلِّمُهُ بَشَرٌ لِّسَانُ الَّذِى يُلْحِدُونَ إِلَيْهِ أَعْجَمِىٌّ وَ هٰذَا لِسَانٌ عَرَبِىٌّ مُّبِينٌ.

[1] Bu fəsildə “təhəddi” dedikdə “xüsusi təhəddi” nəzərdə tutulur.

[2] “əl-Mizan”, c.1, s.63.

[3] Yunus surəsi, ayə: 16.

“Əlbəttə, Biz onların: “Əslində bunu (Quranı) ona (Məhəmmədə) bir bəşər öyrədir” – dediklərini bilirik. (Lakin belə deyildir.) Səhv edib bu sözü nisbət verdikləri şəxsin dili qeyri-ərəbdir, bu (Quran) isə aydın ərəb dilindədir”.[1]

Heç bir yerdə dərs oxumayan, kimsədən dərs almayan bir peyğəmbər bəşərə və dərs oxuyanlara maarif, hikmət və hidayətlə dolu bir kitab təqdim edir, özü də bu kitabın müəllimi olur. [2]

**2) Fəsahət və bəlağət (söz möcüzəliyi):**

Bu xüsusda da təhəddi mövcuddur. Təhəddini bəyan edən beş ayə - bu ayələri ikinci fəsildə araşdırdıq – heç olmazsa ən azı fəsahət və bəlağətə dəlalət edirdi.[3] Çünki Həzrət Peyğəmbərin (s) müxatəblərinin ən mühüm xüsusiyyəti – belə ki, onlar Quranın qarşısına ona bənzər bir kitab, yaxud bir və ya bir neçə surə ilə çıxmağa çağırılmışdı – fəsahət və bəlağətə sahib olmaları idi.

Hamıya məlumdur ki, İslamın zühur etdyi dövrdə ərəb söz sənəti elə bir zirvəyə çatmışdı idi ki, nə əvvəllər, nə də sonralar bir millətin ona tay olduğu tarixə düşməmişdir. Belə bir şəraitdə Allahın kəlamı Həzrət Peyğəmbərə (s) nazil oldu. Bu kəlamın gözəlliyi və axıcılığı söz meydanını şairlər, ədiblər, zövq və istedad sahibləri üçün dar etdi, onları öz acizliklərini etiraf etməyə vadar etdi. Quran özünün ali maarifini nə nəsr, nə də nəzm qəlibində, əksinə, özünəməxsus və fərdi bir üslub ilə bəyan edərək dövrün bütün ədəbi əsərlərini kölgə altında qoydu. Tarix mənbələrində bu barədə müxtəlif hekayətlər qeyd olunubdur. Quran ayələrini dinləyənlər qeyri-iradi bu kəlama vurulur, bu kəlam onları özünə tərəf cəzb edirdi.

Vəlid ibn Muğeyrə Məxzumi ərəblər arasında tədbirli bir şəxs kimi tanınırdı. “Ğafir” surəsinin ilk ayələri nazil olduqda Həzrət Peyğəmbər (s) məscidə gəldi və bu ayələri oxumağa başladı. Bu vaxt Vəlid yaxınlıqda dayanmışdı. Həzrət Peyğəmbər (s) Vəlidin ayələri diqqətlə dinlədiyini görüb onları bir daha qiraət etdi. Vəlid ibn Muğeyrə məsciddən çıxdı və Bəni-Məxzum tayfasının yığıncağına gedib belə dedi:

“And olsun Allaha, Məhəmməddən elə bir söz eşitdim ki, nə insanların sözünə bənzəyirdi, nə də cinlərin. Onun sözlərinin xüsusi həlavəti var idi və olduqca gözəl idi. Yuxarısı (ağaclar kimi) bəhrəli, aşagısı (qoca ağacların kökü kimi) möhkəm idi. Bu sözlər hər şeyə qalib gələcək və heç nə ona qalib gəlməyəcəkdir.”[4]

Əbu Ubeydə deyir: Bir ərəb kişi “فَاصْدَعْ بِمَا تُؤْمَرْ” ayəsini[5] eşitdikdə səcdə etdi və dedi: “Bu kəlamın fəsahətinə səcdə edirəm. Çünki “اصْدَعْ” sözünün dəvətin izhar

---

[1] Nəhl surəsi, ayə: 103.

[2] Cümə surəsi, ayə: 2.

[3] Əvvəldə qeyd etdiyimiz kimi, bu ayələrdən bəziləri, məsələn İsra surəsinin 88-ci ayəsi fəsahət və bəlağətdə xülasələşmir.

[4] Məcməul-bəyan, c.10, s.584.

[5] Hicr surəsi, ayə: 94. (Buna görə də, sənə əmr olunanı aşkar şəkildə bəyan et və müşriklərdən üz çevir.)

və aşkar edilməsində, dəvətdə şücaətli olmaqda təsirediciliyi, “مَا تُؤْمَرْ” sözünün isə yığcam və eyni halda hərtərəfli olması təzimə layiqdir.[1]

Məqsədəuyğun hesab edirik ki, fəsahət və bəlağət xüsusunda olan təhəddini daha yaxşı başa düşmək üçün Quranın bir ayəsi ilə ərəblərin eyni mənada olan qısa bir deyimini müqayisə edək. Qurani-Məcid qisas və onun fəlsəfəsi barədə incə bir təbir işlətmişdir:

وَ لَكُمْ فِى الْقِصَاصِ حَيَوٰةٌ...

“Qisasda sizin üçün həyat vardır.”[2]

Bu barədə ərəblərin deyimi isə belədir:

اَلْقَتْلُ أَنْفَىٰ لِلْقَتْلِ.

“Qətli qətl aradan aparar.”

Cəlaləddin Siyuti bu iki cümlənin müqayisəsində Quran ayəsi üçün 20 üstünlük sadalamışdır.[3] Biz burada onların bir neçəsini nəzərinizə çatdırırıq:

1) “فِى الْقِصَاصِ حَيَوٰةٌ” cümləsində hərflərin sayı “اَلْقَتْلُ أَنْفَىٰ لِلْقَتْلِ” cümləsindəki hərflərin sayından azdır.

2) Ayədə işlənən “qisas” ifadəsi dəqiq və hesablanmış bir ifadədir. Çünki hər qətl digər qətli aradan aparmır, hətta elə olur ki, bir qətl özü digər bir qətlə səbəb olur, məsələn, zülm ilə baş verən qırğın. Odur ki, həyata səbəb olan qətl, xüsusi bir qətldir və bu, “qisas” adlanmışdır.

3) Nəzərdə tutulan məqsəd ayədə hərtərəfli və mükəmməl şəkildə bəyan edilmişdir. Çünki “qisas” həm qətlə, həm də yaralanma və üzvün kəsilməsinə şamil olur. Halbuki, deyimdə yalnız qətl vurğulanmışdır.

4) Ərəblərin deyimində “qətl” sözü təkrar olunmuşdur. Təkrar hətta fəsahətə xələl gətirməsə belə, təkrarın olmaması olmasından üstündür.

5) Ayədə bədilik vardır. Belə ki, bir-birinə zidd olan iki ünsürdən biri (yəni fəna və ölüm) digər ünsür üçün mənbə və məkan olmuşdur. Yəni “qisas” sözü ismin yerlik halında işlənərək həyatın mənbəyi hesab edilmişdir.

6) Kəlmədə hərəkələr ardıcıl olduqda (yəni heca bir samit və bir saitdən təşkil olunduqda) kəlmələrin fəsahəti (axıcılığı, oxunaqlığı) aşkar olur. Belə olduqda, kəlmələri tələffüz edərkən dil rahat hərəkət edir. Lakin əgər kəlmədə hər hərəkədən sonra sükun olarsa (yəni heca samit+sait+samit-dən təşkil olunarsa), bu kəlmənin tələffüzü zamanı dil o qədər də rahat hərəkət etmir. Bu məqam ayə ilə deyimin müqayisəsində aydın görünməkdədir.

7) “اَلْقَتْلُ أَنْفَىٰ لِلْقَتْلِ” cümləsi kəlamın zahiri baxımından ziddiyyətlidir. Çünki bir şeyin özünün-özünü aradan aparması ziddiyyətli məqamdır.

---

[1] Ulumul-Quran indəl-mufəssirin, c.2, s.489.

[2] Bəqərə surəsi, ayə: 179.

[3] Mu`tərikul-əqran fi i`cazil-Quran, c.1, s.300-303.

8) Ayədə qəzəb və ölüm saçan “qətl” sözü işlənməmişdir, əvəzində ümüdverici məna daşıyan “həyat” sözü işlənmişdir.

9) Ayədə nəyinsə təsbit və bərqərar edilməsindən, deyimdə isə nəyinsə aradan getməsindən söz gedir. Məlum məsələdir ki, “təsbit edilmə”, “aradan getmə”dən üstündür.

10) “Qisas” sözü “müsavat” mənasına da işarə edir, əslində, qisas ədalətdən xəbər verir. Halbuki, “qətl” sözündən ədalət mənası əldə edilmir.

Burada Qurani-Kərim barədə alimlərin söylədiyi fikirlərdən iki nümunəni sizin nəzərinizə çatdırırıq:

Con Diven Port “Məhəmmədin və Quranın qarşısında təqsir üzrü” kitabının müəllifi yazır:

“Hamılıqla qəbul olunmuşdur ki, Quran ən bəlağətli və fəsahətli dildə, ərəblər arasında ən nəcib və ədəbli tayfa olan Qureyş tayfasının ləhcəsində nazil olunmuşdur... Quran ən aydın təsvirlər və ən möhkəm təşbehlərlə doludur...”[1]

Qurani-Kərimin ədəbi möcüzəliyinin bir qismi onun özünəməxsus üslubundadır. Quran misli görünməyən bədii bir üslub yaratdı: Quran nə nəzm, nə də nəsrdir.

Quranda “سَجْع” çoxdur. Kahinlərin “səc”inə və “şeir”ə oxşamasın deyə, hörmət əlaməti olaraq onu “فَاصِلَه” (fasilə) adlandırırlar. “Fasilə” dedikdə, hər ayənin axırındakı oxşar kəlmələr nəzərdə tutulur. Quran parlaq keçmişi olan ərəb şeirinə də bənzəmir. Quranı şeir və Peyğəmbəri (s) şair adlandıranları Quran qəti şəkildə təkzib edir, buyurur: “Biz ona şeir öyrətmədik və bu ona heç yaraşmaz da.”[2] Lakin Quranda şeir cövhəri çoxdur, yəni zərif və məcazi bəyanlar, müxtəlif istiarələr, təmsillər və təşbehlər vardır. Həmçinin Quranın eyni vəznli (qafiyəli) ayələri yüz bənddən çoxdur. Bütün bunlarla yanaşı, habelə, Quranın ərəb və fars şeirində və ədəbiyyatında böyük təsiri ilə yanaşı, Quran şeir deyildir. Deməliyik ki, Quran fərdi bir üsluba malikdir. Quranın söz və cümlələrinin musiqili, avazlı oxunuşu qədimdən bəri tədqiqatçıların diqqətini çəkmişdir. Quranın avazla və cəm halında oxunma qabiliyyətinə malik olması bənzərsizdir.[3]

Quranın gətirdiyi bu üslub və ərəb ədəbiyyatında yaratdığı heyrətamiz yenilik, demək olar ki, bənzərsizdir və gələcək nəsilləri öz qarşısında aciz qoymuşdur. Quranın xüsusi bir cazibəsi və çəkiciliyi vardır, insanı sanki ovsunlayır, vəcdə gətirir, daxilən rahatlaşdırır, insanın fitrəti və təbiətini oxşayır, vicdanı oyadır, varlığa baxışı aşılayır.[4]

---

[1] “Numunə” təfsiri, c.1, s.136.

[2] Yasin surəsi, ayə: 69.

[3] Quranpəjuhi, s.8.

[4] Ustad Məhəmmədhadi Mərifət, “Nəqş-e ahəng dər telavət-e Quran” (Quran tilavətində avazın rolu), “Keyhan-e əndişə” dərgisi, 28-ci say, məqalə.

**3) Ali maarif və təlimlər (məna möcüzəliyi):**

Quranın gözəlliyi yalnız onun söz və ifadələrində, fəsahət bə bəlağətində deyildir. Bu müqəddəs kitab dərin və dəqiq məna və maarif kimi daha üstün bir gözəlliyə və dəyərə malikdir. Quran bəşəri hidayət etməkdən ötrü göndərilibdir. Həzrət Peyğəmbər (s) bu kitab ilə insanları zülmətdən nura çıxartmışdır.[1]

Qurani-Kərim İslamın "ana yasa"sı olub insan fitrətinə uyğun qayda-qanunları ehtiva edir. Quran düşüncələrin zülməti üzərinə daim bir günəş kimi işıq saçır, izzət və əzəməti bu qayda-qanunları öyrənib onlara əməl etməkdə görür.

Quran bu zəmində, heç şübhəsiz, bir möcüzədir. Əxlaqi dəyərlərin tənəzzül etdiyi, insani adət-ənənələrin yerini qeyri-insani adət-ənənələrin aldığı, təcavüzkarlıq və qarətin üstünlük hesab edildiyi, qız uşaqlarının diri-diri torpağa basdırıldığı, xəyanət, fəsad, pozğunluq və ədalətsizliyin baş alıb getdiyi bir dövrdə əxlaqi dəyərlərin və ən mütərəqqi qanunların bayraqdarı olan Quran zühur edir və insanları sədaqətə, əmanətdarlığa, qardaşlığa, birliyə və insanlığa çağırır, bu insani keyfiyyətləri onlara xatırladır. Onları cəhalətdən elmə, zülmətdən nura, alçaqlıqdan kəramətə sövq etdirir. Bu həyat bəxş edən təlimlər və qanunlar sayəsində İslam şərqdən qərbə bütün dünyanı tutur, İslamın şövkətli mədəniyyət bayrağı dövrün mədəniyyət beşikləri sayılan diyarlarda dalğalanır.

Quranın bu qayda-qanunlarından bir neçə nümunəyə nəzər salaq.

**1- Əmanətdarlıq və ədalət:**

إِنَّ اللهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الْأَمَانَاتِ إِلَىٰ أَهْلِهَا وَ إِذَا حَكَمْتُمْ بَينَ النَّاسِ أَن تَحْكُمُوا بِالْعَدْلِ...

"Həqiqətən, Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir. İnsanlar arasında hökm çıxaranda, ədalətlə hökm çıxarın."[2]

**2- Yaxşı əməllərə göstəriş və pis əməllərə qadağa:**

إِنَّ اللهَ يَأْمُرُ بِالْعَدْلِ وَ الْإِحْسَانِ وَ إِيتَاى ذِى الْقُرْبَىٰ وَ يَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَ الْمُنكَرِ وَ الْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ.

"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumun haqqını verməyi əmr edir. Çox çirkin günahlardan, xoşagəlməz əməllərdən, zülm və həddi aşmaqdan çəkindirir. Sizə öyüd verir ki, bəlkə ibrət götürdünüz."[3]

**3- Təcavüzkarları onların etdikləri əməl ölçüsündə cavablandırmaq:**

فَمَنِ اعْتَدَىٰ عَلَيْكُمْ فَاعْتَدُوا عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَىٰ عَلَيْكُمْ...

"Buna görə də, kim sizə qarşı həddini aşsa, siz də ona qarşı həmin ölçüdə həddi aşın (cavab verin)."[4]

---

[1] İbrahim surəsi, ayə: 1.
[2] Nisa surəsi, ayə: 58.
[3] Nəhl surəsi, ayə: 90.
[4] Bəqərə surəsi, ayə: 194.

**4- İnsanların bərabərhüquqlu və üstünlük meyarlarının təqva, elm, Allah yolunda cihad və bu kimi dəyərlər olması:**

يٰأَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَ أُنْثَىٰ وَ جَعَلْنَاكُمْ شُعُوبًا وَ قَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللهِ أَتْقَاكُمْ إِنَّ اللهَ عَلِيمٌ خَبِيرٌ.

"Ey insanlar! Şübhəsiz, Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq). Bir-birinizi tanıyasınız deyə, sizi böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən Allah yanında sizin ən hörmətliniz ən təqvalınızdır (Allahdan ən çox qorxub çəkinən şəxsdir). Həqiqətən Allah çox bilən və xəbərdardır"[1]

قُلْ هَلْ يَسْتَوِى الَّذِينَ يَعْلَمُونَ وَ الَّذِينَ لَا يَعْلَمُونَ...

"De: "Məgər bilənlərlə bilməyənlər birdirlər?""[2]

وَ فَضَّلَ اللهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا.

"... Allah cihad edənlərə (evdə) oturanlardan (cihada getməyənlərdən) böyük mükafatla üstünlük əta etmişdir."[3]

**5- Hər növ istibdad və ədalətsizliyə qarşı çıxmaq:**

وَ يَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَ الْأَغْلَالَ الَّتِى كَانَتْ عَلَيْهِمْ ...

"... Və boyunlarında olan ağır yükü və zəncirləri onların boynundan götürür..."[4]

**6- Kafirlərin möminlərə başçı olmasının qadağan olması:**

وَ لَنْ يَجْعَلَ اللهُ لِلْكَافِرِينَ عَلَى الْمُؤْمِنِينَ سَبِيلًا.

"... Allah heç vaxt kafirlərin möminlərə qalib gəlmələrinə bir yol qoymayacaqdır."[5]

**7- Kafirlərə qarşı sərt və möminlərə qarşı mərhəmətli olmaq:**

مُحَمَّدٌ رَسُولُ اللهِ وَ الَّذِينَ مَعَهُ أَشِدَّاءُ عَلَى الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ ...

"Məhəmməd Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mehribandırlar."[6]

**8- Sülh və qardaşlıq:**

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ...

---

1 Hucurat surəsi, ayə: 13.
2 Zumər surəsi, ayə: 9.
3 Nisa surəsi, ayə: 95.
4 Ə`raf surəsi, ayə: 157.
5 Nisa surəsi, ayə: 141.
6 Fəth surəsi, ayə: 29.

“Həqiqətən bütün möminlər bir-birləri ilə qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşdüyü vaxt) iki qardaşınızın arasını düzəldin...”[1]

**9- Vəhdətə çağırış:**

وَ اعْتَصِمُوا بِحَبْلِ اللهِ جَمِيعًا وَ لَا تَفَرَّقُوا...

“Hamılıqla Allah ipindən yapışın və dağılmayın...”[2]

**10- Allahın nemətlərindən bəhrələnmək:**

قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللهِ الَّتِى أَخْرَجَ لِعِبَادِهِ وَ الطَّيِّبَاتِ مِنَ الرِّزْقِ ...

“De: “Allahın Öz bəndələri üçün yaratdığı zinəti və pak ruziləri kim haram etmişdir?!””[3]

**11- Əhd-peymana, bağlanılan müqaviləyə vəfa etmək:**

يٰأَيُّهَا الَّذِينَ ءَامَنُوا أَوْفُوا بِالْعُقُودِ...

“Ey iman gətirənlər! Əhd-peymanlara vəfa edin!”[4]

**12- Dində çətinliyin olmaması:**

هُوَ اجْتَبَاكُمْ وَ مَا جَعَلَ عَلَيْكُمْ فِى الدِّينِ مِنْ حَرَجٍ ...

“O (Allah) sizi seçdi və dində sizin üçün heç bir çətinlik və məşəqqət qoymadı.”[5]

**13- İnsandan qüvvəsi çatan işin tələb olunması:**

لَا يُكَلِّفُ اللهُ نَفْسًا إِلَّا وُسْعَهَا...

“Allah heç bir kəsin boynuna güc və quvvəsindən artıq vəzifə qoymur.”[6]

**14- Dini ixtiyari olaraq qəbul etmək:**

لَا إِكْرَاهَ فِى الدِّينِ...

“Dində məcburiyyət yoxdur.”[7]

Yuxarıda qeyd edilən qanunlar Quran maarifinin az bir hissəsidir. Quran başdan-başa şəfa, nur, rəhmət, hidayət və haqqdır. Zamanın ötməsi onun təravət və həlavətinə təsir qoymur. Quran bütün bu mütərəqqi qanunları əxlaqın tənəzzülə uğradığı və vəhşiliyin baş alıb getdiyi dövrdə ortaya qoymuş, həyatın müxtəlif sahələrinə, o cümlədən, iqtisadi, ictimai, siyasi, müharibə və müdafiə, hüquq, şəxsi əmlak və ümumi sərvətlər, ticarət, izdivac, talaq, irs və s. sahələrə aid qanunları ən ali bir şəkildə bəyan etmişdir.

---

[1] Hucurat surəsi, ayə: 10.
[2] Ali-İmran surəsi, ayə: 103.
[3] Ə`raf surəsi. ayə: 32.
[4] Maidə surəsi, ayə: 1.
[5] Həcc surəsi, ayə: 78.
[6] Bəqərə surəsi, ayə: 286.
[7] Bəqərə surəsi, ayə: 256.

Quranın dini maarifi yalnız yuxarıda sözügedən qayda-qanunlarda xülasələşmir. Əqidə və inanc sahəsində, o cümlədən, Allahın yeganəliyinin, nübüvvətin, imamətin, Qiyamətin, bir sözlə, "məbdə"dən "məad"a qədər hər bir dini əqidənin isbatı sağlam məntiqə uyğun tutarlı dəlillərlə Quranda açıqlanmışdır. Allahpərəstlik və tövhid, ilahi elçilərin hekayətləri və xüsusiyyətləri, Qiyamət və məad barədə olan ayələri təhrifə uğramış səmavi kitablar Tövrat və İncildə bu barədə olan mətləblərlə müqayisə etdikdə Quranın müqəddəsliyi daha çox cilvələnir.[1]

Burada Allahıtanıma mövzusuna aid bir sıra ayələrə nəzər salmağı məqsədəuyğun hesab etdik. Qurani-Kərimdə Mütəal Allah layiqi olduğu şəkildə vəsf olunmuş, hər nöqsan və eyibdən pak hesab edilmişdir:

وَ قَالُوا اتَّخَذَ اللهُ وَلَدًا سُبْحَانَهُ بَلْ لَهُ مَا فِى السَّمَاوَاتِ وَ الْأَرْضِ كُلٌّ لَهُ قَانِتُونَ.

"Onlar (Kitab əhli) dedilər: "Allah (Özü üçün) övlad götürmüşdür." O (bütün bunlardan) pakdır! Əksinə, göylərdə və yerdə olanların hamısı Onun mülküdür. Hamı Onun qarşısında təslimdir."[2]

وَ إِلٰهُكُمْ إِلٰهٌ وَاحِدٌ لَا إِلٰهَ إِلَّا هُوَ الرَّحْمَانُ الرَّحِيمُ.

"Sizin tanrınız (məbudunuz) tək olan Allahdır, Ondan başqa bir tanrı yoxdur. O, Rəhman və Rəhimdir."[3]

لَا تُدْرِكُهُ الْأَبْصَارُ وَ هُوَ يُدْرِكُ الْأَبْصَارَ وَ هُوَ اللَّطِيفُ الْخَبِيرُ.

"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri (görüb) dərk edər. O, lətifdir və (hər şeydən) xəbərdardır."[4]

هُوَ اللهُ الَّذِى لَا إِلٰهَ إِلَّا هُوَ عَالِمُ الْغَيْبِ وَ الشَّهَادَةِ هُوَ الرَّحْمَانُ الرَّحِيمُ.

هُوَ اللهُ الَّذِى لَا إِلٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللهِ عَمَّا يُشْرِكُونَ.

هُوَ اللهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَىٰ يُسَبِّحُ لَهُ مَا فِى السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ هُوَ الْعَزِيزُ الْحَكِيمُ.

"O, Ondan başqa heç bir tanrı olmayan, qeybi (gizlini) və aşkarı bilən Allahdır. O, Rəhman və Rəhimdir.

O, Ondan başqa heç bir tanrı olmayan Allahdır. Məlikdir (varlıq aləminin hökmranıdır), Qüddusdur (müqəddəsdir, hər eyibdən uzaq və pakdır), Salamdır (salamatlıq bəxş edəndir), Mömindir (amanda saxlayandır), Muhəymindir (qoruyan və hər şeyə nəzarət edəndir), Əzizdir (məğlubedilməz və izzət bəxş edəndir), Cəbbardır (şan-şövkət sahibidir), Mütəkəbbirdir (təzim olunmağa layiq və böyülük sahibidir). Allah Ona şərik qoşduqlarından pakdır.

---

[1] Tövrat və İncildə ilahi peyğəmbərlərə çox nalayiq nisbətlər, məsələn, şərab içmək, zina etmək kimi nisbətlər verilmişdir. (Müraciət edin: "əl-Bəyan", dini maarif zəminində Quranın möcüzəlikləri.)

[2] Bəqərə surəsi, ayə: 116.

[3] Bəqərə surəsi, ayə: 163.

[4] Ən`am surəsi, ayə: 103.

O, Xaliq (yaradan), Bari (yoxdan var edən), Musəvvir (surət verən) Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Ona təsbih deyir. O, yenilməz qüvvət və hikmət sahibidir."[1]

Sizcə, Allahı bu sifətlərlə tanıtdırmaq xürafi inancların əsiri olan və daşdan-ağacdan düzəltdikləri tanrılara ibadət edən bir cəmiyyətdə yaşayan fərdin düşüncələrinin məhsulu ola bilərmi?!

Sizcə, xilqətə və insan fitrətinə uyğun olan belə mütərəqqi qanunları, habelə, ən ali əqidəvi və əxlaqi təlimləri ehtiva edən bu böyük məcmuə, bu kitabın möcüzə olduğuna şahidlik etmirmi?! Məhz xilqətə və insan fitrətinə uyğun olması bu qanunların və təlimlərin həmişəliyinə zəmanət vermişdir. Bu qanunlarda və təlimlərdə insanın həm cismi, həm də ruhu nəzərə alınmışdır. İnsan, əxlaqi və mənəvi dəyərlərə söykənməklə maddi və təbii nemətlərdən bəhrələnməyə, ifrat və təfritdən kənar orta bir yola sövq edilmişdir. Həm rahiblik məzəmmət edilmiş, həm də insanın şəninin maddiyyata bağlı olmaqdan daha uca olduğu vurğulanmışdır.

Bir sözlə, Qurani-Kərim "elm" və "əməl" zəminində - yəni varlığın həqiqətlərinin təlimində, həmçinin həyatın bütün sahələrinə aid qanunların qoyulmasında - bəşərin bütün ehtiyaclarını cavablandırmışdır.

**4) Quranda ziddiyyətin olmaması:**

Quranın möcüzəvi cəhətlərindən biri – belə ki, Qurani-Kərim özü bu cəhətə işarə – bu kitabda ziddiyyətin olmamasıdır. Bildiyiniz kimi, bu səmavi kitab 23 il ərzində Məkkə və Mədinədə, gecə və gündüz vaxtlarında, müharibə meydanlarında və dinc vaxtlarda, qələbə və məğlubiyyətdə, çətinlik və rahatlıqda, bir sözlə, müxtəlif şəraitlərdə tədricən nazil olmuşdur. Digər tərəfdən də bəşər həyatının tələbi və ehtiyacı olan bütün məsələlərə toxunmuşdur. Quranda hikmətli sözlər və öyüd-nəsihətlərdən tutmuş, iqtisadi, ictimai, siyasi, tərbiyəvi, əqidəvi, mədəni məsələlər öz əksini tapmışdır. Əqli dəlillər, məsəllər və hekayətlər də Quranda çoxdur. Quranda dünya, axirət və Qiyamət barədəki məsələlər nəsihətamiz və təsiredici bir tərzdə bəyan olunmuşdur. Lakin eyni halda, bu qədər müxtəlif məsələlər arasında heç bir ziddiyyət və ixtilaf müşahidə olunmur. Əksinə, bu səmavi kitabda heyrətamiz bir həmahənglik mövcuddur. Hətta Quranda keçmiş peyğəmbərlər və ümmətlər barədə olan hekayətlər bəzən təkrarlansalar da, hər dəfə müəyyən bir cəhət açıqlanmış və hadisəyə müəyyən bir tərəfdən yanaşılmışdır, lakin eyni zamanda məsələlərin həqiqətinə heç bir xələl gəlməmişdir.

Əgər bu kitab bəşər fikrinin məhsulu olsaydı, onda ziddiyyələrə rast gəlinərdi. Çünki bu maddi dünyada insan daim naqislikdən kamilliyə doğru hərəkətdədir. Məsələn, bir əsər yazan yazıçı kiçik zaman fasiləsində öz əsərində yeni ifadələr

[1] Həşr surəsi, ayə: 22-24.

və terminlər yaradır, yaxud növbəti əsərində əvvəlki əsərindən fərqli və daha mütərəqqi fikirlər ortaya qoyur.

Qurani-Kərim özünün bu cəhəti barədə təhəddi edir, buyurur:

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْءَانَ وَ لَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا.

“Məgər onlar Quranın barəsində düşünmürlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olmuş olsaydı, mütləq onda çoxlu ziddiyyət tapardılar.”[1]

Beləliklə, belə bir məzmuna malik olan, üstəlik, dərs almayan bir fərd tərəfindən müxtəlif şəraitlərdə tədricən ərsəyə gələn bir kitabda ziddiyyət və uyğunsuzluğun olmaması bir möcüzədir.

**5) Qeybi xəbərlər:**

Qurani-Kərim həm keçmiş qövmlərin və peyğəmbərlərin əhvalatlarını nəql etmiş, həm də gələcəkdən xəbərlər vermişdir. Həm keçmiş, həm də gələcək barədə verilən xəbərlər qeybi xəbərlərdir. Qeybi xəbərlər xüsusunda olan təhəddi bir neçə ayədə bəyan edilmişdir:

تِلْكَ مِنْ أَنبَاءِ الْغَيْبِ نُوحِيهَا إِلَيْكَ مَا كُنْتَ تَعْلَمُهَا أَنْتَ وَ لَا قَوْمُكَ مِنْ قَبْلِ هٰذَا...

“Bunlar qeybi xəbərlərdəndir ki, sənə vəhy edirik. Bundan qabaq onları nə sən, nə də sənin qövmün bilirdi...”[2]

Bu xatırlatma Xanım Məryəmin (s.ə) və Yusuf peyğəmbərin (ə) hekayətində də mövcuddur.[3]

Beləliklə, Qurani-Kərimin böyük bir hissəsini təşkil edən keçmiş qövmlərin və peyğəmbərlərin hekayətləri – belə ki, Həzrət Peyğəmbər (s) belə bu hekayətlərdən xəbərdar deyildi – Qurani-Kərimin qeybi xəbərlər möcüzəsinə daxildir.

Gələcəkdən verilən qeybi xəbərlər isə diqqəti daha çox çəkir, xüsusilə də, bu xəbərlər gerçəkləşmişdir. Bu qeybi xəbərlərdən bir neçə nümunəni nəzərinizə çatdırırıq:

**a) Romalıların iranlılara qələbə çalacağı xəbəri:**

غُلِبَتِ الرُّومُ. فِى أَدْنَى الْأَرْضِ وَ هُمْ مِنْ بَعْدِ غَلَبِهِمْ سَيَغْلِبُونَ. فِى بِضْعِ سِنِينَ...

“Rumlular məğlub oldular. Ən yaxın bir yerdə. Lakin onlar məğlubiyyətlərindən sonra tezliklə qalib gələcəklər. Bir neçə il ərzində...”[4]

Qurani-Kərimin xəbər verdiyi kimi, romalıların ordusu 10 ildən az bir müddətdə iranlılara qələbə çaldılar.

**b) Müsəlmanların Bədr döyüşündə qələbə çalacaqları xəbəri:**

أَمْ يَقُولُونَ نَحْنُ جَمِيعٌ مُّنتَصِرٌ. سَيُهْزَمُ الْجَمْعُ وَ يُوَلُّونَ الدُّبُرَ.

---

[1] Nisa surəsi, ayə: 82.

[2] Hud surəsi, ayə: 49.

[3] Ali-İmran surəsi, ayə: 4; Yusuf surəsi, ayə: 102.

[4] Rum surəsi, ayə: 2-4.

“Yoxsa onlar: “Biz müttəfiq və əlbir, düşməndən (Məhəmməddən və möminlərdən) intiqam alanıq!” – deyirlər?

O ittifaq və əlbirlik tezliklə dağılacaq, onlar arxa çevirib qaçacaqlar.”[1]

Bu ayə Əbu Cəhlin Bədr döyüşündə dediyi bu sözə işarə edir:

نَحْنُ نَنْتَصِرُ الْيَوْمَ مِنْ مُحَمَّدٍ وَ أَصْحَابِهِ.

Yəni: Bu gün biz Məhəmməd və onun köməkçilərindən intiqam alacağıq.

Lakin Mütəal Allah verdiyi vədi gerçəkləşdirib, müsəlmanları qalib etdi.

“Ənfal” surəsinin 7-ci ayəsində (belə ki, bu surədə Bədr döyüşündən söz açılır) Mütəal Allah müsəlmanlara qələbə vədi verir. Halbuki, Bədr döyüşündə müsəlmanların sayı müşriklərin sayından üç dəfə az idi, döyüş təchizatları da müşriklərin təchizatından qat-qat az idi. Buna baxmayaraq, Allahın vədi gerçəkləşdi və müsəlmanlar qələbə çaldılar.

**c) Məkkəyə qələbə ilə dönüş vədi:**

إِنَّ الَّذِى فَرَضَ عَلَيْكَ الْقُرْءَانَ لَرَادُّكَ إِلَىٰ مَعَادٍ ...

“Şübhəsiz, Quranı sənə vacib buyuran Allah səni qayıdacağın yerə yenə də qaytaracaqdır.”[2]

Müfəssirlərin əksəriyyəti bu fikirdədirlər ki, “مَعَاد” sözündə Məkkə şəhəri nəzərdə tutulmuşdur ki, Peyğəmbər (s) qalib olaraq ora daxil oldu.

**ç) Quranın qorunacağı vədi:**

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَ إِنَّا لَهُ لَحَافِظُونَ.

“Həqiqətən bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, Biz onu qoruyarıq.”[3]

Kitabin altıncı hissəsində Quranın təhrifə uğramadığı barədə geniş bəhs etdik və qeyd etdik ki, digər səmavi kitablardan fərqli olaraq, Quranda heç bir “azaltma” və ya “artırma” təhrifi baş verməmişdir.

**d) İslam dininin digər dinlərə qələbə çalacağı xəbəri:**

هُوَ الَّذِى أَرْسَلَ رَسُولَهُ بِالْهُدَىٰ وَ دِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَ لَوْ كَرِهَ الْمُشْرِكُونَ.

“Müşriklərə xoş gəlməsə belə, bütün dinlərə qalib etmək üçün Öz Peyğəmbərini hidayət və haqq din ilə göndərən Odur.”[4]

Bu ayə Quranda 3 dəfə təkrar olunub. Bu qeybi xəbərin möcüzəliyi indiki dövrdə hər dövrdən daha çox anlaşılır. İslam dini istər dostların, istərsə də düşmənlərin etirafına görə insana həyat ümidi verən ən mükəmməl bir yol və şəriət olaraq dünyada sürətlə yayılmaqdadır.

[1] Qəmər surəsi, ayə: 44-45.
[2] Qəsəs surəsi, ayə: 85.
[3] Hicr surəsi, ayə: 9.
[4] Tövbə surəsi, ayə: 33; Fəth surəsi, ayə: 28; Səff surəsi, ayə: 9.

**6) Elmi məsələlərin bəyanı:**

Qurani-Kərim elmi məsələləri bəzən aydın şəkildə, bəzən isə dolayısı ilə - belə ki, o dövrün insanı bu məsələləri dərk etmək iqtidarında deyildi, hətta bəzi hallarda onların qəbul etdikləri məsələlərə zidd idi – bəyan etmişdir. Burada bir neçə nümunəyə nəzər salaq:

وَ أَرْسَلْنَا الرِّيَاحَ لَوَاقِحَ...

"Və külələri mayalandırıcı (tozlandırıcı) olaraq göndərdik..."[1]

İndi elm sübut etmişdir ki, bitkilər və ağaclar da mayalanır və bu, bəzi hallarda küləklər vasitəsilə həyata keçir.

Mütəal Allah başqa bir ayədə aydın şəkildə bəyan edir ki, iki əks cins təkcə heyvanlara aid deyildir, bitkilər də erkək və dişiyə ayrılır:

وَ مِنْ كُلِّ الثَّمَرَاتِ جَعَلَ فِيهَا زَوْجَيْنِ اثْنَيْنِ...

"... Hər meyvədən cüt-cüt (erkək və dişi) yaradan Odur!"[2]

سُبْحَانَ الَّذِى خَلَقَ الْأَزْوَاجَ كُلَّهَا مِمَّا تُنْبِتُ الْأَرْضُ وَ مِنْ أَنْفُسِهِمْ وَ مِمَّا لَا يَعْلَمُونَ.

"Yerin yetişdirdiklərindən, onların (insanların) özlərindən və bilmədiklərindən cütlər yaradan Allah pakdır."[3]

Yerin hərəkəti və fırlanması da xüsusi bir şəkildə bəyan olunmuşdur:

الَّذِى جَعَلَ لَكُمُ الْأَرْضَ مَهْدًا...

"O Allah ki, yeri sizin üçün beşik etdi..."[4]

Yerin beşiyə bənzədilməsi, onun həm öz oxu, həm də günəş ətrafındakı hərəkətinə işarə edir. Bu həqiqətin dolayısı ilə bəyan edilməsinin səbəbi bu idi ki, Quranın nazil olduğu dövrdə insanlar Yerin hərəkətsiz olduğunu qəbul edridilər.

Yerin kürə şəklində olması da bəzi ayələrdən əldə olunur:

فَلَا أُقْسِمُ بِرَبِّ الْمَشَارِقِ وَ الْمَغَارِبِ إِنَّا لَقَادِرُونَ.

"(Əsla belə deyil!) And içirəm məşriqlərin və məğriblərin Rəbbinə, Biz qadirik ki..."[5]

رَبُّ الْمَشْرِقَيْنِ وَ رَبُّ الْمَغْرِبَيْنِ.

"İki məşriqin və iki məğribin Rəbbidir."[6]

Əgər Yer kürə şəklində deyil, müstəvi şəklində olsaydı, bu vaxt yalnız bir məşriq (günçıxan) və bir məğrib (günbatan) olardı. Yer kürə şəklində olduğu təqdirdədir ki, Günəş ətrafında hərəkəti nəticəsində eyni bir zaman kəsimində Yer üçün bir neçə məşriq və məğrib təsəvvür olunur.

---

[1] Hicr surəsi, ayə: 22.
[2] Rə`d surəsi, ayə: 3.
[3] Yasin surəsi, ayə: 36.
[4] Zuxruf surəsi, ayə: 10.
[5] Məaric surəsi, ayə: 40.
[6] ər-Rəhman surəsi, ayə: 17.

**7) İncəsənət yaradıcılığı:**

Qurani-Kərimin cazibəsinin sirlərindən biri – belə ki, bu da onun möcüzəvi cəhətlərindən hesab oluna bilər – müxtəlif fikirlərin təsəvvürdə canlandırılması, səhnələşdirilməsidir. İstər təbiətin təsvirə çəkilməsində, istər dəyərlərin və rəzalətlərin, paklıqların və napaklıqların bəyanında, istər qissələrin, hekayətlərin nəqlində və məsəllərin çəkilməsində, istər Qiyamət və sorğu-sual səhnələrinin canlandırılmasında Qurani-Kərimin bu yaradıcılığı elə bir təsirediciliyə malikdir ki, bəziləri bunu Quranın sehr və ovsunu adlandırmışlar. Quranda kafirlərin dilindən nəql edilən cümlələr bu həqiqətə toxunur:

وَ قَالَ الَّذِينَ كَفَرُوا لَا تَسْمَعُوا لِهٰذَا الْقُرْءَانِ وَ الْغَوْا فِيهِ لَعَلَّكُمْ تَغْلِبُونَ.

“Küfr edənlər dedilər: “Bu Qurana qulaq asmayın və (oxunan zaman) ona mənasız sözlər atın ki, bəlkə qalib gəldiniz.”[1]

Onların belə deməklərinin səbəbi bu idi ki, Quran ayələrinə bircə dəfə qulaq asmaq inkarçıların təslim olmalarına kifayət edirdi. Söz yox ki, Quranın bu incəsənət yaradıcılığını, onun incəliklərini və zərifliklərini düzgün dərk etmək ərəb ədəbiyyatını mükəmməl bilməyin, eləcə də, incəsənət sahələri ilə tanışlığın sayəsində mümkündür. Yalnız bu təqdirdədir ki, Quran ayələrinin mənası üzərində düşünmək və bu yaradıcılığı nəzərə almaqla Quranın gözəlliyi dərk oluna bilər.

Qeyd etməliyik ki, Quranın bu möcüzəvi cəhətinə indiyədək Quran alimləri və tədqiqatçıları az əhəmiyyət vermiş, az sayda tədqiqatçılar bu sahədə araşdırmalar aparmışdır. Biz burada Qurani-Kərimin təsəvvürdə canlandırdığı fikirlərdən bir neçə nümunəni “ət-Təsvirul-fənni fil-Quran”[2] əsərinin “Quranda incəsənət yaradıcılığı” adı ilə olan tərcüməsinə[3] istinadən qeyd edirik. Ümid edirik ki, əziz oxucular Quran ayələrinin məna və məzmununa diqqət yetirməklə yanaşı, sözükeçən cəhəti nəzərə alaraq Quranın bu zəmindəki möcüzəliyini daha aydın görəcəklər.

Seyid Qütb bu barədə yazır:

Qurani-Kərim bir fikri və ya mücərrəd bir mənanı ifadə edərkən, yaxud bir mənəvi vəziyyəti və ya sifəti, bir insan örnəyini, bir hadisəni və əhvalatı, Qiyamət səhnələrindən bir səhnəni, nemətlərdən və ya acınacaqlı əzablardan bir mənzərəni vəsf edərkən, yaxud dəlil-sübut gətirdiyi vaxt bir məsəl çəkərkən və ya dəlil-sübut gətirərkən hiss oluna və ya təsəvvür oluna bilən reallıqlara istinad etmişdir...[4]

وَ مَثَلُ الَّذِينَ كَفَرُوا كَمَثَلِ الَّذِى يَنْعِقُ بِمَا لَا يَسْمَعُ إِلَّا دُعَاءً وَ نِدَاءً صُمٌّ بُكْمٌ عُمْىٌ فَهُمْ لَا يَعْقِلُونَ.

“Kafirlərin məsəli, səs və haraydan başqa bir şey eşitməyən heyvanı haraylayanın məsəli kimidir. (Onlar) kar, lal və kordurlar, ona görə də düşünmürlər.”[5]

---

[1] Fussilət surəsi, ayə: 26.
[2] Seyid Qütbün əsəri.
[3] Dr. Məhəmmədmehdi Fuladvəndin tərcüməsi.
[4] Quranda incəsənət yaradıcılığı, s.45.
[5] Bəqərə surəsi, ayə: 171.

Ayədə çəkilən məsəl bizim təsəvvürümüzdə bu səhnəni canlandırır: bir dəstə insan icabət ümidi ilə yalvarışlı əllərini o şeylərə açmışlar ki, bu, onların son dərəcə kor, kar və lal olduqlarını göstərir. Həm çağırış puçdur, həm də icabət qeyri-mümkündür: onun özü yolu azıbdır, o kimə yol göstərəcək?![1]

Başqa bir təsvirə diqqət yetirin:

وَ اعْتَصِمُوا بِحَبْلِ اللهِ جَمِيعًا وَ لَا تَفَرَّقُوا وَ اذْكُرُوا نِعْمَتَ اللهِ عَلَيْكُمْ إِذْ كُنْتُمْ أَعْدَاءً فَأَلَّفَ بَيْنَ قُلُوبِكُمْ فَأَصْبَحْتُمْ بِنِعْمَتِهِ إِخْوَانًا وَ كُنْتُمْ عَلَىٰ شَفَا حُفْرَةٍ مِنَ النَّارِ فَأَنْقَذَكُمْ مِنْهَا كَذَٰلِكَ يُبَيِّنُ اللهُ لَكُمْ ءَايَاتِهِ لَعَلَّكُمْ تَهْتَدُونَ.

"Hamılıqla Allah ipindən yapışın və dağılmayın. Allahın sizə verdiyi nemətləri xatırlayın, o zaman ki, bir-birinizə düşmən idiniz və O, sizin qəlblərinizi birləşdirdi, beləcə, Onun neməti sayəsində bir-birinizə qardaş oldunuz. Siz od üçurumunun astanasında idiniz və O, sizi ondan (bu uçuruma yuvarlanmaqdan) xilas etdi. Allah Öz nişanələrini sizin üçün bu cür bəyan edir ki, bəlkə hidayət olasınız."[2]

Ayədə işlənən "Siz od üçurumunun astanasında idiniz" ifadəsinə diqqət yetirin. Əgər bir rəssam bu təsviri əlvan boyalarla kətan üzərində canlandırsa, necə də təsiredici bir rəsm tablosu yaranar! Lakin Qurani-Kərim bir neçə söz ilə bu tablonu bizim təsəvvürümüzdə canlandırır. Bu ifadədə dəqiq bir təsvirə diqqət yetirin: Od uçurumunun astanasında dayanan bir dəstə insana qəfildən Allahın neməti nazil olur və onları küfrə bürünmüş bir həyatdan əbədi bir həyata qaytarır.[3]

İndi Qiyamət, Cənnət və Cəhənnəm səhnələrinə bir nəzər salaq:

يٰأَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ إِنَّ زَلْزَلَةَ السَّاعَةِ شَىْءٌ عَظِيمٌ. يَوْمَ تَرَوْنَهَا تَذْهَلُ كُلُّ مُرْضِعَةٍ عَمَّا أَرْضَعَتْ وَ تَضَعُ كُلُّ ذَاتِ حَمْلٍ حَمْلَهَا وَ تَرَى النَّاسَ سُكَارَى وَ مَا هُمْ بِسُكَارَىٰ وَ لٰكِنَّ عَذَابَ اللهِ شَدِيدٌ.

"Ey insanlar, öz Rəbbinizdən qorxun! Həqiqətən Qiyamətin zəlzələsi çox böyük bir şeydir.

Onu gördüyünüz gün, (şahid olacaqsınız ki,) hər bir süd verən qadın körpəsinə süd verməyi unudacaq və hər bir hamilə qadın (bətnindəki) yükünü yerə qoyacaqdır. Və (həmin gün) insanları sərxoş görərsən, amma onlar sərxoş deyildirlər. Lakin Allahın əzabı şiddətlidir."[4]

Ayədə təsvir olunan qorxu və dəhşət ölçülə biləcək bir həddə deyildir. Bu səhnəni yalnız Qurani-Kərim füsunkar kəlmə və ifadələri ilə çatdıra bilər. Hətta sözbəsöz tərcümədə belə, Allah ayələrində olan qafiyələnmə və avaz tərcümədə olmadığına görə həmin ecazkarlığı duymaq olmur. Diqqəti çəkən səhnələr süd vürən və hamilə qadının qorxudan öz uşaqlarını yerə atmaları, həmçinin Allah əzabının qorxusundan insanların sərxoşlara bənzəmələridir.[5]

[1] Quranda incəsənət yaradıcılığı, s.52.
[2] Ali-İmran surəsi, ayə: 103.
[3] Quranda incəsənət yaradıcılığı, s.56.
[4] Həcc surəsi, ayə: 1-2.
[5] Quranda incəsənət yaradıcılığı, s.69.

“Duxan” surəsinin axırıncı ayələri cəhənnəmlik və cənnətliklərin məkanını elə bir şəkildə təsvir edir ki, insan bir anda özünü cəhənnəm məmurlarının və alov dilimlərinin mühasirəsində hiss edir, növbəti an isə özünü təqvalıların kənarında, ortasında çaylar axan bağların içərisində hiss edir. Biz bu bəhsin sonunda gözəl bir sonluq üçün təqvalıların və zahidlərin məkanına baş vurur, Quran ayələri ilə onların diyarına səfər edirik:

إِنَّ الْمُتَّقِينَ فِى مَقَامٍ أَمِينٍ. فِى جَنَّاتٍ وَ عُيُونٍ. يَلْبَسُونَ مِنْ سُنْدُسٍ وَ إِسْتَبْرَقٍ مُتَقَابِلِينَ. كَذٰلِكَ وَ زَوَّجْنَاهُمْ بِحُورٍ عِينٍ. يَدْعُونَ فِيهَا بِكُلِّ فَاكِهَةٍ ءَامِنِينَ. لَا يَذُوقُونَ فِيهَا الْمَوْتَ إِلَّا الْمَوْتَةَ الْأُولَىٰ وَ وَقَاهُمْ عَذَابَ الْجَحِيمِ.

“Həqiqətən təqvalılar amanda olan bir yerdə olacaqlar. Bağların və çeşmələrin arasında. Nazik və qalın ipək geyimlər geyinəcək, bir-birləri ilə üz-üzə əyləşəcəklər. Bəli, belə olacaqdır. Onları hurul-eyn ilə evləndirərik. Orada xatircəm halda bütün növ meyvələrdən istəyərlər. Orada birinci ölümdən başqa bir ölümü dadmayacaqlar və (Allah) onları cəhənnəm əzabından qoruyur.”[1]

Qurani-Məcidin hekayətlərində incəsənət yaradıcılığı, eləcə də, Quranın özünəməxsus ürəkoxşayan avazı, xüsusilə də, “fasilə”ləri bir-birinə yaxın olan kiçik surələrin avazı, hər bir surə və ayənin məzmununa müvafiq xüsusi avazın olması barədə bəhs etmək ayrıca bir kitab yazmağı tələb edir. Hal-hazırda bəzi ölkələrdə, məsələn, Misirdə Quran qariləri Quranın qiraətini öyrənməyə başlamazdan əvvəl xüsusi musiqi dərslərində iştirak edirlər ki, Quran surələrini və ayələrini onların məzmununa uyğun avazla qiraət edə bilsinlər.

**8) Quranın ədəd möcüzəliyi:**

Bəzi müasir Quran tədqiqatçıları Quranın başqa bir möcüzəvi cəhətindən bəhs etmişlər. Bu, Qurani-Kərimin ədəd möcüzəliyidir. Bu sahədə geniş araşdırma aparanlardan Dr. Rəşad Xəlifə, Əbdur-Rəzzaq Nofəl və Əbu Zəhra ən-Nəcdinin adını çəkmək olar. Əbdur-Rəzzaq Nofəlin qələmə aldığı əsərin adı “Qurani-Kərimdə ədəd möcüzəliyi”dir. Şiə məzhəbli olan Dr. Əbu Zəhra ən-Nəcdinin əsərinin adı isə “Minəl i`cazil-bəlaği vəl-ədədi lil-Quranil-Kərim”dir (Qurani-Kərimin bəlaği və ədədi möcüzəliyi).

## *Fəslin əsas mətləbləri:*

**1.** Quranın möcüzəliyi fəsahət və bəlağətdə xülasələşmir. Quranın bəzi möcüzəvi cəhətləri Quranın özündə bəyan olunmuş, onlar xüsusunda “təhəddi” mövcuddur.

**2.** Qurani-Kərimin bəzi möcüzəvi cəhətləri aşağıdakılardır:

Həzrət Peyğəmbərin (s) şəxsiyyəti, fəsahət və bəlağət (söz möcüzəliyi), ali təlimlər və maarif (məna möcüzəliyi), bu səmavi kitabda heç bir ziddiyyətin olmaması, qeybi xəbərlər, elmi məsələlər, incəsənət yaradıcılığı, ədəd möcüzəliyi.

[1] Duxan surəsi, ayə: 51-56.

**3.** Heç kimdən dərs almayan qırx yaşlı bir fərd tərəfindən başdan-başa ali maarif, öyüd-nəsihət və hikmət olan bir kitabın insanlara təqdim olunması, həqiqətən də bir möcüzədir və Mütəal Allah bu xüsusda təhəddi etmişdir.

**4.** Qurani-Kərimin ən məşhur möcüzəvi cəhəti onun fəsahət və bəlağətidir. Quranın fəsahət və bəlağəti onun özünəməxsus üslubu ilə yanaşı – belə ki, Qurani-Kərim nə nəsrdir, nə də nəzmdir – Quranı dinləyənləri və oxuyanları heyrətləndirmişdir. Alimlərdən biri "فِى الْقِصَاصِ حَيَوٰةٌ" (Sizin üçün qisasda həyat vardır) ayəsi ilə ərəblərin bu deyimini: "اَلْقَتْلُ أَنْفَىٰ لِلْقَتْلِ" (Qətli qətl aradan aparar) müqayisə edərək Quran ayəsi üçün 20 üstünlük qeyd etmişdir.

**5.** Qurani-Kərimin Allahı tanıma, peyğəmbər tanıma, Məad və başqa əqidəvi mövzularda, eləcə də, əxlaqi və tərbiyəvi mövzularda olan təlimləri, həmçinin iqtisadi, siyasi, ictimai, mədəni, hərbi, hüquqi sahələrdə qoyduğu qanunlar ən kamil təlimlər və mütərəqqi qanunlardır.

**6.** Baxmayaraq ki, Qurani-Kərim tədricən nazil olmuşdur, yəni 23 il ərzində müxtəlif zamanlarda, məkanlarda və şəraitlərdə nazil olmuşdur, eləcə də, müxtəlif və çoxsayda mövzuları əhatə edir, lakin onda heç bir ziddiyyət müşahidə olunmur. Mütəal Allah Qurani-Kərimin bu möcüzəvi cəhəti xüsusunda da təhəddi etmişdir.

**7.** Qurani-Kərimin başqa bir möcüzəvi cəhəti qeybi xəbərlərdir. Qeybi xəbərlər həm keçmişdə baş verən hadisələrə, həm də gələcəkdə baş verəcək hadisələrə şamil olur. Qeyd edək ki, Qurani-Kərimin gələcək hadisələr barədə verdiyi qeybi xəbərlər gerçəkləşmişdir.

**8.** Qurani-Kərimin bəyan etdiyi bir sıra elmi məsələlər, o cümlədən, bitkilərin küləklər vasitəsi ilə tozlanması, Yerin hərəkəti və onun kürə şəklində olması və s. son əsrlərdə bəşər elminə məlum olmuşdur. Bu da Qurani-Kərimin başqa bir möcüzəvi cəhətidir.

**9.** Hekayətlərin nəqlində, Qiyamətin, Cənnət və Cəhənnəmin təsvirində Qurani-Kərimin incəsənət yaradıcılığı heyrətləndiricidir. Bu cəhəti də bu səmavi kitabın bir möcüzəvi cəhəti hesab etmək olar.

**10.** Bəzi müasir Quran tədqiqatçıları Qurani-Kərimin başqa bir möcüzəvi cəhətindən söz açmışlar. Bu, Quranın ədəd möcüzəliyidir.

***Yeddinci hissənin sualları:***

**1.** "Ecaz" sözünün lüğəvi və terminoloji mənasını deyin.

**2.** Peyğəmbərlərin möcüzələrinin müxtəlifliyinin səbəbi nə olmuşdur?

**3.** Həzrət Peyğəmbərin (s) digər möcüzələri ilə müqayisədə Qurani-Kərimin üstünlüyü nədədir?

**4.** Təhəddi ayələrinin nüzul ardıcıllığını nəzərə alaraq, təhəddinin "azalmağa doğru", yoxsa "artmağa doğru" olduğu barədə nəzərlər düzgündür? İzah edin.

**5.** Təhəddi ayələrinə diqqət yetirməklə hansı incə mətləblər əldə olunur?

**6.** "Sərfə" nəzəriyyəsi nədir?

**7.** Həzrət Peyğəmbərin (s) şəxsiyyəti Quranın möcüzəliyinə necə dəlalət edir?

**8.** Quranın söz möcüzəliyini "Qisas" ayəsini araşdırmaqla bəyan edin.

**9.** Həyatın müxtəlif sahələrini əhatə edən qanunların qoyulmasında, əqidəvi və əxlaqi mövzuların bəyanında Quranın möcüzəliyini ixtisarla izah edin.

**10.** "Nisa" surəsinin 82-ci ayəsi Quranın hansı möcüzəvi cəhətinə işarə edir?

**11.** Quranın qeybi xəbərlərindən ikisini bəyan və izah edin.

**12.** Quranın incəsənət yaradıcılığı dedikdə, nə nəzərdə tutulur? Bu yaradıcılıq hansı zəminlərdədir?

***Araşdırma üçün suallar:***

**1.** Təhəddi ayələrinin "azalmağa doğru" olub-olmadığını araşdırın.

**2.** Quranın bənzərini yaratmaq cəhdlərindən bir neçə nümunə (ən azı üç nümunə) qeyd edin.

**3.** Bəziləri Quranın ayələrində ziddiyyətin olduğunu iddia etmişlər. Bu iddiaları araşdırın.

**4.** Qurani-Kərimdə daha hansı elmi məsələlər açıqlanmışdır?

**5.** Qurani-Kərimin ədəd möcüzəliyindən üç nümunəni yazın.

# SƏKKİZİNCİ HİSSƏ

# NASİX VƏ MƏNSUX

## Səkkizinci hissə: Nasix və mənsux

***Birinci fəsil:*** **“Nasix və mənsux” mövzusu barədə qələmə alınan əsərlər**

***İkinci fəsil:*** **“Nəsx”in lüğəvi və terminoloji mənası**

***Üçüncü fəsil:*** **“Nəsx”in şərtləri**

***Dördüncü fəsil:*** **“Nəsx”in mümkünlüyü və baş verdiyi**

***Beşinci fəsil:*** **“Nəsx”i inkar edənlərin dəlilləri**

***Altıncı fəsil:*** **“Nəsx”in qisimləri**

***Yeddinci fəsil:*** **“Nəsx” aşiqləri**

***Səkkizinci fəsil:*** **“Nasix” və “mənsux” ayələr barədə araşdırma**

## *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**Nasixul-Quranil-Əziz və mənsuxihi,** İbn Barizi; **ən-Nasixu vəl-mənsux,** İbn Həzm Əndəlusi; **Mənahilul-irfan,** Zərqani, c.2; **ən-Nəsxu fil-Quranil-Kərim,** Dr. Mustafa Zeyd; **əl-Bəyan fi təfsiril-Quran,** Ayətullah əl-uzma Xoi; **əl-Mizan,** Əllamə Təbatəbai; **ət-Təmhid fi Ulumil-Quran,** Ayətullah Mərifət, c.2; **Məbahisun fi Ulumil-Quran,** Dr. Subhi Saleh.

# Müqəddimə

İslamın elə ilk əsrlərindən etibarən quranşünasların və fəqihlərin araşdırdıqları mövzulardan biri "nəsx" mövzusu olmuşdur.

Bəşər tərəfindən qəbul edilən qanunlarda baş verən "nəsx" ilə (yəni qanunların dəyişilməsi və yenilənməsi ilə) səmavi qanunlarda baş verən "nəsx" arasında köklü fərq vardır.

Belə ki, müasir dünyada dövlətlərin qanunverici qurumları tərəfindən qəbul edilən qanunların yenilənməsi və ya qanunlarda islahatların aparılması, əslində, həyatın müxtəlif sahələrinə aid bütün məsələləri bilməmək, yaxud bu məsələlər barədə hərtərəfli və tam məlumata sahib olmamaqdan irəli gəlir. Zaman ötdükcə müəyyən məsələlər bəşərə aydın olur, yaxud çatışmazlıqlar üzə çıxır. Beləliklə, qanunverici qurumlar qəbul etdikləri qanunlara yenidən baxış keçirib onlarda olan çatışmazlıqları, nöqsanları aradan qaldırmağa və qanunları təkmilləşdirməyə, yaxud yeni qanunlar qəbul etməyə səy göstərirlər. Başqa sözlə, əvvəlki qanunu "nəsx" edirlər. Tarix göstərir ki, ictimai, siyasi, iqtisadi, mədəni və həyatın digər sahələrinə aid qanunların qəbul edilməsində insan cəmiyyətləri keşməkeşli yollar keçmiş, bu yolda inkişaf xəttində qərar tutmuşdur.

Hər insanın xilqətində, fitrətində olan "kamilliyə can atma hissi", onu "daim axtarışda olan bir varlıq" etmişdir. Bu cəhət bəşərin üstünlüyünü çatdırmazdan öncə, onda olan ehtiyacı çatdırır. Yəni bu cəhət bu həqiqətə dəlalət edir ki, kamilliyə çatmaq üçün insanın uzun bir yol qət etməlidir. Bu həqiqət xoşa gələn olmasa da, lakin bəşər qanunlarında baş verən dəyişilmələri bununla əlaqələndirmək mümkündür. Bu deyilənlər, bəşər tərəfindən qəbul edilən qanunlarda baş verən dəyişilmələrin səbəbinin izahı idi.

Amma görəsən ilahi qanunlar necədir? Vəhy mənbəyindən verilən qanunlarda dəyişilmə baş verirmi?

Bu sualın cavabı müsbətdir. Lakin bilməliyik ki, ilahi qanunlarda baş verən dəyişilmələrin səbəb və fəlsəfəsi ilə bəşər tərəfindən qəbul edilən qanunlarda baş verən dəyişilmələrin səbəb və fəlsəfəsi arasında köklü fərq vardır. Burada qanunverici, yəni Mütəal Allah, bütün məsələləri hərtərəfli və tam bilir, lakin O, qanunları tədricən və insanların durumunu nəzərə alaraq göndərir. İnsan cəmiyyətlərinin tərəqqi və inkişaf səviyyəsi ilə onlar üçün qoyulan qanunlar arasında tam uyğunluq vardır. Kamillik nərdivanını qalxmaqdan ötrü hər bir qövm, cəmiyyət üçün xüsusi qanunlar tələb olunub.[1] İlahi şəriətlərdə, qanunlarda "nəsx"in səbəb və fəlsəfəsi məhz budur. Nəsx, həqiqətdə insan cəmiyyətlərinin zəruri tələblərinə cavab, onlar üçün həyat proqramıdır.

---

[1] Ətraflı məlumat dördüncü fəsildə veriləcəkdir.

Nəsx mövzusu ilə tanışlığın əhəmiyyəti böyük din alimlərinin kəlamlarında aydın görünməkdədir. İslam dininin "qanun kitabı" olan Qurani-Kərimin "nasix" və "mənsux"unu tanımaq təkidlə tövsiyə olunmuşdur.

Əbu Əbdurrəhman Suləmi nəql edir ki, Əli ibn Əbu Talib (ə) bir qazidən soruşur:

هَلْ تَعْرِفُ النَّاسِخَ مِنَ الْمَنْسُوخِ؟ فَقَالَ: لاَ. فَقَالَ: هَلَكْتَ وَ اَهْلَكْتَ.

"Quranın nasix və mənsuxunu tanıyırsanmı?" Qazi: "Xeyr"- dedi. O həzrət buyurdu: "Özünü də həlak etdin, başqalarını da."[1]

Başqa bir hədisdə o həzrətin "Quran qissələri" danışan bir şəxsə bu sualı verdiyini oxuyuruq. (Belə ki, birinci hədisdə "قَاضٍ" , ikinci hədisdə "قَاصٍّ" kəlməsi işlənmişdir.)

Zərkeşi "əl-Burhan", Siyuti "əl-İtqan" və Zərqani "Mənahilul-irfan"da bu hədisi belə nəql etmişlər:[2]

وَ قَدْ قَالَ عَلِيُّ بْنِ اِبِی طَالِب لِقَاصٍّ: اَتَعْرِفُ النَّاسِخَ وَ الْمَنْسُوخَ؟...

Hədislərin birində oxuyuruq: Həzrət Əli (ə) məscidə daxil oldu və orada moizə edən bir şəxsi gördü. O həzrət: "Bu şəxs kimdir?"- soruşdu. Dedilər: "O, camaata moizə edir və Allahı yad etməyi onlara xatırladır." Həzrət Əli (ə) buyurdu: "O, moizə edən və xatırladan deyil. O, özünü istəyən bir şəxsdir və deyir: "Mən filankəsin oğlu filankəsəm, məni tanıyın."" O şəxsi İmam Əlinin (ə) yanına gətirdilər. İmam (ə) ondan soruşdu:

اَتَعْرِفُ النَّاسِخَ مِنَ الْمَنْسُوخِ؟ قَالَ: لاَ. قَالَ: فَاخْرُجْ مِنْ مَسْجِدِنَا وَ لاَ تُذَكِّرْ فِيهِ...

"Nasix və mənsuxu tanıyırsanmı?" O şəxs : "Xeyr"- deyə cavab verdi. İmam (ə) buyurdu: "Bizim məsciddən çıx və orada moizə etmə".[3]

Ehtimal verilir ki, bu hədislərdə sözükeçən "qazi", yaxud "qissə danışan şəxs", yaxud "moizə edən şəxs" Əbu Yəhya olmuşdur. O, Əli ibn Əbu Taliblə (ə) olan söhbətini Səid ibn Əbul-Həsənə danışmışdır.[4]

Qurani-Kərimin "nasix və mənsuxu"nu tanımağın nə qədər əhəmiyyətli olduğu İmam Sadiqin (ə) Əbu Hənifədən soruşduğu sualda da aydın görünür. Şeyx Səduq "İləluş-şərayi" kitabında nəql edir:

İmam Sadiq (ə) Əbu Hənifədən soruşdu: "Sən İraq əhlinin fəqihisən?" O: "Bəli"- deyə cavab verdi. İmam (ə) soruşdu: "Nəyin əsasında fətva verirsən?" Əbu Hənifə dedi: "Allahın kitabı və Onun Peyğəmbərinin (s) sünnəsi əsasında". İmam Sadiq (ə) buyurdu: "Ey Əbu Hənifə, Allahın kitabına layiqincə və lazımınca bələdsənmi? Onun nasix və mənsuxunu tanıyırsanmı?" Əbu Hənifə: "Bəli"- deyə cavab verdi. İmam (ə) buyurdu: "Böyük bir elmin iddiasını etdin..."[5]

---

[1] Əyaşinin təfsiri, c.1, s.23; İbn Həzəm, "ən-Nasix vəl-Mənsux", s.5.
[2] əl-Burhan, c.2, s.158; əl-İtqan, c.2, s.700; Mənahilul-irfan, c.2, s.174.
[3] Mənahilul-irfan, c.2, s.174.
[4] İbni Həzəm, ən-Nasix vəl-Mənsux, s.5; ət-Təmhid, c.2, s.272.
[٥] .Safi təfsiri, c.1, s.22

## Azad mütaliə

# Birinci fəsil

### “Nasix və mənsux” mövzusu barədə qələmə alınan əsərlər

“Nasix və mənsux” mövzusu böyük əhəmiyyətə malik olduğu üçün hicri-qəməri birinci əsrdən indiyədək bu mövzuya dair geniş və saysız tədqiqat əsərləri qələmə alınmışdır.

İbn Nədim (vəfat tarixi: h.q.380 və ya 385-ci il) “Fihrist” adlı əsərində “əl-Kutubul-muəlləfətu fi nasixil-Quran və mənsuxihi” başlığı altında öz dövrünədək qələmə alınan on səkkiz əsərin adını qeyd etmişdir.[1]

Zərkeşi yazır:

Bu mövzu barədə bir çox alimlər əsər qələmə almışlar, o cümlədən: Qitadə ibn Də`amə əs-Sədusi, Əbu Ubeyd Qasim ibn Səlam, Əbu Davud Sicistani (Süleyman ibn Əş`əs), Əbu Cəfər Nəhhas, Hibətullah ibn Səlamə əz-Zərir, İbnil-Ərəbi, İbnil-Cuzi, İbnil-Ənbari, Məkki ibn Əbu Talib və başqaları.[2]

Siyuti İslam alimlərinin “nasix və mənsux” mövzusuna böyük əhəmiyyət verdikləri və bu mövzuda ayrıca əsərlər yazdıqlarını qeyd edir: “Bu mövzu barədə çox alimlər əsər yazmışlar”.[3]

“Tarix və Quran elmləri” sahəsinin tanınmış tarixçilərinin qeyd etdiklərinə görə, İslam tarixində “nasix və mənsux” mövzusu barədə ilk əsər qələmə alan şəxs Qitadə (vəfat tarixi: h.q.118-ci il) olmuşdur. Ondan sonra İmam Sadiqin (ə) səhabələrindən olan Məhəmməd ibn Saib Kəlbi (vəfat tarixi: h.q.146-cı il) bu barədə əsər yazmışdır. Daha sonra İmam Sadiqin (ə) tanınmış səhabəsi olan Məqatil ibn Süleyman (vəfat tarixi: h.q.146-cı il) bu mövzuya dair əsər qələmə almışdır. Amma onların heç birinin əsəri nəinki bizim əlimizə gəlib çatmamış, hətta böyük ehtimalla “Tarix və Quran elmləri” sahəsinin ən qədim tədqiqatçılarının da əlinə çatmamışdır. [4]

Dr. Mustafa Zeyd öz tədqiqat əsərində bir fəsli “nasix və mənsux” barədə yazılan kitabların tədqiqatına həsr etmişdir. O, bu əqidədədir ki, Şafei “nasix və

---

[1] Fihrist, İbn Nədim, Fənni-salis (birinci məqalədən).

[2] əl-Burhan, c.2, s.151-153.

[3] əl-İtqan, c.2, s.700.

[4] “Quran elmləri və mənbələrin mündəricatı” və “Nasix və mənsux” adlı məqalələr, Şeyx Mufid adına beynəlxalq konqrensin fars dilində olan məqalələri, 71-ci sayı.

mənsux” mövzusunda elmi bəhslər qələmə alan ilk şəxs olmuşdur. Lakin o, bu barədə ayrıca bir kitab yazmamışdır.

Dr. Mustafa Zeyd belə hesab edir ki, bu mövzuya dair yazılan ilk əsər Əbu Abdullah ibn Həzm Əndəlusinin (vəfat tarixi: h.q.320-ci il) “ən-Nasix vəl-mənsux” əsəridir. Digər müəlliflər aşağıdakı ardıcıllıqladır:

Əbu Cəfər Nəhhas (vəfat tarixi: h.q.338-ci il) “ən-Nasix vəl-mənsux” əsəri, Əbul-Qasim Hibətullah ibn Səlamə (vəfat tarixi: h.q.410-cu il) “ən-Nasix vəl-mənsux” əsəri, Əbdul-Qadir Bağdadi “ən-Nasix vəl-mənsux” əsəri, İbn Hilal “əl-İcaz fi nasixil-Quran və mənsuxihi”, Əbdur-Rəhman ibn Əli ibn Abdullah ibn Cuzi (h.q.510597--ci il) “Nəvasixul-Quran”, İbn Xuzeymə “əl-Muciz fin-Nasix vəl-mənsux”, Əsfərayini “ən-Nasix vəl-mənsux” əsəri.

Dr. Mustafa Zeyd bu kitabları sadaladıqdan sonra onların hər birinin özünə-məxsus cəhətlərini və metodlarını izah etmiş, onlara öz iradlarını bildirmişdir. [1]

Baxmayaraq ki, bu alimin nəzərincə “nasix və mənsux” mövzusuna dair ilk əsər qələmə alan alim Əbu Abdullah ibn Həzm Əndəlusidir, lakin bu fikir İbn Nədimin qeyd etdikləri ilə uyğun gəlmir. Ola bilsin, Dr. Mustafa Zeyd demək istəmişdir ki, “əsəri bizim əlimizə çatan ilk müəllif” İbn Həzm Əndəlusidir .

Dr. Hatəm Saleh Zamin “İbn Xuzeymə”nin adının Muzəffər ibn Hüseyn ibn Zeyd ibn Əli ibn Xuzeymə Farsi, “Əsfərayini”nin adının isə Əbu Abdullah Məhəmməd ibn Abdullah Əsfərayini olduğunu, habelə, onların tərcümeyi-halının məlum olmadığını qeyd etmişdir. [2]

Bu mövzuya dair qələmə alınan əsərlərdən Qazi Əbu Bəkr ibn Ərəbi Məafirinin “ən-Nasix vəl-mənsux fil-Quranil-Kərim” əsərinin adını çəkmək olar. Bu müəllifin vəfat tarixi h.q.546-cı il qeyd edilib.

Şərəfuddin ibn əl-Barizi adı ilə tanınan Hibətullah ibn Əbdur-Rəhim ibn İbrahim (vəfat tarixi: h.q.738-ci il) “nasix və mənsux” mövzusuna dair əsər yazan müəlliflərdən biridir. Onun əsəri “Nasixul-Quranil-Əziz və mənsuxihi” adı ilə Dr. Hatəm Saleh Zaminin tədqiqat əsəri olaraq çap edilmişdir.

Şiə müəlliflərindən Şəhabuddin Əhməd ibn Abdullah ibn Səid əl-Mutəvvicin (vəfat tarixi: h.q.836-cı il) adını çəkmək olar. O, Fəxrul-muhəqqiq və Şəhid-Əvvəlin şagirdlərindən olmuş, bir çox əsərlərin müəllifidir. Onun qələmə aldığı “ən-Nasix vəl-mənsux” əsəri Dr. Məhəmmədcəfər İslaminin tədqiqat əsəri olaraq çap edilmişdir.

“Quran elmləri və mənbələrin mündəricatı” kitabında “nasix və mənsux” mövzusuna dair yazılan 71 kitabın və onların müəlliflərinin adı qeyd olunmuşdur.[3]

---

[1] ən-Nəsxu fil-Quranil-Kərim, c.1, s.341-395.

[2] İbn Barizi, Nasixul-Quranil-Əziz və mənsuxihi, Dr. Hatəm Saleh Zaminin araşdırması, s.7.

[3] Quran elmləri və mənbələri mündəricatı, s.369-375.

Əllamə Şeyx Ağabozorq Tehrani "nasix və mənsux" barədə şiə alimlərinin 23 əsərinin adını çəkmiş və bu əsərlərin yazılma tarixlərini də qeyd etmişdir.[1]

Müasir dövrün əhli-sünnə alimlərindən olan Dr. Mustafa Zeyd bu mövzuya dair qələmə aldığı geniş tədqiqat əsərini "ən-Nəsxu fil-Quranil-Kərim" adlandırmışdır.

Qeyd edək ki, sadalanan kitabların əksəriyyətində müəlliflər əvvəlcə "nəsx" məsələsənin və "nasix və mənsux"u tanımağın əhəmiyyətini vurğulamış, sonra "nəsx" üçün tərif qeyd etmiş, daha sonra "nasix", yaxud "mənsux" və yaxud bunların hər ikisinin yer aldığı surələri – "Bəqərə" surəsindən başlayaraq Quranın sonunadək - ardıcıllıqla qeyd etmiş, Quranın "nasix"lərini müəyyən etmişlər.

## *Fəslin əsas mətləbləri:*

**1.** İslamın elə ilk əsrlərindən etibarən quranşünasların və fəqihlərin araşdırdıqları mövzulardan biri "nəsx" mövzusu olmuş, bu mövzuda əsərlər qələmə alınmışdır.

**2.** "Nasix və mənsux" mövzusunda ilk əsər qələmə alan müəllif Qitadə olmuşdur (vəfat tarixi: h.q. 118-ci il). Lakin onun əsəri bizim əlimizə gəlib çatmamışdır.

**3.** "Nasix və mənsux" mövzusunda əsər qələmə alan başqa müəlliflər bunlardır: Qasim ibn Səlam, Əbu Davud Sicistani, Əbu Cəfər Nəhhas, Hibətullah ibn Səlamə, Əbdul-Qahir Bağdadi, İbn Hilal, İbn Cuzi, İbn Xuzeymə, Əsfərayini, İbn Barizi, Əhməd ibn Abdullah əl-Mutəvvic, Dr. Mustafa Zeyd.

[1] Əli Huccəti Kermani, "Nasix və mənsux" adlı məqalə, Şeyx Mufid adına beynəlxalq konqrensin fars dilində olan məqalələrində, 71-saylı məqalə.

# İkinci fəsil

## “Nəsx”in lüğəvi və terminoloji mənası

### “Nəsx”in lüğəvi mənası

“Nəsx” sözü üçün lüğətdə müxtəlif mənalar qeyd olunubdur: aradan aparmaq (ازاله), dəyişdirmək (تغيير), ləğv etmək (ابطال), bir şeyi başqa bir şeyin yerində qərar vermək (چیزی را جای چیز دیگر قرار دادن).

نَسَخَ الْكِتَابَ: كَتَبَهُ عَنْ مُعَارِضِهِ.

Kitabı (o biri kitabdan) köçürüb yazdı.[1]

Cövhəri “Sihah”da yazır:

“Nəsx” iki mənada işlənmişdir: aradan aparmaq (ازاله) və dəyişdirmək (تغيير).

نَسَخَتِ الشَّمْسُ الظِّلَّ: أَزَالَتْهُ.

Günəş kölgəni aradan apardıdı.

نَسَخَتِ الرِّيحُ ءَاثَارَ الدَّار: غَيَّرَتْهَا.

Külək evin qalıqlarını (xarabalıqlarını) dəyişdirdi.

Cövhəri “bir ayənin başqa bir ayəni nəsx etməsi”ni ayənin hökmünün aradan qaldırılması mənasında olduğunu qəbul edir.

Rağib İsfahani “Mufrədat” kitabında yazır:

Nəsx, “bir şeyin ondan sonra gələn bir şey ilə aradan qaldırılması” mənasını daşıyır. Məsələn, günəşin kölgəni və ya kölgənin günəşin işığını aradan qaldırması, qocalığın cavanlığı aradan qaldırması (yəni qocalığın gəlişi ilə cavanlığın getməsi, aradan qalxması). “Nəsx” sözü bəzən “aradan aparmaq”, bəzən isə “təsbit etmək” mənasını (yəni birinci mənanın əksini) bildirir.

“Nəsxi-Quran” dedikdə, ayənin hökmünün ondan sonra gələn ayə vasitəsilə aradan qaldırılması nəzərdə tutulur. Mütəal Allah buyurur:

مَا نَنْسَخْ مِنْ ءَايَةٍ أَوْ نُنْسِهَا نَأْتِ بِخَيرٍ مِنْهَا أَوْ مِثْلِهَا.

“Hər hansı bir ayəti aradan aparsaq, yaxud unutdursaq (yaddaşlardan silsək), ondan daha xeyirlisini, yaxud onun bənzərini gətirərik.”[2]

“Nəsxi-kitab” dedikdə isə, kitabın üzünün köçürülməsi nəzərdə tutulur. Burada əvvəlki kitab aradan aparılmır, əksinə, onun surəti başqa bir yerdə

---

[1] Firuzabadi, əl-Qamusul-muhit.

[2] Bəqərə surəsi, ayə: 106.

təsbit edilir. Bu məna bəzən “استنساخ” kəlməsi ilə ifadə olunur. Mütəal Allah buyurur:

إِنَّا كُنَّا نَسْتَنْسِخُ مَا كُنْتُمْ تَعْمَلُونَ.

“Çünki Biz sizin etdiklərinizin üzünü köçürürdük”. [1]

Zərqaninin nəzərincə, “nəsx” sözü ərəb dilində iki mənada işlənmişdir:

1) Aradan aparmaq (ازاله) və məhv etmək (اعدام):

وَ مَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ وَ لَا نَبِيٍّ إِلَّا إِذَا تَمَنَّىٰ أَلْقَى الشَّيْطَانُ فِى أُمْنِيَّتِهِ فَيَنْسَخُ اللهُ مَا يُلْقِى الشَّيْطَانُ ثُمَّ يُحْكِمُ اللهُ ءَايَاتِهِ وَ اللهُ عَلِيمٌ حَكِيمٌ.

“Biz səndən əvvəl də elə bir rəsul və nəbi göndərmədik ki, o (öz kitabının ayələrini) oxuyanda şeytan onun sözlərində şübhə yaratmasın (təlqin və vəsvəsələr etməsin). Lakin Allah şeytanın təlqinlərini məhv edir, sonra Öz ayətlərini möhkəmləndirərək bərqərar edir. Allah (hər şeyi) bilən və hikmət sahibidir.”[2]

2) Bir şeyin qorunması şərti ilə onun başqa bir şeyə köçürülməsi:

“Nəsxi-kitab”, “kitabın üzünün köçürülməsi” deməkdir. “إِنَّا كُنَّا نَسْتَنْسِخُ مَا كُنْتُمْ تَعْمَلُونَ” ayəsində işlənən “نَسْتَنْسِخُ” kəlməsi də bu mənanı bildirir. Ayədə əməllərin səhifələrə və səhifələrdən başqa yerə köçürülməsi nəzərdə tutulur. [3]

“Aradan aparmaq”, “dəyişdirmək”, “ləğv etmək” və “köçürmək” mənalarının hansının “nəsx” sözünün həqiqi, hansının isə məcazi mənası olması barədə alimlər arasında fikirayrılığı vardır. Dr. Mustafa Zeyd müxtəlif fikirləri qeyd etdikdən sonra Əbul-Huseyn Bəsrinin fikirinin düzgün olduğunu qəbul edib, “Əhdi-Qədim” və “Qurani-Kərim”də işlənən bir sıra ifadələri sübut gətirir. Əbul-Huseyn Bəsrinin fikrincə, “aradan aparmaq”, “nəsx” sözünün həqiqi mənası, “köçürmək” isə onun məcazi mənasıdır.[4]

## Azad mütaliə

Usuli-fiqh alimləri və quranşünaslar “nəsx” üçün müxtəlif təriflər və şərhlər vermişlər. Müxtəlif dövrlərdə “nəsx” termini üçün verilən təriflərə nəzər salaq:

“Nasix və mənsux” mövzusunda qələmə alınan və bizə gəlib çatan ən qədim əsər İbn Həzm Əndəlusinin (vəfat tarixi: h.q. 320-ci il) əsəridir. O, “nəsx” üçün bu tərifi qeyd etmişdir:

إِنَّهُ بَيَانُ انْتِهَاءِ مُدَّةِ الْعِبَادَةِ، وَ قِيل: انْقِضَاءُ الْعِبَادَةِ الَّتِى ظَاهِرُهَا الدَّوَامُ، وَ قَالَ بَعْضُهُمْ: إِنَّهُ رَفْعُ الْحُكْمِ بَعْدَ ثُبُوتِهِ.

---

[1] Casiyə surəsi, ayə 29.

[2] Həcc surəsi , ayə: 52.

[3] Mənahilul-irfan, c.2, s.175.

[4] ən-Nəsxu fil-Quranil-Kərim, s.55-65.

Dr. Süleyman ibn İbrahim – belə ki, Əbu Cəfər Nəhhasın (vəfat tarixi: h.q. 338-ci il) “ən-Nasix vəl-mənsux” əsəri Dr. Süleyman ibn İbrahimin tədqiqat əsəri olaraq çap edilmişdir - “nəsx” barədə verilən müxtəlif tərifləri araşdıraraq, sözügedən əsərin müqəddiməsində həmin tərifləri müəlliflərin yaşadıqları tarix etibarilə ardıcıllıqla qeyd etmişdir:

1. Əbu Bəkr Cəssas (vəfat tarixi: h.q. 370-ci il):

بَيَانُ مُدَّةِ الْحُكْمِ وَ التِّلَاوَةِ.

2. Qazi Əbu Bəkr Baqilani (vəfat tarixi: h.q. 403-cü il):

هُوَ الْخِطَابُ الدَّالُّ عَلَىٰ ارْتِفَاعِ الْحُكْمِ الثَّابِتِ بِالْخِطَابِ الْمُتَقَدّم عَلَىٰ وَجْهٍ لَوْ لاهُ لَكَانَ ثَابِتًا بِهِ مَعَ تَرَاخِيهِ عَنْهُ.

Hazimi, Xətib Bağdadi (vəfat tarixi: h.q. 463-cü il), Ğəzali (vəfat tarixi: h.q. 505-ci il) və İbn Ətiyyə (vəfat tarixi: h.q. 546-cı il) bu tərifi seçmişlər.

3. Əbdul-Qahir Bağdadi (vəfat tarixi: h.q. 429-cu il):

إِنَّهُ بَيَانُ انْتَهَاءِ مُدَّةِ التَّعَبُّد.

4. Əbul-Huseyn Bəsri Mötəzili (vəfat tarixi: h.q. 436-cı il):

إزالَةُ مثل الحكم الثابت بِقَوْلٍ منقول عَنِ الله اَوْ رسُولِهِ اَوْ فِعْلٍ منقول عَنْ رَسُولِهِ مَعَ تَراخيه، على وجهٍ لَوْلاهُ لَكَانَ ثَابِتًا.

5. Məkki ibn Əbu Talib (vəfat tarixi: h.q. 438-ci il):

إزالة حكْم المنسوخ كله، بغير حرف متوسط، ببدل حكم ءاخر أو بغير بدل، فى وقت معين، فهو بيان الأزمان التى انتهى إليها العمل بالفرض الأوّل و منها ابتدأ الفرض الثّانى، الناسخ للأول.

6. İbn Həzm Zahiri (vəfat tarixi: h.q. 456-cı il):

7. Cuveyni (vəfat tarixi: h.q. 478-ci il):

8. Razi (vəfat tarixi: h.q. 606-cı il):

9. İbn Qudamə (vəfat tarixi: h.q. 620-ci il):

10. Amədi (vəfat tarixi: h.q. 631-ci il):

11. İbn Hacib (vəfat tarixi: h.q. 646-cı il):

Şatibi (vəfat tarixi: h.q. 790-cı il), Futuhi (vəfat tarixi: h.q. 972-ci il), Şəvkani (vəfat tarixi: h.q. 1250-ci il) və başqaları bu tərifi seçmişlər.

12. Qazi Bəyzavi (vəfat tarixi: h.q. 675-ci il):

13. Qərafi (vəfat tarixi: h.q. 684-cü il):

14. Əbdul-Vəhhab əs-Səbki (vəfat tarixi: h.q. 771-ci il):

15. Zərkeşi (vəfat tarixi: h.q. 794-cü il):

16. Əbu Yəhya Zəkəriyya əl-Ənsari (vəfat tarixi: h.q. 926-cı il):

Bu tərif, İbn Hacibin qeyd etdiyi tərifdir və burada təkcə "متأخّر" sözü işlənməmişdir.

17. Zərqani "nəsx" üçün bu tərifi vermişdir:

Dr. Subhi Saleh bu tərifi, "nəsx" üçün verilən əh dəqiq tərif hesab etmişdir.[1]

18. Mirza Qummi "Qəvaninul-usul" əsərində "nəsx" üçün bu tərifi qeyd edir:

19. Ayətullah əl-uzma Xoi "nəsx" üçün bu tərifi qeyd etmişdir:

20. Ayətullah Məhəmmədhadi Mərifət yazır:

21. Əllamə Təbatəbai "nəsx" üçün bu tərifi qeyd etmişdir:

## Təriflərin qeyd edilməsi iki məqsəd daşıyır:

***Birincisi,*** hicri dördüncü əsrdən indiyədək "nəsx" üçün verilən müxtəlif təriflər ilə tanış olmaqdır.

Bu tanışlıq ona görə faydalıdır ki, Dr. Mustafa Zeyd də bütün bu tərifləri diqqətlə araşdırdıqdan sonra "nəsx" üçün verilən təriflərdə üç məktəbin (cərəyanın) mövcud olduğunu bildirmişdir:

"Bəyan" (بيَان) məktəbi, "xitab" (خِطَاب) məktəbi, "rəf`" (رَفْع) məktəbi.

**"Bəyan" məktəbi:** Bu məktəbə görə "nəsx", "hökmün başa çatma müddətinin bəyanı"dır.

**"Xitab" məktəbi:** Bu məktəbin "nəsx" üçün verdiyi təriflərdə "xitab" (خِطَاب), "ləfz" (لَفْظ) və bu kimi sözlərdən istifadə edilmişdir.

**"Rəf`" məktəbi:** Bu məktəbin "nəsx" üçün verdiyi təriflərdə isə "bəyan" (بيَان) və ya "xitab" (خِطَاب) sözlərinin yerinə "rəf`i-hökm" (رَفْع حُكْم) ifadəsi işlənmişdir.

Dr. Mustafa Zeydin fikrincə, "nəsx"in tərifində bu üç məktəbin təməlini qoyanlar ardıcıllıqla Əbu Bəkr Cəssas (vəfat tarixi: h.q.370-ci il), Qazi Əbu Bəkr Baqilani (vəfat tarixi: h.q.403-cü il) və Şafeidir. [2]

Şafeidən sonra "rəf`" məktəbinin davamçıları ardıcıllıqla bu alimlərdir: Təbəri, İbn Hilal, İbn Cuzi, İbn Hacib.[3]

İbn Hacibdən sonra bir çox alimlər hicri yeddinci əsrdən bəri "rəf`" məktəbinə əqidə bəsləmişlər. Belə ki, müasir alimlərdən Zərqani, Mirza Qummi, Ayətullah-üzma Xoi, Subhi Saleh bu tərifi düzgün hesab etmişlər.

***İkincisi,*** "nəsx" üçün tərif verən alimlərin fikirləri ilə tanış olmaqdır.

Belə ki, sünni və şiə alimləri, həmçinin müxtəlif məktəblərin tərəfdarları "nəsx"in mahiyyətini öz düşündükləri kimi söz qəlbində ifadə etmişlər. Bu diqqəti

[1] Məbahisun fi Ulumil-Quran, s.26.
[2] ən-Nəsxu fil-Quranil-Kərim, s.91, 97, 99.
[3] Öncəki qaynaq, s.91-93.

daha çox son dövrün alimlərinə aid etmək olar. Çünki əvvəlki dövrlərin bəzi alimlərinin verdikləri tərif, onların fikirlərini olduğu kimi çatdırmırdı və onların özləri də bu məqamı nəzərdən qaçırırdılar.

Burada yalnız bunu deyə bilərik ki, "nəsx" üçün verilən təriflərin hər biri barədə fikir yürütmək və onlar arasından ən üstün tərifi seçmək "nəsx"in mahiyyətini və şərtlərini bilməyə bağlıdır. Bu barədə sonrakı fəsildə bəhs ediləcəkdir.

### *Fəslin əsas mətləbləri:*

**1.** Lüğətdə "nəsx" sözü üçün bir neçə məna qeyd olunub: dəyişdirmək, aradan qaldırmaq və məhv etmək, ləğv etmək, köçürmək.

**2.** "Nəsx" sözünün həqiqi mənası "aradan qaldırmaq"dır, "köçürmək" isə bu sözün məcazi mənasıdır.

**3.** "Nəsx" üçün verilən müxtəlif təriflər hicri dördüncü əsrdən indiyədək bu zəmində üç məktəbin mövcud olduğunu bildirir: "bəyan" məktəbi, "xitab" məktəbi, "rəf`" məktəbi.

**4.** "Rəf`" məktəbinin təməlini qoyan alim Şafei olmuşdur, ondan sonra Təbəri, İbn Hilal, İbn Cuzi və İbn Hacib kimi böyük alimlər onun fikrini davam etdirmişlər. İbn Hacibdən sonra bir çox alimlər hicri yeddinci əsrdən bəri "rəf`" məktəbinə əqidə bəsləmişlər. Onlardan Zərqani, Mirza Qummi, Ayətullah-üzma Xoi və Subhi Salehin adını çəkmək olar.

# Üçüncü fəsil

## "Nəsx"in şərtləri

"Nəsx"in üç sütunu (elementi) vardır: mənsux (birinci hökm), mənsuxun bihi (ikinci hökm), nasix.

Bunların da hər birinin öz şərtləri vardır.

Keçmiş alimlərin çoxu "nəsx"in həqiqətinə diqqət yetirmədiklərinə görə, onu "təxsis"ə, "təqyid"ə və s. aid etmişlər. [1]

İbn Teymiyyə deyir:

Keçmiş alimlərin nəzərində, "daha möhkəm muarizə görə bir zahiri mənanın tərk olunması", "mənsux"a daxil edilirdi. Məsələn, "ümumun təxsisi" (تخصيص عام) və "mutləqin təqyidi" (تقييد مطلق).

İbn Qəyyim deyir:

""Nasix və mənsux" dedikdə, keçmiş alimlər bəzən "hökmün ümumilikdə aradan qalxması"nı nəzərdə tuturdular, necə ki, müasir dövrün alimləri "nəsx" terminində bu mənanı nəzərdə tuturlar. Bəzən isə "təxsis vasitəsilə ümumun dəlalətinin", "təqyid vasitəsilə mutləqin dəlalətinin", "təfsir vasitəsilə zahirin dəlalətinin" aradan qalxmasını nəzərdə tuturdular. Hətta onlar "istisna", "şərt" və "sifət"i də "nəsx" adlandırırdılar, çünki "kəlamın zahiri dəlalətinin" aradan qalxması mənasını özündə daşıyır..."

Şatibi deyir:

"Keçmiş alimlərin sözlərindən əldə edirik ki, onların nəzərində "nəsx", usuli-fiqh alimlərinin izahından daha geniş mənanı əhatə edirdi. Onlar bəzən "nəsx"i "mutləqin təqyidi"nə , "ümumun təxsisi"nə və "mubhəm və mucməlin bəyanı"na da aid edirdilər, necə ki, sonrakı şəri hökm vasitəsilə əvvəlki şəri hökmün aradan qalxmasını "rəf`" (رَفْع) hesab edirdilər. Səbəb isə, bütün bunların bir mənada müştərək olmalarıdır: əvvəlki hökmün nəzərə alınmaması."[2]

Zərqani bu əqidədədir ki, "nəsx"in gerçəkləşməsi üçün 4 şərt lazımdır:

1- "Mənsux" şəri hökm olmalıdır;

2- Hökmü aradan qaldıran dəlil, "şəri dəlil" olmalıdır;

3- Hökmü aradan qaldıran dəlil (دليل رافع), əvvəlki dəlildən sonra gəlməlidir, yəni ikinci dəlil birinci dəlilə "qeydin muqəyyədə" birləşdiyi kimi birləşməməlidir;

---

[1] əl-Bəyan fi təfsiril-Quran, s.287.

[2] Nəhhas, ən-Nasix vəl-mənsux, Dr. Süleyman ibn İbrahimin müqəddiməsi, c.1, s.102-103.

4- Birinci dəlil ilə ikinci dəlil arasında “həqiqi təaruz” olmalıdır.[1]

“Nəsx”in gerçəkləşməsi üçün Zərqaninin qeyd etdiyi ilk üç şərt, onun “nəsx” üçün verdiyi tərifdə - biz bu tərifi bir qədər əvvəldə qeyd etdik - riayət olunmuşdur. O da İbn Hacib kimi bu əqidədədir ki, “nəsx” bundan ibarətdir: “رَفْعُ الْحُكْمِ الشَّرْعِى بِدَلِيلٍ شَرْعِيٍّ”.

Lakin onun verdiyi bu tərifdə “nəsx”in dördüncü şərti əldə edilmir. Odur ki, bu tərifi “nəsx” üçün mükəmməl tərif hesab etmək mümkün deyildir.

Lakin “nəsx”in gerçəkləşməsində dödüncü şərtin nə dərəcədə rol oynadığı mübahisəli məsələlərdəndir. Quranşünasların “nasix və mənsux” ayələr hesab etdikləri ayələri nəzərdən keçirdikdə görürük ki, bəzən bu iki dəlil arasınadakı təaruz “həqiqi təaruz” deyildir.[2] Başqa sözlə desək, hər iki dəlil (birinci və ikinci dəlil) “zatən bir yerə cəm ola” bilər. Bu iki dəlil arasında “tənafi”yə səbəb olan məsələ, “nəss” və “xas dəlil”in gəlməsi olmuşdur. Bu, çox dəqiq və incə məqamdır. “ət-Təmhid”in müəllifi bu məqama diqqət yetirmiş və onu “nəsx” üçün verdiyi tərifdə qeyd etmişdir.

Beləliklə, “nəsx”in gerçəkləşməsinin şərtlərindən biri, iki dəlil arasında təaruzun olmasıdır: istər bu təaruz zati və həqiqi olsun, istərsə də xas dəlil vasitəsilə olsun. Bu səbəbdən də deyə bilərik ki, bu şərtin yer almadığı təriflər mükəmməl tərif deyildir.[3]

Diqqətəlayiq məqamlardan biri də budur ki, bu iki dəlil arasında təaruz “tam və külli təaruz” olmalıdır. “Cüzi təaruz” olan yerlərdə, məsələn, “mutləq və muqəyyəd”, “umum və xas”, “mubhəm və mufəssir”, “mucməl və mubəyyin”də “nəsx” gerçəkləşmir. “Nasix və mənsux” arasındakı “təqabul”, “təzad” növündəndir, belə ki, onların bir yerə cəm olması mümkün deyildir, əksinə, biri digərinin yerini tutmalıdır.

Yuxarıda qeyd etdiyimiz məqamların bəzisində, baxmayaraq ki, təaruzun hansısa bir növü müşahidə olunur, lakin hər iki nəssin icrası mümkün olduğundan, “nasix və mənsux” bəhsi dairəsindən xaricdir.[4]

“Nəsx” ilə “təxsis” arasında oxşar cəhət vardır və bu, bəzilərini səhvə salmışdır. “Nəsx” bir növ “təxsis”dir, bu fərqlə ki, biri (yəni “nəsx”) “təxsisi-əzmani”, digəri isə (yəni “təxsis”) “təxsisi-əfradi”dir.

Zərqani deyir:

Bu ikisinin oxşarlığı bəzi alimlərin səhvə düşməsinə səbəb olmuşdur. Onların bir dəstəsi “nəsx”in “təxsis” olduğunu güman edib, şəriətdə “nəsx”in baş verdiyini inkar etmişlər. Digər bir dəstəsi isə “təxsis”ə aid olan məqamları “nəsx” qisminə daxil etmiş və əsassız olaraq Quranın mənsuxlarının sayını artırmışlar.[5]

* * *

[1] Mənahilul-irfan, c.2, s.180.

[2] Məsələn, “Bəqərə” surəsinin 234-cü və 240-cı ayələri; ətraflı məlumat üçün 10-cu fəslə müraciət edin.

[3] Quran ayələrinin bir-birilə mutəariz olmaları barədə hər növ anlaşılmazlıq və iradın aradan qalxması üçün bu kitabın beşinci fəslinə müraciət edin.

[4] Dr. Mustafa Zeyd, ən-Nəsxu fil-Quranil-Kərim; ət-Təmhid fi Ulumil-Quran, c.2, s.279.

[5] Mənahilul-irfan, c.2, s.184.

## “Mənsux” hökmün (birinci hökmün) şərtləri:

1) Mənsux hökm, “şəri hökm” olmalıdır:

Deməli, “əqli hökm”, habelə, xəbərlər və hadisələr barədə olan məsələlər, “nəsx” mövzusu əhatəsindən xaricdir. Məsələn, əgər “şəri hökm”ün gəlməsi ilə “əqli hökm”dən əldə edilən “ibaheyi-əsliyyə” aradan qalxarsa, terminoloji baxımdan buna “nəsx” deyilmir.

Bunu da qeyd etmək lazımdır ki, “şəri hökm” dedikdə, həm “təklifi”, həm də “vəz`i” hökm nəzərdə tutulur. Buna görə də “nəsx” üçün verdiyi tərifdə Ayətullah Xoinin bu mətləbi açıqlamasına lüzum yox idi.

2) Mənsux hökmdə “hökmün müəyyən bir zaman üçün olduğu” qeyd edilməməlidir:

Əvvəldə və aydın şəkildə müəyyən bir zaman üçün olduğu qeyd edilən bütün hökmlər, söz yox ki, nəzərdə tutulan zaman başa çatdıqda aradan qalxacaqdır. Bu kimi hallarda hökmün aradan qalxması, terminoloji “nəsx”in nümunələrindən hesab edilmir.

Yuxarıdakı şərt ondan ötrü qeyd edilir ki, mənsux hökmün zahirindən onun müəyyən bir zaman üçün deyil, daimi olduğu əldə edilməlidir.

Ayətullah Xoi bu əqidədədir ki, mənsux hökmün zahirindən onun daimi olduğu o təqdirdə əldə edilir ki, bu hökmdə onun müəyyən bir zaman üçün olduğuna dəlalət edən kiçik bir işarə belə olmasın. Əgər bir ayədə hökmün hansısa zamanda başa çatması ehtimalını göstərən bir işarə olarsa, bu ayə terminoloji “nəsx”ə aid edilməyəcəkdir. Elə bu səbəbdən də, Ayətullah Xoi “Bəqərə” surəsinin 109-cu və “Nisa” surəsinin 15-ci ayəsinin mənsux olduqlarını inkar etmişdir. Halbuki, çoxları bu ayələri mənsux ayələrdən hesab etmişlər.[1]

Lakin belə nəzərə çarpır ki, “nəsx”in terminində belə bir məhdudiyyət yaratmaq rəva deyildir. Çünki mühüm olan, birinci hökmdən “daimiliy”in əldə edilməsidir və bu məsələ, hökmdə birbaşa müəyyən bir zaman qeyd edilməyənədək mövcud olacaqdır. Nümunə üçün “Nisa” surəsinin 15-ci ayəsinə nəzər salaq:

فَأَمْسِكُوهُنَّ فِى الْبُيُوتِ حَتَّىٰ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللهُ لَهُنَّ سَبِيلًا.

“Onları ölüm yetişərək canlarını alana və ya Allah onlar üçün (başqa) bir yol açana qədər evlərdə saxlayın.”

Baxmayaraq ki, bu ayənin ifadələrində bu hökmün gələcəkdə aradan qalxması ehtimalı verilir, lakin təkcə ehtimal verilməsi hökmün daimiliyinə xələl gətirmir. Başqa sözlə, nə qədər ki, başqa bir hökm gəlməyibdir, bu hökm qüvvədədir və elə bu qədər terminoloji “nəsx” üçün kifayət edir.

Ayətullah Xoinin “nəsx” üçün verdiyi tərifə diqqət yetirdikdə görürük ki, onun tərifi bu şərti (yəni mənsux hökmün zahirindən “daimiliy”in əldə edilməsi) hətta

[1] əl-Bəyan, s.288-359.

onun nəzərdə tutduğu mənada belə, özündə əks etdirməmişdir. Bir daha onun verdiyi tərifə nəzər salaq:

هُوَ رَفْعُ امْرٍ ثَابِتٍ فِى الشَّرِيعَةِ الْمُقَدَّسَةِ، بِارْتِفَاعِ أَمَدِهِ وَ زَمَانِهِ، سَوَاءٌ أَكَانَ ذٰلِكَ الْاَمْرُ الْمُرْتَفَعُ مِنَ الْأَحْكَامِ الْتَكْلِيفِيَّةِ أَمِ الْوَضْعِيَّةِ...

Bu tərifdən müqəddəs şəriətdə mövcud olan hökmün zaman baxımından daimilyi şərti əsla əldə edilmir. Əksinə, "بِارْتِفَاعِ أَمَدِهِ وَ زَمَانِهِ" ifadəsi belə bir güman yaradır ki, zahirdə həmin hökm müəyyən bir zaman üçün imiş. Halbuki, onun nəzərdə tutduğu məna, tərifdən əldə edilən mənanın tam əksinədir. Terminoloji "nəsx" üçün tərif verən alimlərin heç biri "بِارْتِفَاعِ أَمَدِهِ وَ زَمَانِهِ" ifadəsini işlətməmişlər.

* * *

## "Mənsuxun bihi" hökmün (ikinci hökmün) şərtləri:

1) Zaman baxımından "mənsux"dan sonra gəlməlidir.

2) Bu hökm, "şəriət sahibi" Allah tərəfindən verilməlidir:

Odur ki, "əql" və "icma" əsasında əvvəlki hökm "nəsx" oluna bilməz. İkinci hökmün şəri dəlili yalnız "Kitab" və "sünnə"də gəlməlidir.

Bu şərtə diqqət yetirmək, bir qədər əvvəldə "nəsx" üçün qeyd etdiyimiz təriflərin çoxunda olan nöqsanı üzə çıxarır. Əgər biz, şəri təsdiqi olduğuna görə "əql" və "icma"nı "şəri dəlil" hesab ediriksə, onda bu ifadənin qeyd edildiyi bütün təriflərə irad tutmaq mümkündür:

رَفْعُ الْحُكْمِ الشَّرْعِيِّ بِدَلِيلٍ شَرْعِيٍّ مُتَأَخِّرٍ.

Təkcə Ustad Mərifətin verdiyi tərifdə "şəri dəlil" (دَلِيلٍ شَرْعِيٍّ) ifadəsi yerinə "təşri" (تَشْرِيع) ifadəsi işlənmişdir.

"Xitab" məktəbinin tərəfdarlarının tərifinə bildirilən irad aydındır. Çünki "nəsx"i aşağıdakı ifadələrlə:

رَفْعُ الْحُكْمِ الشَّرْعِيِّ بِخِطَابٍ[1] – بِخِطَابٍ مُتَرَاخٍ عَنْه[2] – اللَفْظُ الدَّالُّ عَلَى ظُهُورِ انْتِفَاء شَرْط دوام الحكم الأوَّل[3]

bəyan edən təriflərdə, terminoloji "nəsx"də "mənsuxun bihi", Məsumun (ə) "fe`l" (فِعْل) və "təqrir"inə (تَقْرِير) şamil olmayacaqdır. Çünki "xitab" sözündən başa düşülən məna, "söz"dür (قَوْل). Halbuki, "sünnə" təkcə Məsumun (ə) "söz"ü ilə xülasələşmir.

Bu səbəbdən də, "xitab" məktəbinin "nəsx" üçün verdiyi tərif mükəmməl deyildir. Çoxları elə bu səbəbə görə, verdikləri təriflərdə "طَرِيقٍ شَرْعِيّ" ifadəsindən istifadə etmişlər.

---

[1] Əbdul-Vəhhab Səbkinin tərifi.

[2] İbn Qudamənin tərifi.

[3] Cuveyninin tərifi.

3) “Mənsuxun bihi” ilə “mənsux” hökm bərabər olmalıdır. Buna görə də, bir ayənin “nəsx”ində yalnız başqa bir ayəyə və ya mütəvatir bir hədisə istinad etmək olar. Ayə, “vahid xəbər” ilə “nəsx” oluna bilməz, yaxud mütəvatir hədis və sünnə, qeyri-mütəvatir hədis ilə “nəsx” oluna bilməz. Bu şərtə diqqət yetirməmək bais olmuşdur ki, bəziləri “nəsx” bahanəsi ilə Quran ayələrinə qarşı olduqca cəsarətlə davranmış və ayənin “vahid xəbər” ilə nəsx edilməsini icazəli hesab etmişlər.[1]

* * *

## Nasixin şərti:

“Nasix” yalnız və yalnız “şəriət sahibi” Allah olmalıdır. Həzrət Peyğəmbər (s) və Məsum İmamlar (ə) hökmləri vəhy mənbəyindən alıb çatdırdıqlarına görə[2], onlara da “şəriət sahibi” ünvanı aid edilir. Qeyrilərinin isə “nəsx etmə” haqqı yoxdur.

* * *

“Nəsx”in digər şərtləri də vardır. “Nəsx”in ən mühüm və vacib şərtlərindən biri budur ki, “nəsx” yalnız “mənsux”un ləfzinə deyil, hökmünə aid olur. Başqa sözlə, müəyyən bir hökmü bəyan edən bir ayə, başqa bir ayə ilə “nəsx” olunduqda, “mənsux” ayə Quran ayələri məcmusundan silinmir. Aradan qaldırılan, ayənin özü deyil, hökmüdür. Ayənin “nəsx”ini qəbul etmək – belə ki, buna “tilavətin nəsxi” deyilir – Qurani-Kərimin təhrifini qəbul etməklə nəticələnir ki, heç bir müsəlman bunu qəbul etmir. “Nəsx”in tərifində işlənən bu ifadə:

رَفْعُ الْحُكْمِ الشَّرْعِيِّ

elə bu mətləbə dəlalət edir. Yəni “nəsx” tilavətin deyil, hökmün aradan qalxmasıdır. Lakin təəssüflər olsun ki, nasix və mənsux ayələri artırmağa rəğbət göstərən bir çox əhli-sünnə alimləri “tilavətin nəsxi”nə də etiqad bəsləmişlər. Səkkizinci fəsildə onların fikirlərini və onlara olan iradlarımızı qeyd edəcəyik.

Ayətullah Mərifətin “nəsx”üçün verdiyi dəqiq tərif belə, bu nöqsandan kənar qalmamışdır. Həmin tərifə bir daha nəzər salaq:

هُوَ رَفْعُ تَشْرِيعٍ سَابِقٍ – كَانَ يَقْتَضِى الدَّوَامَ حَسَبَ ظَاهِرِهِ – بِتَشْرِيعٍ لَاحِقٍ بِحَيْثُ لَا يُمْكِنُ اجْتِماعُهُمَا معًا...

Bu tərif  “tilavətin nəsxi”nə də şamil olur. Çünki “رَفْعُ تَشْرِيعٍ سَابِقٍ” iki şəkildə təsəvvür oluna bilər:

1) Hökmün aradan qalxması;

2) Hökmün ləfz və tilavət ilə birgə aradan qalxması.

* * *

[1] Ətraflı məlumat səkkizinci fəsildə veriləcəkdir.

[2] “Nəcm” surəsinin 3-4-cü ayələrində oxuyuruq: وَ مَا يَنْطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى.

“Bəyan” məktəbinə bu iradı bildirməklə kifayətlənirik ki, bu məktəbin verdiyi tərif həqiqətdə “muqtəzayi-nəsx”i (مقتضای نسخ) bəyan edir. Çünki hökmün zamanının başa çatmasını göstərmək üçün “bəyan”a ehtiyac vardır, yoxsa ki, “nəsx”, “bəyan” deyildir.

Bura qədər dediklərimizdən, “nəsx”in şərtlərinin aşağıdakılardan ibarət olduğunu əldə edirik:

1) “Mənsux” (birinci hökm) şəri hökm olmalıdır, əqli hökm deyil;

2) “Mənsux” hökmdə “hökmün müəyyən bir zaman üçün olduğu” qeyd edilməməlidir;

3) “Mənsuxun bihi” (ikinci hökm) zaman baxımından “mənsux”dan sonra gəlməlidir;

4) “Mənsuxun bihi” şəriət sahibi tərəfindən verilməlidir;

5) “Mənsuxun bihi” ilə “mənsux” hökm bərabər olmalıdır;

6) Birinci dəlil ilə ikinci dəlil arasında “zati təaruz” və ya “xas dəlil vasitəsi ilə təaruz” mövcud olmalıdır;

7) İki dəlil arasındakı təaruz “tam və külli təaruz” olmalıdır;

8) “Nasix” yalnız və yalnız müqəddəs şəriət sahibi olmalıdır.

## “Nəsx”in tərifi

Qeyd olunan şərtləri nəzərə alaraq, Ayətullah Mərifətin terminoloji “nəsx” üçün verdiyi tərifi - bəzi əlavələr etməklə və bəzi izahları ixtisar etməklə - mükəmməl tərif hesab etmək olar:

رَفْعُ حُكْمٍ – كَانَ يَقْتَضِى الدَّوَامَ حَسَبَ ظَاهِرِهِ – بِتَشْرِيعٍ لَاحِقٍ بِحَيْثُ لَا يُمْكِنُ اجْتِمَاعُهُمَا مَعًا إِمَّا ذَاتًا أَوْ نَصًّا.

### *Fəslin əsas mətləbləri:*

**1.** Qədim alimlər bəzən “nəsx”i “mutləqin təqyidi”nə, “ümumun təxsisi”nə və “mubhəm və mucməlin bəyanı”na da aid edirdilər, necə ki, sonrakı şəri hökm vasitəsilə əvvəlki şəri hökmün aradan qalxmasını “rəf`” (رَفْع) hesab edirdilər. Buna görə də onların nəzərincə, nasix və mənsux ayələrin sayı çox olmuşdur.

**2.** “Nəsx”in üç sütunu vardır: mənsux, mənsuxun bihi və nasix.

**3.** “Nəsx”in gerçəkləşməsi üçün səkkiz şərt tələb olunur.

**4.** “Nəsx”in dəqiq tərifi belədir:

رَفْعُ حُكْمٍ – كَانَ يَقْتَضِى الدَّوَامَ حَسَبَ ظَاهِرِهِ – بِتَشْرِيعٍ لَاحِقٍ بِحَيْثُ لَا يُمْكِنُ اجْتِمَاعُهُمَا مَعًا إِمَّا ذَاتًا أَوْ نَصًّا.

# Dördüncü fəsil

## “Nəsx”in mümkünlüyü və baş verdiyi

Qurani-Kərimin bir neçə ayəsində Quranda “nəsx”in baş verdiyi aydın bildirilir:

مَا نَنسَخْ مِنْ ءَايَةٍ أَوْ نُنْسِهَا نَأْتِ بِخَيْرٍ مِنْهَا أَوْ مِثْلِهَا...١

وَ إِذَا بَدَّلْنَا ءَايَةً مَّكَانَ ءَايَةٍ وَ اللهُ أَعْلَمُ بِمَا يُنَزِّلُ قَالُوا إِنَّمَا أَنْتَ مُفْتَرٍ...٢

يَمْحُوا اللهُ مَا يَشَاءُ وَ يُثْبِتُ وَ عِنْدَهُ أُمُّ الْكِتَابِ.٣

“Nəsx”in iki mənası var: həqiqi və məcazi.

“Nəsx”in həqiqi mənası “yeni qərarın, rəyin ortaya çıxması”dır. Bu hissəsinin müqəddiməsində qeyd etdik ki, bəşər tərəfindən yeni qanunların qəbul edilməsinin səbəbi, həyatın müxtəlif sahələrinə aid yeni məsələlərin öyrənilməsi və ya qanunların icrası zamanı çatışmazlıqların və çətinliklərin ortaya çıxmasıdır. Hər iki halda əvvəlki qanunun ləğv edilməsi və yeni qanunun qəbul edilməsi, qanunvericilərin bir sıra həqiqətlərdən xəbərsiz və məlumatsız olduqlarını göstərir.

Amma görəsən, şəriət qanunlarının qoyulmasında vəziyyət hansı şəkildədir? Görəsən, şəriət qanunlarında da dəyişilmə olurmu? Əgər sualın cavabı müsbətdirsə, bu məsələ müqəddəs şəriət sahibi Allahın mütləq elmi ilə necə uyğun gəlir?

Bildiyiniz kimi, şəri hökmlər “xeyir” və “ziyan”a tabedir. Başqa sözlə, mövcud xeyirlər və ziyanlar bəzi vaxtlar hökmlərin vacib və müstəhəb, bəzi vaxtlar isə haram və məkruh olmasını tələb etmişdir. Müqəddəs şəriət sahibi bu xeyir və ziyanları nəzərə alıb, qanun qoymuşdur. Bəzi hallarda bir işin xeyiri və ya ziyanı daimi deyildir, yəni müəyyən bir zaman kəsiminə aiddir. Aydın məsələdir ki, şəriət sahibi elə əvvəldən bu qanunu müvəqqəti qoymuşdur. Şəri hökmlərdə “nəsx”, bütün hallarda, mövcud xeyir və ziyanın məhdudluğuna qayıdır. Belə ki, bu xeyir və ziyan aradan qalxdıqda, onlar əsasında qoyulan qanun da aradan qalxır. Əlbəttə, şəriət sahibi elə əvvəldən xeyir və ziyanın müddətinin başa çatacağını, nəticədə, yeni qanunu qoyacağını bilirdi. [4]

“Nəsx”, bu mənada, həqiqi “nəsx” deyildir və qanunvericinin “xeyir” və “ziyan”ı bilməməsindən qaynaqlanmır. Əksinə, Allah qoyduğu qanunun müəyyən

---

[1] Bəqərə surəsi, ayə: 106.

[2] Nəhl surəsi, ayə: 101.

[3] Rə`d surəsi, ayə: 39.

[4] Durusun fi ilmil-usul, əl-Həlqətus-saniyə, s.301; əl-Mizan, c.12, s.346, Nəhl surəsinin 101-ci ayəsinin təfsiri.

bir zamana aid olduğunu əvvəldən bilirdi, baxmayaraq ki, insanların bu məsələdən xəbəri yox idi və onlar qanunun daimi olduğunu güman edirdilər. Lakin qanunun müddəti başa çatdıqdan sonra qanun aradan qaldırılır.[1]

Beləliklə, şəri hökmlərdə "nəsx" həqiqi mənada deyil, məcazi və zahiri mənadadır. Yəni burada "nəsx", Allahın "xeyir" və "ziyan"ı bilməməsindən qaynaqlanmır.

Deməli, şəri hökmlərdə bu mənada olan "nəsx"in baş verməsinin əqli baxımdan heç bir iradı yoxdur. "Nəsx"in baş verməsinin mümkünlüyünü inkar edənlər, əslində, "nəsx"in həqiqi və məcazi mənasını ayırd edə bilməmişlər. Bundan əlavə, "nəsx"in baş verdiyinə "nəqli dəlil" də vardır. Bundan daha üstünü, hadisənin baş verməsi, onun mümkünlüyünə ən möhkəm dəlildir.

Sonrakı fəsildə Quranda "nəsx"in baş verdiyinə bildirilən iradları qeyd edəcək, onları cavablandıracağıq.

Nəqli dəlil kimi biz yalnız Quran ayələrinə istinad etmiş, bu barədə olan saysız hədislərə toxunmamışıq. Əlbəttə, bu hissəsinin müqəddiməsində Həzrət Əlidən (ə) qeyd etdiyimiz hədis sözügedən hədislərdən biridir.

**Birinci ayə:**

مَا نَنسَخْ مِنْ ءَايَةٍ أَوْ نُنْسِهَا نَأْتِ بِخَيْرٍ مِنْهَا أَوْ مِثْلِهَا...

"Biz hər hansı bir ayəti aradan aparsaq (bir ayənin hökmünü ləğv etsək) və ya unutdursaq, ondan daha xeyirlisini və ya onun bənzərini gətirərik..."[2]

Bu ayə "nəsx"in mümkünlüyünə, hətta baş verdiyinə dəlalət edən ayələrdəndir.[3]

**İkinci ayə:**

وَ إِذَا بَدَّلْنَا ءَايَةً مَّكَانَ ءَايَةٍ وَ اللهُ أَعْلَمُ بِمَا يُنَزِّلُ قَالُوا إِنَّمَا أَنْتَ مُفْتَرٍ...

"Biz bir ayətin yerinə başqa bir ayət gətirən zaman - Allah nə nazil etdiyini daha yaxşı bilir – onlar deyərlər: "Sən ancaq yalançı və iftiraçısan.""[4]

Əllamə Təbatəbai bu barədə deyir:

Bu ayə "nəsx"ə və onun fəlsəfəsinə işarə edir, həmçinin yəhudilərin və müşriklərin Həzrət Peyğəmbərə (s) qarşı yürütdükləri ittihama cavabdır. Mütəal Allahın bu kəlamının mənası budur ki, birinci ayəni ikinci ayə ilə əvəz etdik... Müşriklər Həzrət Peyğəmbəri (s) bunda ittiham edirlər ki, sən Allaha yalan nisbət verirsən, çünki bir sözü başqa bir sözlə əvəz etmək, qərar qəbul edib sonra onu dəyişmək Allahdan uzaq olan işdir.

Allah-Təala onların cavabında buyurur:

---

1 əl-Bəyan fi təfsiril-Quran, s.280-297; ət-Təmhid, c.2, s.275.

2 Bəqərə surəsi, ayə: 106.

3 əl-Mizan, c.1, s.249-254.

4 Nəhl surəsi, ayə: 101.

بَلْ أَكْثَرُهُمْ لَا يَعْلَمُونَ.

Onlar bu dəyişikliyin həqiqətini və fəlsəfəsini bilmirlər. Allahın hökmləri, qanunları insanların məsləhəti əsasındadır. Zaman keçdikcə və vəziyyət dəyişdikcə, məsləhətlər dəyişir. Belə olduğu təqdirdə, əvvəlki məsləhət əsasında vacib olan hökm və qanun aradan qalxır, mövcud məsləhətin tələb etdiyi hökm onu əvəz edir.[1]

**Üçüncü ayə:**

يَمْحُوا اللهُ مَا يَشَاءُ وَ يُثْبِتُ وَ عِنْدَهُ أُمُّ الْكِتَابِ.

"Allah istədiyini məhv edir və istədiyini təsbit edir. Ummul-Kitab (əsas kitab, ana kitab) Onun yanındadır."[2]

Əllamə Təbatəbai bu ayənin təfisirində yazır:

Ayənin mənası budur ki, Allahın hər bir zamanda bir kitabı və hökmü (yəni "qəza"sı) vardır. O, bu kitab və hökmlərdən istədiyini məhv edir, istədiyini təsbit edir. Yəni bir dönəmdə sabit olan hökmü başqa bir dönəmdə dəyişir və bu hökmün yerinə başqa bir hökm qoyur. Amma Allahın dəyişməz hökmləri də vardır ki, məhv və təsbit olunmur. Bu, Ummul-Kitabdır. Ummul-Kitab bir kök və əsasdır ki, bütün hökmlər ora qayıdır və ondan qaynaqlanır.

Əllamə Təbatəbainin nəzərində bu ayə təkcə şəriət hökmlərinin "nəsx"inə aid deyildir, bütün hadisələrə şamil olur.[3]

## *Fəslin əsas mətləbləri:*

**1.** "Nəsx" iki mənası var: həqiqi və məcazi. "Nəsx"in həqiqi mənası "yeni qərarın zühuru, yəni ortaya çıxması"dır, məcazi mənası isə "yeni qərarın izharı, yəni aşkara çıxması"dır.

**2.** Quran ayələrində və hədislərdə sözükeçən "nəsx", məcazi mənadadır.

**3.** Bəziləri "nəsx"in iki mənada işləndiyini nəzərə almadıqları üçün Mütəal Allah barədə "nəsx"in həqiqi mənada mümkünlüyünü ağlasığmaz hesab edərək, "nəsx"in mümkünlüyünü və baş verdiyini inkar etmişlər.

**4.** "Rə`d" surəsinin 39-cu ayəsi "bəda"ya dəlalət edir və bu, bir növ yaradılışda olan "nəsx"dir.

---

[1] əl-Mizan, c.12, s.345-346.

[2] Rə`d surəsi, ayə: 39.

[3] əl-Mizan, c.11, s.375-377. Bu ayənin "bəda"ya dəlalət edən ayələrdən olduğu hesab edilir. "Bəda" bir növ "nəsx"dir və "təkvini işlər"də (yəni yaradılışda) baş verir. Lakin "nəsx" "təşri`i işlər"ə aiddir. Bu məsələ "Quran elmləri"nin əsas məsələlərindən deyil, lakin kəlam elminin mühüm məsələlərindən hesab olunur. Şiə kəlam elminin "bəda" məsələsini qəbul etməsi və bu barədə bir çox hədislərin nəql olunması əhli-sünnənin kəskin etirazına səbəb olmuşdur. Söz yox ki, bu etirazın əsas səbəbi, nəzərdə tutulan "bəda"nın mənasını bilməməkdən irəli gəlmişdir.
Biz burada bu məsələni açıqlamaqdan daşındıq və maraqlananlara bu kitablara müraciət etməyi tövsiyə edirik: Ayətullah Xoinin "əl-Bəyan" kitabı, Şəhid Mutəhhərinin "İnsan və tale" kitabı.

# Beşinci fəsil

## Azad mütaliə

### “Nəsx”i inkar edənlərin iradları

Bu fəsildə “nəsx”i inkar edənlərin və ya şəriətdə “nəsx”in baş verdiyinə irad tutanların başlıca iradlarını nəzərinizə çatdıracağıq.

***Birinci irad:*** Şəri qanunlarda “nəsx”, əvvəlcədən məlum olmayan bir məsləhətin, xeyirin məlum olması və yeni qərarın, rəyin ortaya çıxmasıdır ki, bu da Mütəal Allah barəsində təsəvvürolunmazdır. Çünki Allahın elmi əzəlidir, Onun elmində dəyişilmə və yeni qərarın, rəyin ortaya çıxması qəbulolunmazdır.

***Cavab:*** Onlar elə güman etmişlər ki, şəri qanunlarda “nəsx”, nəsxin həqiqi mənasındadır. Halbuki, bir qədər əvvəldə izah etdik ki, şəri qanunlarda “nəsx”, məcazi və zahiri mənadadır.

***İkinci irad:*** Qurani-Kərimdə mənsux ayələrin olması mükəlləfləri (yəni üzərinə şəri vəzifələr düşən fərdlər) səhvə sala bilər. Çünki onlar bu ayələri “möhkəm ayələr” hesab edib ona əməl edə və ya onun mənasını qəbul edə bilərlər. Bu məsələ səhvə, yanlışlığa salmaqdır və Mütəal Allah barədə təsəvvürolunmazdır.

***Cavab:*** Qeyd etdik ki, əvvəlki şəri hökmün sonrakı şəri hökm vasitəsilə “nəsx” olunması, hansısa bir məsləhət əsasındadır. Mükəlləflər bilirlər ki, Qurani-Kərimdə “nasix və mənsux”, “ümum və xas”, “mütləq və müqəyyəd”, “möhkəm və mütəşabih” ayələr vardır. Ona görə də, bir ayəni götürüb, onun hansı ayələr qismindən olduğunu araşdırmamış ona əməl etməkdə tələsməməlidirlər. Elə bu səbəbdəndir ki, Həzrət Əli (ə) qazidən soruşur: “İndi ki sən fətva verirsən, Quranın nasix və mənsuxunu tanıyırsanmı?”

***Üçüncü irad:*** Qurani-Kərimdə “nasix və mənsux” ayələrin olduğunu qəbul etmək Quran ayələri arasında ziddiyyəti qəbul etməyi tələb edir. Bu isə Allahın aşağıdakı kəlamına ziddir:

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْءَانَ وَ لَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا.

“Məgər onlar bu Quran (onun ayələrinin mənası) barəsində düşünmürlər? Əgər o, Allahdan qeyrisi tərəfindən olmuş olsaydı, şübhəsiz, onda çoxlu ziddiyyət tapardılar.”[1]

[1] Nisa surəsi, ayə: 82.

***Cavab:*** Yuxarıdakı ayədə sözükeçən "ziddiyyət", həqiqi ziddiyyətdir. Lakin "nasix və mənsux" ayələrdə mövcud olan ziddiyyət, ayələrin mənaları arasındakı ziddiyyət deyildir. Məntiq alimləri "ziddiyyət və tənaquz" üçün "səkkiz vəhdət"i şərt hesab etmişlər, o cümlədən, "zaman vəhdəti" bu şərtlərdən biridir. Bu "vəhdət"lərdən biri dəyşildiyi təqdirdə artıq ziddiyyət və tənaquz mövcud olmayacaqdır. "Nasix və mənsux"da "zaman fərqliliyi", bundan daha mühüm "hökmün meyarının fərqliliyi" mövcuddur. Bu məsələlərə diqqət yetirdikdə aydın olur ki, "nasix və mənsux" arasındakı ziddiyyət zahiridir.

***Dördüncü irad:*** "Nəsx" olunan ayələri Quranda qeyd etməyin və yazmağın faydası nədir? Hökmü aradan qaldırılmış ayələrin Quranda yazılmasında məqsəd, illər və əsrlər boyu müsəlmanların və qarilərin bu ayələri oxumasıdırmı?

***Cavab:*** Əgər Quran ayələrinin nazil olmasının faydası və hədəfi, təkcə şəriət hökmünü çatdırmaq olsaydı, bu irad doğru ola bilərdi. Lakin bilməlisiniz ki, şəriət hökmünü çatdırmaq, Quran ayələrinin nazil olmasında nəzərdə tutulan hədəflərdən biridir. Quranın çox ayələri, ümumiyyətlə şəriət hökmünü ehtiva etmir. Quranşünaslar bu inancdadırlar ki, "ehkam ayələri" beş yüz ayədən artıq deyildir.

Quran ayələrinin nazil olmasında əsas hədəf, "bəşəri hidayət etmək"dir.

Bəzi ayələrdə bəyan olunan hökm aradan qaldırılsa da, lakin onun "möcüzəlik" və "təhəddi" cəhəti qüvvədədir.

Səkkizinci fəsildə "nasix və mənsux" ayələri nəzərinizə çatdırdıqda görəcəksiniz ki, mənsux ayələr nasix ayələrin mənasını başa düşməkdə çox böyük əhəmiyyətə malikdir. Bir çox hallarda nasix ayənin hökmü dəqiqliklə mənsux ayənin hökmü əsasındadır. Odur ki, Quranda nasix ayənin qeyd olunması zəruridir. "Zinakar qadının cəzası" və "nəcva" ayələrinə müraciət etdikdə, bu məsələ sizə aydın olacaqdır.

Başqa bir mühüm məsələ də budur ki, Quranda mənsux ayələrin qeyd olunması şəriət hökmlərinin keçdiyi mərhələləri, şəriət hökmlərinin nazil olduğu dövrdə İslam ümmətinin qabilliyini göstərir.

Qurani-Kərimdə mənsux ayələrin qeyd olunmasının başqa bir səbəbi də, bu ayələri mədəni irs ünvanında qoruyub saxlamaqdır. Dünya xalqları öz mədəni irsinin qorunmasına böyük əhəmiyyət verdikləri halda, ilahi vəhy, zahir və batini nur olan Quran ayələrini qorumaq doğru olmazdımı?!

"Nəsx"in mümkünlüyünə və baş verdiyinə dair yəhudilər, məsihilər və başqaları tərəfindən də bir sıra iradlar tutulmuşdur ki, bu iradların əsassız olduğu tam aydındır və biz onları burada qeyd etməkdən daşındıq.[1]

[1] Maraqlananlar müraciət edə bilərlər: "ət-Təmhid", c.2, s.294-297; Dr. Mustafa Zeyd, "ən-Nəsxu fil-Quranil-Kərim", s.27-52. Təəssüflər olsun ki, bu tədqiqatçının şiənin "nəsx və bəda" məsələsi barədə inancı ilə düzgün tanışlığı olmadığı üçün "nəsx və bəda"nı onun qəbulolunmaz mənasında şiəyə nisbət vermişdir. Onun bu addımı tədqiqata deyil, sırf keçmiş alimlərin fikrini təqlid etməyə söykənmişdir.

***Fəslin əsas mətləbləri:***

**1.** "Nəsx"i inkar edənlər bir neçə məsələyə istinad etmişlər, o cümlədən:

a) Şəri hökmlərdə "nəsx" dedikdə, yeni qərarın və rəyin ortaya çıxması nəzərdə tutulur. Bu isə Allah barədə təsəvvürolunmazdır.

b) Nəsx olunan ayələrin Quranda qeyd olunması (yazılması) müsəlmanları səhvə salır.

c) Quranda "nasix və mənsux" ayələrin olması Quran ayələri arasında ziddiyyəti tələb edir.

ç) Quranda mənsux ayələrin qeyd olunması faydasız bir işdir.

**2.** Yuxarıdakı iradlar "nəsx"in mənasını düzgün başa düməmək və mənsux ayələrin yazılıb saxlanılmasının fəlsəfəsini nəzərə almamaqdan irəli gəlir.

# Altıncı fəsil

## “Nəsx”in qisimləri

Quran alimlərinin əksəriyyəti Quran ayələrində “nəsx”in üç qismə ayrıldığını qeyd etmişlər:

**1) Tilavətin və hökmün nəsxi:**

Quranda “nəsx”in bu qisminin baş verdiyini iddia edənlər bu inancdadırlar ki, Quranda bəzi ayə və ya ayələr mövcud olmuş, lakin onların tilavəti hökmləri ilə birlikdə “nəsx” olmuşdur. Onların göstərdikləri nümunə, Aişədən nəql edilən hədis əsasındadır. Aişə demişdir: “Peyğəmbərə (s) nazil olan ayələrdən biri də bu idi:

عَشْرُ رَضَعَاتٍ مَعْلُومَاتٍ يُحَرِّمْنَ.

“On dəfə məlum süd vermək haramlığa bais olur.”

Bu ayə, beş dəfə süd vermə hökmü ilə nəsx oldu. Rəsulallah (s) vəfat etdikdən sonra bu ayə, hələ də, camaat arasında qiraət olunurdu.”[1]

Maraqlısı budur ki, bu ayənin aradan getməsi əhvalatını belə nəql edirlər: Bu ayənin yazıldığı səhifə Rəsulallah (s) vəfat etdiyi vaxt onun taxtının altında idi. Onlar Rəsulallahı (s) dəfn etməklə məşğul olduqları vaxt bir ev heyvanı içəri daxil olub bu səhifəni yedi.

Bu sözlərin nə qədər əsassız və gülünc olduğu, həmçinin “nəsx”in bu qisminin əsassızlığı olduqca aydındır. Şiənin bu iddianı rədd etməsinə ehtiyac belə yoxdur. Bu hədis, “vahid xəbər”dir. Onlar bu hədis vasitəsilə kimsənin məlumatı olmadığı bir ayənin mövcudluğunu, sonra yenə həmin hədis vasitəsilə bu ayənin “nəsx” olduğunu isbat etmək istəmişlər. Əhli-sünnə tədqiqatçıları belə, bu növ “nəsx”i inkar etmişlər.

Qazi Əbu Bəkr “İntisar” adlı kitabında bu növ “nəsx”in bir dəstə tərəfindən rədd edildiyini qeyd etmişdir. [2]

Sərxəsi “Usul” adlı kitabında, Cəziri və Həsən Əriz bu növ “nəsx”i qəbuledilməz hesab etmişlər.[3]

Subhi Saleh bu fikirdədir ki, bu növ “nəsx”, Quranda çox sayda “nəsx” baş verdiyini qəbul edənlərin qorxub çəkinmədən etdikləri iddiadır.[4]

Bu növ “nəsx”, Quranda təhrifin baş verdiyinə dəlalət edir.

---

[1] əl-Burhan, c.1, s.169-170; əl-İtqan, c.2, s.705; Mənahilul-irfan, c.2, s.212.

[2] əl-Burhan, c.2, s.171; əl-İtqan, c.2, s.705.

[3] ət-Təmhid, c.2, s.282-286.

[4] Məbahisun fi Ulumil-Quran, s.256.

**2) Hökmün qalması və tilavətin nəsxi:**

Yəni ayənin sözləri "nəsx" olmuş və Qurandan silinmiş, lakin ayənin bəyan etdiyi hökm qüvvədə qalmış və bu hökmə əməl olunmaqdadır. Bu növ "nəsx"i qəbul edənlər belə deyirlər: "Nur" surəsində "rəcm" adlanan bu ayə mövcud olmuşdur:

الشَّيْخُ وَ الشَّيْخَةُ اذَا زَنَيَا فَارْجِمُوهُمَا البتة نكالًا مِنَ اللهِ...

Lakin sonralar onun tilavəti "nəsx" olmuş, zinakar qoca kişi və qoca qadının daşqalaq edilməsi hökmü isə qüvvədə qalmışdır.

Başqa bir hədisdə isə, bu ayənin "Əhzab" surəsinin ayələrindən – belə ki, bu surənin ayələrinin sayı "Bəqərə" surəsinin ayələrinin sayı qədər olmuşdur - olduğu qeyd edilmişdir. [1]

Şiənin əqidəsinə görə, "nəsx"in qismi də birinci qisim kimi qəbuledilməzdir və Quranda baş verməmişdir. Bu iki qisim üçün yalnız bir-iki nümunə göstərilmişdir ki, bu hədislər də "vahid xəbər"dir. Bir halda ki, Quranın "sübut"u "təvatur" əsasındadır və onun "nəsx"i də "təvatur" əsasında olmalıdır. Ona görə də bu qəbildən olan hədislərə istinad edilə bilməz. Ayətullah Xoi bu barədə deyir:

"Quran ayəsinin "nəsx"i kimi mühüm bir hadisə əgər baş vermiş olsaydı, hökmən bu hadisənin xəbəri geniş yayılar, danışılardı. Ravinin yalanına ən aydın dəlil budur ki, başqaları bu hadisəni nəql etməmişlər..."[2]

"Nəsx"in bu qismini qəbul etmək, Quranın təhrif olunduğunu qəbul etməkdir. Quranın təhrif olunduğunu isə heç bir müsəlman qəbul etmir.

Subhi Saleh "nəsx"in bu qismini şiələr kimi kökdən qəbul etmir və öz fikrini çox gözəl bəyan edir:

"Məsələlərin qisimlərə ayrılması o vaxt düzgün olar ki, hər bir qisim üçün saysız və ya ən azı kifayət qədər nümunələr olmuş olsun. Beləcə, bu nümunələr əsasında ümumi bir qaydanı qəbul etmək mümkün olsun. Halbuki, "nəsx"in bu iki qismini qəbul edənlərin yalnız bir və ya iki nümunəsi vardır. Eyni zamanda, bu hədislər "vahid xəbər"dir. Bilirik ki, Quran ayəsinin nazil olmasına və həmçinin onun "nəsx" olmasına əmin olmaq üçün hüccət hesab olunmayan "vahid xəbər"ə əsaslanmağa icazə verilmir."[3]

**3) Hökmün nəsxi və tilavətin qalması:**

"Nəsx"in yalnız bu qismi qəbul olunur və "nasix və mənsux" barədə əsər yazan alimlər yalnız bu qisim üzərində dayanmışlar.[4]

Qurani-Kərimin bəzi ayələri "nəsx olmuş" və "nəsx" onların yalnız hökmünə aiddir. Ayənin ləfzi və tilavəti isə Quranda yazılıb qorunmaqdadır.

"Nəsx"in bu qismində üç növ "nəsx" barədə bəhs edilir:

---

[1] əl-Burhan, c.2, s.166.

[2] əl-Bəyan, s.285.

[3] Məbahisun fi Ulumil-Quran, s.265.

[4] əl-İtqan, c.2, s.706.

a) Quranın Quran ilə nəsxi;

b) Quranın mütavatir xəbər ilə nəsxi;

c) Quranın vahid xəbər ilə nəsxi.

Birinci növ “nəsx” barədə fikirayrılığı yoxdur.

İkinci növ “nəsx” barədə isə alimlər arasında fikirayrılığı vardır. Alimlərdən bir dəstəsi bu növ “nəsx”in icazəli, digər bir dəstəsi isə qadağan olduğunu söyləmişlər. Bu növ “nəsx”in icazəli olduğunu söyləyən alimlərin özü də iki dəstəyə ayrılır: Bu növ “nəsx”in baş verdiyini qəbul edənlər və baş vermədiyini qəbul edənlər.

Bu növ “nəsx”in icazəli olduğunu söyləyənlərin gətirdikləri dəlil budur ki, Quranın sünnə ilə “nəsx”i nə “biz-zat”, nə də “bil-ğeyr” qeyri-mümkün deyildir. “Biz-zat” qeyri-mümkün olmadığı aydındır. “Bil-ğeyr” də qeyri-mümkün deyildir, çünki Quran ilahi vəhy olduğu kimi, sünnə də ilahi vəhydir. Allah-Təala buyurur:

وَ مَا يَنْطِقُ عَنِ الْهَوَىٰ. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ.

“O, əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız ona vəhy olunan vəhydir.”[1]

Zərqani bu bəhsin sonunda belə nəticə çıxarır: “Quranın sünnə ilə “nəsx”inin əql və şəriət baxımından heç bir maneəsi yoxdur. Lakin bu növ “nəsx” baş verməmişdir və onun baş verdiyini qəbul edənlərin dəlilləri mükəmməl deyildir.”[2]

Ayətullah Xoi bu barədə deyir:

“Quran vasitəsilə sabit olan hökm, “mütəvatir sünnə” ilə və ya “qəti icma” ilə - belə ki, “nəsx”i Məsumun (ə) tərəfindən hökm verdiyi üzə çıxır – nəsx olur. Bu növ “nəsx”in əqli və nəqli maneəsi yoxdur. Odur ki, bu növ “nəsx” əgər müəyyən ayələr barədə sübuta yetirilsə, qəbul edirik. Əks təqdirdə, bu növ “nəsx”in baş verdiyini israrla söyləmirik.”[3]

Belə görünür ki, bu növ “nəsx” Quranda baş verməmişdir.

Lakin üçüncü növ “nəsx”, yəni Quranın “vahid xəbər” ilə “nəsx”i qəbuledilməzdir. Çünki “nasix” dəlilin şərtlərindən biri, “mənsux” dəlilə bərabər olmasıdır.

## *Fəslin əsas mətləbləri:*

**1.** Quranda “nəsx”, 3 qismə ayrılmışdır: 1- Tilavətin və hökmün nəsxi; 2- Tilavətin nəsxi və hökmün qalması; 3- Hökmün nəsxi və tilavətin qalması.

Şiə və əhli-sünnə alimləri yalnız üçüncü qismi düzgün hesab edirlər.

**2.** Qurani-Kərimdə hökmün nəsxi və tilavətin qalması üç şəkildə təsəvvür olunur: Quranın Quran ilə nəsxi, Quranın mütəvatir xəbər ilə nəsxi, Quranın vahid xəbər ilə nəsxi. Üçüncü növ “nəsx” qəbulolunmazdır. İkinci növ “nəsx” qeyri-mümkün olmasa da, lakin baş verməmişdir.

---

[1] (Nəcm surəsi, ayə: 3-4.) əl-İtqan, c.2, s.701; Mənahilul-irfan, c.2, s.237.

[2] Mənahilul-irfan, c.2, s.244.

[3] əl-Bəyan, s.286.

# Yeddinci fəsil

## Nəsx aşiqləri

Üçüncü fəsildə "nəsx"in şərtlərini açıqladıq. Altıncı fəsildə bu nəticəyə gəldik ki, "nəsx"in üç qismi arasında yalnız "hökmün nəsxi və tilavətin qalması" qismi icazəlidir. Bu qisimdə də yalnız "Quranın Quranla nəsxi" növü baş vermişdir. Bütün bunları nəzərə alaraq, Quranda nasix və mənsux ayələr az sayda olacaqdır və bu ayələri öyrənib bilmək lazımdır. Təəssüflər olsun ki, Quran alimlərinin bir çoxu – xüsusilə də, "nasix və mənsux" mövzusunda ayrıca əsər qələmə alan alimlər – "nəsx"in şərtlərini nəzərə almadan və digər qaydalara riayət etmədən "nasix və mənsux" ayələri təyin etməkdə elə mübaliğə etmişlər ki, Allahın kitabı ilə tanış olmayanlarda belə bir təsəvvür yaratmışlar: Sanki Quranda əsas qayda (ana xətt) "nəsx"dir!

Quranda "nəsx" icad etməyə vurğunluq bəzilərini özlərindən qəribə bölgülər çıxarmağa və müxtəlif tərəflərdən "Quranda nəsx" mövzusunda bəhs etməyə vadar etmişdir. Nümunə üçün aşağıdakı bölgülərə nəzər salaq:

**a) "Nasix və ya mənsux" ayələr baxımından Quran surələrinin qruplaşdırılması:**

Nəsx mövzusunda ifrata varanlar qeyd etmişlər ki, bu baxımdan Quran surələri dörd qrupa ayrılır:

1- Nasix və mənsux ayələrin olmadığı surələr (43 surə );

2- Nasix və mənsux ayələrin mövcud olduğu surələr (25 surə və "əl-Burhan"nın qeyd etdiyinə görə 31 surə);

3- Yalnız nasix ayələrin mövcud olduğu surələr (6 surə);

4- Yalnız mənsux ayələrin mövcud olduğu surələr (40 surə).[1]

Biz bu surələrin adlarını qeyd etməkdən daşındıq və burada Dr. Subhi Salehin bu dəstəyə verdiyi cavabı qeyd edirik:

"Bu bölgüdə "nəsx"in mövcud olmadığı Quran surələrinin sayı 43-dən artıq deyildır. Buna əsasən, Quranda əsas qayda "ehkam" deyil, "nəsx"dir. Yəni Quran surələrində ya nasix ayələr, ya da mənsux ayələr mövcud olmalıdır. Amma haqq budur ki, bütün Quranda əsas qayda Quranın ayələrinin "ehkamı"dır. "Nəsx"ə dəlalət edən aydın dəlillər əsasında az sayda ayələr nasix və mənsux ayələr hesab oluna bilər..."[2]

---

1 İbn Həzm Əndəlusi, ən-Nasix vəl-mənsux, s.10-12; əl-Burhan, c.2, s.164-165; əl-İtqan, c.2, s.704.

2 Məbahisun fi Ulumil-Quran, s.273.

Zərqani nasix və mənsux ayələrin sayını öz əsərlərində artıran Nəhhas, Hibətullah ibn Sələmə və bu kimi başqa alimləri qınayaraq bu nəzərin səhv olduğunu vurğulamış, onların yol verdikləri səhvin haradan qaynaqlandığını belə izah etmişdir:

"Onlar nəzərə almamışlar ki, keçmiş alimlər "nəsx" dedikdə, "nəsx"in indiki terminoloji mənasını nəzərdə tutmamışlar. Keçmiş alimlər "mucməlin bəyanı"nı, "mutləqin təqyidi"ni və s. "nasix" hesab etmişlər..."[1]

**b) "Nəsx"in eyni bir ayədə olması:**

"Nəsx" aşiqləri Quran nasixlərinin axtarışında bəzən maraqlı nəticələrə çatmışlar, məsələn:

يٰأَيُّهَا الَّذِينَ ءَامَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ لَا يَضُرُّكُمْ مَنْ ضَلَّ إِذَا اهْتَدَيْتُمْ...

"Ey iman gətirənlər, özünüzü gözləyin! Əgər siz özününz doğru yolda olsanız, yolunu azmış kəs sizə heç bir zərər yetirə bilməz..."[2] ayəsi barədə demişlər: Bu ayənin əvvəli mənsux, axırı isə nasixdir.[3]

**c) Ayənin əvvəlində və axırında "nəsx"in baş verməsi:**

İbn Ərəbi demişdir:

Qurani-Kərimdə "nəsx" ayələrinin ən maraqlısı bu ayədir:

خُذِ الْعَفْوَ وَ أْمُرْ بِالْعُرْفِ وَ أَعْرِضْ عَنِ الْجَاهِلِينَ.

"Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlarda üz döndər!"[4]

Bu ayənin əvvəli və axırı mənsux, ortası isə möhkəmdir.[5]

**ç) Nasixin nəsxi:**

"Nəsx" aşiqləri demişlər: Bəzi hallarda nasix ayənin özü nəsx olmuşdur.

Zərkeşi deyir:

Nasixin nəsxi icazəlidir və bu təqdirdə nasix mənsuxa çevrilir. Məsələn:

لَكُمْ دِينُكُمْ وَ لِىَ دِينِ.

"Sizin dininiz sizin üçün və mənim dinim mənim üçündür."[6] ayəsi bu ayə ilə nəsx olmuşdur:

فَاقْتُلُوا الْمُشْرِكِينَ...

"Müşrikləri öldürün..."[7]

Sonra bu ayə aşağıdakı ayə ilə "nəsx" oldu:

---

1 Mənahilul-irfan, c.2, s.253-254.
2 Maidə surəsi, ayə: 105.
3 Məbahisun fi Ulumil-Quran, s.264, İbn Ərəbinin dediyinə istinadən.
4 Ə`raf surəsi, ayə: 199.
5 əl-Burhan, c.2, s.171; Məbahisun fi Ulumil-Quran, s.264.
6 Kafirun surəsi, ayə: 6.
7 Tövbə surəsi, ayə: 5.

حَتَّىٰ يُعْطُوا الْجِزْيَةَ عَن يَدٍ وَ هُمْ صَاغِرُونَ...

“Onlar tam təslim və zillətlə öz əlləri ilə cizyə ödəyincəyə qədər vuruşun.”[1]

Həmçinin bu ayə:

فَاعْفُوا وَ اصْفَحُوا حَتَّىٰ يَأْتِيَ اللهُ بِأَمْرِهِ...

“Buna görə də Allahın əmri gələnə kimi (hələlik onlarla vuruşmaqdan vaz) keçin...”[2] aşağıdakı ayə ilə:

فَاقْتُلُوا الْمُشْرِكِينَ...

“Müşrikləri öldürün...”[3] “nəsx” olmuş, bu ayənin özü də bu ayə ilə:

فَاعْفُوا وَ اصْفَحُوا حَتَّىٰ يَأْتِيَ اللهُ بِأَمْرِهِ...

“Buna görə də Allahın əmri gələnə kimi (hələlik onlarla vuruşmaqdan vaz) keçin...”[4] nəsx olmuşdur.[5]

**d) Bir neçə ayənin bir “nasix” ilə nəsx olması:**

İbn Ərəbi deyir:

Bu ayə:

فَإِذَا انسَلَخَ الْأَشْهُرُ الْحُرُمُ فَاقْتُلُوا الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ...

“Beləliklə, elə ki, haram aylar sona çatdı, müşrikləri harada görsəniz öldürün...”[6] 114 ayənin nasixidir. Bu ayənin (“Tövbə” surəsinin 5-ci ayəsinin) axırı:

فَإِنْ تَابُوا وَ أَقَامُوا الصَّلَوٰةَ وَ ءَاتَوُا الزَّكَوٰةَ فَخَلُّوا سَبِيلَهُمْ إِنَّ اللهَ غَفُورٌ رَّحِيمٌ.

“Beləliklə, əgər tövbə etsələr, namaz qılsalar və zəkat versələr yollarını açın ki, həqiqətən Allah ox bağışlayan və mehribandır”, onun əvvəlinin nasixidir. [7]

## *Fəslin əsas mətləbləri:*

**1.** Qurani-Kərimdə əsas qayda “nəsx” deyil, ayələrin “ehkamı”dır. Yalnız “nəsx”ə dəlalət edən aydın dəlillər əsasında bəzi ayələrin nasix və mənsux olduğu qəbul edilir.

**2.** Quranda “nəsx”i təyin etməkdə bəzi müəlliflər elə ifrata varmışlar ki, onların nəzərində Quranın yalnız 43 surəsində nasix və mənsux mövcud deyildir.

**3.** Eyni bir ayənin əvvəlində və axırında “nəsx”in mövcud olması, nasixin “nəsx”i, çox sayda ayənin bir nasix ilə “nəsx” olması bu ifratçıların ixtiralarıdır.

---

[1] Tövbə surəsi, ayə:29.
[2] Bəqərə surəsi, ayə:109.
[3] Tövbə surəsi, ayə: 5.
[4] Bəqərə surəsi, ayə:109.
[5] əl-Burhan, c.2, s.162.
[6] Tövbə surəsi, ayə:5.
[7] əl-Burhan, c.2, s.171.

# Səkkizinci fəsil

## Nasix və mənsux ayələrin araşdırılması

"Nəsx" mövzusunda Quran alimlərinin nəzərlərini araşdırdıqda aydın olur ki, "nəsx" termininin tədricən dəqiqləşməsi nəticəsində Quran nasixlərinin əhatə dairəsi daha kiçilmiş, müasir tədqiqatçılar isə "nəsx"də ifrata varanların nəzərləri üzərinə xətt çəkmişlər. [1]

Dr. Mustafa Zeyd öz kitabında keçmiş alimlərin "nasix və mənsux" hesab etdikləri ayələrin sayı barədə yazır:

"Əbu Abdullah Məhəmməd ibn Həzm 214 ayənin, Əbu Cəfər Nəhhas 134 ayənin, İbn Sələmə 213 ayənin, İbn Cuzi 248 ayənin "nasix və mənsux" ayələrdən olduğunu hesab etmişlər."[2]

Siyuti "əl-İtqan" kitabında "nəsx"də ifrata varmağı tənqid edərək Quran ayələrində apardığı araşdırmadan sonra yalnız bir neçə ayənin "nasix və mənsux" olduğunu qeyd etmişdir. Həmin ayələr aşağıdakılardır:

"Bəqərə" surəsində 6 ayə, "Ali-İmran" surəsində 1 ayə, "Nisa" surəsində 2 ayə, "Maidə" surəsində 3 ayə, "Ənfal" surəsində 3 ayə, "Nur" surəsində 2 ayə, "Əhzab" surəsində 1 ayə, "Mucadilə" surəsində 1 ayə, "Mumtəhinə" surəsində 1 ayə, "Muzzəmmil" surəsində 1 ayə. Siyutinin nəzərində mənsux ayələrin sayı 21 ayədir və o, bir ayənin mənsux olmasında tərəddüd etmişdir. Zərqani də Siyutiyə istinad edərək bu ayələri araşdırmışdır.[3]

Dr. Subhi Saleh bu mətləbə - yəni Quran tədqiqatçılarının nəzərinə görə, Quranda mənsux ayələrin sayı azdır – toxunduqdan sonra Siyutinin nəzərinə işarə edərək deyir: "Əgər araşdırsaq görərik ki, "nəsx" olan ayələrin sayı on ayədən artıq deyildir."[4]

Ayətullah Məhəmmədhadi Mərifət öz araşdırmaları nəticəsində yalnız səkkiz ayəni mənsux ayə hesab edir və bu ayələr aşağıdakılardan ibarətdir:

"Nəcva" ayəsi, "döyüşçülərin sayı" ayəsi, "cinsi əlaqəyə icazə" ayəsi, "zinakar qadının cəzası" ayəsi, "iman vasitəsilə varislik" ayəsi, "döyüşdən vaz keçmək" ayəsi, "əhdləşmə" ayəsi, "döyüşə icazənin tədricən verilməsi" ayələri.[5]

---

1 əl-Fəvzul-kəbir fi usulit-təfsir.

2 "Quranda nasix və mənsux və Əllamənin nəzəri" əsəri, s.106-107.

3 əl-İtqan, c.2, s.708-712; Mənahilul-İrfan, c.2, s.256-270.

4 Məbahisun fi Ulumil-Quran, s.273-274.

5 ət-Təmhid, c.2, s.300-316.

Əllamə Şi`rani beş ayənin mənsux olduğunu qəbul edir. [1] Ayətullah Xoi isə yalnız bir ayəni mənsux ayə hesab edir və o da "nəcva" ayəsidir.[2]

Seyid İsmayil Sədr "nəcva" ayəsindən əlavə Ənfal surəsinin 65-ci ayəsini də mənsux ayə hesab edir.[3]

Burada biz "nasix və mənsux" ayələri əl-Mizan təfsirinə istinadən xülasə şəkildə nəzərinizə çatdırırıq:

**1) "Döyüşdən vaz keçmək" ayəsi:**

فَاعْفُوا وَ اصْفَحُوا حَتَّىٰ يَأْتِيَ اللهُ بِأَمْرِهِ...

"Buna görə də Allahın əmri gələnə kimi (hələlik onlarla vuruşmaqdan vaz) keçin..."[4]

Bu ayə hicrətin ilk illərində "kitab-əhli" ilə döyüşdən vaz keçməyi göstəriş verir. Çünki müsəlmanlar hələ qüdrətlənməmişdilər. Əllamə Təbatəbai deyir: "Deyilənə görə, bu ayə "qital" ayəsi ilə nəsx oldu."[5]

"Qital" ayəsi budur:

قَاتِلُوا الَّذِينَ لَا يُؤْمِنُونَ بِاللهِ وَ لَا بِالْيَوْمِ الْاٰخِرِ وَ لَا يُحَرِّمُونَ مَا حَرَّمَ اللهُ وَ رَسُولُهُ وَ لَا يَدِينُونَ دِينَ الْحَقِّ مِنَ الَّذِينَ أُوتُوا الْكِتَابَ حَتَّىٰ يُعْطُوا الْجِزْيَةَ عَنْ يَدٍ وَ هُمْ صَاغِرُونَ.

"Kitab verilmiş kəslərin Allaha və axirət gününə iman gətirməyən, Allahın və Onun Peyğəmbərinin (səlləllahu ələyhi və alihi və səlləm) haram buyurduqlarını haram bilməyən və haqq dinə tabe olmayanları ilə onlar tam təslim və zillətlə öz əlləri ilə cizyə ödəyincəyə qədər vuruşun."[6]

Əllamə Təbatəbai "Bəqərə" surəsinin 109-cu ayəsinin nəsx olunduğunu nəql etdikdən sonra, buna irad tutmadığı üçün məlum olur ki, onun bu barədə fikri müsbətdir.

**2) Ramazan ayının gecələrində cinsi əlaqənin haramlığının aradan qaldırılması ayəsi:**

أُحِلَّ لَكُمْ لَيْلَةَ الصِّيَامِ الرَّفَثُ إِلَىٰ نِسَائِكُمْ هُنَّ لِبَاسٌ لَكُمْ وَ أَنتُمْ لِبَاسٌ لَّهُنَّ...

"Oruc gecəsi qadınlarınızla yaxınlıq etmək sizə halal edildi. Onlar sizin üçün libasdırlar və siz də onlar üçün libasısınız..."[7]

Bu ayə ramazan ayının gecələrində cinsi əlaqənin haramlığını nəsx etdi, yəni aradan qaldırdı və bu iş halal oldu. Belə ki, sözügedən ayədə işlənən aşağıdakı ifadələr:

---

1 Nasix və mənsux Quranda və Əllamənin baxışında, s.107.
2 əl-Bəyan, s.373-380.
3 Nasix və mənsux Quranda və Əllamənin baxışında, s.107.
4 Bəqərə surəsi, ayə: 109.
5 əl-Mizan, c.1, s.257.
6 Tövbə surəsi, ayə: 29.
7 Bəqərə surəsi, ayə: 187.

أُحِلَّ لَكُمْ - كُنْتُمْ تَخْتَانُونَ - فَتَابَ عَلَيْكُمْ - فَالْاٰنَ بَاشِرُوهُنَّ

bu işin əvvəllər haram olduğuna işarə edir və ya buna dəlalət edir.[1]

**3) "Zinakar qadının cəzası" ayəsi:**

وَ الَّاتِى يَأْتِينَ الْفَاحِشَةَ مِنْ نِسَائِكُمْ فَاسْتَشْهِدُوا عَلَيْهِنَّ أَرْبَعَةً مِنْكُمْ فَإِنْ شَهِدُوا فَأَمْسِكُوهُنَّ فِى الْبُيُوتِ حَتَّىٰ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللهُ لَهُنَّ سَبِيلًا.

"Qadınlarınızdan çirkin əməli işlədənlərə (zina edənlərə) qarşı özünüzdən dörd kişinin şahidlik etməsini istəyin. Əgər onlar şəhadət verərlərsə, onları (həmin qadınları) ölüm yetişərək canlarını alana qədər və ya Allah onlar üçün bir yol açana qədər evlərdə saxlayın."[2]

Əllamə Təbatəbai yazır:

Belə görünür ki, müfəssillərin çoxunun dediyi kimi bu ayədə "الْفَاحِشَةَ" ifadəsində "zina" nəzərdə tutulur. Belə hədis olunur ki, Həzrət Peyğəmbər (s) "şallaq" ayəsi[3] nazil olduqda buyurdu: "Bu, həmin "yol"dur ki, Allah zinakar qadınlar üçün qərar verdi." Bu mətləbə sübut budur ki, ayədə işlənən "və ya Allah onlar üçün bir yol açana qədər" ifadəsi bu ayənin hökmünün gələcəkdə nəsx olacağına işarə edirdi.

Ayədə "أَوْ" ("və ya") bağlayıcısının işlənməsi işarə edir ki, bu hökm nəsx oluna bilər və belə də oldu. "Şallaq" hökmü bu qadınların "əbədi həbs" hökmünü nəsx etdi. Aydındır ki, Peyğəmbərin (s) ömrünün son illərində və o həzrət vəfat etdikdən sonra zinakar qadınlar üçün icra edilən hökm, onların evdə əbədi həbs edilmələri deyildi, şallaqlanmaları idi. Beləliklə, sözügedən ayənin zinakar qadınların hökmünə dəlalət etdiyini fərz etsək belə, bu ayə "şallaq" ayəsi ilə nəsx oldu. [4]

**4) "İman vasitəsilə varislik" ayəsi:**

إِنَّ الَّذِينَ ءَامَنُوا وَ هَاجَرُوا وَ جَاهَدُوا بِأَمْوَالِهِمْ وَ أَنْفُسِهِمْ فِى سَبِيلِ اللهِ وَ الَّذِينَ ءَاوَوْا وَ نَصَرُوا أُولٰئِكَ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ...

"Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda malları və canları ilə cihad edənlər ilə, (mühacirlərə) pənah verən və kömək edənlər bir-birlərinin qəyyumudurlar..."[5]

Əllamə Təbatəbainin izahından belə əldə olunur ki, qohumluqla deyil, dini qardaşlıq vasitəsi ilə varislik məsələsi hicrətin əvvəllərində mühacirlər və ənsar

[1] əl-Mizan, c.2, s.45.
[2] Nisa surəsi, ayə: 15.
[3] Nur surəsi , ayə: 2.
[4] əl-Mizan, c.4, s.233.
[5] Ənfal surəsi, ayə: 72.

arasında aydın məsələ idi. Həzrət Peyğəmbər (s) öz səhabələri arasında qardaşlıq əhd-peymanı bağladı və onlar bu qardaşlıq vasitəsilə bir-birindən irs aparırdılar. “Məcməul-bəyan” təfsirində İmam Baqirin (ə) bu hədisi qeyd olunub:

اِنَّهُمْ كَانُوا يَتَوَارَثُونَ بِالْمُؤَاخَاةِ.

“Onlar din qardaşlığı vasitəsilə bir-birindən irs aparırdılar.”

“Durrul-mənsur” təfsirində qeyd olunur ki, İbn Abbas dedi: “Həzrət Peyğəmbər (s) öz səhabələri arasında qardaşlıq yaratdı və onları bir-birinə varis etdi. Bu ayə:

وَ أُولُوا الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَىٰ بِبَعْضٍ فِى كِتَابِ اللهِ...

“Allahın Kitabında qohumlar bir-birlərinə daha yaxındırlar (onlar vərəsəlikdə möminlər və mühacirlərdən öndə dururlar)”[1] nazil olanadək, bu belə idi.”

Sözügedən ayə nazil olduqda qohumluq vasitəsilə varislik, iman vasitəsilə varisliyin yerinə gəldi.[2]

**5) “Nəcva”(məxfi söhbət)  ayəsi:**

يٰأَيُّهَا الَّذِينَ ءَامَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَىْ نَجْوَاكُمْ صَدَقَةً...

“Ey iman gətirənlər, Peyğəmbərlə məxfi və xüsusi söhbət etmək istədiyiniz zaman öz söhbətinizdən qabaq bir sədəqə verin...”[3]

Bütün şiə quranşünasları və əhli-sünnə alimlərinin əksəriyyəti yuxarıdakı ayənin Quranın mənsux ayələrindən olduğunu bildiriblər. Bir qədər əvvəldə qeyd etdik ki, Ayətullah Xoi təkcə bu ayəni mənsux ayə hesab etmişdir. Bu ayənin nazil olma səbəbi (şəni-nüzulu) barədə demişlər: Müsəlmanlar çoxlu lazımsız suallar ilə Həzrət Peyğəmbərin (s) vaxtını boş yerə alırdılar. Bu ayə nazil oldu və hər dəfə söhbət üçün bir dirhəm sədəqə vermək vacib buyuruldu.

Əllamə Təbatəbai yazır:

Möminlər və səhabələr sədəqə vermək qorxusundan Peyğəmbər (s) ilə məxfi söhbəti tərk etdilər. Əli ibn Əbu Talibdən (ə) başqa heç kim Peyğəmbərlə (s) məxfi söhbət etmədi. Əli (ə) on dəfə bu işi gördü və hər dəfə sədəqə verdi. Beləcə, bu ayədən sonrakı ayə nazil oldu və ayədə səhabələr və möminlər bərk qınanıldı:

ءَأَشْفَقْتُمْ أَنْ تُقَدِّمُوا بَيْنَ يَدَىْ نَجْوَاكُمْ صَدَقَاتٍ...

“Yoxsa (Peyğəmbərlə) məxfi və xüsusi söhbətinizdən qabaq sədəqə verməkdən qorxdunuz?...”[4]

Bu  ayə nazil olmaqla əvvəlki ayənin hökmü nəsx oldu.[5]

---

1 Əhzab surəsi, ayə: 6.

2 əl-Mizan, c.9, s.141-143; ət-Təmhid, c.2, s.309-310.

3 Mucadilə surəsi, ayə: 12.

4 Mucadilə surəsi, ayə: 13.

5 əl-Mizan, c.19, s.189; əl-Bəyan, s.373-380; ət-Təmhid, c.2, s.300.

**6) “Döyüşçülərin sayı” ayəsi:**

يٰأَيُّهَا النَّبِىُّ حَرِّضِ الْمُؤْمِنِينَ عَلَى الْقِتَالِ إِنْ يَكُنْ مِنْكُمْ عِشْرُونَ صَابِرُونَ يَغْلِبُوا مِائَتَيْنِ وَ إِنْ يَكُنْ مِنْكُمْ مِائَةٌ يَغْلِبُوا أَلْفًا مِنَ الَّذِينَ كَفَرُوا بِأَنَّهُمْ قَوْمٌ لَّا يَفْقَهُونَ.

“Ey Peyğəmbər, möminləri döyüşə həvəsləndir. Əgər sizdən iyirmi nəfər səbirli olsa, kafirlərin iki yüz nəfərinə qalib gələr. Əgər sizdən yüz nəfər səbirli olsa, kafirlərin min nəfərinə qalib gələr. Çünki onlar anlamaz bir tayfadır.”[1]

“ət-Təmhid” kitabının müəllifi bu ayənin sonrakı ayə ilə nəsx olduğunu qeyd etsə də[2], lakin “əl-Bəyan” və “əl-Mizan” əsərlərinin müəllifləri qeyd edirlər ki, bu ayə ilə sonrakı ayənin siyaqı onların eyni vaxtda nazil olduğunu göstərir. Buna görə də onlar sonrakı ayənin bu ayə üçün nasix oduğunu qəbul etmirlər.[3]

## *Fəslin əsas mətləbləri:*

**1.** Teminoloji “nəsx”in şərtləri müəyyənləşməklə, keçmiş alimlərin mənsux ayələrin sayı barədə olan nəzərlərinin – belə ki, onların bəziləri Quranda beş yüzə qədər mənsux ayə olduğunu qeyd etmişlər – artıq elmi dəyəri yoxdur.

**2.** Müasir şiə və əhli-sünnə quranşünasları mənsux ayələrin sayının az olduğunu qeyd edirlər. Dr. Subhi Saleh 10 ayənin, Ayətullah Mərifət 8 ayənin, Əllamə Şi`rani və Əllamə Təbatəbai 5 ayənin, Ayətullah Xoi isə yalnız 1 ayənin mənsux olduğunu qeyd etmişlər.

**3.** Mənsux ayələrin beşi aşağıdakılardır:

“Döyüşdən vaz keçmək” ayəsi, “ramazan ayının gecələrində cinsi əlaqənin haramlığının aradan qaldırılması” ayəsi, “zinakar qadının cəzası” ayəsi, “iman vasitəsilə varislik” ayəsi, “nəcva” (məxfi söhbət) ayəsi.

### *Səkkizinci hissənin sualları:*

**1.** “Nəsx”in lüğəvi mənasını izah edin. “Nəsx”in terminoloji tərifində mövcud olan üç məktəb hansılardır? İzah edin.

**2.** Müasir quranşünaslar “nəsx”in terminoloji tərifində hansı məktəbi qəbul edirlər?

**3.** “Nəsx”in şərtlərini açıqlayın.

**4.** “Nəsx”in şərtlərini nəzərə alaraq onun dəqiq tərifini bəyan edin.

**5.** Quranda “nəsx”in baş verdiyinə dəlalət edən iki ayə qeyd edin.

**6.** Qanunlarda “nəsx”in həqiqi və məcazi mənalarını açıqlayın və izah edin ki, şəri hökmlərdə “nəsx”, hansı mənada olan “nəsx”dir?

---

[1] Ənfal surəsi, ayə: 65.

[2] ət-Təmhid, c.2, s.301.

[3] əl-Bəyan, s.354; əl-Mizan, c.9, s.125.

**7.** “Nəsx”i inkar edənlər hansı məsələlərə istinad etmişlər? Onlara verilən cavablar nədir?

**8.** Quran üçün “nəsx”in hansı qismi qəbul olunur? Digər qisimlərin qəbul olunmamasının səbəbi nədir?

**9.** Quranın “mütəvatir hədis” və “vahid xəbər” ilə “nəsx” olunması düzgündürmü? Düzgün olduğu fərz olunduğu təqdirdə, belə bir “nəsx” baş vermişdirmi?

**10.** Üç mənsux ayəni onların nasix ayələri ilə birlikdə qeyd edin, onları qisaca izah edin.

***Araşdırma üçün suallar:***

**1.** Keçmiş və müasir alimlərin nəzərində “nəsx”in hüdudlarını və şərtlərini açıqlayın.

**2.** Şiə kəlam elmində “Bəda” mövzusunda araşdırma aparın.

**3.** “Tilavətin və hökmün nəsxi” və “tilavətin nəsxi və hökmün qalması” qisimlərini bəzi əhli-sünnə alimləri qəbul etmişlər. Onların göstərdikləri nümunələri qeyd edin, sonra onların əsassız olduğunu açıqlayın.

**4.** “Nəsx” olunduğu iddia edilən beş ayəni (kitabda qeyd edilən ayələrdən qeyri ayələri) araşdırın, onların “nəsx” olunduğunu inkar və ya qəbul etdiyinizi bildirin.

# DOQQUZUNCU HİSSƏ

# MÖHKƏM VƏ MÜTƏŞABİH

# Doqquzuncu hissə: Möhkəm və mütəşabih

***Birinci fəsil:* Möhkəm və mütəşabih**

***İkinci fəsil:* Quranda mütəşabihlərin olmasının fəlsəfəsi**

***Üçüncü fəsil:* Mütəşabih ayələrin bəzi nümunələri**

***Dördüncü fəsil:* Təvil**

## *Bu hissədə nəzərdə tutulan hədəflər:*

- Möhkəm və mütəşabih ayələr, onların Quran təfsirində və Quran elmlərində rolu;

- Möhkəm və mütəşabih ayələri təyin etməkdə quranşünasların rəyi;

- Quranda mütəşabih ayələrin olmasının hikməti və fəlsəfəsi;

- Mütəşabih ayələrin bəzi nümunələri;

- Quranın təvili və onu bilməyin mümkünlüyü, yaxud qeyri-mümkünlüyü.

## *Bu hissədə istifadə olunan əsas mənbələr:*

**əl-Mizan,** c.3; **ət-Təmhid,** c.3; **Ulumul-Quran indəl-mufəssirin,** c.3; “Möhkəm və mütəşabih” adlı bir neçə əsər.

# Müqəddimə

Qurani-Məcidin müəyyən özəllikləri vardır. Elə bu özəlliklərinə görə bu kitab digər kitablardan fərqlənir. Bu səmavi kitabdan bəhrələnmək, onun uca maarifini və qiymətli məzmununu mənimsəmək bir sıra məsələləri bilməyə bağlıdır. Quranı düzgün başa düşməkdə bu məsələlərin hər birinin öz rolu vardır və onlara əhəmiyyət verməmək bu səmavi kitabın məzmunundan uzaqlaşmağa bərabərdir. Həmin məsələlərdən biri Quranda möhkəm və mütəşabih ayələri tanımaqdır. Bu məsələ elə bir əhəmiyyət və dəyərə malikdir ki, bütün müfəssirlər Qurani-Kərimin hər ayəsində buna diqqət yetirməyi lazımlı hesab etmiş, bu məsələyə qarşı diqqətsizliyi isə Quranın səhv təfsir olunması ilə nəticələndiyini bildirmişlər. Quran, hissələri bir-biri ilə əlaqəli olan bir məcmuə olub – Quranın özündə vurğulanır ki, onun ayələri arasında heç bir ixtilaf, ziddiyyət yoxdur – möhkəm və mütəşabih ayələrə ayrılır. Bəzi ayələr "ana ayələr"dir, yəni bu ayələr istinad yeridir. Bəzi ayələr isə birinci dəstə ayələrə - ana ayələrə - istinad edilməlidir. Bu səbəbdən də, Quranı təfsir edərkən ikinci dəstə ayələrə müstəqil yanaşma, Quranı düzgün dərk etmək yolundan insanı tamamilə çıxarır və insan özü də bilmədən Allahın kitabının əksinə hərəkət edir. Heç şübhəsiz, İslam ümmətində müxtəlif firqə və cərəyanların yaranmasının səbəbi mütəşabih ayələri əsas götürmək, onlara müstəqil yanaşma olmuşdur.

Mucəssəmə, Mucbirə, Mufəvvəzə kimi azğın firqələrin yaranmasının səbəbi mütəşabih ayələrə əsaslanmaq və möhkəm ayələri nəzərə almamaq olmuşdur. Təəssüflər olsun ki, belə bir yanaşma İslamın ilk əsrlərindən indiyədək mövcud olmuş, hər bir dövrdə müəyyən dəstələr zaman və məkanın tələbinə görə bu ayələri əsas götürüb dinə bidətlər gətirmişlər. Onlar Qurani-Məcidin ayələrini öz nəfsi istəklərinə çatmaq üçün dəstavüz edib din və Quran pərdəsi altında gizlənmişlər. Bəlkə elə buna görədir ki, İslamın ilk əsrlərindən indiyədək müfəssirlər və quranşünaslar "möhkəm və mütəşabih" mövzusuna xüsusi diqqət ayırmışlar. Səhabə və tabeindən olan müfəssirlərin, sonralar isə böyük din alimlərinin bu mövzuda geniş bəhsləri dediklərimizə sübutdur. Şiə və sünni müfəssirlərinin təfsir kitablarında "möhkəm və mütəşabih" ayələrin şərhində bu mövzu geniş açıqlanmaqla yanaşı, bir çox müfəssirlər və Quran alimləri bu mövzuya geniş yer vermiş, hətta ayrıca əsərlər yazmışlar.[1]

[1] Nümunə üçün bu kitabları göstərmək olar: "Təfsirul-muhkəm vəl-mutəşabih", Seyid Mürtəza Ələmul-Huda (h.q. 355-436); "Həqaiqut-təvil fi mutəşabihit-tənzil", Seyid Rəzi (h.q. 359-406); "Kitabun fi muhkəmil-Quran və mutəşabihi", Sur İbn Abdullah Əş`əri (vəfat tarixi: h.q. 300); "Mutəşabihul-Quran", Qazi Əbdul-Cabbar İbn Əhməd Həmədani (h.q. 359-415); "Mutəşabihul-Quran" Əli ibn Həmzə Kəsai (vəfat tarixi: h.q.183); "Mutəşabihatul-Quran", Sədrul-mutəallihin Məhəmməd ibn İbrahim Şirazi (h.q.979-1050); "Ulum-e Quran və fehrest-e mənabe", c.1, s.391-dən başlayaraq, Dr. Seyid Əbdul-Vəhhab Taliqani.

Yuxarıda deyilənlər, “möhkəm və mütəşabih” mövzusunun əhəmiyyətini aydınlaşdırdı. Həmçinin gələcək bəhslərdə aydın olacaq ki, Quranı təfsir etməkdə ən yaxşı üsul, “Quranın Quranla təfsiridir”. Belə ki, mütəşabih ayələri möhkəm ayələrə istinad etdirmək, mütəşabih ayələri düzgün başa düşmək üçün möhkəm ayələrə diqqət yetirmək “Quranın Quranla təfsiri”nin bir nümunəsidir. Bəzi hallarda isə, mənası dərhal başa düşülməyən bəzi ayələrin mənasını aydınlaşdırmaq, yaxud həmin ayələrin hüdudlarını müəyyənləşdirmək üçün mənası aydın olan ayələrə istinad etmək “Quranın Quranla təfsiri”nin nümunələridir. Söz yox ki, bu iş Quran sahəsində böyük biliklərə yiyələnməyi tələb edir.

Həm şiə, həm də əhli-sünnə qaynaqlarında olan saysız hədislərdə “təfsir be-rəy”, yəni şəxsi rəyə əsaslanıb Quranı təfsir etmək qadağan edilmişdir. Bu hədislərdə deyilir: Hər kim Quranı öz rəyinə əsaslanıb təfsir edərsə, cəhənnəmlikdir.[1]

Bu hədislərdən belə qənaətə gəlirik ki, Quran ayələrinə müstəqil yanaşmaq və digər ayələrə müraciət etmədən təkcə ayənin özünə əsaslanmaq, Quranı dərk etməkdə naqis yoldur. Quran, özü ilə təfsir olunmalıdır.[2]

Burada Quranda “möhkəm və mütəşabih” mövzusunun əhəmiyyətini bəyan edən bir neçə hədisi nəzərinizə çatdırırıq:

1) “Uyunu əxbari-Rza (ə)” kitabında qeyd edilir ki, İmam Rza (ə) buyurdu:

مَنْ رَدَّ مُتَشَابِهَ الْقُرْءَان إِلَىٰ مُحْكَمِهِ هُدِىَ إِلَىٰ صِرَاطٍ مَّسْتَقِيمٍ ...

“Kim Quranın mütəşabihini onun möhkəminə istinad etdirsə, düz yola hidayət olunar...”[3]

2) “Nu`mani təfsiri”ndə qeyd edilir ki, İsmayıl ibn Cabir dedi: “Mən eşitdim ki, Əba Əbdullah Cəfər ibn Məhəmməd əs-Sadiq (ə) buyurdu:

... وَ اعْلَمُوا – رَحِمَكُمُ اللهُ – إِنَّهُ مَنْ لَمْ يَعْرِفْ كِتَابَ اللهِ عَزَّ وَ جَلَّ النَّاسِخَ مِنَ الْمَنْسُوخِ وَ الْخَاصَّ مِنَ الْعَامِّ وَ الْمُحْكَمَ مِنَ الْمُتَشَابِهِ وَ الرُّخَصَ مِنَ الْعَزَائِمِ ... فَلَيْسَ بِعَالِمٍ بِالْقُرْءَانِ وَ لَا هُوَ مِنْ أَهْلِهِ.

“Bilin ki - Allah sizə rəhmət etsin – hər kim izzətli və cəlalətli Allahın kitabının nasixini mənsuxundan, xassı ammdan, möhkəmi mütəşabihdən, ruxəsi əzaimdən ... ayırd edə bilmirsə, o, Quranı bilmir və Quran əhli deyildir.”[4]

3) Həzrət Əli (ə) buyurub:

... يَشْهَدُ بَعْضُهُ عَلَىٰ بَعْضٍ وَ يَنْطِقُ بَعْضُهُ بِبَعْصٍ.

“Quranın bir dəstə ayələri digərlərinə şəhadət verir və bəyan edir.”[5]

---

[1] əl-Mizan, c.3, s.75: مَنْ فَسَّرَ الْقُرْءَانَ بِرَأْيِهِ فَلْيَتَبَوَّاَ مَقْعَدَهُ مِنَ النَّارِ.
İmam Rza (ə) buyurub:

مَنْ تَكَلَّمَ فِى الْقُرْءَانِ بِرَأْيِهِ فَأَصَابَ فَقَدْ اَخْطَأَ. الرَّأْيُ فِى كِتَابِ اللهِ كُفْرٌ.

[2] əl-Mizan, c.3, s.76-80.

[3] əl-Mizan, c.3, s.68; Təfsir-i Safi, c.1, s.319.

[4] əl-Mizan, c.3, s.80.

[5] Nəhcul-bəlağə, xütbə: 131.

# Birinci fəsil

## Möhkəm və mütəşabih

Ali-İmran surəsinin 7-ci ayəsində buyurulur:

هُوَ الَّذِى أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ ءَايَاتٌ مُحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَ أُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ فِى قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاءَ الْفِتْنَةِ وَ ابْتِغَاءَ تَأْوِيلِهِ وَ مَا يَعْلَمُ تَأْوِيلَهُ إِلَّا اللهُ وَ الرَّاسِخُونَ فِى الْعِلْمِ يَقُولُونَ ءَامَنَّا بِهِ كُلٌّ مِنْ عِنْدِ رَبِّنَا وَ مَا يَذَّكَّرُ إِلَّا أُوْلُوا الْأَلْبَابِ.

“Kitabı (Quranı) sənə nazil edən Odur. Onun bir qismi möhkəm ayələrdir (mənası aydın ayələrdir) ki, bu ayələr “Kitabın anası”dır. Bir qismi isə mütəşabih ayələrdir (neçə cür mənalandırıla bilən ayələrdir). Qəlblərində əyrilik (şəkk-şübhə, haqdan dönüklük) olanlar fitnə-fəsad salmaq və təvil etmək (istədikləri kimi məna vermək) məqsədilə mütəşabih ayələrin ardınca olarlar (onlara tabe olarlar). Halbuki, onun tə`vilini Allahdan və elmdə qüvvətli olanlardan başqa heç kim bilmir. Onlar (elmdə qüvvətli olanlar) isə: “Biz ona iman gətirdik, onun hamısı (istər möhkəm, istərsə də mütəşabih ayələr) Rəbbimiz tərəfindəndir” - deyərlər. (Bunu) ağıl sahiblərindən başqası başa düşməz.”

Yuxarıdakı ayədə Quran ayələri iki dəstəyə - möhkəm və mütəşabihə bölünür və hər birinin özünəməxsus cəhəti bəyan olunur. Lakin ilk öncə “möhkəm” və “mütəşabih” sözlərinin mənaları ilə tanış olmaq lazımdır.

## “Möhkəm” və “mütəşabih”in izahı

**1- “Möhkəm” (مُحْكَم):**

Rağib İsfahani “Mufrədat” kitabında yazır:

“حَكَمَ” sözü “مَنَعَ” mənasını, yəni “mane oldu” mənasını bildirir. Buna gorə də ərəb dilində atın cilovuna “حَكَمَة” deyilir. (Çünki cilov heyvanın hərəkət etməsinə və vurnuxmasına mane olur.)

Beləliklə, bu söz bir növ “mane olma” və “nüfuz olunmaz” mənasını özündə daşıyır. “Qazi hökm verdi” dedikdə bu məna nəzərdə tutulur ki, hökm verilməmişdən qabaq məsələ qətiləşməmişdi, lakin hökm verildikdən sonra məsələ qətiləşdi və təsbit oldu. Bir şeyin “möhkəm” olması o deməkdir ki, heç bir kənar amil ona nüfuz edə bilmir. Rağib İsfahani deyir: “Möhkəm odur ki, nə ləfz, nə də məna baxımından onda şəkk-şübhə yaranmır.” Bu xüsusiyyət bir kəlamda o zaman yaranır ki, kəlam mənanı ifadə etməkdə heç bir qaranlıq məqama və eyhama yer qoymur, nəzərdə tutulan məna və məqsədə açıq-aydın şəkildə və bütünlüklə dəlalət edir.

**2- “Mütəşabih” (مُتَشَابِه):**

Rağib İsfahani yazır:

“““شُبْهَة” (şubhə) – “aralarında olan oxşarlığa görə iki şeyi bir-birindən ayırd edə bilməmək” mənasını bildirir. (İstər bu oxşarlıq zahiri baxımdan olsun, istərsə də məna baxımından olsun). Quranda “mütəşabih kəlam” o kəlamdır ki, ləfz və ya məna baxımından başqa bir şeyə müəyyən oxşarlığına görə onu şərh etmək çətinləşmişdir. Fəqihlər deyirlər: Mütəşabih kəlam odur ki, onun zahiri batinindən xəbər vermir, yəni kəlamın zahiri nəzərdə tutulan mənanı çatdırmır.”

Beləliklə, Quran terminində “mütəşabih” o sözdür ki, onun bir neçə mənası olduğu ehtimal verilir. Bu səbəbdən də, həmin söz barəsində şəkk-şübhə yaranır. Onu düzgün təvil etmək (mənalandırmaq) imkanı olduğu kimi, səhv təvil etmək ehtimalı da mövcuddur. Azğınlar da bu sözləri öz məqsədlərinə uyğun təvil etməyə, yəni mənalandırmağa səy göstərmişlər.[1]

“Ali-İmran” surəsinin 7-ci ayəsində Quran ayələri iki dəstəyə - “möhkəm” və “mütəşabih”ə ayrılsalar da, lakin başqa ayələrdə “möhkəm” və “mütəşabih” ifadələri ayrı-ayrılıqda bütün Qurana aid edilmişdir.

“Hud” surəsinin 1-ci ayəsində buyurulur:

كِتَابٌ أُحْكِمَتْ ءَايَاتُهُ ثُمَّ فُصِّلَتْ مِنْ لَدُنْ حَكِيمٍ خَبِيرٍ.

“(Bu Quran) ayələri möhkəmlənmiş, sonra isə hikmətli və xəbərdar (Allah) tərəfindən müfəssəl (izah) edilmiş bir kitabdır.”

“Zumər” surəsinin 23-cü ayəsində buyurulur:

اللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُتَشَابِهًا مَثَانِىَ ...

“Allah sözün ən gözəlini (ayələri) bir-birinə bənzər və bağlı olan kitab şəklində nazil etmişdir.”

“Hud” surəsinin 1-ci ayəsində Quran ayələrinə aid edilən “أُحْكِمَتْ” (“möhkəmlənmiş”) ifadəsində - ayədə işlənən “فُصِّلَتْ” (“müfəssəl edilmiş”) ifadəsini nəzərə alaraq - ayələrin tədrici nüzuldan, yəni ayə-ayə nazil olmamışdan qabaq vəziyyəti nəzərdə tutulur. Quran, tədrici nüzuldan qabaq “vahid və sabit bir həqiqət” mərhələsində idi, onda hissələr və saysız ayələr yox idi. Lakin tədrici nüzul zamanı “إحْكَام” (أُحْكِمَتْ)
mərhələsi öz yerini “فُصِّلَتْ) “تَفْصِيل) mərhələsinə verdi.[2]

“Zumər” surəsinin 23-cü ayəsində bütün Qurana “مُتَشَابِهًا” sifətinin aid edilməsi bu mənanı daşıyır: Quran elə bir kitabdır ki, onun bütün ayələri bir-birilə əlaqəlidir, ayələr arasında heç bir ziddiyyət və ixtilaf mövcud deyildir, bütün ayələr eyni bir hədəfi izləyir.[3]

---

1 ət-Təmhid, c.3, s.9.

2 əl-Mizan, c.3, s.20.

3 Nisa surəsi, ayə: 82.

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْءَانَ وَ لَوْ كَانَ مِنْ عِنْدِ غَيْرِ اللهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا.

“Möhkəm” və “mütəşabih” terminlərini izah etdikdən sonra “Ali-İmran” surəsinin 7-ci ayəsinin izahına qayıdırıq. Bu ayədə “möhkəm ayələr”, “أُمُّ الْكِتَاب” - “Kitabın anası” tanıtdırılıb. “أُمّ” sözünün kökü “قَصَدَ يَقْصُدُ” mənasını bildirən “اَمَّ يَؤُمُّ” sözüdür. Övlad anaya tərəf üz tutduğu üçün ərəblər anaya “أُمّ” deyirlər. “أُمّ” sözü “müraciət yeri” mənasını bildirir. “أُمُّ الْكِتَاب” dedikdə, o qisim ayələr nəzərdə tutulur ki, digər qisim ayələr üçün müraciət və istinad yeridir. Quranın açıq-aydın ifadəsinə görə “möhkəm ayələr” ana ayələrdir, əsas götürülən və istinad yeri olan ayələrdir. Bu ayələrdə heç bir qeyri-aydın və anlaşılmayan məna və məqam yoxdur, əksinə, onlar mütəşabih ayələrdə anlaşılmayan məqamlara aydınlıq gətirirlər. Elə bu ayədən belə bir nəticə əldə olunur ki, Quranın bir qisim ayələrinin “mütəşabih” olmasına baxmayaraq, mütəşabih ayələri möhkəm ayələrə istinad etdirməklə mütəşabih ayələrdə anlaşılmayan məna aydınlaşır, möhkəm ayələr sayəsində onların mənası məlum olur. Başqa sözlə, Quranın bir qisim ayələrinin (kiçik bir qisim ayələrin) mütəşabih olmasına baxmayaraq, bu ayələrdə olan mütəşabihlik “zati və daimi” deyildir. Çünki Quranın özü mütəşabihlərin mənasını aydınlaşdırmağın yolunu müəyyən etmişdir.

## Möhkəm və mütəşabihin müəyyən edilməsi
## *(nəzəriyyələr)*

Ümumiyyətlə, “möhkəm” və “mütəşabih” barədə aşağıdakı nəzriyyələr mövcuddur:[1]

1- Mütəşabihlər bəzi surələrin ilk ayəsi olan “muqəttə`ə hərflər”dir və qalan ayələr möhkəm ayələrdir.

2- Möhkəm ayələr “muqəttə`ə hərflər”dir və qalan ayələr mütəşabih ayələrdir.

3- Quranda “mubəyyən” ayələr möhkəm ayələr, “mucməl” ayələr isə mütəşabih ayələrdir.

4- Nasix ayələr möhkəm, mənsux ayələr isə mütəşabih ayələrdir.

5- Möhkəm ayələr aydın və vazeh dəlilləri olan ayələrdir. Amma mütəşabihlərin müəyyən edilməsində ətraflı düşünməyə və götür-qoya ehtiyac vardır.

6- Möhkəm o ayələrdir ki, onların mənasını dərk etmək – istər məxfi, istərsə də aşkar bürhan ilə - mümkündür. Mütəşabihlər isə bunun əksidir, məsələn, Qiyamətin vaxtını bilmək və s.

7- Ehkam ayələri Quranın möhkəm ayələri, qalan ayələr isə mütəşabih ayələrdir.

8- Möhkəm ayələrin bir izahı və mənası var, halbuki, mütəşabih ayələr üçün bir neçə izah və məna ehtimal verilir.

9- Ayələrin möhkəm və mütəşabihə bölünməsi qissə (hekayət) ayələrinə aiddir: Peyğəmbərlərin və onların ümmətlərinin hekayətləri aydın şəkildə bəyan

---

[1] Müraciət edin: Məcməul-bəyan, c.1, s.699 və c.2, s.700; əl-Mizan, c.3, s.32-40.

olunan ayələr möhkəm ayələr, müxtəlif surələrdə təkrarlanıb kəlmə və məzmunu peyğəmbərlərin hekayətləri barədə oxşar olan ayələr isə mütəşabih ayələrdir.

10- Möhkəm ayələrin əksinə olaraq, mütəşabih ayələr izah və şərhə ehtiyacı olan ayələrdir.

11- Xəbəriyyə cümlə (yəni nəqli cümlə) olan ayələr mütəşabih ayələr, inşaiyyə cümlə (əmr, sual, istək və s.) şəklində olan ayələr isə möhkəm ayələrdir.

12- "Sifətlər"i bəyan edən ayələr (istər Allahın sifətlərini, istərsə də peyğəmbərlərin sifətlərini) mütəşabih ayələr, qalan ayələr isə möhkəm ayələrdir.

13- İnsanın başa düşdüyü və dərk edə bildiyi ayələr möhkəm ayələr, insan ağlının dərk etməyə qadir olmadığı ayələr isə mütəşabih ayələrdir.

14- Nəzərdə tutulan məna "ayənin zahiri mənası" olan ayələr möhkəm ayələrdir və "ayənin zahiri mənası"ndan fərqli məna nəzərdə tutulan ayələr isə mütəşabih ayələrdir. (Son dövrün tanınmış müfəssirləri bu nəzəriyyəni qəbul edirlər.)

15- Mütəşabih ayələrdən fərqli olaraq, möhkəm ayə o ayədir ki, onun mənası barədə müfəssirlər eyni fikirdədirlər.

Yuxarıdakı nəzəriyyələri bəyan etməkdə məqsəd, əziz oxucuları məlumatlandırmaq idi. Bu nəzəriyyələrin nöqsanları barədə Əllamə Təbatəbai "əl-Mizan" təfsirində geniş söhbət açmışdır. Belə düşünürük ki, "möhkəm və mütəşabih ayələr" üçün verdiyimiz tərifdə yuxarıda qeyd edilən nəzəriyyələrin iradları göz qabağındadır və bu iradları açıqlamağa ehtiyac yoxdur.

## ***Fəslin əsas mətləbləri:***

**1.** Quran ayələri iki dəstəyə - "möhkəm" və "mütəşabih" ayələrə bölünür. Bu bölgü Quranda açıq-aydın bəyan olunub.

**2.** Möhkəm ayələr Quranın "ana ayələri" və istinad yeridir.

**3.** Mütəşabih ayələrdən istifadə etməyin şərti bu ayələri möhkəm ayələrə istinad etdirməkdir.

**4.** Möhkəm ayə o ayədir ki, öz mənasını ifadə etməkdə heç bir qaranlıq məqama və eyhama yer qoymur, hər növ şəkk-şübhə və yanlışlığın üzünə yolu bağlamışdır. Mütəşabih ayə isə o ayədir ki, onun üçün bir neçə məna ehtimal verilir, buna görə də bu ayənin mənası barədə şəkk-şübhə yaranır.

**5.** Quranada möhkəm və mütəşabih ayələrin müəyyən edilməsi barədə söylənilən nəzəriyyələrin bəziləri möhkəm və mütəşabih ayələr barədə verilən təriflə uyğun gəlmir. Məsələn, belə söylənilir ki, mütəşabih ayələr muqəttə`ə həriflərdir, yaxud mucməl ayələr mütəşabih ayələrdir, yaxud mənsux ayələr və ya ehkam ayələrindən qeyri ayələr mütəşabih ayələrdir və s.

**6.** İslamda bəzi azğın firqələrin yaranmasının səbəbi Quranın mütəşabih ayələrinə istinad etməkdir.

# İkinci fəsil

## Quranda mütəşabihlərin olmasının fəlsəfəsi

Qurani-Kərimdə mütəşabih ayələrin olması bəzi irad axtaranların əlinə bəhanə vermişdir. Onlar deyirlər: Quran özünün aydın kəlam və fürqan (yəni haqqı batildən ayıran) olduğunu, onda heç bir batilin olmadığını iddia edir, halbuki, mütəşabih ayələr şübhə doğuran, gec anlaşılan və çətinlik yaradan ayələrdir. İslamda olan müxtəlif firqə və məzhəblərin hər biri haqq olduqlarını isbat etmək üçün elə bu Qurana istinad etmişlər. Müxtəlif firqələrin meydana gəlməsinin səbəbi məhz Quranda mütəşabih ayələrin olmasıdır. Əgər bu Kitabın bütün ayələri möhkəm ayələr olsaydı, onun özünün bəyan etdiyi hədəfə[1] uyğun olmazdımı? Ümumiyyətlə, Quranda mütəşabih ayələrin olmasının fəlsəfəsi və səbəbi nədir?

İmam Fəxr Razi öz təfsirində Quranda mütəşabih ayələrin olmasının beş səbəbini söyləmişdir:

1) Axirət savabı: İnsanlar Quranın mütəşabih ayələrini başa düşməkdən ötrü zəhmət çəkirlər və bu da onların axirət savabı qazanmalarına səbəb olur.

2) Müxalifləri cəlb etmək: İnsanların müxtəlif həyat tərzləri və məsləkləri vardır. Əgər Quran açıq-aşkar onların qarşısında dayansaydı, bu onlarda nifrət hissi yaradar və Qurandan üz döndərmələrinə səbəb olardı. Onlar elə ilk başlanğıcda: "Bu kitab bizə müxalifdir"- deyərdilər.

3) İnsanların düşünmə qabiliyyətinin artması: İnsanlar Quranın mütəşabih ayələrini başa düşməkdən ötrü düşünməlidirlər. Bu da onların düşünmə qabiliyyətinin artmasına bais olur.

4) Bir sıra elmlərin öyrənilməsi: Mütəşabih ayələri başa düşməkdən ötrü leksikologiyanı (lüğət elmi), morfologiyanı (sərf elmi), sintaksisi (nəhv elmi) və s. sahələri öyrənmək lazım gəlir.

5) Hər kəsin öz istedadı qədərində Qurandan bəhrələnməsi: Quranda mütəşabih ayələrin olmasının səbəbi hər kəsin öz istedadı qədərində Qurandan bəhrələnməsidir.

"əl-Mənar" təfsirində Rəşid Rza yuxarıda sadalanan səbəbləri zəif hesab etdikdən sonra ustadı Şeyx Məhəmməd Əbduhdən üç başqa səbəbi qeyd etmişdir.[2]

---

[1] Ümumiyyətlə, ilahi peyğəmbərlərin və səmavi kitabların göndərilməsində hədəf insanlara doğru yolu və düzgün həyat tərzini göstərmək olmuşdur. Quran da bu hədəfi izləyir.

[2] əl-Mənar, c.3, s.167-168.

O cümlədən, qeyd etmişdir ki, Quranda mütəşabih ayələrin olması sınaq və imtahan xarakteri daşıyır. Əgər Quranın bütün ayələri möhkəm ayələr olsaydı, zahirdə iman gətirən kəslər əlacsız qalıb onları qəbul edəcəkdilər. Amma Quranın bir sıra ayələri mütəşabih şəklində nazil oldu ki, imtahan vasitəsi olsun.

Aydındır ki, yuxarıda sadalanan səbəblərin heç biri Quranda mütəşabih ayələrin olmasının fəlsəfə və səbəbini açıqlamır. Bu səbəblərdən bəziləri qoyulan sualı cavablandırmamaqdan əlavə, hətta Allah kəlamının zəiflik və süstlüyünə gətirib çıxarır. Bu fikirlərin əsassızlığı aydın olduğundan biz burada öz iradlarımızı bildirməkdən daşındıq.

Böyük filosof İbn Ruşd Əndəlusi Quranda mütəşabih ayələrin olmasının səbəbini belə açıqlayır:

"İnsanlar üç dəstədir: alimlər, savadı olmayan insanlar, bu ikisinin arasında qərar tutanlar. Üçüncü dəstə insanlar nə alimlər səviyyəsindədirlər, nə də savadsızdırlar. Məhz bu dəstə üçün "təşabuh", yəni "oxşarlıq, bənzərlik" yaranır və Allah-Təala da onları məzəmmət etmişdir. Çünki alimlər müqəddəs şəriətdə "təşabuh" yaratmırlar. Onlar bilirlər ki, hər ayə şəriətdə nəzərdə tutulan qaydada necə istinad etdirilməlidir. Savadı olmayan inasanların isə belə şəkk-şübhə və iradlar barədə məlumatı yoxdur, onlar ayələrin zahiri mənası ilə kifayətlənirlər."[1]

İbn Ruşd daha sonra deyir:

"Şəriətin təlimləri bir qida kimidir, əksər insanlar üçün faydalıdır. Bəzən az bir dəstə üçün zərərli ola bilər. Bu səbəbdəndir ki, Quran bu incə məqama toxunaraq buyurur:

وَ مَا يُضِلُّ بِهِ إِلَّا الْفَاسِقِينَ.

"(Allah) onunla ancaq fasiqləri azdırır."[2]Bu "təşabuh" çox az insanlar üçün və hiss xaricində olan (metafizik) məsələlərdən, varlıqlardan bəhs edən çox az sayda Quran ayələrində baş verir. Quran hiss ilə dərk olunmayan və qeybi bir məsələni, hiss ilə dərk olunan bir məsələ vasitəsilə - belə ki, bu məsələ digər məqamlarla müqayisədə həmin qeybi məsələyə daha yaxın və oxşardır – ifadə edir. Bəzi insanlar hiss ilə dərk olunan həmin misalı əxz edib şəkkə və tərəddüdə düşürlər."[3]

Yuxarıdakı fikirdə "təşabuh"un yarandığı bəzi məqamlar qəbul oluna bilər. Əllamə Təbatəbai Quranda mütəşabih ayələrin olmasının səbəbi barədə geniş bəhs etdikdən sonra belə bir nəticəyə gəlir ki, ümumiyyətlə, Quranda mütəşabih ayələrin olması vacib və zəruridir, başqa cür ola da bilməzdi. O deyir:

"İnsana müəyyən məfhum və mənanı çatdırmaq, yalnız onun ömür boyu kəsb etdiyi zehni məlumatlar yolu ilə mümkündür. Əgər bir fərd daim hiss olunan

[1] ət-Təmhid fi Ulumil-Quran, c.3, s.16-17.
[2] Bəqərə surəsi, ayə: 26.
[3] ət-Təmhid, c.3, s.16-17.

məsələlər, varlıqlar ilə ünsiyyətdə olubsa, deməli, hansısa bir məfhum və mənanı ona yalnız həmin məsələlər və varlıqlar vasitəsilə çatdırmaq mümkündür. Yaxud əgər bir fərd "külli mənalar"a nail olubsa, bu mənalara nail olduğu ölçüdə hansısa məna və məfhumu ona çatdırmaq mümkün olacaqdır.

Digər tərəfdən dinin hidayəti insanların müəyyən bir dəstəsinə aid deyildir, əksinə bütün dəstələri və təbəqələri əhatə edir.

Bir tərəfdən insanların düşünmə səviyyəsinin müxtəlifliyi, digər tərəfdən dini hidayətin hamıya aid olması bais olmuşdur ki, Quranın bəyanları misallar qəlibində olsun. Belə ki, insan zehninə tanış olan məfhum və mənalar seçilir və bu mənalar vasitəsilə onun bilmədikləri ona bəyan olunur."[1]

Başqa sözlə:

"Quran kəlmələri haqq ilahi marif üçün bir növ misallardır. Ümumi insanların düşüncəsi hiss olunan məsələləri, varlıqları dərk etdiyindən və külli mənalara nail ola bilmədiklərindən, bu maarif misallar və maddi məsələlər qəlbində təqdim olunur. Bu təqdirdə əgər ilahi maarifin alınmasında insanın düşüncəsi həmin hiss mərhələsində donub qalarsa, Quranın bəyanları və misalları bu kimi fərdlər üçün həqiqət kimi görünəcək, "misal" "muməssəl" kimi nəzərə çarpacaqdır. Bu təqdirdədir ki, ayələrdə nəzərdə tutulan məna aradan gedəcəkdir. Əgər insanlar mənaları dərk etməkdə misallar üzərində donub qalmasalar, bəyan edilən misallardan hiss olunmayan və mücərrəd mənalara nail olsalar, bu təqdirdə də mücərrəd mənaları dərk etmək və misalların xüsusiyyətlərini onlardan ləğv etmək hamı üçün eyni olmadığına görə hiss olunan misallardan mücərrəd mənalara nail olmaqda təfavütlər yaranacaqdır."[2]

Bir sözlə, Quranın ali və mənəvi mənalarını insanlara çatdırmaq yalnız söz və ifadə vasitəsilə mümkün olduğundan, bu maddi sözlər həmin məna və məzmunu əhatə edə bilmir. Buna görə də "təşabuh" yaranır.

Bəzi Quran tədqiqatçıları bu sualın: "Quran fəsahət və bəlağətin ən üstün nümunəsi olduğu bir halda nə üçün şübhə doğuran və gec anlaşılan mütəşabih ayələrə malikdir?"- cavabında deyirlər:

Quran insanların təbii danışıq üslubu qəlibində nazil olmuşdur. İnsanın danışığında gündəlik işlənən sadə söz və ifadələrdən tutmuş bədii ifadələr, məcazi məna bildirən sözlər, kinayələr və s. ifadələr vardır. Məcazi məna bildirən sözlər olduğu yerdə "təşabuh"un olması labüddür.[3]

Beləliklə, bir tərəfdən ən dəqiq mənəvi mənaların maddi kəlmələr qəlibində çatdırılması digər tərəfdən Quranın insanların işlətdiyi söz və ifadələrdən,

---

[1] əl-Mizan, c.3, s.60-61.
[2] əl-Mizan, c.3, s.62.
[3] Quranpəjuhi, s.736-737.

məsələn, məcazi məna bildirən sözlərdən istifadə etməsi Quranda sayı iki yüzə çatan[1] mütəşabih ayələrin olmasını labüd və zəruri etmişdir. Əslində, bundan qeyri olsaydı, sual və tərəddüdə yer olardı.

## *Fəslin əsas mətləbləri:*

**1.** İbn Ruşd deyir: "Təşabuh" çox az sayda fərdlər üçün və yalnız qeybi və hiss ilə dərk edilməyən məsələlər, varlıqlardan bəhs edən bir sıra ayələrdə irəli gəlir. Bunun səbəbi isə, qeybi məsələlərin hissi məsələlər ilə ifadə edilməsidir.

**2.** Əllamə Təbatəbainin əqidəsi budur ki, bir tərəfdən dinin hidayəti bütün insanlar üçün olduğuna görə, digər tərəfdən də insanların düşüncə səviyyələri müxtəlif olduğuna görə – belə ki, bəziləri yalnız hiss olunan varlıqları və fenomenləri dərk etməyə, bəziləri isə külli və mücərrəd mənaları da dərk etməyə qadirdir –, bundan əlavə, ilahi məfhumlar və Quranın ali maarifi maddi kəlmələr qəlibində bəyan olunduğundan təşabuh irəli gəlir. Bu məsələ qaçılmaz və labüddür.

**3.** Bəziləri Quranda təşabuhlərin olmasını bu cəhətdən təbii hesab edirlər ki, Quran öz maarifini bəyan etmək üçün bəşərin işlətdiyi sadə kəlmə və ifadələrdən tutmuş bədii ifadələrə qədər istifadə etmişdir. Məcazi məna bildirən söz və ifadələrin istifadəsi təşabuhun irəli gəlməsini labüd etmişdir.

**4.** Belə başa düşülür ki, yuxarıdakı fikir Əllamə Təbatəbainin fikrini tamamlayır və Quranda mütəşabihlərin olmasının səbəbi bu iki məsələdən biri ola bilər. Belə olduğu təqdirdə Quranda mütəşabihlərin olmasının nəinki iradı yoxdur, hətta belə ifadələrin işlədilməsi özü bir üstünlükdür.

[1] ət-Təmhid, c.3, s.14.

# Üçüncü fəsil

## Mütəşabih ayələrin bəzi nümunələri[1]

Heç şübhəsiz, Quranda mütəşabih ayələrin ən bariz nümunələri Mütəal Allahın sifətlərinə və fellərinə aid olan bir sıra ayələrdir. Bu ayələrdən əlavə, insanın hidayət və zəlalətindən bəhs edən bir sıra ayələr, həmçinin vəhy və qeybi varlıqlardan bəhs edən ayələr bəziləri üçün təşabuh yaratmışdır.

Demək olar ki, hicri-qəməri birinci əsrdən indiyədək bəziləri bu ayələrdən səhv nəticələr çıxarmış, bu da öz növbəsində azğın firqələrin meydana gəlməsinə gətirib çıxarmışdır. Burada həmin ayələrdən bir neçəsinə nəzər salacağıq. Eyni zamanda xatırlatmaq istərdik ki, azğın firqələr Quran ayələrindən nəticə çıxararkən iki məsələni unutmuşlar:

***Birincisi,*** müəyyən bir mövzuya aid ayə ilə rastlaşdıqda (məsələn, hidayət və zəlalət mövzusu) həmin mövzuya aid bütün ayələri nəzərə alıb nəticə çıxarmalıdırlar.

***İkincisi,*** müəyyən bir mövzuya aid bütün ayələri nəzərə almaqla yanaşı, bu kimi ayələri Quranın möhkəm ayələrinə istinad etdirmək və ana ayələr ilə tutuşdurmaq lazımdır.

Azğın firqələrin, məsələn “mucəssəmə”, “cəbriyyə” və s. firqələrin meydana gəlməsinin səbəbi barədə başqa bir ehtimal da budur ki, onların havadarlarında əvvəlcədən mucəssəməliyə və cəbriliyə təmayül var imiş. Odur ki, Quran ayələri arasından da ilk baxışda Allahın cismaniliyinə, yaxud “məcburiyyət”ə dəlalət edən ayələri seçib götürmüş, bu ayələrin müqabilində olan ayələri isə məqsəddən uzaq bir mənada mənalandırmağa çalışmışlar.

## Mütəşabih ayələrə qısa baxış

**a) Allahın sifətləri:**

***Allahın taxtda əyləşməsi barədə olan ayələr:***

**1)** “Fussilət” surəsi 11-ci ayə:

ثُمَّ اسْتَوَىٰ إِلَى السَّمَاءِ وَ هِيَ دُخَانٌ ...

“Sonra səmanın (yaradılışına) başladı və o, bir tüstü idi.”

---

1 Müraciət edin: ət-Təmhid, c.3, s.83-dən başlayaraq.

**2)** “Furqan” surəsi 59-cu ayə və “Səcdə” surəsi 4-cü ayə:

ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ ...

“Sonra (yaradılmışlar üzərində hakimiyyət) taxtında qərar tutdu.”

**3)** “Taha” surəsi 5-ci ayə:

الرَّحْمَانُ عَلَى الْعَرْشِ اسْتَوَىٰ.

“Rəhman olan Allah (hakimiyyət) taxtında qərar tutmuşdur.”

***“Allahın əli” barədə olan ayələr:***

**4) “**Maidə” surəsi 64-cü ayə:

وَ قَالَتِ الْيَهُودُ يَدُ اللهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَ لُعِنُوا بِمَا قَالُوا بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ ...

“Yəhudilər dedilər: “Allahın əli bağlıdır.” Öz əlləri bağlansın və dedikləri sözün cəzası olaraq Allahın rəhmətindən uzaq düşsünlər! Əksinə, Onun hər iki əli açıqdır.”

**5)** “Fəth” surəsi 10-cu ayə:

يَدُ اللهِ فَوْقَ أَيْدِيهِمْ ...

“Allahın əli onların əlləri üstündədir.”

**6)** “Hədid” surəsi 29-cu ayə:

وَ أَنَّ الْفَضْلَ بِيَدِ اللهِ يُؤْتِيهِ مَنْ يَشَاءُ ...

“Və doğrudan da lütf və mərhəmət Allahın əlindədir və onu istədiyinə verir.”[1]

***Allahın gözlə görünməsi barədə olan ayə:***

**7)** “Qiyamət” surəsi 2223--cü ayələr:

وُجُوهٌ يَوْمَئِذٍ نَاضِرَةٌ. إِلَىٰ رَبِّهَا نَاظِرَةٌ.

“O gün neçə-neçə üzlər şad-xürrəm olacaq! Öz Rəbbinə tərəf baxacaqdır.”

***“Allahın gözü” barədə olan ayələr:***

**8)** “Tur” surəsinin 48-ci ayəsi:

وَ اصْبِرْ لِحُكْمِ رَبِّكَ فَإِنَّكَ بِأَعْيُنِنَا ...“Rəbbinin hökmünə səbir et, çünki sən Bizim gözümüz önündəsən.”

**9)** “Muminun” surəsi 27-ci ayə:

اصْنَعِ الْفُلْكَ بِأَعْيُنِنَا وَ وَحْيِنَا ...

“Gəmini Bizim gözümüz önündə və Bizim vəhyimizlə düzəlt.”

***“Allahın üzü” barədə olan ayələr:***

**10)** “Bəqərə” surəsi 115-ci ayə:

[1] Yuxarıdakı ayələrdə işlənən “يَد” sözünün mənası “Sad” surəsinin 45-ci ayəsində işlənən “أَيْدِى” sözü ilə aydınlaşır. Bu ayədə “أَيْدِى” sözü “güc və qüdrət” mənasını bildirir.

وَ لِلّٰهِ الْمَشْرِقُ وَ الْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّوا فَثَمَّ وَجْهُ اللهِ.

"Şərq və qərb Allaha məxsusdur. Odur ki, hansı tərəfə üz tutsanız, Allahın üzü oradır."

**11)** "ər-Rəhman" surəsi 27-ci ayə:

كُلُّ مَنْ عَلَيْهَا فَانٍ. وَ يَبْقَىٰ وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَ الْإِكْرَامِ.

"Bunun (yerin) üzərində olan hər bir kəs fənaya məhkumdur. Yalnız əzəmət və ikram sahibi olan Allahın üzü (zatı) qalacaqdır."

***"Allahın gəlməsi" barədə olan ayə:***

**12)** "Fəcr" surəsinin 22-ci ayəsi:

وَ جَاءَ رَبُّكَ وَ الْمَلَكُ صَفًّا صَفًّا.

"Rəbbinin və mələklərin səf-səf gələcəyi."

Yuxarıda qeyd edilən ayələr üzərində bir qədər düşünmək və möhkəm ayələr olan digər qisim ayələri nəzərə almaq sözügedən ayələrdə olan qeyri-aydınlığı aradan qaldırır, Allahın cisim olması barədə yaranan yanlış düşüncəni zehindən uzaqlaşdırır.

Mütəal Allah buyurur:

لَا تُدْرِكُهُ الْأَبْصَارُ وَ هُوَ يُدْرِكُ الْأَبْصَارَ وَ هُوَ اللَّطِيفُ الْخَبِيرُ.

"Gözlər Onu görməz və O, gözləri görür. O, lətif və xəbərdardır."[1]

Həmçinin buyurur:

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَ هُوَ السَّمِيعُ الْبَصِيرُ.

"Heç nə Onun kimi deyil və eşidən və görən Odur."[2]

Bu və digər ayələr Allahın insanlara və başqa varlıqlara bənzəmə düşüncəsini aradan qaldırır.

Quranda Allah barəsində işlənən "ərş və kürsi" ifadəsində "yaradılışın işlərinin idarə edilməsi və kainata hökmdarlıq" mənası nəzərdə tutulur. Bu ifadə hədislərdə iki şəkildə qeyd edilmişdir: 1) Elm; 2) Allahdan qeyri bütün varlıqlar. Ola bilsin ki, burada Allahın elm və qüdrətindən qaynaqlanan bütün kainatın idarəçiliyi nəzərdə tutulur.[3]

## b) Allahın felləri:

Aşağıdakı ayələrin zahiri "məcburiliyə" və "tam ixtiyara" dəlalət edir, insanların hidayət və azğınlığının, iman və küfrünün, xoşbəxtlik və bədbəxtliyinin Allahın istəyi ilə olduğunu bəyan edir:

**1)** "Fatir" surəsinin 8-ci ayəsi:

فَإِنَّ اللهَ يُضِلُّ مَنْ يَشَاءُ وَ يَهْدِي مَنْ يَشَاءُ.

[1] Ən`am surəsi, ayə: 103.
[2] Şura surəsi, ayə: 11.
[3] ət-Təmhid, c.3, s.122-126.

“Həqiqətən Allah istədiyini azğınlıqda buraxar və istədiyini doğru yola yönəldər.”

**2)** “Bəqərə” surəsinin 26-cı ayəsi:

يُضِلُّ بِهِ كَثِيرًا وَ يَهْدِى بِهِ كَثِيرًا.

“(Allah) onunla çoxlarını azdırır və onunla çoxlarını hidayət edir.”

**3)** “İbrahim” surəsi 4-cü ayə:

فَيُضِلُّ اللهُ مَنْ يَشَاءُ وَ يَهْدِى مَنْ يَشَاءُ.

“Beləliklə, Allah istədiyini azğınlıqda boşlayır və istədiyini hidayət edir.”

**4)** “Ən`am” surəsi 111-ci ayə:

مَا كَانُوا لِيُؤْمِنُوا إِلَّا أَنْ يَشَاءَ اللهُ ...

“Allahın istəyi istisna olmaqla, onlar yenə də iman gətirməyəcəkdilər.”

**5)** “Ən`am” surəsi 107-ci ayə:

وَ لَوْ شَاءَ اللهُ مَا أَشْرَكُوا.

“Əgər Allah istəsəydi, onlar (Allaha) şərik qoşmazdılar.”

**6)** “Ə`raf” surəsi 30-cu ayə:

فَرِيقًا هَدَىٰ وَ فَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلَالَةُ.

“(Allah) bir dəstəni hidayət etmiş, bir dəstə üçün isə zəlalət və azğınlıq gerçəkləşdirmişdir.”

**7)** “Ə`raf” surəsi 178-ci ayə:

مَنْ يَهْدِ اللهُ فَهُوَ الْمُهْتَدِى وَ مَنْ يُضْلِلْ فَأُوْلٰئِكَ هُمُ الْخَاسِرُونَ.

“Allah kimi hidayət etsə, o, hidayət olunmuşdur və kimi azğınlıqda boşlasa, həqiqətən ziyana uğrayanlar onlardır.”

**8)** “Bəqərə” surəsi 142-ci ayə:

يَهْدِى مَنْ يَشَاءُ إِلَىٰ صِرَاطٍ مُسْتَقِيمٍ.

“(Allah) istədiyini doğru yola hidayət edir.”

**9)** “İnsan” surəsi 30-cu ayə:

وَ مَا تَشَاءُونَ إِلَّا أَنْ يَشَاءَ اللهُ ...

“Allah istəməsə, siz əsla istəyə bilməzsiniz.”

***İnsanın öz əməlinin ixtiyar sahibi olmaması barədə ayə:***

**10)** “Ənfal” surəsi 17-ci ayə:

فَلَمْ تَقْتُلُوهُمْ وَ لٰكِنَّ اللهَ قَتَلَهُمْ وَ مَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَ لٰكِنَّ اللهَ رَمَىٰ ...

“Onları siz öldürmədiniz, Allah öldürdü onları! Sən onlara tərəf (daş) atan zaman, sən atmadın, Allah atdı.”

* * *

Bəziləri yuxarıda qeyd edilən ayələrə istinad edərək “cəbrilik” (məcburilik) inancını qəbul etmişlər. Bu ayələrin mənasının aydın olması üçün aşağıdakı ayələrə diqqət yetirmək zəruridir:

**1)** “Əbəsə” surəsi 12-ci ayə və “Muddəssir” surəsi 55-ci ayə:

كَلَّا إِنَّهَا تَذْكِرَةٌ. فَمَنْ شَاءَ ذَكَرَهُ.

“Belə deyil. Həqiqətən o (Quran), bir xatırlatmadır (öyüd-nəsihədir). Kim istəsə, onun məzmununu xatırlayar.”

**2)** “Muzzəmmil” surəsi 19-cu ayə:

إِنَّ هٰذِهِ تَذْكِرَةٌ فَمَنْ شَاءَ اتَّخَذَ إِلَىٰ رَبِّهِ سَبِيلًا.

“Həqiqətən bu (ayələr) öyüd-nəsihətdir, belə isə, kim istəsə öz Rəbbinə tərəf bir yol tutar.”

**3)** “Kəhf” surəsi 29-cu ayə:

وَ قُلِ الْحَقُّ مِنْ رَبِّكُمْ فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَ مَنْ شَاءَ فَلْيَكْفُرْ.

“Və de: “Haqq sizin Rəbbiniz tərəfindən olandır. Buna görə də istəyən iman gətirsin, istəyən küfr etsin.””

**4)** “İnsan” surəsi 3-cü ayə:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَ إِمَّا كَفُورًا.

“Həqiqətən onu düz yola yönəltdik - istər şükür edən olsun, istərsə də nankor.”

**5)** “Zumər” surəsi 41-ci ayə:

فَمَنِ اهْتَدَىٰ فَلِنَفْسِهِ وَ مَنْ ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا.

“Buna görə də kim doğru yola gəlsə, öz xeyrinə hidayət olub və kim yolunu azsa, yalnız öz ziyanına azır.”

**6)** “Bəqərə” surəsi 256-cı ayə:

لَا إِكْرَاهَ فِى الدِّينِ.

“Dində məcburiyyət yoxdur.”

**7)** “Ənfal” surəsi 42-ci ayə:

لِيَهْلِكَ مَنْ هَلَكَ عَنْ بَيِّنَةٍ وَ يَحْيَىٰ مَنْ حَىَّ عَنْ بَيِّنَةٍ.

“Həlak olan dəlil-sübut ilə həlak olsun və həyat tapan dəlil-sübut ilə həyat tapsın.”

**8)** “Nəcm” surəsi 40-cı ayə:

وَ أَنْ لَيْسَ لِلْإِنْسَانِ إِلَّا مَا سَعَىٰ. وَ أَنَّ سَعْيَهُ سَوْفَ يُرَىٰ.

“Və insan üçün etdiyi səy və əməldən başqa bir şey yoxdur. Onun səy və əməli tezliklə görünəcəkdir.”

**9)** “Ğafir” surəsi 17-ci ayə:

الْيَوْمَ تُجْزَىٰ كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ لَا ظُلْمَ الْيَوْمَ.

“Bu gün hər kəs qazandığı əməllərin əvəzini alacaqdır. Bu gün (kimsəyə) zülm olunmaz.”

**10)** “Muddəssir” surəsi 38-ci ayə:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ.

“Hər kəs öz əməlinin girovundadır.”

**11)** “Bəqərə” surəsi 286-cı ayə:

لَهَا مَا كَسَبَتْ وَ عَلَيْهَا مَا اكْتَسَبَتْ.

“Kim nə xeyir iş görübsə, öz xeyrinə və nə pis iş görübsə, öz ziyanınadır.”

**12)** “Kəhf” surəsi 30-cu ayə:

إِنَّا لَا نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلًا.

“Şübhəsiz, Biz gözəl iş görmüş kəsin mükafatını zay etməyəcəyik.”

**13)** “Mulk” surəsi 2-ci ayə:

الَّذِى خَلَقَ الْمَوْتَ وَ الْحَيَوٰةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا.

“Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur!”

**14)** “Ən`am” surəsi 160-cı ayə:

مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا.

“Kim yaxşı bir iş görsə, həmin şəxs üçün onun on qat savabı vardır.”

Göründüyü kimi, bu ayələrdə hidayət və zəlalətin insanların öz əllərində olduğu, həyat və ölümün sınaq səhnəsi olduğu bilidirilir. Yəni kim istəyirsə, iman gətirir və istəməyən kafir olur.

Birinci dəstə ayələrin zahirindən elə başa düşülür ki, insanların öz hidayətlərində və zəlalətlərində rolu yoxdur, Allah-Təala Öz istəyi ilə insanları hidayət edir və ya azdırır. Lakin bu ayələrdə ilahi rəhmətə ləyaqəti çatan insanlara ilahi tofiq və müvəffəqiyyətin şamil olması, həmçinin Allahı unudanların ziyana uğraması nəzərdə tutulur.

Əlbəttə, bəziləri ikinci dəstə ayələrdən “təfviz”, yəni “mütləq ixtiyar” məsələsini nəticə çıxarmışlar. “Mufəvvəzə” adlanan bu fikir sahibləri də səhv yolu tutmuşlar. Çünki hər iki dəstə ayədən çıxarılan ümumi nəticəyə istinadən, həmçinin Əhli-beytin (ə) hədislərinə istinadən Quran nə mütləq məcburiyyəti, nə də mütləq ixtiyarı bəyan edir. Həqiqət, “iki yol arasındakı yol”dur (اَمْرٌ بَيْنَ الْأَمْرَيْنِ).[1]

[1] Bu barədə geniş məlumat üçün dini inanclara dair kitablarda bəhs olunan “məcburiyyət və ixtiyar” mövzusuna müraciət edin.

## *Fəslin əsas mətləbləri:*

**1.** Mütəşabih ayələrin ən bariz nümunələri Allahın sifətlərinə və fellərinə aid olan bir sıra ayələrdir.

**2.** Bir tərəfdən müəyyən bir mövzuya aid bütün ayələri araşdırmamaq, digər tərəfdən mütəşabih ayələri möhkəm ayələrə istinad etdirməmək dində azğın firqələrin meydana gəlməsinin başlıca səbəbi olmuşdur.

**3.** Ehtimal verilir ki, Quran ayələrindən səhv nəticə çıxarmanın başqa bir səbəbi müəyyən təmayüllər və tərzi-düşüncələrlə Quran ayələrinə müraciət etmədir. Başqa sözlə, bir sıra azğın firqələrin tərəfdarları əvvəlcədən meyilli olduqları inanclara zahiri uyğun gələn ayələri əsas götürmüşlər.

**4.** Allahın sifətləri barədə olan bəzi ayələrdə Allahın ərş və kürsüsündən, əl və üzündən, görməsindən və gəlməsindən söz açılır, bu da "təşabuh" və çaşqınlıq yaradır. Lakin dəqiq və incə baxışda "Allahın cismaniliyi" tərzi-düşüncəsinin yanlış olduğu aydın olur.

**5.** Allahın felləri və insanların əməlləri barədə olan bəzi ayələrdən hər şeyin Allahın istəyinə bağlı olduğu, Allahın hidayət etdiyi və ya azdırdığı və s. bu kimi mənalar əldə olunur. Bu zahiri mənalar bəzilərini çaşqınlığa salmış, onların "məcburiyyət"ə inanmalarına səbəb olmuşdur. Saysız ayələr vardır ki, açıq-aydın insanı ixtiyar sahibi olan bir varlıq tanıtdırır, xoşbəxtlik və bədbəxtliyin onun öz əlində olduğunu vurğulayır. Bu iki dəstə ayələrdən çıxarılan ümumi nəticəyə istinadən, həmçinin hədislərə istinadən həqiqət və doğru yol "iki yol arasındakı yol"dur.

# Dördüncü fəsil

## Tə`vil

“Möhkəm və mütəşabih” hissəsində axırıncı bəhsimiz “Tə`vil” mövzusudur. “تَأْوِيل” (tə`vil) sözü “تَفْعِيل” (təf`il) babının məsdəridir və sözün kökü “أوْل” olub “müraciət etmək, qayıtmaq” mənasını bildirir.

Bu söz təfsir və Quran elmlərinin əsas terminlərindən biridir və qədimdən bəri quranşünasların, müfəssirlərin diqqət nəzərində olmuş, onun barəsində müxtəlif fikirlər irəli sürülmüşdür. “Tə`vil” sözü Qurani-Kərimdə 17 dəfə işlənmişdir və bunlardan biri “Ali-İmran” surəsinin 7-ci ayəsidir. Bu ayədə bəyan olunur ki, Quran ayələri “möhkəm” və “mütəşabih” ayələrə ayrılır. Yolunu azmış kəslər fitnə-fəsad törətməkdən ötrü mütəşabih ayələrin axtarışındadırlar və onları tə`vil etməyə səy göstərirlər. Burada iki mühüm məsələ mövcuddur: 1) Tə`vil nədir? 2) Tə`vili bilmək Allaha aiddirmi?

### *Birinci məsələ:* Tə`vil nədir?

Əllamə Təbatəbai deyir:

“Qədim alimlər arasında məşhur fikir bu olmuşdur ki, “tə`vil” elə təfsir və kəlamda nəzərdə tutulan mənadır. Halbuki, son dövrün alimləri deyirlər: Tə`vil, sözün zahirinin ziddinə olan mənadır. Bu əqidə o qədər geniş yayılmışdır ki, leksik mənası “müraciət etmək və ya müraciət yeri” olan “tə`vil” sözü özünə ikinci bir məna – “ sözün zahirinin ziddinə olan məna” tapmışdır.”[1]

Əllamə Təbatəbai müxtəlif fikirləri qeyd etdikdən və onların qeyri-məqbul olduğunu sübuta yetirdikdən sonra belə bir nəticəyə gəlir:

"“Tə`vil”in izahında bunu demək doğru olardı: “Tə`vil” bir həqiqət və gerçəklikdir ki, Quranın bəyanları – istər dini hökmlər olsun, istər hikmət olsun, istərsə də moizə və öyüd-nəsihət – bu gerçəkliyə söykənir. Tə`vil, Quranın bütün ayələri – istər möhkəm, istərsə də mütəşabih ayələr – üçün mövcuddur. Bu, məfhum və məna qismindən deyildir ki, sözlər bu məfhum və mənaya dəlalət etsin. Əksinə, tə`vil “eyni həqiqətlər”dir (yəni zehindən xaric fenomenlərdir) və söz qəlibinə sığmaqdan ucadır. Bizim zehnimizdə təsəvvür yaratmaqdan ötrü bu “eyni həqiqətlər”, söz və kəlmə qəlibinə salınmışdır. Bu söz və kəlmələr, bir növ çəkilən misallara bənzəyir ki, insanı nəzərdə tutulan mənaya yaxınlaşdırır.

[1] əl-Mizan, c.3, s.44.

Quranda “tə`vil” sözünün işləndiyi hər bir yerdə həmin “eyni həqiqətlər” nəzərdə tutulmuşdur.”[1]

“Tə`vil” kəlməsinin işləndiyi məqamlar, o cümlədən, Həzrət Musa (ə) ilə Həzrət Xızırın (ə) əhvalatı[2], Həzrət Yusufin (ə) əhvalatı və s. bu iddiaya şahidlik edir.[3] Nümunə olaraq, “Yusuf” surəsinin başlanğıcında Həzrət Yusufin (ə) yuxusu əhvalatı bu şəkildə bəyan olunur:

إِذْ قَالَ يُوسُفُ لِأَبِيهِ يٰأَبَتِ إِنِّى رَأَيْتُ أَحَدَ عَشَرَ كَوْكَبًا وَ الشَّمْسَ وَ الْقَمَرَ رَأَيْتُهُمْ لِى سَاجِدِين.

“(Xatırla) o zamanı ki, Yusif öz atasına (Yəquba) dedi: “Atacan, həqiqətən mən (yuxuda) on bir ulduz, günəş və ay gördüm; onları mənə səcdə edən gördüm.’”[4]

İllər ötdükdən və çoxlu hadisələr baş verdikdən sonra bu yuxunun tə`vili həmin surənin axırında belə çatdırılır:

وَ رَفَعَ أَبَوَيْهِ عَلَى الْعَرْشِ وَ خَرُّوا لَهُ سُجَّدًا وَ قَالَ يٰأَبَتِ هٰذَا تَأْوِيلُ رُءْيَاىَ مِن قَبْلُ قَدْ جَعَلَهَا رَبِّى حَقًّا.

“Və ata-anasını öz taxtına çıxartdı və (o, daxil olan zaman hamısı) onun qarşısında səcdəyə düşdülər. Və (Yusif) dedi: “Ey ata, (bu səcdələr) mənim əvvəlki yuxumun təvilidir ki, Allah onu gerçəkləşdirdi.’”[5]

Burada Yusifin yuxuda gördükləri ata, ana və qardaşların səcdəsinə qayıdır. Bu tə`vil və müraciət, “misal”ın “muməssəl”ə və “eyni həqiqət”ə qayıtması qismindəndir.

Əllamə Təbatəbainin nəzərinin müqabilində Ustad Mərifət bu əqidədədir ki, terminoloji “tə`vil” 2 mənada işlənir:

1) “Mütəşabih”in izahı: istər bu mütəşabih “mütəşabih kəlam” olsun, istərsə də, şəkk-şübhə yaradan bir əməl olsun. Tə`vilin bu qismi mütəşabih ayələrə aiddir.

2) Kəlamın ikinci mənası: bu məna “kəlamın zahiri” kimi ifadə olunan birinci mənanın müqabilində dayanır və “kəlamın bətni” kimi də ifadə olunur. Bu mənada “tə`vil” təkcə mütəşabih ayələrə aid olmur, bütün Qurana kölgə salır.

Ustad Mərifətin əqidəsinə görə əgər tə`vili “eyni həqiqət” kimi götürsək, “misdaq”ı “tə`vil” ilə qarışdırmış olarıq. Quranda “tə`vil” kəlməsinin işləndiyi ayələri üç qrupda cəmləmək olar ki, yuxarıdakı iki mənadan birinə dəlalət edir:

1) Yuxunun tə`vili: bu, səkkiz yerdə işlənmiş və “kəlamın ikinci mənası”, yəni “kəlamın batini” anlamını daşıyır.

2) İşin müraciət və istinad yeri: bu, beş yerdə işlənib.

3) Mütəşabihin izahı: bu, dörd yerdə işlənib.[6]

---

[1] Öncəki qaynaq, s.49.
[2] Kəhf surəsi, ayə: 78.
[3] Müraciət edin: əl-Mizan, s.25-26.
[4] Yusuf surəsi, ayə: 4.
[5] Yusuf surəsi, ayə: 100.
[6] Müraciət edin: ət-Təmhid, c.3, s.28-34.

## *İkinci məsələ:* Tə`vili bilmək Allaha aiddirmi?

Bu sual da "Ali-İmran" surəsinin 7-ci ayəsinin axırında işlənən cümlə ilə əlaqədar ortaya çıxmışdır. Hətta bu ayənin qiraəti barədə ciddi fikirayrılıqları mövcuddur ki, bəzilərinin dediyinə görə, bütün Quranda qiraət xüsusunda ən ciddi fikirayrılığı bu məqamdadır. Fikirayrılığı "وَ مَا يَعْلَمُ تَأْوِيلَهُ إِلَّا اللهُ" cümləsində "الله" (Allah) kəlməsinin üzərində vəqf etmək və ya etməmək üzərindədir.[1]

Burada "vəqf"i qəbul edənlər "tə`vil" elminin Allaha aid olduğunu bildirirlər. "Ətf"i (yəni vəqf etməməyi, dayanmamağı) qəbul edənlər isə "tə`vil" elminin yalnız Allaha aid olmadığını bildirir, "elmdə qüvvətli olanlar"ın da "tə`vil"i bildiklərini qəbul edirlər.

Baxmayaraq ki, bu məsələ qədimdən indiyədək mübahisə mövzusu olmuşdur, lakin onun "əməli səmərəsi"ndən çox "elmi tərəfi" nəzərdə tutulmuşdur. Çünki ərəb qrammatikası baxımından hər iki nəzəriyyə - həm "vəqf"ə, həm də "ətf"ə icazə verilir, qrammatik baxımından heç bir nəzəriyyənin iradı yoxdur. Bu mətləbə ən yaxşı şahid, hər iki nəzəriyyənin tərəfdarlarının olmasıdır, onların arasında da tanınmış filoloqlar və dilçilər vardır.

Demək olar ki, əhli-sünnə alimlərinin böyük əksəriyyəti "vəqf" ilə qiraəti qəbul edirlər. O cümlədən, Ubəyy ibn Kə`b, İbn Məs`ud, Həsən Bəsri, Malik, Fərra, Əxfəş, Cəbayi Mötəzili, Təbəri, Meybudi, İmam Fəxr Razi və b. "Ətf" ilə qiraəti qəbul edənlər arasında əhli-sünnə alimləri də vardır, lakin şiə alimlərinin böyük əksəriyyəti bu nəzəriyyənin tərəfdarıdır. Əhli-sünnə alimlərindən Mücahid, Nəhhas Nəhvi, Ukbəri Nəhvi, Qazi Əbdul-Cəbbar, Zəməxşəri, İbn Əbil-Hədid, Bəyzavi, Zərkeşi, Alusi, Şeyx Məhəmməd Əbduh və b adını çəkmək olar.[2]

Bu məsələnin əməli səmərəsinin olmadığı bu səbəbdəndir ki, bəzi alimlərin, o cümlədən, Əllamə Təbatəbainin nəzərinə görə sözügedən ayədən "ətf" ilə qiraət əldə olunmasa da, lakin eyni zamanda o, bu əqidədədir ki, tə`vil elminin yalnız Allaha aid olmadığı başqa dəlillərlə, o cümlədən, başqa ayələr və hədislər vasitəsilə əldə olunur.

"Elmdə qüvvətli olanlar"ın mütəşabih ayələrin "tə`vil"ini bildiklərinə dair ən aydın əqli dəlil budur ki, Quran insanların dilində və onların hidayəti üçün nazil olmuşdur. Əgər Quranın tə`vilini bilmək alimlər və "elmdə qüvvətli olanlar" üçün müyəssər olmazsa, Quran cavabı məlum olmayan müəmmaya çevrilər. Halbuki, Quranın özü ayələr üzərində düşünüb-daşınmağı göstəriş verir.

Təəccüblüsü budur ki, əgər "tə`vil"i bilmək yalnız Allaha aid olarsa, onda Həzrət Peyğəmbər (s) və Məsum İmamlar (ə) da bunu bilməkdən məhrum qalacaqlar. Yəni vəhyi alan və çatdıran Peyğəmbər (s) ayələrin tə`vilini bilmir!

---

1 "Qətrei əz dərya" kitabında Bəhauddin Xurrəmşahinin kəlamı, s.77.

2 Öncəki qaynaq, s.79-80.

## *Fəslin əsas mətləbləri:*

**1.** Qədim alimlər “tə`vil”i “şərh və təfsir” olaraq, son dövrün alimləri isə “sözün zahirinə zidd olan məna” olaraq mənalandırmışlar.

**2.** Əllamə Təbatəbainin nəzərinə görə, “tə`vil” Qurani-Kərimin bütün bəyanlarının söykəndiyi bir həqiqət və gerçəklikdir. “Tə`vil” sözünün Quranda işləndiyi məqamlar göstərir ki, “tə`vil” məfhum və məna qismindən deyildir. Beləliklə, bütün Quranın – istər möhkəm, istərsə də mütəşabih ayələrin tə`vili vardır.

**3.** Bəzi alimlərin nəzərinə görə, “tə`vil”in iki terminoloji mənası vardır: “mütəşabihin izahı” və “kəlamın ikinci mənası”.

**4.** “Tə`vili bilmək yalnız Allaha aiddirmi, yoxsa yox?” – sualının cavabı sözügedən ayədən əldə olunmasa da, “tə`vil”i bilməyin yalnız Allaha aid olmadığı başqa dəlillərlə əldə olunur.

**5.** Əhli-sünnə alimlərinin əksəriyyəti “vəqf” ilə qiraəti qəbul edirlər, yəni “tə`vil”i bilməyin yalnız Allaha aid olduğunu qəbul edirlər. Onların müqabilində şiə alimlərinin əksəriyyəti “ətf” ilə qiraəti qəbul edirlər, yəni “tə`vil”i bilməyin yalnız Allaha aid olmadığını bildirirlər.

### *Doqquzuncu hissənin sualları:*

**1.** Hansı səbəbə görə sapqın firqələrin meydana gəlməsinin mühüm səbəblərindən biri Quranın mütəşabih ayələridir?

**2.** “Möhkəm” və “mütəşabih”in tərifini deyin.

**3.** Quranda möhkəm və mütəşabihi müəyyən etmək xüsusunda bir neçə nəzəriyyəni bəyan edin.

**4.** Əllamə Təbatəbainin nəzərinə görə Quranda mütəşabih ayələrin olmasının səbəbi nədir?

**5.** Quranda mütəşabih ayələrin olmasına dair başqa bir səbəb də göstərmək olarmı?

**6.** Səhv nəticə çıxarılan mütəşabih ayələrdən beş ayəni göstərin.

**7.** Tə`vil nədir?

**8.** Quranda “tə`vil” sözü hansı mənalarda işlənmişdir?

**9.** Tə`vili bilmək yalnız Allaha aiddirmi?

### *Araşdırma üçün suallar:*

**1.** Quran elmlərinin əsas mövzularından olan “nasix və mənsux” və “möhkəm və mütəşabih” mövzularının hansı biri daha böyük əhəmiyyət daşıyır? Hansı səbəbə görə?

**2.** Quranda mütəşabihlərin olmasına dair başqa bir səbəb söyləyə bilərsinizmi?

**3.** Qurani-Kərimdə qəzavü-qədər barədə ayələr vardır ki, onlardan da səhv nəticələr çıxarılmışdır. Bu ayələrdən bir neçəsini açıqlayın.

**4.** “Tə`vil elmi” mövzusunda araşdırma aparın.

# ONUNCU HİSSƏ

# QURANİ-KƏRİM BARƏDƏ YETMİŞ DİQQƏTƏLAYİQ MƏQAM

# Azad mütaliə

## Müqəddimə

Kitabın ötən hissələrində Quran elmlərinin bir sıra mühüm mövzuları ilə tanış olduq. Quran tədqiqatçısı Ustad Bəhauddin Xürrəmşahi "Quran şenaxt" (Quran tanıma) adlı əsərinin bir fəslində Quranla bağlı 101 diqqətəlayiq məqamı qeyd etmişdir. Bunlar Quranla tanışlıq zəminində faydalı və dəyərli məlumatlardır.

Biz bu məlumatların bir çoxunu qarşınızdakı kitabın müxtəlif hissələrində bəyan etdik. Lakin bunları yenidən xatırlatmaq bir növ kitabın əhatə etdiyi mövzuları təkrarlamaq olduğundan onuncu hissəni adı çəkilən kitabda 101 məlumat arasından seçdiyimiz 70 məlumatın bəyanına həsr edirik.

Qeyd etmək istərdik ki, məlumatların tərtibatında müəyyən dəyişikliklər etsək də, lakin məlumatları olduğu kimi qeyd etmiş, izaha ehtiyac olduğu təqdirdə lazımi izahları mətnaltı qeyddə açıqlamışıq.

### *Qurani-Kərim barədə yetmiş diqqətəlayiq məqam:*

**1.** Qurani-Kərimi daha dərindən və daha dəqiq başa düşmək və başa salmaq, tanımaq və tanıtmaq üçün ortaya çıxan elmlərə "Quran elmləri" deyilir. İslam tarixi boyu bu elmlərin sayı getdikcə artmışdır. Təcvid, tərtil və tərcümə bu elmlərdəndir. Quran elmləri aşağıdakılardan ibarətdir:

1) Quranın tarixi; 2) Osmani rəsmul-xətt (yazı xətti) elmi; 3) Məkki və mədəni surələri tanımaq; 4) Şəni-nüzul (ayələrin nazil olma səbəbi) elmi; 5) Nasix və mənsuxu tanıma elmi; 6) Möhkəm və mütəşabih elmi; 7) Təhəddi, Quranın möcüzəliyi və təhrif olunmaması; 8) Təfsir və təvil; 9) Qiraət, təcvid və tərtil; 10) Quran fiqhi və ya Quran ehkamı; 11) Quranın erabı və Quranın qrammatik qaydaları; 12) Quran qissələri; 13) "Ğəribul-Quran" elmi və ya Quran leksikologiyası; 14) Quran tərcüməsi elmi.[1]

**2.** Qurani-Kərim tövhid (təkallahlıq) dinlərinin və İbrahimi dinlərin sonuncu ilahi vəhynaməsi, İslam dininin müqəddəs kitabıdır. Bu kitabın kəlmələri belə ilahi vəhydir. Səmavi kitabların tarixində təhrifə uğramayan yeganə kitabdır. Həzrət Peyğəmbər (s) həyatda olduğu dövrdə Qurani-Kərim bir kitab və mushəf şəklində olmasa da, lakin xəlifə Osmanın xilafəti dövründə Həzrət Peyğəmbərin

[1] Müasir Quran tədqiqatçılarının "Quran elmləri" termini üçün müəyyən etdikləri hüdudları nəzərə alaraq, hal-hazırda Quran elmləri termini təfsir, təcvid, ehkam ayələri, Quran qissələri və Quran tərcüməsi elmlərinə aid edilmir.

(s) zamanında yazılan nüsxələr əsasında Qurani-Kərim mushəf şəklinə salındı. (Belə ki, Həzrət Peyğəmbər (s) hicri-qəməri 11-ci ildə vəfat etdi və Quran hicri-qəməri 30-cu ildə, yəni Osmanın xilafətinin başa çatmasına beş il qaldığı dövrdə bir kitab şəklində yığıldı.)

**3.** "İmam mushəflər" Osmani mushəflərdir. Onların sayı beş və ya altı nüsxə olmuş, o dövrdə İslam məmləkətinin mərkəzi şəhərlərinə bir Quran hafizi ilə birlikdə göndərilmişdir. (Bir nüsxə Məkkəyə, bir nüsxə Mədinəyə[1], bir nüsxə Bəsrəyə, bir nüsxə Kufəyə, bir nüsxə Bəhreynə və bir nüsxə də Şama göndərilmişdir.)

**4.** İmam mushəflər, yəni Osmani mushəflər əsrlərcə qorunub saxlanılmışdır. Belə ki, İslam dünyasının üç tanınmış səyyahı İbn Cubeyr (vəfat tarixi: h.q. 614-cü il), Yaqut (vəfat tarixi: h.q. 626-cı il) və İbn Bətutə (vəfat tarixi: h.q. 779-cu il) öz dövrlərində Dəməşqin "Cami-kəbir"ində (böyük mərkəzi məscidində) qorunub saxlanılan Osmani mushəfi görmüşlər. Onların yazdıqlarına görə, camaat həmin mushəfi böyük ehtiramla ziyarət edirmiş. Amma çox təəssüflər olsun ki, həmin mushəf hicri-qəməri 1310-cu ildə baş verən yanğın zamanı yanıb aradan getdi. Deyilənlərə görə, Osmani mushəflərdən biri hal-hazırda Qahirə şəhərində "Misir kitabxanası"nda qorunub saxlanmaqdadır. Bu nüsxənin ölçüləri "rəhli" ölçülərdən bir qədər böyükdür və son zamanlarda onun üzərində peşəkar ustadlar bərpa işləri aparırlar.

**5.** Quranın təxminən üçdə ikisi Məkkədə, üçdə birindən bir qədər çoxu isə Mədinədə nazil olmuşdur (Dr. Ramyar, "Quran tarixi", səh.263). Məkkədə nazil olan ayələrin sayı 4468 ayə, Mədində nazil olan ayələrin sayı isə 1768 ayədir ("Qurani-Kərimin kəlmələrinin sayının lüğəti", c.1, səh.39).

**6.** Peyğəmbərlərin (ə) qissə və hekayətləri daha çox məkki surələrdə, Quran fiqhi və ehkamı isə daha çox mədəni surələrdə bəyan olunmuşdur.

**7.** Peyğəmbərlərin (ə) hekayətləri hissə-hissə şəklində Qurani-Kərimdə bəyan olunmuşdur, yəni bu hekayətlər Quranda bir yerdə və bütövlükdə bəyan olunmamışdır. Təkcə Yusif peyğəmbər (ə) və onun qardaşlarının hekayəti bütövlükdə Quranın 12-ci surəsi olan "Yusuf" surəsində bəyan olunmuşdur.

**8.** Qurani-Kərimin 2 nüzulu vardır: 1) Dəf`i, yəni birdəfəyə nüzul; 2) Tədrici, yəni hissə-hissə 23 il ərzində olan nüzul. Quran ilk dəfə bütövlükdə Qədr gecəsində "Lövhi-məhfuz"dan "Beytul-izzə"yə və ya "Beytul-mə`mur"a (dördüncü səmaya) nazil olmuş, sonralar "نُجُومًا" və ya "مُنَجَّمًا", yəni hissə-hissə 23 il ərzində nazil olmuşdur (Biharul-ənvar, c.18, səh.253254-). Qurani-Kərimin iki nüzulu barədə Molla Möhsin Feyz Kaşaninin fikri belədir: (əvvəlcə) Quranın mənası Peyğəmbərin (s) qəlbinə nazil oldu... Sonra iyirmi (iyirmi üç) il ərzində Cəbrail

[1] Osmani mushəflər Mədinədə, yəni İslam xilafətinin paytaxtında tərtib olunduğu üçün bir nüsxənin Mədinəyə göndərilməsi məna daşımır. Bu o deməkdir ki, əsas nüsxə Mədinədə saxlanılmışdır.

(ə) zahir olub ona vəhy gətirdi və Quranın kəlmələrini ona oxudu. Peyğəmbərin (s) qəlbindən hissə-hissə onun dilinə nüzul etdi. (“Safi” təfsirinin 9-cu müqəddiməsi.)

**9.** Qırx nəfərə yaxın savadlı səhabənin vəhy katibi olduğu qeyd edilmişdir. Bu səhabələrdən on nəfərin adını burada sadalayırıq: dörd böyük xəlifə, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit, Təlhə, Zubeyr, Sə`d ibn Əbi Vəqqas, Salim Mövla Əbi Huzeyfə.

**10.** Həzrət Peyğəmbərin (s) səhabələri arasından Qurani-Kərimin ilk hafizlərindən on nəfərin adını burada sadalayırıq: Əli ibn Əbu Talib (ə), Osman, İbn Məs`ud, Ubəyy ibn Kə`b, Zeyd ibn Sabit, Əbud-Dərda, Salim Mövla Əbi Huzeyfə, Məaz ibn Cəbəl, Əbu Zeyd, Təmim əd-Dari.

**11.** Zeyd ibn Sabit xəlifə Osmanın dövründə Quranın kitabəti və tərtibi, imam mushəflərin (Osmani mushəflərin) yazılması üçün təşkil olunan heyətin rəhbəri idi. O, həm vəhy katibi, həm də Quran hafizi idi. Zeyd ibn Sabit xəlifə Əbu Bəkrin dövründə onun göstərişi ilə Həzrət Peyğəmbərdən (s) miras qalan və pərakəndə yazılmış vəhy kitabələri əsasında kamil bir mushəf hazırlamışdı. Həmin mushəf Ömərin, Ömərdən sonra onun qızı Həfsənin yanında əmanət idi. Xəlifə Osmanın dövründə bu mushəf əsas istinad mənbəyi oldu.

**12.** Qurani-Kərim otuz cüzdən, yəni otuz eyni həcmdə olan hissədən ibarətdir. Belə ehtimal verilir ki, Həzrət Peyğəmbər (s)[1] və ya onun canişinləri gün ərzində Quranın qiraətini asanlaşdırmaqdan ötrü bu bölgünü aparmışlar. İslam dünyasının bugünkü rəsmi mushəfində, yəni Osman Taha kitabəti ilə olan Mədinə mushəfində hər cüz iyirmi səhifədə və hər səhifədə on beş sətir olmaqla yazılmışdır.

**13.** Quranın otuz cüzünün hər birinin dörd və ya iki hizbi vardır. Ümumilikdə Quran 120 və ya 60 hizbdən ibarət olacaqdır. Ola bilsin ki, bu bölgü də “Fatihə məclisləri”ndə (mərhum üçün təşkil olunan yas məclislərində) Quran qiraətini asanlaşdırmaqdan ötrü aparılmışdır.[2]

**14.** Hər beş ayəni “xums” (خُمس), hər on ayəni “uşr” (عُشر) olaraq ayırmış, bunu “təxmis” (تخميس) və “tə`şir” (تعشير) adlandırmışlar. Bu bölgülərə Quranın haşiyəsində işarə olunub.

**15.** Quranın daxili bölgülərindən biri də “ruku`at”dır (ركوعات). Quranın digər bölgülərindən fərqli olaraq, “ruku`at” eyni və müəyyən bir həcmdə deyildir. Quranşünaslar mövzu və məna əsasında Quranı bir neçə ayədən ibarət olan hissələrə ayırmışlar ki, bu hissələr namazda “Həmd”dən sonra oxunur və namaz qılan şəxs onu oxuduqdan sonra rükuya gedir. Quranın “ruku`at”ının sayı məşhur nəzəriyyəyə görə 540 hissədir.

**16.** Quran ayələrinin sayı ən düzgün hədislərə əsasən 6236 ayədir.

**17.** Quranın kəlmələrinin sayı 77807 kəlmədir.

---

[1] Bu bölgünün Həzrət Peyğəmbər (s) tərəfindən aparıldığına dair əldə sənəd yoxdur.

[2] Başqa bir ehtimal da Quranı əzbərləməyin asanlaşdırılmasıdır.

**18.** Qurani-Kərimdə Allah kəlməsi 2699 dəfə işlənmişdir.

**19.** “Səb`i-tuvəl”, yəni yeddi böyük surə bunlardır: “Ənfal”surəsini çıxmaqla “Bəqərə” surəsindən “Tövbə” surəsinə qədər.[1]

**20.** “Mufəssəlat”, yəni kiçik surələr “Hucurat” surəsindən sonra gələn Quranın 66 kiçik surəsidir: yəni “Qaf” surəsindən başlayaraq Quranın axırınadək. Bura Quranın birinci surəsi olan “Fatihə” surəsi də əlavə olunur. (Şenaxt-e sureha-ye Quran, s.47.)[2]

**21.** “Hamidat”, yəni “əl-Həmdu lilləh” kəlməsi ilə başlanan surələr aşagıdakı beş surədir:

Fatihə, Ənan, Kəhf, Səba, Fatir.

**22.** “Musəbbəhat” aşağıdakı surələrdir:

İsra, Hədid, Həşr, Səff, Cumuə, Təğabun, Ə`la.

**23.** “Zəhravan”, yaxud “Zəhravəyn” Quranın iki surəsidir: “Bəqərə” və “Ali-İmran”.

**24.** “Muəvvəzətəyn” Quranın axırıncı iki surəsi olan “Fələq” və “Nas” surələrinə deyilir. Həzrət Peyğəmbər (s) bu surələri oxumaqla nəvələri Həsən (ə) və Hüseyni (ə) Allahın pənahına tapşırarmış.

**25.** “Muqəttə`ə hərflər”, yaxud “Fəvatihi-suvər” (yəni surələri başlayan) Quranın 28 surəsinin ilk ayəsidir ki, burada hərflər öz adı ilə oxunur. “Bəqərə” və “Ali-İmran” surəsindən başqa qalan 26 surə məkki surələrdir.

**26.** Bəzi şiə tədqiqatçıları qeyd etmişlər ki, əgər “muqəttə`ə hərflər”də təkrarlanan hərfləri nəzərə almasaq, bu hərflərdən bu cümlə yaranar:

صِرَاطُ عَلِيٍّ حَقٌّ نُمَسِّكُهُ.

“Əlinin yolu haqqdır, bu yolu tutub gedirik.

Bəzi əhli-sünnı tədqiatçıları bəlkə də buna cavab olaraq demişlər ki, bu hərflərdən bu cümlə yaranır:

صَحَّ طَرِيقُكَ مَعَ السُّنَّةِ.

“Sənin yolun sunnə ilə doğrudur.”

**27.** “Muqəttə`ə hərflər” arasında ən kiçik ayə Quranın 20-ci surəsi “Taha” surəsinin ilk ayəsi olan“طه” (Taha) ayəsidir. Həmçinin Quranın 36-cı surəsi “Yasin” surəsinin ilk ayəsi olan “يس” ayəsidir. Bilməlisiniz ki, “Qaf” surəsinin ilk ayəsi olan “ق” ayəsi və “Qələm” surəsinin ilk ayəsi olan “ن” ayəsi bir ayə hesab olunmurlar.[3] “Muqəttə`ə hərflər” olan bu kiçik ayələrdən sonra Quranın ən kiçik

---

[1] “Tövbə” surəsini yeddi böyük surədən hesab etməmişlər. Bəziləri yeddinci böyük surəni “Yunus” surəsi, bəziləri isə “Kəhf” surəsi olduğunu söyləmişlər. (Müraciət edin: əl-İtqan, c.1, s.199.)

[2] Əksər alimlərin fikrincə, kiçik surələr “ər-Rəhman” surəsindən başlanır. (ət-Təmhid, c.1, s.251.) Bəziləri isə kiçik surələrin “Hucurat” surəsindən başlandığını qeyd etmişlər. (Mənahilul-irfan, c.1, s.352.)

[3] Həmçinin “Sad” surəsinin ilk ayəsi olan “ص” ayəsi.

ayəsi “ər-Rəhman” surəsinin 64-cü ayəsidir: “مُدْهَامَّتَانِ”. Ayənin mənası belədir: “Onların hər ikisi yaşıllığın çoxluğundan qaraya çalırlar.”

Quranın ən uzun ayəsi isə “Bəqərə” surəsinin 282-ci ayəsidir və “Tədayun” (borc verib alma) ayəsi adlanır. Mədinə mushəfində “Osman Taha” kitabəti ilə on beş sətirlik bir səhifəni tutur (48-ci səhifəni). Quranın ən uzun surəsi də “Bəqərə” surəsidir (“Osman Taha” kitabəti ilə mushəfdə 48 səhifəni tutur). Quranın ən kiçik surəsi isə “Kövsər” surəsidir, həcmi bir sətir yarımdır.

**28.** “Məun” (yaxud “Məin”) yüz ayədən artıq ayəsi olan surələrdir: “Yunus” surəsindən başlayaraq “Şuəra” surəsinədək. Əlbəttə, İbrahim, Rə`d, Hicr, Məryəm, Nur və Furqan surələrini çıxmaqla, çünki bu surələrin ayələrinin sayı yüz ayədən azdır. “Saffat” surəsi də “Məun” surələrə daxildir və beləliklə, bu surələr 11 surə olub aşağıdakılardan ibarətdir:

Yunus, Hud, Yusuf, Nəhl, İsra, Kəhf, Taha, Ənbiya, Mu`minun, Şuəra, Saffat. (Şenaxte surehaye Quran, s.46.)

**29.** Quran elmlərində “مثانى” (məsani) termini, ayələrinin sayı yüzdən az olan surələrə deyilir ki, “Şuəra” surəsindən sonra “Hucurat” surəsinə qədər olan surələri təşkil edir. Bu surələr Quranın 27-ci surəsindən (“Nəml” surəsi) 49-cu surəsinə qədər (“Hucurat” surəsi) olan surələrdir: “Saffat” surəsini çıxmaqla, çünki bu surə 182 ayədən ibarətdir. Həmçinin bunlara daha 8 surə daxildir ki, onların ayələrinin sayı yüzdən azdır: Ənfal, Rə`d, İbrahim, Hicr, Məryəm, Həcc, Nur, Furqan. (Şenaxte surehaye Quran, s.4648-.)

**30.** Quranda iki ayə vardır ki, əlifbanın bütün hərfləri bu ayələrdə işlənmişdir: “Ali-İmran” surəsinin 154-cü ayəsi və “Fəth” surəsinin 29-cu ayəsi.

**31.** Quranda iki ayə vardır ki, geriyə də o cur oxunur: “Yasin” surəsinin 40-cı ayəsi (كُلٌّ فِى فَلَكَ) və “Muddəssir” surəsinin 3-cü ayəsi (ربّك فكبّر).

**32.** Qurani-Kərimin tam ortası, yəni iki bərabər hissəyə ayrıldığı yer “Kəhf” surəsinin 19-cu ayəsindəki:

“و ليتلطّف” kəlməsidir.

**33.** Quranda dörd ifadədə dörd təşdid ardıcıl işlənmişdir:

1- “Məryəm” surəsinin 6465--ci ayələri: “نَسِيًّا رَّبُّ السَّمَاوَاتِ”

2- “Nur” surəsinin 40-cı ayəsi: “فِى بَحْرٍ لُّجِّىٍّ يَّغْشَاهُ”

3- “Yasin” surəsinin 58-ci ayəsi: “قَوْلًا مِّن رَّبٍّ رَّحِيمٍ”

4- “Mulk” surəsinin 5-ci ayəsi: “وَ لَقَدْ زَيَّنَّا السَّمَاءَ الدُّنْيَا”

**34.** Qurani-Kərimdə ən geniş “tərcibənd” (təkrarlanan hissə) “ər-Rəhman” surəsindədir.

Bu surədə “فَبِأَىِّ ءَالَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ” ayəsi 31 dəfə təkrarlanmışdır. Ayənin mənası belədir: “Rəbbinizin hansı bir nemətini inkar edirsiniz?

“رَبِّكُمَا” ifadəsində “كُمَا” əvəzliyində insanlar və cinlər nəzərdə tutulur. Bu ayəni oxuduqda bu cümləni deməк ənənədir:

لَا بِشَیْءٍ مِنْ ءَالَائِكَ رَبُّنَا نُكَذِّبُ.

“Ey Rəbbimiz, Sənin heç bir nemətini inkar etmirik.”

Yaxud bu cümlə deyilir:

وَ لَا بِشَیْءٍ مِنْ نِعَمِكَ رَبُّنَا نُكَذِّبُ، فَلَكَ الْحَمْدُ.

“Ey Rəbbimiz, Sənin heç bir nemətini inkar etmirik, həmd-səna Sənə məxsusdur.”

**35.** Qurani-Kərimdə daha iki tərcibənd “Qəmər” surəsindədir. Biri bu ayədir:

فَكَيْفَ كَانَ عَذَابِی وَ نُذُرِ.

“Mənim əzabım və hədələrim necə idi?”

Bu ayə üç dəfə təkrar olunmuşdur. Digəri isə aşağıdakı ayədir:

وَ لَقَدْ يَسَّرْنَا الْقُرْءَانَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ.

“Həqiqətən Biz Quranı öyüd-nəsihət üçün asan və anlaşılan etdik, elə isə öyüd-nəsihət götürən varmı?”

Bu ayə dörd dəfə təkrar olunmuşdur.

**36.** Qurani-Kərimdə başqa bir tərcibənd “Mursəlat” surəsindədir:

وَيْلٌ يَوْمَئِذٍ لِلْمُكَذِّبِينَ.

“O gün vay halına təkzib edənlərin!”

Bu ayə on dəfə təkrarlanmışdır.

**37.** Quranda vacib və müstəhəb səcdə ayələri bir yerdə on beş ayədir. Bu ayələrdən dördündə vacib səcdə vardır. Belə ki, bu ayəni oxuduqda və ya eşitdikdə səcdə etmək vacibdir. Bu dörd ayənin yerləşdiyi surələr “Əzaim” adlanır və aşağıdakılardan ibarətdir:

Səcdə, Fussilət, Nəcm, Ələq.

**38.** “Qələm” surəsinin 5152--ci ayələri:

وَ إِنْ يَكَادُ الَّذِينَ كَفَرُوا لَيُزْلِقُونَكَ بِأَبْصَارِهِمْ لَمَّا سِمِعُوا الذِّكْرَ وَ يَقُولُونَ إِنَّهُ لَمَجْنُونٌ. وَ مَا هُوَ إِلَّا ذِكْرٌ لِلْعَالَمِينَ.

“Az qalırdı ki, kafirlər Quranı eşitdikləri zaman gözləri ilə sənə ziyan yetirsinlər. Onlar dedilər: “O, bir divanədir.” Halbuki, bu, aləmlərə öyüd-nəsihətdən başqa bir şey deyildir.”

Təfsirçilər bu  şərhində demişləriki ayənin:

Bir dəstə kafir göz ilə insana və heyvana ziyan yetirə bilən Bəni-Əsəd tayfasından bir neçə mahir bədnəzər insanı gətirdilər ki, Həzrət Rəsulallaha (s) gözləri ilə təsir göstərib ona ziyan yetirsinlər. Lakin Allah o həzrəti qorudu və bu

ayə həmin hadisə ilə bağlı nazil oldu. Həsən Bəsri və başqaları demişlər ki, bu ayəni oxumaq və ya yazıb üstündə gəzdirmək bədnəzəri qaytarmaqda təsirlidir. Buna görə də bu ayələr yazılıb uşaqların boynundan da asılır.

**39.** Qurani-Kərimdə 25 Allah peyğəmbərinin adı çəkilib və onların öz qövmlərini tövhidə, yaxşı əməllərə çağırışı hekayəti geniş və ya qısa şəkildə bəyan olunub. Bu peyğəmbərlərin adları aşağıdakıladır:

Adəm (ə), İbrahim (ə), İdris (ə), İshaq (ə), İsrail (Yaqub) (ə), İsmail (ə), İlyas (ə), əl-Yəsə (ə), Əyyub (ə), Davud (ə), Zul-Kifl (ə), Zəkəriyya (ə), Süleyman (ə), Şueyb (ə), Saleh (ə), İsa (ə), Lut (ə), Məhəmməd (s), Musa (ə), Nuh (ə), Harun (ə), Hud (ə), Yəhya (ə), Yusuf (ə), Yunus (ə).

**40.** Qurani-Kərimdə işlənən xüsusi adlar aşağıdakılardır:

1) Bu adlar bəzən kişi adlarıdır, məsələn: Zul-Qərneyn, Şueyb, İbrahim;

2) Bu adlar bəzən qadın adlarıdır, məsələn: Məryəm, Züleyxa;

3) Bu adlar bəzən coğrafi məntəqə adlarıdır, məsələn: Misir, Mədyən, Məkkə, Mədinə;

4) Bu adlar bəzən döyüş adlarıdır, məsələn: Bədr, Huneyn;

5) Bu adlar bəzən qövm və tayfa adlarıdır, məsələn: ərəb, Ad və Səmud, Yəcuc və Məcuc;

6) Bu adlar bəzən mələklərin adlarıdır, məsələn: Cəbrail, Mikail, Mələkul-mout, Cəhənnəmin Maliki, Harut və Marut;

7) Bu adlar bəzən küfr ilahlarının və bütlərin adlarıdır, məsələn: Uzza, Lat, Mənat, Vudd, Siva, Yəuq;

8) Bu adlar bəzən küfr başçılarının adlarıdır, məsələn: Firon, Samiri, Qarun;

9) Bu adlar bəzən qeybi varlıqların adlarıdır, məsələn: Cənnət, Cəhənnəm, Səlsəbil, Kövsər;

10) Bu adlar bəzən səmavi kitabların adlarıdır, məsələn: Zəbur, Tövrat, İncil, Quran.

**41.** Görəsən Quranda "ğəss və səmin" varmı? Bu məsələ qədimdən bəri quranşünaslar və Quran tədqiqatçıları arasında mübahisəli məsələlərdən biri olmuşdur. Qədim alimlər arasında bu suala qətiyyətlə müsbət cavab verən alim İmam Məhəmməd Ğəzali olmuşdur. O, Qurani-Kərimdə "ğəss və səmin"in olduğunu qəbul edib öz səliqəsi ilə Quranın üstün ayələrini seçib bir kitab qələmə almışdır. "Cəvahirul-Quran" adlanan bu kitabda 1400 ayə (Quran ayələrinin təxminən dörddə birindən bir qədər az) seçilib yazılmışdır.

Bu zəmində diqqətiçəkən bir məqam budur ki, şairi bilinməyən iki beytdən ibarət farsça bir şeir qədim alimlərdən bizə gəlib çatmışdır. Bu iki beytin qədimliyi barədə bunu qeyd etmək kifayətdir ki, "Əcaibul-məqdur fi əxbari-Təymur" adlı kitabın müəllifi (kitab ərəb dilindədir) İbn Ərəbşah (Əhməd ibn

Məhəmməd, h.q. 791854-) fars dilində olan bu beytləri eyni vəzndə və eyni qafiyədə ərəb dilinə çevirmişdir. Biz burada bu şeirin həm farscasını, həm ərəbcəsini qeyd edirik:

***Farscası:***

در بیان و در فصاحت کی بود یکسان سخن
گـرچه گوینده بود چون جاحظ و جون اصمعی

در کلام ایزد بیچون که وحی مُنزلست
کی بود تبت یدا مانند یا ارض ابلعی

***Ərəbcəsi:***

ما استوى فى موقف الإفصاح منطيق و لو
قد سحبا سحب سحبان و اصمى أصمعى

فافتكر فيما ترى فى منزل أعيى الورى
هل ترى تبت تحاذى قيل يا ارض ابلعى

("Teymurun heyrətdoğuran həyatı", Məhəmmədəli Nəcatinin tərcüməsi, s.337.)

**42.** Qiraət elminin alimləri olan "yeddi qari" (قُرَّاء سَبْعَة) bunlardır:

1- Abdullah ibn Amir Dəməşqi (h.q. 212- ;(118- Abdullah ibn Kəsir Məkki (h.q. 453- ;(120- Asim ibn Əbin-Nucud (h.q. 764- ;(128- Zəbban ibn \`Əla və ya Əbu Əmr Bəsri (h.q. 685- ;(154- Həmzə ibn Həbib Kufi (h.q. 806- ;(156- Nafi ibn Abdullah Mədəni (h.q. 707- ;(169- Əli ibn Həmzə Kəsai (h.q.119189-).

**43.** Qurani-Kərimdə qeyd olunduğu kimi Quranda "mütəşabihlər" vardır ("Ali-İmran" surəsi, 7-ci ayə). Yəni elə ayələr və ifadələr vardır ki, onların zahiri mənası əsas götürülə bilməz və götürülməməlidir. Məsələn, bu ifadə: "Allahın ərşi suyun üzərində idi." Mütəşabihlərin müqabilində "möhkəm ayələr" dayanır və bunlar Quranın böyük hissəsini təşkil edir. "Möhkəm ayələr"in mənası onların zahirindən əldə olunur. Məsələn, bu ayə: "Analar övladlarına tam iki il süd verməlidirlər." ("Bəqərə" surəsi, 233-cü ayə.) Qurani-Kərimin 6236 ayəsi arasında təxminən 200 ayə mütəşabih ayədir. Mütəşabihləri təvil etmək, yəni mənalandırmaq icazəlidir və hətta lazımdır. Bu iş "elmdə və imanda qüvvətli olanlar"ın vəzifəsidir və buna yalnız onların səlahiyyəti çatır.

**44.** Quranın təvilini yalnız Allah bilirmi? Bu sualın cavabı əhli-sünnə və şiə təfsirçiləri və quranşünasları arasında mübahisəli mövzulardan biridir. Bu

mübahisənin mənbəyi isə “Ali-İmran” surəsinin 7-ci ayəsidir. Bu ayədə bəyan olunur ki, Quranda kitabın əsasını təşkil edən “möhkəm ayələr”, həmçinin “mütəşabih ayələr” vardır. Qəlblərində əyrilik və dönüklük olanlar “mütəşabih ayələri” öz istədikləri kimi mənalandırırlar. Ayənin davamında buyurulur:

... وَ مَا يَعْلَمُ تَأْوِيلَهُ إِلَّا اللهُ وَ الرَّاسِخُونَ فِى الْعِلْمِ ...

Bu cümlə həm ərəb qrammatikası baxımından, həm də bəlağət baxımından iki cür oxuna bilər:

1- “الله” sözündən sonra vəqf etmək: Bu qiraət əksər əhli-sünnə qariləri və alimlərinin qiraətidir. Əlbəttə, az sayda əhli-sünnə alimləri, o cümlədən, Zəməxşəri, Qazi Əbdul-Cəbbar Həmədani, Əbus-Suud İmadi, Alusi, Qazi Beyzavi və hətta böyük dilçi alimlər olan Nəhhas, Ukbəri və Mahmud Safi bu qiraəti qəbul etmirlər.

2- “الله” sözünü bağlayıcı ilə “الرَّاسِخُونَ فِى الْعِلْمِ” ifadəsinə birləşdirmək: Bu qiraət demək olar ki, bütün siə qariləri və alimlərinin qiraətidir. Əlbəttə, yuxarıda adlarını sadaladığımız az sayda əhli-sünnə alimləri bu qiraəti qəbul edirlər.

Bəli, bu ayədə “الرَّاسِخُونَ فِى الْعِلْمِ” - “elmdə qüvvətli olanlar” təriflənir, yəni onlar Quranın təvilini bilir. Əgər Allahdan başqa heç kim Quranın mütəşabihlərinin təvilini bilməsə, onda Quran bir müəmmaya çevrilər və nəticədə “Quran sahibi”nin bu kitabı göndərməkdə olan məqsədi gerçəkləşməz. Deyə bilmərik ki, hətta Həzrət Rəsulallah (s) və Məsum İmamlar (ə) Quranın təvilini bilmirdirlər.

Beləliklə, əvvəldə qeyd etdiyimiz sualın cavabında deyirik: Bəli, “الرَّاسِخُونَ فِى الْعِلْمِ” Quranın mütəşabihlərinin təvilini bilir və buna səlahiyyətləri çatır. “الرَّاسِخُونَ فِى الْعِلْمِ” birinci növbədə Məsumlardır (ə). Onlar buyurmuşlar ki, biz “الرَّاسِخُونَ فِى الْعِلْمِ”, yəni “elmdə qüvvətli olanlarıq”, buna görə də Quranın təvilini bilirik. Məsumlardan (ə) sonra böyük alimlər və quranşünaslar Quranın mütəşabihlərini təvil etmək səlahiyyətinə malikdirlər.

**45.** Qurani-Kərim müxtəlif şəkillərdə və üslublarda yazılmış və çap edilmişdir. Qədim əsrlərdə Quranı gözəl xətlə yazan ən tanınmış xəttatlar İbn Məqlə (suls xəttini yaradan), İbn Bəvvab və Yaqut Mustə`səmidir. Yeni əsrlərdə isə ən tanınmış xəttat Əhməd Neyrizidir. Onun yazdığı mushəflərdən biri hal-hazırda “Qurani-mustəz`əfin” adı ilə çap olunur. İslam dünyasında müasir dövrün ən tanınmış xəttatı milliyyətcə türk olan Hamid əl-Amidir. Digəri isə suriyalı xəttat Osman Tahadır.

Qurani-Kərim müxtəlif ölçülərdə yazılmış və çap edilmişdir. Quran bütünlükdə hətta bir qazet vərəqi ölçüsündə olan bir səhifədə yazılıb çap edilmişdir. Təbii ki, bu ölçüdə Quran yazıları olduqca kiçikdir və böyüdücü şüşə vasitəsi ilə oxunur. Qurani-Kərim həmçinin kiçik ölçüdə - 1sm x 2 sm ölçüsündə çap edilmişdir. Böyük ölçüdə yazılan Quranlardan birini isə Teymuri şahzadəsi Baysinqur Mirza (h.q.

802838-) yazmışdır. Bəziləri onun yazı xəttinin suls olduğunu desələr də, lakin bu Quran “muhəqqəq” xətti ilə yazılmışdır. Onun ölçüsü 1m x 0,5 m olmuşdur. Bu mushəf Quranın ən gözəl xətlə yazılan mushəflərindən biri və incəsənət əsəri olmuşdur. Deyilənlərə görə, bu mushəf uzun müddət Şirazın “Quran darvazası”nda qorunub saxlanılmış, lakin məsuliyyətsiz insanların ucbatından qarətçilər tərəfindən vərəq-vərəq edilərək müxtəlif məntəqələrə səpələnmişdir. Hal-hazırda onun vərəqlərinin çoxu dünyanın tanınmış muzeylərində qorunub saxlanılır.

**46.** Quranın ilk çapı Paqanini vasitəsilə Venesiyada milad təqvimi ilə 1503-1523-cü illər arasında çap edilmişdir. Qurani-Kərimin digər mühüm çapları bunlardır: İbraham Henkelman çapı m. 1694-cü il (Hamburg); Flogel çapı m.1834-cü il (Laypezik); Sankt-Peterburq çapı m. 1778-ci il (bu çap müsəlmanlar üçün olan ilk çapdır); Təbriz çapı h.q. 1242-ci il və ya 1244-cü il.

İslam dünyasında Qurani-Kərimin ilk elmi və düzəliş aparılmış çapı Qahirə mushəfidir. Bu mushəfin çapı h.q. 1343-cü ildə (miladi təqvimi ilə 1923-cü ildə) əl-Əzhər universitetinin görkəmli ustadlarının nəzarəti altında birinci Məlik Fuadın himayəsi ilə həyata keçmişdir. Bu mushəf, Qurana xas olan yazı xəttində yazılmış ən mötəbər kitabların və Qurana xas olan qiraətlərin əsasında - “Həfsin Asimdən hədisi” meyar götürülərək - qələmə alınmışdır. Hal-hazırda İslam dünyasının rəsmi və geniş yayılan mushəfi olan Mədinə mushəfi Qahirə mushəfinə əsaslanır və mahir suriyalı xəttat Osman Tahanın qələmi ilə yazılmışdır.

**47.** Qurani-Kərimin fars dilinə ən qədim tərcüməsi Həzrət Rəsulallahın (s) dövrünə təsadüf edir. Belə ki, o Həzrətin (s) müxtəlif məntəqələrin padşahlarına, o cümlədən, Nəcaşi, Məquqəs və Xosrov Pərvizə göndərdiyi məktublarda Quran ayələri də yazılırdı. Təbii ki, məktubun mətni Quran ayələri ilə birlikdə tərcümə edilib padşahların nəzərinə çatdırılırdı. Həzrət Rəsulallah (s) da bu tərcümələrdən xəbərdar olurdu və buna etiraz bildirmirdi. Bundan əlavə, bir dəstə iranlı Salman Farsidən “Həmd” surəsini (həmçinin bir sıra Quran ayələrini) onlar üçün tərcümə etməsini istəmişdilər. Salman Farsi də bu işi görmüş, o cümlədən, “Bismilləhir Rahmənir Rahim” ayəsini belə tərcümə etmişdi: “Bağışlayan Yəzdanın adı ilə”. Həzrət Rəsulallah (s) da bu məsələdən xəbərdar idi və buna heç bir etiraz bildirməmişdi. Sonrakı dövrlərdə də müsəlman millətlər arasında iranlılar Qurani-Kərimi öz ana dillərinə tərcümə edən ilk millət olmuşlar. Dr. Əli Rəvaqinin böyük səyi ilə “Qurani-Quds” kəşf olunmamışdan və onun üzərində düzəlişlər aparılmamışdan qabaq, “Təbərinin təfsiri” əsərinin tərcüməsi – belə ki, burada Quran ayələri də tərcümə edilmişdi – Qurani-Kərimin fars dilinə olan ən qədim tərcüməsi hesab edilirdi. Lakin “Qurani-Quds”in tərcüməsi bundan daha qədimdir və h.q. 250350- illər arasındakı dövrə aiddir.

**48.** Qurani-Kərimin türk dilinə olan tərcüməsinin h.q. 734-cü ilə aid olan bir nüsxəsi İstanbulun "Türk-İslam incəsənət muzeyi"ndə qorunub saxlanılır. Bu tərcümə Qurani-Kərimin türk dilinə olan ən qədim tərcüməsi hesab edilir.

**49.** Qurani-Kərimin ordu dilinə (Hindistan, Pakistan əhalisinin dili) olan ilk tərcüməsi Mövlanaşah Rəfiuddin Dehləvinin tərcüməsidir (h.q. 1190-cı il). Lakin Dehləvidən sonra ordudillilər dörd əsr ərzində Quranın tərcüməsi və təfsiri sahəsində nəfis əsərlər qələmə almışlar ki, onların sayı min əsərdən çoxdur.

**50.** Qurani-Kərimin latın dilinə ilk tərcüməsini Robert Ketuni (Robertos Kontenenses) miladi təqvimi ilə 1143-cü ildə qələmə almışdır. Bu tərcümə əsrlər sonra Martin Lüterin icazəsi ilə çap edilmişdir.

**51.** Qurani-Kərim avropa dilləri arasında ən çox ingilis dilinə tərcümə edilmişdir. Hal-hazırda ingilis dilinə Quranın kamil nüsxəsinin 40-dan çox tərcüməsi, bəzi surə və ayələrinin isə 120-dən çox tərcüməsi mövcuddur. Quranın kamil nüsxəsini ingilis dilinə ilk dəfə Aleksandr Ras miladi 1648-ci ildə Quranın fransız dilinə olan tərcüməsindən tərcümə etmişdir. Qeyri-müsəlmanlar arasında ən yaxşı tərcümə Artur Arberinin tərcüməsidir. Müsəlman tərcüməçiləri arasında isə ən yaxşı tərcümə Piktal və Abdullah Yusuf Əlinin tərcüməsidir.

**52.** Qurani-Kərimin fransız dilinə olan ən yaxşı tərcüməsi Kazimerski və Blaşrın tərcüməsidir.

**53**. Qurani-Kərimin alman dilinə olan ən yaxşı tərcüməsi Heningin və son dövrdə şərh və "vajenamə" (sözlərin izahlı lüğəti) ilə birlikdə olan Rudi Paretin tərcüməsidir.

**54.** Qurani-Kərimin rus dilinə olan ən yaxşı tərcümələrindən biri Kraçkovskinin tərcüməsidir. Son illərdə isə professor Osmanovun tərcüməsini yaxşı tərcümələrindən biri hesab etmək olar.

**55.** Qurani-Kərimin ilk müfəssiri Həzrət Rəsulallahdır (s). O həzrətin təfsirlərindən bəzi nümunələri surə ardıcıllığı ilə Siyuti "əl-İtqan" əsərində qeyd etmişdir. Həmçinin o həzrətin buyurduğu bir sıra hədislərdə bir çox Quran ayələrinin mənaları açıqlanmışdır ki, belə hədislər təfsir hədisləri adlanır.

**56.** Həzrət Rəsulallahdan (s) sonra İslamın zühur etdiyi ilk dövrdə müsəlmanlar arasında ən böyük quranşünas və müfəssir Həzrət Əli ibn Əbu Talib (ə) olmuşdur. O, and içərək buyurmuşdur ki, əgər istəsəm, "Həmd" surəsini 70 dəvənin yükü qədər kitab həcmində təfsir edərəm. Həzrət Əli (ə) Quran hafizi və vəhy katibi olmuşdur. O, Həzrət Rəsulallahın (s) vəfatından sonra Qurani-Kərimi bir həftədən az bir müddət ərzində bir yerə toplamış və müsəlmanlara təqdim etmişdir. Lakin onun mushəfində bəzi izahlar və təfsirlər olduğundan, məsələn, Quranda adı açıqlanmayan münafiqlərin adlarını açıq şəkildə qeyd etdiyindən və bu kimi başqa mətləblərə toxunduğundan nüzul

tərtibi ilə olan bu nüsxə dövrün hakimiyyəti tərəfindən qəbul edilmədi. Əvvəlcə Həzrət Əli (ə) bu rəftardan narahat olsa da, lakin sonra xəlifə Osmanın dövründə "imam mushəf"in yığılması və tərtib olunması işində Zeyd ibn Sabitin başçılığı altında olan heyətin böyük diqqət və ehtiyatını görüb onların mushəfini qəbul etdi və öz mushəfini üzə çıxarmayıb buyurdu: "Əgər Osmanın öhdəsinə düşən bu məsuliyyət mənim öhdəmə düşsəydi, mən də Qurani-Kərimin yığılıb tərtib edilməsində elə bu işləri görərdim."

**57**. Həzrət Rəsulallah (s) və İmam Əlidən (ə) sonra İslamın ilk əsrinin ən böyük quranşünası hörmətli səhabə və İmam Əlinin (ə) şagirdi olan Abdullah ibn Abbas olmuşdur. "Təbərinin təfsiri"ndə yer alan İbn Abbasın təfsir zəminində olan bəyanlarını "Qamus" əsərinin sahibi Firuzabadinin böyük səyi ilə "Tənvirul-miqbas fi təfsiri İbn Abbas" adı altında ayrıca bir kitabda yığılmış və hazırkı dövrdə çap edilmişdir.

**58**. İbn Abbasdan sonra onun böyük şagirdi Mücahid tanınmış müfəssirdir. Deyilənə görə o, İbn Abbasın təfsir dərslərində Qurani-Kərimi 30 dəfə xətm etmişdir. Həmçinin deyilənə görə o, İmam Əlinin (ə) də şagirdi olmuşdur. Son illərdə onun təfsiri iki cilddə çap edilmişdir.

**59**. İslam dünyasının ən mühüm və qədim təfsir əsəri böyük tarixçi və hədisçi olan iran mənsubiyyətli Təbərinin təfsir əsəridir (vəfat tarixi: h.q. 310-cu il). Onun bu əsəri "Camiul-bəyan" adı ilə tanınmış və 30 cilddə çap edilmişdir.

**60**. Şiələrə mənsub ən qədim təfsir əsəri Əli ibn İbrahim Quminin təfsiridir və bu əsər 2 cilddə çap edilmişdir. Digər bir təfsir əsəri isə Fərat Kufinin əsəridir ki, bu əsər də çap edilmişdir. Qumi və Kufi hicri-qəməri 3-cü əsrin sonları və 4-cü əsrin əvvəllərində yaşayan alimlərdir.

**61**. Fars dilində şiələrə mənsub ən qədim təfsir əsəri Əbul-Futuh Razinin "Rəvzul-cinan və rəvhul-cənan" adlı təfsir əsəridir (vəfat tarixi: h.q. 6-ci əsrin birinci yarısı). Bu təfsir əsəri 20 cilddədir. Ötən əsrdə Əllamə Qəzvini, mərhum Qumşei, mərhum Şi`ranin böyük zəhmətləri, son dövrdə isə Dr. Məhəmmədcəfər Yahəqqi və Dr. Mehdi Nasihin səyi ilə çapa hazırlanaraq nəşr edilmişdir.

**62**. Fars dilində olan ən qədim irfani təfsir Rəşidəddin Əbulfəzl Meybodinin "Kəşful-əsrar və uddətul-əbrar" əsəridir (vəfat tarixi: h.q. 520-ci il). O, bu əsəri Xacə Abdullah Ənsarinin təfsir "Əmali"sinə istinadən qələmə almışdır.

**63**. Mötəzilə firqəsinin ən mühüm təfsir əsəri Zəməxşərinin "Kəşşaf" əsəridir (vəfat tarixi: h.q. 538-ci il).

**64**. Əş`əri firqəsinə mənsub ən mühüm kəlami təfsir İmam Fəxr Razinin "Kəbir" təfsiridir (vəfat tarixi: h.q. 606-cı il). Bu təfsir 30 cilddən çoxdur.

**65**. İmamiyyə şiələrinə mənsub ən geniş və qədim təfsir Əbu Əli Əminul-İslam Fəzl ibn Həsən Təbərsinin "Məcməul-bəyan" adlı təfsir əsəridir (vəfat

tarixi: h.q. 548-ci il). Bu təfsir ərəb dilindədir və fars dilinə də tərcümə olunmuşdur.

**66**. Hicri-qəməri 14-cü əsrdə şiənin ən mühüm təfsir əsəri Əllamə Təbatəbainin "əl-Mizan" əsəridir (vəfat tarixi: h.ş 1361-ci il). Bu əsər ərəb dilində və 20 cilddədir, fars dilinə də tərcümə edilibdir.

**67**. İslam dünyasının (əhli-sünnə alimləri arasında) ən mühüm yeni təfsir əsəri Ustad Zuheylinin qələmə aldığı "ət-Təfsirul-munir" əsəridir (32 cilddən ibarətdir və h.q. 1411-ci ildə çap edilmişdir). Dr. Zuheyli Suriyanın və islam ölkələrinin əksər universitetlərində fiqh ustadıdır.

**68**. "Qurani-Kərimin ədəd möcüzəsi" Quran araşdırmaları sahəsində yeni sahələrdən biridir. Burada məqsəd Qurani-Kərimdə möcüzəvi bir ədədi nəzmin mövcud olduğunu göstərməkdir. İlk dəfə bu məsələni ortaya çəkən və dünya müsəlmanlarını heyrətləndirən şəxs misirli olan Amerika universitetlərində kompyuter müəllimi Dr. Rəşad Xəlifə olmuşdur. O, 19 ədədinin fərziyyəsini ortaya çəkdi. Belə ki, "بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم" (Bismilləhir Rahmənir Rahim) cümləsində 19 hərf vardır, "اسْم" sözü Quranda 19 dəfə işlənmişdir, "اللهِ" sözü Quranda 2698 dəfə işlənmişdir və bu, 19x142-nin hasilidir, "الرَّحْمنِ" sözü 57 dəfə işlənmiş və bu, 19x3-ün hasilidir, "الرَّحِيم" sözü 114 dəfə işlənmişdir və bu, 19x6-nın hasilidir. Lakin Dr. Rəşad Xəlifənin nəzəriyyəsi iki cəhətdən səs-küyə səbəb oldu:

Birinci cəhət budur ki, Quranda 19 ədədi cəhənnəm gözətçilərinin sayıdır (عَلَيْهَا تِسْعَة عشر). Bu, bir çətinlik törətmir, lakin 19 ədədi babilərin və bəhailərin müqəddəs ədədidir. Odur ki, müsəlmanlar bu nəzəriyyədən hiddətləndilər və bu hiddət Dr. Rəşad Xəlifənin teroru və ya qətlə yetirilməsi ilə nəticələndi.

Digər cəhət isə budur ki, onun göstərdiyi bəzi ədədlərdə müdaxilə izləri görünür. O cümlədən, Quranın söz və ifadələrinin ən dəqiq sayını əks etdirən lüğətlərdən[1] iranlı böyük Quran tədqiqatçısı Dr. Mahmud Ruhani Quranda "Allah" sözünün neçə dəfə işləndiyi üzərində dəqiq araşdırma aparmış və qeyd etmişdir ki, bu söz Quranda 2699 dəfə işlənib. Bu ədəd ilə Dr. Rəşad Xəlifənin göstərdiyi ədəd arasında bir vahid fərq vardır, Məhəmməd Fuad Əbdul-Baqinin "əl-Mu`cəmul-mufəhris" adlı lüğətində isə göstərilən ədəd arasında isə 2 vahid fərq vardır.

**69.** Lakin Dr. Rəşad Xəlifənin açdığı bu yolu başqaları, o cümlədən, sünni Quran tədqiqatçısı Əbdur-Rəzzaq Nofəl və şiə Quran tədqiqatçısı Əbu Zəhra ən-Nəcdi davam etdirdilər, onlar təəccübdoğuran ədədlər və hesablamalar ortaya qoydular. Əbur-Rəzzaq Nofəlin "Qurani-Kərimdə ədəd möcüzəsi" adlı əsərindəki bir sıra ədədlərə nəzər salaq:

- Qurani-Kərimdə "dünya" 115 dəfə işlənmişdir və axirət sözü də eyni sayda işlənmişdir;

[1] Ferhəng-e amariye kələmat-e Qurani-Kərim, 3 cilddə.

- “Şeytanlar” sözü 68 dəfə və “mələklər” sözü də eyni sayda işlənmişdir;

- “Həyat” sözü 71 dəfə, “ölüm” sözü də eyni sayda işlənmişdir;

- “Elm və mərifət”, eləcə də, bu sözlərdən düzələn sözlər 811 dəfə, “iman” və ondan düzələn sözlər də eyni sayda işlənmişdir;

- “İblis” sözü 11 dəfə, şeytandan Allaha sığınmaq mənasını bildirən “istiazə” sözü də eyni sayda işlənmişdir;

- “Gün” sözü (tək halda) ilin günlərinin sayı qədər, yəni 365 dəfə, cəm halda isə ayın günlərinin sayı qədər, yəni 30 dəfə işlənmişdir;

- “Ay” sözü ilin aylarının sayı qədər, yəni 12 dəfə işlənmişdir.

**70.** Şiə Quran tədqiqatçısı olan Əbu Zəhra ən-Nəcdinin kitabının adı “Minəl-icazil-bəlaği vəl-ədədi lil-Quranil-Kərim”dir. Adından göründüyü kimi, bu kitab ərəb dilindədir. Baxmayaraq ki, bu əsər ədəd möcüzələri baxımından Dr. Rəşad Xəlifə və Əbdur-Rəzzaq Nofəlin kitabından geridə qalır, lakin burada həmin kitabdan bəzi məqamları nəzərinizə çatdırırıq:

- Qurani-Kərimdə “saat” sözü 24 dəfə işlənmişdir və bu, bir sutkanın saatları sayındadır;

- “Yeddi göy” ifadəsi 7 dəfə işlənmişdir;

- “Səcdə” sözü və ondan düzələn sözlər 34 dəfə işlənmişdir və bu, gündəlik 17 rəkət vacib namazların səcdələrinin sayı qədərdir;

- “Vəsi” sözü və ondan düzələn sözlər 12 dəfə işlənmişdir və bu, 12 ilahi vəsinin sayı qədərdir;

- “Firqə” sözü 72 dəfə işlənmişdir və bu, islami firqələrin sayı qədərdir.

Sonda bu məqama toxunmaq istərdik ki, bu kimi araşdırmalar elmi dəyərə malik deyil və sadəcə müəyyən diqqət və hesablama tələb edir.

***Onuncu hissənin sualları:***

**1.** Quran surələrinin “rukuat”a bölünməsi nə deməkdir və bu bölgü hansı meyar əsasında aparılır?

**2.** Quranda xüsusi isimlərin beş qrupunu sadalayın.

**3.** “Zəhravəyn”, “qərinətəyn”, “hamidat” və “musəbbəhat” hansı surələrə deyilir?

**4.** Qurani-Kərimin ingilis, fransız və alman dillərinə olan ən yaxşı tərcümələrinin adını qeyd edin.

**5.** Quranın “tərcibənd”ə malik olan surələrinin adını deyin və təkrar olunan ayələri qeyd edin.

**6.** Şiənin ən qədim ərəb və fars dilində olan təfsir kitablarının adını deyin.

**7.** Son əsrdə qələmə alınan şiə və əhli-sünnə təfsir kitabları arasında ən mühümlərinin adını çəkin.

**8.** Nəqli, irfani və kəlami təfsirlərin hər birinə bir nümunə göstərin.

**9.** Həzrət Peyğəmbərdən (s) sonra müsəlmanlar arasında ən böyük quranşünaslar kimlər olmuşdur?

**10.** Quranın ədəd möcüzəsi barədə nə bilirsiniz? İzah edin.

***Araşdırma üçün sual:***

Qurana aid üç başqa mətləb təqdim edin.

## İstifadə olunan ədəbiyyat:


1) Qurani-məcid: Məhəmmədməhdi Fuladməndin tərcüməsi, Tehran, İslam tarixi və maarifi araşdırmalar mərkəzi, h.q. 1415-ci il, h.ş. 1373-cü il.

2) Aşenayi ba Ulumi-Quran (Quran elmləri ilə tanışlıq): Əliəsğər Hələbi, Tehran, Əsatir, h.ş. 1369-cu il.

3) Afərineş-e hunəri dər Quran (Quranda incəsənət yaradıcılığı): Seyid Qutb, Məhəmmədməhdi Fuladməndin tərcüməsi.

4) Alaur-Rəhman: Məhəmmədcavad Bəlaği, Beyrut, Ərəb ədəbi irsinin dirçəldilməsi mərkəzi.

5) əl-Əbanətu ən məanil-qiraat: Məkki ibn Əbu Talib, Əbdul-Fəttah Şələbinin araşdırması, h.q. 1405-ci il, miladi 1985-ci il.

6) əl-İtqan fi Ulumil-Quran: Cəlaləddin Əbdur-Rəhman Əbu Bəkr Siyuti, Dəməşq, Beyrut İbn Kəsir mərkəzi, h.q. 1414-cü il.

7) Əsbabun-nuzul: Cəlaləddin Siyuti, Beyrut, əl-Həcərə mərkəzi, h.q. 1410-cu il, miladi 1990-ci il.

8) Əsbabun-nuzul: Əli ibn Əhməd Vahidi Nişapuri, İman Saleh Şəbanın tədqiqatı, Qahirə, əl-Hədis mərkəzi.

9) Usuli-kafi: Məhəmməd ibn Yaqub Kuleyni, Əliəkbər Qəffarinin düzəlişləri əsasında.

10) E`cazul-Quran: Mustafa Rafe`i, Beyrut.

11) Biharul-ənvar: Məhəmmədbaqir Məclisi, Beyrut, əl-Vəfa, h.q.1403-cü il, miladi 1983-ci il.

12) əl-Burhan fi Ulumil-Quran: Məhəmməd ibn Bəhadur Abdullah Zərkeşi, Əbdur-Rəhman Mər`əşəli, Həmdi Zəhəbi və İbrahim Abdullah Kurdinin tədqiqatı, Beyrut, əl-Mə`rifə mərkəzi, h.q. 1410-cu il, miladi 1990-cı il.

13) əl-Bəyan fi təfsiril-Quran: Əbul-Qasim Xoi, Tehran, Ənvarul-huda, h.q. 1401-ci il, miladi 1981-ci il.

14) Pəjuheşi dər tarix-e Qurani-Kərim (Qurani-Kərimin tarixinin araşdırılması): Məhəmmədbaqir Huccəti, Tehran, İslam mədəniyyətinin yayılması mərkəzi, h.ş. 1365-ci il.

15) Tarixul-Quran: Əbu Abdullah Zəncani, Məhəmməd Əbdur-Rəhimin araşdırması, Dəməşq, əl-Hikmə mərkəzi, h.q. 1410-cu il, miladi 1990-cı il.

16) Tarix-e Quran (Quranın tarixi): Mahmud Ramyar, Tehran, Sepehr, h.ş.1362-ci il.

17) Nümunə təfsiri: Nasir Məkarim Şirazi və alimlər heyəti.
18) ət-Təmhid fi Ulumil-Quran: Məhəmmədhadi Mərifət, Qum, İslami nəşrlər mərkəzi.
19) əl-Təysir fil-qiraatis-səb`: Əbu Əmr Osman ibn Səid Dani, Beyrut, əl-Kitabul-ərəbi mərkəzi.
20) əl-Huccətu fil-qiraatis-səb`: Hüseyn ibn Əhməd ibn Xaləvəyh, Əbdul-Al Salim Mukərrəmin tədqiqatı, Küveyt, ər-Risalə, miladi 1990-cı il.
21) əl-Huccətu lil-qurrais-səb`: Əbu Əli Həsən ibn Əbdul-Qəffar əl-Farsi, Bədrəddin Qəhvəçi və Bəşir Cuveycatinin tədqiqatı, Dəməşq, əl-Məmun lit-turas mərkəzi, h.q. 1404-cü il.
22) Hərəzul-əmani və vəchut-təhani fil-qiraatis-səb`: Qasim ibn Fəyyirə Şatibi, Beyrut, əl-Kitabu nəfis mərkəzi, h.q. 1407-ci il, miladi 1987-ci il.
23) Həqaiqun hammətun houləl-Quranil-Kərim: Cəfər Murtəza Amuli, Qum, İslami nəşrlər mərkəzi, h.q.1410-cu il.
24) Dairətul-maarif-e bozorq-e İslami: Kazim Musəvi Becnəvərdi, Tehran, Dairətul-maarif-e bozorq-e İslami mərkəzi, h.ş. 1372-ci il.
25) Dirasatu Quraniyyə: Məhəmməd Hüseyn Əliyus-səğir, Qum, əl-Ə`lamul-islami kitabxanası, h.q. 1413-cü il.
26) əz-Zəri`ə fi təsanifiş-şiə: Ağabozorg Tehrani.
27) Rouzul-cinan və rouhul-cənan fi təfsiril-Quran: Əbul-Futuh Razi, Məhəm-mədcəfər Yahəqqi və Məhəmmədmehdi Nasihin tədqiqatı, İslami araşdırmalar mərkəzi, h.q. 1371-ci il.
28) Səhih-Buxari: Məhəmməd ibn İsmail ibn İbrahim Buxari, Qasim əş-Şəmai ər-Rufa`inin tədqiqatı, Beyrut, əl-Qələm, h.q. 1407-ci il, miladi 1987-ci il.
29) Siyanətul-Quran minət-təhrif: Məhəmmədhadi Mərifət, Qum, İslami nəşrlər mərkəzi, h.q. 1413-cü il.
30) Ulumil-Quran indəl-mufəssirin: Qurani-Kərim mədəniyyəti və maarifi mərkəzi, Qum, İslam təbliğatı nəşrləri mərkəzi, h.ş. 1375-ci il.
31) Ulumi-Quran və fehrest-e mənabe: Əbdul-Vəhhab Taliqani, Qum, əl-Quranil-Kərim mərkəzi, h.ş. 1361-ci il.
32) Ferhəng-e amariye kələmat-e Qurani-Kərim: Mahmud Ruhani, Məşhəd, Astan-e Quds-e Rəzəvi nəşriyyatı, h.ş. 1368-ci il.
33) Fəslul-xitab fi təhrifi kitabi rəbbil-ərbab: Mirza Hüseyn Nuri.
34) Quran-pəjuhi: Bəhauddin Xurrəmşahi, Tehran, Şərq mədəniyyəti nəşrləri mərkəzi, h.ş. 1372-ci il.
35) Quran dər İslam: Əllamə Məhəmmədhüseyn Təbatəbai.

36) Quran-şenaxt: Bəhauddin Xurrəmşahi, Tehran.
37) Qətrei əz dərya (Dənizdən bir damla): Qurani-Kərim sərgisi mərkəzi, Tehran, İslam mədəniyyət və maarif nazirliyi, h.ş. 1373-cü il.
38) əl-Kamil fit-tarix: İbn Əsir, Beyrut, əl-Fikir mərkəzi, h.q. 1399-cu il, miladi 1979-cu il.
39) Kitabus-səb`ə fil-qiraat: Əbu Bəkr Əhməd ibn Musa ibn Mücahid, Dr. Şövqi Zeyfin tədqiqatı, Qahirə, əl-Mə`arif mərkəzi.
40) Kitabul-məsahif: Süleyman ibn Əş`əs əs-Sicistani, Misir, ər-Rəhmaniyyə nəşriyyatı, h.q. 1355-ci il, miladi 1936-cı il.
41) əl-Kəşşaf: Mahmud ibn Ömər Zəməxşəri, Beyrut, əl-Fikir mərkəzi.
42) əl-Kəşfu ən vucuhil-qiraatis-səb` və iləluha və hucəcuha: Məkki ibn Əbu Talib, Muhyiddin Ramazanın tədqiqatı, Beyrut, ər-Risalə, h.q. 1417-ci il.
43) əl-Kunəyyu vəl-əlqab: Şeyx Abbas Qummi, Tehran, əl-Sədr kitabxanası, h.q. 1397-ci il.
44) Məbahisun fi Ulumil-Quran: Dr. Subhi Saleh, Beyrut, əl-Elmu lil-məlayin mərkəzi, miladi 1990-cı il.
45) Məcmə`ul-bəyan: Əminul-İslam Təbərsi, Beyrut, əl-Mərifə mərkəzi, ikinci çap növbəsi, h.q. 1408-ci il, miladi 1988-ci il.
46) əl-Muhtəsəb fi təbyini vucuhil-qiraat və iləluha və hucəcuha: Osman ibn Həni, Muhyiddin Ramazanın tədqiqatı, Beyrut, ər-Risalə, h.q. 1407-ci il.
47) əl-Muhkəm fi nuqətil-məsahif: Əbu Əmr Osman ibn Səid Dani, Beyrut, əl-Kutubul-elmiyyə mərkəzi, h.q. 1405-ci il.
48) Mədxəlut-təfsir: Məhəmməd Fazil Lənkərani, əl-Heydəri nəşriyyatı, h.q. 1396-cı il.
49) Mu`cəmul qiraatil-Quraniyyə: Muxtar Ömər və Əbdul-Al Əhməd Salim Mukərrəm, Tehran, Usvə, h.q. 1412-ci il, miladi 1991-ci il.
50) əl-Mu`cəmul-mufəhris li-əlfazil-Quranil-Kərim: Məhəmmədfuad Əbdul-Baqi, Qahirə, əl-Hədis mərkəzi, h.q. 1411-ci il, miladi 1991-ci il.
51) Mu`cəmu məqayisil-luğət: Əhməd ibn Faris, Əbdus-Səlam Məhəmməd Harunun tədqiqatı, Qum, İslam təbliğatı mərkəzi, h.q. 1404-cü il.
52) Mə`rifətul-qurrail-kibar: Məhəmməd ibn Əhməd ibn Osman Zəhəbi, Bəşşar Əvvad Mərufun tədqiqatı, ər-Risalə, h.q. 1404-cü il, miladi 1984-cü il.
53) Muqəddəmei bər tarix-e qiraat-e Qurani-Kərim: Əbdul-Hadi əl-Fəzli, Seyid Məhəmmədbaqir Hüccətinin tərcüməsi, Tehran, Usvə nəşriyyatı.
54) əl-Mənar: Məhəmməd Rəşid Rza, Tehran, əl-Fikir mərkəzi.

55) Mənahilul-irfan fi Ulumi-Quran: Məhəmməd Əbdul-Əzim Zərqani, Qahirə, İhyaul-kutubil-ərəbiyyə mərkəzi.

56) Mucəzu Ulumil-Quran: Davud əl-Əttar, Tehran, Quranul-Kərim müəssisəsi, h.q. 1403-cü il.

57) əl-Mizan fi təfsiril-Quran: Məhəmmədhüseyn Təbatəbai, Beyrut, əl-Ə`ləmi müəssisəsi, h.q. 1394-cü il, miladi 1974-cü il.

58) Nasixul-Quranil-əziz və mənsuxihi: İbn Barizi, Dr. Hatəm Saleh Zaminin tədqiqatı.

59) ən-Nasix vəl-mənsux: Nəhhas, Dr. Süleyman İbrahimin tədqiqatı, Beyrut, ər-Risalə, miladi 1991-ci il.

60) Nasix və mənsux dər Quran və didqah-e Əllamə: Seyid Möhsin Musəvi, diplom işi.

61) ən-Nəsxu fil-Quranil-Kərim: Dr. Mustafa Zeyd, Beyrut, əl-Fikir mərkəzi, miladi 1987-ci il.

62) ən-Nəşru fil-qiraatil-əşr: Əbul-Xeyir Məhəməd ibn Məhəmməd Cəzri, Beyrut, əl-fikir mərkəzi.

63) Nəhcul-bəlağə: Dr. Subhi Salehin tədqiqatı.

64) Həşt resale-ye ərəbi: Həsən Həsənzadə Amuli.

65) əl-Fihrist: İbn Nədim, Tehran, Ofset çapı.

# *QEYD ÜÇÜN*

# QURAN ELMLƏRİ
## *DƏRSLİYİ*

Texniki redaktor: Elnur ƏHMƏDOV
Bədii redaktor: Fəxri VƏLİYEV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 24.10.2014.
Çapa imzalanmışdır: 12.11.2014.
Nəşrin ölçüsü: 70x100 1/16.
Fiziki çap vərəqi: 21
Sifariş:156/14 Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com